ARİF ŞƏKƏRƏLİYEV,
QOŞQAR ŞƏKƏRƏLİYEV

# AZƏRBAYCAN İQTİSADİYYATI:
## REALLIQLAR VƏ PERSPEKTİVLƏR



**ARİF ŞƏKƏRƏLİYEV,**
**QOŞQAR ŞƏKƏRƏLİYEV**

# AZƏRBAYCAN İQTİSADİYYATI:

## REALLIQLAR VƏ PERSPEKTİVLƏR

**Bakı-2016**

Redaktor: ***i.e.d.prof.*** **M.Ə.Əhmədov**

Rəyçilər: ***i.e.d.prof.*** **Q.N.Manafov**
***i.e.d.prof.*** **Ü.M.Əliyev**

**Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev.**
Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər.
Bakı: «Turxan» NPB, 2016. -536 s.

Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər Kitabda Azərbaycan iqtisadiyyatının formalaşmasında neft amili, ölkədə qeyri-neft sektorunun inkişafı, ölkə iqtisadiyyatına investisiya qoyuluşu və ondan səmərəli istifadə, respublikanın xarici ticarət əlaqələri və gömrük-tarif tənzimlənməsi məsələləri araşdırılır. Həmçinin kitabda Azərbaycanın maliyyə bazarı, dövlət büdcəsi, milli iqtisadiyyatın inkişafında xarici siyasətin rolu, beynəlxalq maliyyə təşkilatları ilə əlaqələr və onun inkişaf perspektivləri tədqiq edilir.

Kitab elmi işçilər, doktorantlar, magistrlər və geniş oxucu kütləsi üçün nəzərədə tutulmuşdur.

ISBN 978-9952-8024-1-2

© Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev, 2016

## MÜNDƏRİCAT

**GIRIŞ** ........................................................................ 7

**I FƏSİL.** Azərbaycan iqtisadiyyatının formalaşmasında neft amili.......................................................... 11

**1.** Milli iqtisadiyyatın formalaşmasında neft amilinin rolu.......................................................... 11

**2.** Neft gəlirlərinin iqtisadiyyatın prioritet sahələrinə yönəldilməsi istiqamətləri........................... 27

**II FƏSİL.** Azərbaycanın qeyri-neft sektorunun inkişafı...... 39

**1.** Milli iqtisadiyyatın inkişafında qeyri-neft sektorunun ixrac potensialından səmərəli istifadənin rolunun artması.................................................. 39

**2.** Ölkə iqtisadiyyatının inkişaf meyilləri və diversifikasiyalaşdırılması problemləri...................... 47

**3.** Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialı və onun qiymətləndirilməsi................... 65

**4.** Azərbaycanın qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi.................................................... 73

**III FƏSİL.** Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu və onun səmərəliliyi............................ 87

**1.** Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və onun səmərəliliyi................ 87

**2.** Azərbaycan Respublikasında iqtisadi islahatlar və onların investisiya fəaliyyətinə təsiri............. 95

**3.** Azərbaycan iqtisadiyyatına xarici investisiyaların tətbiqinin səmərəliliyi və onun təkmilləşdirilməsi istiqamətləri......................................... 106

**IV FƏSİL.** Qeyri-neft sektoruna investisiya qoyuluşu və onun dövlət tənzimlənməsi................................. 119

| | | |
|---|---|---|
| **1.** | Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuluşunun mövcud durumu və onun qiymətləndirilməsi........................................................ | 119 |
| **2.** | Qeyri-neft sektoruna dövlət investisiyaları......... | 126 |
| **3.** | Qeyri-neft sektorunda investisiyalardan istifadənin səmərəsinin yüksəldilməsi və dövlət tənzimlənməsinin təkmilləşdirilməsi........................ | 152 |
| **4.** | Qeyri-neft sektoruna yönəldilmiş investisiyaların səmərəliliyinin yüksəldilməsi istiqamətləri... | 164 |
| **V FƏSİL.** | Azərbaycanın xarici ticarət əlaqələri və onun genişləndirilməsi................................................ | 175 |
| **1.** | Azərbaycanın xarici ticarət əlaqələrinin müasir vəziyyətinin təhlili və onun qiymətləndirilməsi.......... | 175 |
| **2.** | Azərbaycanın xarici ticarət əlaqələrinin tənzimlənməsinin xüsusiyyətləri və problemləri.............. | 194 |
| **3.** | Azərbaycanın DTT ilə qarşılıqlı-faydalı əlaqələrinin formalaşdırılması – xarici ticarət əlaqələrinin tənzimlənməsinin mühüm istiqaməti kimi... | 229 |
| **4.** | Azərbaycanın xarici ticarət strategiyası və onun həyata keçirilməsi............................................... | 236 |
| **5.** | Azərbaycanda xarici ticarət strategiyasının formalaşdırılması xüsusiyyətləri............................. | 246 |
| **6.** | Azərbaycanın xarici ticarət strategiyasının təkmilləşdirilməsi istiqamətləri................................ | 250 |
| **VI FƏSİL.** | Azərbaycan Respublikasının valyuta siyasəti və onun xarici ticarətə təsiri.................................... | 267 |
| **1.** | Azərbaycan Respublikasının xarici ticarət sferasında valyuta tənzimlənməsi və valyuta nəzarəti məsələsi............................................................ | 267 |
| **2.** | Xarici ticarət fəaliyyəti sferasında valyuta tənzimlənməsinin formalaşması.............................. | 278 |
| **3.** | Azərbaycanda valyuta məzənnə siyasətinin xarici ticarətə təsiri................................................. | 285 |
| **VII FƏSİL.** | Gömrük-tarif tənzimlənməsi və onun milli istehsalın inkişafına təsiri...................................... | 295 |

| | | |
|---|---|---|
| **1.** | Xarici iqtisadi fəaliyyətin tənzimlənməsində gömrük siyasətindən istifadənin nəzəri aspektləri | 295 |
| **2.** | Milli istehsalın stimullaşdırılmasında gömrük-tarif tənzimlənməsinin rolu................................ | 318 |
| **3.** | Azərbaycanda gömrük-tarif tənzimlənməsinin milli istehsalın inkişafına təsiri və iqtisadi təhlükəsizlik məsələləri............................................. | 333 |
| **4.** | Daxili bazarın formalaşması və inkişafına gömrük siyasətinin təsiri........................................... | 338 |
| **5.** | Azərbaycanda gömrük-tarif tənzimlənməsinin milli istehsalın inkişafına təsirinin perspektivləri. | 350 |
| | | |
| **VIII FƏSİL.** | Azərbaycanın maliyyə bazarı və onun inkişafı....... | 361 |
| **1.** | Azərbaycanda maliyyə bazarının formalaşması….. | 361 |
| **2.** | Azərbaycanın maliyyə bazarının müasir vəziyyəti və onun qiymətləndirilməsi......................... | 368 |
| **3.** | Maliyyə bazarının inkişaf istiqamətləri............... | 388 |
| **4.** | Azərbaycanda sıgorta bazarının formalaşması və inkişafı......................................................... | 399 |
| | | |
| **IX FƏSİL.** | Azərbaycan Respublikasının Dövlət Büdcəsi..... | 411 |
| **1.** | Dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə edilməsinin təkmilləşdirilməsi....................... | 411 |
| **2.** | Azərbaycanda dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə olunması xüsusiyyətləri............... | 419 |
| **3.** | Dövlət büdcəsi gəlirlərinin strukturunda vergi daxilolmalarının rolu.......................................... | 426 |
| | | |
| **X FƏSIİL.** | Milli iqtisadiyyatın davamlı inkişafında xarici siyasətin rolu.................................................... | 431 |
| **1.** | Davamlı inkişafın təmin edilməsində xarici iqtisadi siyasətin rolu.............................................. | 431 |
| **2.** | Milli iqtisadiyyatın davamlı inkişaf strategiyasının xarici iqtisadi siyasətlə qarşılıqlı əlaqəsi................ | 444 |
| **3.** | Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya məsələləri................................... | 457 |

| | | |
|---|---|---|
| **4.** | Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətliliyi.................................................... | 473 |
| **XI FƏSIİL.** | Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələri və onun pesrpektiv inkişaf istiqamətləri................................................................ | 488 |
| **1.** | Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin inkişafı....................................... | 488 |
| **2.** | Azərbaycanın beynəlxalq maliyyə qurumları ilə qarşılıqlı əlaqələrinin müasir vəziyyəti və onun qiymətləndirilməsi............................................. | 509 |
| **3.** | Azərbaycanın digər beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin mövcud durumu və onun inkiaf istiqamtləri............................................. | 522 |

# GİRİŞ

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir."

***Heydər Əliyev***

*"Azərbaycan düşünülmüş müstəqil siyasət aparır. Biz öz yolumuzla gedirik. Bu yol inkişaf yoludur, tərəqqi yoludur və bu yolda böyük nailiyyətlərə imza atmışıq."*

***İlham Əliyev***

Azərbaycanda həyata keçirilən liberal iqtisadi siyasət, makroiqtisadi və maliyyə sabitliyinin qorunmasının təmin edilməsi, dayanıqlı iqtisadi artımın və iqtisadiyyatın modernləşməsinə dəstək verən siyasətin dərinləşdirilməsi, qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi əldə edilən müsbət nəticələrdir. Respublikanın əldə etdiyi uğurlar dünyanın ən mötəbər reytinq təşkilatları və maliyyə institutlarının hesabatlarında da əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın dünyada neft və qaz ölkəsi kimi tanıyırlar. Bu gün respublikamızda istehsal edilən neft-qaz xalqımızın güzəranının yaxşılaşmasında, onun ictimai-siyasi həyatında böyük rol oynayır. Bu nemət ulu öndər Heydər Əliyevin memarı olduğu neft strategiyasının uğurla həyata keçirilməsi sayəsində ölkəmizdə dinamik inkişafın təmin edilməsi, əhalinin rifahının yaxşılaşması, dünya təsərrufat sisteminə inteqrasiya əlaqələrinin güclənməsi mümkun olmuşdur.

Regionda qlobal enerji layihələrinin təşəbbüskarı və iştirakçısı olan Azərbaycan hazırda bir sıra dünya və Avropa ölkələrinin "mavi yanacaq"la təminatında mühüm rol oynayır. Məlum olduğu kimi, ölkəmizi dünyanın potensial qaz ixracatçılarından birinə "Şahdəniz" yatağı çevirmişdir. "Şahdəniz" yatağının ikinci işlənmə mərhələsinin ölkəmiz üçün əhəmiyyəti olduqca böyükdür. Belə ki, sözügedən mərhələ çərçivəsində hasil edilən daha böyük miqdarda "mavi yanacaq" Azərbaycanın ixrac imkanlarını genişləndirməklə yanaşı, "Şahdəniz" qazının alıcılarının sayının da artmasına səbəb olacaq. Bu da ölkəmi-

zin regionda, eləcə də dünyada strateji tərəfdaş kimi mövqeyini bir qədər də möhkəmləndirəcək.

Azərbaycanın təşəbbüsü və iştirakı ilə TANAP qaz layihəsinin reallaşması olduqca mühüm tarixi hadisə sayıla bilər. Bu layihə ölkəmizin iqtisadi qüdrətinin və dünyadakı siyasi nüfuzunun artmasında önəmli rola malikdir. Azərbaycan Prezidenti İlham Əliyev bu layihənin tarixi rolundan bəhs edərək göstərib ki,:“TANAP layihəsi bizə imkan verəcəkdir ki, Azərbaycan zəngin qaz resurslarını dünya bazaarlarına böyük həcmdə nəql etsin. Hesab edirəm ki, TANAP layihəsi son illər ərzində nəinki ölkəmizdə, regionda, Avropa qitəsində enerji təhlükəsizliyi ilə bağlı olan məsələlər arasında ən böyük addımdır. TANAP layihəsinin təşəbbüskarı da Azərbaycan olmuşdur. Əminəm ki, TANAP layihəsini Azərbaycan öz tərəfdaşları ilə vaxtında icra edəcək və beləliklə, Avropanın enerji xəritəsi böyük dərəcədə dəyişdiriləcəkdir”.

Qeyd etmək lazımdır ki, hazırda qlobal iqtisadi inkişafın gələcəyini müəyyənləşdirən texnologiyalar dünyanın ən aparıcı dövlətlərinin həyata keçirdikləri siyasətdə əsas xətti təşkil edir. Sürətlə yayılmaqda olan informasiya-kommunikasiya texnologiyaları və onların fonunda formalaşaraq yeni inkişaf vüsəti qazanan qloballaşma prosesləri ölkələrin sosial-iqtisadi həyatına birbaşa təsir göstərməkdədir. Təsadüfi deyil ki, artıq dövlətlərin iqtisadi üstünlüyü də məhz texnologiyalara yiyələnməyə, onları mənimsəmə gücünə əsaslanır. Bir sözlə, iqtisadi qüdrəti müəyyən edən meyarların, qazanılan makro və mikro iqtisadi göstəricilərin önündə bu gün məhz həmin ölkələrdə informasiya-kommunikasiya texnologiyalarının tutduğu yer və onun inkişafı dayanır. Texnoloji proseslərin, innovasiyaların insanlara xidmət, şəffaflıq, yenilik baxımından müasir dünyamızın əsas tələbinə çevrildiyi belə bir mühitdə ölkəmiz də qlobal çağırışlardan kənarda qalmayıb.

Ölkəmizdə neft sektoru ilə yanaşı qeyri-neft sektorunun inkişafına xususi diqqət yetirilir. Bu işdə iqtisadi islahatların, regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramlarının həyata keçirilməsi müstəsna rol oynayır. Məhz bunların sayəsində regionlarda sahibkarlıq inkişaf edir, yeni iş yerləri yaradılır.

Hal-hazırda davamlı inkişaf möhkəm təməl üzərində qurulmuşdur və artıq hədəflər də müəyyən edilmişdir: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas vəzifə qeyri-neft sektorunun inkişafı hesabına ÜDM-in həcminin iki dəfə artırılmasıdır. Bütün bunlar isə ölkənin gələcək sosial-iqtisadi inkişafı məsələsinə yeni yanaşma

tələb edir. Bu məsələlər öz əksini Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş, perspektiv inkişafın hədəf və istiqamətlərini müəyyənləşdirən "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında tapmışdır. Bu konsepsiyanın əsas istiqamətlərindən biri də "İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı" bölməsidir. Həmin bölmədə qeyri-neft sənayesinin inkişaf etdirilməsi məqsədilə ölkənin malik olduğu təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlbinin genişləndirilməsi, bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin yaradılması, həmin müəssisələrdə innovasiya yönümlü texnologiyaların tətbiqinin stimullaşdırılması, qeyri-neft sektoruna yerli və xarici investtisiyaların cəlb edilməsinin intensivləşdirilməsi, ixrac yönümlü məhsul istehsalının artırılması üçün dövlət və özəl sektorun investisiya əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur.

Müasir dövrdə xarici-iqtisadi əlaqələrin genişlənməsi milli iqtisadiyyatımızı dünya iqtsadiyyatının ayrılmaz bir hissəsinə çevirmişdir. Belə ki, Azərbaycanın müqayisəli üstünlüklərə malik olduğu sahələrdə ixtisaslaşması, bu sektorlarda beynəlxalq rəqabətə davamlı ixrac məhsulları istehsal etməsi, xarici ticarət strategiyasının milli iqtisadi inkişafa xidmət edəcək şəkildə qurulması müasir dövrün ən aktual problemlərindən birinə çevrilmişdir.

Hal-hazırda respublikamız Ümumdünya Ticarət Təşkilatına üzv olma prosesini keçir, yaxın bir neçə il ərzində təşkilatın tamhüquqlu üzvü olması gözlənilir. Bu təşkilata üzv olmaq xarici ticarətin liberallaşdırılmasını, idxal-ixrac əməliyyatlarını tənzimlənmə, xüsusilə proteksionizm məqsədilə tətbiq edilən tarif və qeyri-tarif maneələrinin kəsgin şəkildə azaldılmasını öhdəlik kimi qarşıya qoyur. Belə olan halda təşkilata üzvolma ərəfəsində yerli məhsulların rəqabətqabiliyyətinin yüksəldilməsi, qeyri-neft sektorlarının ixrac potensialının tənzimlənməsinin mükəmməl mexanizminin formalaşdırılması mühüm vəzifə kimi qarşıya qoyulur. Bu işdə xarici iqtisadi əlaqələrin gömrük tarif tənzimlənməsi mühüm rol oynayır.

Azərbaycanın iqtisadiyyatında inkişaf proseslərinin sürətlənməsi iqtisadi sahələrin ixrac potensiallarından istifadə imkanlarını da yüksəltmişdir. Lakin bununla yanaşı bir sıra strateji sahələrin ixrac potensialının tənzimlənməsinə daha böyük zəruriət yaranmışdır. Belə ki, kənd təsərrüfatı, turizm, metallurgiya, kimya sənaye sahələrinin ixrac potensialının tənzimlənməsi məsələsi xüsusi olaraq diqqəti cəlb edir.

Respublika iqtisadiyyatında müşahidə edilən sürətli inkşaf prosesləri xarici-iqtisadi əlaqələrdə də təzahür olunur. Xarici-iqtisadi əlaqələrin əsas göstəricilərinin təhlili beynəlxalq iqtisadi inteqrasiya proseslərinin sürətləndiyini göstərir. Xarici-iqtisadi əlaqələrin coğrafiyasının və idxal-ixrac əməliyyatlarının regional struktrunun dinamik şəkildə dəyişikliyi müşahidə edilir. Ixracın artımında neft sektoru müstəsna rol oynayır, lakin bununla yanaşı xarici-iqtisadi əlaqələrin genişlənməsi qeyri-neft sektoru üzrə ixrac potensialından istifadə üçün də geniş imkanlar açır.

Qeyd etmək lazımdır ki, qloballaşma və regional iqtisadi inteqrasiya proseslərinin güclənməsi qloabal iqtisadi sistemin elementləri kimi çıxış edən ölkələrin iqtisadiyyatının maliyyə və valyuta-kredit sistemində əhəmiyyətli dəyişikliklərin həyata keçirilməsini zəruri etmişdir. Bu bıxımdan istər daxili, istərsə də xarici amillərin təsiri altında ölkə iqtisadiyyatında baş verən dəyişikliklər xarici iqtisadi əlaqələrin tənzimlənməsinin konseptual əsaslarının formalaşmasında müasir yanaşmanın müəyyənləşdirilməsini əsaslandırır. Belə ki, Beynəlxalq Maliyyə Təşkilatlarına görə Azərbaycanın inkişaf göstəriciləri bəzi sahələrdə çox müsbət inkişafa təsir göstərmiş, adambaşına düşən illik gəlir 2014-cü ildə 7.350 dollara çatmışdır ki, bu insanların maddi rifahının yaxşılaşmasına səbəb olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev XXII Beynəlxalq «Xəzər neft və qaz 2015» sərgisinin açılışında demişdir: «Son 10 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən yüksək templərlə inkişaf etmiş, 300 faiz artmışdır. Eyni zamanda, ölkə qarşısında duran infrastruktur layihələri icra edilmiş, sosial məsələlər öz həllini tapmışdır.

Bu düşünülmüş iqtisadi siyasət apararaq neftdən asılılığı böyük dərəcədə azalda bilmişik. Bu gün ümumi daxili məhsulumuzda neft amili təxminən cəmi 30 faiz təşkil edir. Beləliklə, biz ölkə iqtisadiyyatının şaxələndirilməsi işində böyük nailiyyətlərə imza atmışıq».

Qeyd etmək lazımdır ki, hazırda ölkə qarşısında duran əsas vəzifə iqtisadiyyatı şaxələndirmək, neft amilindən asılılığı daha da azaltmaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, böyük infrastruktur layihələri icra etmək və beləliklə uzunmüddətli inkişaf üçün daha da güclü zəmin yaratmaqdır.

# I FƏSİL

# AZƏRBAYCAN İQTİSADİYYATININ FORMALAŞMASINDA NEFT AMİLİ

*"Azərbaycanın neft sərvəti səmərəli, məqsədyönlü və şəffaf şəkildə idarə edilir"*

***İlham Əliyev***

## 1. Milli iqtisadiyyatın formalaşmasında neft amilinin rolu

Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikanın qarşılaşdığı iqtisadi çətinliklərin həlli yollarından biri potensial resurs kimi məhz neft və qaz hasilatını artırmaq oldu. Ölkənin maliyyə vəsaitinin məhdudluğu şəraitində neft sektorunun inkişafı üçün xarici şirkətləri sərmayə qoyuluşuna cəlb etmək vacib hesab olunurdu. Hələ 1872-ci ildə ilk dəfə Nobel qardaşları Bakıda neft şirkəti yaratmışlar. Bununla da Azərbaycanda neft və neft məhsullarından istifadə etmək üçün xarici ölkələrin şirkətləri, xarici kapital axını başlamışdır. Sonradan Azərbaycanda xarici ölkələrin neft şirkətləri ilə yanaşı, yerli sahibkarlar da meydana gəlmişdir. Bakı neftinin çıxarılması, emalı və nəqli üçün çox böyük işlər görmüşlər. Belə ki, həmin dövrlərdə Azərbaycan nefti xarici şirkətlərə və yerli sahibkarlara böyük mənfəət gətirmişdir. Azərbaycanda böyük sahibkarlar meydana çıxmışdır ki, onlar külli miqdarda mənfəət əldə etmişlər. Həmin dövrlərdə Azərbaycanın neft sənayesinin inkişafı, ümumiyyətlə, Azərbaycanın Bakının sosial-iqtisadi inkişafına böyük təkan vermişdir. Azərbaycanın paytaxtı Bakı, böyük sənaye şəhərinə çevrilmiş və o vaxtlar Rusiya imperiyası ərazisində ən iri sənaye mərkəzlərindən biri olmuşdur. Burada o vaxtın tələblərinə uyğun müasir binalar, istehsal müəssisələri, zavodlar, digər sənaye obyektləri tikilmişdir. Sumqayıt şəhərində böyük kimya kompleksinin yaranmasında və onun formalaşmasında neft sənayesinin əhəmiyyəti böyükdür. Burada olan bir çox müəssisələrin xammal bazasının əsasını karbohidrogen məhsulları təşkil edir ki, onların böyük hissəsi Azərbaycanın neft və qaz emalı zavodlarında istehsal edilir.

Azərbaycanda qeyri-neft sənaye sahələrinin yaranmasında da neft sənayesinin iştirak səviyyəsi böyükdür. Neft sənayesinin istehsal və sosial infrastrukturunun genişlənməsi ölkədə maşınqayırma, tikinti, kimya, əczaçılıq və digər bir çox sahələrin formalaşmasına şərait yaratmışdır. Neft sənayesinin inkişafı Azərbaycanda iri neft maşınqayırması, neft-kimya, neft emalı komplekslərinin formalaşmasına təkan vermişdir.

Neft sənayesinin sosial-iqtisadi rolu onun hasilatı, nəqli və emalı üçün zəruri olan sahələrin inkişafı ilə ölçülür. Neft sənayesi respublikada neft maşınqayırması, neft emalı, neft kimyası sənayesinin və bu sahələrlə bağlı olan infrastrukturun formalaşmasına və inkişafına xeyli təsir etmişdir. Azərbaycan keçmiş SSRI məkanında neft hasilatı və ixracı sahəsində əmək bölgüsündə ixtisaslaşma səviyyəsinə görə fərqlənmişdir.

Respublikada istehsal edilən elektrik enerjisinin 80-85%- i mazut və qaz ilə işləyən istilik elektirik stansiyalarının payına düşür. Neft sənayesinin sosial-iqtisadi mahiyyəti həmin sahənin məşğulluq səviyyəsində, əsas fondların payının yüksək həcmdə olması və kapital tutumunda xüsusi çəkisinin dinamikası ilə qiymətləndirilir.

XX əsrin ikinci yarısından başlayaraq dünya iqtisadiyyatı daha böyük sürətlə inkişaf etmişdir ki, bu da enerji ehtiyatlarına olan tələbatı artırmışdır. Bu surətli inkişaf dünya bazarında neft və neft məhsullarına olan tələbatın artırılmasına səbəb olmuşdur. Buna görə SSRI-də yeni yataqların kəşfi və istismarı əsas məsələlərdən biri kimi neft sənayesinin qarşısında qoyulmuşdur. Bu məsələnin həlli ilə əlaqədar SSRI-nin bir çox regionlarında yeni neft yataqlarının axtarışına başlandı. Bunlardan ən başlıcaları Qərbi Sibir və Xəzər regionlarıdır. Neft hasilatı, onun təbii sərvət kimi geoloci xüsusiyyətləri və texnoloci təminatının xüsusiyyətlərinə uyğun inkişaf etdirilir. Xəzər regionunda olan neft və qaz yataqlarının istismarında bir sıra çətinliklərin olması çoxlu investisiyalar tələb etdiyindən bu regiona diqqəti azalmışdır. Bu çətinliklər əsasən dünyada mövcud olan 600 palçıq vulkanından 280-nin Azərbaycanda, o cümlədən Xəzər dənizində olması, neft və qazlı məhsuldar qatların dəniz suyunun dərin qatlarında yerləşməsi, məhsuldar laylardakı termodinamik şəraitin mürəkkəbliyi, gəmilərin hərəkətində xüsusi çətinliklərin, maneələrin çox olması, Xəzər dənizində başqa dənizlərlə müqayisədə uzunmüddətli, küləkli havaların olması nəticəsində böyük dalğaların yaranması, sürətli sualtı axınların (teçeniyaların) iti olması, kəskin iqlim şəraiti, dəniz suyunun sahilboyu sə-

viyyəsinin tez-tez dəyişməsi, burada aparılan kəşfiyyat qazma işlərini çətinləşdirdi. Bu şəraitdə yataqların istismarı üçün xüsusi "qazma qurğusu" və xüsusi "qaldırıcı kranlar" tələb olunurdu. Bu kimi xüsusiyyətlər qazılacaq quyuların maya dəyərinin artmasına səbəb olur ki, bu da çoxlu kapital qoyuluşları tələb edirdi.

SSRI dağıldıqdan sonrakı dövrdə Xəzər regionunun neft və qaz yataqlarının ehtiyatlarının çox olması və onun səmərəli zona kimi qiymətləndirilməsi inkişaf etmiş dövlətlərin aparıcı şirkətlərinin bu regiona diqqətinin artırılmasına səbəb oldu. Qərb mütəxəssislərinin fikrincə 111,6-143,4 mld. ton dünyada neft ehtiyatı ehtimal olunur ki, bunun-2,4-5,3 mlrd.tonu neft ehtiyatının və 4,5-7,8 trln.m3 -u qaz ehtiyatının Xəzər regionunun payına düşür. Digər Bp-nin statistik hesabatlarında isə bu rəqəm Xəzər regionunda bu ehtiyat daha çox 77 milyard barel göstərilmişdir. Bəzi mənbələrdə isə həmin regionda ehtimal olunan neftin və qazın miqdarı daha çox 30 mlrd.t-a qədərdir. Bunun 3-8 mld. tonu Azərbaycan sektorunun payına düşür. Bu isə dünyadakı neft ehtiyatının 3-5,7 faizi deməkdir. Bu rəqəmi Şimal dənizinin ilkin ehtiyatları və ABŞ regionunda olan neft və qaz yataqlar ilə müqayisə etmək olar. 2002-ci ildə Qazaxıstanın Alma-Ata şəhərində keçirilmiş iqtisadi forumda Italiyanın "ENI" konsernasının hesabatları açıqlanaraq Xəzər dənizindəki yataqların ehtiyatı 78-mlrd.barel (yəni1,0mlrd.ton) olduğu söylənilmişdir.

**Xəzər rəgionunda təsdiq və ehtimal olunan ehtiyatların miqdar.**

| **Ölkələr** | **Neft (mln.t)** | | **Qaz (mlrd. m3)** | |
|---|---|---|---|---|
| | **Təsdiq olunmuş ehtiyat** | **Ehtimal olunan resurslar** | **Təsdiq olunmuş ehtiyat** | **Ehtimal olunan resurslar** |
| Qazaxıstan | 1300 – 2500 | 12500-14600 | 1840 | 2500-3000 |
| Azərbaycan | 620 –1900 | 3500-8000 | 1100 | 2000-2500 |
| Türkmənistan | 75-100 | 4000-12000 | 2800 | 4000-4400 |
| Özbəkistan | 82,5 | 3500 | 1870 | 3000 |
| Rusiya | 0,4 | 2,2 | 336,0 | - |
| İran | 0,01 | 2,3 | - | 311,0 |

Cədvəldən göründüyü kimi, ehtimal olunan resurslar ilə təsdiq olunan ehtiyatlar arasında bütün ölkələr üzrə ciddi fərqlər mövcuddur. Belə ki, Azərbaycanda ehtimal olunan neft resursları təsdiq olunandan 6 dəfə, qaz resursları isə 2-2,5 dəfə çoxdur. Təbii ki, təsdiq olunan ehtiyatlar konkret investisiya proqramının əsasıdır. Neft və qaz ehtiyatlarının Xəzəryanı ölkələr üzrə qiymətləndirilməsi metodikası və proqnozlaşdırma üsulları, təbii ki, ümumi yanaşma prinsiplərinə uyğun olsa da, fərqli cəhətləri də mövcuddur. Onun quruda və suda olması çıxarılma texnologiyasının xərc strukturu bu ehtiyatların istifadə dövriyyəsinə cəlb edilməsində uyğun risklər yaradır və müəyyən maraqlar baxımından qiymətləndirilir. Qazaxıstan neftinin proqnoz ehtiyatı onun təsdiq olunan ehtiyatına nisbətdə 10 dəfə, Azərbaycanda isə 6 dəfəyə nisbətdə hesablanır. Təbii ki, Qazaxıstanın neft-qaz ehtiyatları Azərbaycandan çoxdur. Bu kimi fərqlər proqnozlaşdırma metodikasında bəzi çətinliklər yaratsa da, təsdiq olunan ehtiyatların Azərbaycan Respublikası üçün son hədd olmadığını və onun perspektiv istifadə dövrünün daha artıq olması haqqında mülahizələr söyləməyə əsas verir.

Beləliklə, neft və qaz ehtiyatları kompleks tədqiq olunduğu kimi, ayrı-ayrılıqda hər ölkə üçün əhəmiyyət kəsb edir.

Neft və qaz yataqlarının Xəzər regionundakı ehtiyatları haqqında ayrı-ayrı dövrlərdə, müxtəlif mənbələrdə müxtəlif rəqəmlər göstərilmişdir. Bu rəqəmlərə nəzər salanda belə qənaətə gəlmək olur ki, Xəzər regionunda sənaye əhəmiyyətli neft və qaz yataqları kifayət qədərdir. Xəzər dənizində bu vaxta qədər 40-a yaxın neft və qaz yatağı kəşf edilmişdir. Bundan əlavə, neft və qazlılığa prespektivli 400-ə yaxın geoloji struktur və qalxım aşkar edilərək, geoloji xəritələr çəkilmişdir.

ABŞ-ın enerji informasiya idarəsinin hesabatlarında Xəzər regionunun neft ehtiyatları payında Azərbaycan və Qazaxıstan daha çox potensiala malikdir.

Neft resurslarının ərazi üzrə yerləşməsi, regionun statusunu, əmək bölgüsündə rolunu qiymətləndirməklə perspektiv inkişaf istiqamətlərini müəyyən edir. Xəzər hövzəsi karbohidrogen ehtiyatlarına görə xüsusi yer tutduğu üçün onun tarixi inkişaf meyli və digər sahələrin inkişafı və əlaqələrinin spesifik xüsusiyyətləri yaranır. Xəzər ətraf ölkələrin neft-qaz potensialı və infrastrukturu sayəsində formalaşır. Təbii ki, iqtisadi inkişafın intensivliyi, həmin resursların iqtisadi dövriyyəyə cəlb edilməsi mədəniyyəti və iqtisadi variantları, idxal və ix-

racyönlü siyasəti respublika iqtisadiyyatının strukturunu formalaşdırır. Azərbaycan iqtisadiyyatının struktur siyasətində neft-qaz potensialı, onun istifadəsi sahə və ərazi potensialının formalaşmasının dominantı rolunu oynayır.

Qeyd etmək lazımdır ki, müstəqillik şəraitinə Azərbaycanda neft potensialının iqtisadi dövriyyəyə cəlb edilməsi, onun iqtisadi müstəqilliyi və ölkənin iqtisadi sosial inkişafını təmin etmək üçün ən səmərəli ehtiyat kimi baxılır. Ona görə də müstəqil Azərbaycan özünün iqtisadi transformasiya modelini reallaşdırmaq üçün neft potensialının və Azərbaycan Respublikasının inteqrasiya şəraitində əlverişli şəraitini nəzərə alaraq neft müqavilələrini bağlamaqla xarici və daxili resursların iqtisadi dövriyyəyə cəlb edilməsini zəruri strategiya kimi qəbul edib, strateji inkişaf resursu kimi neft hasilatı, onun bölgüsü və istifadəsi əsas götürülür.

ABŞ-ın Enerji İnformasiyası İdarəsinin hesabatlarına görə Xəzər regionunun neft və qaz ehtiyatları Azərbaycan müstəqillik əldə etdiyi ilk illər ərzində milli iqtisadiyyatın tənəzzülü davam edirdi. 1991-1993-cü illər Azərbaycan iqtisadiyyatı ağır böhran içərisində idi. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Keçmişdə mərkəzdən neft sənayesinin inkişafına diqqət azalmış və bu sahənin maliyyələşməsi yetərincə olmamış, nəticədə respublikada neft hasilatı aşağı düşmüşdür. Belə ki, 1990-cı illərdə neft hasilatı təxminən 2 dəfə azalmışdır. Bu isə neft sənayesini baxımsızlıq ucundan tədriçən pis vəziyyətə gətirib çıxarmışdır. Bununla belə Azərbaycanın neft sənayesində istismar müddəti çoxdan keçmiş, fiziki və mənəvi cəhətdən çox köhnəlmiş, ekoloji və təhlükəsizlik nöqteyi-nəzərindən istismara tam yararsız köhnə texnoloji avadanlıqlar, platformalar və estakadalar keçmiş ittifaqdan miras qalaraq, bu sahələrin inkişafına da maneçilik törədirdi.

Bu vəziyyətdən çıxmaq ücün ölkə iqtisadiyyatına, o cümlədən neft sənayesinə külli miqdarda investisiya qoyuluşuna ehtiyac duyulurdu. Neft sənayesinin bütün sahələrindəki köhnə avadanlıqların dünya standartlarına uyğun gəlməməsi və onların yeni müasir texnoloji avadanlıqlarla əvəz olunması bu sahənin inkişafına təsir göstərən yeganə amil idi. Məhz bu böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək xalqımızın rifahını qısa müddətdə daha yaxşı səviyyəyə qaldırmaq üçün Azərbaycan dövləti inkişaf etmiş Qərb dövlətlərinin neft şirkətləri arasında müqavilələrin bağlanmasını daha vacib hesab etdi.

## ABŞ-ın Enerji İnformasiyası İdarəsinin hesabatlarına görə Xəzər regionunun neft və qaz ehtiyatları

| | Neft | | | Qaz | | | Neft+qaz | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Ölçü vahidi** | **Təsdiq olunmuş ehtiyatlar** | **Ehtimal olunan resurslar** | **Cəmi** | **Təsdiq olunmuş ehtiyatlar** | **Ehtimal olunan resurslar** | **Cəmi** | **Təsdiq olunmuş ehtiyatlar** | **Ehtimal olunan resurslar** | **Cəmi** |
| Azərbaycan<br>Mlrd.barr.<br>Trln.kub. fut.<br>Mlrd.t (ş.n.v) | 3,6-11<br>-<br>0,7 - 2,2 | 27<br>-<br>5,4 | 31 - 38<br>-<br>- | -<br>11<br>0,4 | -<br>35<br>1,3 | -<br>46<br>1,7 | -<br>-<br>1,1 - 2,6 | 6,7 | 7,8 - 9,3 |
| Qazaxıstan<br>Mlrd.barr.<br>Trln.kub. fut.<br>Mlrd.t (ş.n.v) | 10,0 - 16,0<br>-<br>2,0-3,2 | 85<br>17 | 95-101<br>19,0 - 20,2 | 53 - 83<br>2,0 - 3,1 | 88<br>3,3 | 141 - 171<br>5,3 - 6,3 | 4-6,3 | 20,3 | 24,3 - 26,6 |
| Türkmənistan<br>Mlrd.barr.<br>Trln.kub. fut.<br>Mlrd.t (ş.n.v) | 1,4- - 1,5<br>0,3 - 0,3 | 32<br>6,4 | 34<br>6,7 | 98 - 155<br>3,7 - 5,8 | 159<br>5,9 | 257 - 314<br>9,6 - 11,7 | 4,0 - 6,1 | 12,3 | 16,3 - 18,4 |
| Rusiya<br>Mlrd.barr.<br>Trln.kub. fut.<br>Mlrd.t (ş.n.v) | 0,2<br>0,04 | 5<br>1,0 | 5<br>1,0 | | | | | | |
| Iran<br>Mlrd.barr.<br>Trln.kub. fut.<br>Mlrd.t (ş.n.v) | 0<br>0 | 12<br>2,4 | 12<br>2,4 | 0<br>0 | 11<br>0,4 | 11<br>0,4 | 0 | 2,8 | 2,8 |
| Cəmi, bütün Xəzəryanı ölkələr üzrə<br>Mlrd.barr.<br>Trln.kub. fut.<br>Mlrd.t (ş.n.v) | 15,0-28,7<br>3,0-5,7 | 156<br>31,2 | 171 - 184,5<br>34,2-36,9 | 162-249<br>6,1-9,3 | 293<br>10,9 | 455-542<br>17,0-20,2 | 177-278<br>9,1-15,0 | 449<br>42,1 | 629-727<br>51,2-57,1 |

Xalqımızın Ümummilli lideri Heydər Əliyev ölkənin iqtisadiyyatının çətin bir dövründə 1994-cü il 20 sentyabrda "Əsrin müqaviləsini" imzalamağa nail oldu. Bununla da Azərbaycan ilk dəfə Qərbin iri neft şirkətləri ilə belə böyükmiqyaslı saziş imzaladı və Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da xarici investisiyalar Azərbaycana axmağa başladı.

Ölkəyə xarici investisiya axınında daha fəal ölkələrdən ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya, Norveç, İran və Almaniyanı *göstərmək olar.*

Qeyd etmək lazımdır ki, investisiya həcmi həm mütləq, həm də mənbələr hesabına daxili və xarici amillərdən asılı olaraq respublikada iqtisadiyyatın sahə quruluşuna uyğun olaraq dəyişir. Belə ki, neft sektorunun payı 60-70% təşkil etməklə, birbaşa məqsədli layihələr üçün ayrılır. Daxili investisiyaların artım tempinin 2000-ci ildən xarici investisiyaların artım tempinə nisbətən daha üstün olması müşahidə olunur.

Azərbaycanda neft və qaz hasilatını artırmaq üçün neft sənayesinə xarici investisiyaların cəlb olunması onun inkişafını sürətləndirdi.

Neft-qaz sənayesi Azərbaycan iqtisadiyyatında tarixi rol oynamaqla ölkə iqtisadiyyatının ayrı-ayrı dövrlərdə və dövlətçilik formalarında ölkənin tələbatını ödəmək üçün strateji əhəmiyyət kəsb edib. Onun kompleks kimi formalaşması Azərbaycan iqtisadiyyatının əmək bölgüsündə ixtisaslaşma səviyyəsini və onun rolunu müəyyənləşdirir. Neft-qaz sənayesi sahə kimi əmək prosesi olmaqla inkişaf edib, inkişaf üçün elmi-texniki tərəqqinin və kadr potensialının formalaşmasına səbəb olur. Neft «potensialı» özünün formalaşma və strukturuna görə digər sahələrdən fərqlidir. Neft-qaz sənayesi proses olaraq ekoloci, geofiziki amillərdən asılı olmaqla, onun spesifikası daha çox gəlirlər gətirmək qabiliyyətinə malikdir. Neftin hasilatı, satışı və emalı arasında tarazlı inkişaf olmazsa onda hər bir sahənin istehsal güclərinin uyğun gəlməməsi itkilərə gətirib çıxarır. Ona görə də kompleks təhlil və inkişaf meyilləri tədbirləri yaratmaq üçün bu sahənin hər bir göstəricisinin dinamikasını, meyillərini tədqiq edib, nəticələrə gəlmək olar.

Neft, sənaye sahəsi olmaqla elmi-texniki və intellektual potensialın istifadəsi və inkişafı üçün əsas baza rolunu oynayır. Belə ki, neft sənayesi, elmi-texniki tərəqqi ilə yanaşı, yüksəkkeyfiyyətli məhsul istehsalına gətirib çıxaran texnoloci proseslərin məcmuu kimi çıxış edir. Ona görə də neft sənayesində neftin emal dəyəri onun hər tonundan alınan ikinci və üçüncü məhsulların təkrar emalı üçün şərait yaradır. Ona görə də neft istehsal edən ölkələrin iqtisadi potensialının spesifik xüsusiyyətləri və ixtisaslaşma səviyyəsi mövcuddur.

Xarakterik cəhət olan neft kompleksi, onun hasilatı və emalı üçün zəruri olan maşınqayırma, kimya elektronikası, avtomatlaşdırma və planlaşma sahələrinin qarşılıqlı təsiri ilə müəyyənləşir. Azərbaycanda

neft potensialının, həmçinin kadr potensialının formalaşması onun elmi bazasının inkişafı ilə bağlıdır.

Neft, sahə olaraq hər bir ölkədə çəkilən xərc və əldə olunan mənfəətlə iqtisadi səmərə əldə edir. Bu xərclərin aşağı salınması, onun təşkili və idarə edilməsi təcrubəsindən və spesifik xüsusiyyətlərindən asılı olmaqla formalaşdırılır və idarə olunur. Ona görə də neft hasilatı və istifadəsinin elmi əsaslarla qurulması onun kəşfiyyatı, ehtiyatları və istismarı kimi ayrı-ayrı sahələrin və sistemaltı fəaliyyətlərin qarşılıqlı əlaqəsinin modernləşdirilməsi problemləri ilə bağlıdır.

Digər sahələrdən fərqli olaraq neft hasilatı ölkə üçün gəlir gətirən sahədir. Onun hasilatı və istifadəsində Azərbaycan üçün spesifik xüsusiyyətlər mövcuddur. Neft dövlət mülkiyyətində olmaqla, onun dövlət təşkili və idarə olunması dövlətin strateji məqsədləri və bölgü prinsipləri əsasında baş verməlidir. Dövlət mülkiyyətində olan neft hasilatı dövlət proqramları əsasında reallaşır. Dövlətin strateji inkişaf konsepsiyası neft sənayesinin perspektivi, neft hasilatı və onun istifadəsinin alternativ variantlarından ən əlverişlisi və ölkənin milli maraqlarını təmin edən istiqamətləri əsas götürülür. Respublikada aparılan konseptual inkişaf istiqamətləri neft amilini nəzərə almaqla əsaslandırılır, idarə olunur və perspektiv dövrdə onun təkrar istehsalı üçün tədbirlər proqramı hazırlanır. Müstəqillik şəraitində neft potensialı respublikada iqtisadi islahatların reallaşması üçün maliyyə mənbəyi funksiyasını oynayır. Bu məqsədlə xarici şirkətlərin neft hasilatı üçün cəlb edilməsi, müəyyən investisiya şəraitinin yaradılması və pay bölgüsü sistemində maraqların tarazlığı, vergi, idxal-ixrac şəraiti, öhdəliklər və məsuliyyətlər sistemi yaratmaq vəzifələri Azərbaycan dövlətində neft strategiyası kimi formalaşmağa və inkişaf etməyə başladı. Neft strategiyası öz mahiyyəti və struktur etibarı ilə məqsədli proqram-yanaşma metodologiyasının Azərbaycan nefti şəraitində nəzəri və praktiki aspektlərinin üzvi vəhdətidir.

Neft sahəsi, maraqların kəsişdiyi, təbii sərvətin istifadəsində ayrı-ayrı subyekt və obyektlərin iştirak payının nəzərə alınmasını, daha çox perspektiv inkişaf problemləri ilə bağlı olan təsərrüfat fəaliyyəti olmaqla, özünəməxsus göstəricilər sistemi amillərini və tənzimləmə metodlarını tələb edir. Neft sahəsinin əsas iqtisadi mənası onun ümumi daxili məhsulun formalaşmasında, investisiya qoyuluşlarının istifadəsində, əməyin xarakteri və məzmununun formalaşmasında özünəməxsus xüsusiyyətlər kəsb edir. Azərbaycan Respublikasında neft sek-

toru SSRI məkanından fərqli olaraq ölkənin mərkəzləşdirilmiş resursları və gəlirlərinin formalaşmasında birbaşa rol oynayır. SSRI dövründə neft sektorunun rolu ancaq Azərbaycan əhalisinin iş yerləri ilə təmin olunması və həmin sahənin maddi-texniki bazasının genişlənməsi ilə artım əldə etmək məqsədi üçün çəkilən xərclərdən ibarət olmuşdur. Xalis mənfəət SSRI mərkəzləşdirilmiş gəlirlərin tərkib hissəsi olmaqla, ancaq sosial normalar çərçivəsində ayrılırdı. Respublikanın digər sahələri öz gəlirləri hesabına və mərkəzləşdirilmiş plan əsasında inkişaf etdirilirdi.

Müstəqillik şəraitində neft gəlirlərindən iqtisadi artım, sosial-iqtisadi inkişaf və əhalinin rifahı baxımından istifadə edilməlidir. Azərbaycanın neft potensialının perspektivini nəzərə alaraq onun istifadəsinin əsas istiqamətlərini respublikanın konseptual inkişaf istiqamətlərində axtarmaq lazımdır. Fikrimizcə, bu konseptual istiqamətləri aşağıdakı istiqamətlərin tədqiqi və idarə edilməsi, təsərrüfat mexanizminin təkmilləşdirilməsində axtarmaq lazımdır. Bu istiqamətlərin hər biri özünün meyar və göstəricilərini, tənzimləmə mexanizmlərini və sosial-iqtisadi nəticələrini kəsb edir. Bu problemləri aşağıdakı kimi qruplaşdırmağı təklif edirik:

1. Sosial-iqtisadi inkişafın sürətlənməsi konsepsiyası baxımından neft strategiyası sürətlənmə strategiyasının obyektiv zəruriyyətindən meydana çıxır. O iqtisadi artım və sosial inkişaf meyarları aspektindən təhlil edilməli və proqnozlaşdırılmalıdır.

2. Hal-hazırda əldə edilən neft gəlirləri regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, qütbləşmənin iqtisadi əsaslarının və formalaşma meyillərinin obyektiv təsviri və perspektiv meyillərin dövlət tənzimlənməsi, inteqrasiya proseslərində ixracatyönlü siyasətin həyata keçirilməsi və iri korporasiyaların və transmilli kampaniyaların inkişafı ilə yerli əhalinin maraqlarının təmin olunması məqsədləri üçün istifadə edilir. Bundan başqa, respublikada neft sektorunun inkişafı ilə büdcə-maliyyə siyasətində inkişaf üçün zəruri istiqamətlərin müəyyənləşdirilməsi məsələləri də həyata keçiriləcək.

Beynəlxalq maliyyə qurumlarının tələbləri baxımından baş verən dəyişmələrin, yaxud proqnozlaşdırılan tədbirlərin neft amilini qiymətləndirməklə, daxili bazarın qorunması və sahibkarlığın inkişafı, iş yerlərinin itirilməsi, yaxud yeni iş yerlərinin açılması, qiymət dəyişmələrinin proqnozlaşdırılması ilə kompensasiya mexanizmlərinin tətbiqi, rifahın dinamikası və sosial təminat problemlərinin həlli və ölkədə

inflyasiyanın sosial-iqtisadi nəticələrinin qiymətləndirilməsi tədbirlərin əsaslandırılması məsələlərinə də xüsusi fikir verilməlidir. Qeyd etmək lazımdır ki, sosial-iqtisadi inkişafda həyata keçirilən himayəçilik tədbirlərinin maddi-maliyyə, təşkilati əsaslarını yaratmaq üçün büdcə siyasətinin təkmilləşdirilməsi onun daha çox investisiya yönlü olması, investisiyanın təşviqi və inkişafla uzlaşması, regionlara güzəştli kredit və ünvanlı investisiya verilməsi, sahibkarlığı region fəzası üzrə stimullaşdırılması, büdcədənkənar fondların istifadəsinin səmərəsinin artırılması məsələlərinə diqqət artırılmalıdır. Bundan əlavə, neft qiymətlərinin dəyişməsinin dövlət büdcəsində nəzərə alınması, pensiya islahatlarının keçirilməsi yolu ilə yaşayış minimumuna yaxınlaşmanın sürətlənməsi məsələləri nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, iqtisadiyyatda islahatların səmərəsində inhisarçılıq və antiinhisar fəaliyyətinin qanunvericilik bazası, onun tənzimlənməsi, ixrac və idxal siyasəti sürətlənmə üçün əsas amildir. Bu məqsədlə gömrük reciminin səmərəli təşkili, idxalda inhisarçılığın qarşısının alınması, dövlətin inhisar rolu əvəzinə onun antiinhisar tədbirlərinin gücləndirilməsi amillərinin tənzimlənməsi vacibdir.

Ölkənin neft gəlirləri, onun xərcləri müstəqil tədiyə balansı kəsb etməklə ölkənin maliyyə-kredit sistemində vergi gəlirləri, sosial müdafiə və həmçinin birbaşa və büdcə vasitəsi ilə bölgü və yenidən bölgü münasibətlərində aparıcı halqa olduğu üçün iqtisadi idarəetmə sisteminin sahə baxımından deyil, makrosəviyyəli təhlil və proqnoz metodologiyası baxımından xeyli əhəmiyyətlidir.

Azərbaycan Respublikası Iqtisadiyyat və Sənaye Nazirliyinin əsas makroiqtisadi proqnoz göstəricilərinə əsasən 2014-cü ildə ölkə üzrə real iqtisadi artım 5,2 faiz olmaqla, ümumi daxili məhsul istehsalı bazar qiymətləri ilə 58,6 mlrd.manat təşkil edəcəkdir.

Azərbaycan Respublikasının büdcə-vergi siyasəti ölkənin iqtisadi siyasətinin tərkib hissəsi olmaqla 2014-cü ildə sosial siyasətinin davam etdirilməsinə, əhalinin rifahının və yaşayış səviyyəsinin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin artırılmasına, iqtisadiyyatın prioritet sahələrinin modernləşməsinə və şaxələnməsinə, onun səmərəliliyinin, dayanıqlılığının təmin edilməsinə, investisiya mühitinin daha da yaxşılaşdırılmasına yönəldilmişdir.

## 2011-2017-ci illər makroiqtisadi göstəricilərin istiqamətləri

| Göstəricilər | Ölçü vahidi | Hesab at | Gözlənilən | | | Proqnoz | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
| 1. ÜDM bazar qiymət ləri ilə | | 52082,0 | 53995,0 | 54740,8 | 58568,4 | 59380,4 | 63057,6 | 67317,2 |
| Real artım tempi | | 0,1 | 2,2 | 4,5 | 5.2 | 5.8 | 4,8 | 6.0 |
| Deflya tor | | 22,5 | 1,5 | -3,0 | 1,7 | -4,2 | 1,3 | 0,8 |
| 2. Özəl sektorun ÜDM də payı | | 82,5 | 81,5 | 82,5 | 83,2 | 82,2 | 81,8 | 81,8 |
| 3. Neft sektoru, ÜDM-də bazar qiymətləri ilə | | 26650,5 | 25520,1 | 22798,3 | 22541.1 | 19024,5 | 18305,2 | 18606,9 |
| Real ar tım empi | | -9,3 | -5,0 | -1,2 | -1,5 | 2,1 | -3,2 | 1,5 |
| Deflya tor | | 40,6 | 0,8 | -9,6 | 0,4 | -17,4 | -0,6 | 0,2 |
| ÜDM-də payı | | 51,2 | 47,3 | 41,6 | 38,5 | 32,0 | 29,0 | 27,6 |
| 4. Qeyri-neft sektoru, ÜDM, bazar qiy mət lər ilə | | 25431,5 | 28474,9 | 31942,6 | 36027,8 | 40355,9 | 44752,4 | 48710.3 |
| Real artım tempi | | 9,4 | 9,7 | 9,7 | 10,0 | 8,1 | 8,6 | 7,8 |
| Deflya tor | | 8,0 | 2,1 | 2,3 | 2,6 | 3,7 | 2,1 | 1,0 |
| ÜDM-də payı | | 48,8 | 52,7 | 58,4 | 61,5 | 68,0 | 71,0 | 72,4 |
| 5. Əhalinin gəlirləri | | 30524,6 | 34723,0 | 38388,9 | 42276,8 | 47165,1 | 51576,6 | 55943,6 |
| Real artım tempi | | 10,5 | 12,5 | 7,0 | 6,4 | 7,5 | 5,2 | 4,2 |
| 6. Əhalinin xərcləri | | 22184,0 | 24534,2 | 26735,0 | 29243,8 | 32430,3 | 35262,5 | 38136,1 |
| Real artım tempi | | 6,8 | 9,4 | 5,5 | 5,7 | 6,8 | 4,7 | 3,9 |
| 7. Orta aylıq əmək haqqı | | 364,2 | 398,4 | 439,3 | 479,4 | 520,1 | 566,0 | 618,1 |
| Real artım tempi | | 1,8 | 8,2 | 6,7 | 5,4 | 4,5 | 4,7 | 4,9 |
| 8. İnfilyasiya | | 7,9 | 1,1 | 3,3 | 3,5 | 3,8 | 3,9 | 4,1 |

Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatının inkişaf mərhələləri bu mərhələlərdə əsas sintetik göstəricilərin dəyişmə dinamikası və restruktizasiya strategiyası neft gəlirlərinin bütün sahələr üçün ortaq olmasını, daha prioritet istiqamətlər üzrə aparılmasını tələb edir. Azərbaycan Respublikasının dövlət gəlirləri və əhali gəlirləri arasında tarazlılığın və neft gəlirlərinin hər iki mənbə təsiri neft gəlirlərinin sonrakı inkişafı ilə bağlıdır. Bu gün Azərbaycanda dövlət gəlirlərinin formalaşmasında əsas mənbələrdən biri neft gəlirləri olmaqla, dövlət xərclərinin müdafiə olunan xərclərini və investisiyanın əsas hissəsini təşkil edir. Əgər neft gəlirləri olmazsa, artıq formalaşmış potensial xərcləri ödəmək imkanının olması praqmatik idarəetmə problemidir. Neft sektorundan mövcud iqtisadi inkişafa ayrılan vəsait sonrakı artım üçün kifayət edəcəkmi? Bu məsələlər neftdən gələn gəlirlərin istifadə üsulları və mexanizmlərinin elmi əsaslarla sosial-iqtisadi inkişafın proqnozunun əsas prioritetləri ilə bağlanması metodologiyasının adekvatlığı dərəcəsindən asılıdır.

Qeyri-neft sektoru bu gün Azərbaycan iqtisadiyyatında oynadığı rolun gələcəkdə multiplikasiya effekti hesabına artmağını təmin etməlidir. Ona görə də perspektiv proqnozlarda xarakterik cəhət bir tərəfdən neft sektorunun rolunu digər sahələrin inkişafından sonra əvəz edilməsi strategiyası əsas aparıcı meyil kimi qəbul olunur.

Belə ki, büdcə proqnozlarında 2014-cü ildə ÜDM-un tərkibində neft sektorunun payı 36,7% təşkil etmişdir. Əgər digər sənaye sahələrinin də rolunu nəzərə alsaq, onda sənaye potensialı 60%-ə qədər yüksəlir. Təbii ki, sənayenin payının neft sektoru hesabına formalaşması, fikrimizcə, respublikada digər sahələrin az inkişafını göstərir. Bu da öz növbəsində sənaye potensialının rolunu iqtisadi inkişafda azaldır.

Dövlət gəlirlərinin formalaşmasında neft gəlirlərinin rolu birbaşa vergilər və mənfəətdən ödəmələr yolu ilə baş verir. Dünya praktikasında neft gəlirlərinin yığılması və istifadəsi iqtisadi imkanlar strategiyasına uyğun qurulur. Təbii ki, bu metodoloci prinsiplərin məqsədi eyni olsa da, forma və vəsaitləri, spesifik olaraq ölkə iqtisadiyyatının inkişaf səviyyəsi və islahatların dərinliyi müddəti, həmçinin əhalinin rifahının mövcud vəziyyəti və perspektivdə yüksəldilməsi tədbirləri ilə müəyyənləşir. Azərbaycanda keçid dövrünün xarakteri ərazi bütövlüyünün təmin olunması və əhalinin həyat səviyyəsindəki diferensiasiya neft gəlirlərinin hələ iqtisadiyyatın tam səmərəli olmayan mərhələsində istifadə edilməsi, həmin vəsaitin effektivsizliyinə səbəb ola bi-

lər. Ona görə də xüsusi hal olan Neft Fondunun yaradılması yolu ilə reallaşdırılır. Neft Fondu məqsədli maliyyə vəsaiti olub, neft gəlirlərini özündə birləşdirməklə respublikanın sosial-iqtisadi inkişafına yönəldilən, idarə olunan pul vəsaitidir. Neft Fondunun gəlirlər və xərclər balansı hər il tarazlaşdırılmaqla ictimaiyyətə bəyan edilir.

Qeyd etmək lazımdır ki, 2014-cü ildə neft-qaz sektorunun ÜDM-də payının azalma meyli təmin edilmişdir. Belə ki, dövlət büdcəsinin qeyri-neft sahələrinin daxilolmalarının xüsusi çəkisi 1,6 faiz yüksəlmiş, qeyri-neft ÜDM-ə nisbətən 17,4 faiz təşkil etmişdir. Bir faktı da qeyd edək ki, Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transferin məbləği 2014-cü ildə əvvəlki illə müqayisədə 17,7 faiz azalmışdır.

Neft Fondu, Sosial Müdafiə Fondu və digər büdcədənkənar fondlar ölkədə maliyyə balansının tərkib hissəsi olmaqla, onun artması və azalması dövlət büdcəsində və yuxarıdakı fondların dəyişməsində özünü göstərir. Neft Fondu təşkilatı forma olaraq ölkənin maliyyə potensialının tərkib hissəsi kimi, pul-kredit dövriyyəsində baş verən dəyişmələrə uyğun olaraq deformasiyaya məruz qala bilər. Ölkədə olan inflyasiya səviyyəsi hər hansı layihənin dəyərinin dəyişməsi, fondun alıcılıq qabiliyyətinin aşağı düşməsinə səbəb ola bilər. Ona görə də Neft Fondunun istifadəsi və saxlanılmasının meyarı onun indeksasiyası prosesini nəzərə almalıdır. Ona görə də Neft Fondunun idarə edilməsi müəyyən risklərlə bağlıdır. Təbii ki, inflyasiya hər bir daşınmaz əmlakın dəyərini, əgər mənəvi aşınmaya məruz qalınırsa artıra, yaxud dəyərinin artırılmasına gətirib çıxara bilər. Ona görə də uzunmüddətli neft layihələrinin inflyasiya nəticəsində qiymətinin dəyişməsi metodoloci baxımdan qiymətləndirilməlidir.

Neft sahəsi kompleks sahə və təsərrüfat fəaliyyəti olduğu üçün onun istehsalı, daşınması və emalı prosesləri hər biri ayrılıqda və sistem halında vahid dəyərin istehsalı və istehlakını özündə birləşdirir.

Bazar iqtisadiyyatı şəraitində respublikada transformasiya mərhələləri və spesifik xüsusiyyətləri neft sektoruna birbaşa və dolayısı yolla təsir edir və onun planlaşması və idarə olunmasının bazar tipli modelini yaradır. Ilkin növbədə neft strategiyası məhsullarına ehtiyacını və valyuta gətirmək tələbatını nəzərə alaraq artım modelinə və bölgü prinsiplərinə uyğun planlaşdırılır.

Neft resurslarının formalaşma mənbələri daxili və xarici resursların cəlb edilməsinin prinsipləri və maraqların təmin olunmasının iqti-

sadi mexanizmlərini formalaşdırır. Beynəlxalq səviyyəli kontraktlarda iştirak payına uyğun olaraq mənfəət neftinin bölünməsi arasında stimullaşdırma mexanizmlərinin tətbiqi və investisiyanın təşviqi mexanizmləri əsaslandırılır. O cümlədən, resursların qiymətləndirilməsi, mənfəət neftinin hesablanması metodikası əsaslandırılır. Neft hasilatı renta münasibətləri və diferensial şəraitlərlə bağlı olduğu üçün xərclərin hesablanmasında müxtəlif resursların vahid ölçü və qiymətləndirmə metodikasına gətirilməsini «gətirilmiş məsrəf» metodikası ilə tətbiq etmək olar .

Azərbaycan Respublikası xarici şirkətlərlə neft müqavilələrində tərəfdaş kimi iştirak etməklə, özünün formalaşmış neft potensialını, kadr potensialını və yaradılmış infrastrukturu istifadə etmək və əvəzində mənfəət neftindən pay almaq səlahiyyətləri vardır. Həmçinin respublikada təbii sərvətin yerli resursların istehlak məqsədi ilə istifadəsində bazar iqtisadiyyatı qanunauyğunluqlarına uyğun olaraq müəyyən əlavə resurslara görə ödəmə formasında haqq ola bilir. Təbii ki, bu haqq şəklində ödəmələr həmin resursların bazar iqtisadiyyatı şəraitində təkrar istehsalı və təbii resursların qiymətləndirilməsi metodikası ilə bağlıdır. Təbii resursların qiyməti həmin resursların elə satış qiymətinə bərabər götürülür ki, onun banklara qoyulmasında əldə alınan faiz normasına bərabər olsun.

Neft ixracatyönlü məhsul olduğu üçün onun satışı və daxili tələbat üçün istifadəsi, strateji inkişaf istiqamətlərindən və menecment idarəçiliyindən asılı olaraq alternativ texnoloci proseslər və yaxud marketinq planlaşması üçün adekvat iqtisadi obyektdir. Bu problemlərin tədqiqi hər biri öz sahəsində spesifik qiymətləndirmə, proqnozlaşdırma və qərar qəbul etməyə imkan verir.

Neft məhsulları bu baxımdan dünya qiymətlərinin dəyişməsindən asılı olaraq ahəngdar tənzimlənən proses olaraq idarə olunmalıdır.

Əgər neftin satış qiyməti artırsa, bu ixrac edən ölkələr üçün gəlir mənbəyi olmaqla daha çox ixracata iqtisadi cəhətdən meyil yaradır. Ancaq neft məhsullarının dünya qiymətlərinin artması bütövlükdə dünya bazarında bahalaşmaya gətirib çıxarır. Bu da öz növbəsində idxal məhsullarının qiymətini artırır. Nəticədə neft hasilatı üçün zəruri olan texnologiyaların qiyməti artır, dolların alıcılıq qabiliyyəti azalır. Neft həcmini alan ölkələr əlavə dollar emissiyasına gedir. Bu da avro və dollar bazarında fəaliyyət göstərən şirkətlərin və dövlətlərin daxili qiymətlərinin dəyişməsinə və investisiyası çox olan ölkələrin dollar

bazarından asılılığını artırır. Məhz belə problemlərin həlli ümumi effektin aşağı düşməsinə səbəb olur.

Emissiya gəlirlərinin artması dünya bazarında dollar və avroya olan tələbatla ölçülür. Bu da öz növbəsində valyuta bazarının genişlənməsi və inkişaf etmiş ölkələrin qloballaşma şəraitində daha da iqtisadi gücün artmasına, keçid dövrü yaşayan ölkələrin həmin ölkələrdən geri qalmasına səbəb olur. Neft gəlirlərinin bölgüsü onun qiymət dəyişməsindən, yaxud idarə edilməsi aspektlərindən, mülkiyyətin istifadə edilməsi formasından və həmin təsərrüfatın təşkilatı quruluşundan asılı olaraq formalaşma xüsusiyyətləri və dinamikası tədqiqat obyekti olaraq idarə olunur. Neft hasilatı və bölgüsünün respublikadaxili münasibətlərə təsiri tənzimləmə obyekti olaraq, təkcə Azərbaycan iqtisadi islahatlar çərçivəsində deyil, həmçinin beynəlxalq iqtisadi qurumlar və maliyyə korporasiyaları tərəfindən tövsiyələrlə tənzimlənir. Beynəlxalq qurumlar investisiya, yaxud uzunmüddətli kreditlərin verilməsini müəyyən şərtlərin daxili real iqtisadi sektorlarda tətbiq olunmasına öhdəçilik formasında idarəetmə mexanizmi kimi tətbiq edirlər. Belə ki, Beynəlxalq Valyuta Fondu (BVF) enerci resurslarının qiymətinin təqribən yüksəldilməsi və dünya qiymətlərinə yaxınlaşmasını, həmçinin güzəştlərin ləğvi, neft gəlirlərinin aşkarlığı və onun büdcə vasitəsi ilə xərclənməsi tədbirlərini öhdəçilik kimi Azərbaycan iqtisadiyyatının transformasiyası modelinə əlavələr kimi diktə edir. Təbii ki, bu tələblər Azərbaycan iqtisadiyyatının transformasiyası modelinin əsas cəhətlərini, onun ardıcıllarını və neft strategiyasının xüsusiyyətlərini formalaşdırır.

Neft hasilatı beynəlxalq müqavilələr əsasında fəaliyyət göstərdiyinə və onun daşınması üçün infrastruktur xərcləri sərf olunduğu üçün vergiqoyma da qarşılıqlı effekt və milli qanunlar əsasında tənzimlənir. Vergi güzəştləri hökumətlərarası, bərabər prinsiplər əsasında tərtib olunur. Əgər hər hansı ölkənin məhsulları digər ölkəyə vahid məqsəd üçün aparılanda vergi güzəştləri tətbiq olunursa, onda digər ölkənin də həmin ölkəyə daşınan məhsullarına eyni vahid güzəştləri tətbiq olunmalıdır. Ona görə də neft kontraktlarında məhz vergi güzəştləri bütün tərəflər üçün bərabər həcmdə və eyni prinsiplər əsasında tərtib olunur.

Neft sektorunun sosial mahiyyəti onun iqtisadi artımı və əhalinin rifahında rolu ilə qiymətləndirilir. Belə ki, neft sənayesində işləyənlərin orta aylıq əmək haqqı digər sahələrdən və iqtisadiyyat üzrə orta aylıq səviyyədən xeyli yuxarıdır. Neft Fondundan dövlət büdcəsinə ayrı-

lan vəsait hesabına sosial müdafiə xərcləri daha böyük üstünlük təşkil edir. Həmçinin neft gəlirlərinin bir hissəsi respublikada qaçqın və köçkünlərin güzəştlərini ödəmək üçün ayrılır.

Neft sənayesi hesabına yaradılan istehsal infrastrukturu yeni iş yerlərinin açılmasına səbəb olur, həmçinin neft kontraktları ilə əlaqədar respublikada işləyən xarici vətəndaşların gəlirlərinin xərclənməsi hesabına xidmət sferası genişlənir. Xarici vətəndaşlar istehlak tələbatını respublikada istehsal olunan kənd təsərrüfatı məhsulları və xidmət sferası ilə ödəməklə bu sahələrin inkişafını artırır və əhalinin gəlirlərinin artım mənbəyi rolunu oynayır.

Neft hasilatının xarici şirkətlərə çatan payının daşınması ayrı təsərrüfat fəaliyyəti olmaqla, beynəlxalq layihələlər başa çatdıqdan sonra, Azərbaycanın sosial-iqtisadi inkişafı üçün yerli əhəmiyyətə malikdir. O cümlədən, “Bakı-Tbilisi –Ceyhan” neft kəmərinin əsas sosial-iqtisadi rolu həmin regionlarda əhalinin məşğul olan hissəsini artırmaq, infrastrukturun daha geniş inkişafını təmin etməkdən ibarətdir. “Bakı-Ceyhan” neft kəmərinin, “Bakı-Ərzurum” qaz kəmərinin çəkilməsi və onların sonrakı istifadəsi Azərbaycan iqtisadiyyatında strateji investisiya layihələri olmaqla, respublikanın regionlarında əhalinin həyat səviyyəsinə, onların regionda məşğulluğuna və sonrakı illərdə daima gəlir gətirən potensial kimi respublikanın siyasi, iqtisadi təhlükəsizliyi üçün qlobal əhəmiyyət kəsb edir. Məhz bu perspektiv layihələr həmçinin yaranmış magistralın beynəlxalq daşımalar üçün əlverişli variant olaraq, ayrı-ayrı ölkələrin neft və qaz məhsullarını daşımağa şərait yaradır. Ona görə də neft hasilatı, qaz nəqli, ölkənin tranzit rolunu artırır, Qərb və Şərq ölkələri arasında TRASEKA proqramının reallaşması və uyğun olaraq infrastrukturun formalaşması üçün ən əlverişli şərait yaradır. Neft və qaz kəmərlərinin tam gücü ilə istifadəsi, sahibkar şirkətlərin, onların dövlətlərinin Azərbaycana olan iqtisadi və maliyyə axınının daha da artmasına səbəb olacaq.

Proqnozların reallaşmasından danışan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: “Bakı-Tbilisi-Ceyhan”, “Bakı-Tbilisi-Ərzurum”, “Şahdəniz”, TANAP, TAP, “Cənub” qaz dəhlizi – bu layihələr regionun, Avropanın enerji xəritəsini dəyişir. Bunların hər biri nadir tarixi layihədir. Bu layihələr son 9 il ərzində icra edilib. “Bakı-Tbilisi-Ceyhan” 2006-cı ildə istifadəyə verilmişdir, dəhliz yaradılmışdır. O dəhliz indi xidmət göstərir, yeni layihələr ortaya çıxır. Yenə də Azərbaycan liderlik keyfiyyətlərini ortaya qoyur. Əgər biz

liderliyi göstərməsəydik, heç vaxt "Cənub" qaz dəhlizi icra edilməyəcəkdi. Mən vaxtilə şəxsən Nabukko layihəsinin müzakirəsi ilə bağlı azı 10 beynəlxalq tədbirdə iştirak etmişəm. Yəni orada müzakirədən başqa heç nə yox idi. Bəyanatlar, çıxışlar, qətnamələrin qəbul edilməsi, vəssalam. Ondan sonra hamı dağılır gedir, iş də qalır kənarda. Mən minimum on tədbirdə iştirak etmişəm. Hər dəfə də demişəm ki, burada liderlik olmalıdır. Bu layihəni necə icra etmək lazımdır? Bunun əsas elementləri nədən ibarətdir? Bu o qədər də çətin məsələ deyil. Amma elə mən deyirdim mən eşdirdim. Daha sonra gördük ki, artıq bu layihə yerində sayır. Yenə də təşəbbüs göstərmişik, TANAP layihəsini təklif etmişik. Adı da biz qoymuşuq, təşəbbüskarı da biz olmuşuq. 2012-ci ildə Türkiyə ilə bu layihəni imzaladıq. Ondan sonra artıq "Cənub" qaz dəhlizi üçün yol açıldı".

## 2. Neft gəlirlərinin iqtisadiyyatın prioritet sahələrinə yönəldilməsi istiqamətləri

Azərbaycanda imzalanmış neft müqavilələrinin, xüsusən də "Əsrin müqaviləsi" üzrə işlərin müvəffəqiyyətlə həyata keçirilməsi, respublika iqtisadiyyatının bütün sahələrinin inkişafına güclü təsir göstərməkdə davam edir. Buna yeni iş yerlərinin açılması, neft-maşınqayırma və neft avadanlıqları istehsal edən müəssisələrin, yerli tikinti təşkilatlarının və xidmət sahələrinin yaradılması, yeni layihələrin icrasında yerli təşkilatların səmərəli iştirakını göstərmək olar. Bütün bunların nəticəsində dövlət büdcəsinə iri bonuslar və vergilər hesabına daxilolmalarının artması, büdcənin formalaşması və bu qəbildən olan digər sahələrin iqtisadi inkişafının əhəmiyyətli dərəcədə dinamik artımı hiss olunmaqdadır. Yaxın gələcəkdə yeni neft layihələrinin tammiqyaslı işlənilməsi nəticəsində xam neftin dünya bazarına çıxarılması genişləndiriləcəkdir. Nəticədə əldə olunan gəlirlər hesabına Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəricilərinin inkişafında müsbət meyillər özünü büruzə verir.

Qeyd etmək lazımdır ki, neft gəlirlərinin vəsaitləri ölkə iqtisadiyyatının ümumi maraqlarını nəzərə almaqla, başqa prioritet sahələrin inkişafına yönəldilməsi ən başlıca məsələ kimi aktual məsələ olaraq qalır. Bütün hallarda bu məsələ bir çox sayda iştirakçıların mərkəzləşdirilmiş, qarşılıqlı fəaliyyət mexanizmləri nəzərə alınmaqla həyata keçirilməlidir. Bu da təbiidir, çünki, milli təbii ehtiyatların istifadəsindən

əldə olunan vəsaitlərin bölüşdürülməsi ciddi nəzarət altında saxlanılmalıdır ki, onların itkisinə yol verilməsin.

Neft gəlirlərinin istifadəsinin prioritet istiqamətlərinin müəyyən edilməsi və bunun üçün paylanmanın mərkəzləşdirilmiş mexanizmlərinin yaradılması respublikamız üçün olduqca vacib məsələlərdən biridir. Neftdən əldə olunan gəlirlərin iqtisadiyyatın digər vacib sahələrinə yönəldilməsini, qeyri-neft sektorunda yeni istehsal müəssisələrinin açılması yolu ilə yeni iş yerlərinin yaradılmasını, bir sözlə, əhalinin sosial müdafiə tədbirlərinin daha da gücləndirilməsini özünün iqtisadi siyasətində prioritet vəzifə kimi nəzərdən keçirir. Neft hasilatı Azərbaycan üçün son məqsəd deyil, o iqtisadiyyatı inkişaf etdirmək üçün bir vasitədir. «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın 2014-2018-ci illər təsdiq edilməsi haqqında» fərmanlarında da neftdən əldə olunan gəlirlərdən milli iqtisadiyyatın çoxqütblü inkişafı naminə səmərəli istifadə olunması məsələsinə mühüm yer ayrılmışdır. Bu fərmanların əsas qayəsi ölkədə sahibkarlığın inkişafını sürətləndirməklə, əmək ehtiyatlarından, təbii resurslardan səmərəli istifadə etməklə yeni iş yerlərinin açılmasına, yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaqdan ibarətdir. Regionların iqtisadi inkişafındakı ləngliyi aradan qaldırmaq məqsədi daşıyan bu fərmanda iş adamlarının fəaliyyətinə mane olan bürokratik amillərin aradan qaldırılması müvafiq icra strukturları qarşısında əsas vəzifələrdən biri kimi qoyulub. Qısa müddətdə Azərbaycanda 75 mindən artıq yeni iş yerinin açılması fərman və sərəncamların, həyata keçirilən əməli-praktik tədbirlərin uğurlu nəticələrinin təzahürüdür. Ümumiyyətlə, son 11 il, yəni 2004-2014-cü illərdə işsiz əhalinin sayı 44%, yoxsul əhalinin sayı 7,1 dəfə azalmışdır. Neft gəlirlərinin iqtisadi transformasiya üçün istifadə edilməsi, onun idarə olunması və ehtiyatlarının təkrar istehsalı problemləri ilə bağlıdır.

Neft gəlirlərinin axını ölkə iqtisadiyyatında yığılıb qalmış problemlərin kompleks həllinə yönəldilməlidir. Ölkəmizin məhdud təbii ehtiyatları olmasına baxmayaraq, dövlətin himayəçilik siyasəti hesabına iqtisadi yüksəlişə nail olmaq olar. Dövlətin tənzimləyici rolu hesabına yüksək inkişaf tempinə çatmış, Cənubi-Şərqi Asiya ölkələrindən fərqli olaraq, Azərbaycanda bu daha qısa müddətə öz bəhrəsini verəcək. Bu isə strateji məsələlərin həllinə imkan verəcək. Neft Fonduna pul axını zəmanətsiz pul emissiyasına şərait yaradacaq, ölkə iqtisadiyyatına xarici investisiyalar tələb etmədən, yeni maliyyə mənbələri ax-

tarmadan, iqtisadiyyatın prioritet istiqamətlərinin inkişafına və zəruri vəsaitlərin ayrılması məsələlərinin həllinə imkan verəcək.

Neft gəlirlərinin potensial imkanları onun strateji rolu ilə qiymətləndirilir. Onun sahə, ərazi, funksional məqsədlər üçün bölünməsi respublika iqtisadiyyatının makroiqtisadi proqnozunun səmərəli təşkili və həmin proqnozların reallaşmasında neft gəlirlərinin maksimal istifadəsi istiqamətləri ilə ölçülür.

Qeyd etmək lazımdır ki, gəlirlərin bölgüsündə səmərəlilik xüsusi və inteqral göstəricilər ilə tənzimlənir. Belə ki, xüsusi səmərə gəlirlərin istifadəsi zamanı hər bir sahənin rentabellik səviyyəsinin yüksəlməsi, yaxud regionda daxili bazarın hər hansı məhsul və xidmət üzrə tələbat səviyyəsinə yüksəldilməsi meyarları ilə ölçülür. Digər tərəfdən gəlirlər inteqral səmərə gətirmək qabiliyyəti kimi rifah və tələbatın ödənilmə dərəcəsinin maksimumlaşdırılmasına doğru atılan addımlarla, yaxud artım tempi ilə ölçülür. Gəlirlərin diferensial səmərəsi hər bir kontingent, yaxud bazar subyekti kimi ayrı-ayrı sahibkarlıq növlərinin və yaxud məhsul və xidmət növünün dəyişmə meyli ilə də qiymətləndirilir.

Neft gəlirlərinin Azərbaycan iqtisadiyyatının ayrı-ayrı sahələrinin inkişafı məqsədi ilə kapital qoyuluşlarına çevrilməsi qlobal inkişaf meyillərinin və bazarın qorunması konsepsiyası ilə bağlıdır.

Dövlət hal-hazırda iqtisadiyyatın hər hansı sahələrinin rekonstruksiya edilməsi layihələrini maliyyələşdirmək üçün kifayət qədər investisiya ehtiyatlarına malik deyil. Buna görə neft gəlirlərinin səmərəli istifadəsi, onun perspektiv imkanlarını artırır.

Azərbaycan müəssisələrinin səhmlərinə qoyulası xarici investisiyaların əhəmiyyətli dərəcədə neft gəlirlərinin dövlət proqramları əsasında prioritet sahələrinə yönəlməsi optimal variant sayılır.

Neft sektoru dövlət gəlirləri və əhali gəlirlərinin formalaşmasında əsas bölgü və yenidən bölgü mexanizmləri vasitəsi ilə formalaşır və dərinləşir. Neft gəlirləri istehlak və yığım məqsədi ilə bölündükdə təkrar istehsal prinsipi reallaşır. Bugünkü istehlak ilə perspektiv gəlirlər arasında keçidin formaları və məzmunu, onun bölgüsü və yenidən bölgüsü mexanizmlərinin effektini göstərir. Neft sahəsi heç də hamını əlabaxımlığa çevirməməlidir. O, ancaq perspektiv gəlirlərin yaranması üçün ilkin kapital rolunu oynamalıdır. Əgər Azərbaycan iqtisadiyyatında istehlak sferasında neft gəlirləri istifadə olunsa, onda perspektiv gəlirlərin mənbəyi azala bilər. Ona görə də neft gəlirlərinin səmərəsi onun

perspektiv gəlirlərdə rolu ilə ölçülür. Bu gün Azərbaycanda neft gəlirləri dövlət büdcəsinin Sosial Müdafiə Fondunun qaçqınlar və köçkünlər üçün birdəfəlik xərc kimi, yaxud müntəzəm maliyyə mənbəyinin oynadığı kimi onun özünün sahə kimi təkrar istehsalı bölgü sistemində qlobal və məhəlli proporsiyaları yaradır. Xarici və daxili investtisiyaların dəyişmə meyli gəlirlərin bölgüsünün xarakterini müəyyən edir.

Neft gəlirlərinin istifadəsindən əvvəl onun həcmini və artımını nəzərə almaqla qorunması üsullarının səmərəli variantlarını tərtib etmək metodologiyasını hazırlamaq vacibdir. Neft gəlirlərinin həcmi və onun məqsədli istifadəsi ölkə iqtisadiyyatının kompleks inkişafı və strateji məqsədlərinin əsasında özünün spesifik xüsusiyyətlərini kəsb edir. Onun artım tempinə uyğun olaraq istifadə tempini artırmaq və onun istifadəsi zamanı əldə edilən effektini dünya banklarında saxlamaqdan əldə edilən gəlirlərdən çox olması məqamlarını da qiymətləndirmək vacibdir. Bu gün respublikada kredit resursu kimi həmin vəsaitin istifadəsi mümkün ola bilər. Amma qərarlaşmamış bazar münasibətləri şəraitində və mövcud bazar seqmentlərində özünün əmtəə və xidmət təklifini formalaşdırmamaq şəraitində bu vəsaitin istifadəsi, fikrimizcə, riskli bir addım ola bilər. Ona görə də neft gəlirlərinin bölgüsü meyar kimi qəbul edilə bilər. Neft gəlirlərinin istifadəsinin ilkin amili onun istehsal həcminin maksimumlaşdırılmasıdır.

Neft məhsullarının istifadəsi istiqamətləri, onun gəlirlərinin artımına səbəb olur. Belə ki, istifadə marketinq strukturu, kommersiya mənfəəti baxımından müxtəlif gəlirlər gətirir. Belə ki, enerji resurslarının alınması və onlara olan tələbatın artması neft məhsullarının enerji hasilatı üçün təyinatını artırır. Bu da onun istifadəsindən maksimal gəlir gətirən sahələrin seçilməsi variantlarını axtarmağa imkan verir. Azərbaycan Respublikasında mazutun enerji alınması üçün istifadəsi, onun satılıb, başqa ölkələrdən qaz almaqla enerji tələbatını ödəməkdən baha başa gəlir. Ona görə də sahibkarlığın inkişafında neft və neft məhsullarının istifadəsi istiqamətinin müəyyən edilməsi, onun təşəbbüsü və həmçinin təsərrüfatçılıq fəaliyyətinin səmərəli təşkili formasından xeyli asılıdır.

Neft gəlirləri digər sahələrin gəlirləri kimi dövlət gəlirlərinin tərkib hissəsidir, onun formalaşması və istifadəsində bölgü prinsiplərinin seçilməsi, dövlət ehtiyaclarını ödəmək, ölkənin davamlı iqtisadi inkişafını təmin etmək, həmçinin özünün iqtisadi potensialını və sahə ehtiyatlarını ödəmək vəzifələri durur. Ona görə də neft gəlirlərinin mənbə-

yi və onun istifadəsi heç də kommersiya gəlirləri deyil, onun yaranması və istifadəsi ümummilli strateji məqsəd olduğu üçün, onun istifadəsində sosial ədalət və cari tələblərlə perspektiv tələblər arasında optimal nisbətlər tənzimlənməlidir. Qeyd etmək lazımdır ki, ümumi daxili məhsulun formalaşmasında ölkə iqtisadiyyatının sahə quruluşu əsas rol oynadığı kimi, neft sektoru sənaye məhsulu və hasilat sənayesi kimi ölkənin maliyyə potensialının formalaşmasında aparıcı rol oynayır. Neft gəlirləri dövlət büdcəsinin tərkib hissəsi olmaqla vergi, sosial ödəmələr və əməkhaqqı mexanizmləri vasitəsi ilə bölgü və yenidən bölgü sistemində iştirak edir. Neft sahəsinin vergi gəlirləri əlavə dəyər vergisi, mənfəət vergisi və həmçinin əmlak vergisi verməklə dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirlərinin əsas tərkib hissəsini təşkil edir. Neft fondunun idarə edilməsi onun istifadəsinin potensial imkanlarını yaradır. Neft gəlirlərinin bir hissəsi əməkhaqqı sistemində öz subyektini dəyişməklə işləyənlərin əməyinin dəyərinə verilir. Xarici firmalarda yerli əhalinin iş qüvvəsindən istifadə etməklə əməkhaqqı verilməsi həmin gəlirlərin əhali vasitəsi ilə respublika maliyyə balansına daxil olmağa səbəb olur. Ona görə də respublika ərazisində neft gəlirləri, respublika mülkiyyətində olan potensialdan və həmçinin istifadə üçün verilən xarici ölkələrin payından daxilolmalar ilə müəyyənləşir. Respublikada alıcılıq qabiliyyəti məhz həmin gəlirlərin respublikada xərclənən hissəsi ilə ölçülür.

Neft gəlirlərinin sosial mahiyyəti orada işləyənlərin həyat səviyyəsi və hər bir nəfərə düşən neft gəlirlərinin miqdarı ilə ölçülür. Bu rəqəm, əlbəttə, heç də ələbaxımlıq və istehlak tələbatını ödəməklə digər sahələrin inkişafını dayandırmamalıdır. Ona görə də onun istifadəsində yığım və istehlak arasında optimal nisbət tədqiq olunmalıdır. Əgər neft gəlirlərinin investisiya məqsədi ilə istifadəsi, onun müəyyən potensial mənimsənilməsi dövründən sonra iqtisadi artımını təmin edəcəksə, təbii ki, bu meyillər proqnozlaşdırmada və bölgü prinsipində öz yerini saxlamalıdır. Daha çox üstünlük, məhz səmərəli investisiya istiqamətlərinə verilməlidir. İstehlak əhəmiyyətli istiqamətlərdə gəlirlərin istifadəsini sosial infrastruktur sahələrinə qoyulan kapital qoyuluşu ilə daha səmərəli hesab etmək olar. Digər əsas istiqamət, əhalinin aztəminatlı və yoxsul təbəqələrinin minimum yaşayış səviyyəsi həcmində istehlak tələbatını ödəmək üçün xərcləmək istiqaməti ola bilər.

Neft gəlirləri istehsal sahəsində və neft məhsullarının reallaşması, həmçinin neft hasilatında iştirak edən şirkətlərin və sahələrin ödəmələ-

ri, yaxud birbaşa iştirakı vasitəsi ilə əldə olunan gəlirlərin hesabına yaranır. Neft sahəsi Azərbaycan Respublikasında dominant rolunu oynamaqla, tutumuna və təsərrüfat əlaqələrinə görə mühüm yer tutur. Ölkə iqtisadiyyatının makroiqtisadi artım tempi, tarazlı inkişaf dinamikası və sosial müdafiə tədbirləri neft gəlirləri hesabına ödənilir. Neftin iqtisadi və sosial rolu onun sahələrarası proporsiyalarını, infrastruktur sahələrinin və maliyyə potensialının formalaşması ilə özünü göstərir. Respublikanın islahatlar proqramı, yoxsulluğun ləğvi və İqtisadi İnkişaf Proqramı, regionların Sosial İqtisadi İnkişafının Dövlət Proqramı neft potensialının cari və perspektiv istifadə istiqamətlərini müəyyən edir. Respublikada sintetik göstərici olan ümumi daxili məhsul və dövlət gəlirlərinin formalaşmasında neft sahəsinin rolunu və onun gəlirlərinin dövlət büdcəsi, Neft Fondu və xüsusi vəsaitlər hesabına bölgüsü, struktur təhlil aparmağa imkan verir.

Ümumi daxili məhsulun sahə strukturunun dəyişməsi, sahələrin istehsal həcminin artımı, həmin sahələrə qoyulan faktiki kapital qoyuluşu və gətirilən maddi resursların artımı ilə formalaşır. Bir faktı da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləgi 2014-cü ildə əvvəlki illərlə müqayisədə 17,7 % azalmışdır.

Neft gəlirlərinin makroiqtisadi tələbat, tarazlı inkişaf vəziyyətini möhkəmlətməklə, onun infrastrukturunun genişlənməsi yolu ilə yeni iş yerlərinin açılması, yaxud həmin sahədə işləyənlərin əməkhaqqının və sosial müdafiəsinin güclənməsi tədbirlərini əhatə edir.

Makroiqtisadi tarazlıq məqsədi ilə ölkədə büdcə gəlirlərinin və neft fondunun əlaqəsinin qurulması, neft gəlirlərinin bölgüsü ilə büdcə xərclərinin təkrar istehsal, yaxud texnoloji quruluşu və sahələr üzrə təsnifata uyğun bölgüsü mexanizmləri tətbiq edilir. Bu mexanizmlərin seçilməsi, onların dəyişmə meyilləri və idarə edilmə strategiyası, normativ hüquqi və iqtisadi bazası, məhz qlobal inkişaf strategiyasına əsaslanır. Neft fondunun büdcə vasitəsi ilə istifadəsi hələ qərarlaşmamış bazar iqtisadiyyatı şəraitində əlavə xərclərin artmasına və maliyyə pozuntularına gətirib çıxara bilər. Ona görə də onun büdcə gəlirləri şəklində təsdiqi və ona nəzarət məqsədi ilə əsaslanmış xərc strukturuna görə Neft Fondundan büdcəyə vəsait ayrılır. Bu ayırma Neft Fondunun gəlir və xərclərində, dövlət büdcəsinin ayrıca sətri ilə gəlirlərində, prioritet istiqamətləri nəzərə almaqla xərc strukturunun sahə və funksional təsnifatı üzrə bölüşdürülür. Təbii ki, bu bölgüdə büdcənin

özünün reallığı şəffaflığı və onun real sektora yaxınlığı mühüm şərait kimi təsir edir. Beləliklə, neft gəlirlərinin dövlət büdcəsinin gəlirləri və büdcə vasitəsi ilə xərclərinin transformasiyasında alternativ variantlar, yaxud elmi əsaslarla proqnozlaşdırılmış meyillər əsas rol oynayır. Nəticədə bu son effektə təsir edir. Büdcə xərclərinin strukturunda neft gəlirlərinin investisiya və yaxud istehlak məqsədilə bölgüsü, yaxud müdafiə olunan xərclər, yaxud restruktizasiya və modernləşdirmə xərcləri arasında nisbətlər sonrakı neft gəlirlərinin ayırma meylini və onun səmərəsini müəyyən edir.

Neft gəlirlərinin artırılması amili olaraq kompleks sahələrin ahəngdarlığı ixtisaslaşma səviyyəsi ilə yanaşı, sistem bağlılığı ilə bağlıdır. Ona görə də iqtisadi mexanizmlərin inkişafı və onların real sektorun xüsusiyyətlərinə uyğun transformasiyası digər sahələrin mənafeyini təmin etməlidir. Ona görə də neft sektorunda gəlirlərin artırılması xarici amillərlə yanaşı, həmin sahə daxilində resursların biri-birini əvəz etməsinin optimal variantının seçilməsi və neft sənayesində əmək haqqı ilə onun maddi resursları arasında stimullaşdırma mexanizmləri tətbiq edilməlidir. Bu baxımdan ölkənin iqtisadi sahələri arasındakı əməkhaqqı sistemi, neft gəlirləri ilə onun mənfəət norması arasındakı nisbətlər, həm stimullar yaratmaq, həm də sahədaxili maddi əşya strukturu ilə işçi qüvvəsinin təkrar istehsalı arasındakı nisbətlər optimal olmalıdır.

Neft gəlirlərinin saxlanması respublikada neft fondu vasitəsilə reallaşır. Neft Fondunun idarə olunmasından gələn gəlirlərin də müəyyən variantları ola bilər. Təbii ki, respublikanın iqtisadi transformasiya və restruktizasiya istiqamətləri həmin fondun istifadəsində prioritetləri müəyyən edir. Neft Fondunun istifadəsi risklərlə bağlıdır. Əgər riski böyük olan sahələrə Neft Fondu istifadə olunursa, onun sosial-iqtisadi effekti haqqında təminat vermək mümkün olmaz. Neft Fondunun istifadəsində sosial müdafiə tədbirləri və birbaşa ayırmalarına ayrılan vəsait ünvanlı xarakter daşımaqla sosial normativlərə əsalanır. Respublikada Neft Fondunun gəlirləri və xərcləri üzərində nəzarət büdcə vasitəsi və prezident yanında yaradılan Şura vasitəsi ilə idarə olunur. Respublikada neft gəlirlərinin və onun istifadə imkanlarının ÜDM-un tərkib hissəsi kimi təkrar istehsal və təsərrüfat əlaqələri neft sektorunun aparıcı olması prioriteti ilə müəyyənləşir.

Neft gəlirlərinin artması ilə respublika üçün əsas inkişaf və səmərəli sahə olan ticarət və xidmət sahələrinin inkişafına beynəlxalq tica-

rəti, turizmi və dövlət lizinq şirkətlərini aid etmək olar. Dünya iqtisadiyyatının sərfəli inkişafı bir sıra amillərdən asılıdır. Bu amillərin içərisində ən başlıcasından biri ölkələr arasında ticarət əlaqələrinin inkişafıdır. Dünya iqtisadiyyatının bir vahid orqanı kimi inkişaf edib genişlənməsi üçün ölkələr arasında hərtərəfli əməkdaşlığın yaranması tələb olunur. Ticarət, ölkələr arasında yeni texnika və texnologiyaların, elmi kəşflərin, qabaqcıl təcrübələrin öyrənilməsində böyük rol oynayır. Bu gün Azərbaycan dünya dövlətləri ilə sərbəst əməkdaşlıq etmək imkanı əldə etmişdir. Ölkədə aparılan iqtisadi islahatlar təsərrüfatın başqa sahələrində olduğu kimi xarici ticarətdə də öz təsirini göstərmişdir. Belə ki, Azərbaycanın ticarət dövriyyəsinin həcmi əvvəlki dövrlərdə başlanan meyillərə uyğun olaraq artmaqda davam edir. Neft sahəsinin inkişaf etdirilməsi ilə əlaqədar olaraq son illər əsas ticarət tərəfdaşlarının sırasına ABS, İngiltərə, Fransa, İsrail, Rusiya, Almaniya, Niderland və s. Avropa dövlətləri qatılmışdır. İxracın bu ölkələrə artması, eyni zamanda da əks istidamətdə bu ölkələrdə isthesal olunan malların ölkəmizə gətirilməsinə şərait yaratmışdır. Azərbaycanın şirkət və iş adamları dünyanın əksər dövlətləri ilə ticarət əməliyyatları aparırlar. Azərbaycanın regionda tutduğu əlverişli geostrateji mövqeyi, təbii ehtiyatları, iqlimi və eləcə də inkişaf etdirilmiş infrastruktura malik olması xarici şirkətlərin ölkəmizə gəlməsinə imkan yaradır.

Bu məqsədlə müvafiq ərazilərdə, xüsusilə Xəzər dənizi sahillərində, dünya standartlarına uyğun müasir otellərin, istirahət zonalarının tikintisi, ekoparkların salınması mühüm əhəmiyyət kəsb edir. Bundan başqa, Xəzər dənizi adalarında kurort zonalarının, xidmət sahələrinin yaradılmasına şərait yaratmaq, onların sürətli inkişafına nail olmaqdır. Bu layihələrin reallaşdığı vaxt çoxlu yeni iş yerlərinin açılmasına səbəb olur ki, bu da respublikamızda işsizliyin aradan qaldırılmasında mühüm rol oynayar. Bunların inkişafına vəsaitin Neft Fondundan ayrılması məqsədə uyğun olar. Bu sahəyə diqqəti artırmaqla və ixrac xidmətlərini genişləndirməklə ölkəyə xeyli valyuta axınını artırmaq olar. Ticarət əlaqələrinin inkişafı son nəticədə ölkənin inteqrasiya sisteminə daxil olmasını sürətləndirir. Belə ki, dünya bazarına çıxmaq üçün istehsal məhsulları və xammalın keyfiyyətinin yaxşılaşdırılması elmi-texniki tərəqqiyə uyğun olaraq texnoloji proseslərin modernləşdirilməsi və dünya ticarət birliyinə daxil olması cəhdləri yaradır. Bu məqsədlə dövlət lizinq şirkətlərinin yaradılması əsas metod kimi qəbul olunur.

Qeyd etmək lazımdır ki, Neft Fondu nəzdində müxtəlif elmi-tədqiqat institutlarının bazasında səhmdar (vençur) müəssisələri yaratmaq yaxşı olardı. İnkişaf etmiş ölkələrdə bu səhmdar (vençur) şirkətlər elmi-tədqiqaitların nailiyyətlərinin dünya texnologiyaları bazarına ixracında aparıcı rol oynayırlar. Bundan başqa, texnoparklar və texnoloji müəssisələrin yaradılması məqsədəuyğun olardı. Bununla əlaqədar, neft gəlirləri hesabına elm və texnika üzrə respublikada mövcud təşkilati-iqtisadi idarəetmə orqanları və onların idarə edilməsi mexanizmləri bazar tipli modellər və metodlarla tənzimlənməlidir.

Kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və yeyinti sənayesinin inkişafı Azərbaycan Respublikası üçün neft gəlirlərinin istifadə sahəsi və onun bölgüsü mexanizmidir.

Hər hansı bir ölkə daxilində bas verən istər sosial, istər iqtisadi və istərsə də siyasi proseslərin əsasını istehsal təşkil edir. İstehsalın əsasında ərzaq məhsulların həlli əsas yerlərdən birini tutur. Ərzaq məhsullarının əldə edilməsinin əsas mənbəyi kənd təsərrüfatıdır. Kənd təsərrüfatı - ölkə əhalisini ərzaqla təmin etməklə yanaşı, ölkənin əhalisinin məşğulluq məsələlərini həll edir və xarici iqtisadi əlaqələri, xüsusən də xarici ticarətin inkişaf etdirilməsində müstəsna rol oynayır. Dünya ölkələrində olduğu kimi Azərbaycanda da kənd təsərrüfatının inkişaf etdirilməsinə hər cür şərait vardır. Bunun üçün ölkənin təbiəti, münbit torpaqları, meşələri, coğrafi ərazisinin quruluşu və iqlim şəraiti buna əsas verir.

Belə bir faktı göstərmək lazımdır ki, respublikada kimya və neft-kimya sənayesinin inkişafı formalaşmış potensialın iqtisadi dövriyyəyə cəlb edilməsini sürətləndirməklə, regionun beynəlxalq ticarət əlaqələrini və kimya sənayesi məhsullarının ixracını artırmaqla əhalinin məşğulluğunu bərpa edə bilər.

Bu sənaye sahəsinin inkişafında əsas Sumqayıt- Propilen, Polietilen, Neftçala Yod- Brom və digər zavodların işə salınmasıdır ki, bunun üçün əsas xammal növü neft fraksiyası və kondensatlardır. Neft-kimya sənayesinin inkişaf konsepsiyası yerli xammaldan maksimum istifadə etməklə, ölkəmizdə məhsul bolluğu yaratmaq və sənaye sahələrinə lazım olan azot birləşmələri, sintetik liflər, konstruksion materiallaı ilə təmin etməkdir. Bu baxımdan respublikamızda neft-kimya sənayesinin inkişafı, benzin fraksiyasının pirolizi nəticəsində və neft emalı zavodlarından alınan karbohidrogenlərin emalı və ölkəmizin təbii sərvətləridir ki, bu da Azərbaycan iqtisadiyyatına neft dollarlarının artan axınına şərait yaradacaq.

Azərbaycanın kimya sənayesinin çox gəlirli istiqamətlərindən biri də karbomid və ammiak gübrələrinin istehsalıdır. Karbamid azot gübrəsi kimi respublikanın kənd təsərrüfatı məhsullarının, pambıq, taxıl, tərəvəz və s. sahələrin inkişafı üçün əsas sayılır. Eyni zamanda dünya bazarında və xüsusən Asiya ölkələrində karbamidə tələbat hər il artmaqdadır. Karbomid və ammiak gübrələrinin istehsalının əsas xammalı yerli təbii qaz olduğunu və respublikada yeni qaz yataqlarının istismar olacağını nəzərə alsaq, bu layihənin əlverişli və iqtisadi cəhətdən səmərəli hesab etmək olar.

Respublikada hələ ki, gübrə istehsalı, fosforlu gübrələr istisna olmaqla, mövcud deyil. Onlar üçün xammal Rusiyanın ucqar rayonlarından gətirilir.Bunun üçün karbomid və ammiak gübrələrinin istehsalı üçün Şirvan səhərində zavodun tikilməsi məqsədəuyğundur. Zavodun layihə gücü, karbomid üzrə - ildə 500 min ton, ammiak üzrə - 330 min ton təşkil edir. Layihənin dəyəri 3100 milyon ABS dollarıdır.

Azərbaycanda kaustuk soda və yod-brom məhsullarının istehsalında Neftçalanın yeraltı sularının duzlarından istifadə etmək imkanları vardır. Bu sahədə istehsal olunan 180-200 min ton duz və kaustuk soda yeyinti sənayesinin və respublikanın tələbatını ödəyə bilər. Bununla əlaqədar Naxçıvan dağ mədənlərində çıxarılan duzlardan istifadəni fəallaşdırmaq tələb olunur. Mütəxəssis və alimlər qrupunun rəyinə əsasən bunun üçün zavodu modernləşdirmək lazımdır.

Bundan əlavə, Neftçala Yod-Brom Zavodunda istehsal olunan yod və brom əsasında dərman preparatlarının istehsalının təşkil edilməsi nəzərdə tutulur ki, bu da respublikamızda həmin məhsula olan tələbatın ödənilməsi üçün vacibdir. Bundan başqa, bu duzların tərkibində ağır metallar az olduğundan onlardan elektroliz prosesində istifadə oluna bilər. Bu gəlirli istehsalatın inkişafı xammal ixracı problemini həll etməyə kömək edər və respublika iqtisadiyyatının inkişafına öz töhfəsini verərdi.

Qeyd etmək lazımdır ki, neft gəlirlərinin sahələr üzrə prioritetlərinin seçilməsi hər bir sahənin sosial-iqtisadi effekti ilə ölçülür. Ona görə də neft gəlirləri, həmçinin mülkiyyət münasibətlərindən asılı olmayaraq qeyri-dövlət sektoruna, kreditlər və maliyyə lizinqi, yaxud lizinq formasında istifadə oluna bilər. Maliyyə lizinqini neft gəlirləri hesabına iqtisadi fəaliyyəti stimullaşdıran xidmət sferası təşkil etmək yolu ilə inkişaf etdirmək olar. O cümlədən, sahibkarlığa kömək məqsədi ilə ünvanlı kredit, ayrı-ayrı regionların iqtisadi potensialını istifa-

də etmək üçün lokal proqramlar və biznes planların səmərəsinə uyğun neft gəlirləri istifadə edilə bilər. Həmçinin turizmin inkişafı, yeni aparatların alınması, müalicə-profilaktika tədbirləri üçün kreditlər verilməlidir.

Qeyd etmək lazımdır ki, neft sənayesinin perspektivi neft emalı və onun səmərəli təşkili üsullarının səmərəsi ilə də formalaşır. Struktur dəyişmələr, neft hasilatı və istifadəsi tsikilində olan modernləşdirmə stimulları və reallaşma mərhələlərinin hər birinin xüsusi effekti və kompleks effekti ilə ölçülür. Bu baxımdan struktur səmərə ardıcıl olaraq sahədaxili proporsiyaların uzlaşması, istehsal, emal və satış arasında gəlirlərin bölgüsü və kapital qoyuluşunda biri-birini tamamlayan vahid səmərə siyasəti keçirilməlidir.

Bu gün Azərbaycan iqtisadiyyatına investisiya qoyan strateji investorlar yalnız xammal mənbələrinə maraq göstərirlər. Onlardan heç biri emal müəssisələrinin yenidən qurulmasına maraq göstərmirlər. Bu isə gələcəkdə həmin investorların inhisar niyyətinə gətirib çıxara bilər. Bu baxımdan neft sektoru klassik nümunə ola bilər. Neft konsorsiumunın iştirakçılarından heç biri hələ bu günə kimi neft emalı müəssisələrinin tikintisinə və yaxud yenidən quraşdırılması haqqında öz arzularını bildirməmişdir. Azərbaycan iqtisadiyyatının neft sektorunda inhisar niyyətinə yol verməmək üçün yalnız ölkənin milli emaletmə sənayesini bərpa etmək lazımdır. Neft gəlirlərinin yarıdan çoxunun bu sahəyə yönəldilməsi məqsədəuyğundur. Biz belə hesab edirik ki, idxalı əvəz edən və ixracayönümlü sənaye sahələrinin inkişafının təmin edilməsi üçün neft gəlirlərinin prioritet müəssisələr arasında müsabiqə yolu ilə paylanması lazımdır. Müsabiqədə iştirak edən müəssisələr, məsələn, istehsal etdikləri məhsulun çox hissəsini xarici bazarlarda realizə etməli, yerli xammal ehtiyatlarından maxsimum istifadə etməlidir. Bütün sahələrin inkişafı və əhalinin istehlak tələbatının ödənilməsi qaz sənayesinin perspektivi ilə bağlıdır.

Azərbaycan iqtisadiyyatının aparıcı qollarından biri də qaz sənayesidir. Qaz - ən ucuz və ən təmiz yanacaq növü olaraq respublikamızda istilikenergetika sisteminin formalaşmasinda başlıca yer tutur. Azərbaycanda çox böyük təbii qaz yatağları vardır. Bunlardan ən böyüyü 1999-cu ildə dənizdə kəşf olunmus Şahdəniz yatağıdır. Bunun ehtiyatı, xarici ekspertlərin fikrincə, 1.4mld ton neft vahididir. Ümumiyyətlə, Azərbaycanda təbii qaz ehtiyatı 1.0-1.1 trilyon m3 miqda-

rında, proqnoz 1,7-2.5trilyon m3-dir. Azərbaycan iqtisadiyyatının gələcək sabit inkişafı üçün qaz sənayesinin yenidən qurulması və kəşf olunan yataqların istismarına başlamaq lazımdır. Bu işlərə lazım olan vəsaiti Neft Fondunun gəlirləri hesabına etmək olar. Gələcəkdə bu qazın dünyanın müxtəlif bazarlarında satışından gələn gəlir hesabina ölkə büdcəsini sabit inkişafına öz müsbət təsirini göstərəcəkdir.

Belə ki, bu gün Avropa Birliyinə daxil olan 15 ölkənin bazarlarında qaza olan tələbat 223 mln ton neft vahidi təşkil edir.

Xarici ticarət balansı malların ixracı, xidmət sektorunun dövriyyəsi, digər xidmətlərdə neft sektorunun rolu qiymətləndirilir. Neft sektoru respublikada multiplikasiya effekti rolunu oynamaqla ümumi tarazlı və perspektiv inkişaf üçün əsas yaradır. Neft gəlirlərinin proqnozlaşdırılması uzunmüddətli dövr üçün daha adekvatdır. Proqnozlar respublika daxili və xarici amilləri nəzərə almaqla reallaşır.

## II FƏSİL

# AZƏRBAYCANIN QEYRI-NEFT SEKTORUNUN İNKIŞAFI

*"Qeyri-neft sektorunun inkişafı bizim üçün həmişə prioritet olub. Bunun nəticəsidir ki, bu gün ölkə iqtisadiyyatı dünyada çoxşaxəli iqtisadiyyat kimi tanınır"*

***İlham Əliyev***

### 1. Milli iqtisadiyyatın inkişafında qeyri-neft sektorun un ixrac potensialından səmərəli istifadənin rolunun artması

Milli iqtisadiyyatın inkişafı olduqca mürəkkəb elementlərdən ibarət vəzifələrin yerinə yetirilməsinə sistemli yanaşılmanı və bu proseslərdə işlək, effektivli, məhsuldar mexanizmlərin tətbiqini şərtləndirir. Dövlət sadəcə siyasi və iqtisadi prioritetləri müəyyənləşdirməklə milli iqtisadiyyatın dayanıqlı inkişafını təmin edə bilməz. Bu proseslərdə ardıcıllıq prinsipləri qorunmalı, milli iqtisadiyyatın milli maraqlar çərçivəsində dayanıqlı inkişafına konseptual yanaşma təmin olunmalı, prioritet fəaliyyət istiqamətləri müəyyənləşdirilməli və nəhayət, onların reallaşdırılmasının səmərəli mexanizmləri hazırlanmalıdır. Müasir dövrdə, yəni qloballaşmanın hər bir sahədə dərinləşdiyi şəraitdə baş verən tendensiyalara adekvat dövlət modelinin formalaşdırılması, dövlət tərəfindən hazırlanması və tətbiq edilməsi nəzərdə tutulan tənzimləmə mexanizmlərinin, alətlərin kəsərli olması tələb olunur**.** Bu istiqamətdə dövlətin milli iqtisadiyyatın balanslaşdırılmış inkişafı üzrə prioritet və strateji vəzifələrinin əsas funksiyalarına aşağıdakılar daxil edilə bilər:

İqtisadiyyatın artım və inkişaf proseslərində bilik amilinin roluna üstünlük verilməsi və gücləndirilməsi;

İqtisadiyyatın struktur dəyişikliklərinin aparılması və diversifikasiya proseslərinin optimallaşdırılması;

İqtisadi artımın və iqtisadi inkişafın stimullaşdırılması mexanizmlərinin işlənib hazırlanması və reallaşdırılması;

Cəmiyyətlə mülkiyyətçilər arasında münasibətlərin diferensiallaşdırılması, müxtəlif iqtisadiyyat sahələrinin milliləşdirilməsi proseslərində tarazlıq prinsiplərinin qorunması;

Ölkə və xarici kapitalın qarşılıqlı hərəkətinin səmərəliliyinin təşkili;

İqtisadi artımın və iqtisadi inkişafın regional yanaşmasında daha optimallaşdırılmış modelə üstünlük verilməsi və s.

Dünya ölkələrinin bir qrupunda milli iqtisadiyyatın inkişaf proseslərinə, xarici-iqtisadi fəaliyyət üzrə siyasətin formalaşmasına, xüsusilə ixrac potensialının məhsuldar və səmərəli mexanizmlərinin təşkilinə yanaşmada, qeyd etdiyimiz amillərin daha uğurlu nəzərə alınması mümkün olmuşdur. Məsələn, II Dünya müharibəsindən sonra ABŞ dünya iqtisadiyyatında liderliyini gücləndirmək üçün bütün istiqamətlərdə fəallaşa bilmişdir. Bu tədbirlərdə satış bazarlarının genişləndirilməsi, ixracın stimullaşdırılması, investisiyaların qorunması tədbirlərinin gücləndirilməsi və daha çox diqqəti cəlb etmişdir. Şübhəsiz, bu cür yanaşma milli iqtisadiyyatı gücləndirməklə bərabər, həm də onun beynəlmilləşməsini, qlobal proseslərə daha güclü təsir edə bilməsi potensialını artırır. Və yaxud, Sinqapurun dünya ixracında əhəmiyyətli mövqe qazanmasında müasir texnologiyaların tətbiqinə, elektron texnologiyalardan fəal istifadəyə üstünlük verilməsi ixracın həcminin və coğrafiyasının, onun səmərəliliyinin əhəmiyyətli səviyyədə artmasına, ixrac potensialının dəfələrlə güclənməsinə imkan vermişdir. Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə, xarici ticarət rejimini "açıq iqtisadiyyat" prinsipləri əsasında formalaşdıran ölkələrin sayı – 87, məhdudlaşdırılmış xarici ticarət sisteminə malik ölkələr – 33, bu iki səviyyənin təxminən ortasında yer almış ölkələrin sayı isə 53 olmuşdur. Akademik E.Avdokuşin "açıq iqtisadiyyat" siyasətinin ixrac potensialında rolunu qeyd etməklə, bu göstəriciyə ixrac və idxalın ÜDM-dəki çəkisi münasibətində baxmışdır. Bu tip iqtisadiyyatın ölkələrin milli iqtisadiyyatlarının inkişafına təsiri 1970-ci illərdən başlayaraq intensivləşmişdir. Yaponiyada hökumət tərəfindən sənaye sahələrinin inkişafının gücləndirirlməsi və ixractəyinatlı milli şirkətlərin dəstəklənməsi həyata keçirilmişdir. Cənubi Koreyada bir sıra sənaye sahələrinin, əsasən emalyönümlü və ixractəyinatlı sahələrin inkişafında çoxlu sayda dövlət dəstəyi mexanizmləri tətbiq edilmişdir. Tayvanda maşınqayırma və informasiya texnologiyaları sənayesi sahələrinə dövlət dəstəyi mexanizmləri tətbiq olunmuş və onların ixrac potensialları dəfələrlə artırılmışdır. Tayvan sonralar ixrac potensialının artı-

rılması hesabına dünya ixracında 2 %-dən çox paya malik ola bilmişdir. "Açıq iqtisadiyyat" prinsipləri ilə yanaşı, daha çox digər iqtisadi mexanzimlərə özünün iqtisadi sistemində yer vermiş Çində isə ixractəyinatlı sənaye sahələrinin inkişafına dövlət dəstəyinin gücləndirilməsi siyasəti ardıcıllıqla həyata keçirilmişdir və hazırda da bu cür iqtisadi siyasət modeli davam etdirilir. Hal-hazırda ixrac sahələrinin dövlət tərəfindən dəstəklənməsi və bir sıra dövlət siyasəti mexanizmlərinin tətbiq edilməsi praktikası hazırda ABŞ, Yaponiya, Almaniya, Fransa, İtaliya kimi iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə davam etdirilməkdədir. Məsələn, Almaniyada əkszaminlər üzrə bir ixracatçıya limit 80 mln. avrodan 300 mln.avroya qədər artırılmışdır. Fransada ixracın stimullaşdırılması məqsədilə kiçik biznes subyektlərinin dövriyyə vəsaitlərinin və ixracatçıların maliyyə resurslarına çıxışlarının artırılması, İtaliyada ixracatçılara limitin yüksəldilməsi mexanizmləri tətbiq edilmişdir. ABŞ-da inkişaf etməkdə olan ölkələrə ixracın stimullaşdırılması üçün 20 mlrd. dollar ayrılmışdır. Yaponiyada ticarət əməliyyatlarının maliyyələşdirilməsinə illik maliyyə vəsaitlərinin həcmi 90 mlrd. dollara çatdırılmışdır və s.

Dünyada baş verən son maliyyə böhranı və iqtisadi tənəzzül prosesləri milli iqtisadiyyatların rəqabətqabiliyyətliliyi, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi, iqtisadi inkişaf meyarlarına yenidən baxılması və təkmilləşdirilməsi, xarici ticarət fəaliyyətinin modern istiqamətlərinin müəyyənləşdirilməsi, daha effektivli və səmərəli ixrac modellərinin tətbiqinin genişləndirilməsi, ölkənin ixrac potensialının artırılması kimi qlobal problemlərə yeni yanaşmaları və daha müasir iqtisadi tənzimləmə dövlət mexanizmlərinin hazırlanmasını şərtləndirir. Qeyd etdiyimiz kimi, maliyyə böhranları və iqtisadi tənəzzül prosesləri milli iqtisadiyyatın diversifikasiyalaşdırılmasını və xüsusilə ixrac potensialının möhkəmləndirilməsi üçün bir qrup strateji dövlət iqtisadi siyasət mexanizmlərinin hazırlanmasını və tətbiqini aktuallaşdırır:

Bu şəraitdə milli iqtisadiyyatın mövcud vəziyyəti real qiymətləndirilməli, regional və beynəlxalq iqtisadi inkişaf tendensiyalarına müvafiq və praktiki baxımdan effektiv dövlət iqtisadi siyasəti müəyyənləşdirilməlidir;

Milli iqtisadiyyatın inkişafının xammal və təbii resursların istehsalı, satışı, xammal elementli ixrac modelinin təkmilləşdirilməsi və modelləşdirilməsi vacibdir;

Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi rıçaqları yenilənməli və müasir dünya bazarları tendensiyalarına adekvat olaraq diversifikasiyalaşdırılmalıdır;

Qeyri-xammal və təbii ehtiyatlar əsaslı iqtisadi fəaliyyət istiqamətləri dəyərləndirilməli, dünya təcrübəsi fundamental araşdırılmalı, yeni baxdığımız tədqiqat probleminə adekvat desək, "qeyri-neft sektorunun inkişafı" və "qeyri-neft sektorunun ixrac potensialının artırılması" prioritetləri müəyyənləşdirilməlidir;

Qeyri-neft sektorunun ixrac potensialının stimullaşdırılması üzrə dövlət dəstəyi mexanizmlərinin real iqtisadi sektorlara adekvatlığı qiymətləndirilməli, bu sahənin dövlət tənzimlənməsi istiqamətləri təkmilləşdirilməlidir və s.

Milli iqtisadiyyatın inkişafında qeyri-neft sektorunun ixrac potensialından daha səmərəli istifadə olunması bir çox mühüm amillərlə yanaşı, qloballaşmanın təsiri ilə bağlı amillərin ciddi qiymətləndirilməsi və müvafiq mexanizmlərin hazırlanaraq tətbiq edilməsi vacibliyi diqqət çəkir. Tədqiqatçı Berrin Bölek qeyd edir ki, qloballaşma şəraitində dövlətin qarşısında xarici ticarət dövriyyəsinin artırılması ilə yanaşı, onun iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri də durur. Bu isə elmi-texniki tərəqqinin müasir nailiyyətlərindən daha səmərəli istifadə etməklə rəqabətqabiliyyətli mal və xidmətlərin istehsalını, bunların beynəlxalq bazarlara sərbəst çıxışının təmin edilməsini və s. problemlərin həllini tələb edir. Təbii olaraq bu cür mürəkkəb və çoxcəhətli məsələlərin həlli isə xarici ticarət əlaqələrinə sistemli yanaşma, kompleks tədqiqat, qiymətləndirmə üsullarının və iqtisadi-riyazi modellərin işlənməsini və tətbiqini zəruri edir. Biz də əvvəldə xarici ticarətlə və ixracın stimullaşdırılması problemlərinin tənzimlənməsi ilə bağlı mexanizmlərin hazırlanmasına və tətbiqinə adekvat-sistemli yanaşmanın vacibliyini qeyd etmişdik. Bir daha qeyd etmək lazım gəlir ki, dövlət ixracın stimullaşdırılması və qeyri-neft ixracının strukturunun təkmilləşdirilməsi üçün, ilk növbədə, qloballaşma şəraitində milli iqtisadiyyatın dayanıqlı inkişaf indikatorlarının sabitliyini təmin edən iqtisadi siyasət formalaşdırmalı və bu siyasətin reallaşdırılması alətlərinin səmərəliliyini artırmalıdır.

Milli iqtisadiyyatın inkişafı prioritetləri və xarici ticarət modeli formalaşdırılarkən, mühüm vəzifələrdən biri də ixrac potensialının

artırılması ilə bağlı problemlərdir və strateji vəzifələrin müəyyənləşdirilməsidir. Xarici ticarət modelinin səmərəliliyi, effektivliyi problemləri də əvvəldə qeyd edildiyi kimi, bir qrup mühüm amillərə ciddi yanaşılmasını tələb edir. Ixracın genişləndirilməsi, bununla bağlı hər hansı bir milli iqtisadiyyat sektorunun ixrac potensialının araşdırılması, qiymətləndirilməsi lazım gəlir. Bu proseslərdə olduqca əhəmiyyətli amillərdən biri də "bazar kanalı" anlayışıdır. Belə ki, əgər istehsal olunan mal və məhsullarının dünya bazarlarına çıxış kanalları çoxşaxəli və dayanıqlı deyilsə, çətin ki, bu istiqamətlərdə ixrac potensialı formalaşdırıla bilsin. Mal və məhsulun əmtəə bazarlarında hərəkətetmə qabiliyyəti, irəliləmə perspektivlərinin dərindən araşdırılması vacibdir. XX əsrin 70-80-ci illərindən başlayaraq, Çin iqtisadiyyatının yenidən qurulması və onun ixrac potensialının gücləndirilməsi təcrübəsi xeyli faydalı ola bilərdi. Belə ki, həmin dövrdə bu ölkənin iqtisadi siyasətində xarici ticarət fəaliyyəti iştirakçılarının xarici ticarətin səmərəliliyinin artırılması və ixracın çoxşaxələndirilməsi, onun effektivliyinin yüksəldilməsi proseslərinə güclü dövlət dəstəyi vermək siyasətləri tarixi nəticələrin əldə edilməsinə gətirib çıxarmış və hazırda Çin dünya iqtisadiyyatının əsas güc mərkəzlərindən biridir. Çin ixracının güclü potensial toplamasına daxili və xarici bazarların obyektiv təhlili, qiymətləndirilməsi və "bazar kanalları"nın optimallşadırılması, ixrac potensialına müvafiq müəyyənləşdirilməsidir. Bu nəzəri baxışın əsas mahiyyəti və praktiki mənası ondan ibarətdir ki, ixracatla məşğul olan Çin şirkəti və ya istehsalçı kampaniya dərin və düşünülmüş satış-ixrac siyasətinə nail olmaqla bərabər, ixrac üçün nəzərdə tutulmuş mal və məhsulların dünyanın hansı əmtəə bazarları, başqa sözlə, "bazar kanalları" vasitəsilə çoxşaxəli və etibarlı ixrac imkanları əldə edəcək və real ixrac potensialına malik olacaqdır. Çinli mütəxəssislər P.Tsyanşen və V. Kay bu ölkənin texniki-iqtisadi inkişaf zonalarının formalaşması və fəaliyyəti proseslərini öyrənərkən, istehsal prosesinin rəqabətqabiliyyətliliyinin və "bazar kanalları"nın əhəmiyyətinə xüsusi önəm vermişlər. Onlar hesab edirlər ki, xarici investor və ya xarici ticarət əməliyyatlarını həyata keçirmək istəyən xarici şirkət və kampaniya ilk növbədə işləyəcəyi ölkənin özünün daxili bazar amillərini təhlil edir və qiymətləndirir. Bunlara regional bazarların fərqli xüsusiyyətləri, bazarın genişləndirilməsi perspektivləri, mal axınının hərəkəti, istehsal proseslərinin maya dəyəri və effektivliyi, rəqabət mühiti, kadr

məsələləri, kredit imkanları, satış siyasəti və sairlər daxildirlər. Sonrakı mühüm mərhələdə isə mal və məhsulun ixrac potensialı və ölkədən kənardakı "bazar kanalları"nda uğurlu hərəkət edə bilmək perspektivləri müəyyənləşdirilir. Müəlliflərə görə, bu halda ixracın səmərəli və dayanıqlı olması, çoxşaxəliliyi, effektivliyi üçün bir qrup amillərə ixractəyinatlı müəssisənin fəaliyyət prinsiplərinə və ixrac siyasətinə, qanunvericiliyin səviyyəsinə, vergi rejiminin və ixrac prosedurlarının işləkliyinə, istehsal olunan mal axınının dünya bazarlarındakı vəziyyətə adekvatlığına, ixrac mallarının kəmiyyət və keyfiyyət göstəricilərinə, nəhayət, ixrac potensialını formalaşdıran xarici ticarət sövdələşmələrinin effektivliliyinə kompleks yanaşma təmin olunmalıdır.

Milli iqtisadiyyatların inkişafında qeyri-neft sektorunun ixrac potensialının rolunun artması, dünya ticarətində ixracın əhəmiyyətinin yüksəlməsi ilə bilavasitə bağlıdır. 1990-2012-ci illərdə dünya mal ixracının həcmi 5,2 dəfə artmış və 2012-ci ilin yekununa görə ümumi ixrac 18,3 trln. dollar təşkil etmişdir. Həmin dövr ərzində dünya mal ticarətinin dinamikası aşağıdakı kimi olmuşdur.

**Dünya üzrə mal ixracının 1990-2012-ci illər ərzində dinamikası (mlrd. ABŞ dolları ilə)**

| İl | Məbləğ | İl | Məbləğ |
|---|---|---|---|
| 1990 | 3499 | 2008 | 16140 |
| 2000 | 6452 | 2009 | 12542 |
| 2005 | 10495 | 2010 | 15274 |
| 2006 | 12120 | 2011 | 18291 |
| 2007 | 14012 | 2012 | 18323 |

Cədvəldən göründüyü kimi, 2008-ci ildə başlayan dünya maliyyə böhranından sonrakı ildə dünya mal ixracı 28,7 % azalsa da, növbəti 2010-2012-ci illərdə ixracın artım tempi yüksəlmiş və 2011-2012-ci illərdə eyni səviyyədə sabitləşmişdir. Dünya ixracının mallar üzrə strukturunda isə 2000-2011-ci illər ərzində hazır məhsulların, maşın və avadanlıqların xüsusi çəkisi azalmış, əksinə yanacaq və mineral məhsulların, yəni xammal resurslarının ixracı 1,6 dəfə artmışdır. Dünya ixracının mallar üzrə strukturu aşağıdakı kimi olmuşdur:

**Dünya ixracının mallar üzrə strukturu (%-lə)***

| | 2000 | 2011 |
|---|---|---|
| İxrac, cəmi | 100 | 100 |
| Kənd təsərrüfatı malları | 8,8 | 9,3 |
| Ərzaq | 6,9 | 7,6 |
| Yanacaq və mineral məhsullar | 13,7 | 22,5 |
| Yanacaq | 10,8 | 17,8 |
| Emal olunmuş əlvan metallar | 2,0 | 2,3 |
| Hazır məhsullar | 74,9 | 64,6 |
| Maşınlar, avadanlıq, nəqliyyat vasitələri | 41,9 | 32,3 |

** Qeyd: müəllif tərəfindən hazırlanmışdır.*

Qeyri-neft sektoru sahələrindən ibarət milli iqtisadi sistemə malik güclü potensialı olan Cənubi Koreyanın təcrübəsi diqqəti cəlb edir. 1995-2010-cu illər ərzində bu ölkədə ixracın ümumi həcmi 3,6 dəfə artmış, 2010-cu ildə 431,9 mlrd. dollar təşkil etmişdir. Bu göstərici ilə, Cənubi Koreya dünya ölkələri arasında 2005-ci ildə 11-ci yerdən 2010-cu ildə 7-ci yerə yüksəlmişdir. Bu ölkənin ixrac üzrə əsas partnyorları Çin, Yaponiya, Sinqapur, ABŞ, Meksika, Almaniya və s-dir. Cənubi Koreyanın ixracının strukturunda maşın və nəqliyyat vasitələrinin xüsusi çəkisi 63,2 %, sənaye malları materialları 14,7 %, kimya məmulatları 11,5 %, mineral yanacaq və sürtkü materialları 7,3 % təşkil etmişdir.

Milli iqtisadiyyatın strukturuna təsir edən amillərin təhlili və təkmilləşdirilməsi, bu halda innovatik funksiyaların, o cümlədən sənaye sahələrin in klaster mexanizmləri ilə gücləndirilməsi, bu sahələrdə istehsal olunan məhsulların rəqabət qabiliyyətini əhəmiyyətli şəkildə qaldırmaq imkanları yaradar, nəticədə ixrac potensialının gücləndirilməsinə yeni elementlər, yeni mənbələr cəlb olunar və s. Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Üzrə Konferensiyası katibliyinin məruzəsində qeyd olunur ki, qlobal iqtisadiyyat heç cür özünün inamlı və dayanıqlı artım yoluna qayıda bilmir. Dünya ölkələrinin inkişaf templəri aşağı səviyyədədir. İqtisadi cəhətdən inkişaf etmiş ölkə-

lərin artım templəri 1%-ə yaxın səviyyədən yuxarı qalxa bilmir və 2008-ci ildən başlayan maliyyə böhranının fəsadlarından azad ola bilməyiblər. Dünya üzrə milli iqtisadiyyatların milli istehsal üzrə artım tempi dinamikası aşağıdakı kimi olmuşdur.

**Dünya istehsalının artım dinamikası (əvvəlki ilə görə % -lə)***

| Regionlar, ölkələr | 2005 | 2008 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Dünya üzrə | 3,5 | 1,5 | 4,1 | 2,8 | 2,2 |
| İnkişaf etməkdə olan ölkələr | 2,4 | 0,0 | 2,6 | 1,5 | 1,2 |
| O cümlədən ABŞ | 3,1 | -0,3 | 2,4 | 1,8 | 2,2 |
| Cənub- Şərqi Avropa və MDB | 6,5 | 5,2 | 4,5 | 4,5 | 3,0 |
| İnkişaf etməkdə olan ölkələr | 6,8 | 5,3 | 7,9 | 5,9 | 4,6 |
| O cümlədən Çin | 11,3 | 9,6 | 10,4 | 9,3 | 7,8 |

**Cədvəl müəllif tərəfindən beynəlxalq təşkilatların məlumatlarına əsasən hazırlanmışdır.*

Göründüyü kimi, yaxın perspektivdə milli istehsalın artım səviyyəsinin dayanıqlığı və inkişaf etdirilməsi, qloballaşma şəraitində bu vəzifələrin optimal müəyyənləşdirilməsi və adekvat milli iqtisadiyyat mexanizmlərinin formalaşdırılması mühüm strateji hədəflər kimi çıxış edəcək. Bizə görə, ixracın stimullaşdırılması və ixrac potensialının artırılması bu proseslərdə əlavə fəallığı və səmərəliliyi təmin edə bilər. Əvvəldə qeyd etdiyimiz kimi ixrac yönümlü istehsal sahələrinin genişləndirilməsi, ixrac infrastrukturunun gücləndirilməsi, milli iqtisadiyyatın ixracyönümlü istiqamətlər üzrə diversifikasiyalaşdırılması, bütövlükdə ölkə iqtisadiyyatının inkişafına səmərəli mexanizmlərin cəlb edilməsinə imkan verə bilər.

Bu qeyd olunan amillərin əksəriyyəti Azərbaycanın milli iqtisadiyyatının inkişaf proseslərində bu və ya digər formada yer almışdır. Ölkəmizdə qeyri-neft sektorunda ixrac potensialından istifadənin mövcud vəziyyətinin təhlili və onun qiymətləndirilməsi bu amillərin xüsusiyyətlərini aydınlaşdırmağa imkan verə bilər.

## 2. Ölkə iqtisadiyyatının inkişaf meylləri və diversifikasiyalaşdırılması problemləri

Ölkə iqtisadiyyatının inkişafında ən mühüm meyillərdən biri regionların iqtisadi fəallığının artırılması, onların dünya iqtisadi proseslərinə inteqrasiyasının təşkili və ixrac potensialının formalaşdırılmasıdır. Bu sahədə sabit və davamlı dövlət siyasətinin yürüdülməsi diqqəti cəlb edir. Son 10 ildə xüsusilə geniş miqyaslı tədbirlər həyata keçirilmiş, Dövlət proqramları reallaşdırılmışdır. Bu sahədə ilk dövlət proqramı çərçivəsində regionlarda infrastruktur obyektlərinin geniş şəbəkəsinin qurulmasına başlanılmışdır. II Dövlət Proqramında isə regionların ənənəvi iqtisadiyyat sahələrinin dirçəldilməsi və müasir, modern müəssisələr şəbəkəsinin formalaşdırıması prioritetləri daha çox diqqət mərkəzində olmuşdur. Nəhayət, ölkə regionlarının iqtisadi inkişaf prioritetlərini özündə cəmləşdirən hazırkı III Dövlət Proqramında mühüm prioritetlərə regionların sənaye potensialının gücləndirilməsi, iri fermer təsərrüfatlarının yaradılması, rəqabətqabiliyyətli məhsulların istehsalının təşkili və sairlər aiddirlər. Bu dövlət proqramlarının əsas mahiyyəti regionun güclü iqtisadi subyektə çevrilməsi aqrar və sənaye sahələrinin müasir subyektləri kimi çıxış etməsi, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və ixrac potensialının gücləndirilməsi, sosial-iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə qaldırılması ilə bilavasitə bağlıdır.

Azərbaycan iqtisadiyyatının digər mühüm tendensiyalarından biri də turizm sektorunun inkişafı ilə bağlıdır. Son illərdə ölkədə yüzlərlə turizm obyektləri, müasir otellər, istirahət mərkəzləri, turizm-rekreasiya kompleksləri tikilib istismara verilmişdir. Bakıda və regionlarda (Quba, Qusar, Qəbələ, Şəki, Şəmkir, Gəncə və s.) dünya şöhrətli-brend otellərin analoqu istifadəyə verilmiş, idman turizm kompleksləri yaradılmışdır. Turizmin inkişafı üzrə qanunvericilik bazası gücləndirilmiş və bu sahənin inkişafı ilə bağlı Dövlət Proqramı hazırda icra olunmaqdadır. Ölkə iqtisadiyyatının inkişafı proseslərində ortaya çıxan ciddi problemlərdən biri də qeyri-neft sənaye sahələrinin inkişafı məsələləridir. Hələ SSRİ dövründə Azərbaycanda rəqabətqabiliyyətli və güclü ixrac potensialına malik sənaye sahələri fəaliyyət göstərmişdir (metallurgiya, cihazqayırma, kimya və neft-kimya, neft-kimya maşınqayırması və s.). Son illərdə sahibkarlığın və biznes mühitinin inkişafına dövlət dəstəyi mexanizmlərinin daha məhsuldar və səmərəli müstəviyə qaldırılması tendensiyası sənaye sahələrinin yüksək tex-

nologiyalar əsasında inkişaf etdirilməsi prioritetinin Azərbaycanda strateji hədəflərdən biri kimi qarşıya qoyulmasıdır. 2014-cü ilin "Sənaye ili" elan edilməsi və bu istiqamətdə strateji vəzifələrin müəyyənləşdirilməsi yaxın perspektivdə qeyri-neft sənayesinin inkişafına və onun ixrac potensialının artırılmasına ciddi töhfələrin verəcəyini proqnozlaşdırır.

Azərbaycan iqtisadiyyatının müasir iqtisadi inkişaf tendensiyalarından biri də ölkədə İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) sektorunun inkişafını təmin etməkdir. Artıq bu istiqamətdə ilk Milli Strategiyanın icrası 2012-ci ildə başa çatdırılmışdır. Ölkədə müasir İKT infrastrukturunun formalaşdırılması genişləndirilib, bu sahədə məhsulların çeşidi çoxalıb, xidmətlər diversifikasiyalaşdırılıb, innovasiya funksiyalarının tətbiqi intensivləşib və s. Hazırda bu iqtisadiyyat sektorunun neft-qaz sektorundan sonra əsas prioritet qeyri-neft sektoruna çevrilməsi üçün ciddi tədbirlər müəyyənləşdirilib və strateji vəzifələr qarşıya qoyulmuşdur.

Qeyri-neft sahəsində yüksək artım tempinə nail olunması və bu sektor hesabına adambaşına ÜDM-in artırılması, ÜDM-in strukturunda qeyri-neft sektoru payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına qeyri-neft ixracının artımının təmin edilməsi kimi hədəflər müəyyənləşdirilmişdir. Bu hədəflərə çatmaq üçün iki istiqamətdə iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılmasıı və strukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsi təklif olunur. Eyni zamanda, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi də əsas prioritetlərdəndir.İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi isə neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi yaxın onilliyin başlıca meyarlarından ibarətdir. Əslində professor Ə.Muradovun bu fikirləri reallıqda Azərbaycan iqtisadiyyatının hazırkı və yaxın perspektivdəki inkişaf tendensiyalarını, prioritet istiqamətləri və strateji vəzifələrini özündə əks etdirmişdir. Yaxın perspektivdə ölkəmizin rəqabətqabiliyyətinin artması və bu sahədə reytinqinin yüksəlməsi gözlənilir. Qloballaşma şəraitində Azərbaycan iqtisadiyyatının çoxşaxəliliyi və rəqabətqabiliyyətinin artırılması problemləri də müasir dövrün geniş diskussiyaya məruz qalan

məsələlərindən biridir. Akademik R. Mehdiyev Azərbaycanın gələcək inkişafında aşağıdakı iqtisadi amillərin vacibliyini bildirmişdir:

- Qeyri-neft sektorunun genişlədirilməsi hesabına davamlı iqtisadi inkişafa nail olunması;

İqtisadiyyatın inkişaf istiqamətlərinin şaxələndiriməsinin genişləndirilməsi;

- Ölkənin ÜDM-nin tərkibində dövlət büdcəsinin formalaşdırılmasında təbii ehtiyatlar amilinin azaldılması və qeyri-neft amilinin üstünlüyünün təmin edilməsi;
- İqtisadiyyatda innovasiyaların tətbiqinin təmin edilməsi üçün güclü inotivesiya mexanizmlərinin yaradılması və inki.af etdirilməsi və s. Azərbaycanda ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılmasını ilk növbədə neft emalı hesabına genişləndirməyi vacib hesab edən bir qrup tədqiqatçıların fikirləri ciddi maraq doğurur. Bu sahədə güclü potensialın olması məlumdur və sahənin rəqabətqabiliyyətliyi şübhə doğurmur. Tədqiqatçı B. Əhmədov hesab edir ki, neft emalı sənayesindəki böhranlı vəziyyət isə hələlik davam edir. Buna sərmayə defisitliyi, əsas istehsal fondlarının mənəvi və fiziki aşınması, məhsulların enerji tutumunun yüksək olması, dünya bazarlarında rəqabət qabiliyyətinin aşağı olması, neqativ ekoloji problemlər, geoloji kəşfiyyat işlərinin pisləşməsi və s. gətirib çıxarmışdır. B.Əhmədov bu problemlərin aradan qaldırılmasında bir qrup mühüm vəzifələrin reallaşdırılmasını vacib sayır:

- Neft emalı sənayesinin infrastruktur bazasının istehsal potensialı və ondan istifadə səviyyəsi araşdırılmalıdır;

- - Neft emalı zavodlarının məhsul istehsalı quruluşu genişləndirilməlidir;
- - Neft emalı məhsullarının ixracının quruluşu və coğrafiyası diversifikasiyalaşdırılmalıdır;
- - Neft emalı sənayesinin perspektiv inkişaf istiqamətləri reallaşdırılmalıdır.

Ölkə iqtisadiyyatının inkişaf tendensiyası proseslərində strateji vəzifələrdən mühüm olanı – milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artrılması problemidir. Bu sahədə dövlət mexanizmlərinin iri bir blokunun artıq reallaşdırılması müsbət nəticələr verməkdədir. Son 10 il ərzində ölkə ÜDM-ü 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkəmizdə orta illik iqtisadi artım

12,9 % təşkil etmişdir. Valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdır. Azərbaycan iqtisadiyyatı "Qlobal Rəqabət Qabiliyyəti İndeksi" hesabatına əsasən, rəqabət qabiliyyətli səviyyəsinə görə 39-cü, MDB-də 1-ci olmuş, ölkəmiz ilk dəfə dünyanın "yuxarı orta gəlirli" və "yüksək insan inkişaflı" ölkələri qrupuna daxil olmuşdur. Nüfuzlu reytinq agentliklərinin hamısı ("Fitch Ratings", "Standart & Poor's" və "Moody's") Azərbaycana investisiya kredit reytinqi vermiş və Azərbaycan Qafqaz ölkələri arasında investisiya reytinqinə malik yeganə ölkə olmuşdur. 2004-2013-cü illərdə qeyri-neft sektoruna investisiyalar 12,9 dəfə artmış və ölkə regionlarına yönəldilən investisiyaların həcmi 51 mlrd. manata yaxın olmuşdur. Bu çoxsaylı amillər və əldə edilmiş nəticələr, yaxın perspektivdə Azərbaycan iqtisadiyyatının diversifikasiyalaşdırılması problemlərinə ciddi təsir edə bilər. Bunun üçün ölkənin hazırkı iqtisadi inkişaf tendensiyalarını mövcud vəziyyəti dərindən təhlil edilməklə, obyektiv qiymətləndirilməli, daha səmərəli dövlət iqtisadi siyasəti işlənib hazırlanmalı, milli iqtisadiyyatın artımını təmin edə biləcək mexanizmlərin iqtisadi sistemə daxil edilməsi təmin olunmalı, qeyri-neft sektoru sahələrinin inkişafına imkan verən elementlər sistemləşdirilməli və işlək alətlərə çevrilməli, ölkənin ixrac strukturunun diversifikasiyalaşdırılmasında qeyri-ənənəvi elementlər də nəzərə alınmalı və bu istiqamətlərdə aparılan tədbirlərin səmərəliliyi yüksəldilməlidir.

Ölkə iqtisadiyyatının son 10 ildəki inkişaf tendensiyalarının dolğun xarakteristikası Azərbaycan Respublikası (AR) regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfransda Prezident İlham Əliyevin giriş və yekun nitqlərində verilmişdir. Qeyd olunmuşdur ki, son on il ərzində Azərbaycan dünyada ən sürətli templərlə inkişaf etmiş, iqtisadiyyat 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə artmış və kənd təsərrüfatı 1,5 dəfə artmış, 2013-cü ildə qeyri-neft sektorunun artımı təqribən 10 % və ölkə iqtisadiyyatı təqribən 6 % artmışdır. Son on il ərzində ölkəmizə 160 mlrd. dollar investisiya cəlb edilmiş, 2013-cü ildə Azərbaycan iqtisadiyyatına 28 mlrd. dollar – rekord səviyyədə sərmayə qoyulmuşdur. Son on ildə Sahibkarlığa Kömək Milli Fondu hesabına 1200 mln. manat investisiya yatırılmışdır, yəni sahibkarlara güzəştli şərtlərlə kreditlər verilmişdir. Şübhəsiz, bu tədbirlər milli iqtisadiyyatın inkişafına, xüsusilə ixrac potensialının gücləndirilməsinə, bu

proseslərdə sahibkarlıq subyektlərinin fəallığının artmasına, sahibkarlıq subyektlərinin xarici ticarət fəaliyyəti ilə məşğul olmasının həvəsləndirilməsinə, ixracyönümlü müəssisələrin təşkilinə təkan vermişdir. Azərbaycanda sahibkarlığın inkişafı iqtisadiyyatın prioritet istiqamətlərindəndir və müxtəlif istiqamətlər üzrə dövlət dəstəyi mexanizmləri fəaliyyət göstərir. Son 10 ildə sahibkarlıq subyektlərinin sayı 2,5 dəfə artmış, məşğulluqda özəl sektorun payı 73,9 %-ə, vergi daxilolmalarında 72,4 %-ə qədər yüksəlmiş, ÜDM-də özəl sektorun xüsusi çəkisi 80 %-i ötmüşdür. Ölkə Prezidentinin bu sahənin inkişafı ilə bağlı Fərmanı qüvvəyə minmişdir. Ölkə rəhbəri 2014-cü ili "Sənaye ili" elan etmiş və bildirmişdir ki, sənaye istehsalının artırılması ilə bağlı texnoparkların fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə artıq ilkin nəticələr vardır. Sumqayıt Texnoparkı fəaliyyət göstərir. Yeni Kimya Texnologiya Parkı artıq fəaliyyətə başlayır. Digər şəhərlərdə, Mingəçevirdə texnoparkın yaradılması nəzərdə tutulur. Balaxanı Texnoparkının yaradılması gedir. Bu istiqamətdə bu il daha da ciddi addımlar atılmalıdır. Ümumiyyətlə, mən dəfələrlə demişəm ki, bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir. Ümumi daxili məhsulumuzun artımı da sənaye istehsalının hesabına mümkün olacaqdır. Qeyri-neft sektorunun sürətli inkişafının təminatından biri də, onun milli iqtisadiyyatın sərhədləri daxilində məhdudlaşmadığını və beynəlxalq inteqrasiya məkanına, dünya bazarlarına effektiv şəkildə çıxa bilmək potensialını ortaya qoya bilməsidir. Bu halda sektorun çoxlu sayda sahələrinin ixrac potensialı reallaşma imkanı əldə edir, ölkənin dünya bazarlarına çıxardığı rəqabətqabiliyyyətli məhsulların, milli brendlərin siyahısı genişlənir, bütövlükdə milli iqtisadiyyatın diversifikasiyalaşdırılması mənbələrinin əhatəsi genişlənir. Azərbaycanda milli iqtisadi maraqlara söykənən iqtisadi inkişaf siyasəti və modeli əsasən formalaşıb, ölkə getdikcə rəqabət qabiliyyətini artırır və dünya ölkələri ilə əməkdaşlığı gücləndirir. Neft gəlirləri hesabına qeyri-neft sektorunun potensialının gücləndirilməsi, ixrac strukturunun genişləndirilməsi istiqamətində dövlət dəstəyi mexanizmləri fəaliyyət göstərir, dövlət siyasəti müasir iqtisadi proseslərə adekvat olaraq təkmilləşdirilir, regionların qeyri-neft potensialının reallaşdırılması üçün tarixi işlər görülür və s. Bütün bunlara baxmayaraq, tədqiqatlar göstərir ki, hələ də ölkənin qeyri-neft sektorunun mövcud vəziyyəti, onun ayrı-ayrı sahələrinin inkişaf tempi reallıqları əks etdirmir və bu istiqamətlərdə görülən

tədbirlərin tənzimlənməsi, təkmilləşdirilməsi, daha optimal həlli yollarının axtarılmasına ehtiyac vardır.

Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişaf konsepsiyasının formalaşmasının və şaxələndirilməsinin baş tutması üçün çoxlu sayda Sərəncamlar, Fərmanlar vermiş, bu sahənin inkişaf prosesləri daim ciddi səviyyələrdə müzakirə edilmiş, müvafiq qərarlar qəbul olunmuşdur.Prezident İlham Əliyev bildirmişdir ki, qeyri-neft sektorunun inkişafı və kənd təsərrüfatının inkişafı Azərbaycanın gələcəyini müəyyən edən amillərdir. Mən hökumət üzvlərinə müraciət edərək demişdim ki, gərək biz hamımız neft amilini kənara qoyaq. Orada işlər çox uğurla davam edir və bu sahə Azərbaycana böyük həcmdə valyuta ehtiyatları gətirəcəkdir. Biz öz siyasətimizi elə aparmalıyıq ki, sanki Azərbaycanda neft yoxdur. İqtisadiyyatın bütün sahələri, ilk növbədə qeyri-neft sektoru, infrastruktur inkişaf etməlidir. Ancaq bu yolla biz Azərbaycanı inkişaf etmiş ölkəyə çevirə bilərik**.** Professor C. Stiqlitz də Azərbaycanda neftin 25 il və yaxud daha artıq müddətdə olacağını bildirmişdir. O, qeyd etmişdir ki, bu imkan bir dəfə verilir və ondan maksimum istifadə edib digər sahələri inkişaf etdirmək lazımdır**.** Biz əvvəlki paraqrafda Azərbaycan iqtisadiyyatının inkişaf dinamikası və əldə etdiyi nailiyyətlərin bir sıra xüsusiyyətləri barədə tədqiqat materialları verdiyimizdən və təhlil etdiyimiz göstəricilərdən çıxış etsək, qeyd etmək olar, ölkə iqtisadiyyatı qeyri-neft sektorunun inkişafı istiqamətində güclü potensialının reallaşdırılması dövrü mərhələsindədir. Bunlarla belə, bizə görə, Azərbaycanda qeyri-neft sektorunun potensialından daha səmərəli istifadə edilməsi üçün bir qrup prioritet istiqamətlərin reallaşdırılmasının həll edilməsi zəruridir və bunlar barədə irəlidə materialları verəcəyik.

Azərbaycan iqtisadiyyatı müasir dövrdə qeyd etdiyimiz kimi, şaxələndirmə, başqa sözlə, diversifikasiyalaşdırılma dövrünü yaşayır. Diversifikasiya sözünün müasir forması ingilis dilində işlədilən "diversification" termininə əsaslanır və əsasən məhsul çeşidinin genişləndirilməsi kimi başa düşülür. Bununla yanaşı müasir dövrdə diversifikasiya anlayışı milli iqtisadiyyatın inkişaf xüsusiyyətini və istiqamətlərini xarakterizə etməkdə, şirkət və birliklərin fəaliyyət xarakterlərinə görə qruplaşdırılmasında vacib elementlərdən biri kimi özünü büruzə verir. Məsələn, iqtisadi fəaliyyətin çoxsahəliliyi və müxtəlifliyi, çoxprofilli şirkət və s. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca

istiqamətlərindən biri iqtisadiyyatın və onun ayrı-ayrı istehsal sahələrinin diversifikasiyasıdır. Emal sənayesinin müasir iqtisadi və texniki durumu diversifikasiya meylinin hər vasitə ilə gücləndirilməsini tələb edir. Bu məqsədlə beynəlxalq miqyasda qazanılmış təcrübədən istifadə etmək lazımdır. Həmin təcrübədən bəhrələnərək yaxın dövrlərdə Azərbaycanda əvvəla, inkişaf etmiş bazar infrastrukturunun yaradılması; ikincisi, iqtisadiyyatın diversifikasiyasına kömək edən dövlət maliyyə institutlarının yaradılması; üçüncüsü, qeyri-neft sektorunun iqtisadi stimullaşdırılması sisteminin işlənməsi (vergilər, tariflər və s.) və dördüncüsü, milli iqtisadiyyatın diversifikasiyası və sənayenin qeyri-neft sektorunun inkişafının dövlət indikativ planlarının (proqramlarının) qəbul edilməsidir. Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və innovasiyalaşdırılmasında iki mühüm iqtisadi inkişaf istiqaməti milli istehsalçıların məhsullarına olan tələbatın daxili bazarda ciddi artırılmasının təmin olunması və xarici bazarların əldə edilməsi mühüm prioritet kimi qəbul olunmalıdır. Ölkənin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsində əsas element kimi-sənayenin kompleks və sürətli inkişafı, ölkə iqtisadiyatının müxtəlif sektorlarının potensialından səmərəli istifadə olunması, yüksək standartlara cavab verən milli məhsulların və malların istehsal şəbəkəsinin genişləndirilməsi, ixracyönümlü malların çeşidinin artırılması və qeyri-neft ixracının coğrafiyasının şaxələndirilməsi həcminin yüksəldilməsi, yeni xarici əmtəə bazarlarına çıxışın təmin olunması vacib şərtlər kimi çıxış edir.

Azərbaycan iqtisadiyyatının diversifikasiyalaşdırılmasının, ÜDM-də özəl sektorun və xidmət sahəsinin payının artırılmasının, sənaye sahələrində, o cümlədən neft-qaz maşınqayırması, neft-kimya, metallurgiya, cihazqayırma, tikinti materialları istehsalı, aqrar sektor və kənd təsərrüfatı məhsulları istehsalı sahələrində inkişafın sürətləndirilməsinin, yeni iqtisadiyyat sahələrinin – İKT, turizm və kosmik sənayesinin rolunun gücləndirilməsinin, xarici ticarət dövriyyəsi strukturunun diversifikasiyalaşdırılması olduqca vacibdir.

2003-cü ilin sonlarından başlayaraq, Azərbaycanda sosial-iqtisadi inkişafın dinamikasının sürətləndirilməsində qeyri-neft sektorunun roluna ciddi önəm diqqəti cəlb edir. Ölkə ÜDM-nin ümumi həcmində qeyri-neft sektorunun payı aşağıdakı cədvəldə verilmişdir.

**Azərbaycan Respublikasının ÜDM-də qeyri-neft sektorunun payı (mlrd. manatla)**

| s/s | Gösrəricilər | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Cəmi ÜDM | 8,5 | 12,5 | 18,7 | 28,4 | 40,1 | 35,6 | 42,5 | 52,1 | 54,0 | 57,7 |
| 2. | O cüm lədən: | | | | | | | | | | |
| 3. | Qeyri-neft sek toru | 5,6 | 7,0 | 8,2 | 11,7 | 17,1 | 18,6 | 21,4 | 25,4 | 28,5 | 32,6 |
| 4. | Qeyri neft sektorunn ÜDM-də xüsusi çəkisi %-lə | 65,9 | 56,0 | 43,9 | 41,2 | 42,6 | 52,2 | 50,4 | 48,8 | 52,8 | 56,6 |

Cədvəldən göründüyü kimi, 2004-2005-ci illərdə ÜDM-in real həcmi 6,8 dəfə, o cümlədən qeyri-neft sektorunun həcmi 5,8 dəfə artmışdır. Əgər 2004-cü ildə qeyri-neft sektorunun ölkə ÜDM-də xüsusi çəkisi 65,9 % idisə, bu rəqəm 2007-ci ildə 41,2 %-ə kimi enmiş, 2009-2012-ci illərdə, demək olar ki, eyni səviyyədə qalmış, yalnız 2013-cü ildə ölkə iqtisadiyyatının qeyri-neft sektorunda yaradılan əlavə dəyər əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10 % artmışdır. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin ÜDM-də xüsusi 2013-cü ilin yekununda 56,6 % təşkil etmişdir. Həmin ilin yekunu üzrə qeyri-neft sektorunun əksər sahələrində əlavə dəyər istehsalının artım tempi əvvəlki ilin müvafiq dövrünə nisbətən yüksək olmuşdur. Qeyri-neft ÜDM-nin artımında ən böyük müsbət töhfəni tikinti sahəsi (4,3%) vermişdir. Qeyri-neft sənayesində yaradılan əlavə dəyərin strukturunda mədənçıxarma sənayesinin xüsusi çəkisi 2,4 %, emal sənayesinin xüsusi çəkisi 53,2 % təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda qeyri-neft sektorunun inkişaf tempi 2004-2013-cü illərdə qeyri-sabit olmuşdur. Əgər 2004-cü ildə real artım 13,6 % idisə, növbəti 2005-2007-ci illərdə bu göstərici aşağı düşərək, 2007-ci ildə 11,4 % təşkil etmişdir. 2008-ci ildə qeyri-neft sektorunun real artımı rekord səviyyədə 15,9 % təşkil etsə də,

növbəti ildə 2009-cu ildə bu göstərici son 10 ildə ən aşağı həddə -3,9 % səviyyəsinə enmişdir. 2010-2013-cü illərdə isə real artım sabit dinamika nümayiş etdirmiş və əvvəldə qeyd olunduğu kimi, 2013-cü ildə 10 % olmuşdur. 2013-cü ilin yekunu üzrə Azərbaycanın qeyri-neft sənayesində istehsal olunan məhsulun həcmi 6776,6 mln. manat təşkil etmişdir və bunun strukturu aşağıdakı cədvəldə əks etdirilmişdir.

**Azərbaycan Respublikasında qeyri-neft sənayesinin ümumi buraxılışının strukturu (2013-cü ilin yekunu üzrə)**

| | Göstəricilər | mln. manatla | %-lə xüsusi çəkisi |
|---|---|---|---|
| | Cəmi | 6776,6 | 100 |
| 1. | Mədənçıxarma sənayesi | 4679,2 | 69,1 |
| 2. | Emal sənayesi | 108,1 | 1,6 |
| 3. | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 1770,6 | 26,1 |
| 4. | Su təchizatı, tullantıların təmizlənməsi | 218,7 | 3,2 |

Cədvəlin təhlilinə baxsaq, görərik ki, emal sənayesi qeyri-neft sənayesinin əsas aparıcı sahəsidir və bu sahədə istehsal olunan məhsulun 69,1 %-i onun payına düşür. Qeyri neft emalı sənayesinin 69,1 % payında qida məhsulları və içki istehsalı 40,9 %, metallurgiya sənayesi və hazır metal məmulatların istehsalı 5,9 %, tikinti materiallarının istehsalı 5,1 %, elektrik avadanlıqlarının istehsalı 1,9 %, kimya sənayesi 3,0 %, maşın və avadanlıqların istehsalı 3,6 %, digər sənaye sahələrinin istehsalı 8,6 % olmuşdur**.** Göründüyü kimi, geniş potensiala malik bir sıra sənaye sahələrinin (kimya, metallurgiya və s.) qeyri-neft sənayesindəki payı adekvatlıq təşkil etmir və bu sahələrdə qeyri-neft sənayesinin imkanlarından daha səmərəli istifadəyə ehtiyac qalmaqdadır.

Qeyd etdiyimiz kimi, qeyri-neft sektorunun əsas aparıcı sahəsi sənayedir. Ümumiyyətlə, sənaye sahələrinin inkişafı son 10 ildə dövlətimizin iqtisadi siyasətində prioritetliyi ilə diqqət mərkəzindədir. Prioritet məsələ kimi iqtisadiyyatın karbohidrogen ehtiyatlarından ası-

lılığının azaldılması, əsas aparıcı qeyri-neft sektoru sahəsi olan sənaye sektoru vasitəsilə ölkə iqtisadiyyatının dayanıqlılığının gücləndirilməsidir. Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2004-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş, "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"sının da bir sıra əsas istiqamətlərinin qeyri-neft sektorunun, o cümlədən sənayenin inkişafı ilə bağlılığı diqqəti cəlb edir:

– İqtisadiyyatın qeyri-neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın inkişafı;

– İqtisadiyyatın intellektual və texnologiya bazasının səviyyəsinin yüksəldilməsinin stimullaşdırılması və s.

Bu baxımdan ölkədə sənaye sahələrinin potensialının artırılması perspektivlərindən yararlanmaqda intensivləşmə çatışmır və şübhəsiz, bu səbəbdən ölkə sənayesinin potensialı müasir dövrümüzün reallıqları baxımından adekvat səviyyədə deyildir. Azərbaycanda sənaye məhsulunun həcmini əks etdirən real göstəricilər cədvəl 2.5.-də verilmişdir.

**Azərbaycan Respublikasında sənaye məhsullarının (işlərin, xidmətlərin) həcmi (cari qiymətlərlə, mln. manat).**

| | 2005 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Bütün sənaye | 9 308,8 | 27 978,2 | 35 026,9 | 34 565,0 | 33 712,5 |
| O cümlədən: | | | | | |
| Mədənçıxarma sənayesi | 5 672,7 | 20 862,5 | 26 894,3 | 25 607,2 | 24 942,3 |
| Emal sənayesi | 3 073,1 | 5 735,7 | 6 392,4 | 7 031,8 | 6 777,2 |
| O cümlədən: | | | | | |
| Qida məhsullarının İstehsalı | 1 094,5 | 1 924,6 | 2 107,6 | 2 574,8 | 2 583,4 |
| İçki istehsalı | 72,5 | 170,2 | 169,0 | 175,5 | 187,8 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Tütün məmulatları-nın istehsalı | 30,5 | 22,3 | 22,8 | 19,6 | 13,1 |
| Toxuculuq sənayesi | 34,8 | 29,4 | 52,3 | 57,7 | 46,7 |
| Geyim istehsalı | 16,3 | 34,7 | 38,5 | 36,8 | 27,6 |
| Dəri və dəri məmu-latlarılarının, ayaq-qabıların istehsalı | 4,5 | 20,9 | 20,0 | 29,6 | 20,0 |
| Ağac emalı və ağacdan məmulatla-rın istehsalı | 9,6 | 12,1 | 14,4 | 11,8 | 4,1 |
| Kağız və karton istehsalı | 3,1 | 11,5 | 27,9 | 17,3 | 17,1 |
| Poliqrafiya fəaliyyəti | 23,1 | 38,4 | 45,4 | 43,0 | 42,9 |
| Neft məhsullarının istehsalı | 836,8 | 2 160,6 | 2 483,8 | 2 376,0 | 2 090,1 |
| Kimya sənayesi | 198,3 | 120,3 | 189,0 | 180,6 | 200,1 |
| Əczaçılıq məhsul larının istehsalı | 0,7 | 1,0 | 1,9 | 1,7 | 3,2 |
| Rezin və plastmas məmulatların istehsalı | 23,5 | 43,3 | 78,9 | 71,6 | 63,8 |
| Tikinti məmulatlarının istehsalı | 135,4 | 452,2 | 280,7 | 323,0 | 352,1 |
| Metallurgiya sənayesi | 171,8 | 135,2 | 195,6 | 347,1 | 303,1 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Hazır metal məmu-lat larının istehsalı | 156,4 | 135,1 | 105,1 | 171,2 | 96,5 |
| Kompyuter və digər elektron avadanlıq-ların istehsalı | 7,3 | 54,6 | 72,5 | 66,5 | 106,1 |
| Maşın və avadan-lıqların istehsalı | 32,8 | 151,2 | 156,7 | 151,5 | 246,4 |
| Avtomobil və qoşquların istehsalı | 5,2 | 3,0 | 3,8 | 4,5 | 3,7 |
| Digər nəqliyyat va-sitələrinin istehsalı | 13,4 | 10,2 | 10,3 | 10,5 | 12,5 |
| Mebel istehsalı | 17,5 | 51,5 | 45,7 | 38,7 | 35,8 |
| Zərgərlik, musiqi, id-man və tibb avadan-lıqlarının istehsalı | 18,7 | 12,1 | 4,9 | 10,0 | 6,8 |
| Maşın və avadanlıq-ların istehsalı, quraş-dırılması və təmiri | 147,8 | 66,3 | 94,0 | 126,7 | 182,4 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 480,8 | 1 225,5 | 1 555,9 | 1 724,3 | 1 770,9 |
| Su təchizatı, tullantı-ların təmizlənməsi və emalı | 82,2 | 154,5 | 184,3 | 201,7 | 222,1 |

Cədvəlin təhlili göstərir ki, sənaye məhsullarının çeşidinin genişləndirilməsi və istehsal həcminin artırılması prosesləri mövcud potensialı əks etdirmir. Ölkədə ərzaq təhlükəsizliyi tədbirlərinin gücləndirilməsinə, Bakıda və regionlarda çoxsaylı qida məhsulları istehsal edən

müəssisələrin yaradılmasına baxmayaraq, 2012-2013-cü illərdə bu sahədə istehsal olunan məhsulların ümumi həcmində artım olmamışdır. Azərbaycanda ənənəvi tekstil müəssisələrinin olmasına baxmayaraq, hazırda bu sahədə vəziyyət xeyli pisdir. Çünki, sahənin məhsul istehsalı cüzidir və 2013-cü ildə istehsal daha da aşağı düşmüşdür. Ölkədə dəri və dəri məmulatların, ayaqqabıların istehsalına kifayət qədər ehtiyac olduğundan, bu sahədə yerli xammal bazasının və yarımfabrikatların əldə edilməsi imkanlarının mövcudluğu şəraitində, bu sahələrin inkişafında durğunluq davam etməkdədir. Biz əvvəldə qeyd etmişdik ki, ölkənin kimya və metallurgiya sənaye sahələri güclü potensiala və rəqabətqabiliyyətlilik xüsusiyyətlərinə malikdirlər. Təəssüf ki, 2005-2013-cü illərdə kimya sənayesi üzrə məhsul istehsalında artım cüzidir və sahənin potensialı istifadə edilməmiş qalır. Metallurgiya sənayesində də 2012-ci ilə nisbətən məhsul istehsalının həcmi aşağı düşmüşdür. Məlumdur ki, Azərbaycanda mebel istehsalının genişləndirilməsi üçün hər cür şərait və güclü potensial vardır. Bu sahədə yüzlərlə müəssisələr, bir sıra iri şirkətlər fəaliyyət göstərirlər. Bütün bunlara baxmayaraq, 2011-ci ildən başlayaraq, bu sənaye sahəsində məhsul istehsalının aşağı düşməsi tendensiyası gedir. Azərbaycanda sənaye istehsalının sahə strukturunun təhlilinə baxsaq, ümumi sənaye istehsalında 1 %-dən yuxarı payı olan sahələrin sayı olduqca azdır və bu faktlar sahədəki problemlərin çoxluğunu göstərir.

Son illərdə Azərbaycanda dinamik inkişaf tendensiyası ilə fərqlənən qeyri-neft sektorlarından biri də tikinti sənayesidir. Əgər 2005-ci ildə tikinti işlərinin ümumi həcmi 1558,0 mln. manat idisə, bu rəqəm 2013-cü ildə 8227,1 mln. manat təşkil etmişdir. 2005-2013-cü illlərdə 62 mlrd. manata yaxın vəsait əsas kapitala yönəldilmişdir. 2013-cü il ərzində əsas kapitala yönəldilmiş 17,9 mlrd. manat vəsaitin 73,0 %-i qeyri-neft sektorunun inkişafına istiqamətlənmişdir**.** Digər bir dinamik inkişaf tempi nümayiş etdirən qeyri-neft sektoru kimi – nəqliyyat sahəsini qeyd etmək olar. 2013-cü ildə nəqliyyat sektorunda yükdaşımaların ümumi həcmi 218,0 mln. ton təşkil etmişdir ki, bu da 2005-ci illə müqayisədə 1,7 dəfə çoxdur. Nəqliyyat sektorunda yük dövriyyəsinin ümumi həcmi 2013-cü ildə 90,9 mln. ton səviyyəsinə çatmışdır ki, bu da 2005-ci ilə nisbətən 3,4 dəfə artıqdır. Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yükdaşımaların ümumi həcmi 2005-ci ildəki 46,7 mln. Tondan 2013-cü ildə 59,0 mln. ton səviyyəsinə qədər artmışdır. Başqa

bir qeyri-neft sektoru sahəsi olan – rabitə sahəsində informasiya və rabitə xidmətlərinin həcmi 2005-2013-cü illərdə 3,2 dəfə artaraq, 2013-cü ildə 1528,1 mln. manat təşkil etmişdir. İKT-nin inkişaf indeksi 2005-ci ildə 2,58 olmuşdursa, bu göstərici 2013-cü ildə 8,32-yə yüksəlmişdir. İKT sektorunun sürətli inkişafı qeyri-neft sektorunun prioritet sahələrindən biri statusunu almağa imkan verib. Ölkədə İKT-nin inkişafı ilə bağlı strategiyalar və dövlət proqramları həyata keçirilməkdədir. Bu proqramlardan Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan), Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Stategiya (2003-2012-ci illər) və digərlərini qeyd etmək olar. Akademik Ə. Abbasov qeyd etmişdir ki, görülmüş tədbirlər nəticəsində İKT infrastrukturu genişləndirilib, müasir xidmətlərə və bəzi İKT məhsullarının ixrac edilməsinə başlanılıb. Azərbaycanın ilk telekommunikasiya peykinin fəaliyyəti artıq ölkəmizə gəlir gətirməkdə və qeyri-neft ixracının potensialını genişləndirməkdədir.

Qeyri-neft sektorunun mövcud vəziyyətinin təhlilində bu sahənin inkişafında mühüm əhəmiyyət kəsb edən sahibkarlığın inkişafı dinamikasının göstəriciləri də diqqəti cəlb etmişdir. Sənəddə qeyd olunur ki, hazırda özəl sektor ÜDM-də 85 %, vergi daxilolmalarında 72,4 % təşkil edir. Özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 81,4 %-i səviyyəsindədir. Aqrar sektor, sənaye, ticarət, mehmanxana və iaşə xidməti, tikinti, nəqliyyat, rabitə kimi istehsal və xidmət sahələrində qeyri-dövlət bölməsinin payı 70-99 % arasında dəyişir. 2013-cü il ərzində müəssisə və təşkilatların sayı 2012-ci ilə nisbətən 8,9 % artaraq, 86 min vahiddən çox olmuşdur. 2013-cü ildə kiçik müəssisələrin sayı 10 % artmış və hazırda 62,2 min vahiddən çoxdur. Fiziki şəxslərin sayı isə 5,2 % artaraq 455 min vahidə çatmışdır. Ümumiyyətlə, Azərbaycanda iqtisadiyyatın fəaliyyət növləri üzrə müəssisələrin tərkibi və yeni yaradılmış müəssisələr üzrə 01.01.2014-cü ilin vəziyyətin uyğun olraq emal sənayesində 5382 vahid, tikintidə -9326, ticarət və nəqliyyat vasitələrinin təmirində - 23356, kənd təsərrüfatında – 9034 vahid müəssisələr fəaliyyət göstərirlər. Hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların sayı kənd təsərrüfatında – 63302 vahid, emal sənayesində -12948 vahid, ticarət və nəqliyyat vasitələrinin təmirində 176327 vahid, nəqliyyat və anbar təsərrüfatında – 68205

vahid təşkil edir. Sahibkarlığın maliyyə resursları və kreditlərlə təminatı sahəsindəki mövcud vəziyyəti xarakterizə edən göstəricilər kimi, 2013-cü ildə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən maliyyələşdirilən biznes və investisiya layihələrinin ümumi həcmi 275,0 mln. manat təşkil etmişdir. Bu məbləğin bölgüsü regionlar üzrə -Aran iqtisadi rayonu – 19,2 %; Gəncə-Qazax – 15 %; Lənkəran – 9,0%; Şəki-Zaqatala – 7,5 %; Dağlıq Şırvan – 6,6 %; Abşeron – 7,6 %; Quba-Xaçmaz – 1,8 %; Yuxarı Qarabağ – 3,3 %; Bakı şəhərinin qəsəbələri – 30 % təşkil etmişdir. İl ərzində 4468 layihəyə müsbət rəy verilmiş, bu layihələrdən 95,7 %-i kənd təsərrüfatı məhsullarının istehsalı, 3,9 %-i isə sənaye və digər sahələrin inkişafı ilə bağlı olmuşdur. Qeyri-neft sektorunun aparıcı sahələrindən biri olan aqrar sektorun inkişafı ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunması vəzifəsini daşıyır. Aqrar sahənin daha da inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən investisiya layihələrinin reallaşdırılmasına, güzəştli kreditlərin verilməsinə diqqət artırılmışdır. Qeyd olunduğu kimi, aqrar sektor və kənd təsərrüfatı sahələrinin qeyri-neft sektorunun potensialının artırılmasında böyük ehtiyatları vardır. Bir tərəfdən ölkə əhalisinin yarısından çoxu kənd rayonlarında yaşayır, deməli, əmək ehtiyatları vardır, digər tərəfdən, regionların sürətli inkişafı, investisiya mühitinin, cəlbediciliyinin artması, infrastruktur şəbəkələrinin genişləndirilməsi, bu sektorda məhsul istehsalının həcminin artırılmasına, sektorun davamlı inkişafına imkan verən əsas amillər kimi göstərilə bilər.

Biz əvvəllər də bildirmişdik ki, qeyri-neft sektorunun mövcud vəziyyətini daha obyektiv təhlil etmək və qiymətləndirmək üçün ilk növbədə, ona təsir edən mühüm amillərin qiymətləndirilməsi vacibdir. Azərbaycanda ölkə iqtisadiyyatının inkişafı proseslərində neft-qaz sənayesinin lokomotiv rolunu qeyd etmək lazım gəlir. Bunlar barədə çoxlu sayda tədqiqat materialları və təhlillər vardır, bu səbəbdən neft-qaz sektorunun göstəricilərini təhlil etməyi məqbul saymamışıq. Amma bu sektorun emal sahələri, yəni qeyri-neft sektoru sahələri ilə bağlı bir sıra problemlərə toxunmaq zərurəti qalmaqdadır. Hələ sovetlər dönəmində bu sektorda yəni neft-kimya sənayesi müəssisələrində Azərbaycanın sənaye istehsalının 20 %-ə qədəri istehsal olunurdu və sənayedə işləyənlərin hər 8 nəfərindən biri bu sektorda çalışırdılar. Sektorun bir sıra məhsulları dünya ölkələrinə, 100-lərlə Sovetlər Birliyi şəhərlərinə göndərilirdi. Düzdür, hazırda iri neft-kimya müəssisələrinin

çoxundan əsər-əlamət qalmayıb, onlar tamamilə istismardan çıxarılıb və ya fəaliyyət göstərmirlər. Biz qeyri-neft sektorunun neft-kimya sənayesinin hazırkı vəziyyətini təhlil edərkən ARDNŞ-nin tərkibinə daxil olan "Azərikimya" İstehsal Birliyinin durumuna toxunmaq istərdik. Birlik hazırda əsasən "Etilen-Polietilen" Zavodunun bazasında fəaliyyət göstərir. Professor E.Hacızadə ÜDM ilə neft-qaz sektoru və qeyri-neft sektoru arasında statistik xətti əlaqədə korrelyasiya nisbətlərinin əmsal ifadəsində qiymətləndirmişdir. Müəyyən olmuşdur ki, bütün istehlak indekslərinin əsasən qorunub saxlanıldığı son 15 il ərzində neft-qaz sektorunda baş verən artım xarakterizə olmuş və ümumilikdə respublika üzrə ÜDM-in inkişafında başlıca rol oynamışdır. Digər tərəfdən neft-qaz sektorunun artım tempinin qeyri-neft olunmayacağı sektoruna korrelyasiyasında da dominantlığın neft-qaz sektoruna məxsusluğu əsaslandırılmışdır... Belə vəziyyətdə isə qeyri-neft sektorunda yüksək dinamizm meyarlarına nail olunmayacağı təqdirdə respublikada 2015-ci ilə qədər iqtisadi artım yenə də neft-qaz sektorundakı artım tempi ilə yanaşı addımlayacaqdır. Sonrakı mərhələlərdə isə neft hasilatının azalması ilə bu nisbətlər bir qədər mülayimləşəcəkdir. Nəzərə alınırsa ki, 2020-2040-cı illərdə ölkədə qaz hasilatında yetərli artımlar gözlənilir, onda bu paralellik həmin müddət ərzində də müəyyən qədər müşahidə ediləcəkdir. Müəllifin bu mülahizələrinə və qiymətləndirməsinə rəğmən, qeyd etmək olar ki, əgər kimya və neft-kimya kimi geniş potensiallı sənaye sahələrinin güclərindən səmərəli istifadə edilməsə, çətin ki qeyri-neft sektorunun neft-qaz sektoru ilə müqayisədə iqtisadi artımına əsaslı təsir edə biləcək potensialı formalaşsın. Belə ki, əvvəldə misal kimi verdiyimiz "Azərikmya" İB-nın ən iri qurğusu olan – layihə gücü 450 min ton təşkil edən EP-300 qurğusu uzun illər ərzində modernizasiya edilmədiyindən və kifayət qədər investisiya yatırılmadığından bu qurğu fiziki, eyni zamanda mənəvi köhnəlməyə məruz qalmış və hazırda istehsal gücünün yalnız 25 %-i səviyyəsində fəaliyyət göstərir. Bir çox müstəqil ekspertlər də ölkənin qeyri-neft sənayesinin potensialının müasir vəziyyətinə təsir etmək üçün enerji sferasında sənayeləşmənin inkişaf etdirilməsini və emal sektorunun genişləndirilməsini zəruri hesab edirlər. 2015-2020-ci illərdə sənayenin inkişafı Dövlət Proqramının layihəsinə müasir neft-qaz emalı və neft-kimya kompleksinin yaradılması, xüsusi iqtisadi zonaların təşkili prosesinin başa çatdırılması və tədbirlər planı çərçivə-

sində xüsusən də güzəştli şərtlərlə xarici investisiyaların cəlb edilməsi tədbirləri təklif olunur. Qeyd etmək lazımdır ki, keçid dövrünün ilk illərində qeyri-neft sektoru ciddi tənəzzülə məruz qalmış və böhran illərində bu sahə özünün istehsal həcminin təxminən 80 %-ə qədərini itirmişdir... Qeyri-neft sektorunun stimullaşdırılması strategiyası isə öz növbəsində bir çox kompleks tədbirlərin həyata keçirilməsini tələb edir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı potensialının tam reallaşdırılmasına yönəlmiş bütün bu tədbirlərin kompleks şəkildə həyata keçirilməsi ixracyönümlü və idxalı əvəzetmə inkişaf strategiyalarının effektiv sintezinə imkan verən müvafiq iqtisadi mexanizmlərinin işlənməsi və realizasiyası əsasında mümkündür. Bu fikirlərlə razılaşaraq, qeyd etmək olar ki, hazırda Azərbaycanın qeyri-neft sektorunun işinin göstəriciləri bu sahənin potensial imkanlarından xeyli aşağıdır və sektorun fəaliyyətinin gücləndirilməsi məqsədilə çoxşaxəlilik prinsipləri əsasında kompleks tədbirlərin hazırlanması və reallaşdırılması problemləri qalmaqdadır. Biz qeyri-neft sektorunun ixrac potensialına bu paraqrafda toxunmadıq, bununla bərabər bu sahədə, qeyri-neft sektorunda investisiya fəaliyyəti, cəlbediciliyi, investisiyalardan səmərəli istifadə olunması problemlərinə, bu sahələrdə mövcud vəziyyətin qiymətləndirilməsinə irəlidə qayıdacağıq.

Qeyri-neft sektorunun güclü potensiala malik sektorlarından biri də kənd təsərrüfatı və ya aqrar sektorudur. Prezident İlham Əliyev qeyd etmişdir ki, kənd təsərrüfatı iqtisadiyyatın çox böyük potensiala malik olan nəhəng sektorudur. Kənd təsərrüfatının inkişafı həm də gələcəkdə məşğulluğun təmin edilməsi deməkdir. Bu sahədə ixrac potensialı kifayət qədər böyükdür. Əsas qida məhsulları üzrə biz bir ildən, maksimum iki ildən sonra özümüzü tam təmin edəcəyik. Bundan sonra isə artıq xarici bazarlara çıxış prosesi başlanacaqdır. Məlum olduğu kimi, iqtisadi təhlükəsizliyin ən mühüm istiqamtələrindən biri də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və bu sahədə təkmilləşdirilmiş dövlət siyasətinin formalaşdırılmasıdır. Təsadüfi deyildir ki, dünyanın iqtisadi cəhətdən yüksək inkişaf etmiş və əhalinin yaşayış səviyyəsinə görə digər dünya ölkələrini xeyli geridə qoyan dövlətlər özlərinin iqtisadi siyasətlərində mühüm istiqamət kimi ərzaq təhlükəsizliyinə və kənd təsərrüfatı sahələrinin inkişafına strateji məqsədlər kimi baxırlar. Bu ölkələrdə ən inkişaf etmiş bazar iqtisadiyyatı münasibətləri olmasına baxmayaraq, kənd təsərrüfatının bu və ya digər sa-

hələri üzrə dünyanın aparıcı dövlətlərindən olan ABŞ-da, Qərbi Avropa ölkələrində dotasiyalardan və subsidiyalardan müasir dövrdə də geniş istifadə edilməkdədir. Bu dövlətlər özlərinin proteksionist siyasətləri ilə milli kənd təsərrüfatı məhsulları istehsalçılarının maraqlarını qorumaqla, onların daxili və beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin güclü olmasına əlavə stimullar verirlər.

"Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" uğurla 2010-cü ildə başa çatdırılmışdır. Proqramın əhatə etdiyi 2001-2010-cu illər ərzində, xüsusilə də, son 5 il ərzində əhalinin ərzaq məhsulları ilə yerlı istehsal hesabına təminatı yaxşılaşmışdır. Belə ki, 2001-ci ilə nisbətən 2010-cu ildə kartof istehsalı 57 %, tərəvəz və bostan istehsalı 33 %, meyvə istehsalı 47 %, şəkər çuğunduru istehsalı 6,2 dəfə, ət istehsalı diri çəkidə 2,1 dəfə, süd istehsalı 1,4 dəfə, yumurta istehsalı isə 2,1 dəfə artmışdır. Təkcə 2007-2010-cu illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalçılarına və çoxillik əkmələrin becərilməsinə sərf olunan yanacağa, habelə buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına 284,1 mln. manat subsidiya verilmişdir. 2010-cu ildə respublikada 2 mln. ton taxıl, 953,7 min ton kartof, 1614,6 min ton tərəvəz-bostan, 718,2 min ton meyvə, 256,5 min ton şəkər çuğunduru, 129,5 min ton üzüm, 545 ton çay yarpağı, 333,3 min ton diri çəkidə ət, 1 530 min ton süd, 1178,6 mln. ədəd yumurta istehsal olunmuşdur. 2012-ci ilin yekunları üzrə təhlillər göstərir ki, görülmüş tədbirlər öz nəticəsini vermişdir. Belə ki, 2012-ci ildə 1647.1 min hektar sahədə əkin aparılmışdır. 1031.4 min hektar sahədə payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilər əkilmiş, nəticədə 2802.2 min ton məhsul istehsal olunmuşdur. 2012-ci ildə 2011-ci il ilə müqayisədə 343.8 min ton taxıl , o cümlədən 206.4 min ton buğda, 1.4 min ton tərəvəz məhsulları, 30.0 min ton kartof, 44.2 min ton meyvə məhsulları, 13.9 min ton üzüm, 691 ton tütün yarpağı və 33.8 ton yaşıl çay yarpağı artıq istehsal olunmuşdur. 2012-ci il ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 4,8 mlrd. manata yaxın olmuş və 2011-ci ilə nisbətən artım 6,6 % təşkil etmişdir. Bitkiçilik məhsulları üzrə artım – 5,8 %, heyvandarlıq məhsulları üzrə isə 7,6 % olmuşdur. Kənd təsərrüfatının əsas sahəsi olan heyvandarlıq sahəsində mal-qaranın baş sayı və heyvandarlıq məhsulları istehsalı dinamik olaraq artır. Son illər sürünün cins tərkibinin yaxşılaşdırılması istiqamətində görülmüş işlər mal-qaranın və heyvandarlıq məhsullarının artmasına öz müsbət təsirini göstərmişdir.

Qeyri-neft sektorunun təhlili və tədqiqi üzrə araşdırmalar bu qənaətə gəlməyə imkan verir ki, sektorun potensialının daha ciddi arqumentlərlə qiymətləndirilməsi və təhlili üçün bir qrup strateji meyarlar ciddi nəzərə alınmalıdır:

İlk növbədə, qeyri-neft sektorunun priortetliyi nəzərə alınmaqla, ölkə iqtisadiyyatının inkişaf tendensiyalarına adekvat istiqamətlərin müəyyənləşdirilməsi, mövcud resurslardan səmərəli istifadə olunması və onların bazasında müxtəlif qeyri-neft sektorlarının inkişafının əsaslandırılması və təşkili;

Təbii ehtiyatlar hesabına emal müəssisələrinin yaradılması prosesləri ilə əmək ehtiyatlarının məhsuldar yerləşdirilməsi baxımından uzlaşdırılması, regionlarda sənaye zonalarının, sənaye məhəllələrinin, aqrar şəhərciklərin, aqrar komplekslərin, elm-innovasiya və klaster təyinatlı kənd təsərrüfatı və aqrar holdinqlərin təşkilinə baxılmalı;

Kənd təsərrüfatı və aqrar sektora dövlət dəstəyi mexanizmlərinin bu sektorun qarşısında duran müasir vəzifələr baxımından təkmilləşdirilməsi proseslərinin intensivləşdirilməsi və s.

Azərbaycanda qeyri-neft sektorunun müasir vəziyyəti bu sahənin diversifikasiyalaşdırılmasının intensivləşdirilməsi ilə xarakterizə edilsə də, təəssüf ki, bu proseslər sektorun potensialının cüzi bir hissəsi kimi çıxış edir. Qeyri-neft sektorunun ölkə ÜDM-dəki və digər makroiqtisadi göstəricilərdə artım dinamikasının intensivləşdirilməsi üçün, ilk növbədə, bu sahənin ixrac potensialının genişləndirilməsi zəruridir. Bu halda ölkənin qeyri-neft sektoru sahələrinə xarici investisiyaların cəlb edilməsi sürətlənə bilər, müxtəlif ölkələrdən investorların gəlişi artar, ölkəyə gətirilən müasir texnologiyalar və idarəetmə metodları qeyri-neft sektorunda ədalətli rəqabəti artırar, istehsal standartlarını yüksəldər, real məhsul artımına ciddi zəmin yaradar.

## 3. Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialı və onun qiymətləndirilməsi

Azərbaycanın milli iqtisadi inkişaf proseslərində milli iqtisadi maraqların qorunması və ölkənin dünya iqtisadi sisteminə uğurlu inteqrasiyası baxımından daha çox elmi diskussiyalara və müzakirələrə səbəb olan problemlərdən biri də qeyri-neft sektoru ixracının səmərəlilik məsələləridir. Milli iqtisadiyyatın inkişafında xarici-iqtisadi əlaqə-

lərin və xarici ticarət fəaliyyətinin əhəmiyyətini artıran bir qrup amillərə bunları aid etmək olar:

Milli iqtisadiyyat xarici ticarət vasitəsilə ilə dünya ölkələrinin sərhədlərini daha tez keçir və inteqrasiya kanallarına daxil olur;

Xarici-iqtisadi əlaqələr dövlətlərarası çoxşaxəli münasibətlər formalaşdırır, beynəlxalq əməkdaşlığın səmərəli modellərinin müəyyənləşdirilməsinə yardımçı olur;

Xarici ticarət fəaliyyəti ölkənin istehsal, təsərrüfat və idarəetmə sferalarına yeni texnologiyalar, müasir avadanlıqlar, mütərəqqi idarəetmə metodları gətirir;

Xarici iqtisadi əlaqələrin artması və coğrafiyasının genişlənməsi milli iqtisadiyyatın müxtəlif sahələrinə xarici investisiyaların cəlbini və bu sahələrə xarici investorların gəlməsini sürətləndirir;

Xarici ticarət fəaliyyəti üzrə rəqabətqabiliyyətli müəssisələrin şəbəkəsinin genişlənməsi milli iqtisadiyyatın fəallığını artırır, rəqabət mühitini gücləndirir, milli keyfiyyət standartlarının səviyyəsinə müsbət təsir göstərir;

Xarici ticarətin artımı ölkənin strateji iqtisadi siyasətinin qarşısında duran vəzifələrin yerinə yetirilməsinə real imkanlar yaradır, ölkəyə valyuta resurslarının gətirilməsini və valyuta ehtiyatlarının artırılmasını təmin edir;

İxrac təyinatlı məhsulların çeşidinin çoxalması daxili istehlak bazarının səviyyəsinin artmasını stimullaşdırır, ölkənin beynəlxalq aləmdə, dünya əmtəə bazarlarında imicini yüksəldir;

İxrac potensialının yüksəlməsi milli iqtisadiyyatın müxtəlif sektorlarının dünya iqtisadiyyatında baş verən maliyyə və iqtisadi problemlərin fəsadlarına immunitetinin formalaşmasına əsaslı köməklik göstərir;

İxrac potensialının artması milli iqtisadiyyatın çoxşaxələndirilməsinə imkan verir və s.

Hasilat sənayesi, o cümlədən əsasən neft-qaz sektorları güclü və aparıcı iqtisadiyyat sektorları olan dünya ölkələrində qeyri-neft sektorunun ixrac potensialı problemi əsas müzakirə predmeti kimi uzun illərdir müzakirə olunur. Bu kimi ölkələrin təcrübəsi baxımından yanaşdıqda, maraqlı məqam kimi, həmin ölkələrdə neft-qaz sənayesi ilə bərabər, digər iqtisadiyyat sahələrinin inkişafı strategiyasının bir-biri üçün heç də məqbul olmadığını görmək mümkündür (Norveç, Küveyt, Səudiyyə Ərəbistan, İran, Rusiya, Qazaxıstan, Türkmənistan, ABŞ,

Nigeriya və s.). Bu ölkələrin bir birində neft-qaz resurslarının ixracı ilə bərabər, digər iqtisadiyyat sektorları məhsullarının ixrac potensialının müxtəlifliyi, bu istiqamətlərdə hansısa paralelliyin olmaması diqqət çəkir. Bu amillər nəzərə alınmaqla, Azərbaycanda neft strategiyasının reallaşdırılmağa başladığı proseslərlə bərabər, "optimal ixrac konsepsiyası", "səmərəli ixrac modelləri", "effektiv ixrac modeli" və s. bu kimi prioritetlər, meyarlar axtarışı davam etməkdədir. Ölkədə xarici ticarətlə və ixrac potensialının artırılması ilə bağlı institusional və qanunvericilik bazalarının formalaşdırılması, təkmilləşdirilməsi, ixrac potensialının maddi-texniki bazasının gücləndirilməsi, nisbətən investisiya cəlbediciliyinin yaxşılaşdırılmasına baxmayaraq, Azərbaycan ixracı hələ də birbaşa olaraq mineral məhsulların, yəni neft-qaz xammalının ixracından asılılığı ilə seçilir. Tədqiqatçı A.Paşacanov qeyd edir ki, Azərbaycanın gələcəkdə "Holland sindromu" ilə qarşılaşmaması üçün milli iqtisadiyyatın diversifikasiya edilməsi istiqamətləri müəyyənləşdirilməlidir. Müəllif bildirir ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün Azərbaycan beynəlxalq bazarlarda aşağıdakı məhsullar üzrə carı və potensial üstünlüklərə malikdir:

- Yeyinti və yüngül sənaye məhsulları;
- Kimya sənayesi məhsulları;
- Metallurgiya sənayesi məhsulları;
- Tikinti materialları;
- Maşınlar, mexanizmlər və avadanlıqlar.

Daha sonra cari və potensial müqayisəli üstünlüyə malik olduğumuz sahələrin inkişafının təmin edilməsi nəticəsində istehsalın və ixracın sahə strukturunun təkmilləşdirilməsi, mövcud təbii-iqtisadi potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb edilməsi və elmi-texniki potensialın inkişaf etdirilməsi zəruri hesab olunmuşdur.

Beynəlxalq Valyuta Fondunun "Xarici ticarət" üzrə hesabatında qeyd olunur ki, Azərbaycan ixracatının əsasını neft və neft məhsulları, xam neft təşkil edir. Bu hal, həmçinin Azərbaycanın əsasən xammal ixrac etdiyinə və neft emalından çox az gəlir götürdüyünə dəlalət edir. Özəl sektorun ixrac əməliyyatlarında iştirakı dövlət sektoruna nisbətən aşağıdır. Kiçik və orta sahibkarlıq subyektlərinin xarici ticarətdə iştirakının artırılması həm ixrac, həm də idxal nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edir. Belə bir faktı göstərə bilərik ki, 2003-2010-cu illər ərzində Azərbaycanda ümumi real iqtisadi artımın təqribən yarısı neft

sektorunun yüksək templə artdığı, 2004-2008-ci illərdə isə 30 %-i qeyri-neft sektorunun hesabına baş vermişdir. Eyni zamanda qeyri-neft sektoru üzrə mal və xidmət ixracının ilbəil artımı sektorun diversifikasiya səviyyəsinin yüksəlməsinə pozitiv təsir göstərmişdir. Müəllif bildirir ki, hələlik iqtisadiyyatın strukturunda, ixrac və dövlət büdcəsinin gəlirlərində neft sektorunun payı yüksək olaraq qalır. Qeyd olunan mülahizələrə əsaslansaq, Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının müasir dövrdə obyektiv təhlilini və qiymətləndirilməsini təmin etmək üçün, bizə görə, xarici ticarət dövriyyəsinin dinamikası, xarici ticarətdə qeyri-neft sektorunun payı, qeyri-neft sektoru ixracının quruluşu ilə yanaşı, ayrı-ayrı ixrac məmulatlarının dinamikasının – onların potensialının xarakterizə edilməsinə xüsusi diqqət yetirilməlidir.

Qeyri-neft sektorunun ixrac potensialının obyektiv qiymətləndirilməsi zərurəti ortaya çıxdıqda ilk mühüm meyarlar kimi tədqiqatlarla, təhlillərlə bərabər, müxtəlif fikir və mülahizələr, beynəlxalq təşkilatların və ekspertlərin fikirlərinə də yer verməyi lazım bilmişik. Dünya Bankının mütəxəssisləri tərəfindən hazırlanan “Azərbaycan 2011-2014-cü maliyyə illəri üçün ölkə tərəfdaşlıq Strategiyası” sənədində qeyd olunur ki, Azərbaycanın qarşısında duran vəzifə, inkişaf prosesində impulsu saxlamaq və davamlı, yuxarı orta gəlirli ölkəyə çevrilməkdir. Bunun üçün 2 meyar tələb olunacaq. Birincisi, qeyri-neft iqtisadiyyatını gücləndirmək və rəqabət qabiliyyətini yüksəltmək üçün Azərbaycan xarici bazarlara daha çox yönəlməlidir. İkincisi, Azərbyacan bu gəlir artımından tam və effektiv istifadə imkanlarını gücləndirməlidir. Azərbaycanın “Holland sindromu”nu idarəetmə mexanizmləri yalnız qismən uğurlu olmuşdur. Nominal ifadədə qeyri-neft ixracı artsa da, onun ÜDM-də payı aşağı düşmüşdür. Azərbaycan dünyanın ÜTT-ə daxil olmamış azsaylı ölkələrindən biridir. Azərbaycan hökumətinin yaxın illərdə ən mühüm vəzifələrindən biri rəqabətli qeyri-neft iqtisadiyyatının qurulmasıdır. Bunun üçün səmərəli makroiqtisadi idarəetmə təmin olunmalı, qeyri-neft sektorunun daha yüksək templə artması üçün işgüzar mühit yaxşılaşdırılmalı və qeyri-neft ixracının artım səviyyəsi əsas meyarlardan birinə çevrilməlidir.

Qeyri-neft sektorunun ixrac potensialını daha dolğun təsəvvür etmək və təhlilini vermək üçün, ilk növbədə Azərbaycanda xarici ticarət dövriyyəsinə, o cümlədən, ixracın dinamikasına nəzər salmağı vacib saymışıq.

**Azərbaycan Respublikasında xarici ticarət dövriyyəsinin, o cümlədən ixracın 1995-2013-cü illər üzrə müqayisəli dinamikası (mln. ABŞ dolları ilə).**

| İllər | xarici ticarət dövriyyəsi | əvvəlki ilə nisbətən, %-lə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | ixrac | əvvəlki ilə nisbətən, %-lə |
| 1995 | 1304,9 | 91,2 | 632,2 | 97,6 |
| 2000 | 2917,3 | 148,4 | 1745,2 | 187,7 |
| 2005 | 8558,4 | 120,0 | 4347,2 | 120,2 |
| 2008 | 54925,5 | 466,6 | 47756,0 | 788,3 |
| 2010 | 27960,8 | 134,0 | 21360,0 | 145,0 |
| 2011 | 36326,9 | 130,0 | 26570,9 | 124,4 |
| 2012 | 33560,9 | 92,4 | 23908,0 | 90,0 |
| 2013 | 34687,9 | 103,4 | 23975,4 | 100,3 |

Cədvəl xarici ticarət dövriyyəsinin və ixarcın həcminin paralellik nisbətində artdığını göstərir. Bu, şübhəsiz, bir neçə dəfə, əvvəllərdə qeyd etdiyimiz kimi, neft və neft məhsullarının ixracının dinamikası ilə birbaşa bağlı olmuşdur. 1995-2013-cü illərdə xarici ticarət dövriyyəsi 26,6 dəfə artdığı halda, ixracın həcmi 37,6 dəfə artmışdır. 2008-ci ildə xarici ticarət dövriyyəsinin əvvəlki illə nisbətdə 4,7 dəfə, o cümlədən, ixracın 7,9 dəfə artması həmin ildə neft xammalının ixracı həcminin artması və əsasən dünya bazarında xam neftin qiymətinin yüksək həddə çatması ilə bağlı olmuşdur. 2012-2013-cü illərdə xarici ticarət dövriyyəsinin və xüsusilə ixracın artımında problemlər özünü göstərmişdir. Xarici ticarət dövriyyəsi 2008-ci ilə nisbətdə 2013-cü ilin yekunu üzrə 1,6 dəfə, ixrac isə 2 dəfəyə yaxın azalmışdır. 2013-cü ildə xarici ticarət dövriyyəsi 2011-ci ilə nisbətən 4,5 %, ixracın həcmi isə 9 % azalmışdır. Lakin bu göstəricilər hələlik ölkənin ixrac potensialı, qeyri-neft ixracı barəsində dolğun təsəvvür yaratmağa imkan vermir. Baxılan göstəricilər əsasında belə bir mülahizəni qeyd etmək olar ki, ölkə iqtisadiyyatının ixrac potensialı son 2 ildə artmadığından, ölkənin xarici ticarət dövriyyəsinin artım tempində qeyd etdiyimiz kimi, problemlər yaranmağa başlanmış və artım dinamikası zəifləmişdir.

Ölkənin qeyri-neft ixracının potensialının formalaşmasında ayrı-ayrı ixrac-yönümlü malların rolu böyükdür. Bir sıra rəqabətqabiliyyətli malların ixracının natura miqdarını artırmaqla, qeyri-neft sektorunun ixracının ümumi həcminin artırılmasına nail olmaq mümkündür. Cədvəldə ölkədə istehsal olunan bir qrup malların ixracı üzrə natural miqdarların göstəriciləri verilmişdir.

**Azərbaycan Respublikasında bir sıra əsas qeyri-neft sektoru malları üzrə ixracın miqdarı**

| **Mallar** | **2008** | **2010** | **2012** |
|---|---|---|---|
| Kartof, min ton | 86,4 | 64,0 | 58,8 |
| Təzə tərəvəz, min ton | 79,6 | 54,3 | 54,6 |
| Təzə meyvə, min ton | 272,5 | 187,4 | 220,4 |
| Çay, min ton | 5,3 | 8,1 | 7,0 |
| Şəkər çuğunduru, min ton | 16,9 | 14,1 | 34,8 |
| Bitki yağları, min ton | 24,1 | 27,9 | 33,4 |
| Hidrogenləşdirilimiş piylər və yağlar, min | 32,0 | 34,9 | 29,6 |
| Şəkər, min ton | 165,1 | 203,9 | 213,2 |
| Meyvə və tərəvəz konservləri, min ton | 3,9 | 4,7 | 6,3 |
| Meyvə və tərəvəz şirələri, min ton | 35,6 | 18,7 | 8,6 |
| Üzüm şərabı, min dkl | 183,3 | 223,9 | 389,4 |
| Etilen polimerləri, min ton | 62,3 | 46,2 | 57,1 |
| Pambıq lifi, min ton | 13,6 | 3,3 | 6,1 |
| Pambıq ipliyi, min ton | 7,2 | 6,5 | 8,3 |
| Qara metallardan yarımfabrikatlar, min ton | 15,7 | 100,5 | 110,0 |
| Qara metallardan künclüklər və şveyllerlər, min ton | 69,4 | 60,8 | - |
| Qara metallardan qazma boruları, min ton | 20,6 | 32,3 | 38,2 |
| Emal olunmamış alüminium, min ton | 60,6 | 3,8 | 58,7 |

Biz cədvələ neft məhsullarının ixracı göstəricilərini daxil etməmişik. Bu cədvələ daxil edilmiş ixrac məhsullarının hər biri müasir Azərbaycan qeyri-neft ixracının potensialını artırmaq iqtidarında olan məhsullardır. Təəssüf ki, bu potensialdan zəif istifadə olunması ixracın natural miqdarlarından aydın şəkildə görünür. Ölkənin bir neçə regionlarında yetişdirilməsi, saxlanılması və ixracı üçün münbit şərait olan kartof məhsulu ixracının həcmi 2008-2012-ci illərdə 46,9 % aşağı düşmüşdür. Həmin dövr ərzində təzə tərəvəzin ixracı-45,8 %, təzə meyvə ixracı 23,6 % azalmışdır. Təzə tərəvəz və təzə meyvə məhsullarına regionda, həm də keçmiş SSRİ ölkələrində, xüsusilə Rusiyada tələbatın yüksək olduğunu nəzərə alaraq, Azərbaycanın qeyri-neft ixracı potensialının artırılması baxımından bu iki mal qrupu üzrə kompleks və ardıcıl stimullaşdırıcı, fəallaşdırıcı tədbirlərin görülməsi vacib hesab oluna bilər. Təzə tərəvəz və təzə meyvə mal qruplarının ixrac potensialının kompleks baxılması ölkənin bütün regionlarının, ilk növbədə kənd təsərrüfatı rayonlarının, meyvəçiliklə məşgul olan ərazilərin sosial-iqtisadi inkişafını xeyli sürətləndirə bilərdi. Ənənəvi ixrac məhsulu kimi çayın potensialından istifadənin xeyli zəifliyi təəssüf doğurur. Müstəqillik dövründə güclü inkişaf proseslərini yaşamış və ixrac malları kimi möhkəmləmiş şəkər çuğundurunun yetişdirilməsi və şəkərin istehsalı, həm də ixracının dəfələrlə artırılmaq potensialının olduğu qənaətindəyik. Bunun üçün yararlı torpaq sahələrinin və əmək resurslarının, maliyyə və texniki imkanların mövcudluğunu qeyd etmişdik. Hidrogenləşdirilimiş piylər və yağlar, bitki yağları kimi malların ixrac potensialının güclü olması son illərdə özünü əyani göstərmişdir. Amma, təəssüf ki, bu istiqamətlərdə istehsal güclərinin artmasına, yeni müəssisələrin istismara verilməsinə baxmayaraq, ixracın həcminin artımı olsa da belə, bütün bunlar reallıqları, faktiki potensialı əks etdirmir. Meyvə və tərəvəz şirələrinin ixracının 2012-ci ildə 2008-ci ilə nisbətən 4,1 dəfə azalması isə, bu mal qrupu üzrə ixrac strategiyasının daha dayanıqlı, etibarlı olmamasının ifadəsidir və həmin mal qrupu üzrə ölkəmizdə yaradılmış güclü ixrac potensialının tam mənada reallaşdırılması üçün əsaslı tədbirlərin görülməsinə ehtiyac qalmaqdadır. Üzüm şərabının ixracı 2008-2012-ci illər ərzində 2,1 dəfə artmasına baxmayaraq, bu məhsulun xammal bazasının potensialı və ixrac imkanları baxımından göstərilən ixrac həcmi sahənin güclü potensialının cüzi bir hissəsini təşkil edir. Əvvəllərdə bildirdiyimiz kimi, güclü potensiala malik qeyri-neft sənaye sahəsi olan kimya və

neft-kimya sektorunun ixrac potensialından zəif istifadə davam etməkdədir. Belə ki, yeni istehsal gücləri yaradılmadığından və ixractəyinatlı malların çeşidi genişləndirilmədiyindən, yalnız bir neçə məhdud ixrac məhsulu ilə çıxış edən kimya və neft-kimya sahəsinin ixrac potensialının artım prosesi, demək olar ki, son illərdə dayanmışdır. Əgər 2008-ci ildə sahənin əsas yarımfabrikat məhsulları olan, ixraca göndərilən etilen polimerlərinin (əsasən yüksəktəzyiqli polietilen məhsulu) ixracı 62,3 min ton idisə, 2010-cu ildə bu rəqəm 46,2 min ton, 2012-ci ildə isə 57,1 min ton, başqa sözlə, 2008-ci ilin göstəricisinin 91,6 % səviyyəsində olmuşdur. Pambıq lifi və pambıq ipliyi üzrə ixrac potensialı tamamilə aşağı səviyyədədir və bu istiqamətlərdə köklü dəyişikliklərin aparılması, sahənin prioritetliyinin araşdırılması, infrastrukturun itirilmiş bazasının bərpa edilməsi, sahənin gəlirliyinin artımının təmin olunması, emal müəssisələri şəbəkəsinin formalaşdırılması və səmərəli fəaliyyətinin təşkil edilməsi, məhsulların istehsalının planlaşdırılması, toplanması, emalı və ixracı tsikllərinin kompleks baxılması problemləri həll olunmamış qalmaqdadır. Qara metallardan yarımfabrikatlar və qazma borular, emal olunmamış alüminium məhsulları üzrə ixrac potensialının əslində bərpa olunması və gücləndirilməsi prosesləri başlamışdır. Bu sahədə dövlət tərəfindən kompleks tədbirlərin həyata keçirilməsi dəstəklənməkdədir. Həmin mallar üzrə ixrac potensialının artırılması səviyyəsini olduqca yüksək qiymətləndirmək mümkündür və qeyri-neft ixracının yaxın perspektivdə öz potensialından daha səmərəli istifadə etmək imkanlarına malik sənaye sahələri kimi xarakterizə olunurlar.

Azərbaycanın ixrac potensialının əsasən müasir dövrdə neft-qaz xammalı və neft məhsulları bazasında mövcudluğu, ölkə ixracının coğrafiyasına və əsas tərəfdaşların xüsusi çəkisinə də təsir etmişdir. Məsələn, Azərbaycan 2012-ci ildə 110-dan çox ölkə ilə ixrac münasibətləri qurmuşdur və bu ölkələr həyata keçirilmiş ixracın həcmi əksər hallarda xeyli cüzi olmuşdur. Və yaxud bu ölkələrin əksəriyyətinə neft xammalı və neft məhsulları göndərilmişdir. Ölkənin ixrac coğrafiyasında 2012-ci ildə yer almış 83 ölkəyə göndərilən ixrac məhsullarının dəyəri bir yerdə cəm şəklində ümumi olaraq 760 mln. dollar təşkil etmişdir. Elə ölkələr var ki, bir neçə min dəyərində ixrac məhsulu yola salınıb. Bu vəziyyətin, yəni ixracın coğrafiyasının və ölkə-partnyorlarla əlaqələrin təhlilini geniş aparmaq imkanlarımız bu tədqiqat işinin strukturuna daxil edilmədiyindən, yalnız Azərbaycanın əsasən qeyri-

neft ixracı üzrə nisbətən fəal olduğu bir sıra ölkələrlə ixrac münasibətlərinə toxunmaq istərdik. 2012-ci ildə ölkəmizin ixracda əsas tərəfdaşlarının ilk onluğunda yer almış ölkələrdən biri – Rusiya Federasiyası Azərbaycanın qeyri-neft sektoru məhsullarının ixracı və idxalı hesabına formalaşır. Qalan 9 ölkə ilə ixrac münasibətləri əsasən neft xammalı və neft məhsulları ilə bağlıdır (İtaliya, Hindistan, Fransa, İndoneziya, İsrail, ABŞ, Almaniya və Yunanıstan). 2012-ci ildə Rusiya Federasiyasına 58,3 min ton kartof, 54 min ton təzə tərəvəz, 196,9 min ton təzə meyvə, 3,5 min ton çay, 17,6 min ton bitki yağları, 188,6 ton makaron məmulatları, 381,3 min dkl üzüm şərabı, 1,8 min ton tütün, 67,9 ton gips, 37,1 min ton ağ neft, 1,4 mlrd. $m^3$ təbii qaz, 147,7 min ton neft koksu, 229,5 mln. kvt.s. elektrik enerjisi, 2443 ton etilen törəmələri, 7,4 min ton pambıq parça ipliyi, 20,3 min $m^2$ sintetik kompleks saplardan parçalar, 3,4 min ton qara metallardan yarımfabrikatlar, 31,9 min ton qara metallardan qazma boruları, 242 ədəd ağacdan ofis, mətbəx, yataq mebelləri, digər mebellər ixrac olunmuşdur. Rusiyaya 2012-ci ildə ixrac olunmuş 841,08 mln. dəyərində bu qeyd məhsulların 59,4 % neft-qaz məhsullarının payına düşür (500 mln. ABŞ dollarına yaxın). Azərbaycanın qeyri-neft sektoru üzrə əsas tərəfdaşı olan Rusiya ilə, qeyri-neft ixracının 2012-ci ildə cəmisi 341 mln. dollar səviyyəsində olması, bu sahədəki potensialından zəif istifadənin ifadəsidir. Qeyri-neft ixracı üzrə öz real potensialının yenidən qiymətləndirilməsi, ənənəvi əmtəə bazarlarının bərpası, yeni əmtəə bazarlarının əldə edilməsi, ixarc coğrafiyası ilə yanaşı, ixracın perspektivli mal strukturunun diversifikasiyalaşdırılması problemlərinin həlli yaxın perspektivdə ölkəmizin qarşısında duran strateji vəzifələrin bir hissəsi kimi çıxış edir.

## 4. Azərbaycanda qeyri -neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri

Müasir dövrdə qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsinin qanunvericilik bazasının formalaşdırılması və onun zərurət yarandıqca təkmilləşdirilməsi məsələləri daha çox diqqət mərkəzində olmuşdur. Bu sahədə qanunların mükəmməlliyi və işləkliyi mühüm şərtlər kimi çıxış etmişdir. Bu prinsiplərin əsasında aşagıdakı meyarlara üstünlük verilmişdir:

- - Xarici iqtisadi əlaqələrin genişləndirilməsinə şərait yaradılmalı;
- - Xarici ticarət iştirakçılarının beynəlxalq bazara çıxışını məhdudlaşdıran baryerlərin azaldılması və süni müdaxilələrə adekvat mexanizmlərin işlənilməsinin təmin edilməsi;
- - İxrac prosedurlarının sadələşdirilməsi və ixracın stimullaşdırılması;
- - Ixracın həvəsləndirilməsi, bu sahənin inkişafına imkan verən dövlət dəstəyi mexanizmlərinin qanunlar vasitəsi ilə tənzimlənməsi;
- - İxrac proseslərinin əsas iştirakçıları kimi xarici investorların hüquqlarının qorunması, fəaliyyətlərinin tənzimlənməsi;
- - Ölkəyə gətirilən investisiyaların və müasir texnologiyaların qanunvericilik bazalarının beynəlxalq hüquq prizmasından müdafiəsinin təşkili, investisiyaların toxunulmazlığı prinsiplərinin qorunması;
- - Müxtəlif dövlət orqanlarının və nəzarətedici təşkilatların ixracla məşğul olan sahibkarlıq subyektlərinin işinə əsassız müdaxilələrin minimumlaşdırılması;
- İxracın inkişafı, xüsusilə qeyri-neft ixracının potensialının artırılması məqsədilə dövlət dəstəyi mexanizmlərinin, maliyyə yardımlarının, daxili investisiya qoyuluşlarının, subsidiya və dotasiyaların və s. maliyyə-büdcə, kredit maliyyə rıçaqlarının tətbiqi üzrə qanunvericilik əsaslarının gücləndirilməsi və s.

Ölkəyə xarici investisiyaların cəlb edilməsi, investorların ölkə iqtisadiyyatına iri kapitalın gətirilməsində həvəsləndirilməsinin qanunvericilik əsasları yaradılmış, sahibkarlığın və biznes mühitinin inkişafı üçün böyük həcmli işlər görülmüşdür. "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" ölkə qanunları qəbul edilmişdir. Bu qanunlara görə, dövlət investisiya fəaliyyətinin tənzimlənməsinə, qoyulmuş investisiyaların qorunmasına zəmanət verir, investisiya şəraitinin yaxşılaşdırılması üçün kompleks tədbirlər görür, mexanizmlər işləyib hazırlayır və həyata keçirir, investisiya fəaliyyəti subyektlərinin işini tənzimləyir və sabitliyini qoruyur, investorların hüquqlarını müdafiə edir və digər mühüm tədbirlərin təşkilatçısı kimi çıxış edir. "Xarici investisiyaların qorunması haqqında" təkmilləşdirilmiş və əlavələr edilmiş Qanunla ölkə iqtisadiyyatına sərmayələr yatırmış investorların hüquqi müdafiəsi, investisiyaların cəlb edilməsi sahəsində milli subyektlərlə bağlanmış kontraktların şərtlərinin icra olunmasına dövlət nəzarəti mexanizmləri müəyyənləşdirilmişdir.

Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdirilməsi, onun ixrac potensialının artırılması proseslərinin tənzimlənməsi və təkmilləşdirilməsi zərurəti ilk növbədə ölkədə investisiyaları kifayət qədər tənzimləyən qanun və normativ aktların işlənib hazırlanmasını şərtləndirir. Məlum olduğu kimi, bir çox ölkələrdə investisiyaların tənzimlənməsi ümumi qanunlar çərçivəsində aparılır və əsasən ölkə konstitusiyasında baxılır. Azərbaycan Respublikasının Konstitusiyasında bildirilmişdir ki, mülkiyyət toxunulmazdır və dövlət tərəfindən qorunur. Məhkəmənin qərarı olmadan heç kim mülkiyyətdən məhrum edilə bilməz. Bu maddələr Azərbaycan vətəndaşları ilə yanaşı, xarici vətəndaşlara da şamil olunur. "Xarici investisiyaların qorunması" haqqında Qanunun 11-ci maddəsində milliləşdirməyə qarşı dövlət təminatı nəzərdə tutulmuşdur. Maddəyə əsasən, milliləşdirmə haqqında qərar yalnız Milli Məclis tərəfindən qəbul oluna bilər. Bu halda isə xarici investorlara təcili, adekvat və effektiv kompensasiya ödənməlidir. Azərbaycan bir çox Konvensiyaların, o cümlədən 1996-ci ildən başlayaraq, "Xarici ticarət arbitrajı haqqında" Avropa Konvensiyasının (Cenevrə Konvensiyası adlandırılır və 1961-ci ildən qüvvəyə minib) iştirakçısıdır. Xarici kapitalın ölkəmizə gətirilməsi və investorların fəaliyyətinin daha da təkmilləşdirilməsi məsələləri ölkə Prezidentinin "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" Sərəncamında öz əksini tapmışdır. İnvestisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin təkmilləşdirilməsi, qanunvericilik bazasının gücləndirilməsi öz növbəsində ölkəmizin mineral və xammal resurslarından daha səmərəli istifadə olunmasına, yeni rəqabətqabiliyyətli, ixractəyinatlı mal və məhsulların çeşidinin artırılmasına, ixracın stimullaşdırılmasına, hazır sənaye məhsullarının ixracının genişləndirilməsinə, bütövlükdə ölkədə investisiya fəaliyyətinin gücləndirilməsinə, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə və onun ixrac potensialının əhəmiyyətli səviyyədə artırılmasına şərait yaradır, bu proseslərdə hüquqi-normativ bazanın etibarlılığını, işləkliliyini artırır və s. İxracın təkmilləşdirilməsinin vacibliyi 2013-cü ilin yekununda, Azərbaycan xarici ticarət əlaqələrinin yekununa baxdıqda da, zərurət kimi çıxış edir. Məsələn, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məlumatları əsasında hazırlanmış təhlildə göstərilir ki, 2013-cü ildə 34,7 mlrd. dollarliq xarici ticarət dövriyyəsinin 24 mlrd. dollara yaxını və yaxud 69,1 % ixracın payına düşmüşdür. Azərbaycan 149 ölkə ilə ticarət əlaqəsinə girmişdir və 2012-ci illə müqayisədə xarici ticarət

dövriyyəsi 3,35 %, qeyri-neft sektoru üzrə ixracın həcmi 5,78 % artmışdır. İxrac əməliyyatlarında dövlət sektorunun payı 93,29 %, özəl sektorun payı isə cəmisi 5,76 % təşkil etmişdir. Göründüyü kimi, qeyri-neft sektorunun ixrac potensialı və bu sahənin əsas təsərrüfat subyektləri kimi özəl sektor müəssisələrinin ölkə ixracında iştirakının fəallaşdırılması, həvəsləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsi vacib əhəmiyyət kəsb edir. Müstəqil ekspertlər belə hesab edirlər ki, hazırda neft sektorundan əlavə, ölkənin ixrac potensialı əsasən kənd təsərrüfatında bəzi mövqelərlə məhdudlaşır. Təəssüf ki, son iyirmi il ərzində ölkə ixracatçı kimi bütün mövqelər üzrə geriləyib. Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycan üzrə "Transition Report 2011" adlı hesabatına əsasən ölkənin əsas məqsədlərindən biri kimi iqtisadiyyatın şaxələndirilməsi göstərilmişdir. Bankın proqnozlarında bildirilir ki, ÜTT-ə üzvlük prosesinin başa çatması və transsərhəd prosedurların sadələşdirilməsi bu məqsədə çatmaqda kömək edə bilər. Düzdür, Azərbaycan hələlik ÜTT-ə daxil olmaqda tələsmir, bu proseslərdə ehtiyatlılıq nümayiş etdirir. Bununla belə, geci-tezi dinamik, tarazlaşdırılmış, səmərəli iqtisadi sistem qurmaq, dünya ticarət sistemində və əmtəə bazarlarında bərabərhüquqlu tərəfdaş kimi iştirak etmək üçün ÜTT-ə daxil olmalıdır, bu zəruri tələbatdan irəli gələn bir prosesdir.

Ölkə Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlərin müəyyənləşdirilməsi təmin olunmuşdur. İxrac əməliyyatlarının sadələşdirilməsi, ixracın effektivliyinin artırılması, ixracın stimullaşdırılması, xarici ticarət fəaliyyəti iştirakçılarının ixrac əməliyyatlarını genişləndirməyə həvəsləndirilməsi, bu sahədə yerli və xarici investorların fəallığının artırılması məqsədilə, "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 24 iyun tarixli 609 №-li Fərmanı ilə təsdiq olunmuş" Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"na bir sıra dəyişiklilkər və əlavələr edilmişdir.

Biz əvvəllərdə qeyd etmişdik ki, ölkənin iqtisadi siyasətində son illərdə qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dövlət dəstəyi gücləndirilmiş, sistemli yanaşma prioritet kimi qəbul olunmuş və bir sıra tənzimləyici, stimullaşdırıcı tədbirlər müəyyənləşdirilmiş, icra edilmiş və ya icra olunmaqdadır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 08 fevral tarixli Sərancamı ilə təsdiq olun-

muş "2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair tədbirlər Planı"nda əsasən aşağıdakıların həyata keçirilməsi yer almışdır:

Xarici ticarət fəaliyyəti sahəsində daha əlverişli şəraitin yaradılması, bu sahədə dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və yeni Qanun layihəsinin hazırlanması;

Gömrük qanunvericiliyinin təkmilləşdirilməsi və ixrac prosedurlarının sadələşdirilməsi, müvafiq normativ hüquqi aktlara əlavə və dəyişikliklərin hazırlanması;

"Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu"nun (AZPROMO) fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi;

İxrac məqsədilə məhsulların istehsalının kreditləşdirilməsi üzrə mexanizmlərin hazırlanması;

Məhsul və xidmətlərin ixracının sığortalanması mexanizminin təkmilləşdirilməsi;

Ölkədən ixrac olunan xammal və yarımfabrikatların hazır məhsuladək istehsalının və ixracının stimullaşdırılması;

Sənaye zonalarının (sənaye klasterlərinin) və azad zonaların (sərhədyanı ticarət zonaları, azad liman zonaları və s.) yaradılması;

Potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması;

Qeyri-neft məhsullarını ixrac edən sahibkarlıq subyektləri və onların istehsal etdiyi məhsullar, digər mühüm ixrac elementlərini özündə birləşdirən məlumatlandırma sisteminin formalaşdırılması və s. Bu sənədə daxil olmuş bir sıra mühüm tədbirlərin icrası baş tutmuşdur. Belə ki, qeyri-neft ixracının stimullaşdırılması və təkmilləşdirilməsi prosesləri davam etdirilmiş, sahibkarlıq subyektlərinin fəaliyyətinin gücləndirilməsi məqsədilə qanunvericilik bazası yenilənmişdir. Bunlarla bərabər, tədbirlər planında bir sıra strateji vəzifələrin icrasına başlamaq mümkün olmamışdır. Bunlara sənaye klasterlərinin və azad zonaların yaradılmasını misal göstərmək olar. Hazırda bir neçə sənaye texnoparkları fəaliyyət göstərirlər, amma bu texnoparklar azad zona statusu elementlərinə malik olsalar da (məsələn, mənfəət vergisindən azad, digər göstərişlər və s.), tam mənada azad zona meyarlarına cavab vermirlər. İxracatçılara dövlət dəstəyinin gücləndirilməsi və onların beynəlxalq bazarlarda ixrac əməliyyatlarına stimullaşdırılması üçün "AZPROMO" tərəfindən "İxracatçılar üçün təlimat kitabı" hazırlanmışdır. Burada marketinq əməliy-

yatlarının düzgün planlaşdırılması, marketinqin əsas prinsipləri, beynəlxalq marketinqin mahiyyəti, regional imkanlar və perspektivlər, mövcud bazar və yeni bazar strategiyaları, marketinq strategiyası və SWOT təhlili, xarici amillər, xarici bazarlara giriş formaları və s. barədə mühüm tövsiyələr və təlimatlar verilmişdir.

Qeyd etmək lazımdır ki, bu Dövlət Proqramında qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi tədbirləri nəticəsində əsas hədəflərdən biri kimi yüksək texnologiyalar əsasında sənaye istehsalının və ölkənin ixrac qabiliyyətinin daha da genişləndirilməsi mexanizmlərinin icrası nəzərdə tutulmuşdur. İxracyönümlü sənaye məhsulları istehsalı sahələrinin yaradılması prioritetinin reallaşdırılmasının tənzimlənməsi və təkmilləşdirilməsi tədbirləri də bu Dövlət Proqramında yer almışdır.

Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında sənaye sektorunun ixrac potensialının gücləndirilməsi ilə bağlı tənzimləyici qanunvericilik bazasının, müxtəlif təkmilləşdirmə mexanizmlərinin də dəyəri mühüm əhəmiyyət kəsb edir. Dünya ölkələrinin iqtisadi inkişaf proseslərində və ixrac potensialının əhəmiyyətli səviyyədə yüksəldilməsində sənayenin ixracyönümlü məhsullarının rolu böyükdür. Bu sektorun rəqabətqabiliyyətli məhsulları dünyanın əmtəə bazarlarında öz mövqeyini gücləndirə bilərsə, mənsub olduğu ölkənin ixrac potensialının əsaslı şəkildə artımına gətirib çıxara bilər. Bu kimi amillərin Azərbaycan hökumətinin iqtisadi siyasətində yer aldığının əyani nümunəsi sənayenin inkişafı və onun ixrac potensialının artırılması ilə bağlı sənədlərdə öz əksini tapmışdır. Biz əvvəlki tədqiqat materiallarımızda bir sıra ənənəvi rəqabətqabiliyyətli sənaye sahələrinin ixrac potensialına toxunmuşduq (kimya və neft-kimya, metallurgiya kompleksləri). Təsadüfi deyildir ki, ölkə rəhbərliyi və hökümət də bu sahələrin inkişaf etdirilməsi, ixrac potensialının tənzimlənməsi üçün strateji vəzifələri hədəf seçiblər. Məsələn, 2013-2014-cü il ərzində ölkə Prezidenti tərəfindən Azərbaycanda metallurgiya kompleksinin inkişafı, sahənin modernizasiyası, idarə edilməsinin təkmilləşdirilməsi və nəticədə istehsal-ixrac potensialının yüksəldilməsinə gətirib çıxaracaq tənzimləmələri, hüquqi bazanın gücləndirilməsi tədbirləri üzrə iki Sərəncamı verilmişdir. 23 aprel 2013-cü il tarixli Sərəncamda "Azərbaycan Polad İstehsalı Kompleksi" Qapalı Səhmdər Cəmiyyətinin yaradılması, nizamnamə kapitalı və inkişaf istiqamətləri müəyyənləşdirilmişdir. Elə növbəti ildə, 15.04.2014-cü il tarixdə ölkə Prezidentinin digər Sərəncamı ilə Cəmiyyətin strukturunun təsdiq edilməsi, ida-

rəetməsinin təkmilləşdirilməsi və digər tənzimləyici hüquqi baza elementlərinin formalaşdırılması üçün tapşırıqlar verilmişdir. Bu tədbirlər metallurgiya sənayesinin qeyri-neft sektoru kimi kompleks inkişafı ilə yanaşı, onun ixrac potensialının yüksəldilməsinə imkan verəcəkdir. Bundan əlavə, ölkə Prezidentinin neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında 2 aprel 2010-cu il tarixli Sərəncamı verilmişdir. Həmin Sərəncamla "Azərkimya" Dövlət Şirkəti Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin tabeliyinə verilmiş və şirkətin təşkilati -hüquqi formasının qanunvericiliyə uyğunlaşdırılması tapşırılmışdır. Sərəncamın əsas məqsədləri sırasında neftkimya sənayesinin səmərəliliyinin artırılması, müasir kompleksin təşkili üçün investisiyaların cəlb edilməsi prioritetləri də yer almışdır. Kimya və neft-kimya kompleksinin müasir texnologiyalar əsasında inkişafının təmin edilməsi və bu sahədə ixrac potensialının artırılması məqsədilə, ölkə Prezidentinin Fərmanı əsasında Sumqayıt Kimya Sənaye Parkı yaradılmış və Əsasnaməsi təsdiq edilmişdir. Prezident Fərmanında sənaye istehsalının inkişafına münbit şəraitin yaradılması, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli istehsal sahələrinin təşkili, sahibkarlığın inkişafına əlavə dəstək verilməsi, neft-kimya və digər prioritet sənaye sahələri üzrə istehsal və emal müəssisələrinin yaradılması, infrastrukturun qurulması, güzəştli kreditlərin verilməsi, torpaq sahəsinin ayrılması (167,66 hektar), sənaye parkında vergi və gömrük sahəsində stimullaşdırıcı tədbirlərin tətbiqi barədə tapşırıqlar verilmiş, mexanizmlərin hazırlanması üzrə istiqamətlər və prioritetlər müəyyənləşdirilmişdir. Bu kimi strateji və prioritet vəzifələrin tənzimlənməsi və mexanizmlərinin müəyyənləşdirilməsi birbaşa ixrac potensialının əhəmiyyətli səviyyədə artırılmasına hədəflənmiş tənzimləmə və təkmilləşdirmə mexanizmləri kimi xarakterizə olunur. Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı vacib tənzimləmə tədbirlərinin genişləndirilməsinin təzahürü kimi çıxış edir. Sərəncamda istehsal və emal sahələrinin təşkili, müasir texnologiyalar əsasında sənaye məhsulları çeşidinin artırılması nəzərdə tutulmuşdur. Daha bir ixractutumlu Parkın Yüksək Texnologiyalar Parkının yaradılması haqqında ölkə Prezidentinin Fərmanında İKT texnologiyaları sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması, yeni İKT texnologiyalarının işlənilməsi, telekommunikasiya və kosmos sahələrində infrastruktu-

run, maddi-texniki bazanın təşkili mexanizmlərinin tənzimlənməsi məsələləri üzrə müvafiq tapşırıqlar verilmişdir.

Azərbaycanda yeni və yüksək ixracyönümlü iqtisadiyyat sahəsi olan kosmik sənayesinin yaradılması və inkişafının sürətləndirilməsi tədbirləri diqqət çəkir. Bu sahənin ölkənin qeyri-neft ixracı potensialına verə biləcəyi töhfələr yüz milyonlarla və yaxın perspektivdə daha böyük məbləğdə gəlirlə proqnozlaşdırılır. Sahə üzrə qəbul edilmiş Dövlət Proqramının əsas məqsədi respublikada kosmik sənayenin yaradılması və inkişaf etdirilməsi, bir çox digər strateji məqsədlərlə bərabər, kosmik sənayenin inkişafının təmin edilməsi, yerli istehsalın stimullaşdırılması və onun ixrac potensialının dəstəklənməsidir. Nəhayət, 2014-cü ilin ölkədə "Sənaye ili" elan edilməsi sənayeləşmə siyasəti mexanzimlərinin müasir tələblər səviyyəsində tənzimlənməsinə və təkmilləşdirilməsinə güclü təkan verəcəkdir. Prezident Fərmanında bildirilir ki, hazırkı mərhələdə müasir çağırışlar və yeni təşəbbüslər nəzərə alınmaqla sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi, o cümlədən təbii və iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafını təmin edəcək imkanların formalaşdırılması zəruridir. Bu strateji vəzifələrin reallaşdırılması təqdirində, birbaşa və dolayı olaraq, ölkədə ixrac potensialının daha mükəmməl tənzimlənməsi, ixrac potensialının gücləndirilməsi üçün əlverişli şəraitin yaradılması perspektivləri artır.

Qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsi üzrə qanunvericilik bazasının təkmilləşdirilməsi prosesləri son 10 ildə kənd təsərrüfatı və aqrar sektorda da xeyli intensivləşmişdir. Bu sahədə aparılan tarixi torpaq islahatlarından, ev və fermer təsərrüfatlarının sahibkarlıq fəaliyyəti proseslərinin əsasən bazar iqtisadiyyatı prinsipləri üzərində qurulmasından sonra, müasir texnologiyaların, investisiya resurslarının cəlb edilməsi, ixracyönümlü məhsulların çeşidinin artırılması zərurəti yaranmışdır. Məsələn, "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının verilməsində əsas amillər kimi ölkədə üzümçülüyün inkişaf etdirilməsi, aqrar sahənin gəlirliyinin və ixracat potensialının artırılması, kənd əhalisinin maddi rifahının yüksəldilməsi götürülmüşdür. Proqramın əsas məqsədi isə əhalinin təzə və keyfiyyətli süfrə üzümü-

nə olan tələbatının daha dolğun ödənilməsi, şərabçılıq və üzüm emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, şərab və üzüm məhsullarının ixracının artırılması üçün ölkədə üzümçülüyün inkişafını stimullaşdırmaqdan ibarətdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda qeyri-neft sektorun ixrac potensialının təhlili və tənzimlənməsini araşdırarkən ölkə iqtisadiyyatının qlobal təsirlərdən etibarlı qorunmasının təşkili üçün ilk növbədə ixracyönümlü istehsal sahələrinin genişləndirilməsini, ixracın stimullaşdırılmasına sistemli yanaşmanın təmin olunmasını, bu sahədə sahibkarlıq subyektlərinin fəallığının artırılmasını, ayrı-ayrı qeyri-neft sektoru sahələrinin investisiya cəlbediciliyinin yüksəldilməsini vacib meyarlar kimi qeyd etmişdik.

İqtisadiyyatın qloballaşması dünya inkişafının qanunauyğunluqlarından biridir. Iqtisadiyyatın artan qloballaşması kapitalın yerdəyişmə miqyasının və tempinin kəskin artımında ifadə edilir. Bu halda kapitalın səmərəli hərəkəti tsiklinin əsasında milli iqtisadiyyatın diversifikasiyalaşdırılması və ölkəyə gətirilən valyuta resurslarının ehtiyatının sabit saxlanılması, həm də artırılması üçün ixrac potensialının diversifikasiyalaşdırılması vacib şərtlər kimi çıxış edir. Azərbaycanın ixrac strategiyasında məqsəd davamlı iqtisadi təhlükəsizliyin və xarici siyasətin maddi bazasının möhkəmləndirilməsindən ibarətdir. İxrac strategiyasının qurulması zamanı karbohidrogen və qeyri-karbohidrogen ixracının optimal tarazlaşdırılması vacib şərtdir. Qeyri-neft ixracı sahəsində kənd təsərrüfatı və ərzaq istehsalı indiki məqamda əsas yer tutur. Eyni zamanda, neft-kimya məhsullarının, habelə elektrik enerjisinin ixracı sahəsində kənd təsərrüfatı və ərzaq istehsalı indiki məqamda əsas yer tutur. Eyni zamanda, neft-kimya məhsullarının, habelə elektrik enerjisinin ixracı potensialı vardır. Azərbaycan coğrafi mövqeyinin üstünlüyündən istifadə etməklə, həm Böyük İpək yolu, həm də Şimal-Cənub dəhlizi üzrə təkcə karbohidrogen deyil, digər malların da daşınması üçün yaxşı imkanlara malikdir. Nəhayət, Azərbaycan xidmət sferası (turizm, maliyyə-bank, İKT və s) üzrə ixrac imkanlarını genişləndirə bilər. Lakin qeyri-neft ixracının şaxələndirilməsi istiqamətində çağırışlar qalır. Qeyd etmək lazımdır ki, Azərbaycanda iqtisadiyyatın rəqabət qabiliyyətinin qlobal təsirlər şəraitində arta bilməsi imkanları və yolları mövcuddur, bir şərtlə ki, ölkədə ixracyönümlü qeyri-neft sektoru məhsullarının çeşidinin əhəmiyyətli səviyyədə davamlı artımı təmin olunmalıdır. Qloballaşma şəraitində milli iqtisadiy-

yatın təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətləri üzrə tədqiqat aparan A. Xudiyev bildirir ki, Azərbaycan ixracı əmtəələrin müstəvisinin kənar periferiyasında yerləşir və hazırkı ixrac səbətində ən yaxın əmtəələrə məsafə çox böyükdür. Bu səbəbdən də Azərbaycan iqtisadiyyatının təbii, yaxud "üzvi" diversifikasiyası çox çətindir. Lakin fikrimizcə, bu mülahizələrdə obyektivliyin mövcudluğuna şübhə etmədən, qeyd etmək olar ki, Azərbaycanda "İqtisadiyyatın təbii diversifikasiyası" və yaxud "üzvi diversifikasiyası" anlayışları altında ixracın potensialının heç də az olmayan səmərəli yollarını tapmaq perspektivləri qalmaqdadır:

Əvvəla, ölkənin təbii resursları, zəngin yeraltı və yerüstü ehtiyatları, əmək və intellekt resursları və s. amilləri kifayət qədərdir;

İkincisi, qeyd olunduğu kimi, bir sıra güclü potensiala malik qeyri-neft sektoru sahələrinin potensialından səmərəli istifadə olunmalı və onların ixrac-yönümlüyü daha dərindən müəyyənləşdirilməlidir (kimya və neft-kimya, metallurgiya, neft və qaz maqşınqayırması, kənd təsərrüfatı və aqrar sektor və s.)

Üçüncüsü, ölkənin ixrac sektorunun diversifikasiyalaşdırılma strategiyası optimallaşdırılmalı, rəqabət, qlobal meyarlar nəzərə alınmalı, adekvat tədbirlər müəyyənləşdirilməli və s.

Qloballaşma şəraitində qeyri-neft sektorunun ixrac potensialından istifadənin daha səmərəli təşkili və yüksəldilməsi yollarından mühümlüyü ilə seçilən prioritetlərdən biri də Azərbaycanın valyuta ehtiyatlarından effektiv şəkildə istifadənin təmin olunması, xarici kapitalın ölkəyə gətirilməsi və investisiyaların cəlbi proseslərində müasir iqtisadi tendensiyalara adekvat iqtisadi siyasət mexanizmlərinin dövriyyəyə buraxılması, ölkənin xaricə kapital ixrac etmək imkanlarının uzaq perspektivlər nəzərə alınmaqla və milli iqtisadi maraqlar qorunmaqla optimal modelləşdirilməsidir. Akademik Z. Səmədzadə qeyd edir ki, Azərbaycan son vaxtlar investisiya mühitində vəziyyəti xeyli dərəcədə yaxşılaşdırmışdır. Xarici investorlar tərəfindən ölkəyə marağın artması buna əyani sübutdur. Ölkənin maliyyə imkanlarının ciddi şəkildə güclənməsinə baxmayaraq, dövlət başçısı xarici kapitalın bundan sonra da Azərbaycan iqtisadiyyatının inkişafında iştirakını hərtərəfli dəstəkləyir, eyni zamanda xarici iş adamlarının qeyri-neft sektorunda daha fəal iştirak etmələrini tövsiyə edir. Ümumiyyətlə, dövlət başçısı Azərbaycan iqtisadiyyatının ixrac potensialının möhkəmlənməsini, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi istiqamətində

görülən işlərin daha da gücləndirilməsini qeyd etməklə yanaşı, diqqəti ölkəmiz üçün vacib əhəmiyyət kəsb edən bir məsələyə də cəlb edir. Söhbət maliyyə imkanları və iqtisadi qüdrətin artması nəticəsində Azərbaycanın xarici ölkələrdə investisiya layihələrinin həyata keçirilməsində iştirakından gedir. Azərbaycanın qeyri-neft sektorunun ixrac potensialının genişləndirilməsi yollarının çoxvektorluğu istiqamətində bir sıra əlverişli istiqamətlər formalaşdırmaq mümkündür:

Azərbaycanın qlobal maliyyə və investisiya mühiti şəraitində beynəlxalq inteqrasiya kanallarına daha fəal çıxması ixracın qeyri-neft sektorları, o cümlədən xidmət sahələri üzrə diversifikasiyalaşdırılmasına əlavə imkanlar açır;

Fəal surətdə beynəlxalq iqtisadi əməkdaşlıq, təsərrüfat və kooperasiya əlaqələrinə qoşulan milli şirkətlərin ixrac potensialında rolunun yüksəldilməsinin stimullaşdırıması proseslərində yeni əlverişli imkanlar formalaşdırılır;

Bu və ya digər formada xarici ticarət fəaliyyətinin fəallaşması ilk növbədə ixrac potensialının yüksəlməsinə gətirib çıxaracaqdır, çünki qeyri-neft sektorunun ixrac potensialının yüksəldilməsi dövlətin xarici ticarət iqtisadi siyasətinin ana xəttini təşkil edir və s.

Hazırkı şəraitdə Azərbaycanda dövlətin özəl sektora, qeyri-neft sektoruna, həmçinin bank sektoruna sistemli dövlət dəstəyi mexanizmləri ilə yanaşması, nisbətən dayanıqlı iqtisadi siyasət formalaşdırlması bu qənaətə gəlməyə imkan verir ki, növbəti illərdə ölkənin kommersiya banklarının kreditləri hesabına müxtəlif real iqtisadi sektorların inkişafının sürətləndirilməsi, onların ixrac potensiallarının artırılması yollarının şaxələndirilməsi intensivləşəcəkdir. Təəssüf ki, hələlik bu istiqamətdəki effektiv imkanlar dərindən öyrənilməmişdir və sahibkarlıq, biznes subyektlərinin maarifləndirilməsi prosesləri, bu fəaliyyət sxeminin, o cümlədən, bank sektorunun fəaliyyəti üçün əhəmiyyətliliyi geniş təbliğ edilməmişdir. İqtisadçı F.Müstafayevin gəldiyi nəticələrə görə, nəqliyyat və rabitə sektoruna yatırılan hər bir manat kredit 4,7 manatlıq əlavə ÜDM yaradır. Tikinti sektoruna yatırılan hər bir manat kredit əlavə 4,46 manatlıq ÜDM əmələ gətirir. Kənd təsərrüfatına yönəldilən 1 manat kreditin artım "multiplikasiya əmsalı" təqribən 4-dür və s. Bir sözlə, qeyri-neft sektorunun kreditləşdirmə və maliyyələşdirmə mənbələrinin şaxələndirilməsi, bu sahənin ixrac potensialının yüksəldilməsi yollarından əhəmiyyətlisi kimi xarakterizə olunur.

Son illərdə qloballaşmanın təsir dairəsinin genişləndirilməsi və maliyyə, iqtisadi böhranların fəsadlarının artması prosesləri dünya iqtisadiyyatında yeni meyarların və tendensiyaların formalaşmasına rəvac vermişdir. Milli iqtisadiyyatın qapalı inkişaf etdirilməsi tendensiyasının sona çatdığını da iddia etmək olar. Bu baxımdan hər bir ölkənin çoxşaxəli ixrac potensialın olması mühüm və strateji şərt kimi çıxış edir. Əgər hər hansı bir ölkənin təbii ehtiyatları azdırsa və ya milli resurslar baxımından çətinliyi varsa, bu proseslərdə qlobal rəqabətə davam gətirmək üçün çox mürəkkəb vəzifələrin öhdəsindən gəlməlidir. Milli resurslarla və nisbətən təbii ehtiyatlarla zəngin ölkələr isə bu nemətləri obyektiv və dəyərincə qiymətləndirməli, onlardan səmərəli istifadə üçün milli maraqlar çərçivəsində istehsalın təşkili və məhsulların ixracı ilə sistemli yanaşma təmin edilməlidir. Qlobal rəqabət şəraitində dayanıqlılıq meyarlarını özündə əks etdirməyən mal və məhsulların dünya əmtəə bazarlarında ixracının sabitliyi qeyri mümkündür. Bu meyarlardan çıxış etsək, Azərbaycan qloballaşma şəraitində qeyri-neft sektorunun ixrac potensialından istifadənin yüksəldilməsi yolunda hələlik dayanıqlı mövqeyə malik olmadığı qənaətindəyik. Bu yolda xeyli pozitiv strateji tədbirlərin görülməsi, dövlət proqramların icrası və bir çoxlarının hazırda icra prosesində olması isə bu qənaətə gəlməyə imkan verir ki, yaxın perspektivdə Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialından istifadənin daha səmərəli, məhsuldar və effektiv yollarının formalaşdırılması tədbirləri intensivləşəcəkdir.

Azərbaycanın hazırkı iqtisadi inkişaf tendensiyaları və strateji hədəfləri ölkə iqtisadiyyatının daha da şaxələndirilməsini və modernləşdirilməsini şərtləndirir. Milli iqtisadiyyatın bundan sonrakı inkişaf proseslərinin daha səmərəli və optimal təşkili üçün bu proseslərin tənzimlənməsi və təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi, həyata keçirilməsi tədbirləri də vacib şərtlər kimi çıxış edir:

- Milli iqtisadiyyatın əsas bazar iqtisadiyyatlı funksiyaları və fəaliyyət prinsipləri formalaşdığından yeni keyfiyyət və kəmiyyət mərhələsinə qalxması prioritetlərinin reallaşdırılması;
- Ölkə iqtisadiyyatının baza prinsiplərinin imkan verdiyi yerdən əhəmiyyətli dərəcədə fərqlənə bilən yeni iqtisadi inkişaf meyarlarının müəyyənləşdirilməsi;
- Müasir texnologiyalar, idarəetmə metodları əsaslı innovasiyalaşdırılmış iqtisadi inkişaf modelinə keçidin başa çatdırılması;

- Yeni və məhsuldar rəqabətqabiliyyətli ixracyönümlü müəssisələrin təşkili və bu şəbəkənin genişləndirilməsi;
- Neft-qaz amilindən yararlanaraq və bu sektorun gəlirlərindən bəhrələnərək, ölkənin qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsi dərəcəsinin əhəmiyyətli səviyyədə artırılması;
- Olkə iqtisadiyyatının neft və qazla bağlı olmayan potensialının yenidən qiymətləndirilməsi və reallıqlar əsasında mühüm meyarların formalaşdırılması;
- Qeyri-neft sektorunun ixrac potensialının artımına imkan verə bilən iqtisadiyyat sektorlarının inkişafının dayanıqlılığının və davamlılığının təmin edilməsi;
- Qeyri-neft ixracının stimullaşdırılması, ixrac potensialının tənzimlənməsinin effektiv mexanizmlərinin işlənib hazırlanması, təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və s.

Qeyd etmək lazımdır ki, yaxın perspektivdə çoxlu sayda dövlət dəstəyi mexanizmləri, o cümlədən, birbaşa olaraq geri qayıtmayan maliyyə mexanizmləri ilə dəstəklənən, geniş infrastruktur imkanları yaradılan kənd təsərrüfatı məhsulları istehsalı və aqrar sektorda artıq ərzaq məhsulları üzrə ölkə tələbatından əlavə məhsulların istehsalı reallaşdırılıb. Bununla bərabər, bu məhsulların keyfiyyət göstəriciləri xeyli yüksəkdir və rəqabətqabiliyyətlidir. Bu zaman ölkəmizin əldə edəcəyi mənfəətin və çata biləcəyi hədəflərin qısa məzmunu belə ola bilərdi:

Artıq kənd təsərrüfatı məhsulları istehsalına və aqrar sektora subsidiyalar, dotasiyalar ayrılmasına zərurət qalmayıb;

Azərbaycan markalı (brendlər) kənd təsərrüfatı məhsullarının dünya əmtəə bazarlarına çıxışı genişmiqyaslı və həcmli bir səviyyədə formalaşıb;

Ölkənin bütün regionlarında qeyri-neft ixracı potensialının yeni mənbələri yaradılıb;

Neft gəlirləri ilə bərabər, ölkəyə daxil olan valyuta resurslarında qeyri-neft sektorunun payı durmadan artmaqdadır;

Ölkə regionlarının əksəriyyətinin büdcəsi yerli maliyyə resursları hesabına formalaşır;

Qeyri-neft sektorunun ixracı ölkə iqtisadiyyatının artım tempinin yeni əsas və sabit mənbəyinə çevrilib;

Qeyri-neft sektorunun ixrac potensialının genişləndirilməsi Azərbaycanın iqtisadi inkişaf səviyyəsini əhəmiyyətli dərəcədə artırmağa

imkan verib və ölkəmiz öz iqtisadiyyatını neft-qaz amili asılılığından qurtarmağa nail olub və s.

Göründüyü kimi, bu vəzifələr və hədəflər heç də asan həll olunası məsələlər deyildir və hazırda 2020-ci il də daxil olmaqla, həmin istiqamətlər üzrə ölkə iqtisadiyyatının, onun müxtəlif sektorlarının, o cümlədən qeyri-neft sektorunun ixractəyinatlı sahələrinin davamlı inkişafı, bu proseslərdə yüksək nəticələrin əldə edilməsi və bütövlükdə Azərbaycanın dünya ölkələri arasında sabit və dayanıqlı yer alması üçün, əvvəllərdə də qeyd olunduğu kimi dövlət proqramları, tədbirlər planı, strateji hədəflər müəyyənləşdirilmişdir.

Qeyri-neft sektorunun ixrac potensialının təkmilləşdirməsi məqsədilə mühüm istiqamət kimi çıxış edən məsələlərdən biri də sahibkarlıq subyektlərinin ixrac fəaliyyəti ilə daha səmərəli və məhsuldar məşğul olmaları problemidir. Biz bu barədə tədqiqat materiallarında qeyd etmişdik ki, xarici iqtisadi fəaliyyət iştirakçılarının xarici bazarda rəqabət qabiliyyətinin artırılması qlobal dünya bazarları şəraitində xeyli çətinləşmişdir və bu problemə sistemli yanaşma tələb olunur. Dövlət tərəfindən sahibkarlığın dəstəklənməsi mexanizmlərinin çoxşaxəliliyinə baxmayaraq, bu sahənin ixrac potensialının artırılması, stimullaşdırılması üçün daha effektiv istiqamətlərin müəyyənləşdirilməsi və gerçəkləşdirilməsi zərurəti qalmaqdadır. Bu sahənin qeyri-neft sektorunun inkişafında əhəmiyyəti bəllidir və bunlar dövlətin iqtisadi siyasətində daimi olaraq, prioritet istiqamətlər sırasındadır. Bunlarla belə, ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması istiqamətlərində yaxın perspektivdə daha təsirli tədbirlərin görülməsi vacibdir. Ölkə Prezidentinin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 3 mart 2014-cü il tarixli Fərmanında bu problemlərə toxunulub. Mühüm məsələlərdən biri kimi də idxal-ixrac əməliyyatları zamanı tələb olunan sənədlərin, müddət və xərclərin azaldılması üçün qanunvericiliyə dəyişikliklər edilməsi barədə təkliflərin hazırlanması qeyd olunmuşdur və bu məqsədlərlə müvafiq icra orqanlarına tapşırıqlar verilmişdir. Fikrimizcə, bu sahəyə olan dövlət dəstəyi mexanizmlərinin, qanunvericilik bazasının bir daha müasir qlobal tələblər baxımından təkmilləşdiriləcəyi təqdirdə, Azərbaycan özəl sektorda milli iqtisadiyyatın artımı üçün ciddi mənbələr əldə edəcək, bir çox müsbət və məhsuldar nəticələrlə yanaşı, ixrac potensialının, yəni qeyri-neft sektoru ixracının gücləndirilməsində əsaslı nailiyyətlər əldə etmək imkanına malik olacaqdır.

# III FƏSİL

# AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYA QOYULUŞU VƏ ONUN SƏMƏRƏLİİLİYİ

*"Azərbaycanın münbit investisiya mühiti həmişə xarici sahibkarları özünə cəlb edir. Bunun nəticəsidir ki, ötən illər ərzində Azərbaycanın iqtisadiyyatına xarici sərmayənin qoyuluşu davam edir."*

***İlham Əliyev***

## 1. Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi və onun səmərəliliyi

Azərbaycan Respublikasının müstəqillik əldə etməsi ilə əlaqədar öz iqtisadiyyatını yeni prinsiplər üzərində qurması və inkişaf etdirməsi, ondan dünya ölkələri ilə açıq bazar münasibətlərinə girməsini tələb edirdi.

Azərbaycanın ilk müstəqil addımlarından biri iqtisadiyyatı liberallaşdırmaq olmuşdur. Lakin məlum siyasi, hərbi və digər problemlərlə üzləşən Azərbaycan hökuməti iqtisadiyyatın liberallaşdırılmasını lazımi səviyyədə əldə edə bilmədi. Özü də liberallaşma siyasətinin yürüdülməsi, yəni beynəlxalq ticarətin, qiymətələrin və s. liberallaşdırılması ölkə iqtisadiyyatında maliyyə vəsaitlərinin qıtlığı, hökuməti xarici mənbələrə müraciət etməyə vadar etdi. Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sisteminə tam və bərabərhüquqlu üzv kimi daxil olması ölkə, region və dünya iqtisadiyyatı üçün əhəmiyyətli olan bir hadisənin - "Əsrin müqaviləsi"nin baş tutması ilə mümkün oldu. Onu da qeyd etmək lazımdır ki, bu möhtəşəm müqavilənin bağlanmasından əvvəl ölkə iqtisadiyyatında bəzi islahatları həyata keçirmək üçün bir sıra mühüm beynəlxalq təşkilatlardan maliyyə dəstəyi almışdır. Lakin bu cür münasibətlər ölkəyə beynəlxalq iqtisadi münasibətlər sistemində əlahiddə status vermir.

Azərbaycan Respublikasının iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsini stimullaşdıran əsas amlillər haqda bunları qeyd edə bi-

lərik ki, əvvəla ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsinin başlıca səbəbi iqtisadiyyatda uzun müddət mövcud olmuş durğunluq və böhran vəziyyətindən çıxarmaq, həmçinin də ölkədaxili yığımların məhdud səviyyədə olmasına rəğmən xarici investisiyaların hesabına sahibkarlığın investisiya aktivliyini artırmaqdır. Bundan əlavə, ölkə iqtisadiyyatı böhran vəziyyətindən çıxdıqdan sonra belə, ölkədə geniş maliyyə sistemi və ona uyğun maliyyə institutları yarandıqdan sonra belə, xarici investisiyalara böyük ehtiyac duyulur. Çünki banklardan alınan vəsaitlər "bahalı vəsait" kimi qəbul olunur və sahibkarlar bank kreditlərindən çox xarici investorların partnyorluğuna üstünlük verirlər. Bununla belə bir çox sahələrdə vəsaitin dövr müddəti uzun olduğundan banklar həmin sahələrə vəsait ayırmaqdan boyun qaçırırlar, lakin xarici investorlar üçün bu sahələr bəzən cəlb- edici ola bilir.

Dünya kapital bazarında investisiyalara olan tələb təklifi üstələdiyindən xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi ölkələri bu sferada fəaliyyətlərini bir daha artırmağa sövq edir.

Qeyd etmək lazımdır ki, qoballaşma iqtisadi baxımdan artıq malların və xidmətlərin ölkələr arasında məhdudiyyətsiz hərəkətini təmin edə biləcək bir proses kimi qəbul edilir. Xarici investisiyalar malların və xidmətlərin beynəlxalq axınına "qoşulan" və bu dövriyyədə daha da sürətlə xüsusi çəkisini artıran bir elementə çevrilmişdir. Bu reallıq İkinci Dünya müharibəsindən sonra meydana gəlmiş və XX əsrin 80-ci illərindən bəri daha da geniş vüsət almışdır.

Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsində mühüm təsir edici qüvvə, yerli qanunvericilik bazasıdır ki, həmin qanunvericilik bazası xarici investorların fəaliyyət çərçivəsini müəyyən edir. Bu baxımdan "İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanununun dördüncü maddəsi xüsusi qeyd olunmalıdır:

Azərbaycan Respublikasının və xarici olkələrin vətəndaşları və huquqi şəxsləri, vətəndaşlığı olmayan şəxslər, habelə dövlətlər investisiya fəaliyyətinin subyektləri (investorları və iştirakçıları) ola bilərlər.

Dünya iqtisadiyyatının genişlənməsi ilə əlaqədar olaraq inkişafa zəmin yaradan resurslardan istifadə imkanları da artır. Lakin əvvəlki kimi bu kapital, məhdud sayda resurslarının sahibləri - inkişaf etmiş ölkələrin "əlində" cəmləşmişdir.

XX əsrin sonundan başlayaraq İEÖ-in iqtisadiyyatına yönələn birbaşa investisiyaların həcmi artdı. Yəqin ki, bu tendensiya müvəqqəti xarakter daşıyır. Lakin İEÖ-in investisiya ixracının başlanmasını

proqnozlaşdırmaq hələ ki, qeyri-mümkündür. Bununla belə investisiya axınlarının istiqamətləri qabaqcadan müəyyən qədər özünü büruzə verir. Çünki birbaşa xarici investisiyalar şəksiz ki, yatırımlar üçün daha yaxşı investisiya mühiti formalaşdırmış və hökumət, ictimaiyyət, biznes tərəfindən xarici investisiyalara qarşı dəqiq mövqe seçilmiş ölkələrə doğru axacaqdır.

Ölkədə xarici investisiyaların həcmi elə səviyyədə olmalıdır ki, investisiyanı qəbul edən ölkənin iqtisadiyyatının effektivliyi təmin olunsun. Beynəlxalq investisiya rəqabəti mübarizəsində investorlara daha liberal investisiya rejimi təklif edən ölkə qalib olur. Onu da qeyd edək ki, investisiya stimulları və onların investisiya cəlb etməsindəki rolu nisbidir. Tədqiqatlar göstərir ki, investisiya stimulları ölkənin İEÖ ya da İEOÖ olmasından asılı olmayaraq, əksər hallarda investisiya cəlb edilməsi prosesinə təsir etmirlər.

Xarici investisiyaların Azərbaycan Respublikasına cəlb edilməsi yönündə ölkədə hökumət tərəfindən əsaslı addımlar atılmışdır. Azərbaycan iqtisadiyyatının potensialını nəzərə alsaq və dünyada mövcud iqtisadi durumu qiymətləndirsək, onda şəksiz bu nəticəyə gələ bilərik ki, Azərbaycan Respublikası hökumətinin son onillikdə ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi yönündə ölkədə formalaşdırdığı investisiya mühiti reallığın tələbi və təcəssümüdür.

Xarici investorların Azərbaycan iqtisadiyyatına olan marağının artmasının səbəblərindən biri bəzi maneələrin tamamilə aradan qaldırılmasıdır. Həmin maneələrdən misal kimi ikiqat vergitutmanın bəzi ölkələrlə bağlanmış müqavilələr sayəsində tamamilə aradan qaldırılması, mənfəətin başqa valyutalara maneəsiz çevrilməsi, mənfəətin digər ölkələrə köçürülməsi kimi maneələr ləğv edilmişdir. Bunlarla yanaşı formalaşdırılmış investisiya mühiti nəinki xarici investisiyaların cəlb edilməsinə, hətta reinvestisiyaları stimullaşdırmağa xidmət edir. Bütün bunlar nəinki xarici investorların Azərbaycan iqtisadiyyatına olan marağını artırır, onlarla yanaşı beynəlxalq maliyyə qurumlarının və iqtisadi təşkilatların marağını artırır.

Formalaşdırılmış əlverişli investisiya mühitinin bir tərkib hissəsi hüquqi bazadırsa, digər mühüm hissə investisiya mühitidir ki, o, çoxtərəfli olub çoxsaylı tərkib hissəsindən ibarətdir. Onlardan biri ölkədə mövcud olan müsbət iqtisadi tendensiyalardır. Bu tendensiyaların nəticəsi olaraq davamlı və sabit iqtisadi inkişafdır. Bizim ölkəmizin timsalında bu ölkənin və regionun ən iri layihəsi olan "Əsrin müqaviləsi-

nin" imzalanması idi ki, onun nəticəsində 3 il sonra 1997-ci ildə ilk neft hasil olundu və 5 il sonra 1999-cu ildən etibarən mənfəət nefti ixrac olunmağa başlandı. Bunun sayəsində ölkəyə külli miqdarda vəsait daxil oldu və "Əsrin müqaviləsi" layihəsinə etibar edən xarici investorlar artıq reallıq və zəmanətin şahidi oldular. Ölkənin iqtisadiyyatı xarici investorlar üçün daha da cəlbedici oldu.

1994-1997-ci illərdə dünyanın 15 ölkəsinin 33 iri neft şirkətləri ilə 10 kontrakt, 1998-1999-cu illərdə isə 9 kontrakt imzalanması ilə ölkəyə böyük miqdarda xarici investisiya cəlb edilmişdir. Bu kontraktlardan 1994-cü ildə 12-14 mlrd. dollarlıq 30 il müddətinə bağlanılmış «Əsrin kontraktı» xüsusilə nəzərə çarpır. Respublikada investisiya iqliminin müəyyən əlverişsiz tərəflərinin mövcudluğuna baxmayaraq ölkəyə investisiya axını artmaqdadır.

«Əsrin kontraktı» Azərbaycanın Xəzər sektorunda neft yatağının («Azəri», «Çıraq», «Günəşli») birgə istifadəsini nəzərdə tutur. Müqavilə dünyanın 8 ölkəsinin 12 şirkəti ilə imzalanmışdır: «Amoco» (ABŞ) - 17,01%; «BP» (B. Britaniya) - 17,13%; «Lukoil» (Rusiya) - 10%; «Statoil» (Norveç) - 8,56%; «Turkish Petrolium» (Turkiyə) - 6,75%; «Unokl» (ABŞ) - 9,52%; «İtochu C$^{o}$» (Yaponiya) - 7,45% («McDermant» şirkəti aksiyalarının bir hissəsini 1996-cı ildə «Hotchu C$^{o}$» şirkətinə satmışdır); «Ramco» (B. Britaniya) - 2,08%; «Delta» (S. Ərəbistanı) - 1,68%; «Penzoil» (ABŞ) - 4,81%; «Exon» (ABŞ) - 5% və ARDNŞ-10% paya malikdir.

Müqavilənin dəyəri 14 mlrd. dollardır. Bütün investisiyaların 80%-i isə xarici şirkətlər tərəfindən həyata keçiriləcək. 30 il müddətinə neftdən gələn ümumi gəlir 157,6 mlrd. dollar, o cümlədən Azərbaycanın gəliri isə 81,7 mlrd. dollar olacaqdır. İlk neft müqaviləsinin həyata keçirilməsi ilə əlaqədar olaraq Neft Konsorsiumu 1995-1996-cı illərdə 700 mln. dollar ayırmışdır.

1995-ci ildə imzalanmış «Qaradağ» yatağı üzrə cəlb ediləcək investisiya - 1,7 mlrd.dollar,1996-cı ildə imzalanmış «Şahdəniz» yatağı üzrə - 4 mlrd.dollar, «Dan Ulduzu» və «Əşrəfi» yataqları üzrə-2 mlrd dollar, 1997-ci ildə imzalanmış «Lənkəran/Talış dəniz» yatağı üzrə - 1,5-2 mlrd. dollar «Yalama» yatağı üzrə-3,5 mlrd.dollar, «Oğuz» yatağı üzrə -2 mlrd.dollar, «Kürdaşı» yatağı üzrə isə 2,5 mlrd.dollar təşkil edəcəkdir.

Bütövlükdə «Əsrin kontraktı» imzalandıqdan sonra Azərbaycanın enerji yataqlarının işlənməsində iştirak edən ölkələrin sayı artmış və hazırda 15 kontraktda 14 ölkənin 28 şirkəti iştirak edir.

**Respublikada neft yataqlarının layihə istismarına nəzərdə tutulmuş xarici investisiyaların həcmi**

| № | Yatağın adı | Neft hasilatı həcmi (mln.ton) | İnvestisiya (mlrd.doll. ABŞ) | Azərbay-canın payı (%-lə) |
|---|---|---|---|---|
| 1 | "Azəri", "Çıraq" | 600 | 12.0 | 10 |
| 2 | "Günəşli" | 80-150 | 1.7-2.0 | 7.5 |
| 3 | "Qarabağ" | 100 | 4.0 | 10 |
| 4 | "Şahdəniz" | 100-150 | 1.5-2.0 | 10 |
| 5 | "Dan Ulduzu- Əşrəfi" | 100 | 1.5-2.0 | 25 |
| 6 | "Lənkəran-dəniz" "Talış-dəniz" | 100 | 1.5-2.0 | 40 |
| 7 | "Yalama"(D-22) | 150-300 | 3.0-3.5 | 50 |
| 8 | "Abşeron" | 75-100 | 5.0 | 50 |
| 9 | "Naxçıvan" (keçmiş D3) | 75 | 2.0 | 50 |
| 10 | "Oğuz" | 90-120 | 2.0 | 50 |
| 11 | "Gürdaşı" | 30-60 | 0.3-0.5 | 20 |
| 12 | "Güney-Qərbi-Qobustan" | 150-250 | 3.0-4.0 | 50 |
| 13 | "İnam" | 50-80 | 1.0-1.5 | 50 |
| 14 | "Muradxanlı" | 150-300 | 9.0 | 40 |
| 15 | "Alov", "Araz", "Şərq" | 60-90 | 0.5-0.8 | 50 |
| 16 | "Gürsəngi", "Qarabağlı" | 100 | 2.0 | 50 |
| 17 | "Atəşgah" | 120-150 | 2.0 | 50 |
| 18 | "Zəfər", "Məşəl" | 100-120 | 2.0 | 50 |
| 19 | "Lerik-dəniz", "Savalan", "Padar" | 50-100 | 0.8-1.0 | 20 |
| 20 | "Azəri", "Çıraq" | 600 | 12.0 | 10 |
| 21 | "Günəşli" | 80-150 | 1.7-2.0 | 7.5 |
| 22 | "Qarabağ" | 100 | 4.0 | 10 |
| 23 | "Şahdəniz" | 100-150 | 1.5-2.0 | 10 |

| | | | | |
|---|---|---|---|---|
| 24 | “Dan Ulduzu- Əşrəfi” | 100 | 1.5-2.0 | 25 |
| 25 | “Lənkəran-dəniz” “Talış-dəniz” | 100 | 1.5-2.0 | 40 |
| 26 | “Yalama”(D-22) | 150-300 | 3.0-3.5 | 50 |
| 27 | “Abşeron” | 75-100 | 5.0 | 50 |
| 28 | “Naxçıvan” (keçmiş D3) | 75 | 2.0 | 50 |
| 29 | “Oğuz” | 90-120 | 2.0 | 50 |
| 30 | “Gürdaşı” | 30-60 | 0.3-0.5 | 20 |
| 31 | “Güney-Qərbi-Qobustan” | 150-250 | 3.0-4.0 | 50 |
| 32 | “İnam” | 50-80 | 1.0-1.5 | 50 |
| 33 | “Muradxanlı” | 150-300 | 9.0 | 40 |
| 34 | “Alov”, “Araz”, “Şərq” | 60-90 | 0.5-0.8 | 50 |
| 35 | “Gürsəngi”, “Qarabağlı” | 100 | 2.0 | 50 |
| 36 | “Atəşgah” | 120-150 | 2.0 | 50 |
| 37 | “Zəfər”, “Məşəl” | 100-120 | 2.0 | 50 |
| 38 | “Lerik-dəniz”, “Savalan”, “Padar” | 50-100 | 0.8-1.0 | 20 |

Respublikada irihəcmli kontraktların imzalanması dünyanın iri şirkətləri TMK-ın ölkəyə artan maraqlarının da əks etdirir. Milli iqtisadiyyat artıq TMK-ın ölkədə filiallarının yaradılması ilə xarici birbaşa investisiyaların axını ilə qarşılaşmaqdadır.

2003-2008-ci illər ərzində ölkə iqtisadiyyatına 33,5 milyard manat investisiya yönəldilmişdir. Adambaşına düşən investisiyanın göstəricisi ölkə tarixində ilk dəfə olaraq 1000 manat həddini keçmişdir. Son beş il ərzində daxili investisiyaların xüsusi çəkisi və təbii ki, mütləq çəkisi artmışdır. Belə ki, əgər 2003-cü ildə daxili investisiyaların ümumi investisiyalardakı xüsusi çəkisi 24,8% idisə, 2008-ci ildə bu göstərici 75.5% həddinə çatmışdır. Müqayisə üçün qeyd edə bilərik ki, 1993-cü ildən 1999-cu ilə qədər daxili investisiyaların həcmi uyğun olaraq 245; 153; 169; 312; 387; 431 və 1062 mln. dollar olmuşdur ki, 1993-1999-cu illər ərzində ümumilikdə 2759 mln. dollar təşkil etmişdir. Daxili investisiyaların strukturuna diqqət yetirdikdə neft sektoruna daha çox kapital qoyulması aydın olur 2 mld. manatdan çox.

Adı çəkilən nəhəng layihə ilə yanaşı ölkənin digər qlobal və regional layihələrdə iştirakı onun dünya iqtisadiyyatına inteqrasiya etməsinə böyük kömək edir. Nəqliyyat-ticari layihələr buna misal ola bilər. Böyük İpək Yolunun bərpası nəinki Azərbaycanın iqtisadi inki-

şafına, eləcə də bütün region ölkələri arasında əməkdaşlığın genişləndirilməsinə, bu ölkələrin iqtisadi qüdrətinin artmasına, burada yaşayan xalqların daha firavan yaşamasına xidmət edir.

Ölkədə investisiya mühitini formalaşdıran mühüm amillərdən biri vergi sistemidir. Sahibkarların öz fəaliyyətlərini həyata keçirmələrində onlara mane ola biləcək ünsürlərdən əsası kimi vergiləri göstərmək olar. Vergi güzəştləri investor üçün daha çox əhəmiyyət kəsb edir, belə ki, dünyanın əksər ölkələrində yüksək vergilərin tətbiqi nəticəsində investorlar öz mənfəətlərinin təxminən yarısından məhrum olurlar. Bu vergilərin içərisində isə əsas yeri mənfəət vergisi tutur. Bu vergi üzrə güzəştlər vergi dərəcələrinin azaldılması və ya onun ödənilməsindən uzunmüddətli azadolmalar formasında tətbiq edilə bilər. Mənfəət vergisindən başqa, həmçinin əmlak, dövriyyə və digər vergi növlərinin də ödənilməsində güzəştlər tətbiq olunur. Vergiqoymanın səviyyəsi investorların müəyyən bir region daxilində məhz hara investisiya yatırmaq qərarına təsir göstərə bilər. Lakin gəlir vergisi dərəcələrinin mənfəətə yüksək təsiri siyasət kursunu müəyyənləşdirənlərdə bu dərəcələrin xarici investorların cəlb edilməsində və sahibkarların fəaliyyətinə təkan verilməsində əhəmiyyəti haqqında yanlış təsəvvürlər yarada bilər. Üstəlik, vergi dərəcələri aydın ifadə edilmiş rəqəmlər təsiri bağışlasa da, bu təəssürat aldadıcı ola bilər, çünki inkişaf etmiş vergiqoyma rejimləri çox vaxt hədsiz dərəcədə mürəkkəb qaydalar toplusu irəli sürür ki, bu da şirkətlərin ödəyəcəkləri vergilərin qabaqcadan müəyyən edilməsini çətinləşdirir. Nəticədə, aşağı nominal vergi dərəcələri təcrübəli investorlara ümumi vergi yükünə nisbətən daha az təsir bağışlayır. Buna görə də Azərbaycan hökuməti xarici ölkələrin təcrübəsini nəzərə alaraq öz vergi sistemini sahibkarlıq fəaliyyəti üçün əlverişli şəkildə formalaşdırmağa başlamışdır. Artıq bizə məlum olduğu kimi aşağı vergi dərəcələri xarici investorları ölkəyə cəlb etmir. Çünki dünya təcrübəsi göstərir ki, xarici investorun qazandığı vəsaiti ölkədən çıxarması zamanı bir sıra problemlər yaranır. Bu problemlərdən biri ikiqat və daha çox vergitutma hallarıdır. Ona görə vergi sistemini xarici investorlarla əlverişli şəkildə qurmaqdan ötrü ölkə hökuməti beynəlxalq səviyyədə qəbul olunmuş üsullarla belə yolverilməz halları aradan qaldırmalıdır. Dediyimizə misal olaraq bəzi hallarda xarici investorların ödədikləri vergilərin həcminin onların gəlirlərindən artıq olduğu hallar da mövcud olmuşdur. Belə anlaşılmaz halların baş verməməsi üçün vergi sisteminin şəffaflığı tələb olunur.

Bundan başqa, xarici investorları cəlb etmək üçün onların qazanclarının reinvestisiya olunmasını təmin edən vergi sistemidə formalaşdırmaq lazımdır. Məsələn, reinvestisiya olunan vəsaitlərin formalaşdırdığı gəlirin qismən və ya tamamilə aradan qaldırılması.

Əvvəldə söylədiyimiz kimi xarici investorlar ölkəyə investisiya yatıranda oradakı vergi dərəcələrinin səviyyəsinə fikir verirlər. Baxmayaraq ki, indiki gündə Avropa ölkələri cəlb olunan xarici investorların həcminə görə dünyada birinci yerdədirlər, lakin onların vergi dərəcələrinin səviyyəsi nisbətən yüksəkdir. Məsələn, Avstriya, Belçika, İspaniya, Fransa, Yunanıstan, İtaliya, Niderlandda kampaniyalardan tutulan gəlir vergisinin dərəcəsi 34-36% arasındadır. Bu göstərici Danimarka, Lüksemburq, Portuqaliya və Böyük Britaniyada 30%, Finlandiyada 29%, İsveçdə 28%, Almaniyada 25%, İrlandiyada isə 12,5%-dir. Xüsusən İrlandiyada sənaye sahəsində bu göstərici 10%-dir. Göründüyü kimi inkişaf etmiş Avropa ölkələrinin çoxunda vergi dərəcələri keçmiş Sovet İttifaqı ölkələrinin vergi dərəcələrindən yuxarıdır. Lakin onların iqtisadiyyatları, həmçinin vergi sistemləri investisiya yatırımları üçün əlverişlidir. Səbəbi yuxarıda qeyd etdiyimiz vergi sisteminin şəffaflığı, çoxqat vergitutmalarının olmamasıdır. Belə halların olmamasından ötrü Azərbaycanda vergi sistemi 2001-ci il yanvarın 1-dən yeniliklə fəaliyyətə davam etdi. Belə ki, "Azərbaycan Respublikasının Vergi Məcəlləsi" qüvvəyə mindi. Bununla da vergi sistemində şəffaflıq artmış oldu.

Bir çox sosial sığorta ödənişlərinin və vergilərin azaldılması ilə hökumət ölkədəki sahibkarlıq və investisiya fəaliyyətinə əlverişli şərait yaratmağa cəhd edir. Məhz Vergi Məcəlləsinin 3-cü maddəsinin 10-cu bəndində qeyd edilir ki, "Vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir".

Vergi sistemində şəffaflıq yaradılması özünü həm də vergi ödəyicilərinə dəqiq və sadə təlimatların verilməsində göstərir. Sahibkarlara daha sadə vergi xidməti göstərmək məqsədilə sadələşdirilmiş vergi sisteminə "vahid pəncərə" sistemi formalaşdırılmışdır. Bununla da həm vergi ödəyicisinin qeydiyyatı, həm də vergi ödəmə mexanizmi olduqca sadələşdirilmişdir.

Vergi ödəyicilərinin müvafiq orqanlar tərəfindən yoxlama hallarının sayı azaldılmışdır. Sahibkarlığın inkişafına maneə olan müdaxilələrin qarşısı alınmışdır. Bu da xarici investorların kiçik və orta sahibkarlıq obyektlərinə investisiya yatırmaq imkanlarını artırmışdır.

Qeyd etmək lazımdır ki, xarici iqtisadi əlaqələrin inkişafı ayrı-ayrı ölkələrin milli iqtisadiyyatının beynəlxalq təsərrüfat miqyasında inteqrasiyasının sürətləndirilməsinin əsas şərtidir. Ölkələr iqtisadi inteqrasiya axınlarına qoşularaq bu yolla öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin ümumi rifah səviyyəsini artırmağa çalışırlar. Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən maksimum istifadə edilmədən, xarici iqtisadi əlaqələrin bütün formaları intensiv şəkildə genişləndirilmədən ölkə iqtisadiyyatının inkişafında əsaslı dönüş aparmaq mümkün deyildir. Dünya ölkələrindən heç biri öz inkişafını xarici ölkələrdən təcrid olunmuş şəkildə təmin edə bilmədiyinə görə öz aralarında beynəlxalq və regional səviyyədə iqtisadi əlaqələr yaratmağa çalışırlar.

Azərbaycan özünün təbii resursları və nisbətən yüksək iqtisadi potensialı ilə xarici iqtisadi əlaqələrin səmərəli inkişafında əlverişli şəraitə malikdir. Ölkəyə xarici investisiyaların axınına təsir edən şərait bir sıra kompleks amillərdən asılıdır. Bu amillər investisiya şəraitini təşkil edirlər. Həmin şəraitə ölkə iqtisadiyyatının vəziyyəti, sosial stabillik, mədəniyyət və digər amillər aid edilməlidir. Onlar xarici investorlar tərəfindən investisiya miqyası və istiqamətləri qəbul edildikdə nəzərə alınırlar.

Müasir dünya iqtisadiyyatı liberallaşdırma və qloballaşdırma ilə xarakterizə olunur. Bu şəraitdə firmalar kapital qoyuluşunun mənfəətliliyini təmin etmək məqsədi ilə ölkə və əraziləri axtardıqda inkişaf etmiş infrastruktura, mədəni işgüzarlığın mövcudluğuna özəlləşdirmə proqramlarının həyata keçirilmiş olmasına xüsusi fikir verirlər.

Liberallaşdırmanın aparılması və struktur islahatları inkişaf etməkdə olan və keçid iqtisadiyyatı mövcud olan ölkələrdən sərbəst maliyyə vəsaitlərinə cəlbediciliyin artmasına şərait yaratmışdır. Bununla da Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sisteminə daxil olandan bəri əldə etdiyi mühüm iqtisadi nəticələrə olduqca qısa dövr ərzində nail olduğunu şübhəsiz söyləyə bilərik.

## 2. Azərbaycan Respublikasında iqtisadi islahatlar və onların investisiya fəaliyyətinə təsiri

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra məlum iqtisadi-siyasi transformasiya zərurəti sözsüz ki, "inqilabi" yolla həyata keçirilə bilməzdi. Bundan ötrü Azərbaycanın müstəqilliyinin

ilk çağlarından siyasi-ictimai və iqtisadi sferadakı transformasiyanı hökumət birmənalı şəkildə islahatlar yolu ilə həyata keçirməyi qərara aldı.

İqtisadi islahatların zəruriliyi ölkə iqtisadiyyatının mövcud durumundan irəli gəlir.Yəni hər hansı bir iqtisadi sistemdə islahatların keçirilməsi zərurəti onun içindən doğur. Ümumiyyətlə, müxtəlif dövrlərdə həyatın müxtəlif sferalarında islahatlar həyata keçirilmişdir. Bu islahatların keçirilmə səbəbləri yuxarıda qeyd etdiyim kimi, həm daxili səbəblərdən, həm də xarici səbəblərdən ibarətdir. Xarici səbəblər dedikdə, beynəlxalq ictimai, siyasi, iqtisadi və s. mühit və onun təsiri başa düşülür. Daxili səbəblər isə daha çox təsirə malik olub, həm də daha müxtəlif olurlar.

Tarixən islahatların, həmçinin iqtisadi islahatların həyata keçirilmə səbəbi təsərrüfat münasibətlərinin obrazlı desək, digər mövcud cəmiyyət münasibətlərini ötüb keçməsi ilə əlaqədar olmuşdur. Lakin hansı səbəbdən doğmasından asılı olmayaraq iqtisadi islahatlara təsir edən iki qrup amil xüsusi ayırd edilir:

Bu və ya digər ölkədə qəbul olunmuş sosial-iqtisadi inkişaf konsepsiyası;

Dəyişikliklər ərəfəsində ölkənin sosial, siyasi və iqtisadi islahatlarına təsir edə biləcək obyektiv amillər.

İqtisadi islahatların zəruriliyi və mahiyyətindən danışarkən bu anlayışların hansının müəyyənedici olduğu haqda sual meydana çıxır, yəni hansı anlayış o biri üçün səbəb olur. Buradan görünür ki, zərurilik özünü o vaxt büruzə verir ki, ya mövcud iqtisadi münasibətləri təkmilləşdirmək ehtiyacı var, ya da yeni münasibətlər formalaşdırmaq lazımdır. Onu bildirək ki, islahatlar zərurətdən həyata keçirilir.İqtisadi islahatlar heç vaxt islahatlar naminə keçirilməməlidir. Çünki, bu böyük bir yanlışlıqdır. İslahatlar yalnız zərurəti gəldikdə həyata keçirilməlidir. Bu zərurət isə özünü yeni münasibət, şərait, infrastruktur, əlaqələr və s.-in yaranmasında tapır. İslahatlar vasitəsi ilə yuxarıda sadalananlar formalaşdırılır.

İqtisadi islahatların mahiyyətindən danışarkən hökmən onun tərkibindən də söz açmaq lazımdır. Belə ki, burada biz islahatların hansı səpkidə aparılmasından söhbət açmalıyıq.

İqtisadi islahatların tərkib hissələri kimi aqrar islahatları, struktur islahatları, iqtisadi idarəetmədəki islahatları və s.-i göstərmək olar. Bu tərkib hissələrinin hər birinin mahiyyəti açılsa onda iqtisadi islahatla-

rın mahiyyəti də açılmış olar. Onu da qeyd edək ki, bu tərkib hissələri bir-biri ilə qarşılıqlı əlaqə və asılılıqdadırlar.

Hökumətin iqtisadi vasitələrə əsaslanan tənzimlənmə mexanizmlərinin formalaşdırılması prosesi ilk dəfə "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı" çərçivəsində həyata keçirilmişdir. Belə ki, 1999-cu ildə hökumət kənd təsərrüfatı məhsullarının istehsalçılarına neft məhsullarının (yük avtomobilləri üçün benzin, dizel yanacağı və motor yağlarının) güzəştli qiymətlərlə satışı barədə qərar qəbul etdi. Bundan savayı, bu yolda ölkə Parlamentinin 2000-ci ilin oktyabr ayında qəbul etdiyi "Özəlləşdirilən dövlət müəssisələrinin, aqrar islahatlar nəticəsində ləğv olunmuş və işğal altında olan rayonların təsərrüfat subyektlərinin borcları haqqında" Qanununa görə, ləğv olunmuş kolxoz və sovxozların dövlət büdcəsinə, büdcədənkənar dövlət fondlarına, dövlət banklarına və digər dövlət müəssisə və təşkilatlarına onların özəlləşdirilməsinə qədər yaranmış borcları (əsas borc məbləği, faizlər və maliyyə sanksiyaları daxil olmaqla) silinmişdir.

Aqrar islahatlardan danışarkən onu da bildirmək lazımdır ki, kənd təsərrüfatı iqtisadiyyatın mühüm tərkib hissəsidir. Buna görə də bu sahədə aparılan islahatlar da diqqət mərkəzində olmalıdır.

Kənd təsərrüfatı məhsullarının qiymətlərinin liberallaşdırılması və kənd əhalisinin gəlirlərinin artırılmasına real mühit yaradılması üçün islahatların ilkin mərhələsində bazar münasibətlərinin tələbləri və prinsipləri əsasında fəaliyyət göstərən kənd təsərrüfatı kooperativləri yaradılması və özəl, qeyri-dövlət sənaye müəssisələrində buraxılan məhsulların xüsusi çəkisinin artımına nail olunmasına çalışılmalıdır.

Bu və bu kimi digər təbirlərin məntiqi nəticəsi kimi ölkədə kənd təsərrüfatı sahəsində son beş ildə ət istehsalı kəsilmiş çəkidə 41.2 min ton (30.7%), taxıl istehsalı 440.5 min ton (21.4%), süd istehsalı 213.8 min ton (18.3%), kartof istehsalı 308.1 min ton (40%), yumurta istehsalı 326.8 milyon ədəd (47.9%), tərəvəz istehsalı 182 min ton (17.4%) yun istehsalı isə 2.7 min ton (22.3%) artmışdır.

Sözsüz ki, aqrar islahatlar koordinal dəyişikliklərə səbəb oldu. Yəni kəndli öz torpağının sahibinə çevrildi və ona təsərrüfat azadlığı verildi. Bu dəyişiklik ümumi dəyişikliklər sistemində özünə layiq yeri tutaraq islahatların gedişinə təkan verdi. Bununla da sanki, iqtisadiyyat canlanmağa başladı.

Onu da qeyd edək ki, Azərbaycanda iqtisadi islahatlar aqrar islahatlarla başladı. Bu isə özü-özlüyündə təqdirəlayiq haldır. Bundan başqa, bu həmçinin kənddə sosial vəziyyəti yaxşılaşdırmağa yönəlmiş bir tədbir idi.

Maliyyə-kredit sahəsindəki islahatlar digər sahələrdəki islahatlar kimi geniş aparılmış islahatlardandır. Bu islahatların aparılması ilə ölkə iqtisadiyyatına yeni qüvvə verilmişdir.

Azərbaycan inzibati idarəetmə sistemindən ayrıldıqdan sonra özünə maliyyə sistemi formalaşdırıb, yeni valyuta (milli valyuta) dövriyyəyə buraxır, özəl banklar açılır, xarici banklar, maliyyə təşkilatları, kredit verən ölkələr maliyyə sistemində öz yerlərini tuturlar, həmçinin ölkə beynəlxalq maliyyə sisteminə inteqrasiya edir. Bu tip islahatların məqsədi ölkə iqtisadiyyatına daha çox maliyyə resurslarının axınını təmin etmək və ölkənin maliyyə ehtiyatlarını artırmaqdır. Bununla yanaşı, sağlam milli iqtisadiyyat formalaşdırmaq məqsədi güdülür.

Struktur islahatları artıq keçirilməsi zəruri olan islahatlardan idi. Çünki Sovet İttifaqına aid olduğumuz dövrdə iqtisadiyyatımız birtərəfli xammalyönümlü inkişaf etmişdir. Buna görə də mülkiyyət formalarının dəyişilməsi zamanı, həm də iqtisadiyyatın qeyri-xammal sektorunun inkişafına şərait yaradılmalı idi.Yəni, islahatlar elə aparılmalı idi ki, həm də real sektor inkişaf etsin.İqtisadiyyatın strukturunun dəyişdirilməsi olduqca ciddi məsələdir və bu zaman bütün növ resurslar düzgün qiymətləndirilməlidir və ölkə iqtisadiyyatı qabaqcadan müəyyənləşdirilmiş prioritetlərə yön almalıdır. Burada prioritetlər dedikdə, ali iqtisadi məqsədlər nəzərdə tutulur.

Struktur islahatları həyata keçirilərkən hökmən ölkə potensialı ilə yanaşı, beynəlxalq iqtisadi durum da nəzərə alınmalıdır.

İqtisadi idarəetmədəki islahatlar iqtisadi və siyasi islahatların birlikdə aparılması zərurətindən meydana çıxır. Yəni həm iqtisadi, həm də siyasi sistem dəyişirsə, onda təsir mexanizmləri də dəyişilməlidir. Bununla da direktiv idarəetmə dövlət tənzimləməsi ilə əvəz olundu. Əvvələr əgər direktiv planlaşdırma hökm sürürdüsə, indi tövsiyə xarakterli indiqativ planlaşdırma mövcuddur. Əgər əvvəllər dövlət iqtisadiyyatı istədiyi kimi birbaşa idarə edirdisə, indi bazar iqtisadiyyatının çatışmazlıqlarına qarşı tədbirlər görməklə kifayətlənir.

Proqnozlar əvvəlki qaydada tutulsalar da, indi bazar iqtisadiyyatının qanunauyğunluqlarına söykənirlər.

Proqramlar isə daha çox ümummilli mənafelərə uyğunlaşdırılmış və ümumən razılaşdırılmış şəkildə tərtib edilirlər. Bunlarla yanaşı, yeni təsir nöqtələri də yaranıb ki, onlar sırf bazar iqtisadiyyatına xasdırlar.

Ancaq onu da demək lazımdır Azərbaycanda həyata keçirilən iqtisadi islahatların məqsədlərini ümumi şəkildə aşağıdakı kimi ifadə etmək olar:

-Bazar iqtisadiyyatına söykənən sağlam iqtisadiyyat qurmaq;
-İqtisadiyyatda mülkiyyət çox növçülüyünə nail olmaq;
-Rəqabət qabiliyyətli milli iqtisadiyyat formalaşdırmaq;
-Əhalinin rifah halını yaxşılaşdırmaq;
-Beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiya etmək və s.

Bununla belə iqtisadi islahatların yerinə yetirdikləri vəzifələr də çox saylıdır. Bunlara əsasən ölkənin iqtisadi və sosial potensialının artırılması, əhalinin maddi və mənəvi tələbatlarının ödənilməsinin ardıcıl olaraq yaxşılaşdırılmasına şərait yaratmaq və s.-i aid etmək olar.

Bazar iqtisadiyyatına keçidin müasir mərhələsində ölkəmizdə həyata keçirilən iqtisadi islahatların qarşısında başlıca olaraq aşağıdakı məqsədlərə nail olmaq nəzərdə tutulur:

1. Ölkəmizin suverenliyi və müstəqilliyini qoruyub saxlamaq və getgedə onu daha da möhkəmləndirmək;
2. Milli iqtisadiyyatımızın bütün sahələrinin mülkiyyət rəngarəngliyi, əmək fəaliyyətinin sərbəstliyi və ekoloji tarazlığın qorunub saxlanması əsasında ahəngdar inkişafını təmin etmək;
3. Xalqın təhsilini, elmi dünya görüşünü, mənəvi aləmini zənginləşdirmək;
4. Bəşəri dəyərlərə arxalanaraq kamil, yetkin, yüksək əxlaqi keyfiyyətlərə malik insan yetişdirmək və bu əsasda ölkəmizi sivil ölkələr səviyyəsinə çatdırmaq.

Qeyd etmək lazımdır ki, iqtisadi islahatların səmərəsinə nail olmaq üçün ilk növbədə ölkəmizdə xammal hasilatı və emalı, sənaye və kənd təsərrüfatı, sənayenin özünün daxilindəki sahələr arasında mövcud olan qeyri -mütənasiblik aradan qaldırılmalıdır. Bunu kənd təsərrüfatı yarımsahələri haqda da demək olar. Nəzərə almaq lazımdır ki, istehsal sahələri arasında əsaslandırılmış proporsionallıq milli iqtisaidyyatımızın dinamik inkişafı üçün əsas şərtdir. Optimal nisbət iqtisadiyyatın səmərəliliyini təmin edən ən güclü amildir.

Qeyd etmək lazımdır ki, ölkədə milli iqtisadiyyatı, təkrar istehsal prosesini həyata keçirməkdən ötrü müəyyən qədər investisiya resurs-

larına ehtiyac duyulur. Belə ki, investisiya siyasətinin hazırlanması ölkə iqtisadiyyatının makroiqtisadi vəziyyətindən asılıdır. Daxili vəsaitin çatışmazlığı yarandıqda xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi zərurəti yaranır. Əsas səbəblərdən biri kimi ölkədə şəxsi yığımların səviyyəsinin aşağı olması, əsas kapitalın bərpası üçün formalaşdırılmış fondların lazımi vəsaitlərdən məhrum olması və s.-ni göstərmək olar. Belə ki, dövlət bu sahədəki çatışmamazlığı aradan qaldırmaq üçün hökmən xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsinə böyük önəm verməyə başalyır. Bundan ötrü dövlət öz investisiya siyasətini formalaşdırır. Həmin investisiya siyasətinin əsas istiqamətlərini isə belə qruplaşdırmaq olar.

Əlverişli investisiya mühitinin formalaşdırılması;

Dövlət investisiya proqramlarının hazırlanması və reallaşdırılması;

Milli investisiya qanunvericiliyinin inkişaf etdirilməsi;

İnvestisiya bazarının infrastrukturunun inkişaf etdirilməsi;

İnvestisiyaların həcminin və effektivliyinin artırılması və innovasiya İnvestisiyalarına geniş yer verməklə investisiyaların strukturunun yaxşılaşdırılması.

Ölkədə sosial-iqtisadi inkişafı tənzimləməkdən ötrü dövlət, iqtisadiyyatda lazımi sahə proporsiyaların formalaşdırılması və investisiya qoyuluşlarından və həmçinin investisiya fəaliyyətindən əldə edilən gəlirlərdən tam və səmərəli istifadəni iqtisadi və hüquqi mexanizmlər vasitəsi ilə tənzimlənməlidir. Sözsüz ki, hər hansı bir sənaye sahəsində və ya sosial sahədə yeni təsərrüfat subyektinin yaradılması, yenidən qurulması, genişləndirilməsi və həmçinin həmin sahələrdə məşğulluğun təmin edilməsi, müəyyən qədər investisiya qoyuluşları olmadan mümkün deyildir. Bu baxımdan həmin təsərrüfat subyektlərinin gəlirlərinin xərclənməsini tənzimləmək və bununla da reinvestisiya prosesinə təkan vermək birbaşa dövlətin diqqət mərkəzində olmalıdır.

Qeyd etmək lazımdır ki, xarici investorların digər ölkələrə investisiya yatırmasına müxtəlif motivasiyalar və müxtəlif məqsədlərə nail olmaq perspektivi sövq edir, məsələn : istehlak bazarı əldə etmək; daha ucuz xammal və ixtisaslı işçi qüvvəsi əldə etmək; istehsal xərclərinin azaldılması və yerli güzəştlər hesabına məhsulların reallaşdırılması; təbii ehtiyatların mövcudluğu ölkənin strateji mövqeyi. Beləliklə, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi birinci dərəcəli əhəmiyyətə malikdir. Güclü biznes və investisiya mühitini dəstəkləyən siyasi şəraitin yaradılmasında əhəmiyyətli məsələlərdən

biri də qanunvericiliyin sabit olmasıdır. Daima dəyişən qanunvericilik investorların öz gəlirlərini planlaşdırmasına mənfi təsir göstərir. Üstəlik mühasibat və audit işi, ətraf mühitə təsir və iş qüvvəsinin idarə edilməsi kimi biznes fəaliyyətlərinə dair qaydaların dəyişməsi investorun xərclərini artırır. Bundan əlavə, cari şərait əlverişli olsa belə, qeyri-sabit qanunvericilik mühiti investorlarda əlverişsiz şəraitin yaranacağı riskinin hədsiz böyük olması hissini yarada bilər ki, bu da onları investisiya yatırmaq fikrindən daşındırar. Odur ki, Azərbaycanın müstəqillik əldə etməsi və bazar iqtisadiyyatını özünə iqtisadi sistem kimi seçdiyi bir şərait də xarici ölkələr və onların iqtisadi subyektlərinin marağına və milli iqtisadiyyatın inkişafına imkan yaradan mənafelərə əsasən, investisiya fəaliyyətini, xüsusən də xarici investisiya fəaliyyətini daha da dərinləşdirmək zərurəti ortaya çıxır. Belə bir real şəraitdə, investisiya fəaliyyətinin dövlət tənzimlənməsi və idarə edilməsi müasir reallıqdan irəli gəlir. Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri çoxşaxəli olmaqla bərabər, onun əsas istiqamətlərindən biri respublikaya investisiya axınının getdikcə gücləndirilməsidir. Beləliklə, xarici investisiya resurslarının artırılması və xüsusilə, investisiya fəaliyyətindən əldə edilən gəlirlərdən istifadə istiqamətlərinin tənzimlənməsi yolu ilə milli iqtisadiyyatın strukturunda səmərəli proporsiyaların yaradılması, habelə, güclü istehsal potensialına uyğun sosial infrastrukturun formalaşması və inkişafı, dövlətin tənzimləyici rolunun və funksiyasının bir daha artırılmasını təkidlə tələb edir.

Hazırkı şəraitdə respublikamızda yeni və ən yeni sahələr olan yüksək texnologiyalar sahəsinə, ölkə iqtisadiyyatında mövcud olmayan və idxalla ödənilən məhsul və xidmətlərin istehsal olunduğu sahələrə yönəldilməsinə nail olunmalıdır. Bu baxımdan xarici investisiya axınlarının tənzimlənməsində dövlət aşağıdakı iqtisadi mexanizmlərdən istifadə edir:

Subyekt və obyektlərdə vergi dərəcələrinin və vergi güzəştlərinin tətbiqi;

Kredit və amortizasiya siyasətinin həyata keçirilməsi, o cümlədən, əsas fondların sürətli amortizasiyası ilə bağlı güzəştlər, ayrı-ayrı istehsal sahələri üzrə dəyişkən və fərqli güzəştlərin müəyyən edilməsi;

Ayrı-ayrı region və istehsal sahələrinin inkişafı üçün subversiya, subsidiya və büdcə borclarının verilməsi;

Dövlət norma və standartlarının müəyyənləşdirilməsi və antiinhisar tədbirlərinin həyata keçirilməsi;

Torpaqdan, sudan və s. təbii ehtiyatlardan istifadə şərtlərinin müəyyənləşdirilməsi;

Qiymətlərin müəyyənləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi;

İnvestisiya layihələrinin ekspertizası və s. tədbirlər nəzərdə tutulur.

Ölkə iqtisadiyyatının inkişafı məqsədilə dövlət tərəfindən geniş iqtisadi islahatların həyata keçirilməsi və hökumətin bu istiqamətdə yürütdüyü siyasətin başlıca məqamlarından biri də iqtisadi inkişafın əsas təkanverici qüvvəsi hesab olunan investisiya siyasəti nəticəsində ötən illər ərzində həqiqətən də ölkə iqtisadiyyatına xeyli həcmdə kapital axını olmuşdur. Xarici investisiyaların cəlb edilməsinin mühüm formalarından biri kimi müasir dövrdə azad iqtisadi zonaların formalaşdırılması hesab edilir. Azad iqtisadi zonaların yaradılması məqsədləri bu və ya digər ölkənin iqtisadi, sosial, hətta siyasi mühitlərindən asılı olaraq müxtəlif cür olur. İnkişaf etmiş kapitalist ölkələrində azad iqtisadi zonalar bir qayda olaraq, işsizlikdən əziyyət çəkən və zəif infrastruktura malik geridə qalmış regionlarda yaradılır. Bu cür regionlara zona statusu verən ölkələrin hökumət orqanları bu cür ərazilərə xarici investisiyaların cəlb edilməsindən daha çox mövcud istehsalın inkişafını daha da stimullaşdırmaq və əlavə iş yerlərinin təmin edilməsi kimi məqsədlər güdürlər. Asiyanın Yeni Sənaye ölkələrində zona siyasəti sənayenin əsas elementi kimi çıxış edir və iqtisadi artımın sahəvi anklavlarının yaradılmasına yönəldilir (əsasən ixrac və elmi-texniki zonalar). İnkişaf etməkdə olan ölkələrdə isə əsas məqsəd kimi xarici kapitalın, qabaqcıl texnologiyanın və idarəetmə təcrübəsinin ölkəyə cəlb edilməsi, ixracın stimullaşdırılması, onun strukturunun yaxşılaşdırılması, məşğulluğun artırılması və yüksəkixtisaslı kadrların hazırlanması, torpaq sahələrinin və digər obyektlərin icarəyə verilməsi ilə əlavə mənfəətin əldə edilməsi, kommersiya və s. xidmətlərin göstərilməsi götürülür.

Azad iqtisadi zonaların yaradılması bir qayda olaraq – ayrı-ayrı ərazi və regionların iqtisadi inkişafına, konkret prioritet iqtisadi məsələlərin həllinə, strateji proqram və layihələrin reallaşdırılmasına yönəldilmiş ciddi bir işdir. Belə ki, təcrübə onu göstərir ki, azad iqtisadi zonalarda yaradılmış güzəştlər sistemi bu ərazidə reallaşdırılan proqramlarla birbaşa və sıx əlaqəyə malikdir. Dünya təsərrüfatındakı təcrübəyə əsaslanaraq onu da qeyd edək ki, AİZ-in yaradılması zamanı bəyan edilən ilkin məqsəd və vəzifələr, demək olar ki, heç vaxt faktiki inkişafın nəticələri ilə üst-üstə gəlmir.

Bunları əsas götürərək cəlb edilmiş külli miqdarda xarici investisiya hesabına daxili bazarı tənzimləyərkən xarici investisiyaların ölkə iqtisadiyyatına göstərə biləcəyi təsirləri nəzərə almaq lazımdır.

Bunlar isə aşağıdakılardan ibarətdir:

**1. Ölkə iqtisadiyyatına yeni texnika və texnologiyaların cəlb edilməsi -** Ölkəyə cəlb edilmiş xarici investisiyaların hansı formada olmasından asılı olmayaraq həmin investisiyaları yatıran investorlar özləri ilə birlikdə fəaliyyət göstərdikləri sahələrə yeni texnika və toxnologiyaları cəlb etməyə məcbur olurlar. Çünki dünya bazarına rəqabətqabiliyyətli məhsulun çıxarılması birbaşa olaraq mənimsənilən texnika və texnologiyalardan birbaşa asılıdır.

Beynəlxalq elmi-texniki sferada əməkdaşlıq beynəlxalq hüquq institutu vasutəsi ilə tənzimlənir. Bu instituta həm beynəlxalq investisiya, həm beynəlxalq ticarət, həm də beynəlxalq inzibati hüququn tərkib hissələri daxildir.

Beynəlxalq elmi-texniki bilik və xidmətlər bazarında əməkdaşlığın aşağıdakı formaları mövcuddur: birgə elmi-tədqiqat işləri; sifarişli elmi-tədqiqat işləri; texniki sənədləşmənin mübadiləsi (satılması və ötürülməsi); nümunələrin və materialların mübadiləsi; elmi-texniki avadanlıqların icarəsi; lisenziyaların alqı-satqısı; texnoloji proseslərin mübadiləsi; yeni texnika və texnologiyanın istehsalı üzrə birgə müəssisələr. Həmçinin beynəlxalq miqyasda sənaye və digər obyektlərin layihələşdirilməsi və tikilməsi prosesində beynəlxalq injinirinqdən istifadə edirlər. İnjinirinq bir dövlətin digərinə mühəndis hesablama, məsləhət və mühəndis inşaat xidmətlərinin verilməsidir.

**2. Ölkədə mövcud, lakin, üzə çıxarılmamış və ya az istifadə olunan potensialın mənimsənilməsi -** Xarici investisiyaların cəlb olunması ilə ölkə iqtisadiyyatında başlanan canlanma bir qayda olaraq iqtisadiyyatın digər sahələrinə təzahür etməyə başlayır. Əvvəllər nəzər və diqqətdən bu və ya digər səbəbdən kənar qalan sahələr artıq indi lazımlı və əvəzedilməz olurlar. Bununla da tarixən potensial halında olan iqtisadiyyat sektorları artıq real sektorlara çevrilirlər.

**3. İxracın artması və idxalı əvəz edən sənayenin formalaşması** – Xarici investisiyaların ölkə iqtisadiyyatına gətirə biləcəyi yeniliklərdən biri də idxal yönümlü sahələrin canlandırılmasıdır. Yəni xarici investor resipient ölkənin uzun illər boyu idxal etdiyi məhsul və ya xidməti həmin ölkənin özündə istehsal etməyə yön alır. Əvvəla, həmin məhsul və xidmətlərə daxili bazarda tələbat olur. İkincisi isə resipient

ölkə xarici investor üçün bu sahədə xeyli güzəştlər edir. Olduqca abstrakt olmasın deyə, belə bir misal çəkək. Azərbaycan istifadə etdiyi şəkər tozunun bir hissəsini daim idxal edir. Səbəbi Azərbaycanın SSRİ-nin tərkibində olduğu zaman bu məhsulun bol olduğu ittifaq ölkələrindən idxalı idi ki, o da bu sahənin inkişafını bizim ölkədə buxovlamışdı. Şəkər tozu kimi gündəlik istifadədə əvəzsiz və daim istifadə olunan məhsulun ölkənin daxili potensialı hesabına istehsal edilməsi həm dövlətin strateji məqsədlərinə, həm də bu sahəyə investisiya yatırmağa çalışan investorun məqsədlərinə uyğun gələr.

4.**Təbii ehtiyyatlarla və əmək resursları ilə zəngin regionların mənimsənilməsi -** Daxili bazarı tənzimləyərkən dövlət əvvəla özünün birbaşa funksiyasını yerinə yetirir. Yəni o, əhalinin müvafiq həyat tərzini və həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın bu və ya digər sahələrinə, iqtisadi proseslərə müdaxilə edir. Əgər xarici investor təbii ehtiyatlarla və işçi qüvvəsi ilə zəngin regionlara vəsait yatırmaq istəyirsə, onda belə güman etmək olar ki, onun istəyi ilə dövlətin məqsədi üst-üstə düşür. Ancaq belə gümanlar adətən düz çıxmır, heç də həmişə dövlət xarici investroların bu istəyini birmənalı qarşılamır. Doğrudur heş bir dövlət bu cür fəaliyyətin qarşısını almağa çalışmaz və investorlar da asanlıqla öz fikirlərindən dönməzlər. Laki potensialı gizli olan regionların potensiallarını tam üzə çıxarmaq və xarici investorları həmin regionlara cəlb etmək dövlətin bu sahədə ən ümdə vəzifəsi olmalıdır.

**5. Yeni sahibkarlıq formalarının tətbiqi -** Sözsüz ki, Azərbaycan kimi yeni müstəqillik əldə etmiş ölkələr üçün sahibkarlıq fəaliyyəti sahəsində baş verəcək istənilən dəyişiklik yenilik deməkdir. Bununla belə xarici investorlar ölkə iqtisadiyyatına yatırdıqları vəsaitlər hesabına ölkəyə yeni texnologiyalar, texnikalar, idarəçilik üsul və vasitələri gətirməklə yanaşı, onlara müvafiq sahibkarlıq fəaliyyətinin yeni formalarını tətbiq etməyə məcbur olurlar.

**6. İnfrastrukturun inkişaf etdirilməsi -** Yüksək keyfiyyətli infrastruktur investor və sahibkarların bazara giriş xərclərini azaldır, ixracatın inkişafını asanlaşdırır, əmək və torpaq ilə əlaqədar oxşar daxili xərcləri təklif edən, lakin az inkişaf etmiş infrastruktura malik digər məkanlara nisbətən rəqabətədavamlı üstünlüyünü təmin edir.

Xarici investor fəaliyyət göstərdiyi sahədə hökmən özünün normal fəaliyyət göstərməsi üçün müvafiq infrastrukturun mövcudluğuna diqqət yetirir. Əgər onun fəaliyyət göstərəcəyi ölkədə lazımi infras-

trukturun olmadığını görsə, onda həmin ölkəyə vəsait yatırmaqdan boyun qaçıra bilər. Belə olan təqdirdə həmin ölkədə xarici investorların infrastruktur layihələrində iştirakı stimullaşdırılmalıdır. Doğrudur, əgər dövlət müvafiq infrastrukturu özü təmin edə bilərsə, onda bu cür tədbirlərə əl atmaq lazım deyildir. Fəaliyyətlə məşğul olmağa başlayan xarici investor hökmən az və ya çox dərəcədə öz sahəsi ilə əlaqəli infrastrukturu yeniləyir və ya təkmilləşdirir. Bu zaman daxili bazara təsir edə biləcək makroiqtisadi dəyişikliklər baş verməyə başalyır. Öncə infrastruktur layihələrində işə cəlb olunanlar işlə təmin olunurlar. Həmin infrastruktur layihələrində işləyən daimi işçilərin və müvəqqəti işçilərin hamısı məşğul hesab olunurlar. Daxili bazarda bazara xidmət edən infrastrukturun qurulması üçün lazımi avadanlıqlar, materiallar və s. alınır. Bir sözlə, əgər ümumi ölkə səviyyəsində bu prosesə baxsaq və nəzərə alsaq ki, xarici investisiyalar iqtisadiyyatın müxtəlif sahələrinə cəlb olunub onda, təsəvvür edə bilərik ki, yalnız bu sahələrin infrastrukturunun təmini üçün nə qədər yeni fəaliyyət sahələri formalaşacaq, köhnələri daha artıq güclə fəaliyyətlərini davam etdirəcəklər.

Qeyd etmək lazımdır ki, xarici investisiyalar daxili bazarın tənzimlənməsində birbaşa və ya dolayı yolla çatışmazlıqlarının aradan qaldırılmasında təzahür edir.

Belə ki, iqtisadiyyatın inkişafında yerli investisiyanın iştirakının tədricən ən yüksək səviyyəyə gətirilməsi mühüm əhəmiyyət kəsb edir. Çünki bu amil yerli vətəndaşların gəlirlərinin artmasına, sosial vəziyyətlərinin yüksəlməsinə şərait yaratmaqla yanaşı, ölkə iqtisadiyyatının təhlükəsizliyinə xidmət edir. Dünya təcrübəsindən məlum olduğu kimi, iqtisadiyyatın böyük hissəsinin xarici kapital hesabına formalaşdırılması gələcəkdə həmin ölkənin iqtisadiyyatını müəyyən mənada həmin kapital sahiblərinin təsiri altına sala bilər. Ona görə də yerli sahibkarların iqtisadiyyata daha çox investisiya yatırmalarını təmin etmək məqsədilə hökumət tərəfindən müvafiq siyasətin yeridilməsi təqdirəlayiq haldır. Lakin bu istiqamətdə fəaliyyətin bir qədər də sürətləndirilməsi və təkmilləşdirilməsi daha böyük nəticələrin əldə edilməsinə kömək edə bilər. Yəni hökumət investisiya siyasətində elə yeniliklər etməlidir ki, bu, ölkə iqtisadiyyatına kapital qoymaq istəyən şəxslərin diqqətini artırsın.

Belə ki, dövlət ölkədə sosial-iqtisadi inkişafı tənzimləmək, ölkə iqtisadiyyatında lazımi proporsiyaların yaradılmasını təmin etməklə

investisiya qoyuluşlarından və habelə investisiya fəaliyyətindən əldə edilən gəlirlərdən tam və səmərəli istifadəni ciddi surətdə tənzimləməlidir. Şübhəsizdir ki, hər hansı istehsal və sosial sahələrin yaradılması, yenidən qurulması, genişləndirilməsi və habelə məşğulluğun təmin edilməsi, müvafiq investisiya qoyuluşlarından və xüsusi ilə də ondan əldə edilmiş gəlirlərdən səmərəli istifadə olunmasını tələb edir. Bu baxımdan, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi birinci dərəcəli əhəmiyyətə malikdir. Odur ki, müasir müstəqillik və bazar iqtisadiyyatı şəraitində xarici ölkələrin marağına və milli iqtisadiyyatın inkişafına tam uyğun olaraq, investisiya fəaliyyətini daha da dərinləşdirmək tələb edilir. Belə bir real şəraitdə investisiya fəaliyyətinin dövlət tənzimlənməsi və idarə edilməsi müasir reallıqdan irəli gəlir. Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri çoxşaxəli olmaqla bərabər, onun əsas istiqamətlərindən biri respublikaya investisiya axınının getdikcə gücləndirilməsidir.

### 3. Azərbaycan iqtisadiyyatina xarici investisiyalarin tətbiqinin səmərəliliyi və onun təkmilləşdirilməsi istiqamətləri

İnvestisiya siyasətinin formalaşdırılması zamanı dövlət, xarici ölkə və onların təmsilçilərinin maraqlarını nəzərə almaqla yanaşı, dövlətin milli maraqları da təmin etməlidir. Bundan savayı, ölkə iqtisadiyyattının ayrı-ayrı subyektlərinin maraqları da nəzərə alınmalıdır. Bir sözlə, investisiya siyasətinin formalaşdırılmasında ümummilli maraqlar, fərdi maraqlar və xarici subyektəlrin maraqları uzlaşdırılmalıdır.

İnvestisiya siyasətinin "alətlər dəsti" olduqca məhduddur. Ona görə də onlardan istifadə zamanı hansı alətin hansı şəraitdə, hansı effekti verə biləcəyini dəqiq bilmək lazımdır. Ona görə də investisiya fəaliyyətinin dövlət tənzimlənməsində istifadə edilən konkret alətləri diferensial qaydada istifadə etmək lazımdır. Belə olan halda investisiyaların tənzimlənməsinin dövlət siyasəti təcrübəsinin öyrənilməsi böyük əhəmiyyət kəsb edir. Çünki dövlət siyasəti özündə bir neçə aləti birləşdirən modeldir. İnvestisiyaları stimullaşdıran üç investisiya tənzimləmə modeli mövcuddur ki, onlar məsələyə bu və ya digər aspektdən yanaşmaqla bir-birindən fərqlənirlər.

Birinci modeldə əsas diqqət şəxsi investisiyalara yönəldilir. İkinci modeldə əsas diqqət şəxsi layihələrin dövlət maliyyələşməsinə yönəldilir. Üçüncü modeldə dövlət müxtəlif şəxsi investisiyaların fəaliyyət-

lərini koordinasiya edir. Sözsüz ki, hər bir model özündə geniş "alətlər dəsti" ehtiva edir. Lakin biz bu modelləri əsas məqsədlərinə uyğun qruplaşdırırıq. Sadaladığımız modellər bir sıra bazar iqtisadiyyatlı ölkələrdə uğurla reallaşdırılmışdır. Ona görə də keçid iqtisadiyyatlı ölkələrdə həmin təcrübənin tətbiqi məqsədəuyğundur.

Amerikan modeli adlanan modeldə tənzimləmə əsasən vergi riçaqları vasitəsilə həyata keçirilir. Bununla yanaşı, digər liberal makroiqtisadi tədbirlər də həyata keçirilir ki, onların köməyi ilə vergi tənzimləməsinin davamı kimi qiymət və bazar dərəcələrinə təsir həyata keçirilir. Bu tədbirlərin həyata keçirilməsi zamanı bankların (dövlətin təlimatlarından asılıdır) rolu olduqca əhəmiyyətlidir, lakin investisiya resurslarının bölgüsündə mühüm işi fond birjaları görür. Bu modelin fəaliyyətini şərtləndirən əsas amil inkişaf etmiş qiymətli kağızlar bazarıdır. Dövlət öz funksiyasını bu sahədə bazar və ölkənin makroiqtisadi göstəriciləri haqqında informasiyanın hazırlanması və koordinasiya edilməsi ilə həyata keçirir. Bu model özünü doğruldur. Lakin modelin əksik cəhətləri də məsələn, lazımi pul kütləsinin tez bir zamanda yığılmasını təmin etmir, həmçinin yığımı stimullaşdırmır.

Dövlətlə şəxsi investor arasında güclü əlaqələrin formalaşması ilə xarakterizə olunan ikinci model Yapon modeli adlanır. Bu modelə uyğun olaraq dövlət banklara birbaşa nəzarəti özü həyata keçirir. Bununla o, şəxsi vəsaitlərin toplanması və bölüşdürülməsini öz nəzarəti altına alır. Vətəndaşlardan toplanmış vəsaitləri korporasiyalara güzəştli şərtlərlə verən dövlət onları mühüm şərtə əməl etməyə məcbur edir. İnfrastruktura yönələn investisiyalar birbaşa olaraq konkret şəxsi sahibkarların ehtiyaclarına uyğun şəkildə təşkil olunmuşdur. Bu modelin fəaliyyət göstərməsini şərtləndirən əsas amil güclü özəl sektor və güclü dövlət aparatının mövcud olmasıdır. Modelin üstün cəhəti böyük həcmdə vəsaitlərin cəmləşdirilə bilməsi imkanıdır. Mənfi cəhətləri isə investisiya prosesinin siyasiləşməsi və korrupsiya hallarının meydana gəlməsidir.

Özündə iki modelin ünsürlərini birləşdirən və Tayvan modeli adlanan üçüncü model investisiya məsələlərində özəl sektorun özünün koordinasiya edilmə mexanizminin yaradılmasına çalışır. Məsələ ondadır ki, hökumət hesab edir ki, xaricə ixracla məşğul olan firmalar investisiya və yatırımlar haqqında daha yaxşı və mükəmməl təsəvvürə malikdirlər.

Dünyada xarici investisiyaların cəlb edilməsi istiqamətində dövlətlərin apardığı iqtisadi siyasət tədbirləri ildən- ilə daha da geniş vüsət

alır. Hər bir ölkə öz iqtisadiyyatında investisiya mühitinin yaxşılaşdırılmasına çalışır. Əlverişli investisiya mühitinin formalaşdırılması əsasən xarici investisiyaların dövlət tənzimlənməsinin hüquqi-normativ bazasının inkişaf etdirilməsi yolu ilə mümkün olur. Azərbaycan müstəqilik əldə edildikdən sonra xarici investisiyaların axınına şərait yaradan, bir sıra hüquqi normativ sənədlər qəbul edilmişdir. «Azərbaycan Respublikasının torpaq məcəlləsi», «Azərbaycan Respublikasında mülkiyyət haqqında», «İcarə haqqında», «Qiymətli kağızlar və fond birjaları haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «Azərbaycan Respublikasının dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında», «Antiinhisar fəaliyyəti haqqında», «Əmtəə birjası haqqında», «Müəssisələr haqqında», «Girov haqqında», «Lizinq xidməti haqqında» qanunları xüsusi olaraq qeyd etmək lazımdır. Torpağın, daşınar və daşınmaz əmlakın özəl mülkiyyətə məxsus ola bilməsi, mülkiyyət hüququnun toxunulmazlığı xarici investisiyalara dövlət təminatı və bu kimi bir sıra məqamlar məhz bu qanunlar vasitəsilə təsbit edilərək qüvvəyə mindi və özəl sektorun inkişaf etməsinə, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olmasına şərait yaratmış oldu. Xarici investisiyaların ölkəyə cəlb olunmasında 1992-ci ildə qəbul edilmiş «Xarici investisiyaların qorunması haqqında» və 1995-ci ildə qəbul edilmiş «İnvestisiya fəaliyyəti haqqında» qanunları xüsusi qeyd etmək lazımdır. Bu qanunlar Azərbaycan Respublikasının ərazisində investisiya fəaliyyətinin ümumi və sosial, iqtisadi və hüquqi şərtlərini müəyyənləşdirir. Qanunlar investisiyanın Azərbaycan Respublikası iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəldilmişdir və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir.

Qloballşama prosesinin nəticəsində həm beynəlxalq əmtəə, həm də kapital axını müstəvisində dünya ölkələri biri-birlərindən daha asılı vəziyyətə düşmüşlər. Bu asılılıq özünü həm dünya ölkələrinin beynəlxalq arenada həyata keçirdikləri ticari-iqtisadi fəaliyyətlərində həm də onların xarici maliyyə əməliyyatları, əsasən də xarici borclarının bu və ya digər formada aradan qaldırılması üçün atdıqları addımlarda göstərir. Xarici iqtisadi fəaliyyətin ən mühüm cəhətlərindən biri də beynəlxalq kapital axını və onun tərkibində özünə yer alan texnologiya, təşkilatçılıq, kapital və s. axınıdır. Belə olan təqdirdə həm inkişaf etmiş

ölkələr, həm də inkişaf etməkdə olan ölkələr öz iqtisadi problemlərini xarici investisiyalar vasitəsi ilə həll etməyə can atırlar. Kəskin investisiya böhranı zamanı keçid iqtisadiyyatlı ölkələr inkişaf etmiş ölkələrin investisiya siyasətinə yiyələnməyə başlayırlar. Bəzi ölkələrdə elə kəskin iqtisadi böhranlar baş verdi ki, hökumət bütün əlinin altında olan "alətlərdən" eyni zamanda istifadə etməyə can atır. Belə ki, hökumət həm özəl sektoru investisiya etməyə stimullaşdırırdı, həm investisiya layihələrini maliyyələşdirirdi, həm də sosial sferanı maliyyələşdirirdi (yəni imtiyazlı yardımlar edirdi). Bu cür böhran burulğanından bizim ölkə də keçmişdir. Baxmayaraq ki, ağır böhranlı dövrün üstündən uzun bir müddətdir ki, keçmişik, lakin investisiya siyasətimizdə bütün modellərin qarışıq fəaliyyətini görə bilərik.

Dünya ölkələri təcrübəsində investisiyanın səviyyəsinə və dövlətin investisiya prosesində iştirakına görə üç qrup ölkə fərqləndirilir. Əvvəla, birinci qrup ölkələri qeyd edək ki, orada investisiyaların səviyyəsi böhranqabağı səviyyədədir və gözəçarpan iqtisadi artım mövcuddur. Bazar iqtisadiyyatlı ölkələrdə investisiyaların həcminin həddən ziyadə çox səviyyədən normal səviyyəyə enməsi islahatların keçirilməsinə zəmin yaradırdı. Onu da qeyd edək ki, normal səviyyəsi investisiyanın həcminin ÜDM-a olan nisbətinin faizlə ifadəsində təqribən 20%-ə bərabər olması deməkdir. Bu qrup ölkələrdə dövlət investisiya layihələrinin maliyyələşdirilməsindən tamam əlini çəkmiş və yalnız sosial sferanı və infrastruktur layihələrini maliyyələşdirir. Belə ölkələrdə investisiya sahəsində inkişaf yalnız xarici investisiyaların hesabına baş verir. Bu qrup ölkələrdə investisiya strategiyasının mühüm cəhətlərindən biri investorların vergilərdən azad edilməsidir. Sözsüz ki, müəyyən bir müddətə. Bu qrup ölkələr öz investisiya problemini həll etmiş hesab edilirlər. Onların iqtisadiyyatının qarşısında duran problemlər artıq başqa problemlərdir. Məsələn, iqtisadiyyatı yeni texnoloji səviyyəyə çatdırmaq, adekvat yığım səviyyəsini təmin etmək və investisiyaları ölkə iqtisadiyyatının yenidən qurulmasında istifadə etmək və s.

İkinci qrup ölkələrdə cəlb edilmiş investisiyaların həcmi qənaətbəxş səviyyədədir. Lakin iqtisadi inkişafa nail olmaq çətin başa gəlir, demək olar ki, dövlət stabilləşmə siyasəti yürütməsə dayanıqlığa nail olmaq qeyri-mümkün olar. Bununla belə dövlət özəl investisiya layihələrində iştirak edir, yəni ya zəmanətçi olur, ya da maliyyə yardımları edir. Bu qrup ölkələrdə investisiyanın həcminin ÜDM olan nisbəti 30%-dən

20%-15%-ə enir və həmin ölkələr xarici investisiyaları cəlb etməkdə çətinlik çəkirlər. Ona görə də əsas diqqətlərini investisiyaların verimliliyinin artırılmasına, yəni effektivliyinin artırılmasına yönəldirlər.

Üçüncü qrup ölkələrdə keçid dövrünə qədəm qoyandan sonra investisiyaların həcmi o qədər aşağı düşüb ki, onlar haqqında iqtisadi artımdan yox, iqtisadi gerilikdən danışmaq lazımdır. Belə ölkələrdə sözsüz və şübhəsiz investisiya strategiyası birbaşa olaraq xarici investisiyaların cəlb edilməsinə yönəldilmişdir. Bu tip ölkələrə misal olaraq mənfur qonşumuz Ermənistanı misal çəkə bilərik. Belə ölkələrdə birinci və ikinci qrup ölkələrin təcrübəsindən istifadə etmə imkanıda olmur. Çünki həmin ölkələr yerləşdiyi geostrateji məkanda yanlış siyasət yürüdürlər. Bu da onların iqtisadi deqradasiyasına gətirib çıxarır.

Azərbaycan Respublikasında həyata keçirilən investisiya siyasəti əsasən dövlətin aşağıdakı istiqamətlərdə apardığı islahatlar sayəsində formalaşmışdır:

Bilavasitə qanunverici bazanın təkmilləşdirilməsi;

Bir sıra xarici ölkələr ilə ikiqat vergitutmanın aradan qaldırılması və investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlərin imzalanması;

Beynəlxalq valyuta əməliyyatlarının sadələşdirilməsi;

Vergi və gömrük sistemlərinin təkmilləşdirilməsi;

Lisenziyalaşdırma sisteminin sadələşdirilməsi,

Hüquqi şəxslərin dövlət qeydiyyatına alınmasının sadələşdirilməsi (vahid pəncərə sistemi).

Xarici investisiyalı müəssisələrin Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmasında heç bir məhdudiyyət yoxdur. Dövlət qeydiyyatı "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" (1996-cı il) Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir. Xarici investisiyalı müəssisə dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs hüquqları əldə edir. Xarici investisiyalı müəssisələrin dövlət qeydiyyatına alınması haqqında məlumat vəkil edilmiş dövlət orqanının tutduğu respublika reyestrinə daxil edilir. Xarici investisiyalı müəssisəni dövlət qeydiyyatına almaqdan yalnız o halda imtina edilə bilər ki, belə müəssisənin yaradılması qaydası haqqında Azərbaycan Respublikasının qanunvericiliyi pozulmuş olsun, yaxud qeydiyyat üçün zəruri sənədlər müəyyən edilmiş tələblərə uyğun gəlməsin, habelə qarşıdakı fəaliyyət növləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan edilmiş

olsun. Dövlət qeydiyyatına almaqdan imtina olunduqda bu barədə Azərbaycan Respublikasında məhkəmə qaydasında şikayət oluna bilər. Bu prosedurlarda investorlara köməklik edən dövlət orqanı – Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyidir.

Azərbaycan iqtisadiyyatına cəlb olunan investisiyaların artırılması məqsədilə beynəlxalq iqtisadi təşkilatlarla və maliyyə qurumları ilə əməkdaşlıq ilbəil genişlənir ki, həmin təşkilata misal olaraq : BMT, Ümumdünya Ticarət Təşkilatı, Avropa İttifaqı, MDB, GUÖAM, İƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı, KfW Bankı, Beynəlxalq Maliyyə Korporasiyası və s.-in adlarını çəkmək olar.

Dövlət qeyri-neft sektorunun inkişafı prioritet istiqamətlərdən biri kimi, dövlət proqramlarını, o cümlədən "2014-2018-ci illər üzrə "Azərbaycan Respublikası Regionlarının Sosial–İqtisadi İnkişafının Dövlət Proqramı"nı, "Azərbaycan-2020 : gələcəyə baxış" inkişaf konsepsiyasını həyata keçirməklə bir daha ölkədəki investisiya mühitini yaxşılaşdıracaqdır.

Azərbaycan dövlətinin yürütdüyü məqsədyönlü iqtisadi siyasət nəticəsində əldə olunmuş bütün makroiqtisadi göstəricilər üzrə artım sözsüz ki, ölkədə həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələrin birbaşa təsiri ilə mümkün olmuşdur. Belə ki, ölkə iqtisadiyyatına yatırılan birbaşa xarici investisiyalar öz xüsusi çəkisi və yönəldiyi sahə üzrə formalaşdırdığı iqtisadi artım və onun müsbət əks effekti ilə xüsusi qeyd olunmalıdır.

Qeyd etmək lazımdır ki, xarici birbaşa investisiyalar anlayışına aydınlıq gətirmək lazımdır. Belə ki, Beynəlxalq Valyuta Fondunun metodikasına görə birbaşa xarici investisiyalar elə xarici investisiyalar hesab edilir ki, həmin investisiyaların həcmi, daha doğrusu, ümumi investisiya kütləsində xüsusi çəkisi investora iºtirak etdiyi investisiya prosesinin obyektinin fəaliyyətində mühüm qərarların qəbulunda iştirakına imkan verən səviyyədə olsun.

Xarici birbaşa investisiyaları xarakterizə edən ən məşhur tərif Ümumdünya Ticarət Təşkilatının (ÜTT) rəsmi sənədlərində qeyd edilən tərifdir: Birbaşa xarici investisiyalar o tip investisiyalardır ki, investor olan şəxs bir ölkənin rezidenti olmaqla öz aktivlərini başqa ölkədə o şərtlə yerləşdirir ki, həmin aktivlər üzərində tam nəzarət hüququnu özündə saxlamış olsun.

Birbaşa xarici investisiyaların reallaşması aşağıdakı formalarda həyata keçirilir:

Resipient ölkədə yerləşən şirkətin bir hissəsini əldə etmək yolu ilə;

Kapitalın "ana" şirkətdən resipient ölkədə yerləşən törəmə şirkətə ötürülməsi yolu ilə;

Törəmə şirkətlərin gəlirlərinin reinvestisiya edilməsi yolu ilə;

"Ana" şirkətlərin resipient ölkələrdə yerləşən törəmə şirkətlərinə uzun- müddətli və qısamüddətli borclar verməsi yolu ilə və s.

Təcrübədə birbaşa xarici investisiyaların digər reallaşma formalarına da rast gəlinir, lakin şəxsin ayrıca şəkildə digər ölkənin şirkətini alması və ya digər hərəkətləri kimi rast gəlinən hallar istisna kimi qəbul olunur. Belə ki, belə hallar dünya üzrə reallaşan birbaşa xarici investisiyaların ümumi həcminin cəmi 5%-ni təşkil edir.

Birbaşa xarici investisiyalara məxsus xarakterik xüsusiyyətləri əsasən bunlardan ibarətdir.

Birbaşa xarici investisiyaların həyata keçirilməsi ilə investor mövcud bazardan tezliklə çıxmaq imkanını praktiki olaraq itirir;

Portfel investisiyalarından fərqli olaraq investisiyaların böyük həcmi və risk dərəcəsinin böyüklüyü;

İnvestisiya qəbul edən ölkələrə əlverişli olan investisiya müddətinin böyük olması.

Son 20 il ərzində inkişaf edən ölkələrin iqtisadiyyatına cəlb edilmiş investisiyaların tərkibində birbaşa xarici investisiyaların xüsusi çəkisi artmaqdadır. Bu illər ərzində dünya ölkələri xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi məqsədi ilə investisiya mühitini yaxşılaşdırmaq məqsədi ilə bir çox islahatlar yerinə yetirdilər. Bunun nəticəsi kimi ötən illər ərzində birbaşa xarici investisiyaların həcmi dəfələrlə artdı. Belə ki, birbaşa xarici investisiyaların cəlb edilməsində iri və güclü iqtisadiyyatı olan ölkələr liderlik edir. Bu dediklərimiz dünya üzrə mövcud statistik göstəricilərdə öz əksini tapır. Belə ki, birbaşa xarici investisiyaların cəlb edilməsində ilk yerləri ABŞ və Böyük Britaniya bölüşür.

Xarici investisiyaları cəlb edən ölkələrdə iqtisadiyyatın statik inkişafı zaman keçdikcə dinamik inkişafla əvəz olunur. Bunun üçün həmin ölkələr hökmən öz qanunvericiliklərində xarici investisiyalar üçün elə mühit yaratmalıdırlar ki, cəlb olunmuş birbaşa xarici investisiyalar ölkə iqtisadiyyatının dinamik inkişafını təmin edən xarakterdə olsunlar. Bu zaman yalnız qanunvericilikdə yox, həm də xarici investisiya siyasətinin tənzimlənməsində köklü dəyişikliklər olmalıdır.

Ümumiyyətlə, birbaşa xarici investisiyaların ölkəsindən çıxarılmasını təmin edən dövlətlər, yəni donor ölkələr bunu öz ölkəsinə nisbətən daha çox gəlir əldə etmək məqsədi ilə edirlər.

Birbaşa xarici investisiyaları qəbul edən ölkələr, yəni resipient ölkələr bunu aşağıda qeyd olunan səbəblərə görə edirlər

Birbaşa xarici investisiyalar ölkə iqtisadiyyatına əlavə kapital axınını təmin edir, iqtisadiyyatın proporsiyalarının müsbət istiqamətdə dəyişməsinə təsir edir, sahibkarlıq və istehsalat sahəsində inkişaf templərini sürətləndirir;

Birbaşa xarici investisiyalar ölkəyə portfel, borc kapitalı kimi digər kapital axınlarının cəlb edilməsini stimullaşdırır;

Birbaşa xarici investisiyalar hesabına formalaşmış şirkətlər xarici ticarət axınlarının həcminin artmasını təmin edirlər;

Birbaşa xarici investisiyalar texnologiyaların axınını stimullaşdırır.

Birbaşa xarici investisiyalar həm donor ölkə üçün, həm də resipient ölkə üçün eyni zamanda əlverişli ola bilir. Keçid iqtisadiyyatlı ölkələrdə iqtisadi islahatların müsbət nəticələrindən biri kimi külli miqdarda birbaşa xarici investisiyaların cəlb edilməsi hesab edilir. Keçid iqtisadiyyatlı ölkələrdə əlverişli investisiya mühitnin yaradılması təkcə makroiqtisadi sabitliyə deyil, həm də institusional islahatların həyata keçirilməsinə imkanlar yaradır. Bu islahatlara özəlləşdirmə, struktur dəyişikliyi, hüquqi və vergi sisteminin islahatları aiddirlər.

Azərbaycan iqtisadiyyatına cəlb edilmiş birbaşa xarici investisiyaların həcmi ildən-ilə artır. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" sazişi Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiyaların axınına səbəb oldu. Bunun məntiqi davamı olaraq yuxarıda qeyd olunan multiplikator effektinə uyğun olaraq cəlb edilmiş xarici investisiyaların həcmi yüksələn xətlə artdı.

Xarici birbaşa investisiyaları həyata keçirən mühüm subyektlərdən biri transmilli korporasiyalardır. Onların son onilliklər ərzində dünya iqtisadiyyatında, dünya təsərrüfatının qloballaşmasında və həmçinin də kapitalın beynəlxalq hərəkatində rolu olduqca artmışdır. Bunu isbat etmək üçün saysız hesabsız statistik göstəriciləri misal kimi çəkə bilərik.

Azərbaycan Respublikasının iqtisadiyyatında yaranmış münbit investisiya mühiti xarici investorların ölkə iqtisadiyyatına marağını artırmışdır. Xüsusi olaraq transmilli şirkətlər yaranmış bu şəraitdən yararlanmaq niyyətindədirlər. Bu şərait Azərbaycan hökumətinin ardıcıl

surətdə yeritdiyi sistemli investisiya siyasətinin nəticəsidir. Azərbaycanın iqtisadi potensialı, məlum olduğu kimi əsasən yanacaq-energetika kompleksində daha çox təmərküzləşmişdir. Belə olan təqdirdə hökumət iqtisadiyyatdakı proporsiyaların qorunması və sabit iqtisadi inkişafa nail olmaqdan ötrü yanacaq-energetika kompleksi ilə yanaşı, digər sahələrə də investisiya yatırmaqla onların sabit inkişafını təmin etmək üçün gərəkən bütün addımları atmışdır. Bununla belə xarici investisiyaların respublika iqtisadiyyatının daha çox yanacaq energetika kompleksinə yönəldiyi məlumdur ki, son tarixi dövrdə bu sferada bağlanmış bir çox sazişlər bunu təsdiq edir. Ölkəyə cəlb olunan birbaşa xarici investisiyalar dövlət üçün xarici borc problemi yaratmır və əksinə, onun örtülməsi üçün əlavə vəsait mənbələri yaradır, istehsal və elmi-texniki kooperasiya vasitəsilə milli iqtisadiyyatın beynəlxalq təsərrüfata aktiv inteqrasiyasına münbit şərait yaradır. Bunun məntiqi davamı kimi ölkədə daxili kapital ehtiyatı artır və digər sahələrə kapital yatırmaq imkanı formalaşır.

Ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların kredit və ya qeyri-kredit investisiya olması xüsusi əhəmiyyət kəsb edir. Belə ki, aşağıdakı cədvəllərdən görünür ki, Azərbaycan iqtisadiyyatına yönəldilən investisiyaların ümumi tərkibində qeyri-kredit investisiyalar ümumi investisiyaların böyük bir hissəsini təşkil edir ki, bunlar da birbaşa investorlar tərəfindən konkret müəssisələrə qoyulmuşdur. Bu investorlar müəssisənin yaradılmasından hazır məhsulun istehsalının təşkil olunmasına qədər bütün istehsal prosesində birbaşa iştirak edirlər.

Qeyd etmək lazımdır ki, 2000–ci ildən bəri xarici maliyyə kreditlərinin ümumi xarici investisiyaların tərkibindəki xüsusi çəkisi 34.4%-dən yuxarı olmamışdır. Bu isə ölkə üzrə həyata keçirilən investisiyaların tərkibində olan kredit investisiyalarının xüsusi çəkisindən aşağıdır. Bu qeyd etdiklərimiz əvvəla ölkənin xarici kredit asılılığının aşağı olmasına dəlalət edir ki, bu da müsbət makroiqtisadi göstərici kimi qəbul oluna bilər.

Azərbaycan Respublikasının iqtisadiyyatına investisiya yatıran ölkələrə gəldikdə isə ən çox investisiya yatıran ölkələr ABŞ və Böyük Britaniyadır.

ABŞ və Böyük Britaniya tərəfindən yatırılan investisiya ümumi investisiyanın tərkibində təxminən yarıdan çoxu olmuşdur. Bu da onların əsasən ABŞ və Böyük Britaniya şirkətlərinin Azərbaycanın neft sektorundakı fəaliyyətləri ilə əlaqədardır. Digər ən böyük investor

ölkələr Türkiyə və Yaponiya və s.-lərdir. 90-cı illərdən bəri bu ölkələrdən yatırılan birbaşa investisiyaların ümumi investisiyaların tərkibindəki xüsusi çəkisi təxminən 30%-ə yaxın olmuşdur.

Azərbaycan Respublikasına cəlb edilmiş xarici investisiyaların həcm və strukturunun lazımi səviyyədə olması, yəni onun indiki dövr üçün qənaətbəxş olması hələ ona dəlalət etmir ki, hökumət həyata keçirə biləcəyi tədbirlər sayəsində daha yaxşı nəticələrə nail ola bilməz. Sözsüz ki, əldə olunmuş makroiqtisadi göstəriciləri daha üstün səviyyəyə yüksəltmək olar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Qeyri-neft sektorunun inkişafı turizm üçün həmişə prioritet olub. Bunun nəticəsidir ki, bu gün ölkə iqtisadiyyatı dünyada çoxşaxəli iqtisadiyyat kimi tanınır. Keçən il qeyri-neft sektoru 7 faiz, 2013-cü ildə isə 9% artmışdır."

Qeyd olunmalıdır ki, ölkədə formalaşan daxili resursların həcmi ölkədə mövcud iqtisadi vəziyyətin lazımi məcrada fəaliyyətinin təmin edilməsi, dünya təcrübəsini nəzərə alaraq təhlil etsək görərik ki, hələ öz maksimum həddinə çatmamışdır. Çünki indi dünyanın ən inkişaf etmiş ölkələri və ələlxüsus da ən dinamik iqtisadi inkişafa malik ölkələr öz iqtisadiyyatlarının inkişafını təmin etməkdən ötrü həm daxili investisiyalara, həm də xarici investisiyalara geniş yer verirlər. Belə ki, ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya və s. kimi inkişaf etmiş ölkələr dünya üzrə xarici investisiyaların ən böyük ixracatçıları olduqları kimi, həm də xarici investisiyaların ən böyük idxalçılarıdır.

Artıq son illərin statistik məlumatlarına əsasən belə bir mülahizə irəli sürə bilərik ki, Azərbaycan Respublikasına cəlb edilən xarici investisiyaların perspektiv inkişaf istiqaməti qeyri-neft sektoru ilə bağlıdır.

Belə ki, Azərbaycan iqtisadiyyatına 2004-2014-cü illərdə 180 milyard dollar investisiya qoyulmuşdur. İnvestisiyaların xeyli hissəsi qeyri-neft sektorunun inkişafına yönəldilmişdir.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatına yatırılmış investisiyaların yarıdan çoxu daxili investisiyalardır və bu investisiyaların əksər hissəsi, 60%-i infrastruktur layihələrinə, 20%-i isə sosial sahələrə yatırılmışdır. Bu layihələrin məqsədi ölkənin iqtisadi-sosial vəziyyətinin daha da yaxşılaşdırılmasıdır. Belə ki, Azərbaycan dövləti sosialyönümlü bazar iqtisadiyyatı qurmaqdadır. Bu ali iqtisadi-sosial məqsədə nail olmaqdan ötrü dövlət hökmən iqtisadiyyata külli miqdarda investisiya cəlb etməlidir. Bu yolda dövlətimiz uzun müddətdir ki, qəti, dü-

şünülmüş və sistemli addımlar atır. Son illərdə infrastruktur layihələrinə yatırılmış investisiyalar ona dəlalət edir ki, ölkədə iqtisadi inkişafı təmin etməkdən ötrü bizim iqtisadiyyat üçün yeni sahələrin inkişaf etməsinə və yeni-yeni istehsal və xidmət sahələrinin yaradılmasına imkan verən şərait formalaşdırmalıdır. Məlumdur ki, lazımi infrastruktursuz iqtisadi inkişafa nail olmaq mümkün deyildir.

Hazırda Azərbaycan iqtisadiyyatına cəlb olunan xarici investisiyaların perspektiv istiqamətləri məhz kənd təsərrüfatı, turizm, ixracyönümlü sənaye və ən yeni sənaye sahələri olacaqdır. Bu baxımdan aşağıdakı istiqamətlərdə xarici investisiyaların cəlb edilməsi Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyətlidir :

1. Turizm təsərrüfatı və müalicə-istirahət kompleksinin geniş miqyasda inkişafı üçün Azərbaycan Respublikasında hər cür təbii və iqtisadi potensial mövcuddur. Bu sahənin inkişaf etdirilməsi üçün onun kifayət qədər yerli əmək ehtiyatları da vardır. Turizm sənayesini başqa sahələrdən əsasən fərqləndirən cəhətlərdən biri də ona qoyulan vəsaitin tez bir zamanda böyük mənfəətlə geri qayıtmasıdır. Bu sahənin respublikamızda geniş miqyasda inkişafı üçün xeyli zəngin imkanlara malik olan müalicə-istirahət mərkəzlərinin yaradılması vacib məsələlərdən biri kimi qəbul olunmalıdır. Məhz buna görə də 2013-cü il ölkəmizin tarixinə "Turizm ili" kimi daxil olmuşdur. Bu sahədə ölkəmizdə böyük nailiyyətlərə nail olunmuşdur.

2. Kənd təsərrüfatının bir sahə kimi inkişaf etdirilməsi, onun sahə strukturunun təkmilləşdirilməsi üçün regionlarda kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeni sənaye mərkəzlərinin yaradılması tələb olunur. Bundan savayı, kənd təsərrüfatının spesifik cəhətlərini nəzərə alaraq kənd təsərrüfatı məhsullarının regionlarda tədarükü və satışı ilə məşğul olan müəssisələrin

yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, yığılan məhsulların müasir tələblər səviyyəsində saxlanılması məqsədi ilə müvafiq maddi-texniki bazanın yaradılması tələb olunur. Bölgələrdə kənd təsərrüfatı məhsullarının saxlanılması və satış bazarı infrastrukturunun təmin edilməsi, topdansatış xidmətinin genişləndirilməsi yolları ilə yanaşı, respublika daxilində aqroservis, toxuculuq, damazlıq, emal sənaye müəssisələrinin inkişafı və digər tədbirlərin həyata keçirilməsi ilə müşayiət olunan komplekt tədbirlər müasir dövrdə xarici investisiyalarsız qeyri-mümkün görünür. Bunun üçün ilk növbədə, yerli və xarici iş adamlarının bu sahəyə sərmayə yatırımları tələb olunur. Bu sahəyə

xarici investisiyaların cəlb edilməsi dövlətin bu sahədəki ağır iqtisadi yükünü azaltmış olar və bu sahədə müasir texnologiyaların ölkəyə cəlb edilməsi də əhəmiyyətlidir. Məhz buna görə də 2015-ci il ölkə tarixinə "Kənd təsərrüfatı ili" kimi daxil edilmişdır.

3. Elm və texnikanın ən son nailiyyətlərinin Azərbaycan Respublikası iqtisadiyyatına tətbiq edilməsi və yeni istehsal sahələrinin yaradılması və sənaye sektorunda yeni texnologiyaların tətbiqi, təsərrüfat sahələrində maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasında və rəqabətqabiliyyətli məhsul və xidmətlərin istehsalı ölkə iqtisadiyyatı üçün müstəsna əhəmiyyət kəsb edir. Bu kontekstdə ölkədə texnoparkların və xarici investorların vəsaiti hesabına güclü elmi-texniki bazanın yaradılması nəzərə alınmalıdır;

2014-cü il respublikada "Sənaye ili" elan edilib və uğurla həyata keçirilib. Belə ki, 2014-cü ildə regionlarda 105 sənaye müəssisəsi açılmışdır.Ümumilikdə "Sənaye ilində" görülən tədbirlər nəticəsində qeyri-neft sənayesi 9 % artmışdır. Sumqayıt Kimya Sənaye Parkında xarici və daxili infrastrukturun yaradılması işləri başa çatıb. Layihələr üzrə investisiya qoyuluşu 650 milyon manat təşkil edəcəkdir.

4. Sənaye şəhərciyinin yaradılması, xüsusilə Azad İqtisadi Zonaların təsis edilməsi istiqamətində fəaliyyəti sürətləndirmək lazımdır. Respublika ərazisində AİZ-ların yaradılması məsələsində ilkin variant kimi ölkənin kommunikasiya qovşaqlarından başlamaq lazımdır. Belə olan təqdirdə ölkə iqtisadiyyatına külli miqdarda xarici investisiya cəlb edilə bilər.

Lakin ölkəmizə cəlb edilən xarici investisiyaların həcmində və strukturunda istənilən dəyişiklıəri əldə etməkdən ötrü hökumət bəzi mühüm addımları atmalıdır. Belə mühüm sıçrayışlardan biri ölkənin ÜTT kimi beynəlxalq təşkilata üzv olmasını gerçəyə çevirməkdir. ÜTT-yə üzvlük ölkə iqtisadiyyatının üçün formalaşdırdığı imkanlar sırasında sözsüz ki, beynəlxalq investisiya axınının sürətlənməsi də vardır. Ona görə Azərbaycan hökumətinə yardım edəcək ABŞ və onun Ticarət və İnvestisiya İslahatlarına Dəstək Proqramında (TİRPS) Azərbaycan hökumətinə edilən yardımları göstərmək lazımdır.

Hal-hazırda respublikamızda qeyri-neft sektorunun yüksək inkişaf perspektivləri iqtisadiyyatın diversifikasiyası üçün başlıca stimullardan biridir və yeni strateji xətt sayəsində Azərbaycan yaxın onillikdə qeyri-neft məhsullarının ixracatçısı kimi dünyada böyük nüfuza

malik olmalıdır. Təbii ki, ilkin mərhələdə iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi üçün neftdən daxil olan vəsaitlərin həcmi xüsusi rol oynayacaq. Azərbaycan hökuməti zəngin neft resurslarının satışından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru böyük gəlirlər gətirə biləcək strateji bölməyə çevrilib. Həyata keçirilmiş məqsədyönlü investisiya proqramlarının icrası nəticəsində neftdənkənar sahələr valyutatutumlu olmaqla, gələcək iqtisadi inkişaf üçün dərin zəmin yaradır. XXI əsrin birinci onilliyində respublikamızın iqtisadi inkişafında neft gəlirləri başlıca valyuta mənbəyi olsa da, ikinci onillikdə qeyri-neft məhsullarının istehsalının və ixracının yüksəlməsi valyuta resurslarının strukturunun dəyişməsinə imkan yaratmalıdır. Yəni iqtisadiyyatda diversifikasiya siyasətinin həyata keçirilməsi yaxın illərdə öz mühüm bəhrəsini verməli və ölkəmizin sərmayə mənbələri sırasında qeyri-neft məhsulları xüsusi paya malik olmalıdır. Həmin perspektivli sahələr sırasında isə sənaye, informasiya-kommunikasiya texnologiyaları, beynəlxalq maliyyə bazarlarında idarəetməyə verilən qiymətli kağızlar, kənd təsərrüfatı, turizm və digər bölmələrin dinamikliyini göstərmək olar.

İqtisadiyyatın diversifikasiyası üçün yaradılmış əlverişli mühit, həyata keçirilən düşünülmüş iqtisadi siyasət, liberallaşmanın struktur və keyfiyyət baxımından dərinləşməsi, sahibkarlığa dövlət dəstəyinin artırılması, rəqabət qabiliyyətinin təmin olunması, ticarət qaydalarının və idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi, investorların hüquq və maraqlarının qorunması, vergi-gömrük və fiskal qanunvericiliyin təkmilləşdirilməsi və digər islahatlar Azərbaycanın uzunmüddətli dinamik inkişafına baza yaradacaqdır. Bu tədbirlərin həyata keçirilməsi birbaşa olaraq xarici investisiyalar vasitəsi ilə mümkün olacaqdır. Belə ki, birbaşa xarici investisiyaların rolu bu vəzifəni həyata keçirməkdə müstəsna rola malikdir.

# IV FƏSİL

# QEYRİ-NEFT SEKTORUNA İNVESTİSİYA QOYULUŞU VƏ ONUN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

*"Uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyatımız dayanıqlı surətdə inkişaf etsin, bir sektordan- neft-qaz sektorundan asılı olmasın. Budur, Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını göstərir."*

***İlham Əliyev***

## 1.Azərbaycanın qeyri-neft sektoruna investisiya qoyuluşunun mövcud durumu və onun qiymətləndirilməsi

Dünya təsərrüfat sisteminin müasir inkişafı beynəlxalq ticarətin daha da genişlənməsini və inkişafını, onun liberallaşdırılmasını, ölkələr arasında ticarət-iqtisadi əlaqələrin ildən-ilə həm coğrafi, həm də əmtəə strukturu baxımından dinamik şəkildə dəyişilməsini özündə təcəssüm etdirir. Bu işdə ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsi mühüm rol oynayır.

Hazırkı dövrdə qloballaşma proseslərinin dərinləşməsi şəraitində inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatına inteqrasiyası getdikcə genişlənməkdədir. Artıq kifayət sayda inkişaf etməkdə olan ölkələr həm iqtisadi artım sürətləri, həm həyat səviyyəsi, həm də milli iqtisadiyyatın texnoloji-struktur göstəriciləri, dünya ticarətində və investisiya axınlarındakı roluna görə inkişaf etmiş qabaqcıl ölkələrin səviyyəsinə çatmaqdadırlar.

Dünyanın belə ölkələrində iqtisadiyyat faktiki olaraq iki sektora bölünür. Bunlardan biri dünya bazarının tələb-təklifinə uyğun sürətdə artan, böyük gəlir əldə edən xammal hasilatı və ona xidmət edən alt sahələrdən ibarətdir. Digəri isə köhnə texnologiya ilə işləyən, dünya bazarına çıxmaq imkanları olmayan və ya çox məhdud olan, hətta ölkə

daxilində xarici malların rəqabətinə tab gətirə bilməyən qeyri-xammal, yəni emal sektorudur. Beləliklə, ölkə daxilində iqtisadi inkişafda mövqeyinə görə və inkişaf sürəti fərqli olan iki sektor yaranır. Dünya ölkələrinin təcrübəsi göstərir ki, müəyyən dövr ərzində iqtisadiyyatın bu şəkildə sektorlaşmasının qarşısı alınmazsa tənəzzül prosesindən yan keçmək mümkün olmur.

Dünya iqtisadiyyatına inteqrasiya proseslərinin sürətlənməsi, xarici-iqtisadi əlaqələrin genişlənməsi milli iqtisadiyyatımızı dünya iqtisadiyyatının ayrılmaz bir hissəsinə çevirməkdədir. Azərbaycanın neft və qeyri-neft sektorunun müqayisəli üstünlüklərə malik olduğu sahələrdə ixtisaslaşması, bu sektorlarda beynəlxalq rəqabətədavamlı ixrac məhsulları istehsal etməsi, xarici ticarət strategiyasının milli iqtisadi inkişafa xidmət edəcək şəkildə qurulması müasir dövrün ən aktual problemlərindən birinə çevrilmişdir.

Hazırda ölkənin ixracının 90-95 faizini neft və neft məhsulları təşkil edir. Bundan başqa qarşıdakı illərdə təbii qaz ixracının da sürətlə artacağı gözlənilir. Azərbaycanın irihəcmli karbohidrogen ixracatçısına çevrilməsi, bu sahədən böyük məbləğdə valyuta ehtiyatlarının daxil olması digər bir sıra neft ixracatçısı ölkələrində müşahidə edilmiş mənfi tendensiyaların, xüsusilə də iqtisadiyyatın digər real sektorlarının ixrac potensialının azalması təhlükəsinin sığortalanmısı üçün dərin elmi araşdırmalara əsaslanan iqtisadi siyasətin gerçəkləşdirilməsini zəruri edib. Həm beynəlxalq təcrübə, həm dövlətin formalaşdırdığı iqtisadi strategiya neft ixracından daxil olan valyuta ehtiyatlarının səmərəli istifadəsinin prioriteti kimi qeyri-neft sektorlarının inkişaf etdirilməsinin, bu sahələrin ixrac potensialının yüksəldilməsinin zruri olduğunu göstərir. Bu gün elmi tədqiqatçıları daha çox düşündürən, dərin elmi müzakirə və mübahisələrin predmeti olan məsələ də məhz bunun necə və hansı yollarla həyata keçirilməsidir.

Yuxarıda qeyd edilənlər göstərir ki, müasir iqtisadi inteqrasiyalar şəraitində, Azərbaycanın iri karbohidrogen ixracatçısına çevrilməsi fonunda, həmçinin hazırda dünya iqtisadiyyatında müşahidə edilən qlobal iqtisadi böhran şəraitində ölkənin qeyri-neft sektorunun inkişafına yönəldilmiş daxili və xarici investisiyaların tənzimlənməsi problemlərinin tədqiq olunması və həmin investisiyaların səmərəli istifadə istiqamətlərinin müəyyənləşdirilməsi olduqca aktualdır.

Respublika iqtisadiyyatında real sektorun təşəkkülünün təmin olunması üçün xarici və daxili pul axınlarının səmərəli bazar idarəet-

məsinin istisnalıq təşkil etməsi investisiya fəaliyyətinin tənzimlənməsində dövlətin iştirak dərəcəsinin artırılması zəruriliyini müəyyən edir.

İnvestisiyaya dövlətin təsiri, həm də maliyyə və kredit siyasətinin, qiymətəmələgəlmə siyasətinin, amortizasiya siyasətinin aparılmasında ifadə olunur. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsinin forma və metodlarına antiinhisar tədbirlərini, dövlət mülkiyyətinin, o cümlədən bitməmiş tikintinin özəlləşdirilməsini aid etmək lazımdır. Şübhəsiz ki, dövlət idarəetməsi Azərbaycanın istehsal və potensialının struktur cəhətdən yenidən qurulmasının ən mühüm vasitəsi olaraq qalmalıdır. Respublikamızda aparılan dövlətin investisiya siyasətinin mahiyyəti ondan ibarətdir ki, tələb edilən investisiyaların maliyyələşdirilməsi özəl qurumların, əsasən də xarici investisiyaların cəlb olunması yolu ilə həyata keçirilir.

Tədqiqatlar göstərir ki, iqtisadi islahatların keçən dövründə dövlət ölkə iqtisadiyyatına investisiyanı stimullaşdırmaq məqsədilə aşağıdakı istiqamətlərdə

tədbirlər həyata keçirmişdir:

- Dövlət büdcəsinə borcu olan özəlləşdirilmiş dövlət müəssisələrinin borclarının silinməsi və ya onların güzəştli ödənilməsi yolu ilə təsərrüfat subyektlərinin maliyyə cəhətdən sağlamlaşdırılması;
- Özəlləşdirmə prosesində dövlət müəssisələrinin investisiya münasibətləri vasitəsilə satılması və uzunmüddətli idarəetməyə verilməsi;
- Aqrar sahənin istehsalçılarına və neft hasilatında işləyən xarici podratçılara vergi qanunvericiliyində güzəştlərin verilməsi.

Respublikada investisiya fəallığını yüksəltmək məqsədilə dövlət bir sıra mühüm tədbirlər həyata keçirmişdir:

İnvestisiya fəaliyyəti üzrə hüquqi-normativ bazanı formalaşdırmaq məqsədilə 1992-ci ildə "Xarici investisiyanın qorunması haqqında" və 1995-ci ildə "İnvestisiya fəaliyyəti haqqında" qanunlar qəbul edilmişdir. Həmin qanunlarda ölkə iqtisadiyyatına investisiyaların intensiv surətdə cəlb olunması mexanizmi və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsi təsbit olunur.

Dövlətin vergi siyasətində neft sektorunun inkişafı məqsədilə xarici investorların cəlb edilməsi diqqət mərkəzində saxlanılır. Respublika qanunvericiliyinə görə, respublikanın hüquqları daxilində neft müqavilələrində iştirak edən xarici subpodratçı təşkilatlar əldə etdikləri gəlirlərin qanunvericiliklə təsbit olunan 25%-ni deyil, yalnız 5-8%-i həcmində mənfəət vergisi ödəyirlər.

Vergi dərəcələri müəyyən qədər azaldılmışdır. Hazırda mənfəət vergisinin dərəcəsi 22% və əlavə dəyər vergisi 18% səviyyəsində təsdiq edilib.

İnvestisiya fəallığını artırmaq məqsədilə yeni gömrük tarifləri müəyyən edilmişdir. Azərbaycanda istehsal olunmayan xammal və materiallar üzrə gömrük tarifləri ləğv edilmişdir. Respublika daxilində istehsal olunan bu cür materiallar üçün isə gömrük tarifləri 15%-dən yuxarı olmaqla, istehsalçıların daxili bazar tələbatını təmin edə bilmək qabiliyyətindən asılı olaraq diferensiallaşdırılmış həcmdə təyin edilir.

İnvestisiya prosesinin idarə edilməsi yenidən qurulmuşdur. Belə ki, yeni təşkilati-hüquqi formalar və iqtisadi mexanizmlər yaradılmışdır. Hazırda büdcə vəsaiti hesabına tikinti işləri dövlət tərəfindən keçirilən tenderlər vasitəsilə bölüşdürülür.

Aqrar sahə məhsullarını istehsal edən müəssisələrə dövlət tərəfindən əhəmiyyətli güzəştlər verilmişdir. Belə ki, həmin müəssisələr torpaq vergisi istisna olmaqla, 2009-cu ilə qədər bütün növ vergilərdən azad edilmişlər. Hesab edirik ki, ölkədə investisiya potensialının formalaşması və səmərəli istifadəsində dövlətin nəzərdə tutduğu prioritet istiqamətlər kimi hesab edilməlidir.

Azərbaycana zəruri həcmdə investisiyaların cəlb olunması, onların ölkə iqtisadiyyatı üçün səmərəli istifadəsi. Bu, ölkə iqtisadiyyatının struktur cəhətdən yenidən qurulması və innovasiya tipli inkişafa keçməsi üçün son dərəcə vacibdir. Belə ki, bu məqsədlə investisiya üçün potensial mənbələrin genişləndirilməsi, yığımın investisiyaya çevrilməsini stimullaşdıran şəraitin yaradılması, büdcə vəsaitlərinin səmərəli istifadəsi üçün müxtəlif səviyyələrdə məqsədli proqramların tətbiqi olduqca vacibdir.

Bundan əlavə, yerli təşəbbüslər əsasında dövlət regional investisiya siyasətinin köməyi ilə investisiyaların, bütün yerli şərait kompleksi nəzərə alınmaqla, hər şeydən əvvəl, regional iqtisadiyyatın prioritet sahələri sferasına cəlb olunması mexanizmlərinin formalaşdırılması; iqtisadiyyatın prioritet sahələrinin bütün sferalarında rəqabət mühitinin yaradılması və korporasiyaların investisiya aktivliyinin fəallaşdırılmasına dövlətin köməklik göstərməsi və s. tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Dövlətin investisiya potensialının formalaşması və səmərəli istifadəsində əsas vəzifələr bunlardır:

- İnkişaf büdcəsinin və bütövlükdə iqtisadiyyatın prioritet sahələrinə məqsədyönlü dövlət maliyyə-kredit köməyinin göstərilməsini təmin edən büdcənin formalaşdırılması;

- Respublikanın bütün ərazi-inzibati vahidlərində iqtisadiyyatın prioritet sahələrinin müəssisələrinə maliyyə-kredit köməyinin göstərilməsini təmin edən zəruri və kifayət dərəcədə məqbul infrastrukturun yaradılması;

- Əlverişli investisiya mühitinin yaradılması üzrə tədbirlərin fəallaşdırılması hesabına xarici investorların inamının bərpası;

- Müəssisənin və əhalinin sərbəst vəsaitlərinin investisiya məqsədləri üçün səfərbər olunması;

- Prioritet sahələrdə investisiya layihələrinə dövlətin köməklik tədbirləri üzrə diferensiallaşdırılması sisteminin hazırlanması və tədqiqi;

-Perspektiv investisiya layihələrinin reallaşması zamanı onların birgə investisiyalaşmasının yeni formalarının axtarışı;

- Respublika iqtisadiyyatın prioritet sahələrinin məhsullarına artan tələbin, şəraitin formalaşdırılması;

-İnvestisiyaların həcmindən, investisiya layihəsinin ödəmə müddətindən, investisiya layihəsinin həyata keçirildiyi sahənin və regionun prioritetliyindən asılı olaraq vergi stimullaşdırılması və dövlət zəmanəti verilməsi siyasətinin aparılması.

Qeyd etmək lazımdır ki, respublikamızda elmtutumlu, yüksək texnologiyaların tətbiqi sahələrinin inkişafına yönəldilən investisiyaların stimullaşdırılması olduqca vacibdir:

-Xarici investisiyaların respublika iqtisadiyyatına cəlb olunması və onun ölkə iqtisadiyyatının neft-qaz sektoru ilə yanaşı, qeyri-neft sektorlarına yönəldilməsi stimullaşdırılmalı və normal mühit yaradılmalıdır;

- Yerli investisiyaların istehsala axını və bu zəmin əsasında yerli istehsalın inkişafı stimullaşdırılmalı, yerli istehsalçıların mənafeyi elə qorunmalıdır ki, onlar xarici istehsalçılarla rəqabətə girə bilsinlər və rəqabətqabiliyyətli məhsul istehsal etsinlər;

- İxrac potensialını artıran xarici bazarlara məhsul çıxaracaq müəssisələrə prioritet sahələr kimi investisiya qoyuluşu stimullaşdırılmalı və tənzimlənməlidir;

-Qanunvericilik aktları və qərarların qəbulu zamanı aqrar sahənin baza sahələrinin üstün sürətlə inkişafına nail olmaq üçün həmin sahələrin inkişaf etdirilməsinə yönəldilən investisiyalar stimullaşdırılmalıdır;

- Respublika iqtisadiyyatının inkişaf etdirilməsində xarici birbaşa investisiyalar daha çox stimullaşdırılmalıdır. Belə ki, xarici borclar və kreditlərlə müqayisədə onlar yeni texnologiyaların, yeni idarəçilik me-

tod və üsullarının tətbiqi üçün geniş imkanlar açır. Birbaşa investisiyalar xarici borcları artırmır, əksinə istehsalda mənfəətin artmasına, milli iqtisadiyyatın dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına, istehsal və elmi-texniki əməkdaşlıq vasitəsilə xarici əlaqələrin genişləndirilməsinə şərait yaradır;

- İnvestisiya qoyuluşunun səmərəliliyi bilavasitə intensiv qoyuluşlarla əlaqədar olduğundan, onlar daha çox stimullaşdırılmalıdır, belə ki, mütərəqqi texnika və texnologiya hesabına artan istehsal aparatı əmək məhsuldarlığını yüksəldir.

Bu məqsədlə yaxın perspektiv üçün dövlətin investisiyaları (daxili və xarici) stimullaşdırması məsələsi önəmli əhəmiyyət kəsb edir.

- Müəssisə, firma və şirkətlərin investisiya qoyuluşlarının həcminin mənfəət və amortizasiya ayırmaları hesabına artırılması;

- Dövlətin iri infrastruktur obyektlərinin əsaslı tikintilərinin büdcə maliyyələşdirilməsi həcmlərinin artırılması vasitəsilə investisiya prosesinin fəallaşmasına təsirinin güclənməsi və investisiyaların büdcə maliyyələşdirilməsinin

kredit əsaslarının işə salınması;

- Dövlət və kommersiya banklarının uzunmüddətli kreditlərinin cəlb edilməsi üçün şəraitin yaradılması, investisiya və innovasiya fondlarının fəaliyyətinin qaydaya salınması;

- Fond bazarında və əhalinin əmanətləri hesabına formalaşan investisiya resurslarının stimullaşdırılması;

- Yerli və xarici investisiya qoyuluşlarının risklərinin iqtisadi sığorta mexanizmlərinin tətbiqi;

- Sənaye və bank kapitalının inteqrasiyası, iqtisadiyyatın prioritet sahələrində səmərəli investisiya layihələri üzrə vəsaitlərin səfərbər edilməsi üçün müvafiq institusional təşkilatların fəaliyyətinin gücləndirilməsi;

- Təsərrüfat subyektləri arasında, yerli və respublika strukturları arasında mülkiyyətin dəqiq müəyyən edilməsi.

Qeyri-neft sektorunda qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı tədbirləri həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- Rəqabətqabiliyyətli məhsul istehsalı üzrə sahələrin prioritet inkişafı hesabına tədiyə balansının yaxşılaşdırılması, istehsalın resurs tutumunun aşağı düşməsinin stimullaşdırılması;

- Qeyri-neft sektorunda yeni iş yerlərinin, rəqabətqabiliyyətli istehsal və sahələrin yaradılması yolu ilə işsizliyin qarşısının alınması;

- Təbii resurslardan istehsalatda səmərəli istifadə üçün təşkilati-iqtisadi şəraitin yaradılması;

- Milli gəlirlərin bölgüsündə istehsal yığımının payının artırılması, elmi-texniki tərəqqinin tələblərinin nəzərə alınması ilə iqtisadiyyatın yenidən strukturlaşdırılması.

Respublikanın qeyri-neft sektorunda aparılan islahatların tələblərinə uyğun olaraq dövlətin formalaşan struktur-investisiya proqramlarının aşağıdakı əsas istiqamətlərdə stimullaşdırılmasını məqsədəuyğun hesab edirik;

- Respublikada xidmət sahələrinin, o cümlədən, ənənəvi, yeni informasiya, elmi-texniki kommunikasiya sahələrinin inkişafına daha çox üstünlük verilməsi;

- İstehsal, bazar və sosial infrastrukturun muasir standartlara uyğun formalaşdırılması və inkişafı;

- Kənd təsərrüfatı və ona xidmət edən sahələrdə muasir tələblərə cavab verən yeni texnologiyaların tətbiqi, kadr hazırlığı və kənddə sosial infrastrukturun inkişafı;

- Qeyri-neft sektorunda istehsalın resurs tutumunun aşağı salınması;

- Qeyri-neft sektorunda rəqabətqabiliyyətli ixracı əvəz edən istehsal sahələrinin inkişafı, elmi-texniki tərəqqinin nailiyyətlərinə əsaslanan texnologiyanın yaradılması və inkişafı.

Respublikada iqtisadi artımın təmin edilməsinin mühüm şərti iqtisadiyyatda əlverişli investisiya mühitinin formalaşması və onun stimullaşdırılmasına təsir edən aşağıdakı amillərin nəzərə alınması olduqca vacibdir. Belə ki, rəqabət- qabiliyyətli məhsul istehsalına əsaslanaraq istehsalın sabitləşməsi və sonrakı inkişafının təmin edilməsi;

- Tədiyə intizamının normallaşdırılması üzrə kompleks tədbirlərin həyata keçirilməsi və respublika və yerli büdcələrin məsuliyyət sahəsinin dəqiq məhdudlaşdırılmasının təmin edilməsi.

Bundan əlavə, inflyasiyanın surətinin və real bank faiz dərəcələrinin kütləvi surətdə investisiyaları stimullaşdıran səviyyəyə qədər aşağı salınması fond bazarlarında sektorların maraqlarının şüurlu balansını təmin edən ölçüb-biçilmiş investisiya siyasətinin həyata keçirilməsi, əsas kapitalın artırılmasına kömək edən əlverişli vergi rejiminin yaradılması və xüsusi investora dövlət üçün prioritet olan investisiya istiqamətlərində verilən dövlət təminatları sisteminin inkişafı hesabına investisiyaların iqtisadiyyatın real sektoruna stimullaşdırılmasının nəzə-

rə alınması olduqca vacibdir. Qeyd etmək lazımdır ki, investisiya mühit - investisiyalaşma obyektinin investisiya cəlbediciliyinə təsir göstərən müxtəlif makro, mezo və mikro xarakteristikalarının məcmusudur. Burada investisiyalaşma obyekti kimi həm ayrıca investisiya-innovasiya layihəsi, həm də müəssisə, korporasiya, şəhər, region, sahə, dövlət, eləcə də iqtisadi sistemin, onun investisiya potensialını və investorların fəaliyyət şərtlərini xarakterizə edən investisiya fəaliyyətinin inkişafına və genişlənməsinə obyektiv imkanın inikası çıxış edir.

İnvestisiya mühiti dedikdə, investisiya fəaliyyətinin bir-birilə qarşılıqlı əlaqədar olan proseslərinin və şərtlər məcmusunun geniş dairəsinin təsiri altında formalaşan münasibətlər sistemi başa düşülür.

İnvestisiya cəlbediciliyinin digər tərkib hissəsi investisiya potensialı sayılır ki, bu da müxtəlif özəl potensiallardan: resurs-xammal, istehsal, innovasiya, institusional, infrastruktur, maliyyə, istehlak və əmək potensiallarından təşkil olunur.

Dünya ölkələri təcrübəsində investisiya cəlbediciliyinin idarə edilməsinə iki əsas yanaşma mövcuddur. Birinci yanaşma zamanı investisiya cəlbediciliyinin idarə edilməsi yalnız müəssisə aktivlərinin formalaşması və istifadə edilməsi, eləcə də investisiya portfelinin qiymətləndirilməsi ilə əlaqələndirilir. İkinci yanaşma fəaliyyət növləri üzrə əməliyyat, investisiya və maliyyə əməliyyatları üzrə: pul axınlarının idarə edilməsini nəzərdə tutur ki, bu da bütövlükdə investisiya cəlbediciliyinin formalaşmasına təsir göstərməyə imkan verir.

## 2. Qeyri-neft sektoruna dövlət investisiyaları

Xarici investisiyaların Azərbaycan iqtisadiyyatına axınına maksimal şərait yaradan xarici iqtisadi siyasətin aparılması həyati əhəmiyyət kəsb edən məsələlərdəndir. İxrac qaydası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən ölkənin intensiv inkişafı üçün tələb olunan investisiyaların həcmi ilə müəyyən edilir. Təkcə kənd təsərrüfatı və emaledici sənaye sahəsində, yəni neftlə əlaqədar olmayan sahələrdə onların həcmi xeyli vəsait tələb edir. Azərbaycan, ona lazım olan bir neçə on milyard dollar birbaşa investisiyalar əldə etmək üçün gərək birbaşa investisiyalar bazarının dar seqmentində daha əlverişli investisiya iqliminə malik olan ölkələrlə rəqabət aparsın. Bu ölkələr aktiv şəkildə investisiya həcminin liberallaşdırılması siyasətinin həyata keçirirlər. Azərbaycanda aparılan uğurlu islahatlar respublikamızda əlverişli investisiya

iqliminin yaradılmasına səbəb olmuşdur. Bu istiqamətdə Azərbaycan üçün də əlverişli siyasi, iqtisadi, hüquqi, sosial və digər şərait yaratmağa kömək edən kompleks tədbirlər sistemi işlənib hazırlanıb və həyata keçirilir.

Azərbaycanda olan əlverişli investisiya mühitinə təsir edən obyektiv və subyektiv amilləri 3 qrupda birləşdirmək olar: a) sosial-siyasi vəziyyət; b) iqtisadi vəziyyət; c) hüquqi təminat.

Sosial-siyasi vəziyyət dedikdə, xarici investorun nöqteyi-nəzərindən ölkədəki siyasi duruş, onun stabilliyi başa düşülür.

İqtisadi vəziyyət isə aşağıdakıları əhatə edir: iqtisadi inkişaf səviyyəsi, investisiya güzəştlərinin əldə olunması imkanları, ssuda kapitalı bazarının mövcudluğu və s.

Qeyd etmək lazımdır ki, investisiya prosesi yeni anlayış olduğundan ölkəmizdə investisiya fəaliyyəti sahəsində qanunvericilik bazasının işlənib hazırlanması, hüquqi təminatın verilməsi problemləri vaxtaşırı olaraq təkmilləşdirilir.

Qeyd etmək lazımdır ki, Yaponiya, İspaniya, Kanada istisna olmaqla, İEO-nin bəzilərində xarici investisiyalar haqqında ayrıca qanun yoxdur. Bu ölkələrdə investisiyalar ümumi qanunlar çərçivəsində tənzimlənir. Lakin Azərbaycanda bu sahəni tənzim edən kifayət qədər qanun və normativ aktları mövcuddur. Əgər xarici investor üçün ölkə daxilində əlverişli mühit yaradılarsa, yalnız bu şərt daxilində xarici investisiyalar milli iqtisadiyyatın inkişafına kömək edə bilərlər.

Azərbaycan Respublikasında illərlə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənmiş, valyuta ehtiyatlarının səmərəli idarə edilməsi və milli valyutanın sabitliyi təmin olunmuş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, biznes mühiti daha da yaxşılaşmışdır. Bütün bunlar əsası Ümümmilli Liderimiz tərəfindən qoyulmuş və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük inamla davam etdirdiyi uğurlu iqtisadi siyasətinməntiqi nəticəsidir. 2012-ci ildə ümumi daxili məhsulun artımı 2,2%, onun adambaşına düşən həcmi 5884,5 manat (7490,5 ABŞ dolları) təşkil etmiş, ÜDM-nun artımı qeyri-neft sektoru hesabına təmin olunmuşdur. Ötən il qeyri-neft sektoru üzrə artım 9,7% olmuş və bu sahənin ÜDM-da payı artaraq 52,7%-ə çatmışdır. Orta illik inflyasiya 1,1%, ölkənin strateji valyuta ehtiyatları 46 mlrd. ABŞ dolları təşkil etmişdir. Son illər ölkəmizdəki davamlı inkişaf, iri regional və beynəlxalq layihələrin hə-

yata keçirilməsi, müxtəlif infrastruktur layihələrinin icrası Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu üçün əlverişli şərait yaratmış, ölkəmiz investorlar üçün daha cəlbedici etmişdir. 2012-ci ildə 13,3 milyard dolları daxili və 8,8 milyard dolları xarici olmaqla ölkə iqtisadiyyatına 22,1 milyard ABŞ dolları həcmində investisiya yatırılmışdır. Azərbaycan iqtisadiyyatının sürətli inkişafı ölkənin maliyyə ehtiyatlarının artmasına səbəb olmuş, bu isə öz növbəsində xarici ölkələrə sərmayə qoyuluşu üçün əlverişli şərait yaratmışdır. Təsadüfi deyildir ki, artıq Azərbaycan sərmayədar ölkə kimi tanınır. Hazırda Azərbaycanın dövlət və özəl şirkətləri xarici ölkələrdə neft-kimya, qaz, yol və digər layihələrdə uğurla iştirak edir, xaricdə yatırılan investisiyaların dinamikasında müsbət irəliləyiş müşahidə olunur. Beləliklə, Azərbaycan Respublikası Prezidentinin uzaqgörən və çevik siyasəti nəticəsində ölkə iqtisadiyyatı 2012-ci ildə də mənfi xarici iqtisadi təsirlərə dayanıqlılıq nümayiş etdirmiş, iqtisadi artımın davamlılığı təmin olunmuşdur. Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramının icrası davam etdirilmiş, quşçuluq, heyvandarlıq, taxılçılıq, üzümçülük təsərrüfatları, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və emalı kompleksləri, aqroservislər yaradılmış, su təminatı və meliorativ tədbirlər görülmüş, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal artmış, mövsümlə əlaqədar istehlak qiymətləri kəskin dəyişməmiş və bu sahədə sabitliyə nail olunmuşdur. Ötən il məqsədyönlü dövlət proqramları çərçivəsində iqtisadiyyatın diversifikasiyası, regionların və Bakı qəsəbələrinin inkişafı, yeni istehsal və emal müəssisələrinin yaradılması və mövcud istehsal sahələrinin genişləndirilməsi, ixracyönümlü məhsul istehsalının artırılması, məşğulluğun səviyyəsinin yüksəldilməsi istiqamətində ciddi irəliləyişlərə nail olunmuşdur. Bakı şəhəri, ətraf kənd və qəsəbələrdə sahibkarlığın inkişafına həsr olunmuş tədbirlərin keçirilməsi, sahibkarlara maarifləndirici treninqlərin təşkil edilməsi, sahibkarlığın informasiya təminatının gücləndirilməsi, müasir texnologiyaların tətbiqini, rəqabətqabiliyyətli, xüsusilə ixracyönümlü və idxalı əvəzləyici məhsulların istehsalını və emalını nəzərdə tutan, eləcə də bu sahələrin inkişafını stimullaşdıran infrastruktur layihələrinin maliyyələşdirilməsi istiqamətində 2012-ci ildə də uğurlu fəaliyyətini davam etdirmişdir. “Sahibkarlığın inkişafına dövlət dəstəyi” çərçivəsində sahibkarların maarifləndirilməsi istiqamətində müvafiq təşviqat işlərinin aparılması, xüsüsi ilə respublikanın regionlarında və Bakı şəhəri, ətraf kənd və qəsəbələrdə “Sahibkarlığın

inkişafına dövlət dəstəyi” çərçivəsində keçirilmiş tədbirlərdə iqtisadiyyatın müxtəlif sahələri üzrə hazırlanmış nümunəvi investisiya layihələrinin təqdimatının keçirilməsi və həmin nümunəvi layihələrin sahibkarlara təqdim edilməsi kreditlərin daha da səmərəli istifadəsinə stimul yaratmış, eyni zamanda, güzəştli kreditlərə olan tələbatın artmasına təsir göstərmişdir. Sahibkarlığın inkişafına dövlət dəstəyini həyata keçirən Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına verilən güzəştli kreditlər Dövlət başçısının fərman və sərəncamlarında, dövlət proqramlarında müəyyən edilmiş, ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun olaraq qeyri-neft sektorunun və regionların tarazlı inkişafı, sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın dəstəklənməsi, yoxsulluğun azaldılması, məşğulluğun təmin edilməsi ilə bilavasitə əlaqəli olan sahələrdə dinamik iqtisadi inkişafın təmin edilməsinə yönəldilir. İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2012-ci ildə 2419 sahibkarlıq subyektinə 218 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 9100-dək yeni iş yerinin yaradılması təmin olunmuşdur. Güzəştli kreditlərin 68.1%-i aqrar sektorun, 31.8%-i müxtəlif sənaye məhsullarının istehsalı və emalına, 0.1%-i isə turizmin inkişafına verilmişdir. Verilmiş kreditlərin 83%-i Respublikanın regionlarının, 17%-i isə Bakı şəhəri, kənd və qəsəbələrinin payına düşür. 2011-ci illə müqayisədə layihələrin sayı 47.2%, güzəştli kreditlərin məbləği 58%, yeni iş yerlərinin sayı isə 40.2% artmışdır.

2012-ci ildə İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditlərini almaq məqsədilə sahibkarlıq subyektləri tərəfindən 38 müvəkkil kredit təşkilatına ümumilikdə 2602 müraciət daxil olmuşdur. Müvəkkil kredit təşkilatları tərəfindən müraciətlərin 2579-u müsbət qiymətləndirilmiş, 23 müraciətə isə sahibkarın rentabelli biznesinin, ödəmə qabiliyyətinin, likvizid girovunun, fəaliyyət üçün müvafiq şəraitinin olmaması, eləcə də Fondun Qaydalarına uyğunsuzluq (kredit tələbatının güzəştli kreditin minimal məbləğindən aşağı olması) səbəblərindən imtina edilmişdir. Müraciətlər üzrə ümumi kredit tələbatı 241 719.5 min manat, o cümlədən müsbət qiymətləndirilmiş müraciətlər üzrə 239 356.5 min manat, imtina olunmuş müraciətlər üzrə 2363 min manat olmuşdur. 2012-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələş-

dirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına Aran iqtisadi rayonu üzrə 1 108, Gəncə-Qazax iqtisadi rayonu üzrə 445, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 161, Lənkəran iqtisadi rayonu üzrə 195, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 170, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 147, Abşeron iqtisadi rayonu üzrə 81, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 72 və Bakı şəhəri, ətraf kənd və qəsəbələri üzrə 223 müraciət daxil olmuşdur. 2012-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına müraciət etmiş sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli kredit tələbatı 241 719.5 min manat, o cümlədən Aran iqtisadi rayonu üzrə 78 268.4 min manat (32.4%), Abşeron iqtisadi rayonu üzrə 31024 min manat (12.8%), Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 863.5 min manat (0.4%), Şəki-Zaqatala iqtisadi rayonu üzrə 16 520 min manat (6.8%), Lənkəran iqtisadi rayonu üzrə 9 043.6 min manat (3.7%), Quba-Xaçmaz iqtisadi rayonu üzrə 23 643.5 min manat (9.8%), Gəncə-Qazax iqtisadi rayonu üzrə 16 850.9 min manat (7%), Dağlıq Şirvan iqtisadi rayonu üzrə 4 402.8 min manat (1.8%) və Bakı şəhəri, ətraf kənd və qəsəbələri üzrə 61 102.7 min manat (25.3%) təşkil etmişdir. 2012-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına müraciət etmiş sahibkarlıq subyektlərinin investisiya layihələrinin 2450-si (94%) aqrar sektorun inkişafı (kredit tələbatı 165 403 min manat), 152-si (6%) digər sənaye və turizmin (kredit tələbatı 76 316.5 min manat) inkişafı sahələrini əhatə etmişdir. 2012-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına müraciət etmiş sahibkarlıq subyektlərinin investisiya layihələrinin sayı ötən illə müqayisədə 1.3 dəfə çox olmuşdur. 2012-ci ildə Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına müraciət etmiş sahibkarlıq subyektlərinin investisiya layihələrinin 2513-u (96.6%) kiçik həcmli (kredit tələbatı 30 882.9 min manat), 28-i (1.1%) orta həcmli (kredit tələbatı 6 420.6 min manat), 61-i (2.3%) böyük həcmli (kredit tələbatı 204 416 min manat) olmuşdur.

Sahibkarlığa Kömək Milli Fondu dövlətin güzəştli kreditlərinin sahibkarlıq subyektlərinə çatdırılması üçün 44 müvəkkil kredit təşkilatı, o cümlədən 30 bank, 1 bank olmayan kredit təşkilatı və 13 kredit

ittifaqı ilə əməkdaşlıq edir. Azərbaycan Respublikası Mərkəzi Bankının təqdim etdiyi maliyyə-statistik göstəricilər əsasında mövcud qanunvericiliyə uyğun olaraq hər maliyyə ilinin əvvəlində Fondun vəsaitləri üzrə müvəkkil kredit təşkilatlarına limitlər müəyyən edilir və müvəkkil kredit təşkilatları onlara ayrılmış limit həddində sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsini həyata keçirirlər. Hazırda müvəkkil kredit təşkilatlarının filial şəbəkələrinin 307-si regionlarda olmaqla 610-a çatmışdır.

Son illərdə (2008-2012) Fondun vasitəsilə 1 497 sahibkara 156.4 mln. manat, o cümlədən 2011-ci ildə 321 gənc sahibkara 30.4 milyon manat, 2012-ci ildə isə 529 gənc sahibkara 56.3 milyon manat dövlətin güzəştli kreditləri verilmişdir. Son illər gənclərə verilmiş güzəştli kreditlər hesabına 7402 yeni iş yeri, o cümlədən 2011-ci ildə gənclərə verilmiş güzəştli kreditlər hesabına 1251 yeni iş yeri, 2012-ci ildə verilmiş kreditlər hesabına isə 2 311 yeni iş yerinin yaradılması imkanı yaranmışdır.

İnvestisiya fəallığını stimullaşdıran amillər sırasına texnoloji dəyişikliklər də aiddir. Məlumdur ki, daha məhsuldar əsas kapitalın tətbiqi istehsal xərclərini azaltmağa, beləliklə də, həmin əsas kapitala investisiya qoyuluşundan daha çox xalis gəlir əldə etməyə imkan verir. Ümumiyyətlə, tətbiq olunduğu istehsal sahəsindən asılı olmayaraq texniki tərəqqinin nailiyyətləri investisiya fəallığının genişlənməsinə gətirib çıxarır.

Əsas kapitalın mövcudluğunun özü də investisiya fəallığını şərtləndirən amillər sırasındadır. Müəssisə daxilində, yaxud bu və ya digər istehsal sahəsində zəruri tərkibdə və nisbətdə əsas fondların mövcudluğu həmin müəssisədə və ya istehsal sahəsində əsas fondlara investisiya qoyuluşunu ləngidir və əksinə.

İnvestisiya fəaliyyətinə daxili siyasi faktorlar, beynəlxalq aləmdəki mənzərə, həmçinin fond birjaları və s. ciddi təsir göstərən amillərdəndir. Daxili və xarici iqtisadi və siyasi amilləri qruplaşdırmışıq. Həmin amilləri: siyasi, iqtisadi və sosial amillər kimi üç böyük qrupa ayırmaq olar.

Qeyd etmək lazımdır ki, əlverişli investisiya mühitinin formalaşdırılmasına təsir göstərən amillər içərisində siyasi amillər daha çox əhəmiyyət kəsb edir. Çünki ölkə iqtisadiyyatının investisiya tələbatının ödənilməsi xarici kapitalın cəlb olunmasını tələb edir ki, bu da ilk növbədə ölkədə siyasi sabitliyin olması ilə bağlıdır. Artıq respublika-

mızda bu sahədə xeyli nailiyyətlər əldə edilmiş, xarici investisiyalara münasibətdə ölkəmizin mövqeyi aydınlaşmış, xarici kapitalın cəlb olunması təmin olunmuşdur. Lakin hələlik cəlb olunan investisiyaların böyük əksəriyyəti yanacaq-enerji kompleksinə qoyulmuşdur.

Hazırda qeyri-neft sektoruna investisiya qoyuluşu tələb olunan səviyyədə deyil və ləng gedir. Odur ki, həmin sahələrin də həyati əhəmiyyətə malik olması nəzərə alınmaqla, bu sahələrə investisiya axını bütün mümkün iqtisadi vasitələrdən istifadə olunmaqla stimullaşdırılmalıdır.

Xarici investisiyaların emal sənaye sahələrində əsas fondların modernləşdirilməsinə və yeniləşdirilməsinə investisiya qoyuluşu qısa müddət ərzində hasilat sənayesi arasında balanslaşdırılmış inkişafa nail olmağa və vəsait qoyuluşunun özünü ödəməsinə imkan verə bilər.

Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq dövlətin iqtisadi proseslərə məhdud müdaxiləsi, yalnız zəruri hallarda tənzimləmə tədbirləri istisna olmaqla, maliyyə sabitliyinin təmin olunması, həmçinin beynəlxalq razılaşmaların şərtlərinə əməl olunmasına təminat verilməsi, başlıcası isə investisiya fəaliyyəti haqqında zəruri qanunvericilik bazasının yaradılması ilə investisiya mühitinin formalaşdırılmasını təmin etmişdir. Lakin bu mühitin daha da yaxşılaşdırılması üçün yenə də məqsədyönlü şəkildə işlərin davam etdirilməsi vacibdir. Bu işlərə: investisiya fəaliyyətinin tənzimlənməsi, işçilərin (sahibkarların) təşkilatçılıq qabiliyyətinin yüksəldilməsi, verilən kreditlərə görə əlverişli faiz dərəcələrinin müəyyənləşdirilməsi və s. aid ola bilər.

Ölkədə formalaşdırılmış əlverişli investisiya mühiti investisiya fəallığının artmasına, bu isə öz növbəsində iqtisadiyyatın davamlı inkişafına gətirib çıxarır.

İnvestorların hansı ölkədə işləmələri adətən bu ölkənin investisiya bazarında mövcud olan investisiya iqlimindən və bu ölkədə həyata keçirilən investisiya siyasətindən asılı olur.

Ölkə iqtisadiyyatına xarici investisiyanın cəlb edilməsi xalq istehlakı malları istehsalının və xidmətlərinin genişlənməsinə, yeni texnologiyalara, idarəetmənin qabaqcıl üsullarına yiyələnməyə, real bazar münasibətlərinə uyğun infrastruktur yaradılmasına imkan verir. Bundan başqa, xarici ölkələrdən alınan borc və kreditlərdən fərqli olaraq xarici investisiya xarici borca əlavə ağırlıq gətirmir.

Xarici investorları ölkəmizin iqtisadiyyatına sərmayə qoymağa sövq edən başlıca səbəblər aşağıdakılardan ibarətdir:

- Respublikamızın zəngin mineral-xammal resurslarına malik olması;
- Yüksəkixtisaslı kadr potensialının mövcudluğu;
- Xarici investisiyaların qorunmasına dair dövlət tərəfindən zəmanət verilməsi;
- Hüquqi-normativ bazanın və qanunvericilik aktlarının mükəmməl olması.

Hazırkı mərhələdə yüksək sürətlə inkişaf edən Azərbaycanda qarşıda duran əsas vəzifələrdən biri neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorunun sürətli inkişafının təmin olunmasıdır. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 mart 2006-cı il tarixli "İnvestisiya fəaliyyətinin təşviqi üzrə əlavə tədbirlər haqqında" sərəncamı mühüm əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının qeyri-neft sahələrində sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsinə xidmət edən "Azərbaycan İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti məhz həmin sərəncamla yaradılmışdır.

Ötən dövr ərzində görülmüş işlər ölkənin investisiya sektorunda keyfiyyətcə yeni mərhələnin başlanması kimi qiymətləndirilməlidir. Özəl sektorun inkişaf etdirilməsi və nəticə etibarı ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsi məsələləri Azərbaycan hökumətinin daim diqqət mərkəzindədir.

Azərbaycanda xarici investisiyaların yanacaq-energetika sahəsinə cəlb edilməsi sahəsində xeyli iş görülmüş və bu sahənin yüksək inkişafına nail olunmuşdur. Lakin qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması sahəsində mövcud problemlər hələ də öz həllini tapmamış və xarici kapitalın səmərəsiz istifadəsini formalaşdırmışdır.

Əksər hallarda qeyri-neft sektoruna xarici investisiyaları cəlb etmək məqsədilə nəzərdə tutulan dövlət proqramını işləyib hazırlayarkən onun ayrı-ayrı qeyri-neft sektorları üzrə tərtib olunmasına üstünlük verilir ki, bu da problemə komleks yanaşma baxımından düzgün deyildir. Ona görə də hesab edirik ki, qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması sistemli işlənməli, bu sahənin müxtəlif bölmələri arasında müvafiq mütənasiblik gözlənilməlidir.

Hazırda neft sektorundan əldə edilən gəlirlər Neft Fondunda cəmləşdirilsə də, həmin vəsaitlərin qeyri-neft sahələrinin inkişafına yönəldilməsi üçün kompleks proqram hazırlanmamışdır. Hesab edirik ki, qeyri-neft sektorunda vəsaitlərin səmərəliliyini yüksəltmək məqsədilə bu sahəyə aid investisiya layihələrinin işlənməsi istiqamətində zəruri

elmi-təcrübi tədqiqatlarının aparılmasına ehtiyac vardır. Qeyd e xarici investisiyalara verilən güzəştlər rəqabət qabiliyyətliliyi, yüksək texnoloji, ekoloji və s. səviyyəliliyi nöqteyi-nəzərindən müəyyən tələblərlə şərtlənməlidir. Vergilərin, tarif və güzəştlərin səviyyəsini müəyyən edərkən rəqib ölkələrində mövcud olan investisiyalaşma şərtləri araşdırılmalı, Azərbaycanın əsas tərəfdaş ölkələrlə və potensial investor ölkələri ilə vergi və digər müqavilələr bağlaması təmin edilməlidir.

Yuxarıda göstərilən məsələlərin həlli özünü yeni qəbul edilmiş dövlət proqramında tapmışdır.

Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında 2014-2018–ci illər həyata keçirilməsi nəzərdə tutulan tədbirlər aşağıdakı səviyyələrdə müəyyən edilmişdir:

Makroiqtisadi sabitliyin və davamlı inkişafın təmin edilməsi tədbirləri;

İqtisadi rayonlar və hər bir rayonun spesifik xüsusiyyətlərinə uyğun müəyyən edilən tədbirlər.

Proqramda öz əksini tapmış tədbirlərin maliyyələşdirilməsi yerli və xarici sahibkarların vəsaiti, Azərbaycan Respublikasının Dövlət büdcəsi, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu, büdcədənkənar dövlət fondları, kommersiya bankları və bank olmayan kredit təşkilatlarının kreditləri, beynəlxalq təşkilatların və xarici dövlətlərin maliyyə vəsaitləri və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən daxil olan vəsaitlər hesabına nəzərdə tutulmuşdur. Son illər respublikamızda sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsi bu sahədə mühüm uğurların qazanılmasına imkan yaratdı. Bu məqsədlə qəbul edilmiş hüquqi-normativ sənədlər, sahibkarlığa dövlət maliyyə dəstəyi mexanizminin daha da təkmilləşdirilməsi ölkədə sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, xüsusilə də regionlarda yeni sahibkarlıq subyektlərinin fəaliyyətə başlamasına gətirib çıxardı. Dövlətin proqramında qeyri-neft sektoru üzrə sahibkarlığın gələcək inkişafının aşağıdakı əsas vəzifələri müəyyənləşdirilməlidir:

Sahibkarlıq fəaliyyətini və ona dövlətin dəstəyini tənzimləyən hüquqi normativ bazanın təkmilləşdirilməsi;

Sahibkarlığın inkişafına yönəldilən maliyyə-kredit mexanizmlərinin inkişafı və maliyyə texnologiyalarının tətbiqi;

Prioritet sahibkarlıq layihələrinin maliyyələşdirilməsi zamanı dövlət zəmanətlərinin verilməsi sisteminin təkmilləşdirilməsi;

Sahibkarlıqda vahid informasiya dəstəyi sisteminin tətbiqi;

Sahibkarlıq sferası üçün yüksəkixtisaslı kadrların hazırlanması;

Sahibkarlıq subyektləri məhsullarının regionlararası bazarlara çıxarılması;

Sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətinin genişləndirilməsi.

İnvestisiya strategiyası regionda investisiya strategiyasının formalaşdırılmasının əsas ünsürlərindən biri kimi çıxış edir. Birinci mərhələdə regionun iqtisadi təhlilinin və qiymətləndirilməsinin nəticələrindən istifadə etməklə struktur qurumların baza strategiyası və investisiya strategiyası tipinin seçimini aparmaq lazımdır ki, bu da regionun müəyyən investisiya strategiyasına uyğun gələcəkdir. Regionun struktur qurumlarının bu və ya digər strategiyasına və investisiya strategiyasına aid edilməməsi əlamətinə görə tipikləşdirilməsinin əsasında bütövlükdə regionun təsərrüfat kompleksinin inkişafının mühüm tərəflərini əks etdirən məcmu xarakteristikaların və amillərin müxtəlif qrupları dayanır.

İnvestisiya strategiyasının formalaşmasının ikinci mərhələsində onun qurulmasının mahiyyətini və texnoloji prinsiplərini təşkil edən əsas vəzifələr müəyyən edilir. Həmin vəzifələr aşağıdakılardan ibarətdir:

1. Regionun təsərrüfatının inkişaf konsepsiyasını işləyib hazırlamaq. Bunun əsasında regionda investisiyalaşma üçün prioritet obyektlərin dairəsini aşkara çıxarmaq və əsaslandırmaq imkanı yaranır. Bu, təsərrüfat kompleksinin struktur cəhətdən yenidən qurulması strategiyasını reallaşdırmağa və regionun bazar islahatlaşdırılmasının digər aktual problemlərini həll etməyə imkan verir.

2. İqtisadiyyatın real sektorunda investisiya fəaliyyətini aktivləşdirmək məqsədinə malik investisiya strategiyasının əsas istiqamətlərini formalaşdırmaq, xüsusilə də müxtəlif maliyyələşmə mənbələrindən alınan vəsaitlər də daxil olmaqla, həmin vəsaitlərin axtarışı, formalaşması və mərkəzləşdirilməsi. Regionun investisiya strategiyası onun elmi-metodiki təminatının aşağıdakı tərkib hissələrini əhatə etməlidir:

Regionun perspektiv üçün inkişaf strategiyası, bunun əsasında strategiyanın inkişaf və struktur prioritetləri sistemi durur;

Regionun investisiya strategiyasının əsas istiqamətləri, bu, konsepsiyanın reallaşmasını təmin edən şərtlər kimi çıxış edir. Onların əsasında regionda investisiya fəaliyyətinin aktivləşdirilməsi üzrə konkret təkliflər işlənib hazırlanır.

Azərbaycan regionlarında investisiyaların idarə edilməsi sisteminin təhlili göstərir ki, onlar üçün mövcud olan əsas ənənəvi problem regional investisiya potensialının reallaşdırılması üçün zəruri olan dəqiq müəyyənləşdirilmiş investisiya strategiyasının yoxluğudur. Apardığımız geniş tədqiqatlar nəticəsində Azərbaycan regionları üçün regional planlaşdırmanın analitik metodlarından, eləcə də Avropanın TACİS EES ekspert xidmətinin tədqiqat qrupu tərəfindən işlənib hazırlanmış metodikadan istifadə etməklə investisiya strategiyasının layihələndirilməsi mexanizmi təklif olunur.

Layihələndirmənin əsas mərhələləri aşağıdakılar sayılır:

Regionun iqtisadi və institusional auditinin aparılması;

Region iqtisadiyyatı sahələrinin vəziyyətinin təhlili;

Regionun inkişafının əsas aspektlərinin SWOT –təhlili;

Strategiyanın yönəldiyi «kritik» uğur amillərinin aşkara çıxarılması;

Baza məqsədlərinin şərh olunması;

Strateji imkanlar dəstinin işlənib hazırlanması və onların SWOT-təhlil vasitəsilə qiymətləndirilməsi;

Ən yaxşı strateji yanaşmanın müəyyən edilməsi;

Strateji yanaşmanın qısa ifadəsi;

Hər bir baza məqsədi üçün əsas hərəkət proqramlarının müəyyən edilməsi.

Azərbaycan Respublikasının iqtisadiyyatı müasir şəraitdə dünya ölkələri üçün xarici investisiyaların cəlb edilməsindən ötəri əlverişli şəraitə malikdır. Xarici vəsaitlərin respublika iqtisadiyyatının daha çox yanacaq-energetika kompleksinə yönəldiyi məlumdur ki, son zamanlarda bu sferada bağlanmış bir çox sazişlər bunu təsdiq edir. Ölkəyə cəlb olunan birbaşa xarici investisiyalar dövlətə xarici borc problemi yaratmır və əksinə, onun örtülməsi üçün əlavə vəsait mənbələri yaradır, istehsal və elmi-texniki kooperasiya vasitəsilə milli iqtisadiyyatın beynəlxalq təsərrüfata fəal inteqrasiyasına münbit şərait yaradır.

Azərbaycan İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən ölkənin intensiv inkişafı üçün tələb olunan ümumi investisiya tələbatı hesablanmışdır. Belə ki, yalnız kənd təsərrüfatı və neft sənayesi ilə əlaqədar olmayan hasiledici sənaye sahələri üçün bu göstərici 9,64-10,64 mlrd.dollar təşkil edir. Ümumdünya birbaşa investisiya bazarının illik ixracının mümkün göstəricisi isə mütəxəssislərin fikrincə 200 mlrd.

dollara bərabərdir. Deməli, Azərbaycan özü üçün tələb olunan məbləği cəlb etmək üçün bu istiqamətdə investisiya rejiminin liberallaşması siyasətini həyata keçirən, daha əlverişli investisiya mühitinə malik ölkələr ilə kəskin rəqabət aparmalıdır. Bu səbəbdən də respublikada xarici investisiyaları stimullaşdırmaq baxımından əlverişli siyasi, iqtisadi, hüquqi, sosial və s. şəraitin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməsi sahəsində xeyli iş görülmüşdür.

Azərbaycan iqtisadiyyatının müasir şəraitindən istehsal prosesini təkmilləşdirmək, yeni texnologiya tətbiq etmək üçün ölkənin xarici investisiyalara tələbatı böyükdür. Bu səbəbdən də investisiya siyasətinin hazırlanması və optimal tətbiqi zəruridir. Xarici investisiyanın cəlb edilməsində dövlətin rolu danılmazdır, belə ki, invesitisiyaların ölkə iqtisadiyyatı sahələri arasında optimal bölüşdürülməsi olduqca vacibdir.

Qeyd etmək lazımdır ki, idxala müəyyən maneələrin yaradılması ilə ölkə daxilinə xarici birbaşa investisiya axınlarının daha da stimullaşdırılmasına nail olmaq mümkündür. Birbaşa xarici investisiya yatırımı isə iqtisadiyyata daxildən nüfuz etmək deməkdir ki, bu da hər bir ölkə üçün təsəvvüredilməz faydalar verir. İstehsalı himayə ediləcək sahələr qabaqcadan hökumət tərəfindən müəyyənləşdirilməli, bu sahələr xarici investisiyaların cəlb edilməsi üzrə prioritet sahələr sayılmalıdır.

Lakin iqtisadiyyatın, xüsusən qeyri-neft sahələrində istehsalın bugünkü durumu istehsalın dövlət tərəfindən himayə edilməsini zəruri etsə də, bu hal uzunmüddət davam etməməli, müəyyən bir dövrü əhatə etməlidir. İstehsalda müəyyən səviyyə irəliləyiş təmin edildikdən sonra tədricən liberallaşdırma siyasəti həyata keçirilməli, idarə olunan rəqabət şəraiti yaradılmalıdır ki, məhsul buraxılışı daha səmərəli təşkil edilsin: modernləşmə, keyfiyyətin artırılması, yeni texnologiyaların müntəzəm tətbiqi və s. proseslər müşahidə olunmalıdır. Azərbaycan iqtisadiyyatının bugünkü durumu iqtisadiyyata və xüsusən, qeyri-neft sktoruna xarici kapitalın cəlb olunmasının zəruri olduğunu , dayanıqlı inkişafın təmin edilməsi üçün xarici investisiyların müsbət rol oynayacağını təsdiq edir və onun əhəmiyyətini artırır.

Respublikada aparılan uğurlu islahatlar xarici və daxili investorlar üçün əlverişli şərait yaratmışdır. Bu baxımdan Azərbaycan investisiya mühitinə görə yüksək rejimli ölkələr qrupuna aiddir . Belə ki, xarici investorlarını əsasən istehsal sahələrində fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılmışdır, onlara mane ola biləcək bütün sub-

yektiv və obyektiv xarakterli amillər aradan qaldırılmışdır. Dövlət xarici iş adamları ilə yanaşı investorlara da maksimum münbit şərait yaradıb, iş adamlarına qarant olub, bütün bürokratik əngəllər aradan qaldırılmışdır. Bu istiqamətdə ən vacib məsələlərdən biri neqativlərə qarşı mübarizənin gücləndirilməsi, əhalinin alıcılıq qabiliyyətinin artırılmasına yönəldilmiş pul-kredit siyasətinin səmərəli tətbiq olunması istiqamətində işlərin ardıcıl olaraq həyata keçirilməsidir.

Azərbaycanda ən prioritet sahələrdən biri aqroturizm sahəsinin inkişaf etdirilməsidir. Təxmini hesablamalara görə, aqroturizm sahəsində Azərbaycan potensial olaraq ildə 270 mln.dollar mənfəət əldə edə bilər.Ölkəmizdə aparılan aqrar islahatlar bu sahədə dövrün tələblərinə cavab verən yeni təsərrüfat formaları yaratmaq, kənd təsərrüfatını dünya iqtisadi sisteminə inteqrasiya etmək zəruriyyətini doğurdu. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkədə aparılan torpaq islahatları Azərbaycan kəndlisinin çoxəsrlik arzusunu reallaşdırdı, onları torpağın həqiqi sahibinə çevirdi. Yalnız Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında deyil, Şərq aləmində analoqu olmayan islahat, kənd təsərrüfatını böhranlı vəziyyətdən çıxardı.

Bu gün ölkəmizdə aqrar bölmədə islahatlar uğurla həyata keçirilir, məhsulların rəqabətqabiliyyətliyinin artırılması məsələsi əsas diqqəti cəlb edən məsələlərdən biridir.

Qeyd etmək lazımdır ki, bu gün Avropa Şurası Qərbi Avropa ölkələrinin iqtisadiyatının möhkəmlənməsini aqroturizmin inkişafında görür. Avropada kənd turizmi XX əsrin 70-ci illərindən inkişaf etməyə başlamışdır.O dövrdə bir çox iri sahələrdə ekoloji problemlər ciddi narahatlıq doğurduğundan adamlarda canlı təbiətlə bilavasitə təmasda olmaq, təmiz havada və sakitlik şəraitində yaşamaqla ekoloji cəhətdən təmiz təbii məhsullardan istifadə etmək zəruriyyəti yarandı. Hazırda aqroturizm çox ölkələrdə müvəffəqiyyətlə inkişaf etməklə bərabər, turist axınının bir hissəsini özün cəlb edir. İtaliya, Fransa, İrlandiya aqroturizmin ən çox inkişaf etdiyi ölkələrdir. Belə bir faktı göstərmək lazımdır ki, aqroturizmin inkişafının ilk mərhələlərində İtaliya hökuməti aqroturizm xidmətini təşkil etmək məqsədi ilə fermerlərə köməklik göstərmişdir.Lakin aqroturizmə olan mövcud tələbat ilkin konsepsiyanın köklü surətdə dəyişməsinə səbəb oldu.İndiki zamanda aqroturizm İtaliyada bir çox fermerlərin əsas məşğuliyyətinə və əsas gəlir mənbəyinə çevrilmişdir.

Azərbaycanda aqroturizmin təşkili iqtisadi məsələlərlə yanaşı, bir sıra sosial məsələlərin də həllinə şərait yaradır. Aqroturizmin əsas müştəriləri şəhər əhalisi olduğundan onların qarşılıqlı əlaqəsi nəticəsində ictimai-mədəni mühitləri yaxınlaşır, şəhərlə kənd arasında fərqin aradan qaldırılması üçün real şərait yaranır. Onu da göstərmək lazımdır ki, aqroturizm digər istirahət formalarından bir neçə cəhətdən fərqlənir. Aqroturizmin inkişafı kənd yerlərində işlə təminata şərait yaradır və kənd yerlərindən miqrasiya azalır.

Azərbayanda qeyri-neft sahələrinin inkişafı iqtisadiyyatda tarazlığın yaradılması üçün əsas şərtdir və Azərbaycan hökumətinin bu sahədə iqtisadi siyasəti daha da inkişaf etdirilərsə qarşıda duran məqsədlərə minimum 5 il müddətinə çatmaq olar. Respublikada mövcud olan bürokratik əngəllərin qarşısının alınması zəruridir. Bundan əlavə, ölkədə tam azad iqtisadi mühit yaradılmaqla böyük biznesin inkişafına təkan vermək lazımdır. Bundan başqa, qeyri-neft sektorunda dövlət həvəsləndirilməsi və himayəsi ilə iri şirkətlərin yaradılmasına ehtiyac var. Düzdür, bu layihələr çox böyükdür və ilk baxışda onların reallaşdırılması qeyri-mümkün görünə bilər. Lakin bu işlər ən yaxın perspektivi əhatə etməli və uyğun sektorlar üzrə transmilli şirkətlərin rüşeymləri yaradılmalıdır. Qeyd edək ki, bu şirkətlərin ilk fəaliyyət bazarları üçüncü dünya ölkələri ola bilər.

1994-cü ildən başlayaraq Azərbaycan iqtisadiyyatına xarici investisiyaların axını prosesi başlamışdır. Neft sektoru ilə yanaşı, qeyri-neft sektoruna investisiya qoyuluşları əsasən kredit vəsaitləri hesabına olsa da bu sahəyə yatırılmış birbaşa investisiyaların da payı diqqəti cəlb edir. Qeyri-neft sektorunun investisiya yatırımları həm daxili, həm də xarici kapital mənbələri hesabına həyata keçirilmişdır. Respublikada siyasi sabitliyin əldə edilməsindən sonra Azərbaycan iqtisadiyyatına xarici investisiya axını sürətlə artaraq 2001-ci ilin sonu üçün 1091,8 mln. dollar təşkil etmişdir. Son 10 ildə isə ölkə iqtisadiyyatına 130 milyard dollar məbləğində investisiya yönəldilmişdır. Əgər 2003-cü ildə əsas kapitala yönəldilən investisiyaların yalnız 26,8 faizi qeyri-neft sektorunun payına düşürdüsə, 2012 –ci ildə bu göstərici 3 dəfə artaraq 75 faizə çatmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın qeyri-neft sektoruna qoyulan investisiyaların əksər hissəsini xaricdən (beynəlxalq təşkilatlardan, kommersiya bankları və dövlətlərdən) bu sektorda müxtəlif investisiya layihələrinin həyata keçirilməsi üzrə alınmış kreditlər təşkil edir.

**2005-2012–ci illərdə Azərbaycan İqtisadiyyata kredit qoyuluşları (ilin axırına, mln.manat)**

| | 2005 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| İqtisadiyyata Kredit qoyuluşları qısamüddətli | 1440,9<br>913,2 | 8407,5<br>2359,9 | 9163,4<br>2567,1 | 9850,3<br>2951,2 | 12243,7<br>3508,3 |
| Yekuna görə faizlə uzunmüddətli | 63,4<br>527,7 | 28,1<br>6047,6 | 28,0<br>6596,3 | 30,0<br>6899,1 | 28,7<br>8735,4 |
| Yekuna görə faizlə | 36,6 | 71,9 | 72,0 | 70,0 | 71,3 |
| Vaxtı keçmiş borclar | 68,2 | 303,5 | 492,9 | 633,8 | 748,8 |

**2005-2012-ci illərdə Azərbaycan İqtisadiyyatına yönəldilən investisiyalar**

| | 2005 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| İnvestisiya qoyuluşları bütün mənbələr üzrə (xarici investisiyalar nəzərə alınmaqla): ln.manat | 6733,4 | 10475,0 | 14118,9 | 17048,8 | 20250,7 |
| mln.dollar | 7118,5 | 13033,5 | 17591,5 | 21588,9 | 25777,3 |
| Xarici investisiyalar: mln.manat | 4628,5 | 4395,1 | 6619,7 | 6849.8 | 8102,7 |
| mln.dollar | 4893,2 | 5468,6 | 8247,8 | 8673.9 | 10314,0 |
| Daxili investisiyalar: mln.manat mln.dollar | 2104,9<br>2225,3 | 6079,9<br>7564,9 | 7499,2<br>9343,7 | 10199,0<br>12915,0 | 12148,0<br>15463,3 |

Qeyd etmək llazımdır ki, son dövrdə ölkənin qeyri-neft sektoruna investisiya yatıran ölkələrin maragı xeyli artıb. Belə ölkələrə Türkiyə, Niderland, ABŞ, Iran,Almaniya Rusiya , Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Isveçrə, Italiya, Fransa və Yaponiyanı göstərmək olar. Bunu aşagıdakı cədvəl materiallarından daha aydın görmək olar.

**Dünya ölkələri tərəfindən 2005-2012-ci illərdə yatırılmış xarici investisiyalar (mln. ABŞ dolları)**

| | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|
| Cəmi xarici investisiya | 4893,2 | 6847,4 | 5468,6 | 8247,8 | 8673,9 | 10314,0 |
| Maliyyə kreditləri ondan: | 698,4*) | 2357,9 | 1438,3 | 3405,9 | 3692,5 | 3135,5 |
| Neft sənayesinə | 3799,9 | 3350,7 | 2412,7 | 2955,3 | 3407,8 | 4287,8 |
| Neft bonusu | 1,0 | 3,5 | 1,0 | 2,0 | 19,9 | 2,0 |
| Birgə müəssisələr və xarici firmalar ondan: | 230,5 | 494,1 | 624,4 | 659,6 | 886,0 | 1094,5 |
| Türkiyə | 96,2 | 60,8 | 76,8 | 147,5 | 89,1 | 185,9 |
| Niderland | 1,2 | 43,8 | 28,0 | 163,5 | 173,3 | 186,0 |
| ABŞ | 24,8 | 108,8 | 117,6 | 40,0 | 73,8 | 92,5 |
| İran | 1,2 | - | 6,8 | 3,2 | 11,2 | - |
| Almaniya | 21,5 | 48,2 | 38,8 | 17,0 | 32,5 | 45,6 |
| Rusiya | 5,1 | 5,8 | 50,3 | 11,7 | 35,0 | 21,8 |
| Böyük Britaniya | 39,5 | 146,4 | 160,0 | 144,0 | 148,8 | 149,3 |
| Birləşmiş Ərəb Əmirlikləri | 5,7 | 38,5 | 43,2 | 30,3 | 75,3 | 92,4 |
| İsveçrə | - | 3,7 | 16,0 | 11,7 | 26,7 | 79,4 |
| İtaliya | 4,6 | 2,0 | 9,8 | - | - | 22,1 |
| Fransa | 2,6 | - | 4,5 | 6,2 | 14,3 | 14,4 |
| Norveç | - | - | 40,3 | 3,6 | 6,9 | - |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Yaponiya | - | - | 2,8 | 1,4 | 2,5 | 5,4 |
| Digər ölkələr | 28,1 | 36,1 | 29.5 | 79,5 | 196,6 | 199,7 |
| Digər investisiyalar | 163,4 | 641,2 | 992,2 | 1225,0 | 667,7 | 1794,2 |

Son dövrdə respublikamızda əlverişli investisiya mühitinin yaranması nəticəsində xarici və birgə müəssisələri şəbəkəsi sürətlə artmışdır. Azərbaycan, ölkədaxili maliyyə ehtiyatlarının məhdud olması səbəbi ilə, ölkənin istehsal və sosial strukturunun yenidən qurulmasında beynəlxalq maliyyə təşkilatlarının geniş maliyyə imkanlarından maksimum səviyyədə faydalanması üçün bu təşkilatlarla müttəfiqlik etmişdir. Azərbaycana kredit verən təşkilatların başında Avropa İttifaqı (TACIS, TRACECA, INOGATE), BVF,Dünya Bankı (IBRD), ABŞ İxrac və İdxal Bankı, Beynəlxalq İnkişaf Təşkilatı, Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Türk Eximbankı, İnkişaf Bankı (IsDB), Yaponiya Beynəlxalq Müttəfiqlik Bankı, Qaradəniz Ticarət və İnkişaf Bankı (BSTDB), IFC, Kreditanstalt fur Wiesderaufbau (KfW, Almaniya) gəlir. Zəmanət baxımından sərmayə riskinin azaldılması üçün Çoxtərəfli İnvestisiya Zəmanət Agenti (MIGA) Azərbaycanda fəaliyyət göstərir.Bu təşkilatlar tərəfindən açılan kreditlər, bazar iqtisadiyyatına keçidi asanlaşdırmaq məqsədilə açılan layihə kreditləridir. Xarici kredit almasıilə yanaşıAzərbaycana beynəlxalq təşkilatlar tərəfindən edilən yardımlar da önəmli dərəcələrə yüksəlmişdir. Bunların arasında, Avropa İttifaqı tərəfindən edilən yardımlar xüsusi yerə sahibdir.

Bir çox beynəlxalq iqtisadi təşkilatla əlaqəsi olan Azərbaycan, regional iqtisadi və ticari əlaqələr baxımından əhəmiyyət kəsb edən təşkilatlara üzvdür. Digər tərəfdən Avropa İttifaqı ilə də sıx bir münasibət içərisindədir.

Qeyd etmək lazımdır Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq İqtisadi Müttəfiqlik Fondu kimi digər beynəlxalq maliyyə təşkilatlarından da kredit alınmasına baxmayaraq, alınan xarici kreditlərdə üstünlüyün BVF və Dünya Bankında olduğunu göstərmək lazımdır. Azərbaycan 1992-ci ilin sentyabr ayında BVF, Dünya Bankı və Beynəlxalq İnkişaf İttifaqına üzv olmuşdur. Hər nə qədər Dünya Bankı və BVF-yə üzvlük 1992-ci ildə qəbul edilsə də, bu təşki-

latlarla ilk kredit müqaviləsi 1995-ci ildə imzalanmışdır.

BVF və Dünya Bankı, inkişaf etməkdə olan ölkələrin dünya bazarına struktur uyğunlaşmasına nail olmaq və onun bir parçası halına gəlməsi üçün xarici kredit və borclandırma mexanizmlərindən istifadə etməklə bu prosesi zəmanət altına almaq üçün də həmin ölkələrə, stabillik və struktur uyğun proqramları tövsiyə edir.

Azərbaycan BVF-dən "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Üzrə Dövlət Proqramı" çərçivəsində də kredit alır. Beynəlxalq Valyuta Fondu (BVF), Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Proqramı (PRGF) çərçivəsində Azərbaycana 80.45 milyon SDR (119 milyon dollar) ayırmışdır. Həyata keçirilməsinə 6 iyul 2001-ci ildə başlanan proqram çərçivəsində kredit 10 illiyinə, illik 0.5% faizlə 5.5 il sonra geri ödəmək üzrə verilmişdir.

"Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafın Təmin Olunmasına Dair Kredit Mexanizmi", BVF-nin gəlir səviyyəsi aşağı olan ölkələr üçün nəzərdə tutduğu az faizli kredit mexanizmasıdır. PRGF vasitəsi ilə həyata keçirilən proqramlar, tətbiq etdiyi ölkəyə mənsub olan, vətəndaşların geniş iştirakı ilə hazırlanaraq təsdiq edilən və Yoxsulluğun Azaldılması haqqında hazırlanan strategiya sənədinə təsirini göstərən yoxsulluğun azaldılması strategiyasına dayanmaqdadır. Məqsəd, PRGF yardımı ilə həyata keçirilən hər bir proqramın, ölkənin makroiqtisadi strukturu və sosial siyasəti ilə əlaqədar olmasını, bu mexanizmin inkişaf və yoxsulluğun azaldılmasına xidmət etməsini təmin etməkdir. Hazırda Azərbaycan BVF-in kredit resursları olmadan fonddan yalnız texniki yardım alır. 2009-ci il oktyabrın 1-nə olan məlumata görə, Azərbaycanın fond qarşısındakı borcları $81,9 mln. təşkil edir. 2008-2012-ci illərdə Azərbaycan əvvəl alınmış kreditlərin ödənilməsi çərçivəsində fonda 55,96 mln. SDR ($88,9 mln.) ödəyəcək.

Azərbaycanın yeni iqtisadi sistemə keçidi mərhələsində qarşılaşdığı problemləri həlletmə və iqtisadi böhrandan mühafizə etmək məqsədi ilə Dünya Bankı müxtəlif proqram və layihələrə dəstək verir. Bunlar bilavasitə iqtisadi islahatlarla əlaqədar olanlar və iqtisadi inkişafa dolaylı olaraq kömək edən layihələr olaraq ikiyə ayrıla bilər. Dünya Bankı Azərbaycana iqtisadi inkişaf siyasəti mövzusunda tövsiyələr etməklə yanaşı, investisiyalar və dövlət büdcəsinin maliyyəsi məqsədi ilə xarici yardımların koordinasiyası mövzusundaköməklik edir.

Qeyd etmək lazımdır ki, son dövrdə beynəlxalq maliyyə təşkilatlarının diqqəti Azərbaycanın qeyri-neft sektoruna yönəlmişdir. Bu məqsədlə sənaye, energetika, neft-kimya, nəqliyyat, kənd təsərrüfatı, turizm və s sahələrə daha çox investisiyalar yatırılmışdır.

Dünya Bankı (DB) ilə 2000-ci ilin may ayında "Kənd Təsərrüffatının İnkişafı və Kreditləndirilməsi" adlı bir layihə imzalamışdır. Həmin layihənin həcmi 33,7 milyon dollardır. Layihə çərçivəsində, "G&G Consulting" (Türkiyə-Avstraliya) konsorsiyumunun yaratdığı İKA tərəfindən 6 mindən çox üzvü birləşdirən 329 ortaq borclular qrupuna həcmi 9.4 milyon manat olan kredit verildi. Bundan əlavə, layihə çərçivəsində 566 adam tərəfındən 20 kredit İttifaqı (Beyləqan və Naxçıvan regionlarının hər birində 6, Şəki regionunda 5 və Masallı regionunda 3 kredit İttifaqı) quruldu.

Layihə çərçivəsində regionlarda daşınmaz əmlakın qeydiyyat sistemi inkişaf etdirildi və 2010-cu ilə qədər kənd təsərrüfatı sektorunun inkişaf strategiyası hazırlandı.

Dünya Bankı 2003-2010-cu illər arasında Azərbaycanda 9 layihə həyata keçirməyi planlaşdırmışdır. Layihələr üçün nəzərdə tutulan maliyyə yardımının həcmi isə 150-225 milyon dollar həcmindədir. Həmin layihələr və layihələrin maliyyə həcmi aşağıdakı kimidir:

- Su təchizatı sisteminin yenidən inşası üçün əlavə layihənin reallaşdırılması məqsədiylə 12 milyon dollar,
- Təhsil sisteminin inkişafı ilə əlaqədar layihə üçün 18 milyon dollar;
- Suvarma sisteminin yenilənməsi ilə əlaqədar layihə üçün 30 milyon dollar;
- "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişafı Üçün Dövlət Proqramı" çərçivəsində isə 2003-cü ildə 17 milyon dollar;
- Kəndlərin inkişafı məqsədi ilə 22 milyon dollar;
- Təqaüd sisteminin yenidən qurulması məqsədilə 10 milyon dollar;
- Elektrik paylama sisteminin yenilənməsi üçün 40 milyon dollar;
- "Şahdağ" milli parkının yenidən qurulmasına 8 milyon dollar;
- "PRSC-2"nin həyata keçirilməsi məqsədilə 20 milyon dollar.

Dünya Bankı eyni zamanda "Bakı-Tbilisi-Ceyhan" neft boru kəmərinin tikintisi layihəsinə 300 milyon dollar vəsait ayırmışdır.

Bu çərçivədə, Dünya Bankı ölkənin qərb regionlarında özəl sahibkarlığı dəstəkləmək məqsədi ilə qurduğu kredit ittifaqları ilə 2003-

2004-cü illərdə Gəncə-Qazax regionunda təxminən 3000 fermerə kiçik faizli 1.2 milyon dollar həcmində kredit vermişdir. DB Böyük Bakının su təchizatı layihəsi-II üçün 10.3 milyon dollar, qaz sisteminin Reabilitasiyası layihəsi üçün 13.9 milyon dollar, kənd təsərrüfatı sektorunun özəlləşdirilməsi layihəsi üçün 10.2 milyon dollar vəsait ayırmışdır.

2010 -cu ilin iyun ayına qədər DB və Azərbaycan hökuməti arasında müxtəlif layihələr çərçivəsində 1 625 milyon dollar həcmində 57 kredit müqaviləsi imzalanmışdır. Layihələrin 16-sı hələ reallaşma astanasındadır, 5-i isə artq həyata keçirilmişdir. 76.85 milyon dollar həcmində olan ən böyük kredit struktur islahatları layihəsinə ayrılmışdır.

Dünya Bankı Qrupunun üzvü olaraq Çoxtərəfli İnvestisiya Təminat Agentliyi (MIGA), inkişaf etməkdə olan ölkələrdə ticari olmayan, siyasi risk faktorunun azaldılması, təminat altına alınması məqsədi ilə xarici sərmayədarlara kömək etmək məqsədi ilə 1988-ci ildə qurulmuşdur. 154 üzvü olan MIGA-nın ümumi sərmayəsi təxminən 1.2 milyard dollar həcmindədir. Azərbaycan Respublikası bu agentliklə sıx əməkdaşlıq edir. Belə ki, MİGA, Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlərə yardım olaraq altı dəfə 77.1 milyon dollar həcmində təminat vermişdir. İlk təminat Bakıdakı "Coca-Cola"şirkətinə 18.3 milyon dollar sərmayə qoyan Türkiyənin Efes şirkətinə verilmişdir. İkinci təminat, Türkiyədən Koçbanka 2.7 milyon dollar sərmayəsində verilmişdir. Bundan əlavə, Almanyanın Bank Kreiss AG, Türkiyənin Pamukbank və Azərtel şirkətlərinə, onların Azercell şirkətinə və Azərbaycanın rəqəmsal əlaqə sektorlarına sərmayələri üçün təminat verilmişdir.

Azərbaycan dövləti Beynəlxalq Maliyyə Təşkilatı (IFC) ilə Əməkdaşlığa böyük önəm verir. Beynəlxalq Maliyyə Təşkilatı (IFC), Dünya Bankı qrupu içində, inkişaf yolundakı ölkələrin özəl sektora layihə krediti vermək məqsədilə 1956-cı ildə qurulmuşdur. Təşkilatın 2.4 milyard dollar sərmayəsi və 175 üzvü vardır.

IFC, üzv ölkənin özəl sektor quruluşlarının müxtəlif layihələrinə kredit verə biləcəyi kimi, sendikasiyaları da iştirak edir. IFC-nin sərmayə ortaqlığında iştirakı da mümkündür.

Azərbaycanda IFC-nin strategiyası maliyyə sektorun güclənməsi, kiçikhəcmli müəssisələrin çoxalması, ölkənin sənaye və kənd təsərrüfatı sektoruna yardımın artması, maliyyə yardımının neft sektoru

xaricində olan sahələrə də istiqamətlənməsi və enerji sektoruna olan investisiyalara kömək etmək istiqamətində tətbiq edilir.

Azərbaycana investisiya yatıran Avropa Yenidən Qurma və İnkişaf Bankı ilə əlaqələr son dövrdə xeyli inkişaf etmişdir. Avropa Yenidən Qurma və İnkişaf Bankı (EBRD), Azərbaycandakı neft, nəqliyyat, bank sektoru kimi sahələrın inkişafına dəstək verir. Bu isə Azərbaycanda qeyri-neft sektorlarının inkişafını təşviq edir. Ölkədə investisiya mühitini formalaşdırmaq üçün EBRD, xüsusi ilə kiçik və orta həcmli müəssisələrə, özəl sektora yardım edir.

Bank bundan əlavə, Azərbaycanda neft və təbii qaz sektoruna etdiyi yardımlara da davam edir. Bank, Azərbaycana 1991-2003-cü illər arasında 19 fərqli layihə üçün 261.577.000 avro birbaşa investisiya, 18.224.000 avro regional investisiya olmaq üzrə, 279.801.000 avro kredit vermişdir.

EBRD 2010-cü ilə qədər Azərbaycanla 14 layihə ilə əlaqədar müxtəlif müqavilələr imzalamışdır. Bu çərçivədə Azərbaycana 500 milyon dollara yaxın kredit vermişdir. Bu kredit əsasən neft sektoruna ayrılmışdır. Kreditlərin 200 milyon dolları, neft və qaz sektorunun inkişafına xərclənmişdir. EBRD 2010-cu ildə isə, elektrik enerjisi, mədən sənayesi və regionlarda qeyri-neft sektorlarına olmaq üzrə, xüsusi ilə kiçikhəcmli müəssisələrin inkişafı məqsədilə kredit verilməsini planlamışdır. EBRD eyni zamanda bank inşaat sektoruna da maraq göstərir. İnşaat sektorunda inşaat materiallarına tələbin artması səbəbi ilə inşaat materialları istehsal edən şirkətlərə yardım etmək və onların sərmayəsinin artırılmasına kömək etmək istəyir.

Avropa Yenidənqurma və İnkişaf Bankı eyni zamanda Azərbaycanda alternatif enerji vəsaitlarının inkişafına da böyük maraq göstərir.

Azərbaycanda enerji sektorunun, neft-kimya sənayesinin inkişafı üçün Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı ilə əlaqələr son dövrdə daha da inkişaf etmişdir. Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı (Japanese International Coorperation Bank) ilə əməkdaşlığının enerji sektorunda cəmləşdiyi görünür. Yapon Beynəlxalq Əməkdaşlıq Bankı Azərbaycan üçün enerji sektorundakı yenidənqurulmanı reallaşdırmada ən əhəmiyyətli maliyyə donorlarından biri olmuşdur. Bank, 2010-cu ilə qədər sektorun inkişafı məqsədilə 339 milyon dollar və Sumqayıtda neft-kimya sənayesi üçün blokların inşa edilməsinə 100 milyon

dollar həcmində kredit vermişdir. Təşkilat eyni zamanda Qaradağdan (Bakının cənubunda) regiondakı elektrik stansiyasına qaz kəmərinin çəkilməsini də həyata keçirmişdir.

Qeyd etmək lazımdır ki, enerji sektoru, su və digər sektorlara ayrılan kreditlər üzrə Yaponiya birinci yerdədir. Ümumi kreditin quruluşuna görə Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının payı 27%, Dünya Bankının payı 26%, BVF-nin payı 17%, AİİB-nın payı 5,1%, Türk Ekimbankın payı 5%, digərlərinin payı isə 14% təşkil edir[1].

Azərbaycanın Asiya İnkişaf Bankı ilə əlaqələrini xüsusilə vurğulamaq lazımdır. Belə ki, 2001-ci ildən Azərbaycanda fəaliyyətə başlayan Asiya İnkişaf Bankı (ADB), əsasən xalqın mal və xidmət ehtiyacının qarşılanması və özəl sektorun inkişafı üçün infrastrukturun və iş yerlərinin qurulması istiqmətində fəaliyyət göstərir.

Son dövrdə respublikamızın Maliyyə Nazirliyi ilə Almaniya İnkişaf Bankı arasında əlaqələr xeyli inkişaf etmişdir. Belə ki, Almaniya İnkişaf Bankı ilə Azərbaycan Maliyyə Nazirliyi tərəfindən 1999-cu ildə Almaniya-Azərbaycan Fondu (AAF) qurulmuşdur. Bu fondun fəaliyyəti kiçik və orta həcmli müəssisələrin kredit imkanının qarşılanmasına vəsait ayırmaqdır.

2003-cü ildə Almaniya-Azərbaycan Fondunun (AAF) əməkdaşlıq içində olduğu banklar, miqdarı 5.96 milyon avro dəyərində olan 751 kredit verdi. 2003-cü ilin sonunda Almaniya və Azərbaycan hükumətləri arasında AAF vəsaitlərının 3.6 milyon avrodan 8.7 milyon avroya artırılması haqqında müqvilə imzalanmışdır.

AAF-ın 2004-cü il Azərbaycandakı büdcəsi 666 kredit üzrə 3.3 milyon avrodur. AAF, Azərbaycanda fəaliyyətə başladığı 2001-ci ildən etibarən, kiçik və orta həcmli müəssisələr üçün ümumi miqdarı 9 milyon Avro olan 927 kredit vermişdir. AAF-nın 2004-cü ildə əsas məqsədi regional kreditləndirmənin sürətləndirilməsi və əməkdaşlıq etdiyi bankların fəaliyyətlərinin artırılmasına kömək edilməsidir.

Azərbaycan Respublikası ilə Dünya Bankı arasındakı hazırlanan layihələrdə aşağıdakı tədbirlər nəzərdə tutulur:

a) Kənd təsərrüfatının inkişafı: Dünya Bankının layihəsində əsas olaraq kənd təsərrüfatı sektorunun rəqabət gücünün artırılması məqsədidir.

[1] Azərbaycan iqtisadiyyatı. B.,2010, səh 220.

b) Kasıb dağlıq ərazilərdə əhalinin yaşayış səviyyələrinin yüksəldilməsi.

Su, nəqliyyat və enerji sahələrində həyata keçirilən reabilitasiya layihələri aşağıdakılardır:

"Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri I və II";

"Magistral avtomobil yolu II və III";

"Elektrik enerjisinin ötürücü sisteminin bərpası layihəsi".

"Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri I" layihəsi aşağıdakı qurumlar tərəfindən icra olunur:

"Azərsu" ASC;

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi.

Layihənin ümumi dəyəri 310 mln. ABŞ dolları təşkil edir, bunun 206 mln. ABŞ dolları kreditin payına düşür. Layihənin icrasına Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən 2007-ci ildə, "Azərsu" ASC tərəfindən isə 2008-ci ildə başlanılmışdır. Layihənin başa çatması isə 2012-ci ildə olmuşdur.

Layihənin məqsədi rayon mərkəzlərində su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurulmasıdır.

"Magistral Yol II" və "Magistral Yol III" layihələri üçün 675 mln. və 241.6 mln. ABŞ dolları həcmində vəsaitlər ayrılıb. Hər iki layihə Nəqliyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən "Azəryolservis" ASC tərəfindən icra olunur. Layihələrin məqsədi ölkələr arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsindən, regionlarda infrastrukturun bərpası yolu ilə sosial-iqtisadi inkişafa və turizmin dəstəklənməsinə nail olmaqdan ibarətdir. "Magistral Yol II" layihəsinin icrasına 2006-ci ildə başlanılmışdır və 2014-cü ildə layihənin başa çatdırılması planlaşdırılır. "Magistral Yol III" layihəsinin icra müddəti 2010-2015-ci illəri əhatə edir.

"Elektrik enerjisinin ötürücü sisteminin bərpası" layihəsinin icrasına 2008-ci ildə başlanılıb və 2011-ci ildə başa çatdırılır. Sözügedən layihə üçün Dünya Bankı 48 mln. ABŞ dolları məbləğində kredit vəsaiti ayırıb. Layihənin məqsədləri:

yüksək gərginlikli elektrik veriliş xətləri şəbəkəsinin idarə olunmasının və istismarının təkmilləşdirilməsi;

beynəlxalq standartlara cavab verən SCADA sisteminin yaradılması və ötürücü sektorun reabilitasiyası yolu ilə elektrik enerjisi ilə təchizatın etibarlığının, keyfiyyətinin artırılması və iqtisadi səmərəliliyin əldə olunması.

Qeyd etmək lazımdır ki, respublikamızda ölkə iqtisadiyyatının və əhalinin enerciyə olan tələbatının ödənilməsində böyük ugurlar əldə edilmişdir.Artıq Azərbaycan enerci ixrac edən bir ölkəyə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, Dünya Bankı Azərbaycanda həyata keçirilən islahatların dəstəklənməsinə xüsusi diqqət yetirir.

**Dünya Bankının Azərbaycanda islahatların dəstəklənməsinə ayırdığı kreditlər**

| Struktur dəyişikliklərinə | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Layihənin adı | Kredit | | | | İstifadə olunmuş məbləğ | Qalıq məbləğ | Banka qaytarılmış məbləğ | Banka ödənilməli məbləğ |
| | Məbləği | Müddəti | Faiz | Güzəşt müddəti (il) | | | | |
| Reabilitasiya krediti | 41.60 | 14.09.1995 15.04.2030 | | 0.75 | 10 | 41.60 | 0.0 | 41.60 |
| Institusional kredit-I | 10.80 | 14.09.1995 01.02.2030 | | 0.75 | 10 | 10.80 | 0.0 | 10.80 |
| Institusional kredit-II | 7.50 | 17.10.2002 10.01.2038 | | 0.75 | 10 | 0.70 | 6.80 | 0.70 |
| SAC krediti-I | 52 | 31.07.1997 15.04.2032 | | 0.75 | 10 | 52.0 | 0.0 | 52.0 |
| SAC krediti (əlavə) | 5.0 | 08.04.1999 15.04.2032 | | 0.75 | 10 | 5.0 | 0.0 | 5.0 |
| SAC krediti-II | 48.40 | 13.03.2002 01.01.2037 | | 0.75 | 10 | 48.4 | 0.0 | 48.40 |
| Cəmi: min. SDR | 165.30 | | | | | 158.50 | 6.80 | 158.50 |
| Cəmi: min ABŞ $ | 244.64 | | | | | 234.58 | 10.06 | 234.58 |
| Neft sektoruna texniki yardım | 7,10 | 23.05.1995 15.12.2030 | | 0,75 | 10 | 7.10 | 0,0 | 7,10 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Böyük Bankın su təchizatı layihəsi | 38,80 | 06.07.1995 01.05.2030 | 0,75 | 10 | 38,80 | 0,0 | 38,80 |
| Böyük Bankın su təchizatı layihəsi-II | 10,3 | 30.06.2003 01.05.2037 | 0,75 | 10 | 0,30 | 10,0 | 0,30 |
| Qaz sisteminin reabilitasiya layihəsi | 13,90 | 02.10.1996 01.07.2031 | 0,75 | 10 | 12,80 | 1,10 | 12,80 |
| Kt-nın özəlləş-dirilməsi layihəsi | 10,20 | 24.02.1997 01.10.2031 | 0,75 | 10 | 10,10 | 0,10 | 10,10 |
| Kt-nın inkişafı və kreditləş-dirilməsi | 22,20 | 04.10.1999 15.04.2034 | 0,75 | 10 | 10,50 | 10,50 | 10,50 |
| **Bilavasitə Azərbaycan hökumətinə verilən kreditlər** | | | | | | | |
| Təxirəsalınmaz ekoloji tədbirlər layihəsi | 14.90 | 07.08.1998 15.03.2033 | 0,75 | 10 | 9.20 | 5.70 | 5.70 |
| Ərazilərin bər-pa edilməsi üzrə pilot layihəsi – I | 14.90 | 07.08.1998 15.03.2033 | 0,75 | 10 | 9.20 | 5.70 | 5.70 |
| Ərazilərin bərpa edilməsi üzrə pilot layihəsi - II | 7.40 | 14.10.1999 15.03.2033 | 0,75 | 10 | 5.20 | 2.20 | 2.20 |
| Mədəni irsin qo-runması layihəsi | 5.60 | 31.05.1999 01.02.2034 | 0,75 | 10 | 3.20 | 2.40 | 2.40 |
| Təhsil islahatları layihəsi - I | 3.70 | 29.06.1999 15.01.2034 | 0,75 | 10 | 3.50 | 0.20 | 0.20 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Suvarmadrenaj sisteminin bərpası | 31.70 | 24.08.2000 15.01.2035 | 0,75 | 10 | 9.90 | 21.80 | 21.80 |
| Səhiyyə islahatları layihəsi | 4.0 | 26.07.2001 15.01.2035. | 0,75 | 10 | 2.10 | 1.90 | 2.10 |
| TRASECA yolunun bərpasi layihəsi | 31.50 | 25.07.2001 01.06.2036 | 0,75 | 10 | 2.0 | 29.50 | 2.0 |
| Maliyyə sektoruna texniki yardım | 4.30 | 06.01.2001 01.03.2036 | 0,75 | 10 | 1.50 | 2.80 | 1.50 |
| Təhsil islahatları layihəsi - II | 13.20 | 27.05.2003 15.05.2038 | 0,75 | 10 | 0.0 | 13.20 | 0.0 |
| İrriqasya paylama sistemi və idarə- etmənin təkmilləşdirilməsi layihəsi | 25.70 | 24.09.2003 15.08.2038 | 0,75 | 10 | 0.0 | 25.70 | 0.0 |
| Cəmi: mln SDR | 259.40 | | | | 126.60 | 132.70 | 126.60 |
| Cəmi: mln ABŞ $ | 383.91 | | | | 187.37 | 196.54 | 187.37 |

Cədvəl məlumatlarından göründüyü kimi Dünya Bankı Azərbaycanda islahatların dəstəklənməsinə ayırdığı kreditlər ölkə iqtisadiyyatının inkişaf etməsində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ayrılmış kreditlər Respublikada irriqasiya layihələrinin, kanalizasiya və suvarma sisteminin, drenaj sisteminin bərpasına TRACEKA proqramının həyata keçirilməsinə, yolların bərpası, təhsil və səhiyyə islahatlarının aparılması, maliyyə sektoruna yardım edilməsinə yönəldilmiş kreditlərdir. Bu kreditlər uzunmüddətli aşağı faizlə verilmiş olan kreditlərdir ki, bu da ölkə iqtisadiyyatının inkişafında müstəsna əhəmiyyət kəsb edir.

### 3. Qeyri-neft sektorunda investisiyalardan istifadənin səmərəsinin yüksəldilməsi və dövlət tənzimlənməsinin təkmilləşdirilməsi

Azərbaycan iqtisadiyyatının "holland sindromu" ilə üz-üzə qalmaması üçün və dünya bazarına tamhüquqlu istehsalçı kimi çıxa bilməsi həlledici dərəcədə həyata keçirilən investisiya siyasətindən asılıdır. Ilk mərhələdə struktur irəliləyişləri istehsalın həcminin aşağı düşməsinin qarşısının alınmasına və maddi-maliyyə sabitliyinin təmin olunması üçün zəruri ilkin şərtlərin yaradılmasına yönəldilməlidir. Bu isə öz növbəsində investisiya qoyuluşunun daha çox istehsal bölməsinə qoyulmasını tələb edir.Belə bir inkişaf yolu bütövlükdə istehsalın fond-material tutumunu aşağı salmağa şərait yaratmaqla, kapital qoyuluşunun səmərəliliyini qısa dövrdə artırmağa imkan yaratmış olur.

İnvestisiya fəallığının artırılması istehsalın fond və material tutumunun aşağı düşməsi ilə müşayiət olunmazsa, onda belə bir investisiya fəallığı müəyyən dövrdən sonra iqtisadi inkişaf üçün ağır yükə çevriləcəkdir. Bu isə iqtisadiyyatın sabitləşdirilməsi deyil, daha çox böhranın dərinləşməsinə və iqtisadiyyatın qeyri-sabitliyinin daha da artmasına səbəb olacaqdır. Buna görə də Azərbaycanda tam bazar iqtisadiyyatını qurmaq üçün qısa dövrdə struktur investisiya siyasətində cəmiyyətin tələbatını və ən başlıcası isə perspektiv inkişafı mümkün qədər tez və yaxşı ödəməyə şərait yaradan istiqamətlərə üstünlük verilməlidir. Struktur-investisiya siyasətinin digər istiqaməti təsərrüfat subyektləri tərəfindən əmtəə və xidmətlərin təklifinin genişləndirilməsinin stimullaşdırılması ilə əlaqədardır.

Xarici investorların cəlb edilməsi üzrə ilk növbədə təminat olmalıdır. Yəni yatırılmış investisiyalar ölkənin qanunvericiliyi ilə qorunmalıdır. Məlum olduğu kimi bu sahədə bir çox investisiya qanunları qəbul edilərək qüvvəyə minmişdir, lakin yenə bu sferada çatışmazlıqlar mövcuddur və kompleks tədqiq tələb edir. Xarici investisiyaların cəlb edilməsində məqsəd respublika iqtisadiyyatının sahə strukturunun yenidən qurulmasına, işsizliyin ləğv edilməsinə, təbii ehtiyatlardan daha səmərəli istifadə olunmasına, ağır sənayenin inkişafına, xalq istehlakı mallarının istehsalının sürətləndirilməsi üçün mütərəqqi texnika və texnologiyanın cəlb olunması, habelə ekoloci mühitin yaxşılaşdırılması problemlərinin həllini təmin etməkdir.

Qeyd etmək lazımdır ki, keçən əsrin 70-80-ci illərində Azərbaycanda yaradılmış güclü sənaye potensialı tamamilə köhnəlmiş, nisbə-

tən yararlı olanlardan isə pis istifadə edilir. Yəni sənayedə mövcud olan istehsal gücləri yalnız 40% yüklənir, bir çox istehsalat müəssisələri isə fəaliyyətini tamamilə dayandırmışdır.Bunun səbəbi bir tərəfdən müvafiq xammal, material və ehtiyat hissələrinin çatışmaması, texnoloci aşınma, satış bazarlarının itirilməsi və inteqrasiya əlaqələrinin qırılması ilə bağlıdırsa, digər tərəfdən müasir tələblərə cavab verən kadr çatışmazlığı ilə müəssisələrin işini iflic vəziyyətə salmaları ilə əlaqədardır.

Milli iqtisadiyyatın bazar münasibtləri əsasında dəyişdirilməsi təkcə daxili maliyyə ehtiyatları hesabına mümkün deyil. Ona görə də daxili potensialdan son dərəcə maksimum istifadə etməklə bərabər, xarici kapitalın respublikaya axını üçün yaradılmış şəraitin daha da cəlbedici olmasına çalışmaq lazımdır. Belə ki, investisiya və kreditlər beynəlxalq standartlara uyğun yüksək rəqabət-qabiliyyətli məhsulların istehsalını artırmağa, idxal və ixracatın səmərəli strukturunun formalaşmasına, iqtisadiyyatda struktur dəyişikliklərin aparılmasına yönəldilməlidir.

Respublika iqtisadiyyatında gedən əsaslı islahatlar investisiyaların həcminin kəskin surətdə artması, yəni nəqliyyat dəhlizinin açılması, ümumilikdə nəqliyyat kompleksinin canlanmasına da müsbət təsir göstərmişdir. Bu islahatlar sayəsindərespublikanın qeyri-neft sahələrinə kapital qoyuluşu üçün ehtiyat çatışmadığından şübhəsiz ki, xarici investorların iqtisadi maraqları xeyli dərəcədə artmışdır. Bu səbəbdən də ölkəyə xarici investisiya cəlb edərkən, onun milli-dövlət mənafelərinə xələl gətirməməsi ön plana çəkilməlidir. Bu problemin həllində dünya təcrübəsinə əsaslanma zəruridir.

Qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması əsasında daha əlverişli istehsal strukturunun yaradılması bazar münasibətlərinin mühüm amili hesab edilir.

Qeyd etmək lazımdır ki, keçən əsrin sonlarında texnoloci imkanların olmaması səbəbindən respublikada istehsal olunan pambığın 70%-i, yarımfabrikatların 86%-i, fermentləşdirilmiş tütünün 90%-i, kimya xammalının 70%-i son məhsul halına çatdırılmadan xaricə ixrac olunur. Elə buna görə də xarici investisiyaların, ilk növbədə, sənaye və kənd təsərrüfatında xammal emalı əsasında əlvan və qara metallurgiya sənayesi üzrə istehsal sahələrinin, kənd təsərrüfatı maşınlarının, çoxişlənən istehlak mallarının istehsalına və iqtisadiyyatın müxtəlif sahələrinin, kənd təsərrüfatı maşınlarının və iqtisadiyyatın müxtəlif

sahələrində qabaqcıl texnika və texnologiyanın daha məqsədəuyğun hesab edilməlidir.

Hazırda Azərbaycan hökuməti tərəfindən məqsədyönlü investisiya siyasəti hazırlanmışdır. Xarici investorların cəlb ediləcəyi obyektlər müəyyən edilərkən ətraf mühitə və mili sərvətlərin gələcəyinə təsiri nəzərə alınmalıdır.Bu prosesdə düzgün vergi siyasətinin müəyyənləşdirilməsi investorların həvəsləndirilməsi işində mühüm rol oynayır.

«Xarici investisiyaların qorunması haqqında» qanun xarici investorlar üçün istehsalın müxtəlif sahələrində müəssisələr açmağa şərait yaradır. Yaradılan birgə müəssisələrin nizamnamə fondunda xarici investorun payı əgər 30%-dən çoxdursa, bu halda həmin müəssisə istehsal etdiyi əmtəəni respublikadan kənara lisenziyasız çıxara bilər. Xarici kapitalın payı 30%-dən yuxarı olan müəssisələr üçün ən yüksək vergi 25% olmalıdır. Halbuki yerli müəssisələr öz mənfəətindən 33-35% vergi verirlər. Birgə müəssisələr dağ yerlərində yaradılarkən, mənfəətdən vergi cəmi 10% təşkil etməlidir. Bundan başqa, mənfəətin yeni texnika və texnologiya alınmasına yönəldilən hissəsi vergidən azad edilir. Nəzərdə tutulur ki, birgə müəssisələrin yaradılması üçün lazım olan avadanlıq respublikaya gətirilərsə gömrük haqqı alınmır.

Bundan əlavə, xarici investisiyalar respublikamızın iqtisadiyyatına cəlb edilərkən onların hansı sahələrə yönəldilməsindən və qoyulan xarici kapitalın həcmindən asılı olaraq vergi güzəştlərinin nəzərdə tutulması da məqsədəuyğun olardı.

Azərbaycanda da iqtisadiyyatın bazar yolu ilə inkişaf etdirilməsi üçün xarici investorların cəlb edilməsi zəruri şərtdir. Sərbəst iqtisadi zonaların yaradılması isə bu prosesi sürətləndirir. Məlumdur ki, sərbəst iqtisadi zona xarici kapitalın hər hansı bir ölkəyə axınını təmin edən xüsusi təsərrüfatçılıq formasıdır. Belə zonaların qayda-qanunları elə tənzimlənir ki, xarici investorlar həvəslənsin, xarici müəssisələrin və müştərək firmaların sayı artsın, yeni iş yerləri yaransın, xarici kapital axını güclənsin və bütövlükdə investisiya tətbiq olunan ölkənin inkişafına təkan verən valyuta ehtiyatı qazanılsın.

Onu da qeyd edək ki, sərbəst zonalar müəyyən məqsədlərə xidmət edir. Regionda işsizliyin ləğv edilməsi, məhsuldar qüvvələrdən səmərəli istifadə, qabaqcıl texnika və texnologiyanın iqtisadiyyata tətbiqi, ekoloci mühitin yaxşılaşdırılması və s. kimi istiqamətlər sərbəst iqtisadi zonaların yaradılmasının son məqsədi olmalıdır. Bu sahədə

müəyyən işlər aparılmış, sərbəst iqtisadi zonaların yaradılması üçün cəhdlər edilmişdir.

Sumqayıt, Naxçıvan, Ələt və s. ərazilərdə sərbəst iqtisadi zonaların yaradılması üçün müəyyən işlər görülmüşdür. Lakin hələlik bir nəticə yoxdur.

Beləliklə, iqtisadiyyatımızın müasir vəziyyətində sahə strukturunun yenidən qurulması üçün investisiya qoyuluşlarının rolu əvəzsizdir. Belə ki, respublikada iqtisadi strukturun ərazi, sahə, təkrar istehsal və texnoloci baxımdan yenidən qurulması və bu prosesin bazar münasibətlərinə əsaslanması, siyasi və iqtisadi müstəqilliyimizin möhkəmləndirilməsi və inkişafı investisiya qoyuluşlarının sürətləndirilməsi ilə respublikada sənaye və digər sahələrin strukturunun yenidən qurulması üçün valyuta mənbəyi qazanmasına imkan yaratmış olur. Bu da ölkədə maşınqayırma sənaye sahələrində müəssisə və şirkətlərin yenidən qurulmasını təkmilləşdirməklə, digər sahələrin, o cümlədən emal, yüngül, yeyinti sənaye sahələrinin, habelə turizm, kənd təsərrüfatında və eləcə də xidmət sahələrinin də sürətlə inkişafına təkan verə bilən maddi -texniki bazanın yaradılması işini gücləndirə bilər.

Respublikamızda investisiya siyasəti sahəsində Azərbaycan Respublikası MM-də «Xüsusi iqtisadi zonalar», «Investisiya fəaliyyəti haqqında» qanunlar qəbul edilmişdir.

Dövlətin investisiya siyasətinin şəffaflığını artırmaq və layihələrin ardıcıllıqla həyata keçirilməsini təmin etmək məqsədilə Iqtisadiyyat və Sənaye Nazirliyində hökumətin digər iqtisadi strukturları ilə əməkdaşlıq şəraitində ilk dəfə olaraq dövlət investisiya proqramı hazırlanmışdır. Nazirlik mütəxəssislərinin fikrincə, 2014-2018-ci illəri əhatə edən bu proqramdakı layihələr hər il dəqiqləşdiriləcəkdir. Sahibkarlığın inkişafı üçün şəraitin yaxşılaşdırılması sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində investisiya qoyuluşlarının ÜDM-də payı xeyli artmışdır. ÜDM-in 2014-cü ildə ölkədə əsas kapitala investisiya qoyuluşlarının 31,4%-ə bərabər olması nəzərdə tutulur ki, bu da 2012-ci ilə nisbətən 2,9% yüksəkdir. Qeyd etmək lazımdır ki, bu göstəriciyə görə respublikamız, dünyanın sürətli inkişaf edən ölkələri sırasına aiddir. Dövlətin investisiya xərclərinə gəldikdə isə, bu illə müqayisədə gələn il onların xeyli artacağı gözlənilir. Bu vəsait əsasən məktəblərin, xəstəxanaların, məcburi köçkün ailələri üçün yaşayış evlərinin və digər sosial obyektlərin tikintisinə, habelə yolların, meilorasiya və suvarma sistemlərinin bərpasına xərclənəcəkdir.

2014-2018-ci illərdə investisiyaların idarə edilməsi prosesinin yaxşılaşdırılması məqsədilə tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bu tədbirlər yoxsulluğun azaldılması üzrə Dövlət proqramı çərçivəsində həyata keçiriləcək. Bununla bağlı 2014-cü ilin sonuna kimi Iqtisadiyyat və Sənaye Nazirlikləri tərəfindən Dövlət investisiya proqramının başa çatdırılması planlaşdırılır. 2014-2018-ci illər ərzində Iqtisadiyyat və Sənaye Nazirliyinin investisiya layihələrinin iqtisadi əsaslandırmalarının idarəetmə potensialının artırılacağı gözlənilir. Bundan başqa, respublikanın bütün rayonlarının sosial-iqtisadi inkişafının imkanlarını özündə əks etdirən investisiya xəritələrinin hazırlanması nəzərdə tutulur.

Hökumətdə hesab edirlər ki, bunun sayəsində regionlara investisiya qoyuluşlarının səviyyəsi yüksələcək. Bu məqsədlər üçün BMT Inkişaf Proqramı Azərbaycan Respublikası tərəfindən 50 min dollar həcmində vəsait ayrılacağı planlaşdırılır.

Avropa Yenidənqurma və nkişaf Bankı (AYİB) Azərbaycan üzrə biznes strategiyanı təsdiq etmək niyyətindədir və bununla bağlı bazar iqtisadiyyatına keçidlə əlaqədar ölkədə aparılmış istlahatlarla tanış olmaq məqsədilə Azərbaycanda tədbirlər keçirilmişdir. Almaniya üzrə AYİB rəsmiləri bəyan edirlər ki, vəsait qoyuluşu əsas etibarilə aparılmış islahatlardan, ölkədə mövcud investisiya ab-havasından, həmçinin bank sektorunda və infrastrukturunda layihələrin həyata keçirilməsindən asılıdır. AYİB missiyası Azərbaycan Respublikası hökümətində, biznes dairələrdə və diplomatik korpusların nümayəndələri ilə görüşlər keçirmişdir. Bu görüşlər nəticəsində aydın olmuşdur ki, yoxsulluğun azaldılması və iqtisadiyyatın inkişafı proqramı yüksək səviyyədə hazırlanmışdır, lakin başlıca məsələ onların həyata keçirilməsidir.

AYİB Azərbaycanla əməkdaşlığı davam etdirməkdə və əsasən, yoxsulluğun azaldılması proqrammı ilə üst-üstə düşən, məsələn, kiçik və orta sahibkarlığın (KOS), qeyri-neft sektorunun inkişaf etdirilməsi kimi layihələrə vəsait ayırmaqda maraqlıdır. Bundan savayı, AYİB maliyyə, neft-qaz, nəqliyyat, energetika sektorlarına yardım göstərməyi nəzərdə tutur.Indiyə kimi Azərbaycan tərəfi ilə əməkdaşlıq çərçivəsində AYIB KOS, energetika, nəqliyyat, bank sahələrində 17 layihəyə 330 mln.dollara yaxın həcmdə vəsait ayırmışdır. AYİB nümayəndələri ilə görüşlərdə Azərbaycan Respublikası hököməti infrastrukturun, energetika və ekoloci sektorların inkişafı üzrə layihələrin həyata keçirilməsində bankın dəstəyini almaq istədiklərini bildirmişlər.

Qeyd etmək lazımdır ki, son illərdə dövlətin özəl sektorunun maliyyələşdirilməsində rolu artmışdır. Belə ki, indiyədək (2014-cü ili də nəzərə almaqla) dövlət büdcəsindən Sahibkarlığa Kömək Milli Fonduna 831,0 mln. manat, «Aqrolizinq» ASC-yə 453,4 mln.manat, kənd təsərrüfatı kreditləri üzrə Dövlət Agentliyinə 64 mln.manat vəsait ayrılmışdır. 2014-cü ildə Sahibkarlığa Kömək Milli Fonduna 150 mln.manat, «Aqrolizinq» ASC-nə 35,0 mln.manat, Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinə 5 mln.manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bütün bunlar da ölkədə özəl sektorun, mili sahibkarlığın inkişafına öz töhfəsini verəcəkdir.

Azərbaycan hökumətinin ölkəyə xarici investisiyaların cəlb edilməsi sahəsində həyata keçirilən tədbirləri miqdar baxımından qənaətbəxş olsa da, bu kifayət etmir. Ölkəyə xarici investisiyaların cəlb edilməsi problemləri demək olar ki, qeyri-neft sektorunun əksər sahələrini əhatə edir.

Qeyd etmək lazımdır ki, artıq Azərbaycanda makroiqtisadi sabitlik qorunub və bu da öz növbəsində sərmayə cəlbi üçün əlverişli şərait yaradıb. Əlverişli coğrafi məkanda yerləşən Azərbaycan, Asiya və Avropanı birləşdirən qovşaq nəqliyyat dəhlizidir. Bu sərmayəçilər üçün əlavə üstünlüklər yaradır. Digər tərəfdən isə sərmayəçilər Azərbaycanda sərmayə mühitinin təkmil olduğunu vurğulayır. Bakıda keçirilən Beynəlxalq konfranslarda 100-ə yaxın xarici investorla əlaqə yaradılmış, onlara Iqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən maşınqayırma və kimya sənayesi komplekslərində, tikinti materialları istehsalında turizmdə və s.-də əlverişli investisiya imkanları olduğu bildirilib.

Dövlətin investisiya siyasətinin şəffaflığını artırmaq və layihələrin ardıcıllıqla həyata keçirilməsini təmin etmək məqsədilə Iqtisadiyyat və Sənaye Nazirliyində hökümətin digər iqtisadi strukturları ilə əməkdaşlıq şəraitində dövlət investisiya proqrammı hazırlanmışdır.

Sahibkarlığın inkişafı üçün şəraitin yaxşılaşdırılması sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2014-cü ildə ölkədə əsas kapitala investisiya qoyuluşlarında qeyri-dövlət bölməsinin payı 47,5 faiz olacağı proqnozlaşdırılır ki, bu da 2012-ci ildəki səviyyədən 8,6% çoxdur. 2014-cü ildə investisiya qoyuluşlarının 70,4 faizi daxili investisiyalar hesabına həyata keçiriləcək. Respublikamızın beynəlxalq maliyyə-kredit təşkilatlarından aldığı kreditlər barədə məlumat üçün aşağıdakı cədvələ müraciət edək.

**1994-2011-ci illərdə Azərbaycan Respublikasının Beynəlxalq Maliyyə-Kredit Təşkilatlarından aldığı kreditlər (mln. dollar)**

| | |
|---|---|
| Dünya Bankı | 3530 |
| Avropa Yenidənqurma və Inkişaf Bankı | 1646 |
| Asiya Inkişaf Bankı | 660 |
| Beynəlxalq Valyuta Fondu | 462 |
| Türk EXUM Bankı | 150 |
| İslam Inkişaf Bankı | 150 |
| Digər Kommersiya Bankları | 350 |
| Cəmi | 6948 |

Son vaxtlar ölkədə qeyri-neft sektorunun, xüsusilədə aparıcı ixrac potensialının və valyuta gəlirlərinin artırılmasının kəskin zərurəti yaranır ki, bunlar da yalnız xarici investisiyaların ölkə iqtisadiyyatının bütün sahələrinə daha geniş cəlb olunması ilə mümkündür.

Qanunvericilik və hüquqi-normativ aktlar Azərbaycanda əlverişli investisiya şəraitinin formalaşması, əsas fondlara amortizasiya ayırmalarından öz təyinatına görə istifadəsi, gəlirin kapitallaşdırılmasına görə vergi stimulları, qiymətli kağızlar bazarının inkişafı, sığorta işi və təminatlar, ipoteka, itkilərin qarşısının alınması və yerli kapitalın xaricdən qaytarılmasının stimullaşdırılması, xarici investorların cəlb olunması kimi strateji istiqamətlərin reallaşdırılmasını təsbit edir. Yerli və xarici investorların stimullaşdırılması proqramının təşkilati-hüquqi təminatı qanunvericilik və normativ aktların qəbul edilməsinin mövcud sistemi çərçivəsində formalaşmalıdır. Kapitalın xarici ixracında məhdudiyyətlər və xarici banklarda Azərbaycanın hüquqi və fiziki şəxslərinin hesablarında aşağı salınmış qiymətlər üzrə ixrac olunan və qaldırılmış qiymətlərlə idxal olunan mal və xidmətlərin qiymət fərqini saxlamağın mümkünlüyü zəruridir. Xarici investorlara vergi güzəştlərinin verilməsi ilə bağlı münasibətləri tənzimləyən vergi qanunvericiliyinə və normativ sənədlərə əlavələr etmək, vergi verənin müdafiəsi üçün apellyasiyalara baxılması qaydasını təsis etmək zəruridir.

Azərbaycanda daxili və xarici investisiyaların kompleks proqramlarının stimullaşdırılmasının reallaşdırılmasında investisiya fəaliyyətinin qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi, eləcə

də zəruri təşkilati tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu tədbirlərə aşağıdakıları aid etmək olar:

İnvestisiyaların maliyyə, valyuta, vergi, gömrük, tarif və qeyri-tarif tənzimlənməsi haqqında qanunvericlik aktlarının və digər normativ sənədlərin sabitliyi;

Hüquqi-normativ sənədlərdə vaxtaşırı nəzərdə tutulan dəyişikliklər haqqında informasiyanın mövcudluğu;

İnvestisiyaların idarəetmə orqanlarının müfəssəl idarəçilik sistemi və mexanizmlərinin olması.

Daxili və xarici investisiyaların stimullaşdırılması proqramının təşkilati-hüquqi təminatı qanunvericilik və normativ aktların qəbul edilməsinin mövcud sistemi çəçivəsində formalaşmalıdır. Bazar iqtisadiyyatlı inkişaf etmiş xarici ölkələrin təcrübəsi göstərir ki, ümumi daxili məhsulun tərkibində bütün mənbələr hesabına investisiya qoyuluşunun xüsusi çəkisi 30-35% olduqda, bu istehsalın artımına, iqtisadi yüksəlişə zəmin yaradır və bu əsasda istehsal daha sürətlə inkişaf etdirilir.

Azərbaycan iqtisadiyyatının davamlı və sabit inkişafını təmin etməklə iqtisadiyyatın bütün sahələrinə xarici investisiyaların cəlb olunmasını stimullaşdırmaq məqsədilə güzəştli vergiqoyma, ikiqat vergiqoymadan azad-etməni tətbiq etməklə, investisiyanın Azərbaycan iqtisadiyyatına axınını gücləndirmək olar.

Ölkə iqtisadiyyatının, o cümlədən sənayenin qeyri-neft sektorunun dinamik və davamlı inkişafının təmin olunması xeyli dərəcədə dövlətin investisiya siyasətinə yeni istiqamətlərin daxil edilməsindən asılıdır. Dövlətin investisiya siyasəti ölkənin davamlı iqtisadi artımına, yeni iş yerlərinin yaradılmasına, sənaye və kənd təsərrüfatında yeni texnologiya əsasında dərin struktur dəyişikliklərin əldə edilməsinə, bir sözlə, milli iqtisadiyyatın möhkəm dayaqlar üzərində formalaşması və inkişafına yönəldilməlidir. İqtisadi inkişafın hazırkı mərhələsində Azərbaycanın investisiya siyasətinin yüksək dövlət investisiyası, davamlı və tarazlı iqtisadi artımın təmin olunması, iqtisadi sistemdə mövcud olan disproporsiyaların bərpası, eləcə də regional inkişafın təmin edilməsi kimi prinsiplər üzərində qurulması zəruriliyini əsaslandırmağa çalışanlar heç də yanılmırlar. Neft gəlirlərinin ölkə iqtisadiyyatında rolu nə qədər yüksək olsa da, davamlı iqtisadi inkişafa digər investisiya resurslarını da hərəkətə gətirməklə nail olmaq mümkündür. Bazar iqtisadiyyatı şəraitində investisiya prosesinin fəallaşmasının ilkin şərtlərinin meydana çıxmasının obyektiv zəruriliyi dövlətin pul-

kredit, büdcə-vergi və qiymət siyasəti ilə qarşılıqlı uzlaşdırılan makroiqtisadi amillərə uyğun olaraq xüsusi mülkiyyət formalarının imkanlarından maksimum istifadə olunması və fond bazarından investisiyanın cəlb edilməsi nəticəsində mümkün olur.

Son vaxtlar respublikamızda qazanılan uğurlarla yanaşı, hesab edirik ki, ölkədə formalaşmış dövlətin investisiya siyasəti əsasən aşağıdakı əsas prinsiplərə söykənməklə həyata keçirilməlidir:

İnvestorla qarşılıqlı münasibətlərdə xeyirxahlıq;

İnvestorların əsasən düzlüyə can atmaları;

Ümumi və şəxsi maraqların balanslaşdırılması;

İnvestorların bərabərhüquqlu olmalarının təmin edilməsi;

İnvestisiya prosesinin həyata keçirilməsinin tam aydınlığı və sadəliyi;

Çıxarılan investisiya qərarlarının obyektiv qiymətləndirilməsi;

Qəbul edilən investisiya qərarlarında sağlam iqtisadi fikrin təminatı;

Qəbul edilən investisiya qərarlarının dəyişməzliyi;

Bütün investorlar üçün informasiyaların son dərəcə mümkün açıqlığı və anlaşıqlığı.

İnvestisiya siyasətinin işlənib hazırlanması zamanı reallaşdırılmağa verilmiş biznes-tədbirlərin Azərbaycan Respublikasında investisiya fəaliyyətinin tənzimlənməsi məqsədlərinə aid edilən qanunvericilik və digər hüquqi-normativ aktlara tam uyğunluğunu təmin etmək məqsədəuyğundur. Məsələn, 1995-ci ildə qəbul edilmiş “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu ölkə ərazisində investisiya fəaliyyətinin ümumi sosial, iqtisadi və hüquqi məsələlərini tənzimləməklə investisiyanın ölkə iqtisadiyyatına intensiv cəlb olunmasına, ondan ölkənin sosial-iqtisadi bazasının, habelə beynəlxalq iqtisadi əməkdaşlığın və inteqrasiyanın inkişafı üçün səmərəli istifadə edilməsinə yönəldilmiş və mülkiyyət formasından asılı olmayaraq bütün investorların bərabər müdafiəsinə təminat verir. 1992-ci ildə qəbul edilmiş və sonradan dəfələrlə dəyişikliklərə məruz qalmış “Xarici investisiyaların qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa görə, xarici investorlar ölkə ərazisində investisiyaları respublikamızın hüquqi və fiziki şəxsləri ilə birgə müəssisələr və tamamilə xarici investora məxsus olan müəssisələr yaratmaqla, habelə respublikamızın qanunvericilik aktlarına uyğun olaraq, müəssisə və digər əmlak satın almaqla həyata keçirirlər.

Azərbaycanın iqtisadiyyatına xarici investisiyaların axını olkənin ixracat potensialının genişləndirilməsinə, istehsalın inkişafına, əmək ehtiyatlarından tam və səmərəli istifadə edilməsinə, sahibkarlıq sahəsində muasir bazar munasibətlərinin mənimsənilməsinə, yeni texnologiyanın olkəyə gətirilməsinə və butovlukdə olkənin iqtisadi infrastrukturunun yenidən qurulmasına səbəb olmuşdur. Məhz bu baxımdan Azərbaycanda investisiya muhitinin oyrənilməsi və bu sahədə olan problemlərin uzə cıxarılması aktual problemlərdən biri hesab edilmişdir.

Qeyd etmək lazımdır ki, respublikamızda əlverişli vergi muhitinin yaradılması məsələsi xarici investorları narahat edən başlıca problemlərdəndir. Xarici investorları vergi guzəşti və imtiyazlarından daha cox, oz fəaliyyətlərini uzun muddətə proqnozlaşdırmağa imkan verən vergi sisteminin sabitliyi və təkamülünün muəyyənliyi maraqlandırır.

Azərbaycan dövlətinin investisiya siyasətinin əsas məqsədi elmi-texniki nailiyyətlərin tətbiqi hesabına əsas fondların yeniləşdirilməsinin və istehsalın yenidən qurulmasınınRhəyata kecirilməsinin təmin edilməsidir. Hazırkı şəraitdə investisiya siyasətinin ən səciyyəvi xüsusiyyətlərindən biri movcud muəssisələrin texnika ilə təchizinə və yenidən qurulmasına yonəldilən məsrəfin (əsaslı vəsait qoyuluşunda avadanlıq və maşınlar üçün) xususi cəkisinin yuksədilməsindən ibarətdir. Bu sahəyə yönəldilmiş xərclərin getdikcə artması əsas istehsal fondlarının yeniləşməsinə səbəb olur.

Qeyd etmək lazımdır ki, beynəlxalq təcrübədə uzun muddət dəyişməyən vergi sistemi (vergi rejimi) mövcud deyildir. Hər bir vergi sistemi tətbiq olunduğu dovrdən ictimai quruluşun xarakterini, olkənin iqtisadiyyatının vəziyyətini, sosial-siyasi vəziyyətin sabitliyini və s. xususiyyətləri əks etdirir.

Ölkədə həyata kecirilən vergi siyasətinin əsas istiqamətlərindən biri də əlverişli vergi mühitinin yaradılması vasitəsilə xarici investtorların olkəyə cəlb olunmasıdır. Bu məsələ ilə əlaqədar Azərbaycan Respublikası tərəfindən bir sıra beynəlxalq muqavilələr bağlanmışdır. Bu muqavilələr əsasən investisiyaların təşviqi və qorunmasını, gəlirlərə və əmlaka gorə vergilərə munasibətdə ikiqat vergitutmanın aradan qaldırılmasını, nəqliyyat daşımalarını və kredit sazişlərini əhatə edir.

Respublikada investisiya prosesinin inkişafına dovlət təsirinin gucləndirilməsi məqsədilə budcədə investisiya layihələrinə dovlət təminatlarının verilməsi nəzərdə tutulmuşdur. Bu təminat xarici investtisiyanın qorunması haqqında Azərbaycan Respublikasının Qanununda

oz əksinin tapmışdır. Respublikada sabit investisiya muhitinin yaradılmasında əsas amil ilk novbədə xarici investorlar üçün əlverişli şəraitin təşkil edilməsidir. Respublikaya investisiyanın axıb gəlməsinin ən başlıca səbəbi onların bu əməliyyatdan lazımi mənfəət əldə etməsidir.

Qeyd edək ki, respublikamızın investisiya siyasətinin muhum istiqamətlərinə aşağıdakı məsələlər daxildir:

Mərkəzləşdirilmiş qaydada maliyyələşdirməni azaltmaqla onlardan əsasən ümumdövlət obyektlərinə yonələn investisiyaların maliyyələşdirilməsi ucun istifadə edilməsi;

İnvestisiyaların ən cox iqtisadiyyatın prioritet sahələrinin inkişafına yonəldilməsi;

İnvestisiya resursları bazarının təşkil edilməsi;

Mənzil tikintisi və digər investisiya layihələrinin reallaşdırılması üçün əhalidən toplanan resurslardan istifadənin genişləndirilməsi;

İnvestisiya sığortası uzrə hüquqi bazanın yaradılması;

İnvestisiya tsiklinin davam etməsi müddətinin qısaldılması.

Respublikamızda xarici və daxili investisiya resurslarının səfərbərliyə alınması məqsədilə olkə iqtisadiyyatına investisiyanın cəlb edilməsi ucun Milli Proqram işlənib hazırlanmışdır. Bu proqramda xarici və daxili investisiyanın cəlb edilməsinin prinsipləri və mexanizmləri oz əksini tapmış və eyni zamanda, investisiyanın prioritet sferası üzrə əməkdaşlıq və onun səmərəlilik formaları gostərilmişdir.

İnvestisiya fəaliyyətinin dovlət tənzimlənməsi dedikdə, olkədə vahid iqtisadi, elmi-texniki, sosial siyasətin həyata kecirilməsi ucun kompleks tədbirlər sistemi başa düşülür. Bu tədbirlərin maliyyələşdirilməsi dövlət, yerli büdcələr və şəxsi vəsaitlər hesabına yerinə yetirilir. İnvestisiya qoyuluşları başlıca olaraq olkənin ictimai tələbatının odənilməsinə, iqtisadiyyatın strateji sahələrinin inkişafına yonəldilir. Təsərrüfat və mülkiyyət formalarından asılı olmayaraq investisiya qoyuluşları fəaliyyətdə olan ölkə qanunvericilik aktları ilə tənzimlənir.

Vergi tənzimlənməsi, demək olar ki, iqtisadiyyatda dövlət mudaxiləsinin butun sferalarını əhatə edir. Hər hansı bir dövrdə muvafiq vergiqoyma sistemi tətbiq etmək və yaxud da onu təkmilləşdirmək, vergi dərəcəsini muəyyənləşdirmək, onun quruluşu və formasını dəyişmək, alınan vergiləri diferensiallaşdırmaq, dövlətin iqtisadi siyasətindən asılı olmayaraq vergi güzəştləri qoymaq, ləğv etmək, vergi borcunun muddətini uzatmaq və ya tamam ləğv etmək və s. bu kimi tədbirlər verginin tənzimlənmə funksiyasının əsas (aparıldığı) istiqamət-

lərididir. Dövlət bu vasitələrdən istifadə edərək əsaslı vəsait qoyluşunu stimullaşdırır və ya məhdudlaşdırır, habelə əhalinin həyat səviyyəsinin formalaşmasına muhum təsir gostərir .

İnvestisiyaların cəlb edilməsi sahəsində dövlət tərəfindən aparılan məqsədyönlü tədbirlər çərçivəsində Azərbaycan İnvestisiya Şirkətinin fəaliyyəti genişləndirilmiş, qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması və ixracın təşviqi məqsədilə Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) yaradılmışdır. Muasir dovrdə bu istiqamətdə olkə iqtisadiyyatında əhəmiyyətli keyfiyyət dəyişiklikləri aparılır. Belə ki, əsas investisiya siyasətinin formalaşmasına diqqət daha da artırılır. İnvestisiya siyasətinin ən muhum vəzifəsi mövcud ehtiyatlardan səmərəli istifadə etməklə, vəsaiti elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən böluşdurməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, respublikamızın iqtisadiyyatına mustəqillik əldə olunandan bəri, son illərin statistik məlumatlarına əsasən təqribən 200 milyard dollar həcmində sərmayə qoyulmuş və bunun da yarısını xarici investisiyalar təşkil edir. Ümumiyyətlə, əhalinin rifahına duşən xarici investisiya həcminə görə, hazırda olkəmiz Şərqi Avropa və MDB məkanında lider olkələrdən sayılır.

Dovlətin artan maliyyə imkanları hesabına olkədə mühüm investtisiya, o cümlədən regional proqramların və infrastruktur layihələrin maliyyələşdirilməsinə şərait yaranmışdır. Bununla əlaqədar mohtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata kecirdiyi iqtisadi kursun prioritet istiqaməti olaraq Azərbaycanda neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsinə bu gun xüsusi diqqət yetirilir.v

Xarici investisiya siyasəti Azərbaycan dövlətinin ümumi investtisiya siyasətinin muhim tərkib hissəsi olub, milli iqtisadiyyatın yüksəlməsində, onun stabil inkişafında və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində özünəməxsus rol oynayır. Bu siyasətin həyata kecirilməsi üçün xüsusi investisiya proqramları işlənib hazırlanmalı və həmin proqramlarda milli iqtisadiyyatın xüsusiyyətləri və beynəlxalq təcrübə hərtərəfli öyrənilib nəzərə alınmalıdır. Bu zaman ölkə iqtisadiyyatının inkişafı ucun strateji əhəmiyyət kəsb edən sahələrə xüsusi diqqət yetirilməlidir. Belə sahələrdən biri də yanacaq-energetika olduğundan ilk novbədə həmin sahələrə xarici kapitalın cəlb edilməsi üçün ayrıca investisiya planı işlənib hazırlanmalı və həyata kecirilməlidir. Digər tərəfdən qeyri-neft sektoruna xarici ka-

pitalın cəlb olunması da diqqət mərkəzində olmalı və muhum vəzifə kimi qarşıda durmalıdır.

Belə ki, qeyri-neft sektorunun ayrı-ayrı sahələri uzrə sistemli şəkildə investisiya proqramları işlənməli, bunlar kompleks proqramlar ilə ziddiyyət təşkil etməməli və bu sahənin muxtəlif bolmələri arasındakı qarşılıqlı əlaqələri özündə əks etdirməlidir. Neft sektorundan alınan gəlirlərin qeyri-neft sektoruna yönəldilməsi üçün də kompleks proqramlar işlənib hazırlanmalıdır.

İqtisadiyyata investisiyaların cəlb edilməsi üçün əlverişli vergi mühitinin yaradılması respublikada aparılan vergi siyasətinin prioritet istiqamətlərindən biridir. Olkəmizdə aparılan iqtisadi siyasətin əsas istiqamətlərindən biri neft sektorunun inkişafı ilə paralel olaraq qeyri-neft sektorunun daha yuksək templə inkişaf etdirilməsini təmin etməkdən ibarətdir. Qeyd olunmalıdır ki, bu sahədə nəzərdə tutulan inkişaf artıq reallığa çevrilir.

### 4. Qeyri-neft sektoruna yönəldilmiş investisiyaların səmərəliliyinin yüksəldilməsi istiqamətləri

Dünya ölkələrinin təcrübəsində investisiya layihələrinin işlənilməsinin müxtəlif üsullarından istifadə olunur. Dünya ölkələrində investisiya layihələrinin məzmunu və əsas bölmələri müəyyən qədər standartlaşdırılmışdır. Avropa Iqtisadi Birliyinin tələblərinə görə, investisiya laiyhələrinin tərkibində yeddi əsas bölmənin olması vacibdir. Bu bölmələrə Layihəni həyata keçirən müəssisənin ümumi xaratkeristikası, istehsal ediləcək məhsulun xarakteristikası, marketinq tədqiqatı planı, işçi heyəti, istehsalın həcmi, maliyyə planı, istehsal proqramı daxildir.

Bundan əlavə, layihənin tərkibində, xüsusi bölmədə əsas texniki-iqtisadi göstəricilər verilir. Çox vaxt layihənin bölmələrinin məlumatları əsasında xülasə verilir. Bu şərhlər əsasında layihənin nə dərəcədə cəlbedici olması müəyyənləşdirilir. Buna görə də, həmin bölmə həm qısa, həm də məzmunlu olmalıdır ki, potensial investorlar layihə haqqında tam təsəvvür əldə edə bilsinlər. Investisiya layihəsinin işlənməsi əsasında 3 vacib məsələyə xüsusi diqqət yetirilir:

Müəyyən məhsul növünün istehsal olunması mümkünlüyü sübuta yetirilir;

Layihənin həyata keçirilməsinə mane ola biləcək qeyri-müəyyənlik hallarının aradan qaldırılması imkanı araşdırılır;

İstehsalı planlaşdırılan məhsul növünə olan tələbat müəyyənləşdirilir və bazar qiymətinin aşağı və yuxarı hədləri proqnozlaşdırılır.

Göstərilən məsələlər həll edildikdən sonra, investisiya layihəsinin həyata keçirilməsinin mümkünlüyü əsaslandırılmış olur. Bununla da, potensial investor qeyri-müəyyənlik hallarından azad olur, investisiyanın müxtəlif alternativ variantlarını müqayisə etmək yolu ilə özü üçün maraqlı variantı seçmək imkanı əldə edir.

Qeyd etmək lazımdır ki, investisiya layihələrinin həyata keçirilməsinə hazırlıq işlərinin mühüm mərhələlərindən biri investisiyaya cəlb olunması məqsədi ilə, potensial investorlara konkret təkliflərin hazırlanmasının göndərilməsidir. Investisiyaya cəlb etmək üçün təkliflər investisiya layihələrinin əsas texniki-iqtisadi göstəricilərindən istifadə olunaraq hazırlanır. Bu qayda ilə hazırlanmış təklif bir neçə nüsxədə və müxtəlif dillərdə hazırlanıb potensial gücə malik olan investorlara göndərilir.

İnvestisiya təklifi yığcam şəkildə və eyni zamanda, layihənin həyata keçirilməsi ilə bağlı əsas cəhətlər kifayət qədər açıq və konkret göstəricilərlə verilməlidir. Onun məzmununda, təklif olunan layihənin realizasiyasının bütün mərhələlərini xarakterizə edən texniki-iqtisadi göstəricilər layihənin perspektivli olmasını büruzə verməlidir. Belə olduqda, potensial investor layihəyə qoşulmaq haqqında qərar qəbul edə bilər.

Qeyd etmək lazımdır ki, investisiya layihələrinin həyata keçirilməsi üçün onun səmərəliliyinin yüksəldilməsi məsələsinin nəzərə alınması olduqca vacibdir.

Qeyd etmək lazımdır ki, investisiya layihələrin qiymətləndirilməsi zamanı onun səmərəliliyinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Dünya ölkələrinin təcrübəsində investisiya layihələrinin səmərəliliyi aşağıdakı kimi müəyyən edilir:

- Kommersiya (maliyyə) səmərəliliyi. Səmərəliliyin bu növü maliyyə baxımından layihənin reallaşdırılmasının nəticəsini onun iştirakçıları üçün şərh edir. Kommersiya səmərəliliyi iki qrupa bölünür: müəssisənin istehsal fəaliyyətinin, eləcə də cari və perspektiv maliyyə vəziyyətinin səmərəliliyi; investisiyanın səmərəliliyi. Birinci qrup göstəriciləri hesablamaq üçün balans hesabatından, gəlir və ziyanı əks etdirən hesabatdan, ikinci qrup göstəricilərin hesablanması üçün pul daxilolmaları haqqında hesabatdan istifadə olunur.

- Büdcə səmərəliliyi. Səmərəliliyin bu növü mütləq, həm də nisbi olub yerli hakimiyyətin maliyyə vəziyyətini əks etdirir. Bundan əlavə, büdcə səmərəliliyi gələcəkdə yaradılan, genişləndirilən və s. müəssisələrdən büdcəyə daxil olan vergiləri xarakterizə edir.

- İqtisadi səmərəlilik. Səmərəliliyin bu növündə layihənin reallaşdırılması ilə əlaqədar onun iştirakçılarının maliyyə maraqlarından kənara çıxan və dəyərlə ölçülən xərc və nəticələr nəzərə alınır. İri və dövlət miqyaslı layihələrin əsaslandırılması zamanı səmərəliliyin bu növündən istifadə olunması xüsusi əhəmiyyət kəsb edir.

- Sosial səmərəlilik. Səmərəliliyin bu növü mənzil-məişət və əmək şəraitinin dəyişməsinə, işçilərin və əhalinin sağlamlığını, asudə vaxtın səmərəli təşkilini, əhalinin məşğulluğunu özündə birləşdirir.

- Ekoloji səmərəlilik. Səmərəliliyin bu növü ətraf mühitin çirklənməməsinə, onun qorunmasına çəkilən xərcləri ifadə edir.

İnvestisiya layihələrinin səmərəliliyi müəyyən edilərkən gələcək xərc və nəticələrin qiymətləndirilməsi zamanı aşağıdakıların nəzərə alınması vacibdir:

Obyektlərin yaradılması, istismarı və ləğv edilməsi müddəti;

Texnoloji avadanlıqların orta xidmət müddəti;

Gəlirin nəzərdə tutulan xarakteristikasına nail olmaq;

İnvestorların tələbi və s.

İnvestisiya layihəsinin səmərəliliyi dedikdə, investisiya layihəsinin reallaşdırılmasının nəticələrinin səmərəlilik səviyyəsini xaratkerizə edən göstəricilər sistemi başa düşülür. Investisiya layihələrinin həyata keçirilməsinin perspektivi xeyli dərəcədə onun hesablama metodlarından asılıdır. Hesablamada faiz dərəcəsinin seçilməsi həmişə subyektiv xarakter daşıyır. Məsələn, firmanın aldığı kreditlər üzrə faiz dərəcəsi, dövlət istiqrazı üzrə itirilmiş imkanlar prinsipinə müvafiq olaraq faiz dərəcəsi və s. Bu cür hesablaşma dərəcəsi xərcin çıxarılması üçün daxili norma adlanır.

İnvestisiya layihələrinin səmərəliliyinin başqa göstəriciləri kimi, xərcin çıxarılmasının daxili normasının müəyyən edilməsi metodikası da investisiya axınlarının və gəlirlərin paylanma xaratkerindən asılıdır.

İnvestisiya layihəsinin səmərəliliyinin ikinci göstəriciçi onun ümumi rentabelliyidir. Bu kəmiyyət layihənin reallaşmasından əldə edilən xalis cari səmərənin investisiyalar axınının cari dəyərinə nisbətidir. Investisiya layihələrinin səmərəliliyini daha tam qiymətləndirmək üçün məcmu cari balans valyutası göstəricisi hesablanır.

Bu göstərici resipiyentin diskontlanan layihələri üzrə balans, valyutalarının investisiya layihəsinin reallaşdırılma dövrləri üzrə toplanması yolu ilə tapılır.

Xarici investisiyalar üzrə multiplikator əmsalının yüksək olmasının bir neçə səbəbi vardır. Birincisi və ən mühümü xarici investisiyaların ölkə iqtisadiyyatının bütün sahələrinə eyni nisbətdə yatırılmasıdır. Bunun nəticəsində multiplikator əmsalı olduqca yüksəkdir.

Qeyd etmək lazımdır ki, investisiyaların səmərəliliyinin qiymətləndirilməsində investisiyaların rentabelliyi göstəricisindən geniş istifadə edilir. Bu göstərici əsasən müəyyən dövr üçün əldə edilmiş gəlirlərin həmin dövr üçün investisiya xərclərinə nisbəti kimi müəyyən edilir. Bu göstərici investisiyaların hər manatı üçün investorun vəsaitlərinin nə dərəcədə artmasını müəyyən etməyə imkan verir. Əgər diskont normasının müəyyən qiymətində layihənin rentabelliyi vahidə (100%) bərbərdirsə, bu o deməkdir ki, gətirilmiş gəlirlər gətirilmiş investisiya xərclərinə bərabərdir və gətirilmiş xalis diskontlanmış gəlir sıfıra bərabərdir. Deməli, diskont norması mənfəətin (gəlirliliyin) daxili normasıdır.

Diskont norması öz xərcini çıxarmaq üçün daxili normadan az olduqda rentabellik vahiddən böyükdür. Beləliklə, əgər investisiyaların rentabelliyi 100%-dən çoxdursa, bu o deməkdir ki, faiz dərəcəsinin həmin qiymətində layihənin müəyyən əlavə gəliri təmin edilir. Investisiyaların rentabellik göstəricisi əvvəllər istifadə edilən kapital qoyuluşlarının effektlilik əmsalından onunla fərqlənir ki, bu halda gəlir dedikdə qiymətləndirmə prosesində cari dəyərə çevrilmiş pul axını başa düşülür. Layihələrin investisiya rentabelliyi göstəricisinə görə gəlirliliyinin və investisiya dəyərinin müqayisəli qiymətləndirilməsi göstərir ki, gəlir ilə investisiya dəyəri arasındakı fərqin mütləq qiyməti artdıqda rentabellik də artır və əksinə, əgər mənfəət indeksinin qiyməti vahiddən kiçik və ya vahidə bərabərdirsə, bu layihə qəbul edilməməlidir, çünki o əlavə mənfəət gətirmir. Buna görə də layihələr qiymətləndirilərkən bu göstəricilərdən istifadə edilməsini məqsədəuyğun hesab etmək olar.

İnvestisiya layihəsinin səmərəliliyi bu layihənin onun iştirakçılarının məqsəd və maraqlarına uyğun gəlməsini əks etdirən sənəddir. Bu baxımdan səmərəli investisiya layihələrinin həyata keçirilməsi ÜDM-in artmasına və iqtisadi artımın təmin olunmasına səbəb olur. Daha sonra isə ÜDM layihələrdə iştirak edən subyektlər arasında bölüşdürü-

lür. Məhz bu subyektlərin gəlirləri və xərcləri ilə investisiya layihəsinin səmərəliliyi hesablanır. Ümumiyyətlə, səmərəliliyin aşağıdakı göstəriciləri hesablanır:

Layihənin ümumi səmərəliliyi;

Layihədə iştirakı səmərəliliyi.

Qeyd etmək lazımdır ki, layihənin ümumi səmərəliliyi mümkün iştirakçılar üçün layihənin potensial cəlbediciliyinin müəyyənləşdirilməsi və maliyyələşmə mənbələrinin axtarılması məqsədi ilə qiymətləndirilir. Bu işdə layihənin ictimai (sosial-iqtisadi) səmərəliliyi və kommersiya səmərəliliyinin nəzərə alınması olduqca vacibdir.

İctimai səmərəlilik göstəriciləri investisiya layihələrinin həyata keçirilməsinin cəmiyyət üçün bütövlükdə sosiali-iqtisadi nəticələrini nəzərdə tutur. Bu zaman həm layihənin nəticə və xərcləri, həm də xarici amilləri nəzərdən qaçırmır. Xarici amillərə qarşılıqlı asılı iqtisadiyyat sahələrində xərclər və nəticələr, ekoloci, sosial və digər qeyri-iqtisadi effektlər aid edilir. Xarici effektləri lazımi normativ və metodiki materialların mövcudluğu şərti ilə kəmiyyət formasında qiymətləndirmək tövsiyə olunur. Ayrı-ayrı hallarda bu effektlər əhəmiyyət, dərəcədə böyük olduqda və müvafiq sənədlər olmadıqda mütəxəssis rəylərinin istifadə edilməsinə yol verilir. Əgər xarici effektlərin kəmiyyət uçotunun məruz qalması mümkün deyilsə, onda onların keyfiyyət təhlilini həyata keçirmək lazımdır. Bu müddəalar, həm də regional səmərəliliyn qiymətləndirilməsinə aid edilir.

Kommersiya səmərəliliyi göstəriciləri investisiya layihəsini həyata keçirən iştirakçıların fəaliyytinin maliyyə nəticələrini əks etdirir. Bu zaman nəzərdə tutulur ki, onlar layihənin həyata keçirilməsi üçün bütün xərcləri reallaşdırır və onun bütün nəticələrindən istifadə edirlər.

Bundan əlavə, layihədə iştirakın səmərəliliyi investisiya layihəsinin həyata keçirilə bilməməsi və onun iştirakçılarının bu layihədə nə dərəcədə maraqlı olmasının yoxlanılması məqsədi ilə müəyyənləşdirilir.

Investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsindən əvvəl layihənin ictimai əhəmiyyəti mütəxəssislər tərəfindən müəyyən edilir. Təbii ki, layihənin ictimai əhəmiyyətinin böyük olması üçün o, iri miqyaslı, ümumiqtisadi və ya qlobal olmalıdır. Daha sonra qiymətləndirmə iki mərhələdə aparılır.

Birinci mərhələdə layihənin ümumi səmərəlilik göstəriciləri hesablanılır. Bu mərhələnin məqsədi layihə qərarlarının ümumi iqtisadi qiy-

mətləndirilməsi və investorların axtarılması üçün lazımi şəraitin yaradılmasıdır. Lokal layihələr üçün yalnız onların kommersiya səmərəliliyi hesablanır və əgər o məqsədəuyğun hesab edilirsə səmərəliliyi hesablanır. Bu layihələrin ictimai səmərəliliyi qənaətbəxş olmadıqda onların həyata keçirilməsi tövsiyə olunmur və dövlət yardımı göstərilmir.

Bununla belə ictimai əhəmiyyətli investisiya layihəsinin kommersiya səmərəliliyi lazımi səviyyədə olmadıqda ona müxtəlif yardım formaları tətbiq edilir. Bu yardımlar göstərilən investisiya layihələrinin səmərəliliyinin qənaətbəxş olmasını təmin edir. Əgər investisiya layihəsinin maliyyələşdirmə mənbələri və şərtləri artıq məlumdursa, layihənin kommersiya səmərəliliyinin müəyyənlişdirilməsi həyata keçirilməyə bilər.

Ikinci mərhələ maliyyələşdirmə sxeminin işlənməsindən sonra həyata keçirilir. Bu mərhələdə iştirakçıların sayı dəqiqləşdirilir və onların hər birinin layihədə iştirakının səmərəliliyi və maliyyə reallaşdırılması müəyyənləşdirilir (regional və sahə səmərəliliyi, ayrı-ayrı müəssisələrin və səhmdarların layihədə iştirakının səmərəliliyi, büdcə səmərəliliyi və s.)

Bundan əlavə, investisiya layihələrinin səmərəliliyinin hesablanması üçün bir sıra göstəricilərdən istifadə olunur. Bu göstəricilər sırasına xalis gəlir, xalis dikont gəliri, daxili gəlirlilik norması, əlavə maliyyələşdirməyə ehtiyac, xərclərin və investisiyaların gəlirlilik indeksi, xərclərin çıxma müddəti və müəssisənin maliyyə vəziyyətini əks etdirən göstəricilər qrupu daxildir.

Qeyd etmək lazımdır ki, investisiya layihələrinin seçilməsi metodları qeyri-formal prosedurdur. Belə ki, onlar eyni zamanda bir çox kəmiyyət və keyfiyyət amillərinin nəzərə alınmasını tələb edir. Bu amillər sosial-siyasi, iqtisadi və texniki xarakterli olur. Ona görə də layihələrin seçilməsi yalnız bir metodun əsasında həyata keçirilə bilməz. Bununla belə aşağıdakı göstərilən metodlar rasional iqtisadi davranışdan çıxış edərək bu layihələrin seçilməsində mühüm rol oynayır. Eyni zamanda onlar dərin səhvlərin buraxılmasına imkan vermir. Bu metodlar investisiyaların və investisiya layihələrinin səmərəlilik göstəricilərinin nəzərə alınması əsasında həyata keçirilir.

Bundan əlavə, investisiya ayırmaları haqqında qərarın qəbul olunmasına həm daxili, həm də xarici amillər təsir göstərir. Həmin amillərə başlıca olaraq makroiqtisadi şərait, tələbin təkamül prosesi, təklifin təkamülü prosesi aiddir.

Mikroiqtisadi şərait o şəraitdir ki, müəssisə həmin mühitdə fəaliyyət göstərir və onun fəaliyyətinə bir çox tənzimləyici amillərlə yanaşı, dövlətin iqtisadi siyasəti də öz təsirini göstərir. Belə təsiredici amillərə: tələbatın ümumi səviyyəsi, real bank faizinin dərəcəsi, iqtisadi inkişaf səviyyəsi, dövlətin vergi və büdcə siyasəti, pul-kredit mexanizmləri və sairə aid edilə bilər. Bütün bu amillər, müəssisənin fəaliyyət göstərdiyi iqtisadi mühitin bu və ya digər formada tənzimlənməsi prosesində müəssisəyə öz təsirini göstərir. Məsələn, bank faizinin dərəcəsinin yüksəlməsi ilə xarakterizə olunan maliyyə siyasəti investisiya prosesinin qarşısını alır. Bunun əksinə olaraq iqtisadi inkişaf xəttinin saxlanması, münasib kredit siyasəti və tələbatın genişlənməsi perspektivləri investisiya proseslərini stimullaşdıraraq investisiya axınını sürətləndirir. Son nəticədə düzgün makroiqtisadi siyasət şəraitində investisiya ayırmaları üçün maraq yaradır. Bu da, öz növbəsində ölkənin iqtisadiyyatına investisiya axınının həcmini artırır.

Son dövrdə respublikamızda fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sayı artır. Bu isə ölkəyə xarici kapital axını ilə bağlıdır. Xarici kapitalın iştirakı ilə yaradılmış müştərək müəssisələrə öz fəaliyyətini həyata keçirmək üçün «Azərbaycan Respublikasının Torpaq məcəlləsi» (12 fevral 1992-ci il) əsasında torpaq daimi istifadəyə verilə bilər. Xarici investorlar təbii ehtiyatlardan istifadə etmək hüququnu konsessiya əsasında əldə edə bilər.

Azərbaycanda investisiya fəaliyyətini tənzimləmək üçün «Investisiya fəaliyyəti haqqında» (1995), «Xarici investisiyanın qorunması haqqında» (1992) qanunlara müvafiq vergi və rüsumları ödənildikdən sonra xarici investorların investisiya ilə əlaqədar qanuni əsaslarla xarici valyuta şəklində əldə etdikləri gəlir və başqa məbləğləri, o cümlədən kompensasiya və zərərin ödənilməsi məbləğinin xaricə köçürülmələrinə təminat verilir. Azərbaycan Respublikası ərazisində xarici investorların götürdükləri mənfəət həmin pul vahidi şəklində yenidən investisiya kimi qoyula bilər (reinvestisiya). Azərbaycan Respublikasının banklarında saxlanıla bilər, Mərkəzi Bankın müəyyən etdiyi qaydada xarici valyuta almaq üçün sərf edilə bilər.

«Xarici investisiyaların qorunması haqqında» Qanundan başqa, «Azərbaycan Respublikasının Konstitusiyası»nda «Müəssisələr haqqında», «Maliyyə-sənaye qrupları haqqında», «Banklar və bank fəaliyyəti haqqında», «Valyuta tənzimi haqqında», «Qiymətli kağızlar haqqında», «Gömrük tarifi haqqında», «Yerin təki haqqında», «Tor-

paq islahatı haqqında», «Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında» və s. bu kimi qanunlar ölkəmizə beynəlxalq kreditin və xarici investisiyaların axını üçün əlverişli hüquqi mühit yaratmışdır. Mövcud qanunvericiliyiə əsasən xarici investorlar Azərbaycan Respublikası ərazisində müəssisə, filial və ya nümayəndəlik təsis etməklə, qiymətli kağızlara sahib olmaqla, müxtəlif daşınar və daşınmaz əmlak üzərində mülkiyyət hüququna malik olmaqla sahibkarlıq fəaliyyətinin istənilən növü ilə məşğul ola bilər.

Azərbaycan Respublikasının qanunvericiliyi yerli və xarici kreditor və investorların hüquqlarının qorunmasına eyni dərəcədə təminat verir. Hətta bəzi hallarda xarici müəssisələr yerli sahibkarlara nisbətən daha üstün və əlverişli hüquqi mövqeyə malik olurlar. Xarici investorlar ölkə ərazisində qazanmış olduqları mənfəəti xaricə repatriasiya etmək, müəyyən edilmiş fiskal güzəştlərindən istifadə etmək hüququna malikdirlər.

Hal-hazırda respublikamıza cəlb edilən xarici investisiyaların həcmi 49,4%-ə bərabərdir. Investisiyaların 50,6 faizi isə daxili mənbələr hesabına maliyyələşdirilib. Bu dövr ərzində istifadə olunmuş vəsaitlərin 40,7 milyard manatı neft-qaz sektorunun inkişafına, 69 milyard manatı və ya 63%-i iqtisadiyyatın qeyri-neft sektoruna və maliyyə bazarının inkişafına yönəldilmişdir.

Qeyd etmək lazımdır ki, cəlb edilən birbaşa investisiyaların strukturunda neft sektorunun payı 76,8%-dir.

Bu amillərin hər birinin 1995-ci və 2013-cü illərdə ölkənin investisiya mühitinə təsirini araşdırsaq görərik ki, onların heç biri mənfi effektə malik olmamışdır. Ötən illərdə olduğu kimi, dövlət xarici investisiyaların cəlb edilməsini strateji vəzifə və iqtisadi siyasətin prioritet istiqaməti olaraq davam etdirmişdir. Bu dövrdə siyasi və iqtisadi sabitlik qorunub saxlanmış inflyasiya sabit olmuş, iqtisadiyyatın liberallaşdırılması geniş miqyas almış, sahibkarların hüquqlarını qoruyan normativ hüquqi aktlar qəbul edilmişdir. Vergi-gömrük və bank-kredit sistemində, valyuta-ticarət recimində də xarici investorların mənafeyinə toxunulan heç bir dəyişiklik edilmişdir.

Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində xarici kapitalın ölkə iqtisadiyyatına geniş miqyasla axınına mane olan amillər sırasında xarici investisiyaların qorunması, təminatı və sığortası üzrə səmərəli sistemin və siyasi sabitliyin olmaması, inflyasiyanın dərinləşməsi, nəqliyyat kommunikasiya infrastrukturunun zəif inkişaf et-

məsi, normativ-hüquqi bazanın dəyişkənliyi və bunun nəticəsində uzun müddətli maliyyə planlaşdırılmasının mümükünsüzlüyü, iqtisadiyyatın liberallaşdırılması səviyyəsinin aşağı olması dayanırdı. Son illər isə ölkəmizə kapital axınının zəifləməsinə dövlət məmurlarının sahibkarlar, o cümlədən xarici investorlar qarşısında bürokratik maneələr yaratması, iqtisadi fəaliyyətə dövlət orqanlarının yerli-yersiz müdaxilələri şərait yaradır.

Hal-hazırda respublikamızda beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlığa dair çoxillik proqram hazırlanır. Bu proqramın yaxın gələcəkdə uğurla həyata keçirilməsi, o cümlədən makroiqtisadi sabitləşdirmə tədbirlərinin institusional islahatlarla sənaye və struktur siyasəti ilə tamamlanması beynəlxalq maliyyə-kredit təşkilatlarının, xüsusilə Dünya Bankının özlərinin fəaliyyətinin əlaqələndirilməsini tələb edir. Hesab edirik ki, bu gün idarəetmə sistemindəki dəyişikliklərin iqtisadi münasibətlərin inkişaf dinamikasından geri qalması, həm də maliyyə təşkilatları tərəfindən təqdim edilən markoiqtisadi sistemin təkmilləşdirilməsinə dair lazımınca əlaqələndirilməsi olmuşdur. Belə ki, 2004-2008-ci və 2009-2013-cü illər üçün «Regionların sosial-iqtisadi inkişafı» Dövlət Proqramlarında nəzərdə tutulmuş makroiqtisadi tədbirlər institutsional islahatların istiqamətləri ilə tamamlansa idi və beynəlxalq maliyyə-kredit təşkilatları ölkədə struktur dəyişikliklərinin aparılması sahəsində səylərini birləşdirmiş olsa idilər artıq indi müzakirə olunan əsas məsələ Azərbaycanda Kənd Təsərrüfatının və qeyri-neft sektorunun inkişafı əhalinin sosial müdafiəsinin, bazar münasibətlərinin tələblərinə cavab verən yeni sistemin formalaşdırılması və maliyyə sistemində şəffaflığının təmin edilməsi ilə bağlı olardı. Xüsusi olaraq onu göstərmək lazımdır ki, beynəlxalq maliyyə-kredit təşkilatları müvafiq dövlət orqanları ilə birlikdə iqtisadi siyasətin dəyişən şəraitə uyğun çevik korreksiyasına xüsusi diqqət yetirməlidirlər. Makroiqtisadi vəziyyətin təhlili göstərir ki, Azərbaycan iqtisadiyyatının inkişafında pozitiv meyil və maraqların müşahidə edilməsinə baxmayaraq, başa vurduğumuz hər ildə ölkə iqtisadiyyatı bir-birindən fərqli göstəricilər və parametrlərlə xarakterizə olunur. Bu fərqlər müxtəlif makroiqtisadi amillərin təsiri nəticəsində yaranırsa, deməli, iqtisadi siyasətin özündə də yaranmış konyukturaya uyğun olaraq korrektivlər edilməlidir.

Azərbaycan rəhbərliyi iqtisadiyyatımızın inkişafı üçün sərfəli vasitələrdən biri olan müştərək müəssisələrin yaranmasına da xüsusi fi-

kir verir. Şərikli müəssisələr yaratmaqla yeni texnologiyaları, investisiyaları, texnikaları respublikaya gətirmək problemini həll etmək olar.

Müştərək müəssisələrin yaradılması bildiyimiz kimi iqtisadiyyatın inkişafında xüsusi rol oynayır. Xarici kapitalın cəlb edilməsi nəticəsində qeyd etdiyimiz müəssisələr və yaxud digər sənaye sahələri formasının yaranması, praktikadan göründüyü kimi hazırda dünyada «kiçik əcdahalar» adlanan dövlətlərin – Sinqapur, Tayvan, Cənubi Koreya – öz iqtisadiyyatlarının sərbəstləşdirməklə, sərbəst iqtisadi zonalar yaratmaqla digər müstəqillik qazanmış dövlətlərlə müqayisədə çox qabağa getmişlər. Bu işdə respublikamızda Sumqayıt, Ələt və Naxçıvanda sərbəst iqtisadi zonanın yaradılması mühüm rol oynaya bilər.

Qeyd etmək lazımdır ki, azad iqtisadi zonalar ümumi olaraq, ölkənin milli sərhədləri içində olmaqla bərabər, gömrük bölgəsi xaricində sayılan, ölkədə ticarət, maliyyə və iqtisadi sahələrlə bağlı hüquqi və idarə tənzimləmələrinin tətbiq edilmədiyi və ya qismən tətbiq edildiyi, sənaye və kommersial fəaliyyət üçün daha geniş təşviqlərin tanındığı və fiziki olaraq ölkənin digər qismlərindən ayrılan yerlər olaraq tərif edilə bilər. Daha öncə bəzi örnəklərin görülməsinə rəğmən sərbəst zonalar daha geniş bir şəkildə 1929-cu ildəki Dünya Iqtisadi Böhranının dünya ticarətinin daraldıcı təsirlərini ortadan qaldırmaq məqsədi ilə inkişaf etmiş Qərb ölkələri tərəifndən tətbiq edilməyə başlamışdır. Bir tərəfdən artan işçilik məsrəfləri, digər tərəfdən milli və beynəlxalq rəqabətin sərtləşməsindən neqativ təsirlənən TMK-lar(Trans Milli Korporasiyalar), maliyyələrini minimuma endirmək üçün bu bölgələri tərcih etməyə başlamışlar. Bu zonalarda keyfiyyətli iş gücü bolluğu, nəqliyyat xərclərinin, işçi maaşlarının və ilk investisiya məsrəflərinin aşağı olması TMK-lara önəmli avantaclar təmin etməkdə idi.

Sərbəst zona praktikaları 1970-ci illərdən etibarən inkişaf etməkdə olan ölkələr tərəfindən də tətbiq edilməyə başlanmışdır. Neft böhranı ilə xarici ticarət gəlirləri böyük ölçüdə azalan inkişaf etməkdə olan ölkələr, makro- iqtisadi siyasətlərində önəmli dəyişikliklərə getmədən, ticarət həcmini artırmağın yolu olaraq sərbəst bölgələr praktikasına yönəlmişlərdir.

Sərbəst zonalar risk faktorunun aşağı olması və avantaclardan doğacaq rentabelliyin daha da artması səbəbilə, birbaşa xarici kapital investisiyalarını çəkmədə önəmli bir vasitədir. Hazırda 100-ə yaxın ölkədə sayları 700-ə yaxınlaşan sərbəst iqtisadi zona mövcuddur. Xü-

susilə, Latın Amerikası, Cənubi və Cənub-Şərqi Asiya ölkələri tərəfindən, ixracat və məşğulluq yaratma məqsədinə yönəlik olaraq çox geniş bir istifadə sahəsi tapmışdır. Bunlar arasında C.Koreya, Çin, Tayvan, Braziliya, Malayziya, Dominikan Respublikası, Indoneziya kimi ölkələr sayıla bilər. Məsələn, Çin Xalq Respublikası bu bölgələrdə xarici investorlara özəl yerlər təmini, hər cür infrastruktur investisiyalarının hazırlanması, vergi güzəştləri kimi bir çox avantac təklif etməkdədir. Başqa bir misal da Polşadan verilə bilər. 1990-cı illərin əvvəlində siyasi müstəqilliyini qazanan Polşa qısa müddətdə, 2-si texnoloci olmaq üzrə 17 ədəd sərbəst bölgə qurmuş və bu sahədə önəmli miqdarda birbaşa xarici kapital investisiyası çəkmişdir. Ayrıca, sərbəst bölgələr inkişaf etmiş Qərb ölkələri tərəfindən də, müəyyən ölçüdə tətbiq edilməkdədir. Məsələn, Almaniyada 8, Ingiltərədə 7, Ispaniyada 4, Yunanıstanda 3, Finlandiya, Italiya və Irlandiyanın hər birində 2 ədəd sərbəst bölgə mövcuddur.

Xarici investisiyaları ölkəyə cəlb etməzdən əvvəl ölkə iqtisadiyyatının xarici investisiyaya olan tələbatı müəyyən edilməlidir. Bu tələbatın ödənilməsi üçün ilk növbədə daxili maliyyə mənbələrinin səfərbər edilməsi tələb olunur. Xarici investisiyalar, tələb daxili resurslar hesabına ödənilmədiyi halda, xarici investisiyalardan istifadə edilməsi imkanları nəzərdən keçirilməlidir.

Birbaşa investisiya qoyuluşlarının beynəlxalq kreditə nisbətən bir sıra üstünlükləri vardır. Belə ki, birbaşa investisiyalar əmtəə və xidmət istehsalının, habelə texnologiyaların, innovasiyaların, idarəetmə və marketinqin qabaqcıl metodları üzrə kapital qoyuluşlarının birbaşa mənbəyi kimi çıxış edir. Həmçinin xarici investisiyalar beynəlxalq kreditdən fərqli olaraq xarici borc yekununu artırmır, əksinə son nəticədə onun qaytarılmasına xidmət edir. Bundan başqa, investisiya qoyuluşları milli iqtisadiyyatın dünya iqtisadiyyatına daha tez və səmərəli inteqrasiyasını təmin edir.

Xarici kapitalı ölkənin sosial-iqtisadi inkişaf səviyyəsinə görə geri qalmış regionlarına cəlb etmək məqsədi ilə xarici investorlar üçün güzəştli recim müəyyən edilməlidir. Bu bir tərəfdən Azərbaycanın zəif inkişaf etmiş rayonlarında mövcud olan iqtisadi potensialdan səmərəli istifadə edilməsinə, digər tərəfdən də yeni iş yerlərinin açılmasına sosial demoqrafik problemlərin qismən də olsa həllinə şərait yarada bilər.

# V FƏSİL

# AZƏRBAYCANIN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİ VƏ ONUN GENİŞLƏNDİRİLMƏSİ

*"Azərbaycanın xarici ticarət siyasəti həm ikitərəfli formada, həm də beynəlxalq təşkilatlar çərçivəsində çox uğurludur, düşünülmüş siyasətdir. Bizim strateji xəttimiz var və bu xəttə sadiqik."*

***İlham Əliyev***

## 1. Azərbaycanın xarici ticarət əlaqələrinin müasir vəziyyətinin təhlili və onun qiymətləndirilməsi

Milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiya olunması, ticari-iqtisadi münasibətlərdə baş verən müsbət keyfiyyət və kəmiyyət dəyişikliklərinə, ilk növbədə, tam hüquqi-iqtisadi, idarəçilik baxımından qanunvericilik aktlarının qəbul edilməsi, bazar infrastrukturlarının formalaşdırılması və onların çevik fəaliyyət mexanizminin yaradılması əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Respublikamızın ticarət əlaqələrinin genişləndirilməsində və dərinləşdirilməsində ölkənin bir çox beynəlxalq iqtisadi təşkilatlarda iştirakı, regional iqtisadi-ticarət əməkdaşlığa qoşulması və ayrı-ayrı ölkələrdə bağlanmış ticarət müqavilələri müstəsna əhəmiyyət kəsb edir.

İƏT (İqtisadi Əməkdaşlıq Təşkilatı) ilə Azərbaycan arasında əlaqələrin təhlili əsasən ticarət sferasında aparılır. Çünki Azərbaycan bu beynəlxalq təşkilata XX əsrin sonlarında üzv olmuşdur və ölkəni əhatə edən sazişlər nisbətən təzə qəbul edildiyi üçün (preferensial tariflər haqqında, tranzit ticarət haqqında və s.) onların praktiki nəticələri barədə danışmaq hələ tezdir. Digər tərəfdən, Azərbaycanın iştirak etdiyi bəzi İƏT layihələri (elmi fond, gəmiçilik təşkilatı, sığorta təşkilatı, ticarət və investisiya bankı və s.) bağlanmış niyyət protokolları şəklindədir.

Qeyd etmək lazımdır ki, respublikamızın xarici ticarət dövriyyəsində İƏT yeddinci yerdədir. Təhlil gostərir ki, 2014-cü ildə 2004-cü

ilə nisbətən Azərbaycanın İƏT ilə ticarət dövryyəsi artaraq 409306,1 mln.dollardan 508769 mln. dollara çatmışdır. Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində İƏT ölkələrinin payı isə 30,1% artmışdır. Ümumilikdə İƏT ölkələri ilə ticarət dövriyyəsi 31% artmışdır. Bu da Azərbaycanın İƏT üzv ölkələri ilə əlaqələrinin genişlənməsinin göstəricisidir. 2014-cü ilin yekunlarına gorə İƏT Azərbaycanın idxalında 24% xüsusi çəki ilə İƏT (49,9%), Qara Dəniz İƏT (36,8%), Asiya-Sakit Okeanı İƏT (37,1%), MDB (33%), İslam Konfransı Təşkilatı (27,1%), ixracında isə 9,7%, xüsusi çəki ilə İƏİT (72,4%), Avropa Birliyi (61,4%), Qara Dəniz İƏT (21,3%), MDB (14,5%), İslam Konfransı Təşkilatından (9,96%) geri qalmaqla hər iki göstərici üzrə beşinci yerdə durur.

Azərbaycanla İƏT ölkələrinin iqtisadi əməkdaşlığının dərinləşməsinə təkan verəcək ən mühüm səbəblərdən biri onların çoxunun yüksəliş dövründə olması, arasıkəsilmədən orta və yüksək inkişaf templəri göstərmələridir. Həm də İƏT üzvlərinin makroiqtisadi göstəricilərinin xeyli hissəsinin yaxınlığı, iqtisadi durumlarının, problemlərinin oxşar olması müxtəlif sahələrdə (proteksionizm və ya təşkilat daxilində liberallaşma, antiinflyasiya, xarici ticarət, valyuta-kredit) uyğunlaşdırılmış iqtisadi siyasət yeridilməsini və çətinliklərin birgə aradan qaldırılmasını daha asanlıqla mümkün edir. Azərbaycanın bu ölkələrlə idxal-ixrac əməliyyatlarının strukturuna baxsaq görərik ki, respublikamızın İƏT ölkələrindən idxalında hazır məhsulların payı 27%-dən çox olduğu halda, Azərbaycanın bu ölkələrə ixracında hazır məhsulların payı 6,1% təşkil edir. Onlardan ümumiyyətlə, ölkəyə idxal olunan məhsulların əsas hissəsini elektrik avadanlıqları, buğda unu, un məmulatları, şəkər, məişət avadanlıqları, rabitə cihazları, onlara ixrac olunan məhsulların əsas hissəsini isə neft və neft məhsulları, alüminium oksidi, plastik kütlələr, pambıq lifi təşkil edir. İƏT ölkələrindən idxalın 8,6%-i, ixracın 1,5%-i istehsal təyinatlı avadanlıq və maşınlardır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın hazırda istehsal etdiyi məhsulların əksəriyyətinin keyfiyyəti və rəqabət qabiliyyəti, dünya bazarlarında təklif olunan analoji əmtəələrin keyfiyyəti, İƏT ölkələrinin bazarlarının tələbi, alıcılıq qabiliyyəti nəzərə alınarsa, bu təşkilatla inteqrasiya əlaqələrinin gücləndirilməsi ölkəmiz üçün daha cəlbedici olar. Çünki ölkəmizdə istehsal olunan məhsulların çoxu (xüsusilə qeyri-neft sektorunda) öz keyfiyyətinə görə əsasən İƏT-ə üzv dovlətlərin

daxili bazarlarının tələblərinə cavab vermək iqtidarındadır. Bütün bunları ümumiləşdirərək Azərbaycanın İƏT ilə əməkdaşlığının aşağıdakı 4 istiqamətini məqsədəuyğun hesab etmək olar:

1. İqtisadiyyatın müxtəlif sahələrində müştərək müəssisələrin yaradılması;

2. Qarşılıqlı nəqliyyat-kommunikasiya və ticarətin bütün növlərinin inkişaf etdirilməsi üçün əməkdaşlıq;

3. Respublikamızda regional statusa malik azad iqtisadi zonaların yaradılması;

4. Elmi-texniki əməkdaşlığın genişləndirilməsi.

Respublikanın milli ticarət sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, bu sahədə iqtisadi-ticari əməkdaşlığının genişləndirilməsi baxımından beynəlxalq səviyyədə əməkdaşlıq mühüm rol oynayır. Bu baxımdan Azərbaycan Respublikasının Ümumdünya Gömruk Təşkilatına üzvlüyü mühüm əhəmiyyət kəsb edir. 1992-ci ildən bu günə qədər Azərbaycanın xarici və daxili ticarət siyasətinin tərkib hissəsi olan vahid gömrük siyasətinin həyata kecirilməsi sayəsində ölkənin beynəlxalq əlaqələri daha da genişlənmiş və keyfiyyətcə yeni səviyyəyə çatmışdır. Ticarət qaydalarının sadələşdirilməsi məqsədilə Azərbaycanla ÜGT arasında XİF əmtəə namenklaturası (ƏN) əsasında vahid gömrük tarifinin işlənib hazırlanması, gömrük rüsumlarının alınması, tətbiq edilməsi, malların mənşə ölkəsinin təyin edilməsi, gömrük məqsədləri üçün malların qiymətləndirilməsi barədə razılaşmalar əldə edilmişdir. ÜGT-nin Baş katibi Mişel Danenin müraciət məktubuna əsasən Azərbaycan «Malların təşkili və kodlaşdırılması üzrə harmonikləşdirilmiş sistem haqqında Beynəlxalq Konvensiya»ya qoşulmaq barədə təklif almışdır. Bu təklif qəbul olunmuş və artıq ölkəmiz oz ticarət əlaqələrində bu konvensiyanın müddəalarını tətbiq edir.

Azərbaycanın ixracında əsasən neft və neft məhsulları üstün yer tutur. Məhz ixracın 80%-ni neft və neft məhsulları təşkil edir. İxrac olunan neft dəniz və boru kəməri nəqliyyatı vasitəsilə dünya bazarına çıxarılır. Azərbaycan neftinin əsas idxalatçıları Avropa ölkələri, Yaxın Şərq ölkələri və Rusiyadır. Dovlət büdcəmizin böyük hissəsi məhz neft ixracından əldə edilən vəsait hesabına formalaşır. Buna görə də neftin qiymətinin dünya bazarında dəyişməsi birbaşa ölkəmizin iqtisadi inkişafına təsir edir. Neftin dünya bazarında qiymətinin dəyişməsinə də əsasən OPEK ölkələri təsir edir. Belə ki, dünya neft istehsalı və

ixracının 60-70%-i bu ölkələrin payına düşür. Bu ölkələr tərəfindən neftin qiymətinin dəyişməsi neftin dünya qiymətlərinə bilavasitə təsir gostərir və bu da Azərbaycanın ixrac etdiyi neftin qiymətinin dəyişilməsində özünü büruzə verir. Bu səbəbdən də dünya neft bazarında qiymətlərin dəyişilməzliyinin qorunub saxlanılması üçün yolların axtarılıb tapılması, neft istehsal edən və ixrac edən ölkələrin gəlirlərinin möhkəmliliyini təmin etmək, dünya bazarında neft qiymətlərinin sabitləşdirilməsi üzrə qeyri-üzv ölkələrlə əməkdaşlığında Azərbaycanın da öz yeri vardır.

Qeyd etmək lazımdır, son illərdə iqtisadi subyektlər region ölkələri ilə əməkdaşlığa daha çox meyillidirlər. O cümlədən, 90-cı illərin axırlarında Azərbaycanın ixracının 80%-i, idxalının isə 60%-i regional təşkilatlarla ticarət əməkdaşlığının payına duşurdü. Azərbaycanın regional təşkilatlarla əməkdaşlığında həm idxal, həm də ixrac üstünlük təşkil edir. «Azərbaycan Respublikasında xarici ticarətin sərbəstləşdirilməsi haqqında» Qanunun qəbulu nəticəsində xarici ticarətdə mal dövriyyəsi xeyli artmışdır. Təbii ki, buna regional təşkilatların üzv dovlətləri ilə ticari əməkdaşlığının təsiri böyükdur. Azərbaycanın regional iqtisadi əməkdaşlığında əsasən GUAM, Qara dəniz İƏT, İslam Konfransı təşkilatı və s. fərqlənir. GUAM-ın daha səmərəli regional təşkilata cevrilməsinə zəmin yaradacaq bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir.

Azərbaycanın daxil olduğu regional iqtisadi təşkilatlardan biri də Qara dəniz İƏT-dir. Makroiqtisadi göstəricilərdən aydın olduğu kimi, dünya əhalisinin 6%-i, ərazisinin 5,23%-i QİƏT-nin payına duşur. QİƏT-nin dünya təsərrüfatının inkişafında layiqli yer tuta bilməsi üçün çox böyük potensial imkanları vardır:

- Zəngin təbii resurslar – region öz-özünün mineral, kənd təsərrüfatı və enerji resurslarına olan ehtiyaclarını tamamilə ödəyə bilər.

- Əlverişli coğrafi mövqe – region bir tərəfdən Avropa ilə, digər tərəfdən Qərbi, Cənub- Şərqi Asiya arasında əlverişli mövqe tutmuşdur.

- Yüksək demoqrafik potensial yüksək savadlılıqla xarakterizə olunan ucuz əmək resursları.

- Qarşılıqlı investisiyalar və birgə müəssisələr vasitəsilə rəqabətqabiliyyətli məhsullar buraxmağa imkan verən güclü istehsal imkanları.

- Çox güclü ixrac potensialı.

1997-ci ildə QİƏT üzvlərinin yığıncağında QİƏT ölkələrinin neft və qaz ehtiyatlarının dünya bazarına çıxarılması məqsədilə yeni boru kəmərlərinin tikintisi üçün regional konsorsiumların yaradılması qərara alınmışdır. Sonra QİƏT üzvlərinin nəqliyyat və kommunikasiya nazirlərinin görüşü zamanı bu sahədə on- illik fəaliyyət proqramı qəbul edilmişdir. Proqramda aşağıdakı vəzifələr nəzərdə tutulur:

a) regionda başlıca tranzit nəqliyyat marşrutlarında müxtəlif qeyri-fiziki maneələrin aradan qaldırılması;

b) Qərb-Şərq yollarının infrastrukturunun inkişafı;

c) QİƏT regionunda informasiya mübadiləsinin inkişaf etdirilməsi.

Eyni zamanda təşkilat vasitəsilə QİƏT üzvü olan ölkələrin biznesmenləri üçün icra rejiminin sadələşdirilməsi haqqında razılaşma imzalanmışdır. Qeyd edilən 2 razılaşma təşkilata daxil olan ölkələrin öz mallarının xarici bazarlara nəqli zamanı bir-birinin ərazisindən rüsumsuz olaraq tranzit məqsədilə istifadə etməyə, beləliklə də onların nəqli xərclərini aşağı salmaqla dünya bazarında daha rəqabət- qabiliyyətli olmağa imkan verir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ilk daxil olduğumuz İslam Konfransı Təşkilatıdır (İKT). Məhz ölkəmizi bu təşkilata daxil olan ölkələrlə mədəni, tarixi, dini ənənələrimiz bağlayır. Bir sıra qüvvətli İslam ölkələrinin daxil olduğu bu təşkilatla ölkəmizin ticari-iqtisadi əlaqələri də geniş vüsət almışdır. Burada ölkəmiz əsasən İran, İndoneziya, Birləşmiş Ərəb Əmirlikləri, Pakistan, Küveyt, Suriya və s. respublikalarla ticarət əlaqələrində iştirak edir. Respublikamızın bütün İKT ölkələrindən idxal etdiyi məhsulların 19,6%-i, ixrac etdiyi məhsulların isə 1,5%-i İranın payına duşur. Analoji göstəricilər üzrə BƏƏ idxalda 6,7%, ixracda 2,5%, Pakistan – idxalda 0,7%, ixracda 1%, İndoneziya – idxalda çox az % təşkil edir, ixracda 1,9% və s. təşkil edir. Təhlil göstərir ki, ixracda və idxalda Azərbaycanın regional iqtisadi-ticarət əməkdaşlığı xüsusi çəkiyə malikdir. Bunu hər şeydən əvvəl, bu ölkələrin bir-birinə yaxın olmaları, nəqliyyat şəbəkəsinin yaxşı inkişafı, eyni zamanda uzun illər bir-biri ilə geniş ticarət-iqtisadi əlaqələrə malik olmaları şərtləndirmişdir. Təbii iqlim və torpaq şəraiti, əhalinin sayı və tərkibi, mineral, xammal və yanacaq-energetika resursları ilə təmin olunma dərəcəsi, sənayenin və kənd təsərrüfatının inkişafı və ixtisaslaşdırılması əmək bölgüsünün xarakterini müəyyən edir. Bunun nəticəsində istehsalçılardan hər biri mal göndərməklə, öz tələbatlarını

ödəmək üçün digər mallar alırlar. Beləliklə, regional iqtisadi-ticari əməkdaşlıq tərəflər üçün qarşılıqlı fayda və yüksək iqtisadi səmərə verməklə iqtisadi zərurətə çevrilir.

Azərbaycan Respublikası dövlət suverenliyi əldə etdikdən sonra onun xarici iqtisadi fəaliyyət sahəsində sərbəst, müstəqil siyasət yeritməsi obyektiv zərurətə çevrilmişdir, digər tərəfdən isə bunun üçün zəruri zəminlər yaranmışdır. Ölkə SSRİ-nin tərkibində olduğu illər ərzində xarici ölkələrlə, hətta sabiq müttəfiq respublikalarla öz mənafeyini, ehtiyac və imkanları baxımından müstəqil iqtisadi əlaqələr həyata keçirmək imkanına malik deyildi. Azərbaycanın xarici ticarət əlaqələrinin təhlili göstərir ki, son illərdə başlanmış meyil – ticarət əlaqələrinin liberallaşdırılması, idxal və ixracın strukturu və coğrafiyasının genişləndirilməsi, ölkəmizin xarici ticarət təşkilatlarında iştirakı və bu təşkilatların qayda və metodlarını öz xarici ticarət siyasətinə tətbiqi və s. ticarət sferasında müsbət meyillər əmələ gəlmişdir.

Azərbaycan, demək olar ki, dünyanın bütün ölkələri ilə ticarət-iqtisadi əlaqələrə malikdir. Lakin istehsal olunan məhsulların rəqabət qabiliyyətinin dünya bazarlarında aşağı olduğuna gorə, hazırda respublika əsasən xammal ixrac edir. Son vaxtlarda dünya ölkələri arasında iqtisadi inteqrasiya güclənmişdir. Artıq hər bir ölkənin iqtisadiyyatının inkişafı milli sərhədlərdən çıxaraq dünya iqtisadiyyatına qovuşur. Deməli, elə etmək lazımdır ki, ölkə dünya əmək bölgüsündə hazır məhsulla daha çox təmsil olunsun. Sənaye cəhətdən inkişaf etmiş ölkələr dünya bazarına əsasən hazır məhsul, qabaqcıl mütərəqqi texnologiya, daha çox elmtutumlu məhsullar çıxarır. Həmin texnologiyanı alan ölkələr isə tez bir zamanda onu tətbiq edərək, milli iqtisadiyyatın formalaşdırılması və inkişafını sürətləndirirlər. Azərbaycanın idxal və ixrac balansının təhlili göstərir ki, ölkəyə Avstraliya, Belçika, Bolqarıstan, Çin, Çexiya, Fransa, Almaniya, Macarıstan, İran, İsrail, Cənubi Koreya, Polşa, İsveçrə, Suriya, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, ABŞ kimi güclü inkişaf etmiş ölkələrdən texniki tərəqqinin əsasını təşkil edən sənaye sahələrinin məhsulları ilə bərabər, Azərbaycanda inkişafı və istehsalı üçün bütün imkanlar və amillər olan sənaye və kənd təsərrufatı məhsulları da gətirirlər. Yuxarıda göstərilən ölkələrdən Azərbaycana ət, süd məhsulları, quş əti, çay, düyü, günəbaxan yağı, tünd spirtli içkilər, üzüm, alma, armud, kolbasa, qənnadı məmulatları, meyvə-tərəvəz şirələri, siqaretlər, makaron məmulatları, mineral sular, bir sıra tərəvəzlər, məişət mebelləri, xalça və xal-

ça məmulatları, elektrik cihazları, telefon aparatları, ayaqqabı, pambıq parçalar, kauçuk və rezin məmulatları, elektrik naqilləri və kabellər, sintetik yuyucu üçün vasitələr, boyalar və s. gətirilir. Halbuki, həmin məhsulların istehsalı üçün ölkəmizdə bütün imkanlar və amillər mövcuddur. Həmin məhsulların istehsalı, uzaq məsafələrdən səmərəsiz yükdaşımaların qarşısını alar, istehsalın səmərəliliyinin artmasını təmin edər, sosial geriliyi azaldar və milli gəlirin artmasına səbəb olar. Bu isə əhalinin yaşayış səviyyəsinin artmasını təmin edər. Milli iqtisadiyyatımızın inkişafının əsas istiqamətlərindən biri də ictimai əmək bölgüsüdür ki, bunu da təbii-coğrafi, sosial-iqtisadi və milli amillər şərtləndirir. Ticarət əlaqələrinin inkişaf səviyyəsi, ictimai əmək bölgüsünün dərinləşməsi və iqtisadi artımın təmin edilməsi ilə bilavasitə əlaqədardır. Ticarət əlaqələrinin dinamikliyi iqtisadiyyatın ayrı-ayrı sahələri, müəssisələr arasında uzun müddətə sabit istehsal əlaqələrinin olmasını tələb edir.

Yükdaşımaların ümumi həcmində neft, qara metal, tikinti, meşə, yeyinti məhsulları yüksək, xüsusi çəkiyə malikdir. Respublikadan kənara çıxarılan yüklərin strukturu ölkələrarası əmək bölgüsünün xarakterini müəyyən edir. Belə ki, Azərbaycandan kənara göndərilən yüklərin yarıdan çoxu neft məhsullarının payına düşür. İqtisadi-ticari əməkdaşlıq və ictimai əmək bölgüsü ölkə miqyasında əmək məhsuldarlığının artmasının təmin olunması, məhsul istehsalına sərf olunan maddi və əmək məsrəflərini, həmçinin iqtisadiyyatın bütün sahələrində kapital qoyuluşunun və yüklərin nəql edilməsinə sərf edilən məsrəflərin ixtisar edilməsidir. Bu ictimai əmək bölgüsünün əsas məqsədi və istehsalın səmərəliliyinin əsas göstəricisidir.

Qeyd etmək lazımdır ki, neftin dünyada bütün sahələr arasında gəlirlilik səviyyəsinə və ödəmə əmsalına görə birinci yerdə olması onun milli iqtisadiyyatın inkişafı üçün iqtisadi və sosial səmərəlilik baxımından çox faydalı olmasını göstərir. Respublikamız öz strateji məhsulu sayılan neft amilindən yüksək bacarıqla istifadə etməli, neftdən gələn gəliri iqtisadiyyatın diversifikasiyası yolu ilə digər sahələrə yönəltməklə həm ixrac potensialını artırar, həm də digər sahələrin inkişafını sürətləndirə bilər. Bu yolla respublikamız iqtisadi qüdrətini artırmaqla dünyada söz sahibi olan dövlətə çevrilə bilər.

Neft ixracının əsas prespekivlərini təhlil etmək üçün xam neft və qaz-kondensatının illər üzrə bölüşdürülməsinə diqqət yetirək.

**Xam neft və qaz-kondensatının 2000-2013-cü illər üzrə bölüşdürülməsi (min ton)[1]**

| | 2000 | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|
| Ehtiyatlar | 14435 | 15277 | 15709 | 15725 | 15840 | 22545 | 32854 | 42926 |
| İlin əvvəlinə qalıq | 418 | 368 | 376 | 344 | 291 | 331 | 586 | 329 |
| Hasilat | 14017 | 14909 | 15333 | 15381 | 15549 | 22214 | 32268 | 42597 |
| Ölkədaxili istehlak | 8311 | 6344 | 6369 | 6344 | 6385 | 7481 | 7552 | 7529 |
| O cümlədən: | | | | | | | | |
| Neft emalına | 8226 | 6262 | 6327 | 6281 | 6300 | 7392 | 7486 | 7484 |
| Digər ehtiyaclara | 85 | 82 | 42 | 63 | 85 | 89 | 66 | 45 |
| İtkilər | 118 | 95 | 115 | 93 | 76 | 182 | 153 | 83 |
| İxrac* | 5638 | 8462 | 8881 | 8997 | 9048 | 14296 | 24820 | 34780 |
| İlin axırına qalıq | **2000** | **2005** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** |

[1] Mənbə: Azstat.org - Dövlət Neft Şirkətinin və AMOK-un məlumatı

Cədvəldən aydın olur ki, illər ərzində ehtiyatların (2.9 dəfə), hasilat (3 dəfə) və ixracın həcmi (6.1 dəfə) artmışdır. Bir fakt da aydın olur ki, əvvəl ölkədaxili istehlakın həcmi çox idi.

Azərbaycanın neft ixracının təhlili zamanı nəzərə alınacaq mühüm aspektlərdən biri yanacaq-enerji ehtiyatlarının bölüşdürülməsidir. Bunun üçün 2000-2013-cü illərdə Azərbaycanın yanacaq-enerji ehtiyatlarının bölüşdürülməsini nəzərdən keçirək.

**2000-2013-cü illərdə yanacaq-enerji ehtiyatlarının bölüşdürülməsi (min ton)**

| | 2000 | 2005 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|
| Yanacaq-enerji ehti-yat ları, cəmi | 42099 | 44334 | 45520 | 45973 | 47679 | 59710 | 76098 | 90748 |
| O cümlədən: | | | | | | | | |
| Xam neft, qaz konden satı da daxil olmaqla | 20642 | 21846 | 22464 | 22487 | 22651 | 32239 | 46981 | 61384 |
| Təbii qaz | 7373 | 10754 | 10913 | 11067 | 11761 | 12588 | 13850 | 13841 |
| Avtomobil benzini | 821 | 913 | 958 | 1128 | 1340 | 1413 | 1624 | 1731 |
| Dizel yanacağı | 2988 | 2473 | 2436 | 2491 | 2803 | 3258 | 3160 | 3110 |
| Mazut yanacağı | 5809 | 3823 | 3981 | 3590 | 3869 | 4657 | 4637 | 4354 |
| Aviasiya və sair üçün ağ neft | 1170 | 982 | 1000 | 1014 | 1000 | 1135 | 1139 | 1216 |
| Elektrik enerjisi | 2467 | 2535 | 2592 | 2918 | 2966 | 3069 | 3236 | 2755 |
| İstilik enerjisi | 580 | 673 | 750 | 803 | 796 | 795 | 808 | 665 |
| Digərləri | 249 | 335 | 426 | 475 | 493 | 556 | 663 | 1692 |

Cədvəldən belə nəticə çıxarmaq olar ki, bu illər ərzində ölkəmizdə yanacaq-energetika balansının həcmində neft və neft məhsulları xüsusi çəkiyə malikdir. Respublikamızda yetəri qədər mazut və dizel yanacağı, o cümlədən, avtomobil və viasiya yanacağının olması xoşagələn haldır. Qeyd etmək lazımdır ki, dövlətimiz həm İEÖ və İEOÖ-rə neft məhsulları ixrac edir. Gürcüstan, Türkiyə və Ukrayna, demək olar ki, ölkəmizin bütün neft məhsulları üzrə idxal prosesində fəal iştirak edir.

Azərbaycanın neft ixracını artırmasında təbii ki, ilk amil qiymət amilidir. Yanacaq məhsularının qiymətinin artdığı bir dövrdə respubli-

kamız da bu amildən faydalanmağa çalışır. Əsas neft məhsullarından başqa respublikamız dünya bazarına neft koksu, sürtkü yağları, neft bitium, ağ neft və s. bu kimi məhsullar ixrac edir.

Qeyd etmək lazımdır ki, respublikamızın tranzit ölkəyə çevrilməsi əvvəllər inandırıcı hal hesab edilmirdi. Kim inanardı ki, öz müstəqilliyini yenicə əldə etmiş bir ölkə çox qısa vaxt ərzində həm neft ixracatçısına və həm də bu sahədə tranzit bir ölkəyə çevriləcək. Dövlətimiz 1994-cü ildə neft strategiyası hazırlayarkən tranzit ölkə olmaq hələ planlaşdırılmamışdı. İlk öncələr əsas məqsəd ölkədə hasil ediləcək nefti dünya bazarına çıxarmaq idi. Odur ki, dövlətimizin tranzit ölkə olmasından əvvəl, onun neft ixracetmə yollarını aydınlaşdıraq. Çünki tranzit ölkə qismində çıxış etmək üçün əvvəlcə gərək nəqliyyat yollarını aydınlaşdıraq.

Neft, neft məhsulları və qazın ölkəmizdən ixracının çox hissəsi boru kəmərlərinin payına düşür. Məlumat üçün qeyd edək ki, neftin boru kəməri vasitəsilə nəqli kimi inqilabi ideya Rokfellerə və məşhur rus kimyaçısı D.İ.Mendeleyevə məxsusdur. Bu ideyanı isə ilk dəfə Nobel və Rotşild qardaşları, həmçinin "Royal Datch Shell" şirkəti həyata keçirmişlər. Azərbaycanda ilk dəfə boru kəmərindən nəql üçün istifadə 1878-ci ilə təsadüf edir. Həmin ildə Balaxanı yatağından Bakının neft emalı zavodlarına xam neftin nəqli üçün Abşeron yarımadasında uzunluğu 12 km, diametri isə 75 mm olan iki neft kəməri istifadəyə verilmişdir.

Azərbaycan neftinin dünya bazarına nəqlini təmin etmək üçün 1996-cı il yanvar ayının 18-də Rusiyanın Hökumət evində Ümummilli liderimiz Heydər Əliyev, Rusiya Federasiyasının baş naziri Viktor Çernomordin Azərbaycanın "Azəri", "Çıraq", "Günəşli" dəniz yataqlarından çıxarılacaq ilkin neftin Rusiya ərazisi vasitəsilə nəql edilməsi haqqında ikitərəfli saziş imzaladılar. Bunun nəticəsində Bakı-Novorossiysk Şimal ixrac boru neft kəməri tezliklə bərpa edilərək 1997-ci ilin oktyabr ayının 18-də istismara verildi. Şimal marşrutu Səngəçal terminalından Novorossiyskə qədər olan 1411 km məsafəni əhatə edir. Şimal ixrac boru kəməri sistemi vasitəsilə 17 mln. tondan çox neft Novorossiysk limanı vasitəsilə dünya bazarına çıxarılmışdır.

Neft ixrac istiqamətinin Qərb marşrutunda boru kəmərinin diametri də 508 mm, neftötürmə qabiliyyəti isə Şimal marşrutunda olduğu kimi, ildə 5 mln. tondur. Səngəçaldan Qara dənizin Supsa limanına qədər boru kəmərinin uzunluğu 837 km-dir. Bakı-Supsa neft kəməri və Gür-

cüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı, Azərbaycan neftinin Novorossiysk limanına əlavə olaraq, Supsa limanından da neftin dünya bazarına ixrac edilməsinə imkan verir. Bu kəmərin böyük iqtisadi əhəmiyyəti bir də ondan ibarətdir ki, müəyyən səbəblər üzündən Bakı-Novorossiysk neft kəməri işləməsə neft hasiltaı və ixracı dayanmayacaq. Onun dünya bazarına ixracı davam etdiriləcəkdir.

Azərbaycan neftinin dünya bazarına, Aralıq dənizinin Ceyhan limanına ötürülməsi üçün bir neçə boru kəməri marşrutları müzakirə edilmişdir. Belə ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ilk layihəsində kəmər Bakıdan başlamalı, sonra İran İslam Respublikasının ərazisinə daxil olmalı, oradan Naxçıvan ərazisinə keçməli, sonra Türkiyəyə daxil olaraq Ceyhana qədər uzanmalı idi. ABŞ Bakı-İran-Naxçıvan-Ceyhan marşrutunu məsləhət görmədi, Bakı-Ermənistan-Naxçıvan-Türkiyə variantını isə Azərbaycan Respublikası dəstəkləyə bilməzdi. Bazar qiymətləri ilə müqayisə aparsaq görərik ki, Bakı-Supsa və Bakı-Novorossiysk xətləri ilə daşınacaq neftin istismar xərcləri Bakı-Tbilisi-Ceyhan (BTC) boru xəttilə daşınacaq neftin qiymətindən daha yüksək olur.

Bu sazişdə tutulub ki, sərmayəçilərin qoyduğu vəsaitlərin əvəzinin ödənilməsindən sonra əsas ixrac boru kəmərinin mülkiyyəti tamamilə Azərbaycan Respublikasına keçir, sazişin qüvvədə olduğu müddət isə 40 il nəzərdə tutulur. Beynəlxalq Əməliyyat Şirkəti tərəfindən aparılan ilkin hesablamalara görə, neftin qiymətinin hər barrel üçün 16 dollar olacağı halda, layihənin gəlirləri 27 mlrd. dollar, 20 dollar olacağı halda 45 mlrd. dollar, 25 dollar olacağı halda isə gəlirlərin 64 mlrd. dollar təşkil edəcəyi bildirilir.

Azərbaycan ərazisindən neftin hazırkı sutkalıq tranzit həcmi təqribən 120 min barel təşkil edir. Bu həcmin 40 min bareli Qazaxıstanın "Tengiz" yatağından çıxarılan neftin payına düşür. Ötən ilin payızından BTC-yə Qazaxıstanın "Tengiz" yatağından çıxarılan neft vurulur. Yaxın gələcəkdə bu kəmərə Xəzərin Qazaxıstan sektorundakı "Kaşaqan" yatağından çıxarılan neft də qoşulacaq. Deməli, Azərbaycan neft-qaz təchizatçısı və ixracatçısı olmaqla bərabər, həm də tranzit ölkə kimi nüfuzunu artırmaqdadır. Təsadüfi deyil ki, Avropa Azərbaycanın Nabukko, Türkiyə-Yunanıstan-İtaliya, Transadriatik boru kəməri layihələrinin əsas təchizatçılarından olacağına böyük ümidlər bəsləyir.

Qazaxıstan neftinin nəqli Bakı-Tbilisi-Ceyhan boru kəməri, həmçinin Gürcüstanın Batumi limanınadək dəmiryolu vasitəsilə Azərbaycan ərazisindən həyata keçirilir. Nəqlə ötən ilin oktyabrından başla-

nılıb. Hazırda Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə sutkada "Azəri-Çıraq-Günəşli" yataqları blokundan çıxarılan 750-800 min barel neft, "Şahdəniz" yatağından çıxarılan 40-50 min barel kondensat və 40 min barel Tengiz nefti nəql olunur. Bakı-Supsa neft kəməri vasitəsilə sutkada "Azəri-Çıraq-Günəşli" yataqları blokundan çıxarılan 80-100 min barel neft nəql olunur. Azərbaycan neftinin tədarükü üçün Şimal-Şərq, həmçinin Mərkəzi və Şərqi Avropa bazarları perspektivlidir.

Azərbaycan neftinin Avropaya ixracının artmasına səbəb olan amillər Avropa ölkələri tərəfindən xammal hasilatının azaldılması, idxal artımı, aşağı sulfid və sulfid növləri arasında balans dəyişikliyi, həmçinin Avropa bazarının dizel yanacağı tələbatına meyilliliyidir. Avropada neftə tələbat sutkada 14-14,5 mln. barel təşkil edir. Bunun 70 faizi idxalın payına düşür.

Xəzər regionu keçmiş SSRİ-nin dağılmasından hal-hazıra qədər dünyanın, xüsusilə qeyd edildiyi kimi, enerji tələbatını kənardan ödəyən ABŞ, Avropa və digər dövlətlərin xüsusi marağını kəsb etməkdədir. Bu baxımdan da adları çəkilən dövlətlər öz mənafelərinin təminatı nöqteyi-nəzərindən region dövlətlərinə maraq göstərirlər. Xəzər regionunda Azərbaycan, Qazaxıstan və Türkmənistan daha çox Qərbin, Çinin, Yaponiyanın, Türkiyənin enerji tələbatını ödəmək məqsədilə geosiyası əhəmiyyətə malikdir. Regionun bu dövlətləri arasındakı əlaqələr daima olaraq enerji tələbatı olan dövlətlərin diqqət mərkəzindədir.

Qeyd etmək lazımdır ki, 2014-cü ilin sonunda Azərbaycan qazının Türkiyə və Yunanıstana nəqli başlamışdır. Bununla da Azərbaycan öz qaz potensialı ilə Avropa İttifaqının bazarına daxil olacaqdır. Cari ilin birinci rübündə “Şahdəniz” yatağından çıxarılan Azərbaycan qazı Bakı-Tbilisi-Ərzurum qaz kəməri vasitəsilə ixrac edilməyə başlayıb.

Azərbaycan Mərkəzi Asiyanın Qərbə inteqrasiyasında ən mühüm coğrafi və siyasi mövqeyə malikdir. Dövləti istəməyən, onun inkişafına qısqanclıqla yanaşan qüvvələr bunun real olmadığını bildirsələr də, lakin əslində reallıq başqadır. Ümumiyyətlə, istər Qazaxıstan, istərsə də Türkmənistan Azərbaycana, Qərbə inteqrasiyaya böyük önəm verirlər. Bu baxımdan Azərbaycan prezidenti cənab İlham Əliyevin 2007-ci il avqust ayının 7-də Qazaxıstana rəsmi səfəri və bu dövlətin prezidenti Nursultan Nazarbayevlə görüşü zamanı prezident Nazarbayev bildirmişdir: “ Azərbaycan bizim üçün tranzit ərazi kimi çox maraqlıdır, əvvəllər razılaşdığımız kimi Bakı-Tbilisi-Ceyhan layihəsində iştirak edirik, gələcəkdə isə qaz layihələri, Azərbaycandan və Gürcüs-

tandan keçəcək dəmiryolu marşrutu var..” Ümumiyyətlə, Mərkəzi Asiyanın regional lider dövləti olan Qazaxıstan da çox- vektorlu siyasət tərəfdarıdır. Məlumdur ki, Qazaxıstan neftinin çox hissəsi hal-hazırda Rusiya ərazisi vasitəsilə dünya bazarlarına çıxarılır. Lakin Qazaxıstanda gələcəkdə neft hasilatının artması ilə Rusiyanın bu xammalı tam həcmdə dünya bazarına çıxarmaq imkanları olmayacaqdır. Ona görə də Qazaxıstan Azərbaycandakı layihələrə qoşulmaq məcburiyyətindədir. Türkmənistan da həmin mövqeyi nümayiş etdirir. Məsələn, 2007-ci ilin may ayında Polşada Qazaxıstan, Azərbaycan, Gürcüstan, Ukrayna, Polşa və Litvanın iştirakı ilə keçirilən enerji sammiti zamanı Rusiya prezidenti Vladımir Putinin Mərkəzi Asiyaya səfəri və Qazaxıstan və Türkmənistanla, Xəzər dənizinin kənarı ilə yeni neft və qaz kəmərlərinin çəkilməsi və mövcud olan Mərkəzi Asiya Mərkəz enerji nəqliyyatı kəmərinin imkanlarının artırılması ilə bağlı razılaşmalar əldə etməsinə baxmayaraq, Qazaxıstan və Türkmənistan enerji resurslarının Qərbə ixracında Azərbaycandan keçəcək layihələrdən imtina etmədiklərini bildirmişlər. Qərb, xüsusulə ABŞ “Transxəzər” layihəsinə xüsusi önəm verir. Artıq “Transxəzər” layihəsinin reallaşmasına şübhə ilə yanaşan qüvvələrin niyyətləri puça çıxmışdır. Belə ki, 2007-ci il avqust ayının 16-da Azərbaycanda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında Qazaxıstan neftinin ixracı üçün neft kəmərinin və “Transxəzər” layihəsinin reallaşması istiqamətində çəkiləcək qaz kəmərinin texniki imkanlarının araşdırılması və Xəzər dənizinin dibinin coğrafi şəraitinin öyrənilməsi ilə bağlı 1,7 milyon dollar məbləğində qrant sazişinin imzalanması bir daha onu sübut edir ki, Azərbaycan Mərkəzi Asiyanın enerji resurslarının dünya bazarına çıxarılmasında ən əlverişli geosiyasi mövqeyə malikdir.

Həmçinin qeyd edilməlidir ki, Azərbaycan dünyanın enerji infrastukturunda yaranmış təhlükəsizliyin aradan qaldırılmasında mühüm rol oynayacaqdır. Avropa Xəzər regionuna alternativ enerji mənbəyi kimi baxır və layihələri dəstəkləyir. 2006-cı ilin noyabr ayında Avropa Ittifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Memorandum imzalanmışdır. Buna bənzər saziş, həmçinin Azərbaycan və ABŞ arasında imzalanmışdır. Polşanın Krakov şəhərində keçirilən enerji sammitində Odessa-Brodı-Qdansk neft kəməri haqqında geniş fikir mübadiləsi aparılmışdır. Artıq qısa müddət ərzində işçi qruplarının da fəaliyyəti başlamışdır. Avropa və Asiya ilə yaxın münasibətlər

çərçivəsində TRASEKA layihəsinin icrası, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə xidmət edəcək ABUKKO layihəsini dəstəkləmək üçün ABŞ və Avropa dövlətləri qeyd edilənlərdən belə nəticəyə gəlir ki, yaxın gələcəkdə Azərbaycan iqtisadi və siyasi cəhətdən dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə qalxmaq mərkəzindədir.

Respublikamızın tranzit ölkə qismində çıxış etməsi ölkəmizin iqtisadi maraqlarını olduqca yüksək səviyyədə qoruyur. Tranzit ölkə kimi çıxış etməyimizdə bir çox Avropa ölkələri daha çox maraqlanır. Belə ki, Avropa iqtisadi əlaqələri daha çox öz xeyrinə olaraq "siyasi silaha" çevirməyə adət etmiş Rusiya kimi iri dövlətdənsə, Azərbaycan kimi daha diplomatik siyasət yeridən müstəqil ölkələrə üstünlük verirlər. Məsələn, Bakıda səfərdə olan İsveçrə Konfederasiyasının iqtisadi məsələlər üzrə dövlət katibi Jan Daniel Gerber hazırda Avropada Azərbaycan qazına böyük maraq göstərildiyini xüsusi olaraq nəzərə çatdırmışdır. Xəzər bölgəsindən Qərbə qaz nəqli istiqamətində bir çox layihələrin təklif edildiyini söyləyən J. D. Gerber Nabukko qaz kəməri layihəsinə verdiyi dəstəyə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirmişdir. Dövlət katibi keçən il İsveçrə Prezidentinin Azərbaycana səfər etməsi, eləcə də Azərbaycan və İsveçrə prezidentlərinin bu il Davos İqtisadi Forumunda görüşündən sonra bu sahədə daha da inkişafın əldə edildiyini bildirmişdir. Katib İsveçrə dövlətinin Azərbaycanda qeyd edilən məsələlərdə bütün zəruri yardımı göstərməyə hazır olduğunu bəyan etmişdir.

"Nabukko gas pipeline international" layihəsinin Baş katibi Reynaxard Mitşek Bolqarıstanda keçirilən "Avropa üçün qaz dəhlizi" konfransında qeyd etmişdir ki, Avropa hazırda Azərbaycandan, Türkmənistandan, İraqdan, Misirdən, İrandan qaz gözləyir. Belə ki, Nabukko layihəsinin reallaşdığı təqdirdə Azərbaycan bu kəmər vasitəsilə Avropaya 10-14 mlrd. m3, Misir 8-10 mlrd. m3, İran isə 10-20 mlrd. m3 qaz ixrac edə bilər.

Avro-Asiya neft-tranzit dəhlizi 5 tərəfli istiqamətdə formalaşmalıdır. Belə ki, Orta Asiya ölkələrindən ixrac olunan neft Azərbaycan vasitəsilə Bakı-Supsa kəmərilə Gürcüstana, sonradan Qara dəniz vasitəsilə Odessaya, oradan isə Avropaya nəql olunacaq. Layihə reallaşdırıldığı təqdirdə il ərzində bu tranzit dəhlizi vasitəsilə 100-150 mln. ton neft nəql edilə bilər. Xəzərsahili ölkələr isə il ərzində bu layihə vasitəsilə 30 mln. ton neft ixrac edə bilər. Layihənin payız aylarında Avropa Birliyinin növbəti iclasında gündəmə çıxarılacağı gözlənilir.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, hazırki dövrdə respublikamız neft amilindən olduqca yüksək səviyyədə yararlana bilər. Həm neft və neft məhsulları ixracından, eləcə də Avropa-Asiya nəqliyyat dəhlizinin mərkəzindəki coğrafi mövqedən istifadə edərək tranzit ölkə kimi regionda çıxış edə bilər.

Belə bir faktı göstərmək lazımdır ki, ümumiyyətlə, ixracın, o cümlədən neft məhsullarının ixrac strukturunda köndələn formalaşmış istiqamət mövcuddur. Ümumi ixracda neft və neft məhsullarının payının yüksək olmasına baxmayaq bu əmtəənin ixrac strukturunu səmərəli hesab etmək olmaz. Çünki o xammal yönümlü strukturdur. Hesablamalar göstərir ki, hazırda respublikamız dünya bazarına son məhsulla xam neftə olan dünya qiymətləri arasındakı fərqə hər barel üçün minimum 8 dollar vəsait itirir.

Qlobal böhranla bağlı olaraq Azərbaycanda neft hasilatı bir qədər azaldılıb. Ancaq ölkəmizdən neft ixracı isə artıb. 2014-cü ilin birinci rübü ərzində boru kəmərləri və dəmiryolu nəqliyyatı vasitəsilə Azərbaycandan 9,6 milyon ton neft ixrac edilib.

Ölkəmizdən neft ixracı 4 marşturla - başda Bakı-Tbilisi-Ceyhan (BTC) olmaqla, Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri, həmçinin Bakı-Batum dəmiryolu vasitəsi ilə gerçəkləşdirilir.

Sözügedən müddət ərzində BTC vasitəsilə 7,7 milyon ton neft nəql olunub. BP-nin operatoru olduğu BTC-dən "Azəri-Çıraq-Günəşli" yatağından hasil olunan yüngül neft ixrac edilir. Həmin yatağın işlənilməsinə dair layihənin digər xarici iştirakçılarından olan Amerikanın ExxonMobil və Devon şirkətləri isə, BTC-nin tikilməsi zamanı investisiya sərf etmədiklərindən öz neftlərini dəmiryolu vasitəsilə Batuma çatdırmaqla satırlar. ARDNŞ isə öz vəsaiti hesabına çıxardığı nefti, xarici kapitalın iştirakı ilə yaradılmış birgə müəssisələr və əməliyyat şirkətlərinin ölkədə qurudan hasil etdikləri neftlə birgə Bakı-Novorossiysk kəmərilə ixrac edir. Bu ilin yanvar-mart ayları ərzində buradan 611 min ton ixrac həyata keçirilmişdir.

BP-nin operatoru sayıldığı digər kəmər - Bakı-Supsayla 2014-cü ilin ilk rübü ərzində 1,1 milyon ton neft ixrac olunub. Dəmiryoluna gəldikdə isə, sözügedən müddət ərzində 192 min ton neft göndərilmişdir. Burada ExxonMobil və Devon şirkətlərinin məhsulu ilə yanaşı, Qazaxıstanın "Tengiz" yatağından hasil edilərək ölkəmiz ərazisindən tranzit olunan xammalın da payı var.

Azərbaycandan neft ixracının həm daxili, həm də xarici amillər səbəbindən daha çox artacağı deyilir. Energetika naziri Natiq Əliyev qeyd etmişdir ki,respublikamızda 2014-cü ildə 45milyon ton neft istehsal edilmişdir. "Ölkənin fəaliyyətdə olan neft yataqlarında artıq təsdiq olunmuş neft ehtiyatlarının həcmi 2,2 milyard tona bərbərdir ki, aparılan əlavə geoloji kəşfiyyat işləri də uğurla nəticələnərsə, bu rəqəm 5 milyard təşkil edəcək"- deyə nazir vurğulayıb. N. Əliyev əlavə edib ki, ümumiyyətlə, Azərbaycanın enerji siyasətinin əsas prinsipləri bundan ibarətdir ki, ölkənin enerji resurslarına tələbat tam ödənilməklə bu sahədə təhlükəsizlik təmin edilsin və etibarlı "Şərq-Qərb" dəhlizi yaradılması yolu ilə Avropa bazarı neftlə daha yaxşı təchiz olunsun. Bu isə o deməkdir ki, ölkəmiz tranzit rolunda daha fəal iştirak edəcək.

Qeyd edək ki, Avropa bazarı bu gün sutkada 14-14,5 milyon barel neft tələb etməklə 70 % ixracdan asılı vəziyyətdədir.

OPEK də məhz bu səbəbdən 2015-ci ildə Azərbaycanda neft ixracının artacağını söyləyir. Kartel neftin dünya bazarlarında ucuzlaşmasının qarşısını almaq məqsədilə ona üzv olmayan ölkələri hasilatı azaltmağa çağırsa da, təkcə Azərbaycana münasibətdə bildirib ki, ölkəmizdən neft ixracı səviyyəsi bu ilin xüsusən sonuncu rübü ərzində daha çox artacaq.

İxracın artdığı isə doğrudan da göz qabağındadır. ARDNŞ-in son hesabatı bunu bir daha təsdiq edir. Apreldə Bakı-Novorossiysk kəməri ilə 224 min ton neft ixra edilib. Bütövlükdə 2014-cü il ərzində bu kəmərlə keçən ilki 1,3 milyona qarşı 2,5 milyon ton artıq neft ixrac olunacağı bildirilir.

Neftin dünya bazarlarında artıq neçə aylardan bəridir ki, mövcud olan qiymət səviyyəsi hətta ən iri ixracatçı ölkələr üçün də belə sərfəli deyil. Söhbət Səudiyyə Ərəbistanı, Kanada, İran, İraq, Küveyt, BƏƏ, Venesuela, Rusiya, Qazaxıstan kimi ölkələrdən gedir. Bu ölkələrin hər birinin dünyadakı mövcud neft ehtiyatlarında payı bizimki ilə müqayisədə dəfələrlə çox olsa da, dünyada ən çox və ucuz neft hasil edən Səudiyyə Ərəbistanı üçün hələ 3-4 il bundan qabaq aparılan hesablamaya görə, sözügedən məhsulun dünya bazarlarında sərfəlilik baxımından ən aşağı qiymət səviyyəsi 60-65 dollar hesab edilir. Halbuki bu ölkədə xam neft hasilatı cəmi 5-6 dollara başa gəlir. Bu ondan irəli gəlir ki, adı çəkilən ölkənin dövlət büdcəsi gəlirlərinin 90 %-dən çoxu xam neft ixracından əldə olunur. Odur ki, hasilatın ucuz başa gəlməsinin heç bir əhəmiyyəti qalmır.

Azərbaycanda 1 barel neftin hasilatının 10-11 dollara başa gəldiyi deyilir. Bu baxımdan ölkə iqtisadiyyatının normal fəaliyyət göstərməsi üçün dünya bazarlarında qiymətin 40-45 dollar olması sərfəli hədd sayıla bilər. Ancaq Azərbaycanda indiyədək həyata keçirilən investisiya siyasəti neftin qiymətinin 100 dollara yaxın olması tələb edilir. Əks təqdirdə, büdcə buna tab gətirməyəcək. Dünya bazarlarında isə qiymətin yenidən 100 dollar civarına qalxması qeyri-real görünür. Bunun üçün heç bir zəmin də yoxdur. Yalnız siyasi amillər səbəbindən qiymət dəyişə bilər ki, bu da yaranmış iqtisadi böhran fonunda neftə tələbat azaldığı üçün çətin ki, baş versin.

Qiyməti sabitləşdirmək məqsədilə ixracatçı ölkələrin təklifi məhdudlaşdırmaq səylərinə dəstək olaraq, habelə digər səbəblərə görə, Azərbaycanın da hasilatı müəyyən dərəcədə azaltması təbii sayılmalıdır. Ancaq bunun müqabilində ixracın artmasının heç bir ciddi əhəmiyyəti yoxdur.

Qeyd etmək lazımdır ki, ticarət əlaqələri səmərəli əmək bölgüsünə və istehsalın kooperasiyasına əsaslanmalıdır. Bunun nəticəsində istehsal məsrəfləri azalar və əmək məhsuldarlığı yüksələrsə, ölkələrarası mal mübadiləsi qarşılıqlı faydalı olar. Xarici ticarət əlaqələrinin və onunla bağlı milli iqtisadiyyatın inkişafının tarixi xüsusiyyətləri, müxtəlif təbii və iqtisadi şərait, ölkənin əlverişli nəqliyyat-iqtisadi vəziyyəti ilə əlaqədardır. Azərbaycan Avropa ilə Asiyanın kəsişməsində yerləşməklə, məhsuldar qüvvələrin inkişafı və səmərəli nəqliyyat-iqtisadi əlaqələr üçün olduqca əlverişli vəziyyətə malikdir. Azərbaycan ildən-ilə digər ölkə və regionlar üçün nəzərdə tutulmuş məhsullar istehsalında öz xüsusi çəkisini artırır, eyni zamanda ictimai əmək bölgüsü və ölkələrarası əmək bölgüsü daha da dərinləşir, iqtisadiyyatın ixtisaslaşması və kompleks inkişafı güclənir. Azərbaycanın ticarət əlaqələrinin güclənməsi əmək bölgüsünün dərinləşməsi ilə üzvi surətdə əlaqədardır. Əmək bölgüsünün dərinləşməsi təbii sərvətlərin mənimsənilməsini və müxtəlif sənaye sahələrinin yaranmasını təmin etməklə, məhsuldar qüvvələrin yerləşməsində güclü dəyişiklik etmiş, ticarət əlaqələrinin daha da təkmilləşdirilməsi üçün şərait yaratmışdır.

Məhz buna görə də respublikamızda xarici ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi fəaliyyətin səmərəliliyinin təmin olunması üçün aşağıdakı istiqamətlərdə ardıcıl iş aparılmalıdır:

-Ölkənin ixrac potensialının düzgün qiymətləndirilməsi və onun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

-İdxalın obyektiv tələbat həcminin tapılması;

-İdxal əvəzedici sahələrin inkişaf imkanları və pesrpektivlərinin araşdırılması;

-Xarici maliyyə-kredit resurslarının ölkəyə cəlb olunması;

-İqtisadi təhlükəsizlik konsepsiyasının işlənməsi və reallaşdırılması;

-İnteqrasiya proseslərinin tənzim edilməsi və təkmilləşdirilməsi və s.

Qeyd etmək lazımdır ki, hazırda Azərbaycanın xarici ticarət təşkilatlarında iştirakı imkanları genişlənir. Belə ki, hazırda Azərbaycanda sərbəst bazar iqtisadiyyatına keçid, iqtisadiyyatın liberallaşdırılması, xarici ticarətin və bütövlüklə xarici iqtisadi əlaqələrin sərbəstləşdirilməsi, «açıq qapı» siyasətinin həyata kecirilməsi, müxtəlif gömrük rüsumlarının və gömrük məhdudiyyətlərinin ləğv edilməsi və s. istiqamətində dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. Bazar iqtisadiyyatı sahibkarlığın inkişafı, azad iqtisadi ticarət zonalarının təşkili, xarici ticarət üzərində dövlət inhisarının qaldırılması və beynəlxalq əmək bölgüsündə ölkənin müqayisəli üstünlüklərdən səmərəli istifadə etməsi üçün əlverişli şərait yaradır. Azərbaycanda xarici iqtisadi fəaliyyət prinsipcə yeni normativ hüquqi bazaya və dövlət tənzimlənməsi mexanizminə əsaslanmaqla, bazar iqtisadiyyatının tələblərinə cavab verməli, ölkənin dünya təsərrüfat sistemində inteqrasiyasını təmin etməlidir. İnteqrasiya da əsasən ölkənin beynəlxalq iqtisadi-ticarət təşkilatlarının iştirakı ilə şərtlənir. Bu da beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsinə, mövcud resurslardan səmərəli istifadə edilməsinə, elmi-texniki əməkdaşlığın həyata keçirilməsinə və əhalinin tələbatının hərtərəfli ödənilməsinə əlverişli şərait yaradır. Qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrin və dövlətlərin beynəlxalq ticarət sistemində inteqrasiyası, onların inkişaf strategiyasının vacib komponenti olub, onların öz xarici ticarətini inkişaf etdirmək, öncədən bəlli və stabil ticarət mühiti yaratmaq hüququ var. Xarici ticarətin beynəlxalq normalar səviyyəsində təşkilini təmin etmək məqsədilə Azərbaycan ÜTT-yə üzv olmaq ərəfəsindədir. 1998-ci ilin iyul ayında ölkəmiz ÜTT-də müşahidəci statusu almışdır. Artıq Azərbaycan xarici ticarət rejimi haqqında memorandum hazırlayıb ÜTT-yə təqdim etmişdir və yaxın vaxtlarda onun ÜTT-yə üzv olması gozlənilir.

Azərbaycanın ixrac məhsullarının funksional tərkibində neft və neft məhsullarının xüsusi cəkisi 90%-dən, idxal mallarının strukturun-

da isə hazır məhsulun payı 70%-dən çoxdur, onda bir həqiqət inkar olunmazdır ki, aparıcı sənaye dovlətləri – Azərbaycan xammalının başlıca ixracatçıları sözsuz ki, Azərbaycan bazarının dünya ölkələrinin «üzünə» açılmasından qazanırlar. Bir məqamı da diqqətdən qaçırmaq olmaz ki, BVF və Dünya Bankından fərqli olaraq ÜTT-nin şərtləri daha standartdır və bu təşkilatla sövdələşmək imkanları məhduddur.

Azərbaycanla İƏT arasında əməkdaşlığın təkmilləşdirilməsinə düzgün yanaşma, bu əməkdaşlıq əlaqələrinin inkişafı problemlərinin müəyyənləşdirilməsi və onların həlli yollarının axtarılmasına əsaslanmalıdır. Azərbaycanın İƏT ilə əməkdaşlığının təkmilləşdirilməsində başlıca problemlər aşağıdakılardır:

İƏT çərçivəsində Turkiyə, İran və Pakistan arasında liderlik uğrunda rəqabətin getməsi;

Təşkilatın qəbul etmiş olduğu və respublikamızı da əhatə edən layihələrin reallaşdırılmasını ləngidən səbəblərdən biri də üzv ölkələrin iqtisadi inkişaflarının müxtəlif istiqamətliliyi.

Azərbaycanla İƏT arasnıda əməkdaşlığın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi üçün təşkilat daxilində islahatlar üzrə İƏT komissiyasının yaradılması məqsədəuyğun olardı. Komissiyanın vəzifələri aşağıdakılar təyin edə bilər. Üzv ölkələrin iqtisadi islahatlar təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi;

Üzv ölkələrin milli təsərrüfatlarının iqtisadi-hüquqi şəraitinin yaxınlaşdırılması və yaxşılaşdırılması üçün konkret təkliflərin hazırlanması;

Həmin təkliflərin regionda tətbiqi mexanizminin müəyyən edilməsi və nəticələrin proqnozlaşdırılması.

Azərbaycanda ticarət təşkilatları arasında əməkdaşlığın genişləndirilməsi istiqamətləri aşağıdakılardır:

İnteqrasiya qruplaşmaları ilə qarşılıqlı əlaqələrin yaradılması və inkişaf etdirilməsində Azərbaycanın vasitəçi səlahiyyətlərində çıxış etməsinə nail olmaq. Perspektivdə bu cür vasitəçilik əməliyyatları respublikamızın üzv olmadığı başqa təşkilatlarla (ASEAN, Ərəb Məqribi, SAPK) nəqliyyat və ticarət sahəsində vahid tariflərin əldə edilməsi üçün şərait yaradar;

Respublikamızın xarici ticarət təşkilatları çərçivəsində qarşılıqlı investisiya fondları mərkəzinin yaradılmasına nail olması;

Təşkilatlar daxilində elmi-texniki siyasətin tənzimlənməsi üzrə xüsusi komitənin yaradılmasına nail olması. Azərbaycan özünün neft, kimya, neft maşınqayırması, turizm, İKT, kənd təsərrüfatı sahələrində-

ki elmi potensialının yox olmasını gözləmədən, onları bu komitə çərçivəsində istifadə və inkişaf etdirmək məqsədi ilə belə qurumun yaradılmasında təşəbbüsçü olmalıdır.

Beləliklə, Azərbaycanın xarici ticarət təşkilatları ilə əlaqələrinin təkmilləşdirilməsi, bu təşkilatlarla əməkdaşlığın genişləndirilməsi imkanları və istiqamətlərinin müəyyənləşdirilməsi və onların reallaşdırılması mexanizminin hazırlanması və tətbiqi gələcəkdə ölkəmizin ticarət əlaqələrinin artmasına, ixrac potensialından səmərəli istifadə edilməsinə və dünya iqtisadiyyatına inteqrasiyasına müsbət təsir göstərəcəkdir.

## 2. Azərbycanın xarici ticarət əlaqələrinin tənzimlənməsi xüsusiyyətləri və problemləri

Respublikamızda aparılan iqtisadi islahatlar ölkə iqtisadiyyatının başqa sahələrində olduğu kimi, xarici ticarətə də öz müsbət təsirini göstərmişdir. Belə ki, 2012-ci ildə Azərbaycanın ticarət dövriyyəsinin həcmi əvvəlki dövrlərdə başlanan tendensiyaya uyğun olaraq artmaqda davam etmişdir. Ticarət sektorunda 2012-ci ildə 17,6 milyard manatlıq əmtəə satılmış, son 10 ildə 3 dəfə artmışdır. Əhalinin həyat səviyyəsi yüksəldikcə ölkə əhalisinin qeyri-ərzaq mallarına tələbatı genişlənmiş, pərakəndə ticarət dövriyyəsinin ümumi həcmində qeyri-ərzaq mallarının xüsusi çəkisi 11,4 % artmışdır.

Azərbaycan iqtisadiyyatında aparılan uğurlu islahatların mühüm istiqamətlərindən biri, yaxın gələcəkdə Azərbaycanın neft və neft məhsulları ixracatı ilə yanaşı hazır sənaye məhsulları kənd təsərrüfatının, UKT və s.ixracatçısı kimi tanınması üçün real zəminin mövcudluğudur. Son beş il ərzində xarici ticarətin təhlili göstərir ki, neft və neft məhsullarının ixracının kəskin artması ilə yanaşı qeyri-neft məhsullarının xarici bazarlara çıxarılmasında da müsbət dəyişikliklər nəzərə çarpır. 2012-ci ilin statistik məlumatlarına görə, kimya məhsulları ixracı son dövrlə müqayisədə 60% çox olmuşdur. Yeyinti , tekstil və toxuculuq , azqiymətli metallar və s. məhsulların ixracında eyni müsbət meyilləri müşahidə etmək olar.

Onu da qeyd etmək lazımdır ki, son dövrdə maşın, mexanizm, elektrotexniki avadanlıqların ixracı ötən illərə nisbətən azalmasına baxmayaraq, bu sahənin potensial imkanları çox genişdir.

Son dövrdə respublikada yeni texnoloji avadanlıqların tətbiqinin genişlənməsini, istehsal proseslərinin beynəlxalq standartlara uyğun

yenidən qurulmasını, informasiya və kommunikasiya texnologiyaları sahəsinin ən müasir səviyyəyə çatdırılmasını təmin etmək üçün əvvəlki illərlə müqayisədə idxalın ümumi həcmində respublikaya gətirilən maşın və mexanizmlər, elektrotexniki avadanlıqlar və aparaturaların xüsusi çəkisi artaraq 2012-ci ildə 27,2 % təşkil etmişdir. Yerli istehsal sahələrinin yenidən qurulması və uğurla həyata keçirilən aqrar islahatların aparılması bir sıra yerli qida məhsullarının istehsalının artmasına və ölkəmizdə idxalın azalmasına səbəb olmuşdur. Yerli məhsullar daxili bazarlarımızı zənginləşdirmiş, əsas qida məhsullarına idxaldan asılılığını azaltmışdır.

Son 10 il ərzində xarici ticarət dövriyyəsi Azərbaycanda 8,8 dəfə, o cümlədən idxal 5,8 dəfə, ixrac isə 11 dəfə artmışdır. Xarici ticarətin strukturu dəyişikliyə uğradığı kimi, onun ticarət partiyalarının tərkibi də dəyişmişdir. Əgər 2003-cü ildə ticarət partiyalarının sayı 124 ölkə olmuşdursa, 2012-ci ildə onların sayı artaraq 155-ə çatmışdır.

Qeyd etmək lazımdır ki, son dövrdə neft sektorunun inkişaf etdirilməsi ilə əlaqədar olaraq əsas ticarət partnyorlarının sırasına İtaliya, Fransa, İsrail, Almaniya , Niderland və başqa Avropa dövlətləri qatılmışlar. İxracın bu ölkələrə artması eyni zamanda əks istiqamətdə bu ölkələrdə istehsal olunan malların gətirilməsinə şərait yaratmışdır. Bunun nəticəsində Azərbaycana İtaliyanın mebel, tekstil və ayaqqabı məmulatları, məişət avadanlığı, Fransadan müxtəlif çeşidli ərzaq məhsulları, dərmanlar gətirilir. Neft məhsullarından başqa bu ölkələrə Azərbaycanda istehsal olunmuş kənd təsərrüfatı məhsulları, pambıq, kimya sənayesi məhsulları və s. mallar ixrac olunur.

Azərbaycanın şirkət və iş adamları dünyanın əksər dövlətləri ilə ticarət əməliyyatları aparırlar. Son zamanlar gömrük və vergi sistemində aparılan islahatlar nəticəsində sahibkarlığın inkişaf etdirilməsi və eləcə də xarici investorların cəlb olunması üçün şərait daha da yaxşılaşdırılmışdır. Bu amil xarici ticarətin inkişafında başlıca rol oynayır. Ölkədə qeydiyyatdan keçən müxtəlif dövlətlərin sirkət və iş adamlarının sayı artmaqdadır. Azərbaycanın regionda tutduğu əlverişli geostrateji mövqeyi, zəngin təbii ehtiyatları və eləcə də inkişaf etmiş infrastruktura malik olması xarici şirkətləri cəlb edir. Azərbaycanda istehsal olunan mallar, o cümlədən kənd təsərrüfatı malları, xarici ekspertlərin rəylərinə görə, ekoloji cəhətdən təmiz və keyfiyyətlidir.

Xarici ticarət əməliyyatlarının tənzimlənməsində müasir beynəlxalq ticarət qaydalarının tətbiqi, məsələn ixrac rüsumlarının ləğv edil-

məsi, malların idxal-ixracında lisenziya və kvotaların məhdudlaşdırılması və s. tədbirlərin həyata keçirilməsi nəticəsində həm idxal-ixrac əməliyyatlarının həcmi, həm də onun coğrafiyası ilbəil artmaqda davam edir. Azərbaycan Respublikasının dünya iqtisadi məkanına inteqrasiyası ildən-ilə geniş vüsət alır.

Qeyd etmək lazımdır ki, Qədim "İpək yolunun" bərpasının 40-dan çox dövlət arasında siyasi, iqtisadi, ticarət, nəqliyyat, rabitə, mədəni əlaqələrin inkişaf etdirilməsi baxımından çox böyük əhəmiyyəti vardır. "İpək Yolu" TRASEKA layihəsi əsasında bərpa olunur. Bu proqram 1993-cü ilin mayında Brüsseldə Zaqafqaziya, Qazaxıstan, Orta Asiya respublikaları ilə Avropa İttifaqı arasında bağlanmış sazişə əsasən həyata keçirilir. Brüsseldə milli və beynəlxalq nəqliyyat, ticarət əlaqələrinin inkişafı strategiyasının müzakirəsinə həsr olunmuş görüşdə təsis edilmiş Avropa – Qafqaz –Asiya (TRASEKA) nəqliyyat dəhlizi proqramı Avrasiya məkanında həyata keçirilən iqtisadi cəhətdən sərfəli layihə hesab olunmuşdur və proqramda Qara Dəniz –Zaqafqaziya – Xəzər dənizi Orta Asiya marşrutu üzrə Avropadan başlanan dəhlizin inşası nəzərdə tutulmuşdur.

Böyük "İpək Yolunun" bərpasının milli iqtisadiyyatımızın dirçəlişində xüsusi əhəmiyyəti vardır. Mərkəzi Asiyadan Avropaya yüklərin "İpək Yolunun" bir hissəsi olan Transqafqaz magistralı ilə daşınması onların yolunu xeyli qısaldır və bu yoldan artıq istifadə olunur.

Azərbaycan Respublikasında qeyri-neft sektorunda rəqabətədavamlı məhsul istehsalı üçün münbit şərait vardır. Kənd təsərrüfatında, kimya sənayesində tikintidə, xidmət və digər sahələrdə böyük imkanlar mövcuddur və respublikada xarici sərmayədarların normal fəaliyyəti üçün zəruri hüquqi normativ bazanın yaradılması təmin edilmişdir.

Hazırda Azərbaycan iqtisadiyyatında yeni mərhələnin başlanması müşahidə edilir. Xarici ticarətdə qeyri-neft sektorunda istehsal olunan malların ixracının artdığı kimi, investisiya qoyuluşunun strukturunda da müsbət dəyişikliklər baş vermişdir. Belə ki, bütün mənbələr hesabına yönəldilən investisiyalarda qeyri-neft sektorunun xüsusi çəkisi xeyli artmışdır.

Son 10 ildə istifadə edilən investisiya vəsaitlərinin 40,7 milyard manatı (47,3 milyard ABŞ dolları) neft-qaz sektorunun inkişafına, 69,1 milyard manatı (84,6 milyard ABŞ dolları) və ya 63 faizi iqtisadiyyatın qeyri neft sahələrinin və maliyyə bazarının inkişafına yönəldilmişdir. Təhlil nəticəsində belə bir qənaətə gəlmək olar ki, Azərbay-

can iqtisadiyyatının ixrac potensiallı ən perspektiv sahələrindən aşağıdakıları göstərmək olar:

Maşınqayırma sənayesi üzrə - məişət kondisonerləri,televizorlar, telefon, soyuducu və buzxanalar, müxtəlif məişət universal mexanizmləri və s. istehsalı;

Kimya sənayesi üzrə -sintetik yuyucu vasitələr , lak boya, bitkilərin kimyəvi mühafizə vasitələrinin istehsalı və s.

Tikinti materialları sənayesi üzrə keramik piltələr və digər sanitar-texniki məmulatlar, şifer, kirəmit və s. istehsalı.

Yüngül sənaye üzrə hazır pambıq parçalar, trikotaj məmulatları,ayaqqabı və s.

Yeyinti sənayesi üzrə şərablar, konyaklar, qənnadı məmulatları, təbii şirələr, cemlər, qoz və fındıq, efir yağları , zeytun, yüksək keyfiyyətli meyvələr , çay və s.

Qeyd etmək lazımdır ki, iqtisadi inkişaf səviyyəsini müəyyən edən mühüm göstəricilərdən biri də xarici ticarət fəaliyyətidir.

Xarici ticarət sahəsində aparılan strateji xətti ixrac-idxal əməliyyatları üçün əlverişli şəraitin yaradılmasından, onları tənzimləyən qaydaların liberallaşdırılmasından ibarətdir.

Xarici ticarət sahəsində islahatlar üç əsas istiqamətdə aparılmışdır:

Səmərəli idarəetmə sisteminin yaradılması;

Hüquqi bazanın təkmilləşdirilməsi;

İdxalın və ixracın strukturunun yaxşılaşdırılması.

İdarəetmə sisteminin təkmilləşdirilməsində əsas məqsəd bu sahədə paralelçiliyin aradan qaldırılması, inzibati tənzimləmə üsullarının ləğv olunması, xarici ticarətin beynəlxalq standartlar səviyyəsində tənzimlənməsi, bütün iş adamlarının və şirkətlərin fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasıdır.

Son illər iqtisadiyyatın və ticarətin liberallaşdırılması, demokratikləşdirilməsi, makroiqtisadi sabitliyin əldə olunması məqsədilə xeyli sayda yeni qanunlar və fərmanlar qəbul edilmişdir.

"Banklar və bank fəaliyyəti haqqında", "İnvestisiya fəaliyyəti haqqında ", "Birja fəaliyyəti haqqında", "Xarici ticarətin tənzimlənməsi haqqında", "Lizinq haqqında", "Özəlləşdirmə haqqında", "Xarici şəxslərin respublika müəssisələrini uzunmüddətli icarəyə götürmək hüququ haqqında" və başqa qanunlar, fərmanlar ölkədə sahibkarlığın, yeni mülkiyyət formalarının təşəkkül tapmasına şərait yaratmışdır.

Bir sıra qanunlar ticarətin mövcud beynəlxalq normalar səviyyəsində təşkilində mühüm əhəmiyyət kəsb etmişdır. Məsələn "Tender haqqında" Azərbaycan Respublikasının Qanunu dövlət vəsaitinin qənaətlə xərclənməsinə, satınalmaların hüquqi bazasının yaradılmasına, əvvəllər bu sahədə mövcud olmuş pərakəndəliyin aradan qaldırılmasına yönəlmişdir.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasınınn Qanuni istehlakçıların hüquqlarını müəyyən etməklə ticarət, ictimai iaşə və xidmət sahələrində sivil münasibətlər sisteminin bərqərar olmasına zəmin yaratmışdır.

Ticarətin inkişafında "Gömrük tarifi haqqında", "Özəlləşdirmə haqqında", "Haqsız rəqabət haqqında" qanunların, "Gömrük məcəlləsinin", "Özəlləşdirmə proqramının " və digər qanun, fərman və qərarların böyük əhəmiyyəti olmuşdur.

1994-cü ilin aprelində Respublika Prezidentinin Fərmanı ilə bütün hüquqi şəxslərə strateji əhəmiyyətli malları ixrac etməyə icazə verildi.

İqtisadi islahatlar proqramına uyğun olaraq 1995-ci ilin oktyabr ayında strateji malların kvotalaşdırılması və lisenziyalaşdırılması ləğv edildi. 1996 1997-ci illərdə Prezident tərəfindən imzalanmış fərmanlarla ixrac əməliyyatlarına qoyulan bütün məhdudiyyətlər aradan götürüldü.

Eyni zamanda 1997–ci ilin yanvar ayının 1-dən etibarən ixrac gömrük rüsumları ləğv edildi, idxal gömrük rüsumlarının maksimum həddi 15% səviyyəsində müəyyənləşdirildi.

Hazırda idxal-ixrac əməliyyatları Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli 609 saylı Fərmanı ilə təsdiq olunmuş idxal-ixrac qaydaları ilə tənzimlənir. Bu fərmanla idxal-ixrac əməliyyatlarının liberallaşdırılması istiqamətində daha mühüm addım atılmış, xarici ticarətin inkişafı üçün əlverişli şərait yaradılmışdır.

İdarəetmə sahəsində aparılmış dəyişikliklər, qanunvericiliyin təkmilləşdirilməsi Azərbaycanın xarici ölkələrlə iqtisadi-ticarət əlaqələrinin inkişaf etməsinə birbaşa müsbət təsir göstərmişdir.

2012-ci ilin yekunlarına görə Azərbaycan Respublikasının xarici dövlətlərlə ticarət dövriyyəsinin ümumi həcmi 43813, 2 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2004 –cü illə müqayisədə 6,15 dəfə çoxdur. İdxalın həcmi 9652,9 milyon ABŞ dolları, ixracın həcmi isə 34160,3 milyon ABŞ dolları təşkil etmişdir. 2012-ci ildə Azərbaycan 155 ölkə ilə ticarət əlaqəsi qurmuşdur.

İxracın coğrafi qurluşuna diqqət yetirsək görərik ki, Azərbaycanın ticarət dövriyyəsində Avropa ölkələrinin payı 52,9%, Asiyanın payı - 38,5%, Amerikaın payı -6,7 %, Afrikanın payı -1,8%, okeaniyanın payı isə 0,2 % təşkil edir. Respublikada idxala nəzər saldıqda isə Avropa 49,7 % , Asiya 39,3 %, Amerika 10,4 %, Afrika 0,4, Okeaniya isə 0,2 % paya malikdir.

Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin genişlənməsində, yeni bazarlara çıxışının təmin olunmasında ölkəmizdə və xaricdə keçirilən sərgilərin böyük əhəmiyyəti vardır. Bu baxımdan Ticarət-Sənaye Palatasının bu sahədəki fəaliyyəti ildən ilə genişlənməkdədir.

Azərbaycanın iqtisadiyyatının inkişafını təmin etmək, xarici ticarət dövriyyəsində ixracatın xüsusi çəkisini artırmaq üçün ixrac-idxal əməliyyatlarının liberallaşdırılması , dünya bazarında rəqabətədavamlı məhsul istehsalının təşkili ilə yanaşı, ixracatyönümlü sahələrə xarici investisiya qoyuluşunun stimullaşdırılması həyata keçirilən islahatların əsasını təşkil edir. Buna görə də milli iqtisadiyyatımıza xarici kapitalın cəlb olunması obyektiv zərurətdir.

Bu sahədə xarici investorların mülkiyyətinin toxunulmazlığının təmin olunması, milli valyutanın məzənnəsinin sabitləşdirilməsi, inflyasiyanın qarşısının alınması, iş adamlarına heç bir məhdudiyyət olmadan əldə etdikləri mənfəətin valyuta birjalarında sərbəst dönərli valyutaya dəyişərək istədikləri ölkəyə köçürmək imkanının verilməsi mühüm addımlar olmuşdur.

Nəticədə respublika iqtisadiyyatının liberallaşdırılması və xarici kapitlın cəlb edilməsi üçün əlverişli iqtisadi iqlimin yaradılması Azərbaycana investisiya axınını gücləndirdi. Belə ki, 1993-cü ilə qədər iqtisadiyyata cəlb edilmiş investisiyaların həcmi 10 mln. ABŞ dolları təşkil edirdisə, 1994-cü ildə bu rəqəm 22 mln. ABŞ dolları, 1995-ci ildə 160 mln. ABŞ dolları, 1996-cı ildə 420 mln. ABŞ dolları, 1997-ci ildə isə 1,3 mlrd. ABŞ dolları, 1998-ci ildə bu rəqəm 1,5 mlrd. ABŞ dolları, 2012 –ci ildə isə 25,7 milyard. ABŞ dolları təşkil etmişdır. Bununda 15,4 milyard ABŞ dolları daxili, 10,3 milyard dolları xarici investisiyalar təşkil etmişdir.

Həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda yaranmış daxili vəziyyət ölkəmizin müxtəlif beynəlxalq təşkilatlarda təmsil olunmasına şərait yaradır.

Xarici ticarətin beynəlxalq standartlar səviyyəsində təşkilini təmin etmək məqsədilə Azərbaycan Ümumdünya Ticarət Təşkilatına

tamhüquqlu üzv olmaq niyyətini bildirmiş və 16 iyul 1997-ci ildə təşkilata üzvlüyün ilkin mərhələsi olan müşahidəçi statusu almışdır.

Hazırda Azərbaycan Respublikası dünyanın bir sıra universal təşkilatları ilə, o cümlədən BMT–nin İnkişaf Proqramı, Avropa Birliyinin TASİS Proqramı, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı ilə əməkdaşlıq edir. Həmin təşkilatların xətti ilə Azərbaycanda bir çox layihələr maliyyələşdirilir. Eyni zamanda respublikamız regional iqtisadi təşkilatlarla da sıx əməkdaşlıq həyata keçirir. Bu baxımdan EKO, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq əlaqələri xüsusilə intensiv şəkildə inkişaf edir.

Dünya bazarı ilə münasibətlərin formalaşdırıldığı hazırkı mərhələdə Azərbaycan Respublikasının xarici iqtisadi strategiyasının mühüm istiqamətlərini onun ixrac imkanlarının artırılması, tək ixrac deyil, həm də idxal əməliyyatlarının strukturunun təkmilləşdirilməsi, dünya bazarına rəqabətqabiliyyətli məhsullarla çıxılması təşkil edir.

Hazırda ixracın strukturunun 85% -ni xammal və yarımfabrikatlar təşkil edir. İxracın bu strukturu effektiv hesab oluna bilməz. Dünya bazarında xammalın qiymətlərinin qeyri stabil və aşağı düşmə meylinə malik olmasını nəzərə alsaq, bu vəziyyətin qənaətbəxş olmadığını görmək olar. Bu xarici ticarət əməliyyatlarının effektivliyini azaldır və ölkənin ticarət balansının vəziyyətini pisləşdirir. Buna görə də əmtəə ixracı siyasətinin dəyişdirilməsi, xammalın işlənməsi dərəcəsinin artırılması, hazır məhsul istehsalının və onların ixracdakı xüsusi çəkisinin artırılması obyektiv zərurətə çevrilmişdir. Bu problem istehsalın strukturunun dəyişdirilməsi, onun son fazaya müasir hazır məhsul istehsalına çatdırılması nəticəsində aradan qaldırıla bilər. Bütün bunlar həm daxili resurslar, həm də xarici maliyyə və texniki yardımın cəlb olunması ilə həyata keçirilə bilər.

Buna görə də xarici bazara rəqabətqabiliyyətli məhsulla çıxa bilən sahələrə müəyyən dövlət yardımları göstərilməlidir. Bu yardım həm birbaşa yardım, başqa sözlə dotasiyalar, güzəştli kreditlər və s., eləcə də vasitəli vergi güzəştləri, ixracın sığortalanması, ixrac mükafatlarının verilməsi digər formalarda ola bilər. Məsələn, dövlət ixracyönümlü müəssisələr üçün kadr hazırlanmasını üzərinə götürə bilər, onların xaricdə fəaliyyəti üçün siyasi və iqtisadi şərait yarada bilər. Lakin hazırda respublikamızın həm ölkə daxilində, həm də xaricdə fəaliyyət göstərən milli istehsalçıların maraqlarının müdafiəsi haqqında qanunu yoxdur. Bütün bunlar xarici iqtisadi fəaliyyət sahəsində

dəqiq milli siyasətin formalaşdırılmadığını, ölkənin xarici bazarlardakı maraqlarının müəyyən olunmadığını və xarici iqtisadi strategiyanın işlənilmədiyini göstərir.

İxrac imkanlarının artırılması və ixracın stimullaşdırılması ilə yanaşı, respublikanın idxal siyasətinə də xüsusi diqqət verilməlidir. Çünki, idxal ölkənin xarici iqtisadi strategiyasında az rol oynamır.

Praktiki cəhətdən , idxal siyasəti daxili iqtisadi siyasətlə sıx bağlıdır və ölkənin ümumi inkişaf strategiyasını əks etdirir. Azərbaycanın idxalının strukturunun analizi göstərir ki, onun tərkibində ərzaq məhsulları və istehlak malları əhəmiyyətli xüsusi çəkiyə (40 %) malikdir. Məlum olduğu kimi, idxalın strukturunda istehsal- təyinatlı məhsulların, hər şeydən əvvəl isə müxtəlif maşınların və yeni avadanlıqların üstünlük təşkil etməsi daha effektivdir. Sözsüz ki, idxalın mövcud strukturu ölkə iqtisadiyyatının ağır vəziyyəti ilə əlaqədardır. Kənd təsərrüfatı istehsalının zəifliyi, yüngül və yeyinti sənayesinin geriliyi, istehlak bazarının sabit təmin edilməsi sisteminin olmaması həmin qrup məhsulların idxalda yüksək xüsusi çəkiyə malik olmasını şərtləndirir. Bu bir ildir ki, ölkədə ümumi iqtisadi vəziyyəti dəyişdirmədən, daxili istehsalın və istehlakın strukturunu yaxşılaşdırmadan idxalın təkmilləşdirilməsi mümkün deyildir. Bununla yanaşı, idxalın və onun strukturunun inkişafında daxili problemlər də mövcuddur. Məsələ burasındadır ki, idxalın mövcud qeyri-səmərəli strukturu da Azərbaycanın istehlak bazarının tələblərinə cavab vermir. Gömrük tarifləri və vergilərinin mövcud sistemi ölkəyə yüksəkkeyfiyyətli məhsulların gətirilməsinə əngəl törədir.Ölkəyə gətirilən məhsulların əsas hissəsini ucuz və keyfiyyətsiz mallar təşkil edir. Bu hal bir tərəfdən daxili istehsalı zəiflədir, digər tərəfdən isə aşağı və qeyri-rasional istehlak səviyyəsinin formalaşmasına gətirib çıxarır.

İdxalın strukturunun təkmilləşdirilməsində əsas məsələ gömrük dərəcələri və vergiləri siyasətidir. Elmtutumlu və istehsaltəyinatlı məhsulların idxalının optimallaşdırılması və diversifikasiyası üçün iqtisadi inkişafın müəyyən dövründə bu məhsullar yüksək rüsum və vergilərə cəlb olunmamalıdır. Azərbaycan hazırda belə bir spesifik dövrdədir. İstehsalın yüksəlməsi və ÜDM–un artırılması üçün Azərbaycanın genişhəcmli xarici kapitala və xarici dəstəyə ehtiyacı vardır.

İxracyönümlü strategiyanın tərəfdarları hesab edirlər ki, xarici ticarətin liberallaşdırılması iqtisadi artımın sürətləndirilməsini şərtləndi-

rir. Ayrı-ayrı hallarda azad ticarət həqiqətən də ÜDM–un müvəqqəti artmasını təmin edə bilər. Artıq qeyd edildiyi kimi, xarici mübadilə ölkənin iqtisadi inkişafının mühüm amillərindən biri hesab olunur. Lakin xarici ticarətin liberallaşdırılması strategiyasının düzgün müəyyən edilməməsi böyük itkilər də verə bilər. Optimallaşdırma, milli iqtisadiyyatın bir çox, xüsusilə də zəif sahələrinin məhvinə səbəb ola bilər. Buna görə də ixrac və idxalın diversifikasiyasına müraciət edilməsi davamlı iqtisadi artımın təmin olunması məqsədi daşıyır.

Ölkənin ilkin işlənilmiş (emal olunmuş) məhsul ixracına yönəldiyi halda, ixracın genişlənməsi bir çox maneələrlə üzləşir. Bu onunla əlaqədardır ki, sənayecə inkişaf etmiş ölkələrdə ilkin xammala tələb aşağı elastikliyə malikdir. Məlum olduğu kimi, inkişaf etmiş ölkələrdə əhalinin təbii artım göstəricisi aşağıdır və buna görə də mütləq genişlənmə əsasına görə məcmu tələbin artımı baş vermir.

Bundan başqa, xammala və bitməmiş istehsal məhsullarının ənənəvi ixracatçıları tərəfindən təklifin artması praktiki olaraq az dəyişən (bu məhsullar üzrə) tələblə qarşılaşır.

Göstərilən faktların təhlili və ilkin (bahalı olmayan) məhsulların ixracının genişləndirilməsi imkanlarının qiymətləndirilməsi nəticəsində məlum olur ki, həm İEOÖ-lərin əksəriyyətində, həm də keçid iqtisadiyyatlı ölkələrdə bu imkanlar məhduddur. Birtərəfli iqtisadiyyata malik olan və əsas gəlirləri ilkin məhsul ixracından əldə olunan ölkənin liberallaşma siyasətinin həyata keçirilməsi, həmin ölkənin idxalla rəqabət apara bilməyən sənayesinin məhvinə gətirib çıxarır. Buna görə də bu cür ölkələr dünya bazarından güclü sürətdə asılılığa düşürlər. İxracının əsas hissəsini ilkin məhsul təşkil edən Azərbaycan üçün bu problem xüsusilə təhlükəlidir.

Hasilat sənayesi və kənd təsərrüfatı məhsullarının ixracı ilə müqayisədə emaledici sənaye sahələrinin məhsullarının ixracı daha perspektivdir. Buna misal olaraq, "Asiya pələngləri"nin – Cənubi Koreya, Sinqapur, Hon-konq və Tayvanın uğurlarını göstərmək olar. Bu strategiyanın qarşısında duran ən mühüm maneə inkişaf etmiş ölkələrin proteksionizm siyasətidir. Bu onunla əlaqədardır ki, İEÖ-lər əməktutumlu sahələrin məhsulları üzrə rəqabət mübarizəsində nisbətən ucuz xammal və işçi qüvvəsinə malik olan İEOÖ-lərə uduzurlar.

Sənaye sahələrinin ixracyönümlüyünün effektivliyinin obyektiv qiymətləndirilməsi vacibdir. Bu sahələrin inkişafına yönəldilmiş döv-

lət siyasəti həmişə ölkə üçün xeyirlidir. Hətta bu sahələr xarici bazaarlarda uğur əldə edə bilməsə də, ölkə həmin məhsullarla təmin olunur və idxal zərurətindən azad olur. Göründüyü kimi, ixracyönümlü strategiyanın bu hissəsi idxaləvəzedici strategiya ilə eynidir.

Xarici iqtisadi fəaliyyətin inkişaf strategiyasının formalaşdırılmasında ən mühüm problemlərdən biri də idxaldır. Bu və ya digər ölkənin həyata keçirdiyi düzgün idxal siyasəti iqtisadi artımı, tələbatların ödənilməsini, daxili bazarın elastikiyinin yüksəlməsini və xalqın rifah səviyyəsinin artmasını şərtləndirir. Bazar iqtisadiyyatı yolunu seçmiş keçid iqtisadiyyatlı ölkələr üçün effektiv idxal siyasətinin formalaşdırılması xüsusilə vacibdir.

Söhbət hər şeydən əvvəl, ölkənin istehsal amillərinin (xammal,enerji resusrları, maşın və avadanlıqlar) idxalından asılılığının azaldılmasını nəzərdə tutan idxalın diversifikasiyası siyasətindən gedir. İdxalın diversifikasiyası qabaqcıl texnologiyalar əsasında idxaləvəzedici istehsalın təşkil edilməsini stimullaşdırır.

Bu siyasətin həyata keçirilməsinin ən mühüm instrumentlərindən biri olan idxalın gömrük və kəmiyyət məhdudiyyətləri idxalın yerli sənayeyə zərərli təsirinin neytrallaşdırılmasını təmin edir.

Azərbaycanın nəhəng mineral resursları – neft və qaz ehtiyatlarına malik olması onun ixrac yönümünü müəyyən edir. Ölkə ixracının strukturunda neft və neft məhsulları 2012-ci ildə 75% təşkil etmişdir. Hesablamalar göstərir ki, "Əsrin müqaviləsi" üzrə Beynəlxalq neft kontraktları üzrə neft hasilatı və ixracı nəticəsində ölkəmiz 180-200 mlrd. ABŞ dolları həcmində gəlir əldə edəcəkdir.

Hazırda neft ixracından əldə olunan gəlirlərin daha çox neft kontraktlarında iştirak edən kampaniyaların xərclərinin ötürülməsinə sərf olunduğuna baxmayaraq, 1999-cu ildən başlayaraq respublikamız "neft dollar" ları əldə edir və bu dövlət büdcəsinin gəlirlər hissəsində konkret müsbət nəticələr verməkdədir.

Azərbaycanın ixracında mineral resusrlarla yanaşı, neft-qaz avadanlıqları, pambıq, elektrik enerjisi, metal məhsulları, tütün , spirtli içkilər və s. mühüm yer tuturlar.

Bununla yanaşı, ixracın ekstensiv modelindən istifadə resursları əhəmiyyətli dərəcədə azalmışdır. Dünya bazarına xammal və materiallar ixracının genişləndirilməsi imkanları ölkənin potensial resursları ilə ziddiyyət təşkil edir və bu xarici ticarət dövriyyəsini müəyyən edən proqressiv dünya meyllərinə uyğun gəlmir.

Əmtəə idxalı sahəsində də proqressiv struktur dəyişiklikləri edilməlidir. Hazırda idxaləvəzedici siyasətin əsas elementlərinin tətbiqi olduqca zəruridir. Məsələ, burasındadır ki, respublika sənayesi çətin dövr keçirir və idxal tarifləri ilə müdafiəyə böyük ehtiyac duyur. Məsələn, Azərbaycan Respublikasının idxalının strukturunda neqativ meyil müşahidə olunur: yeyinti sənayesi məhsullarının xüsusi çəkisi artır və eyni zamanda ölkənin yeyinti sənayesi diversifikasiya olunmuş kənd təsərrüfatına əsaslanır və buna görə də təkcə daxili tələbatı ödəmək deyil, həm də xarici bazarlara rəqabətqabiliyyətli məhsul ixrac etmək imkanlarına malikdir. Bütün bunlar onu göstərir ki, destruktiv proseslərlə zəifləmiş milli sənaye sahələri xarici firmalarla rəqabətə tab gətirmir. Bu baxımdan belə nəticəyə gəlirik ki, Azərbaycan Respublikasının əsas strategiyası olan ixracyönümlü model formalaşmışdır. Buna görə də bu mərhələdə sənayenin inkişafı məqsədilə müdafiə mexanizmlərindən istifadə olunması zəruridir və xüsusi mübadilə sistemində idxaləvəzedici strategiyaya üstünlük verilməlidir. İxracdan əldə olunan gəlirlərin sənayenin perspektiv sahələrinə yönəldilməsi məqsədəuyğundur və bu digər sferalara da müsbət təsir edəcəkdir.

Bu baxımdan Azərbaycanın xarici iqtisadi strategiyasının əsas parametrlərinin və xüsusiyyətlərinin müəyyən edilməsi ilə sənayenin aparıcı sahələrinin potensial imkanlarından perspektivlə maksimal istifadə olunması labüddür. Artıq qeyd olunduğu kimi, bu sahələrə ilk növbədə neft sənayesi və onunla bağlı maşınqayırma, elektrotexniki sahələr və cihazqayırma, kənd təsərrüfatı istehsalının ayrı-ayrı sahələri, spirtli içkilər istehsalı və s. aiddir. Zəruri sahələrin minimal istehsal strukturunun təmin olunması və valyuta resurslarına qənaət edilməsi məqsədilə, idxaləvəzedici istehsal sahələrinin inkişaf etdirilməsi zəruridir.

İdxal-ixrac axınlarının diversifikasiyası və optimallaşdırılmasına yönəldilmiş iqtisadiyyatın struktur transformasiyası həm xarici, həm də daxili iqtisadi siyasətin müəyyən korreksiyasını tələb edir. Optimallaşdırma, bir tərəfdən Azərbaycan Respublikasının dünya təsərrüfatına inteqrasiyasını təmin etməli, digər tərəfdən də ölkənin iqtisadi təhlükəsizliyinə və müstəqilliyinə zəmanət verməlidir.

Qeyd etmək lazımdır ki, hazırda idxalın tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi sahəsində bir sıra aktual problemlər mövcuddur. Birincisi, hər şeydən əvvəl, bu problemlər bir-birilə çox əlaqəlidir. İkincisi, respublika iqtisadiyyatı dünya bazarı ilə sıx əlaqələndirilməlidir. Bu isə idxalın inkişafının optimal bir modelini tələb edən mə-

sələdir.Beləliklə, həlli vacib məsələlər bu sahədə qarşıda durur: Ənənəvi istehsal sahələrinin qorunması və beynəlxalq iqtisadi münasibətlərin inkişaf etdirilməsi.

Beynəlxalq qurumların artıq Azərbaycanın bölməsinə marağı artır. Azərbaycan hazırda aqrar sahədə bir sıra nüfuzlu beynəlxalq qurumların üzvü olmuşdur. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) , Beynəlxalq İnkişaf Assosiasiyası , Avropa Birliyinin TACİS proqramı, İslam İnkişaf Bankı, NATO-nun Ərzaq və Kənd Təsərrüfatı Planlaşdırma Komitəsi, Misirin MDB ölkələri üzrə Texniki Əməkdaşlıq Fondu, Hollandiyanın Mərkəzi və Şərqi Avropa ölkələri üçün "PSO" proqramı ilə səmərəli əlaqələr qurulmuşdur. Birgə əməkdaşlıq sayəsində kənd təsərrüfatı məhsullarının istehsal texnologiyası müasir standartlara uyğun şəkildə mənimsənilmiş, qabaqcıl təcrübə öyrənilmiş, marketinq işi təkmilləşdirilmişdir. Eyni zamanda "Azərbaycan təsərrüfatları üçün informasiya və monitorinq sistemi", "Aqrar siyasətin təhlili " mövzularında layihələrin Texniki Əməkdaşlıq Proqramı çərçivəsində reallaşdırılması ilə bağlı tədbirlər həyata keçirilmişdir.

Hazırda Azərbaycanın ixracatında əsas hissə neft və neft məhsullarının payına düşür. Amma Azərbaycan hökuməti neft sektorunun inkişafını prioritet olaraq seçib. İqtisadiyyat və Sənaye Nazirliyi prioritet sahələrin inkişafı üzrə məqsədli sənədlər hazırlayıb. Bu proqramların həyata keçirilməsi daxili bazarın ehtiyacları üçün yerli istehsalın inkişafına imkan verməklə yanaşı, həm də rəqabətqabiliyyətili ixrac məhsullarının meydana çıxmasına da imkan verəcək. Həmçinin milli ixracatçıların dəstəklənməsi üçün qanunvericilik bazasının təkmilləşdirilməsi də vacibdir. Azərbaycanda kənd təsərrüfatı üçün şərait MDB məkanında daha əlverişli hesab olunur. Hazırda kənd təsərrüfatı istehsalçıları üçün bir sıra vergi güzəştləri tətbiq olunur ki, bu da aqrar sahənin inkişafına kömək edir. Prioritet sahələrin inkişafına sərmayələrin cəlbini nəzərdə tutan investisiya siyasəti də bu strategiyaya uyğundur. 2013-2014-cü illər üçün investisiya proqramı hazırlanıb. Bu proqram, yoxsulluğun azaldılması ilə bagli artıq qəbul edilmiş proqram və müxtəlif sahələr üzrə proqramlar çərçivəsində təqribən 10 mlrd.dollar sərmayə cəlbi planlaşdırılır. Bu halda Azərbaycanın ÜTT-yə üzvlüyü xarici investorların inamını artıra bilər.

Qeyd etmək lazımdır ki, hazırkı şəraitdə mövcud istehsal və sənaye potensialı Azərbaycanda idxaləvəzləyici istehsal sahələrinin

formalaşdırılmasını mümkün edə bilər. Ancaq burada əsas məsələ dünya təsərrüfatına inteqrasiya şəraitində ölkədə müəyyənləşdirilmiş xarici iqtisadi strategiyanın və ticarətin əlaqələrinin inkişaf modelinin idxaləvəzləyici siyasətinin aparılması ilə optimal bir uyğunluğunun tapılmasından ibarət ola bilər. Bu istiqamətdə dünya ölkələrinin əldə etdikləri təcrübənin ətraflı öyrənilməsi son dərəcə vacibdir. Dünyanın bir çox ölkələri artıq bu yolda əhəmiyyətli işlər aparmış və milli sənayelərini dünya bazarından tədric etməməklə formalaşdırılmasına nail olmuşlar.

Göründüyu kimi, istehsal sferasının, aqrar və sənayenin ayrı-ayrı sahələrində Azərbaycanın özünəməxsus tarixi və fəaliyyət ənənələri vardır. Təsadüfi deyildir ki, bu imkanların xeyli hissəsi indi yeni bir tarixi rol oynamağa başlamışdır. Həmçinin ölkədə ixtisaslı işçi qüvvəsinin olması, ölkə təsərrüfatının ayrı-ayrı sahələrinin istehsal və ticarət ənənələri Azərbaycanın iqtisadi inkişaf modelinin perspektivlərinin ümidverici olması haqqında fikir söyləməyə tam və obyektiv əsaslar verir.

Hal-hazırda Azərbaycanda idxalı əvəzetmə siyasətinə daha böyük ehtiyac vardır. Zəngin təbii sərvətlərə və əlverişli iqlim şəraitinə malik respublikamızda əhalinin istehlak mallarına olan ehtiyacının böyük əksəriyyətinin qiymətli valyuta ilə xaricdən alınması ölkənin iqtisadi inkişafını sarsıdan başlıca amillərdən biridir. Bu vəziyyət yalnız məqsədyönlü və elmi əsaslara söykənən idxalı əvəzetmə siyasəti vasitəsilə aradan qaldırıla bilər. Bütövlükdə isə, ixracyönümlü ticarət-iqtisadi strategiyanın daha çox səmərə verməsi üçün onun idxaləvəzləyici siyasətlə üzvi uyğunluğu gərəkdir. Hər bir ölkədə bu iki istehsal növünün kəmiyyət və struktur cəhətdən optimal nisbətinin tapılması iqtisadiyyatın inkişaf səviyyəsindən və daxili bazarın miqyasından asılıdır. Belə ki, Azərbaycanda idxaləvəzləyici və ixracın genişləndirilməsi siyasətinin həyata keçirilməsi aşağıdakı məsələlərin həlli ilə birbaşa əlaqəlidir:

Sənaye istehsalı üçün gərəkli olan maliyyə vasitələri hansı mənbələr hesabına əldə ediləcək və əsas istehsal gücləri məhz hansı dövlət, yaxud özəl bölmədə yaradılacaq.

2. Xarici investisiyalar bu sahələrə hansı şərtlər əsasında cəlb olunacaq.

3. Sənayeləşmə prosesi sosial-iqtisadi strukturda hansı irəliləyişlərlə müşayiət olunacaq.

4. İnvestisiya resurslarının rasional nisbəti (daxili və xarici mənbələr) necə müəyyən olunacaq.

Respublikanın xarici ticarət siyasətində idxaləvəzləyici, yaxud ixracın genişləndirilməsi istiqmətlərinə üstünlük verilməsi ölkənin iqtisadi inkişafının ümumi səviyyəsi, iqtisadiyyatın maliyyə-material resursları ilə təmin olunma dərəcəsi, peşəkar kadrların mövcudluğu, xarici sərmayədarlar tərəfindən maddi-teniki yardımın perspektivlərinin və s. nəzərə alınması.

Qeyd etmək lazımdır ki, hazırkı şəraitdə Azərbaycan hökuməti milli ixracyönümlü istehsalın inkişafı, onun dəstəklənməsi və stimullaşdırılması, həmçinin sərmayədarların hüquqlarının qanunvericilik və institusional təminatının təkmilləşdirilməsi üzrə kompleks tədbirlər sistemini həyata keçirməlidir.

Hazırda MDB ölkələrində olduğu kimi, Azərbaycanda da ixraca dövlət yardımı sisteminin yaradılmaması sahəsində bir sıra problemlər var. Belə ki, ölkənin ixracının genişləndirilməsinə bəzi obyektiv və subyektiv xarici və daxili amillər təsir edir. Xarici amillərə gəldikdə bunlar aşağıdakılardan ibarətdir:

1. İxracatın artımı dünya bazarında mal təklifinin formalaşması baxımından ölkənin xüsusi çəkisi ilə əlaqəlidir.

2. Hazırda beynəlxalq bazarlarda yeni mallar probleminin kəskinləşməsi, rəqabətin qeyri-qiymət amilləri üzrə aparılması, böyük səpkidə konyunktur dəyişiklikləri üçüncü dünya və keçid dövrünü yaşayan ölkələrin öz imkanları baxımından qoşulması mümkün olmayan mübarizə sferasıdır.

Daxili amillər isə bunlardan ibarətdir:

Texnoloji gerilik;

Vergi-maliyyə və bank –kredit sisteminin səmərəsiz olması;

Strateji xammal (pambıq, tütün, çay, gön-dəri malları, alüminium filizi) istehsalının və ixracının hökumətə bağlı olan subyektlər tərəfindən inhisara alınması və s.

Qeyd etmək lazımdır ki, idxalın səmərəliliyinin artırılmasının başlıca istiqaməti yerli sənaye üçün zəruri olan bəzi xammal və yarımfabrikatların idxal qiymətlərinə nisbətən daha ucuz başa gələn istehsalının təşkil olunmasıdır. İdxaləvəzləyici sənayeləşdirmə siyasətinin həyata keçirilməsi Azərbaycan reallığı baxımından aşağıdakı zərurətlərlə bağlıdır:

—İdxalda meydana gələn kəskin dəyişikliklər ümumiqtisadi münasibətlərə mənfi təsir göstərir;

—İdxalın artımı milli istehsalın ixtisarına və ixracın azalmasına gətirib çıxarır;

—tarif məhdudiyyətlərinin tətbiqi xarici investisiyaları ölkə daxilinə yönəltməklə milli iqtisadiyyatın simasını müəyyən edən sahələrin xarici sahibkarlar tərəfindən ələ keçirilməsinə səbəb olur və s.

Nəzərə almaq lazımdır ki, mövcud resurslar, onlardan istifadə intesivliyi, istehsal xərclərinin səviyyəsi və məhsullarının alternativ dəyəri əvvəlcədən müəyyənləşdirilməli və ancaq bundan sonra bəlli mal və yaxud mal qrupu üzrə idxalatı əvəzləyəcək istehsal sahələri təşkil olunmalıdır. Əlbəttə, bəzi məhsullar, xüsusilə, xaricdən asılılığın daha güclü olduğu və daxili tələbatda mühüm yer tutan məhsullar üzrə (məsələn,taxıl) idxaləvəzləyici istehsalın təşkili həyati əhəmiyyət kəsb edir. İstənilən halda idxalatın daxili istehsalla əvəz edilməsində resursların məhdudluğu və üzunmüddətli vaxt intervalında intensiv istifadəsinin mümkünlüyü, eləcə də səmərəlilik baxımından resurs və texnologiyaların müxtəlif kombinasiyalarını həyata keçirmək imkanı mütləq nəzərə alınmalıdır.Digər tərəfdən investisiya resurslarının həddən artıq az olduğu və təbii resursların hasilatının xarici partnyorlarsız həyata keçirilə bilmədiyi ölkələrdə idxalatın əvəzlənməsi modeli uğurlu nəticə verə bilməz.

İdxaləvəzləyici istehsal sahələrinin yaradılmasında bəzi ölkədaxili amillər mənfi təsir göstərir:

Daxili vergi və gömrük qanunvericiliyinin qeyri-təkmil olması idxalatın analoji malların yerli istehsalından daha ucuz başa gəlməsi ilə nəticələnir;

Əhalinin real gəlirlərinin aşağı olması onların tələbatının ucuz və keyfiyyətsiz idxal məhsulları ilə ödənilməsinə əlverişli şərait yaradır;

Milli sənaye müəssisələrinin dirçəldilməsi yolunda bürokratik əngəllər yaradılır və s.

Hazırda respublika hökuməti tərəfindən idxaləvəzləyici siyasətin müəyyən elementlərini özündə saxlayan ixracın genişləndirilməsi strategiyası seçilmişdir. Bu yönümdə Azərbaycan Respublikasının xarici ticarət strategiyasının son məqsədi daxili bazarın asılılığının azaldılması, ixracın xammal yönümünün aradan qaldırılması, ölkənin elmi-texniki inkişafına təkan verilməsi olmalıdır. İxracın stimullaşdırılması və idxaləvəzləyici siyasətin uzlaşdırılması bir sıra obyektiv zərurətlərlə bağlıdır. Belə ki, daxili bazarın məhdudluğu, vahid iqtisadi kompleksin olmaması, sənaye istehsalının və ixracın xammal üzrə ixtisaslaşması, nəqliyyat və

kommunikasiyanın qeyi-təkmil infrastrukturu, həmçinin sənaye istehsalının inhisarlaşması respublikanın milli inkişafının ilkin mərhələsində xarici ticarət siyasətinin idxaləvəzləyici sənayeləşmə üzərində qurulmasını, sonradan isə ixracın genişləndirilməsini zəruri edir.

İqtisadiyyatın sahə strukturunu təhlil edərkən neft-qaz, neft-kimya və metallurgiya sənayesi üzrə ixrac potensialının inkişaf etdirilməsi üçün münbit şəraitin mövcudluğu aşkara çıxır. Yüngül və yeyinti sənayesi, eləcə də kimya və neft-mədən avadanlığı istehsalının respublikada təşkili və bu sahədə idxaləvəzləyici sənayeləşdirmə siyasətinin həyata keçirilməsi üçün də əlverişli maddi baza mövcuddur.

Dünya təsərrüfat sistemində getdikcə daha layiqli yer tutan yeni sənaye ölkələrinin təcrübəsi göstərir ki, ixracat potensialının genişləndirilməsi siyasəti yeridilərkən o dövlətlər daha çox iqtisadi səmərə əldə edir ki, bu dövlətlər bütün qüvvələri yalnız hər hansı bir mal növünün ixracat potensialının genişləndirilməsinə yönəltmirlər. Daha çox mal qrupunun ixracının genişləndirilməsi daha zəmanətli inkişaf üçün əlverişli şərait yaradır. Bu baxımdan Azərbaycanda da ixracat potensialının genişləndirilməsi işində bütün ümidləri yalnız neftə bağlamaq nə elmi , nə də praktik cəhətdən düzgün olmazdı. Çoxtərəfli ixracat siyasətinin yürüdülməsi iqtisadi baxımdan daha səmərəli nəticə əldə etməyə imkan yaradır.

Müasir mərhələdə idxalı əvəzetmə və ixrac potensialının genişləndirilməsi siyasəti əhəmiyyətli təsərrüfat nailiyyətləri əldə etmiş ölkələrdə hökumətin yeritdiyi iqtisadi siyasətin tərkib hissələridir. Uzun əsrlər boyu bazar iqtisadiyyatı şəraitində yaşamış ölkələrin təcrübəsi göstərir ki, idxalı əvəzetmə və ya ixracın genişləndirilməsi zamanı bu və ya digər sahələrin inkişafını təmin etmək üçün maliyyə-kredit mexanizmindən geniş istifadə edilməli, bu sahələrə əlavə kapital qoyuluşu təşviq edilməli, vergi dərəcələri aşağı salınmalıdır.

Son illər xarici iqtisadi fəaliyyətin liberallaşdırılması və Azərbaycan iqtisadiyyatının yeni keyfiyyətə Dünya Təsərrüfat Əlaqələri Sisteminə fasiləsiz inteqrasiyası ilə əlaqədar bütün təsərrüfat subyektlərinin üzərinə böyük məsuliyyət düşür. İqtisadiyyatda xarici sektorun inkişaf etməsi ticarət və iqtisadi tərəfdaşların coğrafiyasının genişlənməsi, bu dəyişikliklərlə bağlı çox böyük ticarət və sərnişin axını ilə müşahidə olunan, əhəmiyyətli biznes mühiti yarada bilən hadisə və proseslərə dövlət mexanizminin də yeni yanaşmasını diktə edir.

Müasir dövrdə beynəlxalq ticarət, dövlətlərin iqtisadi inkişaf proseslərinə həlledici təsir göstərir. Dünya bazarlarında obyektiv və subyektiv amillərin doğurduğu tarazlıq pozulmaları yeni qlobal qarşılıqlı asılılığa səbəb olur. Məsələn, xarici borc problemləri mülkiyyət obyektlərinin və iqtisadi qərarların qəbul edilmə mərkəzlərinin mənfi tədiyyə balanslı ölkələrdən müsbət saldoya malik xarici iqtisadi fəaliyyəti olan ölkələrə köçürülməsi məsələlərini əvəz edir. Və yalnız sərt iqtisadi siyasət belə prosesləri dəyişdirə bilər, bir çox ölkələr üçün beynəlxalq ticarətin nəticəsi xarici məcburiyyətdir ki, onunla hökumət və ictimai fikir çətin barışır. Bununla belə, beynəlxalq ticarət əvvəlki tək bazar iqtisadiyyatlı ölkələr arasında iqtisadi qarşıdurma meydanı olaraq qalır və aşağıdakı nəticələri doğurur: Makroiqtisadi siyasətin aparılmasına təsir baş verir ki, onu da xarici amillərdən təcrid etmək olmaz; -inflasiya , təsadüfi iqtisadi artım doğuran üstünlüklərin qarşısının alınması müşahidə edilir; xarici ticarət fəaliyyətinin bütün iştirakçılarının səyləri maksimal səfərbəretmə tələbatı formalaşır, çünki qeyri-peşəkar idarəetmə, müəssisəni satış bazarlarını və müstəqilliyi itirməyə məhkum edir.

Azərbaycan Respublikasının iqtisadi həyatında mərkəzi yeri xarici ticarət, iqtisadi, elmi-texniki əməkdaşlıq, istehsal, elm və texnika sahəsində ixtisaslaşma və kooperasiya, inşaat, nəqliyyat-ekspeditor, sığorta, hesablaşma, kredit və digər başqa əməliyyatları, sahəsində əlaqələr, eləcə də müxtəlif xidmətlər göstərilməsi daxil olmaqla xarici iqtisadi fəaliyyət tutur. Onun iqtisadiyyatı müəyyən dərəcədə beynəlxalq iqtisadi və siyasi mühitdən asılıdır.

Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçməsi, onun dünya təsərrüfat əlaqələri sisteminə daxil olması beynəlxalq ticarət sahəsində yeni paradiqmanın işlənib hazırlanmasını tələb edir. Yeni paradiqmaya görə beynəlxalq əmtəə bazarlarında təkcə ayrı-ayrı ölkələr deyil, onlarda milli təsərrüfatın müəyyən sahələrinin fəaliyyət göstərdiyi müəssisələr öz aralarında rəqabət aparır.

Azərbaycanın milli iqtisadiyyatının inkişaf dinamikliyi baza sahələrinin və ya bir-birinə bağlı sahələr qrupunun əmtəələrinin dünya bazarında rəqabət qabiliyyəti şərtlərindən çox asılıdır. Ölkənin iqtisadi inkişaf səviyyəsinin milli iqtisadiyyatın rəqabət qabiliyyəti istehsal amilləri əsasında rəqabət, investisiyalar əsasında rəqabət və yeniliklərin tətbiqi əsasında rəqabət mərhələlərindən ibarətdir.

Azərbaycan iqtisadiyyatında iqtisadi islahatların həyata keçirilməsi nəticəsində inkişaf səviyyəsinə, xarici və daxili bazarlarda rəqabətqabiliyyəti dərəcəsinə və digər səviyyələrinə görə fərqlənən aşağıdakı sahələr seçilir:

1.İxracqabiliyyətli sahələr (hər şeydən əvvəl, neft, əlvan metallurgiya, pambıq və çay emaledici sahələr). Məsələ bundadır ki, dövlətin bilavasitə maliyyə iştirakı olmadan onların möhkəmlənməsi üçün lazımi şərait yaradılmalıdır. Bu sahələr xarici sərmayəçilər üçün çox cəlbedicidir və ölkənin iqtisadi təhlükəsizliyi üçün heç bir ziyan olmadan onların maksimal axını üçün şərait yaradılmalıdır.

2. Mühüm elmi-texniki potensiala malik olan və nisbətən qısa müddətdə dünya və daxili bazar üçün rəqabətqabiliyyətli məhsullar yaratmaq iqtidarında olan sahələr (cihazqayırma, kimya, neft emalı, neft avadanlığı). Onlar üçün elə vəziyyət xarakterikdir ki, xarici bazara çıxmaq iqtidarı olan məhsul orada xüsusi kəskin rəqabətlə qarşılaşır; xarici sərmayələr isə xarici rəqiblərin maraqlarını əks etdirən siyasi şərtlər qoyurlar.

3. Müəyyən texniki geriliklərlə xarakterizə edilən, qisa müddətdə xarici bazara çıxmaq iqtidarında olmayan, lakin daxili bazarın müəyyən hissəsinin onlar üçün saxlanması lazım olan sahələri (yüngül və yeyinti sənayesi, dəzgahqayırma, maşınqayırma).

Azərbaycan özünün indiki rəqabət üstünlüklərinə əsaslanaraq inkişaf strategiyasını seçməlidir.

Respublikanın sənaye və ixrac potensialında yanacaq-energetika kompleksi xüsusi yer tutur. Bu gün Azərbaycan dəniz neft və qaz mədənlərinə lazım olan xidmətləri göstərmək üçün mövcud infrastrukturu və yüksək inkişaf etmiş sənayesi olan müasir dövlətdir. Tamamilə təbii və məntiqi görünür ki, Azərbaycan Xəzər regionu kontinental şelfində işlərin təminatı üçün xidmətlərlə bərabər, dünya bazarına neft və qaz sənayesi məhsullarını göndərən iri ixracatçı rolunda çıxış edir. Ölkənin əlverişli strateji mövqeyi qarşıya qoyulmuş məqsədlərə çatmaqda yollar açılmasına imkan verir bir şərtlə ki, hökumətin istiqamətverici rolunun, verilmiş texnologiyaların və idarəetmə fəaliyyəti metodlarının, eləcə də sağlam kommersiya düşüncəsinin və zəruri maliyyələşdirmənin optimal üzvi birləşməsi dünyada tanınan Qərb firmaları ilə müvafiq əməkdaşlıq etməkdə ilkin şərtlərə malik olan ayrı-ayrı Azərbaycan təşkilatları arasında işgüzar birliklərin yaradılmasında və saxlanılmasında dayaq olsun.

Ölkənin iqtisadi inkişafının indiki mərhələsində Azərbaycanın qarşıdakı dövr üçün xarici ticarət–iqtisadi siyasətinin başlıca olaraq üç əsas istiqamətini fərqləndirmək olar:

İxracın stimullaşdırılması və Azərbaycanın ixrac mallarının xarici bazara çıxması üçün əlverişli şəraitin təmin edilməsi;

Xarici rəqabətin dağıdıcı təsirindən milli iqtisadiyyatın məntiqə uyğun müdafiə səviyyəsinin təmin edilməsi, eləcə də xarici investtisiyaları cəlb etmək üçün gömrük rüsumları dərəcələrinin dəyişməsi əsasında əlverişli iqtisadi mühitin formalaşdırılmasıdır;

Beynəlxalq ticarət-iqtisadi əlaqələrdə beynəlxalq, regional prioritetlərin formalaşması.

Qeyd etmək lazımdır ki, son dövrdə Azrəbaycan iqtisadiyyatının xarici bazara xammal və materialların göndərilməsini ekstensiv şəkildə artırmaq imkanları müəyyən dərəcədə tükənmişdir. İxracın gələcək artımı isə həm əlavə dəyəri artırılmış məhsul hesabına, həm də "Abşeron", "Naxçıvan", "Oğuz", "Qarabağ", "Şahdəniz-1","Şahdəniz-2", "Çıraq" kimi neft yataqlarında neft-qaz ehtiyatlarının işlənməsi üzrə ümumi dəyəri 60 mlrd. dollar olan layihələri reallaşdırmaq hesabına həyata keçirilə bilər. Faktlar göstərir ki, 2005-ci ildən başlayaraq dünyada neft və neft məhsullarının qiymətində kifayət qədər hiss olunan sıçrayış baş vermişdir. Bu proses neft resurslarının əvəzedilməzliyi amili ilə əsaslandırılır. Onların yaxın gələcəkdə tükənməsi üzündən Yer kürəsini enerji böhranı və ona görə də, qalan enerji daşıyıcılarının qiymətinin bahalanması gözləyir. Bu, bir tərəfdən ixracedən ölkə kimi Azərbaycana sərfəlidir, digər tərəfdən isə bu, respublikanın sosial-iqtisadi inkişafının ləngiməsinə səbəb ola bilər. Bu səbəbdən neft sektorundan alınan gəlirlər digər sahələrin inkişafına sərf olunmalıdır.

Malların ixracında xarici iqtisadi siyasətin oriyentasiyası çərçivəsində meydana çıxan problem Azərbaycan mallarının xarici bazara çıxması üçün əlverişli şəraitin təmin edilməsi ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına qoşulması bu işdə mühüm əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycanın dünya bazarları ilə qarşılıqlı əlaqələrinin indiki modeli nə onun iqtisadi potensialına, nə geosiyası mövqeyinə, nə də uzunmüddətli milli mənafelərinə uyğun gəlir.

Azərbaycanın ÜTT-ə daxil olması bir sıra mühüm məqsədlərə nail olmağa imkan verərdi. Belə ki, Azərbaycanın ÜTT-ə qoşulması prosesi beynəlxalq birliyin bazar münasibətlərinin yaranmasında və inkişafında

əldə etdiyi çoxillik təcrübənin milli iqtisadiyyata tətbiqi ilə müşayiət olunacaqdır ki, bu da iqtisadi yüksəlişi təmin etmək üçün lazımi şərait yaradacaqdır. Azərbaycan dünya bazarında bərabərhüquqlu ticarət tərəfdaşı olacaq, eləcə də bəzi Qərb ölkələri tərəfindən diskriminasiya münasibəti probleminin tənzimlənməsini təmin edəcəkdir.

Bunlardan başqa, ÜTT-ə qoşulma Azərbaycana digər ölkələrlə və onların regional birlikləri ilə ticarət–iqtisadi əlaqələrini bərabərhüquqlu, uzunmüddətli iqtisadi-hüquqi bazaya keçirmək imkanı verəcəkdir.

Nəhayət, Azərbaycanın bu təşkilata üzv qəbul olunması ona beynəlxalq əmək bölgüsünün üstünlüklərinə əsaslanaraq, özünün iqtisadi potensialdan səmərəli istifadə etməyi bacarıqla və effektiv şəkildə təşkil etməyə, milli qanunvericiliyin ahəngdarlığı və onun beynəlxalq tələblərə uyğun olaraq tətbiq edilməsinə əlavə stimullar yaratmağa imkan verəcəkdir.

ÜTT-ə qoşulmaqla Azərbaycan Uruqvay raundu ( o cümlədən QATT-94) sazişlər paketinə, digər dövlətlərdə Baş Sazişin prinsipləri və normaları ilə təminat verilmiş beynəlxalq hüquqi müdafiə, "daha" əlverişli şərait rejimi və Azərbaycan sahibkarları tərəfindən ixrac və idxal edilən, mallar üçün milli rejim daxil olmaqla, xarici dövlətlərin ayrı-seçkilik qoymaqla daxili vergilərin, aksizlərin, gömrük rüsumlarının mümkün olan tətbiqindən müdafiə, xarici ticarət fəaliyyətinin azərbaycanlı iştirakçılarının ixrac və idxal əməliyyatlarına münasibətdə digər ticarət-iqtisadi vasitələrin ayrı-seçkiliklə istifadə edilməsinə qarşı müəyyən təminata və bir çox ticarət-siyasi üstünlüklərə, son nəticədə Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatına mütəşəkkil daxil olmasına, onun xarici ticarətinin inkişafına, ixracatçıların və idxalatçıların xaricdəki maraqlarının müdafiəsinə əsaslanan vahid hüquqi məkana çıxış əldə edir.

Azərbaycan Respublikasının xarici iqtisadi strategiyasının ikinci istiqaməti, xarici rəqabətin dağıdıcı təsirindən milli iqtisadiyyatın müdafiəsini təmin etmək, eləcə də idxal gömrük rüsumlarının dərəcələrinin dəyişilməsi əsasında xarici investisiyanı cəlb etmək üçün əlverişli iqtisadi mühit formalaşdırmaqdır. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsinin bazar metodlarına keçid dövründə Azərbaycan mallarının idxal dinamikasında aşağıdakı meyillər müşahidə olunur:

İdxalın strukturunda ərzaq məhsulları, o cümlədən taxıl, un, yağ, şəkər, tütün və s. üstünlük təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının idxal- tərkibli xarici ticarət dövriyyəsi siyasəti ən azı üç problemin həll olunmasını nəzərdə tutur.

Daxili bazarın zəruri mallarla doldurulması və ölkənin rəqabətqabiliyyətli əmtəə istehsalçılarının müdafiəsi.

Xarici iqtisadi fəaliyyətin xarici subyektlərindən malların satın alınmasını və onların Azərbaycan ərazisinə gətirilməsini təmin etmək məqsədilə dövlət tərəfindən bir çox mühüm qərarlar qəbul edilmişdir:

Daxili bazarın və ölkənin rəqabətqabiliyyətli əmtəə istehsalçılarının gömrük-tarif tənzimlənməsi vasitələrinin xüsusi, antidempinq və kompensasiya rüsumları, tarif kvotaları (normaları), eləcə də malların ayrı-ayrı növlərinin idxalına dövlət inhisarının qanunvericiliklə müəyyən olunmuş qaydada tətbiq edilməsi kimi müdafiə tədbirləri daxil olmaqla bütün arsenalına əsaslanmaqla müdafiə edilməsi;

Xarici sərmayələrin cəlb edilməsi üçün əlverişli şəraitin və stimulların yaradılması. Bu problemin həllinə çox güman ki, üç sahədə nail olmaq olar.

Hər şeydən əvvəl, MDB üzvü olan ölkələrin milli iqtisadiyyatlarının strukturunun yenidən qurulmasıdır ki, bu da aşağıdakıları tələb edir:

Birgə investisiya layihələrinin və proqramlarının reallaşdırılması üçün-transmilli maliyyə-sənaye qruplarının və digər hökumətlərarası təşkilat–təsərrüfat strukturlarının yaradılması daxil olmaqla – maliyyə, material və əmək resurslarının bir yerə cəmlənməsi;

- Kapital qoyuluşlarının sığortalanması və təminatı sistemlərinin yaradılması və inkişafı, girov hesabları, sərmayələrin cəlb edilməsinin prioritet istiqamətlərinin və sektorların dəqiq müəyyən edilməsi mexanizminin hazırlanmasını nəzərə almaqla qarşılıqlı sərmayələrin, xüsusi sərmayələr daxil olmaqla cəlb edilməsi. Bu istiqamətdə dövlətlərarası sazişlər, xüsusilə "sərmayələrin mühafizəsi və qarşılıqlı təşviqi" haqqında sazişlər olduqca faydalıdır.

Daha sonra qabaqcıl sənaye dövlətləri ilə, ilk növbədə, dünya iqtisadiyyatında ABŞ-ın liderliyini, onun elmi-texniki potensialını, ABŞ–ın Azərbaycan Respublikasl milli iqtisadiyyatının aparıcı sahələrində, ilk növbədə, neft sənayesində, mühüm layihələrin həyata keçirilməsi üçün lazımi resurslara və təcrübəyə malik çoxlu sayda iri kampaniyaların varlığını nəzərə alaraq bu ölkə ilə iqtisadi əlaqələrin genişləndirilməsi sahəsində əməkdaşlıq müstəsna rol oynayır. Şübhə-

siz, Zaqafqaziya regionu indi ABŞ-ın strategiysında mühüm əhəmiyyət kəsb edir. Bu strategiyanın məqsədi Xəzər dənizinin neft-qaz ehtiyatları üzərində nəzarəti təmin etməkdir. ABŞ-ın dağ-mədən şirkətləri də respublikada işləməyə fəal cəlb olunur. Məsələn, Naxçıvan Muxtar Respublikasında və dörd başqa rayonda yerləşən 9 polimetal filiz yatağının işlənməsinə dair RV İnvestment Group Services LLS of USA konsorsiumu ilə müqavilə imzalanmışdır və hal-hazırda fəaliyyətdədirlər. Heç şübhə yoxdur ki, xarici investorlarla təbii ehtiyatların işlənilməsinə konsessiya müqavilələri əsasında hüquqların verilməsi ölkənin Dünya Təsərrüfat Əlaqələri Sisteminə daxil olmasına baza yaradır.

Nəhayət, Azərbaycan Respublikasının ərazisində azad iqtisadi zonaların yaradılması və bu sahədə Türkiyə, Çin, Malayziya və başqa ölkələrin təcrübəsinin mənimsənilməsi, belə zonaların yaradılmasına dair məsələlər hələ 10 il bundan əvvəl 1992-ci ilin iyununda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının İstanbul şəhərində keçirilmiş konfransında öz əksini tapmışdır. Sərbəst iqtisadi zonaların yaradılması, dünya təcrübəsinin göstərdiyi kimi, Azərbaycanın iqtisadi inkişafına güclü təkan verəcək, onun ixrac potensialını yüksəldəcək, regional inteqrasiya proseslərini sürətləndirəcək investisiya iqlimini yaxşılaşdıracaqdır.

Aparılan tədqiqatdan alınan nəticələrə əsasən, son illərə qədər idxal ixracı xeyli üstələyirdi, yəni ölkə xalis idxal iqtisadi siyasətini həyata keçirirdi, ölkəyə real xalis kapital axını baş verirdi. 2000-ci ildə bu tendensiya dəyişdi. Ölkəmizin ixracı idxalı üstələdi ki, 2012-ci ildə müsbət ticarət saldosu 24507,4 mln. dollar təşkil etmişdir. Müsbət saldo tendensiyası növbəti il ərzində də davam etmişdir.

Beynəlxalq ticarət-iqtisadi əlaqələrdə prioritetlərin formalaşdırılması. Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin üçüncü istiqamətinin ticarət–iqtisadi əlaqələrdə beynəlxalq regional prioritetlərinin formalaşdırılmasıdır.

Belə ki, Azərbaycanın başqa dövlətlərlə xarici ticarətinin ən azı 3 prioriteti var:

- Hər şeydən əvvəl, MDB dövlətləri ilə əməkdaşlıq;
- Daha sonra, İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) daxil olan ölkələrlə, o cümlədən İranla və Türkiyə ilə əməkdaşlıq;
- Nəhayət, Avropa ölkələri və ABŞ ilə gələcəkdə Transatlantik Azad Ticarət Zonası yaratmaq perspektivi ilə əməkdaşlıq;

- Azərbaycanın, MDB dövlətləri ilə əməkdaşlığı, bir çox onilliklər ərzində Azərbaycanın keçmiş SSRİ ölkələri ilə xarici ticarəti respublikanın iqtisadiyyatının mühüm inkişaf amili olmuşdur. Sovet İttifaqının dağılması üzv ölkələr arasında iqtisadi əlaqələrin qırılmasına səbəb oldu. Azərbaycanın MDB-nin müstəqil dövlətləri ilə xarici ticarət də daxil olmaqla, bütün sahələrdə əlaqələrinə mənfi təsirini göstərdi. Lakin bu tendensiya 1991-1995-ci illərdə mövcud olmuş, 1996–dan başlayaraq Azərbaycanın xarici ticarətində MDB-nin xüsusi payı artmışdır. Eyni zamanda MDB –də ən böyük ticarət partnyoru Rusiya ilə də əlaqələr inkişaf edir. 2012-ci ildə Azərbaycanın xarici ticarətinin 9,7%-i MDB üzvü, olan dövlətlərin, 10,3 %-i isə digər xarici dövlətlərin payına düşmüşdür. Rusiya ilə ticarət münasibətlərində Azərbaycan 251 mln.dollar həcmində müsbət saldoya malikdir. Digər MDB üzv dövlətləri ilə Azərbaycanın xarici ticarət dövriyyəsi 963 mln.dollar həcmində mənfi saldoya malikdir.

MDB məkanında Azərbaycanın xarici iqtisadi fəaliyyətinin başlıca məqsədi bazar münasibətləri əsasında ticarət-iqtisadi əməkdaşlığın səmərəliliyini artırmaq, iqtisadi maraqlarını müdafiə etmək və ölkənin iqtisadi təhlükəsizliyini təmin etmək olmalıdır.

Ticarət-iqtisadi əməkdaşlıq sahəsində qarşıya qoyulmuş məqsədi reallaşdırmaq bir neçə yolla mümkündür.

Birincisi, qarşılıqlı faydalılıq, qarşılıqlı tamamlama və MDB–nin ayrı-ayrı üzvlərinin bir çox konkret maraqlarının üst-üstə düşməsini nəzərə almaqla, MDB-nin iştirakçı dövlətləri ilə əmtəə dövriyyəsini artırmaq, ixracın əmtəə strukturunu təkcə resurslarla deyil, həm də hazır məhsul növlərini və idxalı mürəkkəb və elmtutumlu məhsulları artırmaqla təkmilləşdirmək yolu ilə.

İkincisi, Azərbaycanın və MDB–nin iştirakçı dövlətlərinin xarici iqtisadi fəaliyyətində prioritetlərin müəyyənləşdirilməsi yolu ilə. Bu istiqamətdə ölkələr arasında ikitərəfli sazişlərin böyük əhəmiyyəti vardır. Onların əsas məqamları ölkələr arasındakı ticarətdə mövcud olan birbaşa və dolayı məhdudiyyətlərin, ekvivalent təsirə malik vergi və resursların aradan götürülməsi, eləcə də üçüncü ölkələrlə qarşılıqlı münasibətlərdə vahid yanaşma üsullarının hazırlanması barədə danışıqların aparılmasıdır.

Üçüncüsü, MDB dövlətlərinin daxili bazarlarını və milli əmtəə istehsalçılarını xarici mal göndərənlərin ekspansiyasından müdafiə et-

mək yolu ilə, ölkələrin milli iqtisadiyyatında bütövlükdə və ayrı-ayrı sahələrində vicdanlı rəqabət üçün şəraitin saxlanması zəruriliyi nəzərə alınmalıdır.

Nəhayət, razılaşdırılmış qiymət siyasətinin, xüsusilə inhisarçı müəssisələrin məhsullarına münasibətdə aparılması, eləcə də qarşılıqlı əmtəə mübadiləsinin təmin edilməsi ilə əlaqədar nəqliyyatın bütün növlərində tariflərin razılaşdırılmış tənzimetmə mexanizminin yaradılması ilə.

Azərbaycanın uzaq xarici ölkələri ilə əməkdaşlığı son dövrdə xeyli inkişaf etmişdir. Belə ki, bu ölkələrlə əmtəə dövriyyəsi son illərdə xeyli artmışdır. Azərbaycanın İtaliya, ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya, Fransa, Hindistan, Almaniya, İndoneziya və İsrail ilə daha intensiv ticarət əlaqələri vardır. Ümumi ticarət dövriyyəsində bu ölkələrin payı 2012-ci ildə 67,4 % təşkil etmişdir. Avropa dövlətləri ilə münasibətlər Azərbaycanın xarici iqtisadi strategiyasında mühüm yer tutur. Ona demək kifayətdir ki, Azərbaycanın əsas ticarət partnyoru İtaliya, ən böyük investoru Böyük Britaniya, Avropa ölkələridir. Lakin Avropa yalnız Qərbi Avropa ölkələri ilə məhdudlaşmır. Azərbaycan bütövlükdə Avropa regionunda baş verən meyiilləri nəzərə almalıdır. Əsas meyillər kimi aşağıdakı məsələləri qeyd edə bilərik.

Şərqi və Mərkəzi Avropa ölkələrində inteqrasiya proseslərinin artması Macarıstan, Polşa, Slovakiya və Çexiyanın azad ticarət haqqında imzaladığı sazişlə nəticələndi. Sazişin strateji məqsədi Şərqi Avropada azad ticarət zonası təşkil etməkdir ki, bu da 60 milyon nəfərdən çox əhali ilə kifayət qədər tutumlu bazar yaratmağa imkan verəcəkdir. Belə bir bazar Qərbi Avropa ilə MDB regionu arasında spesifik bufer zonası rolunu yerinə yetirəcəkdir.

İqtisadiyyatın ayrı-ayrı sahələrində və iqtisadi resursların konkret əmtəə bazarlarında baş verən meyillər də nəzərə alınmalıdır:

— istehsal olunan məhsulun enerji və material tutumunu aşağı salan qabaqcıl texnologiyalardan istifadə olunmasının daim artan miqyasları, bu da obyektiv olaraq Azərbaycan xammalına tələbatın aşağı düşməsinə səbəb olacaqdır;

— Avropa bazarlarında Azərbaycan üçün ənənəvi xammal və yanacaq-energetika mallarının (neft, pambıq, kimya məhsulları, əlvan materiallar) rəqabətinin güclənməsi;

— Azərbaycan və onun ticarət tərəfdaşları tərəfindən unifikasiya, çoxlu vaxt və maliyyə itkiləri ilə bağlı olan müxtəlif standartların və normaların istifadə olunması.

Azərbaycanın İƏT ölkələri ilə əməkdaşlığı, ilk növbədə, Yaxın xarici dövlətlərilə, regionda əsas strateji partnyorumuz olan Türkiyə ilə və İranla əlaqələr daha da inkişaf etdirilimişdir. İqtisadi əməkdaşlıq təşkilatı (İƏT) dövlətlərarası qurum kimi 1985-ci ildə Türkiyə, İran və Pakistan arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı gücləndirmək məqsədilə yaradılmışdır. Azərbaycanın İƏT ilə ilk əlaqələri 1991-ci ildə, respublika hələ SSRİ-nin tərkibində olduğu zaman qurulmuşdur. 1992-ci ilin fevralında Azərbaycan İƏT-in üzvü oldu.

Bazar iqtisadiyyatının tənzimlənməsində dünya ölkələrinin beynəlxalq təcrübəsi göstərir ki, hər bir ölkənin beynəlxalq rəqabətdə strategiyasının reallığı əlverişli iqtisadi əsasa söykənməlidir. Buna görə də Azərbaycan da öz xarici iqtisadi siyasətini həyata keçirərkən göstərilən istiqamətlərdə səmərəlilik prinsipindən çıxış etməklə xarici ticarət əlaqələrinin optimal inkişafının perspektivləri üçün əlverişli zəmin yaratmalıdır.

Qeyd etmək lazımdır ki, dünya ölkələri təcrübəsində ixracyönümlü azad iqtisadi zonaların şəbəkəsi geniş yayılmışdır. Bu istiqamətdə yaradılan zonaların əsas funksiyaları rəqabətqabiliyyətli və dünya standartlarına cavab verən ixrac təyinatlı malların istehsalının təşkili və ixrac edilməsidir. Dünya XİZ-in təcrübəsində bu tip iqtisadi zonaların əsas formaları bunlardır:

-İxrac-istehsal zonası – belə zonalarda ixracyönümlü istehsal sahələri təşkil edilir. Bu ərazilərdə sürətləndirilmiş amortizasiya tətbiq edilir, əsas fondların qısa müddət ərzində silinməsi mümkündür. Burada əməkhaqqının verilməsi ilə bağlı müxtəlif fondlara köçürmələr yoxdur və bu baxımdan bol-bol işçi qüvvəsi, əmək ehtiyatları mövcuddur. İnvestorlar tərəfindən zonaya gətirilən xammal və avadanlıqlar rüsumdan azaddırlar.

Müasir dövrdə elm-istehsal texnoloji təyinatlı AİZ-lərin yaradılması böyük əhəmiyyət kəsb edir. Belə ki, bu zonalarda istehsal proseslərinin təşkili üçün müəssisələrin yaradılması, texnoloji parkların (polislərin) təşkili və bu sahələrdə daxili və xarici bazarın tələbatına uyğun sənaye mallarının, avadanlıqlarının istehsalı, yüksək texnoloji məhsulların çeşidinin artırılmasıdır. Dünya iqtisadi proseslərində

effektiv iqtisadi alət kimi özünü təsdiq etmiş istehsal-texnoloji AİZ-lər aşağıdakılardır:

-Elmi-texniki zonalar - belə zonalar elmi-texniki yeniliklərin işlənib hazırlanması, tətbiqi və onların istehsal sahələrinin təşkilindən ibarətdir;

-Elmi-texniki park - bu tip zonaların əsas spesifik cəhətləri, burada işləyənlərin həm də bu parkda yaşamasıdır;

-Kommersiya parkları - bu tip parklarda əsasən istehsal sahələri yaradılır, kommersiya fəaliyyəti təşkil edilir, sərgilər keçirilir, hazır məhsulların qablaşdırılması və satışı aparılır;

-Sənaye parkı - bu tip parklarda adətən müxtəlif istehsal sahələri üzrə müəssisələr fəaliyyət göstərirlər. Belə müəssisələr zəif inkişaf etmiş regionlarda yaradılır və onlara dövlət tərəfindən müxtəlif güzəştlər verilir, dəstək göstərilir;

-Biznes-inkubator - bu tip iqtisadi zonalar modul tipli ofis kompleksinde fəaliyyət göstərirlər. Burada təzə biznesə başlayanlar üçün ucuz qiymətə xidmətlər göstərilir.İcarə haqqının azlığı, rabitə, kompyuter və kommunikasiya xidmətlərinin minimum xərclə başa gəlməsi zonada münbit sahibkarlıq və biznes fəaliyyətinə imkan yaradır.

İqtisadi, maliyyə və xidmət yönümlü AİZ-lər dünya ölkələrinin iqtisadiyyatının inkişafında müstəsna rol oynayırlar.

İqtisadi istehsal rejimi – bu kimi zonalarda xarici kapitalın daha geniş həcmdə cəlbi üçün onlara yerli kapital, eyni formada güzəştlər və hüququ statuslar verilir.Zonaya idxal edilən məhsullar, xammal və avadanlıqlar, yarımfabrikatlar, komplektləşdirici məmulatlar gömrük rüsumu ödəmədən ixrac edilə bilər;

Xüsusi iqtisadi zonalar - bu zonalarda xüsusi qaydalar və normativlər işlənib hazırlanır, qəbul edilir və həyata keçirilir. Zonada gömrük və vergi güzəştləri sistemi müəyyənləşdirilir. Zonaların təşkilində əsas məqsəd mühüm dövlət proqramının icrası, sosial-iqtisadi problemlərin həlli, infrastrukturun yaradılması, regionların (ərazilərin) inkişafı, iqtisadiyyat sektorlarının modernizasiyası, iri kapitalın və investisiyaların cəlb edilməsi, müasir texnologiyaların gətirilməsidir;

Offşor zonaları - bu tip zonalar dünyanın bir kiçik ada ölkələrində fəaliyyət göstərirlər. Belə zonalarda maliyyə-valyuta rejimləri olduqca əlverişlidir, bank və maliyyə əməliyyatları gizli saxlanılır, kommersiya sirri qorunur və s.

Yuxarıda göstərilənlərdən başqa, dünya ölkələrində kompleks və beynəlxalq AİZ-lər də mövcuddur. Kompleks zonalar və beynəlxalq

AİZ-lərin dünya iqtisadi proseslərinə tətbiqi olduqca mürəkkəb bir prosesdir.Təsadüfi deyildir ki, bir sıra beynəlxalq AİZ layihələri uzun bir dövr ərzində elan edilməsinə baxmayaraq, onların reallaşdırılması başa çatdırılmayıb:

Kompleks zonalar - bu tip zonalardan müxtəlif formalı zonalara rast gəlinir və burada müxtəlif funksiyalı elementlərin əksəriyyəti cəmlənmişdir. Belə zonalar əsasən xüsusi ərazilərdə və yaxud "açıq şəhərlərdə" təşkil edilir. Bu zonalarda ticarət, gömrük, istehsal, kommersiya-istehsal, idxal-ixrac, klaster formalı texnoloji parklar, infrastruktur kompleksləri və zəruri xidmət müəssisələri fəaliyyət göstərirlər;

Avropa Sərbəst Ticarət Assosiasiyası- bu beynəlxalq AİZ 1960-cı ildə yaradılmışdır və əsas funksiyası ticarət rejimlərinin aradan qaldırılması olmuşdur. Bu AİZ 1984-cü ildə Avropa İqtisadi İttifaqının yaradılması ilə bağlı olaraq onun tərkib hissəsinə çevrilmişdir;

NAFTA - bu beynəlxalq AİZ 1993-cü ildə ABŞ, Kanada və Meksika arasında ticarət blokunun yaradılması barədə razılaşma nəticəsində təşəkkül tapmışdir. NAFTA-nın əsas vəzifələri - gömrük və pasport baryerlərinin aradan qaldırılması, sərbəst ticarət zonasında ədalətli rəqabət şəraitinin yaradılması, investisiyaların cəlb edilməsi və s.-dən ibarətdir;

"Tumanqan" – AİZ-i beş ölkənin - Rusiya, Çin, Monqolustan, Cənubi və Şimali Koreya Respublikalarının iştirakı ilə artıq 20 ildən çoxdur ki, yaradılmaqdadır. Bu AİZ-in əsas məqsədləri ərazinin iqtisadi inkişafının sürətləndirilməsi, investisiyaların cəlbi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi və s.-dən ibarətdir;

Çin - ASEAN azad ticarət zonası - bu layihə dünyanın ən geniş azad ticarət zonası kimi xarakterikdir.Bu zonaya Çin, Bruney, İndoneziya, Malayziya, Filippin, Sinqapur və Tailand daxildirlər. Gələcəkdə bu zonada ticarət dövriyyəsinin 200 mlrd. ABŞ dollarınadək təşkil edəcəyi və bu zonanın fəaliyyətindən 1,9 mlrd. insanın faydalanacağı proqnozlaşdırılır.

Qeyd etmək lazımdır ki, Dünya Ticarət Təşkilatının məlumatlarına əsasən son dövrdə beynəlxalq ticarət təşkilatlarının ildən–ilə artan siyasi və iqisadi tədbirləri sayəsində ölkələrarası ticarət münasibətləri də daima inkişaf edir.

Dünya ticarətində əmtəələrin ticarəti ilə yanaşı, xidmətlərin ticarəti getdikcə daha da genişlənir.Bura müxtəlif təyinatlı fəaliyyət növləri daxildir:

-Xarici ticarətin yerinə yetirilməsi ilə əlaqədar olan və əmtələrin xərclərinə aid olan daşıma(dəniz, quru və digər nəqliyyat və sığorta) xidmətləri;

-Texnologiyanın mübadiləsi ilə əlaqədar olan xidmətlər, o cümlədən əsalı tikinti texniki əməkdaşlıq idarəetmə xidmətləri;

- Gəlir gətirən turizm, səyahət və işgüzar gəzinti xidmətləri;

- Kapitala görə gəlirlə əlaqədar olan ödəmələr, bank xərcləri, lizinq;

Bütün bu fəaliyyət növlərini birləşdirən başlıca cəhət ondan ibarətdir ki,onlar bir və ya bir neçə ölkənin vətəndaşları arasında olan qeyri-əmtəə sövdələşmələridir ki,bunlara görə də beynəlxalq ticarətin tərkib hissəsi kimi tədiyyə balansında əks olunan ödənişlər həyata keçirilir.

Bir sıra mütəxəssislərin fikrincə, 1980-cı illərin sonuna dünya ÜMM–nun 70%-i xidmətlərin payına düşsə də beynəlxalq ticarətdə onun çox az hissəsi təmsil olunur.Son dövrlərdə beynəlxalq mübadilədə onun xüsusi çəkisi sürətlə artmaqdadır və beynəlxalq dövriyyəyə yeni-yeni xidmət növləri çıxarılmaqdadır.Hazırda bu xidmət növləri 600-dən çoxdur.BMT-nin beynəlxalq standartlaşdırılmış sənaye təsnifatına görə xidmətlər satılmayan əmtəələrə,yəni istehsal olunduğu ölkədə istehlak olunan və ölkələr arasında yerini dəyişməyən əmtəələrə aiddir. Xidmətlər əsasən aşağıdakı qruplara bölünür:

-Kommunal xidmətləri və inşaat;

-Topdan və pərakəndə ticarət,restoranlar və mehmanxanalar, turist bazaları və kempinqlər;

-Yolasalma,saxlama və rabitə,maliyə vasitəçiliyi;

-Müdafiə və məcburi sosial xidmətlər;

-Təhsil,səhiyyə və ictimai işlər;

-Digər məişət və şəxsi xidmətlər.Beynəlxalq mübadiləyə getdicə daha çox çıxarılan informasiya və konsaltinq xitmətləridir.

Son dövrdə beynəlxalq ticarətin dinamikasında ilk növbədə onun fiziki həcmində və dəyər göstəricisi ilə artımı nəzərə çarpır. XX əsrin ikinci yarısından beynəlxalq ticarət dünya iqtisadiyyatının ən dinamik inkişaf edən sahəsinə çevrilmişdir.Beynəlxalq ticarətin inkişaf sürəti dünya iqtisadiyyatının artım sürətini əsaslı sürətdə qabaqlayır. Beynəlxalq ticarətin sabit artımına təsir göstərən aşağıdakı amillərə Beynəlxalq əmək bölgüsünün və istehsalın beynəlmiləlləşdirilməsinin inkişafı; Dünya bazarında transmilli şirkətlərin fəaliyyətinin artması; Xarici

kapital ixracının artması; Ticarət-iqtisadi inteqrasiyası prosesinin inkişafı; Bir çox məhsulların qiymətinin artırılması və s. göstərmək olar. Beynəlxalq ticarətin quruluşu əsasən aşağıdakı kimi qruplaşdırılır: maşınlar, avadanlıq, cihazlar; xammal məhsulları; ərzaq məhsulları; istehlak malları.

Qeyd etmək lazımdır ki, dünya ticarətinin quruluşunda daha doğrusu 1970-2014-cü illərdə dünya üzrə ixracın tərkibində xammal, yanacaq və ərzaq məhsullarının xüsusi çəkisi nisbətən azalmış, hazır məhsullar və yarımfabrikatların payı isə atrmışdır. İnkişaf etmiş ölkələrin ixracında əsas yeri hazır məhsullar və yarımfabrikatlar tutur (82%), yanacaq, xammal, ərzaq isə 15% təşkil edir.

Tədqiqat göstərir ki, hər bir dövlətin xarici ticarət siyasətində 4 əsas məqsəd qarşıya qoyulur:

1. İxrac və idxalın həcminin dəyişilməsi;
2. Xarici ticarətin quruluşunun dəyişilməsi;
3. Ölkənin zəruri ehtiyatlarla təmin edilməsi;
4. İxrac və idxal qiymətlərinin nisbətinin dəyişilməsi;

İqtisadçıların müəyyən etdiyi proqnozlara görə XXI əsrin ilk illərində ən rəqabətqabiliyyətli dövlət ABŞ və Asiya dövlətləri olacaqlar. 2030-cu ildə ən güclü rəqabətqabiliyyətli dövlət ABŞ, Yaponiya, Çin olacağı zənn edilir. Sonra Almaniya, Sinqapur, Cənubi Koreya , Hindistan, Tayvan , Malayziya, İsveçrənin adı sadalanır.

Asiyanın "yeni sənaye ölkələri" adlanan Sinqapur, Hon-konq, Tayvan da Yaponiyaya qoşulurlar. 90-cı illərin ortalarından ABŞ öz rəqabət qabiliyyətinə görə dünya ticarətində birinci yerə çıxır. Sonra Sinqapur, Honkonq, Yaponiya gəlir, Fransa 17-ci, Çin 34-cü, Türkiyə 40-cı yeri tutur. Ölkələrin bu cür neçənci yer tutması təkcə xarici ticarətin həcminə görə müəyyənləşir. Burada 378 meyar göstərici əsas götürülür.

Dünya ölkələrinin ticarəti prosesinin təhlili göstərir ki,burada liberallaşma-sərbəstləşmə bu prosesin əsasını təşkil edir. Ayrı-ayrı ölkələr arasında müəyyən iqtisadi qruplaşmalar, birliklər yaranır ki, bu da həmin qruplaşmaya daxil olmayan ölkələr üçün- istər istəməz himayədarlıq siyasətinin tətbiqinə səbəb olur. Ticarət -iqtisadi birliklərin yaranmasında, hər şeydən əvvəl, azad ticarət zonası böyük rola malikdir.

Dünya bankının məlumatına görə 90-cı illərdə dünya ticarətinin 42%-i bu cür açıq zonalar çərçivəsində həyata keçirilmişdir. Açıq iqtisadi zonalar şəklindəki qruplaşmalardan 9 ən böyük region üzrə beynəlxalq birləşməni göstərmək olar.

Aydındır ki, dövlətlərarası sazişlərin yaranması və formalaşması obyektiv olaraq siyasi, iqtisadi, tarixi proseslərin qaydaya salınmasında onların marağını birləşdirir. Bu kimi proseslərin artması bir tərəfdən həmin müqavilə region çərçivəsində beynəlxalq ticarətin genişlənməsinə səbəb olursa, digər tərəfdən onlara "bağlıqapalı" xarakter verir. Hətta bəzən eyni qruplaşmaya daxil olan ölkələrin özləri arasında da müəyyən ziddiyyətlər baş verir. Ona görə də Ümumdünya Ticarət Təşkilatının (ÜTT) direktoru R.Rudjero həmin təşkilatın üzvü olan ölkələri birgə fəaliyyətə çağırır. Belə zənn edilir ki, 2020-ci ilədək azad ticarəti daha qlobal zona üzrə yaratmaq olur.

Bu kimi maneəçiliklərin aradan qaldırılması və beynəlxalq ticarətin tənzim edilməsində "tarif dərəcələri və ticarət haqqında baş müqavilə" təşkilatının böyük rolu vardır.

Dövlətlər arasında xarici iqtisadi əlaqələr əsasən ticarət, kapital ixrac etmək, kreditlər vermək, elmi-texniki əməkdaşlıq, kadrlar hazırlanması və s. formasında həyata keçirilir.

Dünya bazarında əmtəə və xidmətlər dünya bazar qiymətləri əsasında hərəkət edir. Burada kəskin rəqabət mübarizəsi, qiymətlərin kortəbii surətdə qalxıb-enməsi, qeyri-ekvivalent mübadilə, bəzi ölkələrin digərlərini istismar və qarət etməsi halları mövcuddur.

Dünya bazarında əmtəələr beynəlmiləl (dünya) qiymətləri ilə alınıb-satılır. Müasir şəraitdə dünya qiymətləri ilə böyük miqyaslı kommersiya ixracat, yaxud idxalat əməliyyatları aparılır. Dünya bazar qiymətlərinin aşağı düşməsinə təsir göstərən əsas amil müasir şəraitdə elmi-texniki tərəqqidir.

Hazırda dünya bazarında aşağıdakı qiymətlər mövcuddur:

1. Adi kommersiya əməliyyatları və ödəmələri üçün olan qiymətlər;
2. Tam çevrilən (sərbəst) və qismən çevrilən valyuta ilə qiymətlər;
3. Klininq razılıqları üzrə qiymətlər;
4. Kömək proqramı üzrə qiymətlər.

Beynəlxalq ticarəti inkişaf etdirmək üçün ən effektiv yol, idxal olunan malların gömrük rüsumlarının azalmasını, vergilərin azalmasını,ticarətin artırılması üçün investisiyaların artırılmasını təmin etmək vacibdir.Məsələn əgər hər hansısa bir məhsulun istehsalı müəyyən ölkədə baha başa gəlirsə,həmin məhsulun istehsalı üçün digər ucuz başa gələn ölkədə investisiya qoymaq lazımdır.

Beynəlxalq ticarətin inkişafında gömrük prosedurlarının əhəmiyyətini göstərmək üçün öz dövlətimizin xarici ticarətinə nəzər salaq.

Ölkəmizin müasir gömrüyü 22 il bundan əvvəl yaradılmışdır.1992-ci ildən bu günə kimi ölkəmizin xarici ticarəti arzu olunan, gözləniləndən də yüksək templə inkişaf etməyə başlamışdır.Ölkəmizdə xarici ticarətin inkişaf tempini aydın görmək üçün aşağıdakı cədvəllərə nəzər salaq:

**Azərbaycan Respublikasının1992-2012-ci illərdə xarici ticarət əlaqələrinin dinamikası**

| İllər | Milyon ABŞ dolları ilə | | | | Əvvəlki ilə nisbətən faktiki qiymətlərlə, faizlə | |
|---|---|---|---|---|---|---|
| | ticarət dövriyyəsi | idxal | ixrac | ticarət dövriyyəsi | idxal | ixrac |
| **1992** | 2 423,8 | 939,8 | 1 484,0 | 60,6 | 50,0 | 70,0 |
| **1993** | 1 353,5 | 628,8 | 724,7 | 55,8 | 66,9 | 48,8 |
| **1994** | 1 430,6 | 777,9 | 652,7 | 105,7 | 123,7 | 90,1 |
| **1995** | 1 304,9 | 667,7 | 637,2 | 91,2 | 85,8 | 97,6 |
| **1996** | 1 591,9 | 960,6 | 631,3 | 122,0 | 143,9 | 99,1 |
| **1997** | 1 575,7 | 794,4 | 781,3 | 99,0 | 82,7 | 123,8 |
| **1998** | 1 682,6 | 1 076,5 | 606,1 | 106,8 | 135,5 | 77,6 |
| **1999** | 1 965,6 | 1 035,9 | 929,7 | 116,8 | 96,2 | 153,4 |
| **2000** | 2 917,3 | 1 172,1 | 1 745,2 | 148,4 | 113,1 | 187,7 |
| **2001** | 3 745,3 | 1 431,1 | 2 314,2 | 128,4 | 122,1 | 132,6 |
| **2002** | 3 832,9 | 1 665,5 | 2 167,4 | 102,3 | 116,4 | 93,7 |
| **2003** | 5 216,6 | 2 626,2 | 2 590,4 | 136,1 | 157,7 | 119,5 |
| **2004** | 7 131,4 | 3 515,9 | 3 615,5 | 136,7 | 133,9 | 139,6 |
| **2005** | 8 558,4 | 4 211,2 | 4 347,2 | 120,0 | 119,8 | 120,2 |
| **2006** | 11 638,9 | 5 266,7 | 6 372,2 | 136,0 | 125,1 | 146,6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **2007** | 11 771,7 | 5 713,5 | 6 058,2 | 101,1 | 108,5 | 95,1 |
| **2008** | 54 926,0 | 7 170,0 | 47 756,0 | 466,6 | 125,5 | 788,3 |
| **2009** | 20 824,5 | 6 123,1 | 14 701,4 | 37,9 | 85,4 | 30,8 |
| **2010**[1] | 33 161,7 | 6 600,6 | 26 560,1 | 106,5 | 105,0 | 106,9 |
| **2011**[1] | 43 121,3 | 9 756,0 | 33 365,3 | 102,2 | 145,3 | 89,5 |
| **2012**[2] | 36 326,9 | 9 756,0 | 26 570,9 | 103,9 | 145,3 | 88,7 |

Statistika məlumatı - ölkə sərhədini keçərək faktiki ixrac olunmuş, lakin hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməyən xam neft və təbii qazın həcmi və statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla.

Gömrük məlumatı - xam neft və təbii qaz ixracında gömrük rəsmiləşdirilməsi tarixi ilə bu məhsulların faktiki ixrac tarixi (ölkə sərhədini keçmə tarixi) üst-üstə düşmədiyi üçün ölkə üzrə ixracın ümumi həcminə ixrac edilmiş xam neft və təbii qazın hesab dövründə gömrük orqanlarında yalnız rəsmiləşdirilən həcminə dair məlumatlar daxil edilmişdir.

2010 və 2011-ci illər üzrə indekslər qiymət amili nəzərə alınmaqla hesablanmış və real dəyişməni (artım,azalmanı) əks etdirir.

3) 2012-ci ilin yanvar-oktyabrı 2011-ci ilin yanvar-oktyabrına nisbətən, müqayisəliqiymətlərlə;

x) 2012-ci ilin yanvar-oktyabrı; xx) 2012-ci ilin yanvar-oktyabrı 2011-ci ilin yanvar-oktyabrına nisbətən;

Cədvəldən də göründüyü kimi, 1992-ci ildə ticarət dövriyyəsi 2 423,8 dollar təşkil etmişdirsə,bu göstərici 2011-ci idə 36326.9 dollara çatmışdır. Deməli,1992-ci ildən indiyə kimi xarici ticarət dövriyyəsi 33903,1 dollar artmışdır. Bu rəqəm 20 il bundan öncə müstəqillik qazanmış ölkə üçün olduqca yüksək göstəricidir. Bu da güclü dövlət siyasətinin və düzgün şəkildə həyata keçirilən ticarət əlaqələrinin nəticəsidir.

Xarici ticarət kontraktlarının uğurlu alınması və onun iqtisadi səmərəliliyi bu və ya digər yükün necə daşınmasından, yükdaşıma üçün ən qənaətli və sürətli nəqliyyat vasitəsindən necə istifadə olunmasından xeyli dərəcədə asılıdır.

Nəqliyyat faktoru dünya ticarətinin identifikasiyasında vacib ilkin şərait kimi həmişə nəzərdən keçirilmişdir. XVI-XVIII əsrlərin böyük

coğrafi kəşfləri dəniz gəmiçiliyinin artımını bilavasitə şərtləndirdi ki, bu da dünya ticarətinin inkişafına güclü təkan verdi. XIX əsrdə buxar və elektrik enerjisinə sahib olmaqla, bəşəriyyət nəqliyyat vasitəsini əhəmiyyətli dərəcədə təkmilləşdirdi. Paroxodlar, dəniz yolları nəqliyyatda əsl inqilaba səbəb oldu. Bunlar da öz növbəsində dünya təsərrüfat əlaqələrinin sonrakı inkişafına imkan yaratdı.

70-ci illərin əvvəllərində beynəlxalq daşımaların yekun həcmi 4,5-4,6 mlrd. dəyərində qiymətləndirilmişdir.

1996-cı ildə daşımalar 3.8 mlrd.-a qədər azalmışdır. Bu fakt ticarət tempinin aşağı düşməsinə deyil, əksinə əmtəə mübadiləsinin strukturunda keyfiyyət dəyişikliklərinin olmasına dəlalət edir. Daha çox "nəqliyyat tutumlu" yanacaq-xammal məmulatlarının payı azalmışdır.

Beynəlxalq ticarətdə ən geniş yayılmış nəqliyyat növü dəniz nəqliyyatıdır. Nəqliyyatın bu növü beynəlxalq yükdaşımalarının təxminən 65%-ni təmin edir. Daşımaların əsas növünü maye(duru) və qabsız yüklər, daha doğrusu, dəniz daşımalarının həcminin təxminən 40%-ni təşkil edən yanacaq-xammal məhsulları təşkil edir.Yerdə qalan 60% isə əsas yüklərin (hazır sənaye malları, istehlak təminatlı əmtəələr, ərzaq) payına düşür.

Beynəlxalq daşımaların ümumi həcminin təxminən 15-17%-i dəmiryolu nəqliyyatının üzərinə düşür. O, bir qayda olaraq quru, daxili daşımalar üçün istifadə olunur.

Son 30-40 ildə dəniz nəqliyyatına ciddi rəqib kimi hava nəqliyyatı meydana çıxmışdır. Yerdəyişmələrdə olan sürətə görə avianəqliyyatın üstünlüyünü nəzərə alsaq, o, beynəlxalq sərnişin daşımalarında liderdir. Sürətli geniş gövdəli təyyarələrin tətbiqi ilə daşıma qabiliyyəti kifayət qədər yüksəlmişdir. Yalnız 1985-2005-ci illərdə beynəlxalq hava əlaqələrində daşımaların həcmi iki dəfədən çox artmışdır. Eyni zamanda maya dəyərinə görə nəqliyyatın bu növü ən bahalılardan biridir.Ona görə də ümumdünya yükdaşımalarının ümumi həcmindəki payı 6%-i güclə ötür.

Xarici ticarət və iqtisadi əlaqələrdə avtomobil və çay nəqliyyatı ən az əhəmiyyət kəsb edən nəqliyyat növləridir. Xarici ticarət yükdaşımalarının ümumi həcminin 5%-ə qədəri bütövlükdə onların payına düşür.Nəqliyyatın bu növləri özlərinin texniki mahiyyətinə görə daha lokal xarakterlidirlər. Əgər dəmiryolları qitədaxili daşımalara xidmət edirsə, avtomobil və çay nəqliyyatı yüklərin yenidən daşınmasını qonşu ölkələr arasında təmin edir.

Qeyd etmək lazımdır ki, texnoloji (texniki) inkişaf beynəlxalq ticarətdə fiziki hərəkət edən malların (əmtəələrin) prosesini zəiflətməyə öz töhfəsini vermişdir. Dəniz portlarının və aeroportların infrastrukturlarını yeniləməkdə containerisation-un nəhəng böyüməsi (inkişafı) və yüksək texnologiyanın istifadəsi dünya ticarətinin effektivliyini və sürətini artırmışdır. "Incoterms 2000" kimi uyğunlaşdırılan ölçülərdən (tədbirlərdən) müqavilə müddətlərinin (terminlərinin) harmonikləşməsi, "Incoterms 2010" ilə yenilənən olmağa hazırlaşması, sərhədi keçən (xarici) ticarətin hüquqi (qanuni), müqavilə və maliyyə aspektlərini zəiflətməyə kömək etmişdir.

Azad zonalar (porto-frankolar).

Belə vacib bir məsələni vurğulamaq lazımdır ki, dünya ölkələri arasında ticarət əlaqələrinin sürətli inkişafında elektron ticarət mühüm rol oynayır.

Elektron ticarət - informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət növüdür. Elektron ticarət anlayışı 1980-ci illərdə meydana gəlsə də, ilk dəfə internet vasitəsilə alqı-satqı 1995-ci ilə təsadüf edib.

Müasir İKT-dən iqtisadiyyatın real sektorlarında geniş istifadə olunması təsərrüfatları bazar infrastrukturunun (maliyyə, ticarət, biznes və s.) informasiya texnologiyaları əsaslarına çevirməyə imkan verir. Bu isə elektron biznes mühitinin texnoloji bazisinin, elektron kommersiyasının, informasiya-marketinq şəbəkələrinin yaradılmasına imkan verir.

İnternet vasitəsilə həyata keçirilən elektron kommersiya əsasən 4 qrupa bölünür:

1. Məhsul satışı üzrə texnologiyalar. Buraya istehlakçıdan sorğunun alınması, hesabların yazılması, pul ödənişlərinin göndərilməsi və s. daxildir.

2. Distant satış və ixtisaslı kadrların hazırlanması və seçilməsi. Buraya məhsulun göndərişi, istehlakçıların monitorinqi, marketinq və satış üzrə mütəxəssis seçimi daxildir.

Oktyabrın 18-20 tarixlərində İran İslam Respublikasının Tehran şəhərində İpək Yolu ölkələri arasında ticarətə yardım və onun asanlaşdırılması üzrə gömrük idarələrinin roluna dair III Beynəlxalq Forum keçirilmişdir.

Tədbirdə Azərbaycan,Türkiyə, Ukrayna, Rusiya, Gürcüstan, Türkmənistan, Qırğızıstan, İran, İraq, Əfqanıstan, Pakistan, Koreya və

Yaponiya gömrük xidmətlərinin vəzifəli şəxsləri, eləcə də bir sıra beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər. Onlar İpək Yolu ölkələri arasında ticarət əlaqələrinin genişlənməsi, mal dövriyyəsinin həcminin artırılması və bu işlərin həyata keçirilməsində yeni metodların tətbiq edilməsi barədə müzakirələrin davam etdirilməsinin zəruriliyini vurğulamışlar.

Daha sonra forumun işi sessiyalar üzrə davam etmişdir. "İpək Yolu" ölkələri arasında əməkdaşlıq: çağırışlar və imkanlar" mövzusunda ilk sessiyada Ümumdünya Gömrük Təşkilatının Baş katibi K.Mikuriya çıxış edərək ÜGT-nin fəaliyyəti, XXI əsrdə gömrüyün inkişafı ilə əlaqədar ÜGT-nin gördüyü işlər, gömrük hüquqpozmalarına qarşı mübarizə, gömrük prosedurlarının sadələşdirilməsi, ticarətin asanlaşdırılması və informasiya texnologiyalarının inkişafı barədə ətraflı məlumat vermişdir.

Sessiyada digər məruzəçilər "İpək Yolu" ölkələrinə sərmayələrin qoyulması imkanları, birgə gömrük nəzarətinin həyata keçirilməsi, ticarətin asanlaşdırılmasının əhəmiyyəti və bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatların vəzifələri barədə çıxış edərək regionda ticarət münasibətlərinin inkişaf etdirilməsi zərurətini vurğulamışlar.

Forumun "Gömrük: ticarətin asanlaşdırılması və təhlükəsizliyi" mövzusunda ikinci sessiyasında isə əsas diqqət ticarətin asanlaşdırılmasına yönəlməklə yanaşı, beynəlxalq yükdaşımalarda təhlükəsizliyin təmin olunması və beynəlxalq təşkilatların dünya təcrübəsindən irəli gələn tövsiyələri, eləcə də Koreya gömrüyünün qabaqcıl təcrübəsinə dair nümunələrdən bəhs edilmişdir.

"Gömrük əməkdaşlığı üçün təkliflər" mövzusunda üçüncü sessiyada isə Yaponiya, İran və İqtisadi Əməkdaşlıq Təşkilatının nümayəndələri çıxış edərək gömrük əməkdaşlığının vacibliyi, onun ikitərəfli və çoxtərəfli formalar əsasında intensivləşdirilməsinin əhəmiyyətindən bəhs etmişlər.

"XXI əsrdə gömrüyün qarşılaşdığı çətinliklər və yanaşma metodları" mövzusunda növbəti sessiyada isə ÜGT nümayəndələrinin "Məlumat əsaslı riskin idarə olunması" və "Gömrük işinin təkmilləşdirilməsi və Ümumdünya Gömrük Təşkilatının Dünya Ticarətinin Təhlükəsizliyi və Asanlaşdırılması üzrə Çərçivə Standartlarının tətbiqi" ilə bağlı çıxışları dinlənilmiş, XXI əsrdə gömrüyün rolu və gömrük işinin inkişaf etdirilməsi platforması ətrafında fikir mübadiləsi aparılmışdır.

### 3. Azərbaycanın ÜTT ilə qarşılıqlı faydalı əlaqələrinin formalaşdırılması–xarici ticarət əlaqələrinin tənzimlənməsinin mühüm istiqaməti kimi

Azərbaycanın ÜTT-yə üzvlüyü qanunvericiliyin təkmilləşdirilməsi ilə birbaşa bağlıdır. Hazırda tənzimləmə, intellektual mülkiyyət və investisiyalar sahəsində elə qanunlar var ki, onlar beynəlxalq standartlara, eləcə də ÜTT-in tələblərinə cavab vermir. Burada gömrük, lisenziyalaşdırma, kvotalar və ÜTT-nın əsasını təşkil edən və beynəlxalq ticarətin tənzimlənməsi üçün çərçivə yaradan Uruqvay Raundu Sazişlərindəki prinsiplərə və normalara uyğun bütün digər nəzarət növləri üçün tənzimləyici rejim yaratmaq tələb olunur. Uruqvay Raundu prinsipləri və normaları heç bir mülahizələrdən asılı olmayaraq, ümumiyyətlə, ölkənin ticarəti üçün faydalıdır. Onlar əməliyyat xərclərini azaldırlar və ölkənin ticarətdə rəqabət bacarığını artırırlar. Belə ki, ÜTT-yə qəbul ölkənin ticarət siyasətini proqnozlaşdırmağa imkan verəcək, şəffaflıq artacaq, beynəlxalq ticarət tərəfdaşları çoxalacaq və iqtisadi münaqişələr daha səmərəli həll olunacaq. Qeyd edək ki, kənd təsərrüfatı sazişi çərçivəsində müzakirə olunan əsas məqamlar bu sahəyə subsidiyaların yuxarı həddinin və tariflərin müəyyənləşdirilməsini önə çəkir.

Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin ÜTT-yə qəbulu üzrə katibliyinin araşdırmalarına görə, xarici iqtisadi münasibətlər sahəsində təhlillər göstərir ki, investorlar əsasən investtisiya mühiti daha əlverişli olan və investisiya siyasəti proqnozlaşdırıla bilən ölkələri axtarırlar. ÜTT-yə üzvlük isə xarici investisiyaların cəlb edilməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir, çünki "şəffaflıq" ÜTT-nin əsas prinsiplərindən biridir. Bununla yanaşı, xarici sahibkar ÜTT-nin digər əsas prinsipi olan – "milli rejim"in (xarici və yerli sahibkarlar arasında ayrı-seçkiliyə yol verilməməsi) tətbiq olunduğu ölkələrə ehtiyat etmədən investisiya yönəldir. Bu baxımdan, Azərbaycanın ÜTT-yə qəbulu ilə əlaqədar danışıqlar zamanı tutacağı mövqe 4 əsas istiqamətdə:

Malların ticarəti;

Xidmətlərin ticarəti;

Əqli mülkiyyət;

ÜTT-nin qaydalarından kənara çıxan məsələləri üzrə müəyyən edilmişdir.

ÜTT-nin fəaliyyətinin geniş olmasını əhatə edən hüquqi normativ aktlar,sazişlər daxil edilmişdir. Bunlar sənaye, kənd təsərrüfatı, toxuculuq, emal, bank və UKT xidmətlərini, hökumət satış mallarının, qida məhsullarının təhlükəsizliyinə sanitar nəzarəti, intellektual mülkiyyəti və bir çox başqa sahələri əhatə edir.

Qeyd etmək lazımdır ki, respublikamızın iqtisadi maraqlarına uyğun olmayan öhdəliklərin qəbul olunmasının qarşısını almaq məqsədilə, bir sıra tədbirlərin sırasında biznes dairələri ilə daimi məsləhətləşmələrin aparılması və bununla da üzvolma prosesində şəffaflığın təmin edilməsi durmalıdır.

Azərbaycan Respublikasının ÜTT-yə üzv olmaqda məqsədi Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək, üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq, ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirməkdən ibarətdir. Bundan başqa, respublikada aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar və eləcə də ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq, daha çox həcmdə birbaşa xarici investisiyaları cəlb etməkdən ibarətdir.

Hal-hazırda ÜTT–də aparılan danışıqların hər bir yeni raundu beynəlxalq ticarətin daha da liberallaşdırılması ilə nəticələnir. Belə bir şəraitdə hər bir yeni üzv olmuş ölkə daha sərt şərtlərlə təşkilata qəbul edilir. MDB ölkələrindən Qırğızıstan, Gürcüstan, Moldova və Ermənistan artıq ÜTT–nin üzvüdürlər. Bu ölkələrin üzvolma şərtləri inkişaf etməkdə olan ölkələrin deyil, daha çox inkişaf etmiş ölkələrin şərtlərinə uyğundur.

Digər MDB ölkələri isə üzvolma danışıqlarının müxtəlif mərhələlərindədirlər. Rusiya və Ukrayna danışıqları başa çatdıraraq yekun protokolların imzalanması mərhələsinə çatmışlar. Eyni zamanda üzv olduqdan sonra bu ölkələr də müəyyən öhdəliklərin götürülməsi məqsədi ilə Azərbaycanla danışıqların başlanmasına təşəbbüs göstərə bilərlər.

Azərbaycan Respublikasının ÜTT–yə üzvolma niyyətini əks etdirən müraciət 23 iyun 1997-ci il tarixində ÜTT Katibliyinə təqdim edilmişdır.

Ölkə qanunvericiliyinin ÜTT tələblərinə uyğunlaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2 avqust 2006-cı il tarixli Sərəncam imzalanmışdır. Bu sərəncamla nəzərdə tutulmuş normativ hüquqi sənəddən 17-si artıq qəbul edilmiş və qüvvəyə minmişdir. Digər sənədlərlə bağlı isə müvafiq işlər aparılır.

Qeyd etmək lazımdır ki, son dövrlər sürətlə qloballaşan dünya iqtisadiyyatında aparıcı rolu və fəaliyyəti ilə seçilən ÜTT-nin əhatə coğrafiyasının genişlənməsi məsələləri müxtəlif səviyyəli elmi-praktiki müzakirələrdə nəinki tədqiqatçıları, hətta praktikləri belə cəlb edən və düşündürən mövzulardan ən aktualı hesab olunur. ÜTT-yə üzvlük beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması istiqamətində əhəmiyyətli işlər görərək azad rəqabət üçün əlverişli şərait yaradılmasına, ticarətdə kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılmasına, ticarət siyasətinin aydın və şəffaf olmasına şərait yaradır. ÜTT bazarlara sərbəst çıxış prinsipi ilə münbit milli rejimlərin tətbiqi bazasında, həmçinin idxala tətbiq olunan kəmiyyət məhdudiyyətlərinin aradan qaldırılması yolu ilə ticarət dövriyyəsinin səmərəli təşkilinə, eləcə də üzv ölkələrin xarici ticarət rejimində aşkarlığın və şəffaflığın təminatına xidmət edir.

Hazırda Azərbaycanda idxala gömrük rüsumları 0-15 faiz, onların ortalama dərəcəsi isə 7-8 faiz ətrafında dəyişir, ölkəmiz BVF qarşısında ortalama faiz dərəcəsinin 5-6 faiz diapozonuna uyğunlaşdırlması barəsində öhdəliyə də malikdir. Təcrübəsinə yaxşı bələd olduğumuz ölkələrin timsalından uyğun nümunələr göstərmək istərdim. Diqqət yetirin: ÜTT –yə qəbul ərəfəsində Qırğızıstanda idxala gömrük rüsumları 0-50 faiz arasında dəyişirdi, ortalama dərəcə isə 10,74 faizə bərabər idi. Qəbul zamanı ölkə 3 il ərzində rüsumların yuxarı həddini 50 faiz səviyyəsində saxlamaq güzəştini əldə etmiş və 2000-ci ildən başlayaraq endirilən rüsumlar üzrə ortalama faiz dərəcəsi 2003-cü ildə 5,4 faiz təşkil edib. Türkiyədə isə baxmayaraq ki, ölkə GATT–nin təsisçisi olaraq ÜTT-nin qurucularından sayılır, indi də bəzi kənd təsərrüfatı məhsulları üzrə mövsümi fəaliyyət göstərən idxal rüsumlarının yüksək dərəcəsi hətta 200 faizə çatır. Çində isə qəbul ərəfəsində gömrük rüsumları 0-65 faiz dəyişirdi və qəbul zamanı həmin səviyyəni saxlamaq üçün bu ölkəyə 2010-cu ilədək güzəşt müddəti verildi. Ümumiyyətlə, məlumat üçün qeyd edək ki, ÜTT qəbul zamanı tarif güzəştlərinə görə keçid dövrü üçün Latviyaya 9 il, Qırğızıstana 7 il, Gürcüstana 5 il və Moldovaya 4 il vaxt ayrılmışdır. Bu müddət bəzi ölkələr üzrə (Çin, Hindistan və s.)15-25 ili əhatə edir.

Qeyd etmək lazımdır ki, hər il Avropa Birliyi ölkələri kənd təsərrüfatı məhsullarının ixracına orta hesabla 350 milyard dollarlıq birbaşa subsidiya ayırır və bununla yanaşı həmin məhsulların emalı müəssisələri də dolayı subsidiyalardan bəhrələnirlər. Konkret olaraq orta statis-

tik İsveç fermeri ildə 33 min dollar, ABŞ və Yaponiya fermerləri isə 20 min dollar birbaşa subsidiya alırlar. Belə olan halda aşağı gömrük rüsumları və subsudiyalarla aqrar bazarı qorumaq çətinliyi ehtimalı vardır. 2012-ci ilin statistik yekunları üzrə ÜDM –in strukturunda kənd təsərrüfatı bölməsi 5,2 faiz təşkil edərək, qeyri-neft sektorları arasında aparıcı mövqe tutur. Qeyri-neft sektorunun inkişafını hökumət siyasətinin prioritetlərindən birinə çevirdiyimiz halda, aqrar bölməni bu təhlükə ilə üz-üzə qoymaq narahatçılıq doğurur. Düzdür, biz ÜTT-dən kənd təsərrüfatına subsidiyalar ayırmaq üçün güzəşt almaq hüququna malikik və bu faiz yuxarı kənd təsərrüfatının ümumi istehsal həcminin 10 faizə qədəri ola bilər (hazırda İnkişaf Etməkdə olan Ölkələrdə (İEOÖ) belə subsidiyaların yuxarı həddi kimi 10 faiz, İnkişaf Etmiş Ölkələrdə (İEO) isə 5 faiz müəyyənləşdirilib).

Azərbaycanda kənd təsərrüfatının əsas məşğuliyyət sahəsi olduğunu və bu sektorda çalışanların əksəriyyətinin kommersiya məqsədilə deyil, şəxsi ehtiyaclarını ödəmək üçün təsərrüfat fəaliyyəti qurması həm bu təhlükənin əhatə dairəsinin geniş və həm də təsirli olacağını deməyə əsas verir.Belə olan halda ÜTT-yə qəbul zamanı Azərbaycanın ən çox problemlərlə üzləşən sahəsinin kənd təsərrüfatı bölməsi olacağı məlumdur. Ümumiyyətlə isə bu istiqamətdə uyğunlaşma tənəzzülünə məruz qalacaq sahə yalnız aqrar bölmə deyildir. İllərlə xarici kapitaldan ehtiyatlanaraq tənzimlənən maliyyə, bank, sığorta və digər xidmət sektorunun da vəziyyəti hökumətin diqqətindən yayınmamalıdır.İstənilən halda, problemlərimizin sənayenin emal sahəsini də əhatə edəcəyi şübhəsizdir, çünki burada xalis rəqabət qanunları fəaliyyət göstərir. Nəzərə alsaq ki, son zamanlar enerjidaşıyıcılarının qiymətinin bahalaşmasının tendensiyaya çevrilməsi aqrar və sənaye sahələrinin nəinki keyfiyyət, həmçinin də qiymət rəqabətində imkanlarını məhdudlaşdıra bilər. Qeyd etmək lazımdır ki, respublikamızda hələlik ÜTT-nin neft sektoru ilə bağlı xüsusi şərtləri yoxdur. Məsələ ondadır ki, beynəlxalq ticarətdə "ÜTT ilə OPEC (Neft İstehsal Edən Ölkələrin Təşkilatı) arasında centlmen razılaşma" kimi təqdim edilən razılığa görə, hələlik neft məsələləri qlobal ticarət qaydalarını tənzimləyən ölkənin diqqətində deyil. Bu baxımdan faktiki olaraq , Azərbaycanın üzvlüyü məsələsində neft sektoru ilə bağlı şərtlər müzakirə edilmir. Amma ÜTT-nin təşkil etdiyi son müzakirələr göstərir ki, bu məsələnin yaxın illərdə aktuallaşması ehtimalı böyükdür. Bu, xüsusən Səudiyyə Ərəbistanı ÜTT-yə üzv olandan sonra daha da aktuallaşmış-

dır. Belə ki, Səudiyyə Ərəbistanı dünynın ən böyük neft istehsalçısıdır və həmin ölkənin iqtisadiyyatı birbaşa neftdən asılıdır. Rusiyanın üzvlüyü "neft məsələsinin" ÜTT gündəliyinə gətiriləcəyindən xəbər verir. Belə ki, yaxın illərdə ÜTT-nin neft sektoru ilə bağlı xüsusi şərtlərinin olacağı ehtimalı vardır.

Azərbaycanın ÜTT-yə qəbulu ərəfəsində milli iqtisadiyyatın struktur və perspektiv təhlili, sahələrin və məhsul növlərinin rəqabətədözümlülük indekslərinin hazırlanması üzrə sanballı elmi tədqiqatların olmaması danışıqlar və sorğuların cavablandırılması zamanı qərarların qəbulunda elmi cəhətdən əsaslandırılmış arqumentlərin azlığına şərait yaradır və eyni zamanda hökumət məmurlarının manevr imkanlarını məhdudlaşdırır. Problemin təsirini yumşaltmaq üçün bu prosesə münasibətdə parlamentdən başlayaraq hökumətin bütün strukturlarının çevik işləməsini təmin etmək vacib və əhəmiyyətlidir. Proses zamanı biznes strukturları və elmi-tədqiqat müəssisələri, o sıradan da mütəxəssislərlə məsləhətləşmələr zəruridir. Aparılan tədqiqatların predmetinə ölkədə beynəlxalq əmək bölgüsü, ixracat potensialı və idxalını əvəz edəbilmə imkanları baxımından məhsulların mütləq üstünlüyünün təyini daxil ola bilər.Bu zaman hədəfdə sahələr (məhsullar) üzrə ÜTT-yə qəbul ərəfəsində və perspektivdə rəqabət qabiliyyətinin zəif və güclü cəhətlərinin aşkara çıxarılması və rəqabətə- dözümlülük indeksinin müəyyənləşdirilməsi durur. Əldə edilmiş nəticə isə ÜTT–yə qəbuldan uduşları çoxaltmaq, itkiləri azaltmaq və ədalətli ticarəti təmin etməyə yardımçı olar.

Qeyd etmək lazımdır ki, ÜTT-yə qəbulun uduşların artırılması daha çox milli iqtisadiyyatın strukturundan və inkişaf səviyyəsindən asılıdır.Ona görə də ilk növbədə iqtisadiyyatımız bu prosesə hazır olmalı, diplomatiyanın imkanlarını səfərbər edilməli və məsələyə peşəkarcasına yanaşma ortalığa qoyulmalıdır. Unutmayaq ki, ÜTT-yə qəbul məqsəd deyil, bir vasitədir. Onun vasitəsilə biz dünya iqtisadiyyatının inteqrasiya imkanlarını artıra, xarici ticarətimizi daha da liberallaşdıra, o sıradan texniki və kəmiyyət baryerlərini aradan qaldıra, gömrük nəzarət prosedurаlarını sadələşdirə, şəffaflığı artıra, mütərəqqi texnika və texnologiyaların, nou-hauların, patentlərin, bir sözlə, qabaqcıl innovasiyaların ölkəmizə cəlbini sürətləndirə, qanunlarımızı beynəlxalq standartlara uyğunlaşdıra, müəllif hüquqlarımızı qoruya bilərik. Digər tərəfdən də ümid var ki, ÜTT-yə qəbuldan sonra dünyanın aparıcı bankları və sığorta şirkətləri üzv-dövlətin iqtisadiyyatına

sərmayə qoyacaq və nəhayət ki, normal maliyyə sektoru formalaşacaq, böyük pullar və uzunmüddətli kreditlər milli iqtisadiyyatların qeyri-neft sektorunun kapital problemlərini həll edəcək.

Ümumdünya Ticarət Təşkilatına üzv olmanın yaratdığı üstünlüklər əsasən 3 istiqamətdə özünü göstərir:

ÜTT üzvü olan ölkələrdə qiymət mexanizminin ÜTT şərtlərinə və eləcə də beynəlxalq standartlara uyğunlaşması;

Başqa ölkəlrin bazarlarına girişin əldə edilməsi;

Ticarət mübahisələrinə dair ÜTT üzvlüyünün təklif etdiyi həll mexanizmlərindən istifadə edə bilmək imkanı.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının araşdırmalarına görə, "ÜTT –yə üzvlük sahibkarlığın inkişafının qanunvericilik bazasında təkmilləşdirmə aparılacaq və Azərbaycanın iqtisadi sahədə qəbul olunmuş qanunvericilik aktları ÜTT-nin tələblərinə uyğunlaşdırılacaq. Bu məsələlərin təmin olunması nəticəsində bu sferada mütərəqqi ölkələrin standartlarının tətbiqi ilə ölkədə iqtisadi islahatlar sürətləndiriləcək. Burada əsas məsələlərdən biri qanunvericilik aktlarının şəffaflığı və prosedurların sadələşdirilməsidir. Yəni sahibkarın, eləcə də məmurun hüquq və vəzifələri, o cümlədən müəyyən məsələlərin həlli üçün prosedur qaydalarının aydın, dəqiq göstərilməsi neqativ halları aradan qaldırır və dolayı yolla məhsulun maya dəyərinə daxil olan gözəgörünməyən xərclərin aradan qaldırılmasına səbəb olur ki, bu da son nəticədə məhsulun maya dəyərinin aşağı düşməsi ilə müşahidə olunur. Burada həm də istehlakçı udur. Ucuz qiymətlə yüksəkkeyfiyyətli məhsul istehsal edən sahibkarlar da bundan xeyir qazanırlar. Azərbaycanın iş adamlarının da arzusu məhz bu şərtlərin təmin olunmasıdır. Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatının tələblərinə uyğun bilik və təcrübə tələb edilən və ölkəmizin modernləşməsi üçün vacib hesab olunan yeni qiymətli kağızlar, lizinq , sığorta, beynəlxalq daşımalar, beynəlxalq turzim, neft təchizatı sənayesi, innovasiya yönümlü layihələrin həyata keçirilməsi üçün kadr qıtlığı mövcuddur.

Belə ki, regionlarda sahibkarlıq sübyektləri üçün kadr qıtlığı özünü qabarıq göstərir. Hazırkı şəraitdə bazar iqtisadiyyatının tələbləri bugünkü fermerdən köhnə qaydalarından əl çəkməyi tələb edir. Azərbaycan fermeri hazırda istehsal etdiyi məhsulu sata bilmir. Bunun nəticəsidir ki, hazırda sahibkarlıq subyektlərinin 70% -i Bakı şəhərində cəmlənmişdir. Müasir texnika və texnologiya ilə işləməyi bacaran mü-

təxəssislər azlıq təşkil edir. Başqa tərəfdən, Azərbaycanda peşə təhsilinin səviyyəsi yüksək deyildır. Normal işləməyən müəssisələr isə bazarda rəqabətdə uduzur. ÜTT-yə üzv olandan sonra sahibkarlar müasir tələblərə cavab verən kadrların hazırlanmasında maraqlı olacaq. Həmin ölkələrdən beynəlxalq standartlara uyğun texnika və avadanlıqlar gətirilir.Ötən ilin birinci rübündə Azərbaycana daxil olan idxal məhsullarının 65,7% -i maşın və elektrotexnika avadanlıqlarıdır. Amma ÜTT-yə üzv olsaq, beynəlxalq standartlara daha uyğun texnika ölkəmizə gətirilmiş olar. Məlumdur ki, hal–hazırda bir çox təsərrüfat subyektləri sənayenin mütərəqqi texnologiyalar, hesabına ehtiyaclarını xüsusi vəsaitlərlə qarşılaya bilmirlər.

Belə bir faktı göstərmək lazımdır ki, GATT-nin yarandığı 1947-ci ildə dünya ölkələrində sənaye üzrə orta tarif dərəcəsi 40% təşkil edirdisə, ÜTT–nin mövcud olduğu 2014-cü ildə müvafiq göstərici 5% təşkil edib. Üstəlik quruma üzv olmaq, ölkəmizə keyfiyyətli məhsul gətirilməsi deməkdir.Hal-hazırda daxili bazarda kifayət qədər çoxlu keyfiyyətsiz məhsulların olması faktdır. Amma ÜTT üzvlüyündən sonra, qurumun üzvü kimi idxalatçılardan keyfiyyətli məhsul tələb etmək mümkün olacaq.

Qeyd etmək lazımdır ki, ÜTT şərtlərində regional ticarət razılaşmalarına üstünlük verilir. Regional ticarət razılaşmalarına Avropa Birliyi , Avropa Azad Ticarət Assosiasiyası (EFTA), Şimali Amerika Azad Ticarət Razılaşması (NAFTA), Cənubi Ümumi Bazar (MERCOSUR), Cənubi-Şərqi Asiya Millətlərinin Assosiasiyası (ASEAN), Asiya Azad Ticarət Bölgəsi(AFTA) və Şərqi və Cənubi Afrika ölkələrinin Ümumi Bazarı (COMESA), İqtisadi Əməkdaşlıq Təşkilatını (ECO) aid etmək olar.

ÜTT-yə üzvlük Azərbaycana, ən azı regional sərhədləri keçmək üstünlüyü verəcək. Bununla yanaşı, MDB çərçivəsində reallaşdırılmasına çalışılan regional ticarət razılaşmaları, demək olar, zəif işləyir. Buna görə də ölkəmizin ciddi regional ticarət razılaşmalarına qoşulması ciddi heç bir üstünlük vəd etmir. Regional ticarət razılaşmalarına üstünlük verən ölkələr də ÜTT-nin üzvüdürlər. Avropa Birliyi ölkələri ÜTT-nin üzvüdür və həmin dövlətlər bu təşkilatda vahid qurum şəklində təmsil olunurlar. Bu baxımdan Azərbaycanın ÜTT-yə qoşulması onun regional ticarət razılaşmalarındakı yerinə və roluna heç bir mənfi təsir göstərməyəcək. Kiçik daxili bazara malik, daima genişlənməkdə olan dünya bazarlarına böyük ehtiyac duyan, buna görə də dünya iqti-

sadi sistemində öz mövqeyini möhkəmlətmək kursu götürən Azərbaycan üçün ÜTT-yə qəbul mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu addım ölkə iqtisadiyyatına müsbət təsir göstərməklə yanaşı, həm də müəyyən mənfi təsirlər doğurmadan mümkün deyildir.

Belə bir vacib məsələni vurğulamaq lazımdır ki, hal-hazırda ÜTT sazişlərinin əhatə dairəsinə düşən bütün sahələr üzrə ölkənin perspektiv maraqlarının müəyyənləşdirilməsi və bunların danışıqlarda nəzərə alınması üçün müvafiq siyasəti işləyib hazırlayan bütün dövlət və hökumət qurumlarında bu məsələyə xüsusi diqqət yetirilir.

ÜTT-yə qəbulla bağlı respublikada sənaye istehsalının inkişafının təmin edilməsi sahəsində qarşıda mühüm vəzifələr durur. Belə ki, respublika iqtisadiyyatının perspektiv inkişafı və beynəlxalq əmək bölgüsü nəzərə alınmaqla istehsal sahələrinin inkişafına münasibətdə sektoral yanaşmanın gücləndirilməsi sahəsində xüsusi addımlar atılır. Belə ki, mümkün qədər əlverişli şərtlərin təmin edilməsi istiqamətində, o, cümlədən ölkədə qeyri-neft sektorunun inkişafı məsələsinə daha çox önəm verilir. Qeyri-neft sektorunda istehsalın qurulması məqsədilə ölkəyə gətirilən avadanlıq və texnologiyalara görə yalnız xarici investorlara deyil, həm də yerli iş adamlarına münasibətdə tətbiq edilməsi, xüsusilə də bunların gömrük rüsumlarından və ƏDV–dən azad edilməsi istiqamətində işlər həyata keçirilir.

## 4. Azərbaycanin xarici ticarət strategiyasi və onun həyata keçirilməsi

Dünya iqtisadiyyatında istehsal edilmiş mal və xidmətlərin əsas hissəsi ya xarici ticarət vasitəsi ilə bazara çıxarılır, ya da həmin isthesalat sferalarında xarici komponentlərdən istifadə olunur.

Belə ki, son 50 il ərzində beynəlxalq ticarətdə beynəlxalq mal dövriyyəsi 30 dəfə, istehsal isə cəmi 12 dəfə artmışdır. Bundan başqa, son 10 il ərzində (2001-2011) inkişaf etmiş ölkələrdə xarici investtisiyaların həcmi 10 dəfə artaraq 320 mlrd dollara çatmışdır.

Azərbaycan Respublikasının potensial imkanları baxımından «kiçik ölkə» olduğunu, yəni nəinki dünya bazarında, hətta regional bazaarlarda belə mövcud situasiyaya təsir etmək imkanının aşağı olması, əksinə, özünün bütövlükdə iqtisadi fəaliyyətinin təşkili və inkişafında real vəziyyətə uyğunlaşma məcburiyyətində qaldığını qəbul ediriksə, onda ölkənin xarici ticarət konsepsiyasının formalaşdırılmasında gös-

tərilən cəhətləri nəzərə almaq və onu qlobal səpkidə araşdırmaq lazım gələcəkdir.Belə ki, xarici ticarət konsepsiyası inkişaf mərhələlərinə uyğun olaraq iki dövr üçün işlənib hazırlanmalıdır. Bura müasir dövr üçün xarici ticarət siyasəti konsepsiyasi və real bazar dövrünün xarici ticarət siyasəti konsepsiyası aid edilir.

Ölkənin xarici ticarət əlaqələr konsepsiyası bütövlükdə iqtisadi təhlükəsizlik konsepsiyasının tərkib elementi kimi nəzərdən keçirilməli və formalaşdırılmalıdır. Belə ki, dövlətin iqtisadi təhlükəsizlik sisteminin yaradılması və möhkəmləndirilməsi başlıca olaraq xarici ticarət əlaqələrinin təşkili və inkişafından birbaşa asılıdır.

İqtisadi fəaliyyətin təşkili və idarə edilməsində daxili və xarici amillərin dialektik vəhdətinə əsaslanmaq qaçılmaz zərurətdir. Aydındır ki, ölkənin iqtisadi təhlükəsizlik konsepsiyası tarixi-təkamül prosesində müəyyən keyfiyyət dəyişikliklərinə uğrayacaqdır. Real bazar münasibətlərinin təşəkkülü prosesinə paralel olaraq, ümummilli mənafelərin subyekt tərkibi mövqeyindən ümumidən xüsusiyə, tamdan hissəyə yönələn inkişafın labüdlüyü heç bir şübhə doğurmur.

Belə ki, iqtisadi maraqların ifrat fərdiləşməsi meylinin getdikcə dərinləşməsi sözsüz ki, ölkənin həm iqtisadi təhlükəsizlik konsepsiyasında, həm də onun ayrılmaz hissəsi olan xarici ticarət əlaqələrində də adekvat dəyişikliklərə gətirib çıxaracaqdır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkələrin qlobal kontekstdə inkişaf yollarının seçilməsi son dərəcə mühüm məsələlərdən biridir. Belə ki, milli iqtisadiyyatın xarici amillərlə sıx əlaqəliliyi və qarşılıqlı asılılığı baxımından 3 inkişaf modelini fərqləndirmək lazımdır.

1.İqtisadiyyatın ixrac yönümünün yüksəldilməsini nəzərdə tutan inkişaf modeli;

2.İdxalatı əvəz edəcək istehsalat sahələrinin təşkilinə əsaslanan inkişaf modeli;

3.İqtisadi inteqrasiya modeli.

Qeyd etmək lazımdır ki, bu modellərdən hər hansı birinin seçilməsi öz mahiyyəti etibarı ilə elə xarici ticarət əlaqələrinin konsepsiyasının formalaşdırılması deməkdir. Buna görə də, Azərbaycanın mövcud potensialı baxımından bunlardan hansının daha məqsədə müvafiq olduğunu araşdırmaq zəruridir.

Beləliklə, ixracyönümlü inkişaf müasir beynəlxalq iqtisadi münasibətlər sistemində mühüm yer tutan modellərdən biridir. Sübut etməyə ehtiyac yoxdur ki, milli iqtisadi inkişafın göstərilən müstəvi üzərin-

də həyata keçirilməsinin alternativi yoxdur. Lakin müasir reallıq baxımından Azərbaycan Respublikasının sözügedən modeli tətbiq etməsi bir sıra problemlərin həllini tələb edir.

Hal-hazırda dünya bazarında yaranmış situasiya məhsul və xidmət ixracatında tamamilə yeni amillərə və parametrlərə əsaslanmanı tələb edir. Belə ki, yeni texnika və texnologiyaların tətbiqi, yeni mallar probleminin kəskinləşməsi və rəqabət mübarizəsinin bütünlükdə qeyri-qiymət amilləri üzərinə keçirilməsi dünya standartlarına cavab verməyən məhsullar istehsal edən Azərbaycanın ixrac imkanlarını xeyli məhdudlaşdırır.

Qeyd etmək lazımdır ki, ixracyönümlü inkişaf rəqabət üstünlüklərini əldə saxlamaq, yeni üstünlüklər yaratmaq zərurətini irəli sürür. Yəni, infrastruktura, marketinq və yeni texnologiyaların əldə edilməsi məqsədi ilə fasiləsiz olaraq investisiya qoyuluşları həyata keçirilməlidir. Aydındır ki, müasir şəraitdə maliyyə – valyuta resurslarının hətta minimal tələbləri ödəmək iqtidarında olmadığı bir dövrdə göstərilən istiqamətdə iri həcmli kapital qoyuluşlarının həyata keçirilməsi respublikanın imkanları xaricindədir.

Hal-hazırkı şəraitdə belə ixracyönümlü inkişaf modelinin tətbiqi və onun rolunun həddən artıq yüksəldilməsi heç də arzu edilən nəticələrə gətirib çıxara bilməz. Əgər nəzərə alsaq ki, Azərbaycan «kiçik ölkədir», onda sözügedən modelin öz mahiyyəti etibarı ilə xarici bazaarlardan idxal asılılığının astar üzü olması daha qabarıq şəkildə əks olunur. Belə ki, milli iqtisadiyyatın birtərəfli qaydada ixrac yönümünün gücləndirilməsi xarici bazarlardan ixrac asılılığı yaradır və son nəticədə daxili sosial-iqtisadi situasiyaya güclü təsir göstərən amillərdən birinə çevrilir. Aydındır ki, ənənəvi tərəf-müqabillərdə iqtisadi situasiyanın pisləşməsi zəncirvari reaksiya doğurmaqla ölkədə staqfliyasiya prosesini sürətləndirərək böhranlı vəziyyət yaradır. Buna görə də, sözügedən ölkələrə, yəni ixracatın əsas hissəsinin yönəldiyi xarici bazarlara bir istiqamətlərdə əməli yardım edilməsi problemi meydana çıxır ki, bu da qlobal qarşılıqlı asılılığın yeni keyfiyyət aspektləri kimi səciyyələnə bilər.

Ölkənin xarici ticarət əlaqələri konsepsiyasının ağırlıq mərkəzi kimi idxalatı əvəz edəcək istehsalat sahələrinin təşkili modeli də bir sıra nöqsan cəhətlərlə xarakterizə olunur.

Əlbəttə, ölkənin iqtisadi təhlükəsizliyi baxımından bir sıra mal və mal qrupları üzrə (məsələn, ərzaq məhsulları) idxal asılılığına son qo-

yulması mühüm problemlərdən biridir. Lakin bəzi iqtisadçı alimlərin iddia etdikləri kimi, dövlət mütləq iqtisadi suverenliyinə nail olmaq və buna görə də, bütün məhsul və xidmətlər üzrə idxalatı əvəz edəcək istehsalat sahələrini formalaşdırmaq həm mövcud potensial, həm də sosial-iqtisadi səmərəlilik baxımından tamamilə qeyri-mümkündür və iqtisadi cəhətdən məhşurlaşma təsiri bağışlayır. Əgər nəzərə alsaq ki, hətta bəzi mal və mal qrupları üzrə idxalatı əvəz edəcək istehsalat sahələrinin təşkili iri həcmli investisiya qoyuluşları tələb edir, onda göstərilən modelin tətbiqininin qeyri-mümkünlüyünə şübhə yeri qalmır. Digər tərəfdən, ölkənin müxtəlif istehsal amilləri ilə təchizi dərəcələri arasındakı fərq öz-özlüyündə xarici ticarət əlaqələrinin strukturunu (ən azı keçid dövrü ərzində) müəyyənləşdirmək imkanı verir ki, bunun da heç bir maddi əsas olmadan dəyişdirilməsi xarici ticarət əlaqələri sferasında böyük itkilərlə nəticələnə bilər.

Şübhə yoxdur ki, bazar iqtisadiyyatının müasir dövrü ərzində Azərbaycanın xarici ticarət konsepsiyasının əsas metodoloji prinsipi müqayisəli üstünlüklər olmalıdır. Buna görə də, bütün məhsul növləri və xidmətlər üzrə idxalatı əvəz edəcək istehsalat sferalarının təşkili heç vaxt gözlənilən səmərəni verməyəcəkdir.

Qeyd etmək lazımdır ki, ölkənin xarici ticarət konsepsiyasının əsas istinad bazası regional iqtisadi inteqrasiya çərçivəsi daxilində yaradılan azad ticarət blokları ola bilərdi. Avropa Azad Ticarət Assosiasiyası tipli ticarət zonalarının təşkili həm keçid dövrü ərzində, həm də perspektiv planda daxili və xarici ticarət fəaliyyətinin optimal uyğunluğuna əsaslanan xarici ticarət əlaqələri konsepsiyasını formalaşdırmağa və tətbiq etməyə imkan verərdi. Elə buradaca qeyd etmək lazımdır ki, söhbət heç də sözün həqiqi mənasında regional iqtisadi inteqrasiya blokunun yaradılmasından getmir. Dünya təcrübəsindən məlumdur ki, regional iqtisadi inteqrasiyanın 5 ardıcıl inkişaf mərhələləri vardır:

Azad ticarət zonası: üzv ölkələr arasında məhsul və xidmətlər üzrə ticarət sferasında bütün məhdudiyyətlər ləğv edilir;

Gömrük ittifaqı: göstərilənlərlə yanaşı, üçüncü ölkələrə qarşı vahid gömrük tarifi tətbiq edilir;

Ümumbazar: nəinki məhsul və xidmətlər, eləcə də istehsal amillərinin blokdaxili hərəkəti tam sərbəstləşdirilərək ümumbazar məkanı formalaşdırılır.

İqtisadi ittifaq: iqtisadi qanunvericilik və milli iqtisadi siyasət identifikasiya olunur və valyuta inteqrasiyası başa çatdırılır;

Tam iqtisadi inteqrasiya: Federativ yaxud konfederativ prinsiplər əsasında yeni dövlət yaradılır.

Qeyd etmək lazımdır ki, Azərbaycan gənc bir dövlət olduğuna görə regional iqtisadi inteqrasiyaya funksional qoşulması qeyri-mümkündür. Məhz buna görə də, azad ticarət bloklarına daxil olmaq, yəni inteqrasiyanın birinci mərhələsinin tam səlahiyyətli iştirakçısı kimi fəaliyyət göstərmək birbaşa müasir gerçəklikdən doğan nəticədir.

Hal-hazırda Azərbaycan Avroasiya məkanında yeganə ölkədir ki, eyni zamanda 4 regional qruplaşmada iştirak edir:

1.Müstəqil Dövlətlər Birliyi (MDB).

2.İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO).

3.Qara Dəniz Hövzəsi Ölkələrinin İqtisadi Əməkdaşlıq Təşkilatı.

4.Türk Dövlətlərinin İş Birliyi Şurası.

Bu bloklardan heç birində real məzmunlu inteqrasiya prosesləri getmir, bununla yanaşı istənilən istiqamətdə azad ticarət zonalarının təşkili ölkənin iqtisadi əlaqələrinin inkişafında və onun struktur təkmilləşdirilməsində mühüm rol oynaya bilərdi.

Belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanın xarici ticarət əlaqələr konsepsiyası bütövlükdə ölkənin iqtisadi təhlükəsizlik sisteminin əsas dəyişənlərindən biri olmaqla, ilk növbədə milli rəqabət üstünlüklərinin formalaşdırılması və inkişafına əsaslanmalıdır.

Ölkənin rəqabətqabiliyyətliliyi ümumi xarakter daşıyan və bir-biri ilə sıx qarşılıqlı əlaqədə olan istehsal amilləri, tələbin parametrləri, qohum və yardımçı sahələr üzrə amillərlə şərtlənir.

Milli rəqabət qabiliyyətinin yüksəldilməsi sözügedən əsas amillərlə ölkə hökumətinin siyasəti və həm milli hökuməti, həm də ayrı-ayrı bazar subyektlərinin təsir dairəsindən kənarda olan və nəzarət edilə bilməyən hadisələr arasında qarşılıqlı təsirin xarakteri və ümumiyyətlə, əlaqələndirilməsindən asılıdır.

Strateji istiqamətlərin Azərbaycanın ticarət əlaqələrində müəyyən edilməsi mühüm rol oynayır. Belə ki, ixracatın dövlət həvəsləndirilməsi sisteminin təşkilinin əhəmiyyəti get-gedə artır.

Bazar subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədi ilə əməli dövlət yardımı üzrə proqramların hazırlanması vacibdir. Bu işdə daxili bazarın milli mənafelərə uyğun şəkildə mühafizəsinin təşkili məsələsi də olduqca vacibdir.

Mühüm strateji istiqamətlərdən biri ixracat fəaliyyətidir. Bu məsələdə ölkənin ixracat potensialının formalaşdırılması və inkişaf etdi-

rilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə respublikamızda ixracatın strukturunun təkmilləşdirilməsi, əsas ağırlıq mərkəzinin hazır məhsul və xidmətlər üzərinə keçirilməsinə xüsusi diqqət yetirilir. Ölkənin ixrac potensialının müqayisəli üstünlük prinsipi əsasında birmənalı şəkildə qiymətləndirilməsi məsələsi xüsusi aktuallıq kəsb edir. Son dövrdə respublikamızda texnologiya tutumlu məhsulların ixracatının dönmədən artırılmasına xüsusi qayğı göstərilir. Bu işdə ixracyönümlü istehsalatın inkişafı və modernləşdirilməsində xarici investtisiyaların aktiv surətdə cəlb edilməsi olduqca vacibdir.

Respublikamızda idxalat sferası üzrə strateji məsələlərin həyata keçirilməsinə böyük qayğı göstərilir.Bu məqsədlə mühüm məhsul növlərinin daxili tələbatı ödəmək səviyyəsində istehsalının təşkili, idxalat strukturuna çevik yanaşmanın təmini və ölkənin xarici bazarlardan idxal asılılığının kəskin surətdə azaldılması məsələsinə xüsusi diqqət yetirilməlidir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın xarici ticarət əlaqələr konsepsiyası göstərilən istiqamətlərin üzvi vəhdətinə əsaslanmaqla formalaşdırılmalı və ölkənin həm cari, həm də perspektiv xarici ticarət strategiyası bu ümumi nəzəri səciyyə daşıyan prinsiplər bazasında həyata keçirilməlidir.

Problem inkişaf etməkdə olan ölkələrin beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi, iqtisadi tərəqqinin xarici faktorlarından ən əhəmiyyətlisi olan xarici ticarətin rolunun artırılması və onun bu ölkələrin iqtisadi inkişafına stimullaşdırıcı təsir göstərməsi baxımından aktualdır.

Müasir dünyada baş verən keyfiyyət dəyişiklikləri nəticəsində iqtisadi həyatın qeyri-müəyyənliyinin daha da artması şəraitində dünya iqtisadiyyatına qovuşmadan əldə edilən uduşun dərəcələri dəfələrlə artır və eləcə də buraxılan səhvlər üçün cərimələr də kifayət qədər ağır olur. Milli iqtisadiyyatların açıqlığının və qarşılıqlı əlaqəsinin daha da artması nəticəsində dünya iqtisadiyyatı və dünya bazarının milli təsərrüfatlar üzərində hökmranlığının güclənməsi iqtisadi strukturları zəif, mallarının rəqabət qabiliyyəti çox vaxt aşağı, işçi qüvvəsi isə kifayət qədər təcrübəli olmayan inkişaf etməkdə olan ölkələrin qlobal qarşılıqlı asılılığının güclənməsindən faydalanması ehtimalını azaldır. Belə şəraitdə dünya əhalisinin 2/3-nin yaşadığı, lakin dünya üzrə ümumdaxili məhsulun 1/5-dən azının istehsal edildiyi inkişaf etməkdə olan ölkələrin dünya təsərrüfatı əlaqələrinə struktur adaptasiyası və dünya tə-

sərrüfatının verdiyi imkanlardan istifadəsi yolunda qarşıya çıxan mühüm problemlərdən biri də bu ölkələrin xarici ticarətinin struktur modernləşdirilməsi problemidir.

Hal-hazırda ixracın strukturunun modernləşdirilməsi problemi və idxalın strukturunun modernləşdirilməsi problemləri mövcuddur.

İxrac inkişaf etməkdə olan ölkələrin, xüsusilə də onların ən zəiflərinin xarici gəlirlərinin əsas mənbəyidir və buna görə də onun strukturunun modernləşdirilməsi iqtisadi inkişaf üçün etibarlı zəmin yarada bilər. Belə ki, beynəlxalq ticarətdə mineral və kənd təsərrüfatı xammalının xüsusi çəkisi azaldıqca (1990-2010-ci illər ərzində 61%-dən 26%-ə qədər) sənaye məmulatlarının xüsusi çəkisi daim artır (müvafiq dövrdə 39%-dən 74%-ə qədər). Nəticədə inkişaf etməkdə olan ölkələr beynəlxalq əmək bölgüsündə iştirakın indikatoru rolunu oynayan ixrac kvotasını (ixracın ümumi daxili məhsulda payı) artırmaq üçün ixracın strukturunu dəyişmək və modernləşdirmək problemi ilə qarşılaşırlar. 2000-ci illərin əvvəllərindən bəri ixracın strukturunun sənaye məhsulları hesabına zənginləşdirilməsi inkişaf etməkdə olan ölkələrin 4/5-də həyata keçirilib, inkişaf etməkdə olan ölkələrin ümumi ixrac kvotası isə üç dəfədən çox artıb. Lakin bu, heç də inkişaf etməkdə olan dünyanın hər yerində ixrac kvotasının sənaye məhsulları hesabına artması demək deyil. Bu göstərici göstərilən müddətdə inkişaf etməkdə olan ölkələrin 1/4-də aşağı düşmüşdür. Bəzi ölkələrdə isə onun yüksəlişi xammal ixracının artırılması hesabına əldə edilmişdir. Bu halda ixrac kvotasının artımı ölkənin beynəlxalq əmək bölgüsünə qoşulması səviyyəsinin yüksəlməsini deyil, təbii resursların ölkədən xaricə axınını göstərir. Məlumdur ki, xammalın ixracı iqtisadi inkişafa o zaman stimullaşıdırıcı təsir göstərir ki, bundan əldə edilən vəsaitlər yüksək texnoloji istehsala yönəldilsin və bu, xammal sektorunun özünə məhvedici təsir göstərməsin.

Bəzi hallarda inkişaf etməkdə olan ölkələrin ixrac kvotasının artımı ixracın genişləndirilməsini deyil, ümumi daxili məhsulun azalmasını göstərir. Bu, əsasən, keçid iqtisadiyyatlı ölkələrdə müşahidə olunur və təsərrüfat əlaqələrinin qırılması nəticəsində iqtisadi tənəzzülün baş verməsindən irəli gəlir.

İdxala gəlincə isə göstərmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrin idxalında ərzaq və sadə sənaye məhsulları (hazır məhsullar) böyük yer tutur. Ərzaq məhsullarının xüsusi çəkisinin yüksək olması bu ölkələrin bir çoxunda hələ də kəskin ərzaq problemlərinin qalması,

sadə hazır məhsulların xüsusi çəkisinin yüksək olması isə onların beynəlxalq əmək bölgüsündə iştirakının zəifliyi ilə əlaqədardır. Bu ölkələr daxili tələbatlarını ödəmək üçün sənaye məhsullarının əksəriyyətini idxal etmək məcburiyyəti qarşısındadırlar. Çünki onların milli sənayesi yeni yaranır və uzunmüddətli inkişaf yolu keçməmişdir. Ona görə də onların daxili bazarın tələbatını ödəmək üçün hərtərfli istehsal kompleksləri yoxdur. Bununla yanaşı, qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələr özlərinin istehsal sahələrini yaratmaq və inkişaf etdirmək üçün yüksək texnoloji və kapital tutumlu məhsulların idxalını genişləndirməlidirlər, lakin onlar bu sahədə müəyyən çətinliklərlə qarşılaşırlar. Bu, onunla əlaqədardır ki, həmin məhsullar mövcud istehsal tsiklinə daxil ola bilmirlər, çox zaman isə ölkələrin onları almağa imkanları yoxdur.

İnkişaf etməkdə olan ölkələrin ixrac və idxalının strukturlarının modernləşdirilməsi arasındakı qarşılıqlı asılılığı izah etmək üçün göstərmək lazımdır ki, ixracın strukturunun modernləşdirilməsi üçün sənayeləşmənin həyata keçirilməsini idxalın strukturunun modernləşdirilməsini, idxalın strukturunun modernləşdirilməsi isə öz növbəsində sənayeləşmənin həyata keçirilməsini və ixracın strukturunun müasirləşdirilməsini tələb edir.

İnkişaf etməkdə olan ölkələrin xarici ticarətində aralıq sənaye məhsulları (detallar, ehtiyat hissələri və s.) da az yer tutur. Lakin beynəlxalq əmək bölgüsünün dərinləşməsi, elmi-texniki tərəqqinin sürətlənməsi nəticəsində dünya ticarətində aralıq sənaye məhsullarının payının getdikcə artması göstərir ki, daxili bazarın həcmi səmərəli ixtisaslaşmış istehsal yaratmaq üçün kifayət etmir. Ona görə də xarici ticarətin strukturunu modernləşdirmək üçün ixrac və idxalın ümumi həcmində hazır sənaye məhsulları ilə yanaşı, bu qrup məhsulların da xüsusi çəkisi artırılmalıdır. Bu isə ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsini və istehsalın diversifikasiyasını tələb edir.

Xarici ticarətin strukturunun modernləşdirilməsi gedişində elmtutumlu məhsullarla, xüsusilə də maşınqayırma, elektronika və elektrotexnika məhsulları ilə ticarətin genişlənməsi xidmət mübadiləsini, xidmət ixracı və idxalının artması da öz növbəsində inkişaf etməkdə olan ölkələrin istehsal təyinatlı məhsullarla ticarətini stimullaşdırır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, düzgün seçilmiş iqtisadi kurs zamanı xarici ticarət iqtisadi inkişafın hərəkətverici qüv-

vəsinə çevrilir və nəticədə özü də inkişaf edərək, strukturca daim yeniləşir. Qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələr ucuz işçi qüvvəsi, zəngin təbii ehtiyatlara malik olduğundan, yüksəkixtisaslı kadr potensialı və investisiya resurslarının çatışmazlığından onların istehsalı və ixracı əsasən aqrar-xammal istiqamətlidir. İnkişaf etmiş sənaye ölkələrində isə kapital və yüksəkixtisaslı işçi qüvvəsi ehtiyatlarının artıqlığından kapital və elmtutumlu məhsulların istehsalı və ixracı üzrə isxtisaslaşmaq daha sərfəlidir. Belə ki, ölkələrin beynəlxalq əmək bölgüsündə bu şəkildə iştirakı, yəni inkişaf etməkdə olan ölkələrin inkişaf etmiş sənaye ölkələrinin aqrar-xammal əlavəsi rolunu oynaması heç də mütləq və dönməz bir gerçəklik deyildir.

Bunu «yeni sənaye ölkələri»nin (YSÖ-nin) təcrübəsi də aydın göstərir. Hələ yaxın keçmişdə bu ölkələr inkişaf etməkdə olan ölkələrə xas olan iqtisadiyyata malik idilər, yəni iqtisadiyyatın strukturunda kənd təsərrüfatı və hasilat sənayesi aparıcı yer tuturdu. Lakin onlar dünyanın inkişaf etmiş sənaye mərkəzlərinin iqtisadi, elmi-texniki təcrübəsini mənimsəyib, iqtisadiyyatın əsas sahələrinin modernləşdirilməsi yolu ilə gedərək inkişafda müəyyən sıçrayışa nail oldular: bir çox göstəricilərə görə inkişaf etməkdə olan dünyanın qalan hissəsini əhəmiyyətli dərəcədə geridə qoyaraq, inkişaf etmiş ölkələrə yaxınlaşdılar və bəzi sahələrdə hətta onları da ötdülər. Onların ümumi daxili məhsulu sürətlə artmış, istehsal əsasən ixraca istiqamətlənmiş, xarici ticarətin strukturunda emaledici sənaye məhsullarının xüsusi çəkisi yüksəlmişdir. Bu ölkələrdə emaledici sənaye məhsullarının ümumi həcminin 80%-ə qədəri ixrac olunur və ixracın da böyük hissəsi dünyanın inkişaf etmiş ölkələrinin payına düşür. Göstərmək lazımdır ki, inkişaf etmiş sənaye ölkələrinin əldə etdiyi nailiyyətləri mənimsəyərək inkişaf etmək yolu tutmuş YSÖ-lər hasilat sənayesi məhsullarının ixracı qarşılığında onlardan milli istehsalı dirçəltmək üçün yeni texnologiyaların idxalına əlverişli şərait yaratmış və hazırkı sərt rəqabət şəraitində yüksəkrəqabətli istehsal yarada bilmişlər. Nəticədə primitiv təsərrüfat formaları və inkişaf etmiş dövlətlərə böyük borclarının hələ də qalmasına baxmayaraq, bu ölkələr elmi-texniki məhsullar bazarında, maşın və avadanlıqlar bazarında dünyanın aparıcı ölkələri ilə rəqabət aparırlar. Bununla yanaşı, onların xarici ticarət dövriyyəsində xammal, ərzaq və ənənəvi məhsullar yenə də əhəmiyyətli yer tutur.

İnkişaf etməkdə olan ölkələrin əhalisinin yarıya qədərinin yaşadığı qapalı iqtisadiyyata malik ölkələrdə xarici ticarətin sitrukturunun

modernləşdirilməsindən öndə bu ölkələrin beynəlxalq təsərrüfat əlaqələrinə qoşulması, beynəlxalq əmək bölgüsünə inteqrasiyası, onun üstünlüklərindən faydalanması problemi dayanır. Ölkələr bundan başqa daha bir problemlə – xarici ticarətin diversifikasiyası, dünya bazarında mövqelərinin pisləşməsinin qarşısını almaq üçün xammaldan fərqli ixrac məhsullarının axtarılması və sadə sənaye məhsullarının ixracı problemi ilə qarşılaşırlar. Belə ki, elmi-texniki tərəqqinin təsiri ilə beynəlxalq ticarətdə xammalın rolunun, xüsusi çəkisinin, eləcə də qiymətinin getdikcə azalmağa meyilli olması və inkişaf etmiş ölkələrin xammal ixracını artırması inkişaf etməkdə olan ölkələrin xarici ticarəti genişləndirmək imkanlarını azaldır və xarici ticarət şəraitinə mənfi təsir edir. Bununla belə, müəyyən dövrlərdə dünya təsərrüfatında enerji böhranlarının baş verməsi və neftin qiymətinin kəskin artması bir qədər əks prosesin baş verməsinə – dünya ticarətində mineral yanacağın və ümumilikdə xammalın payının artmasına, emaledici sənaye məhsullarının isə xüsusi çəkisinin nisbətən azalmasına gətirib çıxarmışdır. Bu, neft ixrac edən ölkələrin və ümumilikdə dünyanın inkişaf etməkdə olan hissəsinin sənaye ölkələrindən iqtisadi geriliyini müəyyən dərəcədə azaltsa da müvəqqəti xarakter daşımış və beynəlxalq ticarətin qanunauyğun inkişaf meyli kimi dərk edilə bilməz. Bununla yanaşı, göstərmək lazımdır ki, neft və neft məhsullarının və qismən də digər xammal növlərinin qiymətinin artması və nəticədə qiymətlərin ümumi səviyyəsinin yüksəlməsi məhdud təbii resurslara və qapalı iqtisadiyyata malik olan bir sıra ölkələrin iqtisadi inkişafna və ticarət əlaqələrinin genişləndirilməsinə əks təsir göstərmişdir.

Sonradan neftin və eləcə də digər xammal növlərinin qiymətinin enməsi bütün inkişaf etməkdə olan ölkələr qrupunun ixracının azalmasına gətirib çıxarmış və ixracı sənaye məhsulları hesabına zənginləşdirmək zərurətini daha da kəskinləşdirmişdir. Bu ölkələrdə sənayeləşmə və ixracın diversifikasiyası kursu həyata keçirməyə başlamışdır. Bir sıra ölkələrdə xammalın ilkin emalı və bunun əsasında hazır məhsulların istehsalı sənayesi yaradılmışdır. Ölkələrin özlərinin bu sahədə atdığı addımlarla yanaşı, xarici kapitalın axını və dünyanın sənaye mərkəzlərinin istehsal sahələrinin bir hissəsini bu regionlara köçürməsinin də onların sənaye kompleksləri yaratması və xarici ticarətin strukturunu təkmilləşdirməsində böyük rolu olmuşdur.

Dünya təcrübəsindən məlum olduğu kimi hər bir ölkə xarici ticarətin strukturunu modernləşdirmək üçün aktiv beynəlxalq iqtisadi

əməkdaşlığa xarici kapital və investisiyaların cəlb edilməsindən başlayır. Beynəlxalq əmək bölgüsü baxımından səmərəli istehsal sahələrinin yaradılması, inkişaf etdirilməsi və modernləşdirilməsində iqtisadi artımın xarici faktorları olan ixrac gəlirləri ilə bərabər, xarici kapital da özünəməxsus yer tutur. Xarici kapital yerli istehsalı canlandırır, iqtisadi artıma kömək edir, ölkədaxili rəqabəti gücləndirir və beləliklə də rəqabətqabiliyyətli məhsulların ixracını stimullaşdırır.

Xarici ticarət strategiyasının həyata keçirilməsi ilə ölkələr müxtəlif sənaye sahələrinin yaradılması və daxili bazarın yerli sənaye məhsulları ilə təminatında müəyyən nəticələr əldə etsələr də iqtisadi effektivliyin yüksəldilməsi, rəqabətli istehsalın formalaşdırılması haqda bunu demək olmaz. Ona görə də xarici bazara çıxarkən, bu ölkələrin məhsulları rəqabətə davam gətirə bilmir və onlarda dərin struktur böhranlar baş verir. Bu da ölkələri həyata keçirdikləri strategiyanı dəyişməyə, ixracı inkişaf etdirməyə vadar edir.

İxracın strukturunun yeniləşdirilməsi hesabına son onilliklərdə inkişaf etməkdə olan ölkələrin beynəlxalq əmək bölgüsünə qoşulması güclənir, onların beynəlxalq ticarətdə payı daim artır (bu göstərici artıq 30%-ə yaxınlaşır). Hələ 2001-2006-cı illər ərzində ixracda sənaye məhsullarının payının artırılması inkişaf etməkdə olan ölkələrin 9/10-dan çoxunda həyata keçirilmiş, 2009-cu ildə onların sənaye məhsulları, həmçinin maşın və avadanlıqlar bazarında payı təqribən 21% təşkil etmişdir.

İxraca istiqamətlənmiş strategiya ölkələrə iqtisadi əlaqələri, eləcə də ticarət əlaqələrini liberallaşdırmaqla beynəlxalq iqtisadi əməkdaşlığa qoşulmağa, sənayedə ixtisaslaşma və kooperasiya vasitəsilə beynəlxalq əmək bölgüsünün üstünlüklərindən faydalanmağa və beləliklə, effektiv və rəqabətli istehsal yaratmağa imkan verdiyindən, xarici ticarətin strukturunun modernləşdirilməsinin əsasında dayana bilər. Lakin burada düzgün dövlət tənzimləməsinin həyata keçirilməsi, vergi, gömrük və kredit siyasətinin bu strategiyaya uyğunlaşdırılması vacibdir.

## 5. Azərbaycanda xarici ticarət strategiyasının formalaşdırılması xüsusiyyətləri

Müasir iqtisadi inkişaf mərhələsində elm və texnologiya tutumlu məmulatların üstün mövqelərə kecməsi ilə əlaqədar olaraq rəqabət mübarizəsinin ifrat dərəcədə kəskinləşməsi xarici ticarət siyasətinin dinamikliyi və çevikliyinin obyektiv xarakter kəsb etməsinə səbəb ol-

muşdur. Rəqabət mübarizəsi istehlaçılardan daha mürəkkəb texnologiyalara yiyələnməsini, məhsul vahidinin xərc tutumunu qəti mal səviyyəsində saxlanılmasını, onun yəni məmulatın istehlak səviyyəsini amansız olaraq yaxşılaşdırmağı tələb edir.Bütün bunlar birmənalı olaraq bele bir qənaətə gəlməyə imkan verir ki, xarici ticarət siyasəti ümumiqtisadi siyasətin üzvi tərkib hissəsi kimi ifrat dinamizm xassəsinə malik olmalıdır. Bütün bunlarla yanaşı nəzərə alınmalıdır ki, xarici ticarət sferasında müşahidə edilən mövqe dəyişkənliliyinin əsas istinad nöqtəsi rəqabətqabiliyyətliyin səviyyəsinə söykənir.

Qeyd etmək lazımdır ki, sistem transformasiyası dövrünü yaşayan ölkələrdə xarici ticarət strategiyasının və kompleksliyinin təminatı çoxlu sayda amillərin birbaşa təsiri altında reallaşa bilər, yaxud reallaşmalıdır və söhbət, hər şeydən əvvəl, ondan gedir ki, xarici ticarət strategiyası nəinki xarici iqtisadi siyasətlə, eləcə də bütövlükdə ümumiiqtisadi siyasətlə dialektik bağlılıqda olmalıdır. Qeyd edilən tərəfin siyasət modelinin qurulması, ilk öncə, müvafiq bazanın mövcudluğunu tələb edir:

1. Müvafiq iqtisadi institutlar sisteminin mövcudluğu;
2. Milli spesifikliyi nəzərə alan konseptual yanaşmanın müəyyənləşdirilməsi;
3. Lobbizm və digər neqativ halların qarşısının alınması məqsədinə nail olmaq baxımından cəmiyyətin demokratikləşdirilməsi səviyyəsinin kifayətedici həddə çatması;
4. Hər hansı bir subyektin liderliyinə imkan verməyən milli bazar strukturlarının geniş şəbəkəsinin formalaşdırılması.

Qeyd etmək lazımdır ki, yuxarıda göstərilənlərin hər biri böyük və əhatəli problem olmaq etibarı ilə bazar iqtisadiyyatı şəraitində xarici ticarət siyasətinin optimal şəkildə formalaşdırılmasına bəzi məhdudiyyət elementləri daxil edirlər.

Hazırkı şəraitdə milli iqtisadiyyatın inkişaf dinamikasının dünya bazarının konyunkturasına uyğun müəyyənləşdirilməsi imkanın mövcudluğu məsələsinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Hazırkı şəraitdə dünya bazarında inhisarlaşma dərəcəsinin yüksəkliyi: bu halda ön plana çıxan məsələ iki əks- qütblü sistemin formalaşmasından ibarətdir. Belə ki, bir tərəfdən Trans-Milli Korporasiyalar milli gücə malikdirlər. Digər tərəfdən, həmin milli hökumətlərin yardımı ilə formalaşdırılan maliyyə-sənaye qrupları beynəlxalq iqtisadi münasibətlərin müstəqil subyektlərinə çevrilirlər. Belə ki, bazarın ayrı-ayrı

seqmentlərində milli inhisarların dünya bazarında TMK-ın inhisarçı mövqeləri ilə müqayisədə miqyasca kiçikliyi ilə səciyyələnir.

İqtisadi regionalizmin reallığa çevrilməsi: reqional inteqrasiya bloklarının yaradılması nəticəsində ümumreqional mənafelərin prioritet mövqelərə keçidi, yeni beynəlxalq qaydaların qərarlaşması prosesinin intensivləşməsi, ölkənin geosiyası və geoigtisadi vəziyyəti, ərazinin ölçüləri, əlverişli iqlim şəraitinin nəzərə alınması olduqca vacibdir.

Qeyd etmək lazımdır ki, dünya ölkələrinin müvafq təcrübəsinin sistemli təhlili əsas verir ki, idxal tarifi ölkənin iqtisadi rifdərəcəsini aşağı salır, istehlakçıların vergi yükünü artırır, ticarət müharibələrinə səbəb olur, məşğulluğun səviyyəsini azaldır və s. İdxal tarifi, demək olar ki, əksər hallarda gəlirlərin istehlakçılardan rəqabətqabiliyyətli məhsul buraxa bilməyən yerli istehsalçılara və dövlət büdcəsinə doğru yenidən bölgüsünə səbəb olur.

Ümummilli səviyyədə xalis itkilər istehsal effekti (resurslar aşağıkeyfiyyətli məhsul istehsalına yönəldilir) və istehlak effekti (rüsumların tətbiqi ilə qiymətləri yüksəlmiş malların alıcı həcmini azaltmaqla istehlakçıların fayda itkisi) doğurur.

Bununla yanaşı, gömrük-tarif metodlarında elmi əsaslandırılmış formada və çevik şəkildə istifadə edilməsi dövlət büdcəsinin artımında, gənc elmtutumlu sahələrin mühafizəsində, əhali gəlirlərinin effektiv şəkildə yenidən bölgüsündə və s. müsbət rol oynaya bilər.

Qeyd etmək lazımdır ki, müasir şəraitdə xarici ticarət siyasətinin real gercəkliyə adekvatlığının təminatında mühüm məsələlərdən biri də ixrac siyasətinin ümumiqtisadi inkişafın tələblərinə uyğunlaşdırılması problemidir.

Belə ki, ixrac potensialının sabitqədəmli artımı gec ya tez investtisiya siyasətinin həmin istiqamətdə təkmilləşdirilməsi zərurətini ortalığa qoyacaqdır. Bu mənada ki, ixrac sferası investisiya siyasətinin prioritet istiqamətinə çevrilməklə ölkənin inkişaf səviyyəsindən asılı olmayaraq proteksionist tədbirlərə əl atmaq labüdlüyünü yaradacaqdır ki, bu da sonda beynalxalq iqtisadi təşkilatlar yaxud inkişaf etmiş ölkələr tərəfindən əks təsirlə qarşılaşacaqdır. Və, beləliklə də, investtisiya rejiminin liberallaşma dərəcəsindən asılı olmayaraq ölkəyə xarici investisiyaların axını intensivliyi aşağı düşəcəkdir.

Dünya ölkələrinin təcrübəsində(əsasən inkişaf etməkdə olan ölkələrin) qeyd olunan vəziyyət dəfələrlə müşahidə edilmişdir. Bütün bunlara görə də, keçid iqtisadiyyatlı ölkələrin problemə yanaşma tərzinin

xarici ticarət siyasəti və investisiya siyasətinin optimal şəkildə uyğunlaşdırılmasına söykənməlidir. Belə ki, istənilən halda proteksionist ticarət rejimi ilə liberal investisiya rejimini uyğunlaşdırmaq praktiki baxımdan qeyri-mümkündür.

Hal-hazırda xarici ticarət siyasətinin qarşısında duran əsas vəzifələrdən biri, hətta başlıca artımın təminatına nail olmaqdan ibarətdir. Xarici ticarət siyasəti bu prizmadan iki konseptual yanaşmaya istinad edə bilər:

1) Artım «nöqtə»lərinin müəyyənləşdirilməsi;

2) Artımın «lokomotivinin» işə salınması.

Birinci konseptual baxış daha çox Latın Amerikası və Şərqi Asiya ölkələrində geniş yayılmışdır. Sözügedən yanaşmanın məntiqi, iqtisadi inkişafın uzunmüddətli proqramlar əsasında aparılması zərurətinə söykənir. Belə ki, iqtisadiyyatın prioritet sektorlarının seçilməsi və həmin sferada struktur yenidənqurmanın aparılması nəticə etibarı ilə proteksionist mühafizənin təşkilini ön plana çıxarır. Eyni zamanda, qeyd olunan yanaşmada ifrata varmaq mütləq əks effekt yaradacaqdır. Yəni, proteksionist mühafizə modernləşmənin birbaşa stimulu kimi çıxış edən idxal rəqabətini sərf-nəzər edir ki, bu da milli bazarda nəinki effektiv rəqabət mühitinin formalaşmasına mənfi təsir göstərəcəkdir, eləcə də bütövlükdə iqtisadi səmərəliliyi aşağı salmaqla məhsulun həm xərctutumunun yüksəlməsinə, həm də onun rəqabətqabiliyyətliliyinin azaldılmasına səbəb olacaqdır və ona görə də təəccüblü deyildir ki, dünya ölkələrinin böyük əksəriyyətində idxalatın yalnız o hissəsi tam liberallaşdırılır ki, onun bu və ya digər dərəcədə prioritet sektorlara aidiyyəti olsun. İkinci konseptual yanaşmanın əsasında xarici ticarət siyasəti ilə investisiya siyasətinin ixracyönümlü sferalarının inkişafı istiqamətində optimal şəkildə uyğunlaşdırılması dayanır. Başqa sözlə, ticarət rejiminin məhz bu istiqamətdə əlverişli şərait yaratmasına çalışmaqla investisiyalar iqtisadiyyatın elə sahələrinə yönəldilir ki, onlar bütövlükdə iqtisadi artımın «Lokomativ»i kimi çıxış etmək iqtidarında olsunlar.

Qeyd etmək lazımdır ki, xarici ticarət siyasətində mühüm əhəmiyyət kəsb edən vasitələrdən biri ixracın stimullaşdırılması, keçid iqtisadiyyatlı ölkələrdə elə bir rol oynaya bilmir. Belə ki, əvvəla, sözügedən ölkələr qrupuna ixracın stimullaşdırılması üçün zəruri olan iqtisadi və siyasi resurslar kifayətedici səviyyədə deyildir; İkincisi, Ümumdünya Ticarət Təşkilatının normaları ixracın stimullaşdırılması-

nı rədd edir. Bu təşkilata üzv olmaq istəyən respublikamız, qeyd olunan halı mütləq nəzərə almalıdır.

## 6. Azərbaycanin xarici ticarət strategiyasinin təkmilləşdirilməsi istiqamətləri

Beynəlxalq təcrübə göstərir ki, iqtisadi müstəqillik siyasi suverenliyin əsası və zəruri şərtidir. Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikasının qarşısında duran ən mühüm vəzifələrdən biri öz müstəqil milli iqtisadiyyatını formalaşdırmaq olmuşdur. Hal-hazırda respublikamızın inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid mərhələsi başa çatıb. Iqtisadi müstəqilliyə nail olmaq və bazar iqtisadiyyatına tam mənada keçmək üçün isə bazar prinsiplərinə əsaslanan, dəyişikliklərə adekvat şəkildə uyğunlaşmaq qabiliyyəti olan və dünya təsərrüfatına səmərəli surətdə inteqrasiya olunmuş sistem qurulmalıdır.

Respublikamızda həyata keçirilən iqtisadi islahatlarda dövlət həlledici rola malikdir. Respublikamızın xarici ticarət əlaqələrinin dövlət tənzimlənməsi sisteminin məqsədi və təyinatı – Azərbaycan Respublikasının strateji milli dövlətçilik mənafelərinin təmin edilməsindən, milli iqtisadiyyatın sosial-iqtisadi səmərəliliyini və rəqabətədavamlılığını stimullaşdırmaqdan, ölkənin milli təhlükəsizliyinin lazımi səviyyədə saxlanılmasından, xarici iqtisadi fəaliyyət sahələri üçün əlverişli şəraitin təmin edilməsindən ibarətdir.

Son illərin iqtisadi göstəricilər durumu bir daha sübut edir ki, ölkənin xarici və daxili iqtisadi siyasəti bir-biri ilə uzaqlaşmış şəkildə həyata keçirilməlidir. Bu baxımdan, ticarətin maksimum dərəcədə liberallaşdırılması, iqtisadi inkişafın tələblərinə uyğun olaraq ticarətin tənzimlənməsi mexanizminin müəyyən edilməsi siyasətini formalaşdıran bütün dövlət qurumlarının fəaliyyətlərinin ticarət sahəsində mövcud olan problemlərin həllinə istiqamətləndirilməsi diqqəti cəlb edir.

Ölkədə strateji məqsədlər və onlara nail olmaq üçün hazırkı şəraitə xas olan ticarət siyasətinin əsas istiqamətləri diqqəti cəlb edir. Müasir şəraitdə respublikamızda xarici ticarət əlaqələrinin tənzimlənməsinin təkmilləşdirilməsi aşağıdakı əsas istiqamətlərdə aparılmalıdır:

- Xarici ticarətin səmərəliliyinin artırılması, beynəlxalq iqtisadi təşkilatlarla, o cümlədən Ümumdünya Ticarət Təşkilatı ilə əməkdaşlığın genişləndirilməsi və bu təşkilata qəbul prosesini sürətləndirmək

üçün xarici dövlətlərdə və beynəlxalq iqtisadi təşkilatlar yanında daimi nümayəndəliklər institutunun təsis edilməsi;

- İqtisadi təhlükəsizliyin təmin olunması üçün, ilk növbədə, konsiqnasiyaya ixrac, kreditə ixrac və barter əməliyyatlarında maliyyə vəsaitlərinin və malların qanunla müəyyən edilmiş müddətlərdə gətirilməsinə nəzarətin gücləndirilməsi, keyfiyyətsiz malların idxalından müdafiə sisteminin işlənib hazırlanması və bütün əlaqədar təşkilatlar tərəfindən sistemli şəkildə həyata keçirilməsi;

- Xalq istehlakı mallarının keyfiyyətinə və təhlükəsizliyinə mərkəzləşdirilmiş nəzarət sisteminin yaradılması;

- Ticarət və xidmət sahəsində sahibkarlığın inkişafı üçün peşə prinsipi üzrə sahibkarların ictimai birliklərinin yaradılmasına yardım etmək;

- Yüksəkixtisaslı kadrların hazırlanması işinin daha mükəmməl səviyyədə təşkili üçün mövcud dünya təcrübəsindən, qabaqcıl xarici tədris ocaqlarından, şirkətlərin imkanlarından geniş istifadə edilməsi;

- Ticarət mədəniyyətini (dizayn və xidmət) yüksəltmək məqsədi ilə müasir təşviqat formalarından, habelə reklam və çap məhsullarından geniş istifadə olunması.

Qeyd etmək lazımdır ki, respublikamızda, ilk növbədə, gömrük tariflərinin, digər vergi və rüsumların tətbiqini Ümumdünya Ticarət Təşkilatının, digər beynəlxalq iqtisadi təşkilatların tələblərinə və qabaqcıl ölkələrin təcrübəsinə uyğun qurmaq, ticarət fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar tətbiq olunan vergilərin, rüsumların, müxtəlif ödənişlərin ticarət və iaşənin, sahibkarlığın, ümumən iqtisadiyyatın inkişaf tələblərinə uyğunlaşdırılması baxımından mütəmadi olaraq təhlil edilməsi üçün Tarif Şurasının fəaliyyət göstərməsi “kağız üzərində” deyil, real olaraq təmin edilməlidir.

Bundan başqa, alternativ valyuta mənbələrinin axtarılması və ixrac olunan malların çeşidinin artırılması, ixracat sahəsində dünya təcrübəsində geniş istifadə olunan müxtəlif formalarla bərabər (konsiqnasiya, kreditlə ixrac, lizinq və s.), onun müasir tipli infrasrtukturu (nəqliyyat, sığorta, anbarlar, informasiya sistemi və s.) və ixracın həvəsləndirilməsi mexanizminin yaradılması məsələlərinə diqqət artırılmalıdır.

Azərbaycan Respublikasının ixrac potensialının genişləndirilməsinin, iqtisadiyyatın dünya təsərrüfat əlaqələrinə üzvi surətdə inteqrasiya edilməsinin əsas emal sənayesi məhsullarının istehsal xərclərinin və onların keyfiyyətinin dünya bazarındakı mövcud beynəlxalq standartlara və rəqabətin şərtlərinə uyğunlaşdırılmasıdır. Yaxın gələcəkdə

müasir texnologiyanın və avadanlıqların tətbiqi isə respublikamızda bu sahədə ən mühüm tədbirlərdən biri olmalıdır.

Belə ki, istehsalın və məhsulun keyfiyyətini artırmaqla potensialı yüksək olan sahələrin prioritet inkişafı təmin olunmalıdır. İdxalın səmərəliliyinin artırılmasının əsas istiqamətlərindən biri yerli sənaye üçün zəruri olan bəzi xammal və yarımfabrikatların idxal qiymətlərinə nisbətən daha ucuz başa gələn istehsalının təşkil olunmasıdır.

Respublikamızda idxalın səmərəliləşdirilməsi üçün ölkə daxilində yüngül və yeyinti sənaye istehsalçılarının fəaliyyətini həvəsləndirmək lazımdır. Çünki yerli istehlak bazarının araşdırılması göstərir ki, yerli istehsal daxili tələbatı tam şəkildə ödəmək iqtidarındadır. Bununla bağlı olaraq daxili bazarı lazımi standartlara uyğun olmayan məhsulların idxalından qorumaq çox mühüm məsələdir. Əhalinin əksər hissəsinin gəlirlərinin aşağı səviyyədə olması bu cür məhsulların yerli bazara uğurla nüfuz etməsinə şərait yaradır.

Xarici kreditlər və büdcə vəsaiti hesabına satınalmaların səmərəli mexanizminin təşkili, tenderlərin və müsabiqələrin keçirilməsi işinin keyfiyyətinin artırılması da başlıca vəzifələrdəndir.

Hazırda respublikamızda əhalinin, müəssisələrin iqtisadi vəziyyəti nəzərə alınmaqla dünya təcrübəsində geniş istifadə olunan idxalın müxtəlif rejimlərinin (sərhədyanı ticarət, konsiqnasiya, lizinq və s.) tətbiqi olduqca zəruridir. Xüsusilə də lizinq tətbiqi və inkişaf etdirilməsi həm makroiqtisadi baxımdan, həm də mikroiqtisadi səviyyədə çox böyük iqtisadi effektivliyə malik olduğu üçün mühüm əhəmiyyət kəsb edir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, xarici investisiyaları istehsal və xidmət sahələrinə yönəltmək üçün iqtisadi metodlardan istifadə edərək bu sahədəki müəssisələr üçün əlverişli iş rejiminin yaradılmasını, ölkədə məqsədyönlü investisiya siyasəti aparmaq üçün bu sahədə uçot-informasiya işinin təşkilini həyata keçirmək lazımdır.

Azərbaycan Respublikasının xarici ticarət siyasətini daxildə və beynəlxalq aləmdə yüksək səviyyədə təbliğ etmək məqsədi ilə əlaqələrin geniş və etibarlı şəbəkəsinin yaradılması da qarşıda duran ən zəruri məsələlərdən biridir.

Qeyd etmək lazımdır ki, idxal rüsumlarından əldə edilən vəsait dövlət büdcəsi gəlirlərinin əhəmiyyətli hissəsini təşkil edir. Belə ki , respublikamızda vergi yığımları ilə vəziyyətin lazımi səviyyədə olmadığı hazırkı şəraitdə dövlət büdcəsinin gəlirlər hissəsində böyük xüsusi çəkiyə malik olan gömrük rüsum və yığımları Azərbaycan iqtisadiy-

yatı üçün fiskal cəhətdən də zəruri maliyyə mənbələrindən biri kimi kifayət qədər mühüm əhəmiyyət kəsb edir. Müasir şəraitdə Azərbaycanda xarici ticarət əlaqələrinin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və optimallaşdırılması zamanı bu amili də mütləq nəzərə almaq lazımdır.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə, bütün dünyada, eləcə də respublikamızda gömrük rüsum normaları müəyyənləşdirilərkən aşağıdakı prinsiplər mütləq nəzərə alınmalıdır:

- Gömrük rüsumları hər bir əmtəə qrupu üzrə orta səviyyədə müəyyənləşdirilməli və sonra hər bir konkret mal mövqeyinə görə dəqiqləşdirilməlidir;
- Gömrük rüsumlarının müəyyənləşdirilməsi daxili və dünya qiymətləri arasındakı fərqə əsaslanmalıdır;
- Gömrük rüsum normaları malların emal dərəcəsi artdıqca artmalıdır. Yəni, xammal üçün aşağı, yarımfabrikat üçün orta və hazır məhsul üçün yüksək gömrük rüsumları müəyyən edilməlidir;
- İstehsalı çox əmək sərfi tələb edən məhsullar üçün yüksək rüsumlar müəyyən olunmalıdır;
- Yüksən texnoloji, elmtutumlu və idxalında dövlətin maraqlı olduğu məhsulların idxalına aşağı rüsum normaları tətbiq edilməlidir;
- Rüsum normaları müəyyən olunarkən dövlətin idxal siyasəti, sosial siyasəti, daxili bazarın vəziyyəti, analoji malların istehsalının vəziyyəti və onların istehsalının inkişaf prespektivləri nəzərə alınmalıdır;
- Rüsum normaları elə müəyyənləşdirilməlidir ki, ölkənin xalq təsərrüfatı strukturunda mütərəqqi dəyişiklikləri təmin etsin;
- Rüsum normaları müəyyənləşdirilərkən xarici ölkələrlə əməkdaşlığın səviyyəsi, əmək kooperasiyasının vəziyyəti və ticarət əlaqələrinin inkişaf prespektivləri nəzərə alınmalıdır;
- Rüsum normalarının müəyyənləşrilməsində ən əsas amil kimi dövlətin iqtisadi təhlükəsizliyi götürülməlidir.

Belə bir faktı göstərə bilərik ki, bu gün Azərbaycan Respublikasının xarici ticarətinin strukturu iqtisadi baxımdan səmərəli deyildir. Belə ki, ixracın əsasını enerjidaşıyıcılar və xammal məhsulları, idxalın isə əsasını ərzaq məhsulları və ilkin tələbat malları təşkil edir.

Ölkə böyük təbii sərvətlərə, münbit torpaqlara malik olduğu halda, onun valyuta ehtiyatlarının xeyli hissəsi əhalinin ilkin tələbat malları ilə təchiz olunmasına sərf edilir. İnvestisiyaların prioritet sahələrə cəlb olunması, beynəlxalq maliyyə təşkilatlarının kreditlərindən, sa-

tınalmalara yönəlmiş büdcə vəsaitlərindən daha səmərəli istifadə edilməsi, xarici ölkələrdə və beynəlxalq iqtisadi təşkilatlar yanında respublikanın ticarət nümayəndələrinin təşkili xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsi sahəsində ilkin vəzifələrdəndir.

Bununla yanaşı, respublikamızda daxılı bazarın azad rəqabət prinsipləri əsasında tam formalaşması məqsədi ilə bütün əsassız məhdudiyyətlər tədricən aradan götürülməli, mülkiyyət formasından asılı olmayaraq rezidentlərə bərabər fəaliyyət rejimi yaradılmalıdır. Eyni zamanda digər tərəfdən isə yerli istehsalçıların mənafeyinin mühafizəsi, ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması işi sistemli şəkildə həyata keçirilməlidir.

Hazırkı şəraitdə respublikamızda xarici ticarətin dövlət tənzimlənməsi sahəsində həyata keçirilən bütün tədbirlər ticarətin maksimum liberallaşdırılması, onun ümumi iqtisadi inkişafın tələblərinə uyğun şəkildə tənzimlənmısi mexanizminin müəyyənləşdirilməsi və xarici ticarət siyasətini formalaşdıran bütün dövlət strukturlarının fəaliyyətinin ticarət sahəsində mövcud olan problemlərin həllinə yönəldilməsi məqsədini daşımalıdır.

Beləliklə, bütün yuxarıda deyilənləri təhlil edərək sonda belə bir təklif irəli sürmək olar ki, Azərbaycanda daxili bazarın qorunmasını təmin etmək və milli istehsalçıların və ixracatçıların dövlət tərəfindən stimullaşdırılmasını həyata keçirmək məqsədi ilə gömrük rüsum normaları aşağıdakı qaydada müəyyən edilmişdir. Belə ki, rüsumsuz ölkədə ehtiyatları olmayan və yaxud ehtiyatları olub, ancaq işləməyən xammal və materiallara) , aşağı rüsum normaları (ölkədə ehtiyatları məhdud olan və ya məhdud işlənən xammal və materiallara, yüksək texnoloji avadanlıqlara, elmi, nəzarətölçmə cihazlarına tətbiq edilməlidir, nisbətən aşağı rüsumlar (kifayət qədər işlənən xammal və materiallara, metallurgiya və kimya sənayesi məhsullarına, istehsal avadanlıqlarına) ,orta rüsum normaları – (ölkə daxilində külli miqdarda istehsal olunan istehlak malları, nəqliyyat vasitələri, elektrotexniki avadanlıq və alətlərə) ,yüksək rüsumlar (tikinti materialları, minik avtomobilləri, radioteleaparatur və elektrik məişət cihazlarına), ən yüksək rüsum normaları (tütün materiallarına, spirtli içkilərə, zinət əşyalarına, xəz-dəri məmulatlarına, xalça və s.) tətbiq edilir.

Qeyd etmək lazımdır ki, əgər müasir elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə etməklə respublikamızda elmtutumlu sektorlar inkişaf etdirilməzsə, onda yaxın gələcəkdə Azərbaycan dünya ölkələ-

rinin texnoloji "renta" ödəyicisinə və eyi zamanda onların xammal mənbələrinə çevrilə bilər.

Bütün bunları nəzərə alaraq və ümumiləşdirərək aparılan araşdırmalara əsasən yekunda belə bir nəticəyə gəlmək olar ki, respublikamızda həm gömrük-tarif, həm də qeyri-tarif metodları vasitəsi ilə xarici ticarətin dövlət tərəfindən tənzimlənməsi başlıca olaraq aşağıdakı əsas istiqamətlərdə həyata keçirilməlidir.

- İxrac potensialının inkişafının təmin edilməsi və ixracın strukturunun təkmilləşdirilməsi;
- İstehsal olunan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi;
- İdxalın səmərəliliyinin artırılması;
- Texnoloji yeniləşmənin həyata keçirilməsi və ölkənin güclü iqtisadi potensialının yaradılması məqsədi ilə investisiyaların və kreditlərin prioritet sahələrə cəlb edilməsi;
- Daxili bazarda azad rəqabət mühitinin inkişaf etdirilməsi, istehlakçıların hüquqlarının müdafiəsinin təmin edilməsi;
- Yerli istehsalçıların mənafelərinin qorunmasının təmin edilməsi;
- Ticarət, iaşə və digər növ xidmət sahələrində vahid informasiya – uçot sisteminin yaradılması;
- Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi.

Hazırda Azərbaycan iqtisadiyyatının inkişafı ixracın həcminin artması və onun səmərəliliyinin təmin olunması ilə üzvi surətdə əlaqədardır. Ölkəmizə nəinki xarici bazarda mövqelərini qoruyub saxlamaq və ya itirilmiş mövqeləri bərpa etmək, həmçinin yeni əmtəə və xidmət bazarlarının mənimsənilməsi lazımdır. Hər hansı bir xarici bazardan Azərbaycan iqtisadiyyatının asılılığını aradan qaldırmaq üçün ixracı həm əmtəə, həm də coğrafi istiqamətdə inkişaf etdirmək və genişləndirmək daha məqsədəuyğundur. Respublikamızın ixracı daha geniş həcmli olmalı və dünya bazarından konyunkturanın dəyişməsinə operativ reaksiya verməlidir. Müasir dövrdə istehsalın ixtisaslaşmasının inkişafı, beynəlxalq əmək bölgüsünün dərinləşməsi ilə yeni bazarlar yaranır. Beynəlxalq iqtisadi əlaqələr sistemində meydana gələn bu yeni əməkdaşlıq imkanlarından Azərbaycan uğrunda istifadə etməlidir.

Beynəlxalq təcrübə göstərir ki, iqtisadiyyatın səmərəli fəaliyyət göstərməsi dövlətin iqtisadi proseslərdə fəal iştirakını tələb edir. Dövlətin iqtisadi proseslərə konstruktiv müdaxiləsinin keçid iqtisadiyyatlı ölkələrin ixrac potensialının artmasında böyük rolu var.

İxrac potensialının daxili məzmunu və mürəkkəb quruluşu çoxlu sayda müxtəlif amillərin təsiri altında formalaşır. Bu amillərə elmi-texniki tərəqqi, istehsal fondlarından istifadənin yaxşılaşdırılması, işçi qüvvəsinin təkmilləşdirilməsi, yeni və daha səmərəli faydalı qazıntıların aşkar edilməsi, istehsal vasitələrinin keyfiyyətinin yüksəldilməsi, beynəlxalq iqtisadi inteqrasiyanın inkişafı və bir çox başqaları daxil edilir. Bu amillərin hər birinin ixrac potensialına təsiri əhəmiyyətli dərəcədə fərqlənir.

İxrac potensialının formalaşması və inkişafını müəyyən edən əsas amillərdən biri də ölkədə təbii resursların mövcudluğu və onların istifadə səviyyəsidir. Təbii resursların mövcudluğu və onların mənimsənilməsi səviyyəsi ölkənin məhsuldar qüvvələrinin, xüsusi ilə də maddi istehsal vasitələrinin və bunun əsasında ixrac potensialının inkişafını şərtləndirir. Buna görə də, bu və ya digər ölkənin ixrac imkanları bilavasitə həmin ölkənin malik olduğu və kəşf edilib mənimsənilmiş təbii resurslarının həcmi və təbii şəraitdən asılıdır. Beləliklə, demək olar ki, müəyyən dövr ərzində mövcud olan ixrac potensialının əsasında həm istifadə olunan, həm də mənimsənilməmiş məcmu təbii sərvətlər durur.

İxrac potensialının tərkib elementlərindən biri də bir sıra kəmiyyət və keyfiyyət göstəriciləri sistemi ilə şərtlənən əmək resurslarıdır. Buraya elmi kadrlar, sənayenin ayrı-ayrı sahələrində çalışan işçilər, məhsulların ixracı və xarici bazarda reallaşdırılması ilə əlaqədar təşkilati və idarəetmə üzrə fəaliyyət göstərən şəxslər aiddir.

Əmək ehtiyatlarının kəmiyyətcə artması və keyfiyyətcə dəyişməsi elmi-texniki tərəqqinin sürətlənməsi, məhsuldar qüvvələrdən istifadənin səmərəliliyinin yüksəldilməsi və bunun əsasında ölkənin ixrac potensialının inkişafının əsasını təşkil edir. Bununla əlaqədar olaraq, əmək resurslarından daha səmərəli istifadə olunmasına, onların ixtisasının artırılmasına, təkmilləşdirilməsinə və digər amillərə daha çox diqqət yetirmək lazımdır.

Azərbaycan Respublikasının iqtisadi potensialının səmərəli istifadə olunması, optimal istiqaməti əks etdirən inkişaf modelinin seçilməsi xarici iqtisadi əlaqələrdən maksimum faydalanmağa imkan verə bilər. Azərbaycan öz coğrafi mövqeyinə görə çox mühüm strateji əhəmiyyət kəsb edir. Respublikamız Şimal ilə Cənubun, Qərb ilə Şərqin arasında özünəməxsus körpü rolunu oynamaq üçün böyük potensial imkanlara malikdir. Ölkənin Xəzər dənizi vasitəsilə Qara dənizə və Aralıq dənizinə çıxışı vardır. Bu isə ona dünya okeanına çıxmağa və

eləcə də yaxın, Orta və Uzaq Şərq ilə Avropa arasında mühüm iqtisadi vəsitəçi rolunu oynamağa imkan verir.

Azərbaycan istehlak etdiyindən əlavə, dünya bazarında yüksək maraq göstərilən bir sıra məhsullar – dizel yanacağı, reaktiv mühərrik yanacağı, yanacaq mazutu, alüminium, polietilen, sulfanol və kaustik soda, kauçuk və lateksler, məişət soyuducusu, məişət sərinkeşləri, xalça və xalça məmulatları, şampan çaxırı, konyak, meyvə-tərəvəz konservi, şərab məmulatı, pambıq lifi və pambıq mahlıcı, tütün və s. istehsal edir. Keçmiş Sovetlər İttifaqında istehsal olunan neft maşınqayırma məhsullarının və neft-mədən avadanlıqlarının 70 faizinə qədəri Azərbaycanın payına düşürdü.

Qeyd edək ki, MDB məkanında bütün sənaye müəssisələri eyni standartlarla (keçmiş SSRİ standartları) fəaliyyət göstərirlər və bu müəssisələrin əksər məhsulları müttəfiq respublikalar üçün nəzərdə tutulmuşdur. Odur ki, respublikamızın sənaye müəssisələrinin, xüsusilə ixrac potensiallı müəssisələrin dirçəlməsinə bu addımdan başlamaq lazımdır. Lakin əfsuslar olsun ki, MDB-nin müvafiq qurumları arasında çoxsaylı razılaşmalar əsasən kağız üzərində qalır.

İxracın strukturca təkmilləşməsi dedikdə son istehlaka hazır məhsulların xüsusi çəkisinin artması, daha əlverişli şərtlərlə reallaşa biləcək məhsulların ixracına üstünlük verilməsi və s. bu kimi məsələlər nəzərdə tutulur. Azərbaycanın ixrac potensialının inkişafı və ixracın strukturca təkmilləşdirilməsi imkanları kifayət qədər genişdir. Belə imkanlardan ən böyüyü neft avadanlığı istehsalıdır. Hesablamalar göstərir ki, mövcud istehsal müəssisələrinin 90% istismar olunacağı halda, ABŞ-ın APİ standartlarına uyğun ildə ən azı 400-500 mln. USD dəyərində çeşidli neft avadanlıqları istehsal etmək mümkündür. Bu məhsulları isə yetərincə, əlverişli şərtlərlə Qazaxıstan, Türkmənistan və İrana ixrac etmək imkanları mövcuddur.

Bununla yanaşı əlvan və qara metallurgiya sahəsində imkanlar böyükdür. Son illər bu sahə ilə bağlı ən əlamətdar hadisə kimi bakı Polad İstehsalı Şirkətinin işə başlamasıdır. Qısa müddət içərisində Azərbaycan bazarının əhəmiyyətli hissəsini ələ ala bilən müəssisə artıq məhsulların bir hissəsini Gürcüstana, Qazaxıstana və s. ölkələrə çıxara bilmişdir.

Bu sırada respublika üçün ənənəvi sayılan kimya və neft-kimya sahələrini qeyd etmək lazımdır. Həmçinin yüngül və qida sənayesi sahələrinin də geniş perspektivləri vardır.

Pambıqçılıq, tütünçülük, çayçılıq kimi sahələrdən də diqqəti yayındırmaq olmaz. Çünki bu və yuxarıda qeyd olunan sahələrlə bağlı respublikamızda kifayət qədər fəaliyyət təcrübəsi, ixtisaslı kadrlar və tex nologiya mövcuddur. Həmçinin bu məhsullar xarici ölkə bazarlarında da rəqabət qabiliyyətinə malikdirlər.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, kapitalı sabit, etibarlı və demokratik inzibati-idarəetmə quruluşuna və qanunvericiliyə malik olan ölkələr cəlb edir. Deməli, respublikamızda da bu zəruri şərtlər təmin olunmalıdır. Sözügedən tədbirlərin həyata keçirilməsi xarici ticarət şəraitinin yaxşılaşmasına, ixrac qiymətləri indeksinin yüksəlməsinə səbəb olar.

Bütün bu deyilənləri həyata keçirmək, yəni Azərbaycanın ixrac potensialını artırmaq və ixracın strukturunu optimal vəziyyətə gətirmək üçün kompleks tədbirlər görmək zəruridir. Bu zaman dünya ölkələrinin təcrübəsinə əsaslanaraq ilk növbədə qeyri-neft sahələrinin ixracını stimullaşdıran və elmi cəhətdən əsaslandırılmış uzunmüddətli strateji dövlət proqramı işlənib hazırlanmalıdır. Belə proqramın reallaşdırılmasında isə ixracyönümlü sənaye müəssisələrini təşkilati və maliyyə cəhətdən dəstəkləyən xüsusi bir mexanizmin yaradılması lazım gəlir. Bu işdə ixracın dövlət tərəfindən stimullaşdırılması ön sıraya keçir.

İxracın stimullaşdırılmasının dünya təcrübəsində geniş yayılmış formalarından biri ixracatçılar üçün müxtəlif növ vergi güzəştlərinin tətbiq olunmasıdır. Vergi güzəştlərinin bu və ya digər növünün istifadə olunması adətən, tətbiq edilən milli vergi sistemindən asılı olur. Birbaşa vergitutmanın üstün mövqe tutduğu ölkələrdə, məsələn, ABŞ və Avstraliyada ixracın məbləğindən və ya ixrac əməliyyatlarının artım tempindən asılı olaraq ixracatçılara gəlir vergisindən müxtəlif güzəştlər və ya onların ödənilməsində möhlətlər verilir.

Xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsi və bu əsasda ölkə iqtisadiyyatının dünya təsərrüfatı sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması son dövrlərdə özünün dövlət müstəqilliyini bərpa etmiş ölkələrin, o cümlədən də Azərbaycan Respublikasının sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri hesab olunur.

Müstəqil Azərbaycan dünya birliyinə sürətlə inteqrasiya edir. Bu gün beynəlxalq aləmdə Azərbaycan bərabər tərəfdaş kimi qəbul edilir və onunla uzunmüddətli əməkdaşlıq sistemi qurulur. Belə şəraitdə ölkəyə etimadın möhkəmləndirilməsi xüsusi əhəmiyyət kəsb edir və bu

etimad bir sıra prinsiplər üzərində qurula bilər. Belə prinsiplərdən biri Ümumdünya Ticarət Təşkilatında üzvlükdür.

Azərbaycan beynəlxalq ticarət məkanına inteqrasiya etmək və ölkədə xarici ticarətə təsir edən qanunvericilik bazasını beynəlxalq standartlara uyğunlaşdırmaq məqsədilə Ümumdünya Ticarət Təşkilatına üzv olması istiqamətində iş aparır.

1997-ci ildə Azərbaycan Respublikasının Hökuməti Ümumdünya Ticarət Təşkilatına (ÜTT-yə) üzv olmaq üçün müraciət etməyi qərara almışdır. Bundan dərhal sonra özünün ÜTT-yə üzvolma şərtlərinin müzakirəsində zəruri olan və müraciəti əsaslandırmaq üçün sənədlər hazırlamağa başlamışdır. Ölkəmiz digər ölkələrlə münasibətlər qurmaq və beynəlxalq aləmdə özünəməxsus yer tutmaq üçün müvafiq tənzimləyici rejim təşkil etmək məcburiyyətində idi.

Hazırda Azərbaycan bu təşkilatda müşahidəçi statusuna malikdir və ÜTT-yə qəbul edilmək üçün məqsədyönlü iş aparır. ÜTT üzrə Azərbaycanın Koordinasiya qrupu yaradılmışdır, bu qrup bütün danışıqlar prosesini həyata keçirir.

ÜTT-yə üzv olmaq mürəkkəb bir prosesdir. Bu təkcə tariflərə dair sazişlərin və xaricilər tərəfindən təklif olunacaq xidmətlər üçün güzəştlərin oxunulması məsələsi deyil. Xarici ticarəti tənzimləyən tədbirləri və digər normativ-hüquqi aktları daxil etməklə, müraciət edən ölkənin öz xarici ticarətinə dair qanunlarının təkmilləşdirilməsi və onların müasirləşdirməsinə ümid edir.

Ticarət qaydalarının yaxşılaşdırılması üçün ÜTT tələbləri üzvolma prosesinin ən faydalı üstünlüyüdür. ÜTT-yə üzvolma qərarından asılı olmayaraq şəffaf və effektiv qanunlara malik olmaq üçün bir üstünlükdür. Uruqvay raundu prinsipləri və normaları heç bir mülahizələrdən asılı olmayaraq, ümumiyyətlə, ölkənin ticarəti üçün faydalıdır. Onlar əməliyyat xərclərini azaldırlar və ölkənin ticarətdə rəqabət bacarığını artırırlar.

ÜTT-yə üzvolma proseduru aşağıdakı kimidir:

ÜTT-yə üzvolma istəyini əks etdirən ərizənin ÜTT Katibliyinə təqdim olunması;

ÜTT Katibliyində üzv olmaq istəyən ölkə üzrə İşçi qrupunun yaradılması;

Üzv olmaq istəyən ölkənin xarici ticarət rejimi haqqında Memorandumun ÜTT Katibliyinə təqdim olunması;

ÜTT-yə üzv olan ölkələr tərəfindən Memoranduma dair sualların təqdim olunması;

Memoranduma dair təqdim olunmuş sualların cavablarının ÜTT Katibliyinə təqdim olunması;

Üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupunun ilk iclasının keçirilməsi;

Üzv olmaq istəyən ölkə tərəfindən ÜTT Sazişləri ilə nəzərdə tutulmuş sənəd və cədvəllərinin ÜTT Katibliyinə təqdim olunması;

ÜTT-yə üzv olmaq istəyən ölkə ilə üzv ölkələr arasında ikitərəfli danışıqların keçirilməsi;

Üzv olmaq istəyən ölkə üzrə İşçi Qrupunu ardıcıl iclaslarının keçirilməsi;

Üzv olmaq istəyən ölkə üzrə İşçi qrupu tərəfindən Yekun Hesabatının hazırlanması:

- Yekun Hesabat əsasında Baş Şura tərəfindən Üzvolma Protokolunun qəbul olunması;
- Üzvolma Protokolunun Nazirlər Konfransı tərəfindən təsdiq olunması;
- Üzvolma Protokolunun üzv olmaq istəyən ölkənin parlamenti tərəfindən ratifikasiya olunması.

Hazırda Azərbaycan ÜTT-yə üzvolma prosedurunun sonuncu mərhələsindədir.

### *Azərbaycanın ÜTT-yə üzvolma proseduru*

| | |
|---|---|
| Azərbaycan Respublikasının ÜTT-yə üzvolma istəyini əks etdirən ərizənin ÜTT Katibliyinə təqdim olunması | 23 iyun 1997-ci il |
| ÜTT Katibliyində Azərbaycan üzrə İşçi Qrupunun yaradılması | 16 iyul 1997-ci il |
| Azərbaycan Respublikasının xarici ticarət rejimi haqqında Memorandumun ÜTT Katibliyinə təqdim olunması | 22 aprel 1999-cu il |
| Azərbaycan Respublikası Nazirlər Kabinetinin 226s saylı Sərəncamı ilə Azərbaycan | 19 noyabr 1999-cu il |

| | |
|---|---|
| Respublikasının ÜTT-yə üzv olması prosesinin sürətləndirilməsi işləri üzrə təşkilatlararası Əlaqələndirmə Qrupunun yaradılması | |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Birinci İclasının keçirilməsi | 03 - 07 iyun 2002-ci il |
| Azərbaycan Respublikası Nazirlər Kabinetinin 175s saylı Sərəncamı ilə Azərbaycan Respublikasının ÜTT-yə üzv olmasına hazırlıq işləri üzrə Komissiyanın yaradılması | 22 avqust 2003-cü il |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun İkinci İclasının keçirilməsi | 14 oktyabr 2004-cü il |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Üçüncü İclasının keçirilməsi | 30 iyun 2005-ci il |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Dördüncü İclasının keçirilməsi | 30 mart 2006-cı il |
| Cenevrədə ÜTT-nin Azərbaycan üzrə İşçi Qrupunun Beşinci İclasının keçirilməsi | 6 may 2008-ci il |

*Mənbə: Azərbaycan və Ümumdünya Ticarət Təşkilatının internet saytı: www.wto.az*

Qeyd etmək lazımdır ki, Azərbaycanın əsas ticarət tərəfdaşları artıq bu təşkilatın üzvüdür, digərləri isə üzvolma prosesini başa çatdırmaq üzrədirlər. ÜTT-yə üzvolma prosesində Azərbaycan artıq çox mühüm bir mərhələyə addım atmışdır. Bu baxımdan ölkəmizi digər postsovet ölkələrindən fərqləndirən əsas xüsusiyyətlərdən biri sözügedən prosesə Azərbaycan ictimaiyyətinin cəlb edilməsidir. Belə ki, dövlət qurumları, qeyri-hökumət, beynəlxalq və ictimai təşkilatlar mütəmadi olaraq dəyirmi masalar, konfrans və seminar təşkil edərək ÜTT-yə üzvolma prosesi ilə bağlı ictimaiyyəti daima məlumatlandırmaqdadır.

### *Azərbaycanın ÜTT-yə üzv olmaqda əsas məqsədi*

**ÜTT-yə üzv olmaqda əsas məqsədlər aşağıdakılardan ibarətdir:**

- Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək;

- ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq;
- Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək;
- Ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar və eləcə də ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq;
- ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox həcmdə birbaşa xarici investisiyaları cəlb etmək;
- ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək.

*Mənbə: Azərbaycan və Ümumdünya Ticarət Təşkilatının internet saytı: www.wto.az*

Azərbaycan Respublikasının ÜTT-yə üzvolma istəyi ölkənin müasir ticarət siyasətindən irəli gəlir. Bu siyasətin əsas məqsədi – dünya iqtisadiyyatına, beynəlxalq ticarətə maksimum dərəcədə səmərəli və əlverişli şərtlərlə daxil olmaqdan ibarətdir.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının ÜTT-yə üzv olmasının əsas üstünlükləri bunlardan ibarətdir:

- Ticarətin və xarici iqtisadi fəaliyyətin digər formalarının inkişafı üçün daha əlverişli, ayrı-seçkiliksiz, sabit və təxmin edilir şəraitin yaradılması;

- Təşkilata üzv olan dövlətlərin ticarət maraqlarının haqsız zərərdən qorunmasına xidmət edən ÜTT-nin olduqca səmərəli (və praktiki olaraq yeganə) ticarət mübahisələrinin həlli üzrə mexanizminə yiyələnmə;

- ÜTT norma və qaydalarını Azərbaycan praktikasına tətbiq etməklə, xarici iqtisadi fəaliyyət və ticarətin tənzimlənməsi sahəsində beynəlxalq təcrübənin müvafiq qanunvericiliyə uyğunlaşdırılması.

Azərbaycanın ÜTT-yə üzv olması zamanı milli xidmətlər bazarının necə qorunması deyil, onun necə liberallaşdırılması məsələsi daha vacib əhəmiyyət kəsb edir. Bununla bağlı həm də hesab edirəm ki, Azərbaycanın xidmətlər bazarında xarici hüquqi və fiziki şəxslərin iştirakı yerli hüquqi və fiziki şəxslərin fəaliyyətini də əhəmiyyətli dərəcədə stimullaşdıracaq. ÜTT-də üzvlük aşağıdakılara imkan verəcək:

- Rəqabətqabiliyyətli milli xidmətlərin və onları istehsal edənlərin xarici bazarlarda iştirakının genişlənməsinə;

- Ən əlverişli rejim əsasında və diskriminasiya olmadan çoxtərəfli tənzimləmə sisteminə keçidə;
- Digər ölkələr tərəfindən diskriminasiya xarakterli tədbirlərin tətbiq edilməsindən etibarlı müdafiəyə.

Ölkəmizin ÜTT-yə güzəştli şərtlərlə qəbul olunmasında Azərbaycana hansı statusun verilməsi müstəsna əhəmiyyət kəsb edir. ÜTT-yə üzv ölkələr 3 inkişaf statusu əsasında bölünür: inkişaf etmiş, inkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələr. Azərbaycanı ən az inkişaf etmiş ölkələr kateqoriyasına aid etmək olmaz. Lakin ÜTT sazişlərində inkişaf etməkdə olan ölkələr üçün də kifayət qədər güzəştlər mövcuddur və elə bu səbəbdən də namizəd ölkələrin ÜTT üzvlüyünə qəbulu zamanı ÜTT üzvləri bu ölkələrə inkişaf etməkdə olan ölkə statusunun verilməsindən yayınırlar. Yeni üzv olan ölkələrin, misal üçün Qırğızıstan, Gürcüstan, Moldovanın ÜTT-yə qəbulu zamanı ÜTT üzvləri onları "keçid iqtisadiyyatlı" ölkə adlandıraraq sənədlərə bu termini daxil etmişdirlər, lakin faktiki olaraq bu ölkələrin öhdəlikləri inkişaf etmiş ölkələrin öhdəliklərinə bərabər və ya onlardan da artıqdır. Bununla bərabər, qeyd etmək vacibdir ki Cənubi Koreya və ya Sinqapur kimi ölkələr inkişaf etməkdə olan ölkə kimi qəbul olaraq müvafiq güzəştlərdən istifadə etmək hüququnu əldə etmişlər.

Respublikamızda ÜDM-in ümumi həcmində 2014-cü ildə neft sektorunun xüsusi çəkisinin 39% olması, ixracın 80%-dən çoxunun neft və neft məhsullarının payına düşməsi, milli iqtisadiyyatın "Holland sindromu" xəstəliyinə tutulması ehtimalının istisna olunmaması, torpaqlarımızın 20%-nin işğal altında olması, ölkədə hər səkkiz nəfərdən birinin qaçqın olması, ölkəmizin ÜTT-yə İEOÖ statusu ilə üzv qəbul olunmasını əsaslandıran arqumentlər kimi istifadə oluna bilər. Ən pis halda uzunmüddətli keçid dövrü ərzində (10-15 il) respublikamıza bu statusun verilməsinə nail olmaq lazımdır. Eyni zamanda bütövlükdə İEOÖ statusunun alınması mümkün olmadıqda, bir sıra mühüm sahələrdə (məsələn: kənd təsərrüfatı) bu statusun əldə olunması tələb olunmalıdır. YUNKTAD ekspertlərinin rəyinə görə bu mümkün ola bilər. Eyni zamanda, bazar iqtisadiyyatı statusu araşdırılmalı, bu statusun Azərbaycan üçün əhəmiyyəti tədqiq edilməlidir.

Müasir tələblərə cavab verən qanunvericilik bazasının formalaşdırılması Azərbaycanın ÜTT-yə üzv olmasının vacib üstünlüklərindən biridir.

Xidmətlərin göstərilməsinin ***birinci üsulu*** - ÜTT-nin üzvü olan ölkə ərazisindən ÜTT-nin digər üzv ölkəsinin ərazisinə xidmət göstərilməsidir.

***İkinci üsul -*** ÜTT üzv ölkəsinin bu və ya digər xidməti istehlak etmək məqsədilə xidmətin göstərildiyi digər ÜTT üzv ölkəsinə getməsidir.

***Üçüncü üsul -*** ÜTT-nin üzvü olan hər hansı bir ölkənin hüquqi və fiziki şəxsinin xidmət göstərmək məqsədilə ÜTT-nin digər üzv ölkəsinin ərazisində "kommersiya iştirakı"dır.

***Dördüncü üsul -*** ÜTT-nin üzvü olan ölkənin vətəndaşı olan fiziki şəxsin ÜTT-nin digər üzv ölkəsinin ərazisinə daxil olmaqla orada xidmət göstərməsidir. Bu üsul həm də "fiziki şəxslərin hərəkəti" adlanır.

ÜTT-yə üzv olan ölkələr bütün xidmət sahələrində ən əlverişli rejimin təmin edilməsinə zəmanət verirlər və müvafiq öhdəliklər götürürlər. Bu o deməkdir ki, ÜTT-nin bütün üzvlərinə eyni ticarət rejimi tətbiq edilməli və heç bir ölkənin diskriminasiyasına yol verilməməlidir. Azərbaycanın ÜTT-yə üzv olması prosesində xidmətlər üzrə əsas taktiki vəzifə ənənəvi, eləcə də yeni yaranmış və hələ də kifayət qədər inkişaf etməmiş vacib xidmət sahələrinin liberallaşdırılması ilə bağlı öhdəliklərin həmin xidmət sahələrinin mövcud inkişaf səviyyəsi ilə əlaqələndirilməsinə nail olmaqdır.

Qeyd etmək lazımdır ki, Beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi və imicinin yüksəldilməsi, Azərbaycan mənşəli malların və xidmətlərin dünya bazarına maneəsiz çıxarılmasının təmin olunması, ölkəmizin ixrac potensialının gücləndirilməsi və ümumiyyətlə, ixracın strukturunun təkmilləşdirilməsi, beynəlxalq ticarətdə ölkəmizin mənafelərinin qorunması, xarici tərəf müqabilləri ilə eyni şərtlərlə ticarət əlaqələrinin qurulması, milli istehsalın inkişaf etdirilməsi üçün əlavə stimulların yaradılması, sağlam rəqabət şəraitində ölkədə istehsal olunan məhsulların keyfiyyətinin artırılması baxımından Azərbaycanın ÜTT-yə qəbul olunması mühüm əhəmiyyət kəsb edir.

İqtisadi həyatın beynəlmiləlləşməsi, Azərbaycanın ağır şərtlər altında gedən müasir dünya ilə inteqrasiyasının bütün istiqamətləri yeni imkanlar yaratmaqla yanaşı, yeni problemlər, bəzən də təhlükələr yaratmaqdadır. Bu imkanlardan səmərəli istifadə edilməsi, mövcud problem və təhlükələrin vaxtında aşkara çıxarılıb öyrənilməsi bu gün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən məsələlərdəndir.

Dolayı (vasitəli) vergilərin üstünlük təşkil etdiyi ölkələrdə, xüsusilə də Qərbi Avropa ölkələri də ixracatçılar üçün vergi güzəştlərinin əsas forması ixracatçıların dolayı vergilərin ödənilməsindən azad edilməsidir.

Belə ki, ÜTT-nin qaydaları ikiqat vergitutma hallarının baş verməməsi üçün ixracatçılara dolayı vergitutma sahəsində güzəştlərin verilməsinə icazə verir. Belə ki, ixrac olunan əmtəələr adətən, idxalçı ölkədə vergiyə məruz qalır.

Beynəlxalq ticarət təcrübəsində ixracın stimullaşdırılmasının geniş yayılmış və demək olar ki, ən aqressiv forması onun birbaşa subsidiyalaşdırılması ixracatçıya əmtəənin qiymətini əhəmiyyətli dərəcədə azaltmağa, bir çox hallarda isə maya dəyərindən də aşağı salmağa imkan verir. Bu hal subsidiyalaşdırılan əmtəələrin ixracatçıları üçün əsaslandırılmamış üstünlüklər yaradır və buna görə də beynəlxalq ticarət təcrübəsində rəqabət mübarizəsinin ədalətsiz metodlarından biri kimi qiymətləndirilir. Beynəlxalq ticarətdə ədalətsiz rəqabət metodu kimi xarakterizə olunan həmin qayda ilə respublikamız da müntəzəm qarşılaşır.

Qeyd etmək lazımdır ki, ümumiyyətlə, subsidiyaların istifadə olunması (kənd təsərrüfatı məhsulları istisna olmaqla) ÜTT çərçivəsində bağlanılmış subsidiyalar və kompensasiya rüsumları haqqında sazişin qaydaları ilə sərt şəkildə reqlamentləşdirilir.

Nəhayət, bir çox ölkələrin dövlət aparatları milli müəssisələrini ixrac fəaliyyətinə müxtəlif növ təşkilati və informasiya xarakterli köməklik göstərirlər. İxracatçılara göstərilən bu növ köməklərin sırasına xaricdə ticarət sərgi və yatmarkalarının təşkil olunmasını, ticarət missiyalarının xaricə ezam olunmasını, firmaların ticarət-iqtisadi informasiya ilə təmin olunmasını daxil etmək olar.

Hazırda respublikamızın bir çox müəssisələrinin ixrac zamanı üzləşdikləri əsas problemlərdın biri də onların məhsullarının beynəlxalq keyfiyyət normalarına uyğun gəlməsini təsdiq edən xüsusi sertifikatlarının olmamasıdır. Bu isə öz növbəsində belə məhsulların dünya bazarlarında alınmamasına və ya onlara çox aşağı qiymətlərin təklif olunmasına gətirib çıxarır. Belə ki, ilk növbədə, qara metallurgiya və neft maşınqayırması müəssisələri üçün APİ (American Petrolium İnstitute) standartlarını əldə etmək çox vacibdir. Çünki bu halda onların həm Azərbaycanda, həm də qonşu ölkələrdə həyata keçirilən neft layihələrində genişmiqyaslı iştirakı mümkündür.

İxracın stimullaşdırılması və ölkəmizin ixrac qabiliyyətinin artırılması prosesində yüksək texnologiyalı müəssisələrin inkişafına xüsusi diqqət yetirilməlidir. Bu istiqamətdə həyata keçiriləcək tədbirlər kompleksinin tərkib hissəsi kimi xüsusi vençur fondlarının yaradılmasını misal göstərmək olar. Bu cür fondlar dövlətin iştirakı ilə təsis edilməli və elmi-texniki layihələrin dəstəklənməsini, yüksək texnologiyaların inkişafına özəl kapitalın (dövlət zəmanəti altında) cəlb olunmasını təmin etməlidir.

# VI FƏSİL

# AZƏRBAYCAN RESPUBLİKASININ VALYUTA SİYASƏTİ VƏ ONUN XARİCİ TİCARƏTƏ TƏSİRİ

*"Biz əsas məqsədi təmin edirik- Azərbaycanın təhlükəsizliyi, inkişafı, insanların rifahı və xoşbəxtliyi."*

***İlham Əliyev***

## 1. Azərbaycan Respublikasının xarici ticarət sferasında valyuta tənzimlənməsi və valyuta nəzarəti məsələsi

Respublikamızda müstəqil dövlət quruculuğu prosesinə başlanması fonunda iqtisadi tərəqqinin yeni istiqaməti yarandı, bu məqsədlə müvafiq inkişaf konsepsiyaları, sənəd və proqramlar qəbul olundu.

1994-cü ildə dünyanın aparıcı transmilli neft şirkətləri ilə yeni tariximizə «Əsrin müqaviləsi» kimi daxil olan möhtəşəm müqavilə imzalandı və bununla da ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu. Digər tərəfdən Azərbaycan MDB məkanında Qərbin iri neft şirkətləri ilə böyük miqyasda saziş imzalayan ilk dövlət olmaqla, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını da yaratdı. Əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Fondun fəaliyyətinin başlıca məramı neft və qaz hasilatından əldə olunan maliyyə vəsaitlərinin indiki və gələcək nəsillərin mənafeyi naminə səmərəli idarə edilməsidir. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir. Onu da qeyd edək ki, Azərbaycan, Mineral Ehtiyatların Hasilatı ilə məşğul olan sənaye sahələrində Şəffaflıq Təşəbbüsü Təşkilatının tamhüquqlu üzvüdür. Şəffaflıq Təşəbbüsünün tətbiqi sahəsində əldə etdiyi nailiyyətlərə görə ölkəmizə «2009-cu il Mədən Hasilatı Sənayesində Şəffaflıq Təşəbbüsü Mükafatı» təqdim olunmuşdur.

Neft sektoru ilə yanaşı, ölkədə qeyri-neft sektorunun tez bir zamanda genişmiqyaslı islahatları başlanıldı. Belə ki, bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank-maliyyə sisteminin formalaşdırılması, aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində bazar iqtisadiyyatına keçidin əsası qoyuldu və sahibkarlıq sinfi formalaşdı. Özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında və ÜDM istehsalında xüsusi çəkisi sürətlə artmağa başladı. Dayanıqlı və davamlı xarakterə malik iqtisadi yüksəliş ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması ilə müşahidə olundu.

Ölkə iqtisadiyyatinda struktur islahatlarinin aparilmasi, özəlləşdirmə və torpaq – aqrar islahatlarinin uğurla reallaşmasi, iqtisadiyyatin tarazli inkişafi üçün qeyri – neft sektorunun inkişafi nəticə etibarilə ölkənin müstəqil iqtisadi dayaqlarının daha da möhkəmlənməsinə gətirib çıxarmışdır. Dayanıqlı iqtisadi artimin təmin edilməsində həlledici rol oynayan mühüm daxili amil kimi ölkədə sahibkarliq fəaliyyəti daha da canlanmış və dövlətin sahibkarlıq fəaliyyətinə hərtərəfli dəstəyi xeyli güclənmişdir. Bütün bunlarin nəticəsində bazar münasibətlərinin əsas daşıyıcısı olan özəl sektorun ÜDM-də payı əhəmiyyətli dərəcədə artaraq 85,0 faiz təşkil etmiş, qeyri-neft sektorunun resurs potensialının səmərəli reallaşmasi üçün münbit institusional zəmin yaranmış, bu sahədə investisiya mühiti xeyli yaxşılaşmışdır.

Azərbaycanda dünya standartlarına uyğun, yüksəkkeyfiyyətli məhsulların istehsalının artırılması respublika hökumətinin həyata keçirdiyi iqtisadi siyasətin prioritetlərindəndir. Belə ki, ümumi iqtisadi inkişafda mühüm məqamlardan biri yüksəkkeyfiyyətli, beynəlxalq standartlara cavab verən yerli istehsal məhsullarının dünya bazarlarına çıxarılması, ixrac potensialının gücləndirilməsi sayılır. Bu, həm də istənilən ölkənin xarici ticarət tərəfdaşları ilə münasibətlərinin daha sürətlə inkişaf etməsinə, beynəlxalq əməkdaşlığın dərinləşməsinə təsir göstərən əsas amillər sırasında yer alır. İxrac imkanlarının daim artan xətt üzrə inkişaf etməsi Azərbaycanda da həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Bu mənada ölkə Prezidentinin 2010-cu ilin mayın 14-də idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər görülməsinə yönələn Fərmanı xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə ona görə ki, sözügedən Fərman idxal-ixrac prosedurlarının iqtisadi in-

kişafın bugünkü tələblərinə uyğunlaşdırılması və sadələşdirilməsi baxımından zəruri xarakter daşıyır. Həmçinin, sözügedən Fərmanla "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"na edilmiş əlavə və dəyişikliklər ixrac potensialından daha səmərəli istifadəyə xidmət edir.

Ölkənin böyük karbohidrogen ehtiyatlarına malik olması fonunda iqtisadiyyatın diversifikasiya siyasətinin müvəffəqiyyətlə reallaşdırılması, sahibkarlığa dövlət dəstəyi, regionların inkişafını özündə ehtiva edən proqramlar, qeyri-neft sektorunun sürətli tərəqqisinə xidmət edən addımlar, zamanın tələblərinə uyğun olaraq aparılan zəruri islahatlar Azərbaycanın iqtisadi mövqelərini daha da möhkəmləndirməkdədir. Qeyd edilənlərin məntiqi nəticəsidir ki, ölkəmizdə məcmu istehsalın həcmi də durmadan artmaqda, yeni istehsal sahələri, müəssisələri formalaşmaqdadır. Bu, həm də bir vaxtlar Azərbaycanın idxal etdiyi məhsulların indi ixracat mənbəyinə çevrilməsini şərtləndirməkdədir.

İqtisadi inkişafı xarakterizə edən göstəricilərə gəlincə, ilk növbədə, qeyd olunmalıdır ki, təkcə 2004-2014-cü illər ərzində Azərbaycanda ümumi daxili məhsulun həcmi 3,4 dəfə artmışdır. Hətta qlobal maliyyə-iqtisadi böhranın ən yüksək həddə çatdığı 2009-cu ildə ÜDM-nin real artımı 9,3 faiz təşkil etmişdir. Bu dövrdə kənd təsərrüfatında 3,7 faiz, rabitədə 13,1 faiz, ticarətdə 9,9 faiz, nəqliyyatda 9,3 faiz artıma nail olunmuşdur.

ÜDM–də qeyri-neft sektorunun payı 2011-ci ildə 48,8%, 2012-ci ildə 53,6%, 2013-cü ildə 57,1%, 2014-cü ildə isə 61,0 % olmuşdur.

Qazanılmış uğurlar ölkənin ixrac potensialının artmasını təmin etmiş, neft məhsulları ilə yanaşı, qeyri-neft məhsullarının ixracının da genişlənməsinə səbəb olmuşdur. Belə ki, 2004-cü ildə qeyri-neft məhsullarının ixracı 648 milyon ABŞ dolları təşkil etdiyi halda, 2014-cü ildə 1720 milyon dollar təşkil etmişdir, əhalinin hər nəfərinə qeyri-neft ixracı isə 2004-cü ildə 78 dollar təşkil etdiyi halda, 2014-cü ildə 190 dollara bərabər olmuşdur.

İqtisadi göstəricilər ölkə iqtisadiyyatının diversifikasiyası ilə bağlı deyilənləri bir daha təsdiq edir. Belə ki, əgər ÜDM-də neft sektorunun xüsusi çəkisi 2006-cı ildə 53,8 faiz təşkil edirdisə, bu göstərici 2014-cü ildə artıq 39 faizə qədər azalmışdır. Nəzərə alınmalıdır ki, bu dövrdə neft hasilatı əhəmiyyətli dərəcədə artmışdır. Bununla yanaşı, Azərbaycan iqtisadiyyatına yatırılmış investisiyaların strukturunun təhlili göstərir ki, 2007-ci ildən başlayaraq qeyri-neft sektoruna yatırıl-

mış investisiyalar üstünlük təşkil edir. Təkcə 2014-cü ildə qeyri-neft sektoruna neft sektoru ilə müqayisədə 3 dəfə çox investisiya yatırılmışdır.

Son dövrdə tam xarici investisiyalı birgə müəssisələrin məxsus olduqları ölkələr üzrə struktur xeyli dəyişmişdir. 2014-cü ildə mövcud birgə müəssisəlrin 3,7%-i ABŞ, 8,6%-i Böyük Britaniya, 30,4 %-i Türkiyə , 6,5 %-i Rusiya , 5,1%-i İran, 1,9 %-i Almaniya, 43,7%- i isə digər ölkələrin payına düşür.

Ölkədə həyata keçirilən iqtisadi islahatların və uzaqgörənliklə müəyyənləşdirilən neft strategiyasının məntiqi nəticəsidir ki, Azərbaycan iqtisadiyyatı qlobal sarsıntılara qarşı dayanıqlıq nümayiş etdirmiş və beynəlxalq reytinq qurumları tərəfindən bir sıra inkişaf etmiş ölkələrin reytinqlərinin azaldılmasına baxmayaraq, nüfuzlu "Fitch Ratings" Beynəlxalq Reytinq Agentliyi açıqladığı son qiymətləndirməsində Azərbaycanın iqtisadi uğurlarını bir daha təsdiq etmişdir. Belə ki, "Fitch Ratings" Azərbaycanın suveren reytinqini investisiya səviyyəsinə ("BB+"dan "BBB-"dək) yüksəltmişdir ki, bu da ölkəmizin investisiyalar baxımından cəlbediciliyinin daha da artmasına və qeyri-neft sektorunun inkişafına daha çox sərmayələrin yönəldilməsinə öz müsbət təsirini göstərəcəkdir.

Belə ki, 2014-cü ildə Dabac Dünya İqtisadi formulu ölkəmizi iqtisadi sahədə rəqabətqabiliyyətliyinə görə 38-ci yerə layiq görmüşdür.

Milli iqtisadiyyatin yüksək artim tempinin saxlanmasinda daxili amillərdən əlavə, keçən illərə nisbətən dünya iqtisadiyyatının canlanması, ölkə iqtisadiyyatının sabit inkişafi üçün xarici iqtisadi şərtlərin, xüsusilə də neftin dünya qiymətlərinin bu yaxınlara qədər (2014) əlverişli olmasi mühüm əhəmiyyət kəsb etmişdir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, investisiyaların maliyyələşdirmə mənbələrinin iki modeli daha geniş yayılmışdır: amerikan və alman modelləri. Amerikan modelində maliyyə mənbələrinin quruluşunda xüsusi investorlar üstünlük təşkil etdiyi halda, alman modelində üstünlük milli maliyyə qurumlarına məxsusdur. Əgər birinci modeldə maliyyə bazarının tam liberallaşdırılması nəzərdə tutulursa, ikinci modeldə istehsal üzərində bank nəzarəti və bank kapitalı əsas götürülür.

Qeyd etmək lazımdır ki, ölkəmizin maliyyə sistemi daha çox amerikan modelinə uyğun gəlir. Respublikamızın ümumi investisiya qoyuluşunun strukturunda xarici sərmayələrin xüsusi çəkisi daxili mənbələrdən bir neçə dəfə çox olması ilə fərqlənir, digər tərəfdən, bu

sahədə respublikamızda mövcud qanunvericilikdə maliyyə bazarları üzərində elə bir məhdudiyyət nəzərdə tutulmamışdır.

Belə bir faktı göstərmək lazımdır ki, son illər ölkədə həyata keçirilən iqtisadi islahatlar maliyyə-bank sistemində də sabitliyin təmin olunmasinda və eləcə də dövlətin maliyyə sisteminin əsas elementlərindən biri olan dövlət büdcəsinin gəlir və xərclərinin artımına öz əhəmiyyətli təsirini göstərmişdir. Həyata keçirilən genişmiqyaslı iqtisadi layihələr, ümumiyyətlə, ölkəmizin inkişaf etməkdə olan ölkələr sırasında olması büdcə xərclərinin artımını şərtləndirir və bu xərclərin ÜDM-ə nisbətinin yüksək olması iqtisadi inkişafın davamlılığının təmin edilməsində dövlət büdcəsinin rolunun artırılması kimi qəbul olunmalıdır.

**Dövlət büdcəsinin gəlir və xərclərinin, həmçinin büdcə balansının ÜDM-ə nisbəti, faizlə**

| | **2012-ci il** | **2013-cü il** | **2014-cü il** |
|---|---|---|---|
| Dövlət büdcəsinin gəlirləri | 31,6 | 33,5 | 31,2 |
| Dövlət büdcəsinin xərcləri | 31,8 | 32,9 | 31,7 |
| Balans | -0,2 | 0,6 | -0,5 |

Təhlil göstərir ki, respublikamızda büdcə xərclərinin ÜDM-ə təsiri daha böyükdür. Belə bir təsir əslində büdcə xərclərində dövlətin əsaslı vəsait qoyuluşunun (investisiya xərcləri) nəzərəçarpacaq dərəcədə böyük xüsusi çəkisi ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, son illər ölkədə aparılan pul siyasəti makroiqtisadi dayanıqlığın qorunmasında fəal rol oynamışdır. 2014-cu il ərzində pul bazasının artım tempi 10,2 faiz, manatla geniş pul kütləsinin artımı isə 18,0 faiz təşkil etmişdir. İqtisadiyyatın modernizasiyası artmaqda davam etmiş və manatla geniş pul kütləsinin qeyri-neft Ümumi Milli Məhsula nisbəti 2014-cu ilin sonunda 32 faizə çatmışdır.

Respublikanın artan maliyyə qüdrəti, milli əhəmiyyət kəsb edən strateji sosial və investisiya proqramlarını həyata keçirməyə imkan vermişdir. Bu proqramların reallaşmasına yönəlmiş dövlət xərcləri isə 50 dəfədən çox artmışdır. Belə ki, dövlət xərclərinin artması qeyri-neft sektorunda inkişaf prosesini sürətləndirmiş, onun müxtəlif sahələrində

- nəqliyyat, rabitə, ticarət, xidmət və tikintidə sıçrayışlı artım - "iqtisadi bum" effektini yaratmışdır. Bu sahələrin sürətlə artması bilavasitə sosial rifahın davamlı yüksəlməsinin göstəricisidir. Belə ki, əhalinin pul gəlirlərinin 2014 –cü ildə 4,8 dəfə artması yüksək həyat tərzini ifadə edən xidmət və məhsullara böyük tələbat yaratmışdır.

Əhalinin gəlirləri 39,4 milyard manata, əhalinin hər nəfərinə düşən məbləğ isə 3,5 % artaraq 4180,5 manata çatmışdır.

Qeyd etmək lazımdır ki, 2014-cü ildə Azərbaycanın dünyanın 150-dən çox dövləti ilə ticarət əlaqələri olmuşdur və ticarətin dövriyyəsi 28826 milyon dollar təşkil etmişdir. Xarici ticarətin 10.4%-i MDB üzvü olan dövlətlərin, 89.6%-i isə digər xarici dövlətlərin payına düşür. Dövlətimizin İtaliya, ABŞ, Fransa, İsrail, Türkiyə, Rusiya, Tayvan, İndoneziya, Kanada və Birləşmiş Krallıq ilə daha intensiv ticarət əlaqələri olmuşdur. (Ümumi ticarətdə bu ölkələrin payı 69.8% təşkil etmişdir).

**Azərbaycanın xarici ticarət əlaqələri**
**Xarici sektor**

| | **2014-ci il Yanvar - noyabr** | **2013-cü ilə nisbətən, faizlə** |
|---|---|---|
| Xarici ticarət dövriyyəsi Mln. ABŞ dolları | 28826 | 93,4 |
| MDB ölkələri | 2639 | 72,5 |
| Digər ölkələr | 26187 | 96,1 |
| İxrac | 20714 | 98,0 |
| MDB ölkələri | 787 | 60,8 |
| Digər ölkələr | 19927 | 100,5 |
| İdxal | 8112 | 83,0 |
| MDB ölkələri | 1851 | 79,6 |
| Digər ölkələr | 6261 | 84,1 |
| Saldo | 12601 | X |
| MDB ölkələri | 1064 | X |
| Digər ölkələr | 13665 | X |

Qeyd etmək lazımdır ki, strateji valyuta ehtiyatları 2004-cü illə müqayisədə 2014-cu ildə 27 dəfə artaraq 50 milyard dollardan çox olmuşdur. Bu da qeyri-neft sektorunun idxalını fasiləsiz maliyyələşdirməyə kifayət edir və ölkənin toplam xarici aktivləri bir qayda olaraq onun xarici öhdəliklərini üstələyir.

Qlobal bohran dunya iqtisadiyyatına sıx inteqrasiya olunmuş Azərbaycan iqtisadiyyatı üçün də əhəmiyyətli risklər yaratmışdır. Lakin son illər uğurla həyata kecirilən inkişaf və modernizasiya strategiyası nəticəsində Azərbaycan iqtisadiyyatı qlobal bohrana yuksək dayanıqlılıq numayiş etdirərək oz muvazinətini itirməmiş, artım dinamikasını və əldə olunmuş sosial inkişaf səviyyəsini qoruya bilmişdir.

2009-cu ildə dunya iqtisadiyyatında tənəzzül meyilləri artmış, əmtəə bazarlarında qiymətlər, maliyyə bazarlarında aparıcı indekslər aşağı düşmüşdür. Aparıcı ölkələrdə ipoteka defoltları, bankların problemli kreditlərinin artması, istehlak xərclərinin və investisiyaların azalması, işsizlik səviyyəsinin artması muşahidə edilmişdir. Bir cox olkələrdə pul siyasəti əhəmiyyətli yumşaldılmış, dövlət xərcləri və büdcə kəsirləri artırılmış, eyni zamanda maliyyə sistemi uzərində nəzarət gucləndirilmişdir.

Qlobal böhran Azərbaycana da muəyyən təsir gostərmiş və milli iqtisadiyyat bir sıra risklər ilə üzləşmişdir. Qlobal böhranın ölkəyə təsiri əsasən neftin və digər qeyri-neft ixracı məhsullarının qiymətinin aşağı düşməsi, bank sisteminə xarici kredit axınlarının kəskin məhdudlaşması, xaricdən pul baratlarının azalması vasitəsilə özünü gostərmişdir. Bütövlükdə, məcmu tələbin, demək olar ki, bütün xarici maliyyələşmə mənbələrində azalma baş vermişdir. Qlobal böhran milli iqtisadiyyatda, xüsusilə valyuta bazarında və bank sektorunda mənfi gözləntilər yaratmışdır. Nəticədə, ölkə iqtisadiyyatı aşağıdakı risklərlə üzləşmişdir:

-Makroiqtisadi sabitliyin pozulması (milli valyutanın devalvasiyası və inflyasiyanın yüksəlməsi);

-Maliyyə sabitliyinin pozulması (bankların kredit portfelinin keyfiyyətinin əhəmiyyətli pisləşməsi və əmanətlərin bank sektorundan qaçışı, bankların odəniş qabiliyyətinin pisləşməsi, iqtisadiyyatın kreditləşməsinin dayanması);

-İqtisadi respressiyanın baş verməsi, yaradılmış iş yerlərinin itirilməsi.

Azərbaycan iqtisadiyyatı qlobal böhranı kifayət qədər hazırlıqlı və güclü müdafiə resursu ilə qarşılamışdır. Bu, böhrandan öncəki

dövrdə ölkədə həyata kecirilmiş rasional makroiqtisadi və monetar siyasət, yaradılmış valyuta ehtiyatları, maliyyə risklərinin qabaqlayıcı rejimdə idarə olunması sayəsində mümkün olmuşdur. Bütün bunlar iqtisadiyyatın "təhlükəsizlik yastığı"nı əhəmiyyətli şəkildə gücləndirməklə makroiqtisadi və maliyyə sabitliyi potensialını artırmışdır.

Ölkədə maliyyə sabitliyinin təmin edilməsində Mərkəzi Bankın rolunu xüsusi olaraq göstərmək lazımdır. Belə ki, Mərkəzi Bankın böhrandan əvvəl həyata kecirdiyi tədbirlər sayəsində ölkədə maliyyə sabitliyi qorunmuşdur:

- Bank aktivlərinin yuksək və riskli artım templəri Mərzkəzi Bank tərəfindən məhdudlaşdırılmışdır;

-Xarici borcların həcminin tənzimlənməsi sistemi tətbiq edilmiş, oxşar region ölkələrindən fərqli olaraq, Azərbaycanda xarici borclar bankların öhdəliklərinin cəmi 20%-i səviyyəsində məhdudlaşdırılmışdır;

-Kapitallaşma və maliyyə ehtiyatlanması səviyyəsi əhəmiyyətli dərəcədə artırılmışdır;

-Prudensial tənzimləmə normativləri və cərcivəsi sərtləşdirilmişdir.

Nəticədə, Azərbaycan bank sistemi qlobal böhranın adekvat kapitallaşma səviyyəsi, yüksək maliyyə ehtiyatlanması və likviditlik gostəriciləri ilə qarşılamışdır.

Mərkəzi Bankın maliyyə sabitliyini daha da möhkəmlətmək üçün bank sektorunda risklərin çevik tənzimlənməsinə nail olunmuşdur.

Həyata kecirilmiş antiböhran proqramı nəticəsində bank sektorunun maliyyə dözümlülüyü daha da güclənmişdir.

Maliyyə dayanıqlığı bazasında bank sektorunun son illərdə də inkişafı davam etmiş, banklar oz ənənəvi daxili və xarici maliyyələşmə mənbələrini bərpa etməyə başlamışlar. Banklar xarici borc öhdəliklərinə fasiləsiz xidmət etməklə yanaşı, həm də aktivlərin 2014-cü ilin 1 dekabr vəziyyətinə kredit qoyuluşları 18152 milyon manat olmuş, əhalinin əmanətlərinin 2015-ci ilin yanvar ayının 1-nə əhalinin əmanətlərinin həcmi 12,4 faiz artaraq 7,2 milyard manata çatmışdır.

Qlobal iqtisadi böhran iqtisadi inkişafda dayanıqlıq və maliyyə sektorunda risklərin adekvat idarə olunması vəzifələrini daha da aktuallaşdırmışdır. Hazırkı dövrdə iqtisadiyyatın, məşğulluğun, büdcə və ixrac gəlirlərinin yüksək dərəcədə şaxələnməsinə nail olmaq, bu əsasda ölkədə uzunmüddətli makroiqtisadi dayanıqlığı təmin etmək və

yuxarı orta gəlirli olkələr qrupuna daxil olmaq ölkə qarşısında duran əsas vəzifələrindəndir.

Bunu nəzərə alaraq iqtisadi dayanıqlığın mühüm əsaslarından olan makroiqtisadi və maliyyə sabitlyinin dərinləşdirilməsi, habelə qlobal bohranın nəticələrinin aradan qaldırılması ölkə qarşısında duran əsas vəzifələrdir.

Maliyyə sektorunun institusional inkişafı istiqamətindəki tədbirlər sırasında, ilk novbədə, bank sistemində konsolidasiya tədbirlərinin, sistem əhəmiyyətli banklarda isə restrukturizasiyasını həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, əldə olunmuş nailiyyətlərin davamlılığının təmin edilməsi ölkə iqtisadiyyatının diversifikasiyasına yönəldilmiş tədbirlərin miqyasının daha da genişləndirilməsini zəruri edir. Bununla əlaqədar olaraq, "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın birinci ilinin yekunlarına həsr olunmuş konfransda ölkə Prezidenti İlham Əliyev ölkə iqtisadiyyatının diversifikasiyasının davam etdirilməsi, yaradılmış ixrac potensialından daha səmərəli istifadə olunması, yeni xarici bazarların aşkar edilməsi və yerli sahibkarlara xaricə çıxmaq üçün əlavə şəraitin yaradılması ilə bağlı tapşırıqlar vermişdir. Dövlət başçısının "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2010-cu il 14 may tarixli Fərmanı məhz verilmiş tapşırıqların konkret icra mexanizmi olaraq, idxal-ixrac əməliyyatlarının daha da sadələşdirilməsinə yönəlmişdir. Fərmana uyğun olaraq, Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarına edilmiş əlavə və dəyişikliklər xarici ticarət fəaliyyətinin daha da liberallaşdırılması, idxal-ixrac əməliyyatlarının sadələşdirilməsi və prosedurların asanlaşdırılması biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması və sahibkarlığın davamlı inkişafına əlavə stimul yaradacaqdır.

Ölkənin uzunmüddətli, dayanıqlı iqtisadi inkişafının təmin olunması baxımından xarici bazarlara, o cümlədən Avropa bazarlarına çıxış imkanlarının genişləndirilməsi mühüm əhəmiyyət kəsb edir. "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın birinci ilinin yekunlarına həsr olunmuş konfransda ölkə Prezidenti bununla bağlı bildirmişdir: "Biz yeni bazarlar axtarmalıyıq. Ənənəvi bazarlar var və o, böyük bazarlardır. Bizim beynəlxalq və xarici siyasətimiz o bazarları bizim üçün açıb. Ancaq biz

yeni bazarlar axtarmalıyıq. Biz keyfiyyətli məhsullarla, onlara uyğun olan standartlarla Avropa bazarlarına çıxmalıyıq".

Şübhəsiz ki, xarici bazarlar hesabına yerli istehsalın və buna uyğun olaraq onun ixracının artırılması iqtisadi artımın yeni mənbələrinin formalaşdırılmasını təmin edəcəkdir. Azərbaycan iqtisadi baxımdan keçid dövrünü artıq başa vurmuşdur. Haqqında danışdığımız dəyişikliklər həm də idxal-ixrac əməliyyatlarının bütövlükdə bazar prinsiplərinə, eləcə də beynəlxalq praktikaya uyğunlaşdırılması baxımından atılmış əhəmiyyətli addımdır.

Əsas dəyişiklik idxal-ixrac əməliyyatları zamanı təqdim olunan sənədlərin sayının azaldılmasıdır. Belə ki, idxal və ixrac əməliyyatlarının rəsmiləşdirilməsi zamanı bir sıra sənədlərin təqdim olunması tələbinin aradan qaldırılması ilə yanaşı, əməliyyatlarla bağlı dövlət müəssisələri və əmlakında dövlətin yekun payı 50 faizdən yuxarı olan müəssisələr istisna olmaqla, digər şəxslərə münasibətdə idxal-ixrac əməliyyatları müqavilələrinin qeydiyyatı tələbi də ləğv edilmişdir.

Eyni zamanda, bu dəyişikliklər nəticəsində ixracı və idxalı müvafiq dövlət orqanlarının rəyi alınmaqla aparılan spesifik malların və xidmətlərin, o cümlədən əqli mülkiyyətin idxalı və ixracı zamanı müqavilələrin qeydiyyatı və ekspertizası tələbi də aradan qaldırılmışdır. Qeyd olunan dəyişikliyə əsasən, həmin malların idxalı və ya ixracı ilə məşğul olmaq istəyən şəxslər aidiyyəti dövlət orqanlarının rəylərini birbaşa gömrük orqanlarına təqdim etməlidirlər. Bu dəyişiklik çoxpilləliyin və vaxt itkisinin aradan qaldırılması üçün mühüm əhəmiyyət kəsb edir.

İxracda hesablaşma ilə bağlı prosedurların sadələşdirilməsi yerli sahibkarlar tərəfindən mal və xidmətlərin ixrac imkanlarının daha da genişləndirilməsinə xidmət edir. Qeyd etdiyimiz dəyişikliklərə qədər mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi və fiziki şəxslər tərəfindən mal və xidmətlərin ixracı zamanı onların dəyərinin qabaqcadan ödənilməsi, yaxud akkreditiv və ya birinci dərəcəli bankların zəmanətinin təqdim edilməsi tələbi nəzərdə tutulurdu. Ölkə Prezidentinin Fərmanına uyğun olaraq, dövlət müəssisələri və əmlakında dövlətin yekun payı 50 faizdən yuxarı olan digər müəssisələr istisna olmaqla, digər hüquqi və fiziki şəxslər tərəfindən mal və xidmətlərin ixracı zamanı bu məcburi tələb aradan qaldırılmışdır.

Azərbaycanın qeyri-neft məhsullarının ixrac imkanlarının genişləndirilməsi istiqamətində görülən digər konkret işlərə gəldikdə isə, ilk növbədə qeyd etmək lazımdır ki, qeyri-neft potensialının cəmləşdi-

yi regionların inkişafı ilə bağlı müvafiq dövlət proqramlarına uyğun olaraq kompleks tədbirlər görülür. Bundan əlavə, sahibkarlığın inkişafına təkan verən dövlət dəstəyi tədbirləri, o cümlədən kənd təsərrüfatı məhsulları istehsalçılarının 2014-cü ilədək torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyaların verilməsi, "Aqrolizinq" ASC vasitəsilə güzəştli şərtlərlə gübrə və kənd təsərrüfatı texnikasının təmin edilməsi, xüsusi iqtisadi zonaların, tənzimləmə və inzibati prosedurları sadələşdirməklə, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, sənaye şəhərciklərinin, biznes inkubatorların yaradılması istiqamətində görülən işlər və digər tədbirlər ölkəmizdə istehsalın genişlənməsində, ixrac imkanlarının artmasında xüsusi əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, respublikamızın ümumiləşdirilmiş preferensiyalar sisteminə (GSP) qoşulması sahibkarların mövcud və yeni ixrac bazarlarına çıxış imkanlarının genişləndirilməsi baxımından atılmış ciddi addım kimi qiymətləndirilməlidir. Məlum olduğu kimi, Azərbaycan Kanada, Yaponiya, Türkiyə, Norveç, İsveçrə və Amerika Birləşmiş Ştatlarının GSP, Avropa Birliyinin isə GSP+ proqramlarından istifadə etmək və öz məhsullarını həmin ölkələrin bazarlarına güzəştli şərtlərlə ixrac etmək hüququna malikdir. Belə ki, GSP-nin üstünlüklərini daha yaxşı ifadə etmək baxımından qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası sadəcə 2008-ci ilin dekabr ayında ABŞ-ın GSP proqramına qoşulmaqla 3473, Avropa Birliyinin GSP+ proqramına qoşulmaqla isə 7200-ə yaxın mal mövqeyi üzrə həmin ölkələrə güzəştli ixrac imkanı əldə etmişdir.

Yerli sahibkarların əldə edilən bu imkanlardan daha səmərəli istifadə etməsini təmin etmək məqsədilə Bakı şəhəri və regionlarda GSP sistemi çərçivəsində ixrac imkanları mövzusunda məlumatlandırıcı seminarlar təşkil olunmuş, sistemdən istifadə imkanlarına dair İqtisadiyyat və Sənaye Nazirliyinin internet səhifəsinə geniş məlumat bazası yerləşdirilmişdir. Həmçinin, GSP sistemindən istifadə imkanları, beynəlxalq ticarətdə alqı-satqı müqavilələri, çatdırılma şərtləri, daşınma və logistika mövzuları üzrə treninq-seminarların keçirilməsi, ixrac məqsədli sertifikatlaşdırma prosedurlarının təkmilləşdirilməsi, biznes forumların təşkili və digər tədbirlərin daha intensiv şəkildə həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycanda ölkəmizdə dünya standartlarına uyğun, yüksəkkeyfiyyətli məhsulların istehsalının daha da artırılması Azərbaycan dövlə-

tinin həyata keçirdiyi iqtisadi siyasətin prioritetlərindəndir. Bu gün Azərbaycanda istehsal olunan məhsulların dünyanın əksər ölkələrinə ixrac edilməsi onu deməyə əsas verir ki, Azərbaycanda dünya standartlarına uyğun, yüksəkkeyfiyyətli məhsul istehsal edən müəssisələr mövcuddur və onların sayı davamlı olaraq artır. Bu, eyni zamanda, dövlətin iqtisadi siyasətinin prioritetlərindəndir. Keyfiyyət respublika üçün əhəmiyyətli göstəricidir. Çünki istehsal olunan məhsulların yüksək keyfiyyətli olması həmin məhsulların ixrac bazarlarında rəqabət qabiliyyətini artırdığı kimi, istehlakçıların da keyfiyyətli məhsul istehlak etmək hüququnun təmin olunması deməkdir.

## 2. Xarici ticarət fəaliyyəti sferasında valyuta tənzimlənməsinin formalaşması

Azərbaycanda valyuta tənzimlənməsi sisteminin formalaşması prosesini daha dərindən araşdırmaq üçün dövlətin valyuta siyasətinin formalaşdırılmasının əsaslarını, daha doğrusu məqsəd, forma və metodlarını müəyyən etmək, dünya iqtisadiyyatında ineqrasiya proseslərinin inkişafında beynəlxalq valyuta tənzimlənməsi təcrübəsini və onun Azərbaycanda tətbiqi imkanlarını tədqiq etmək daha vacibdir.

Azərbaycan Respublikasında xarici valyutanın alınması və satılması Mərkəzi Bankın müəyyən etdiyi qaydada müvəkkil banklar vasitəsi ilə həyata keçirilir. Xarici valyutanın alğı-satqısı əqdləri bilavasitə müvəkkil banklar arasında, eləcə də Mərkəzi Bankın müəyyən etdiyi qayda və şərtlər daxilində fəaliyyət göstərən valyuta birjaları vasitəsi ilə həyata keçirilə bilər. Müvəkkil bankların iştirakı olmadan xarici valyutanın alınması və satılmasına icazə verilmir.

Ölkənin qanunvericiliyinə görə, Mərkəzi Bank manatın sabitliyini təmin etmək məqsədi ilə xarici valyutanın alqı-satqısı üzrə əməliyyatlar aparmaqla valyuta bazarına müdaxilə edir və satış məzənnəsinin alış məzənnəsindən kənarlaşmasına hədd qoya bilər.

1994-cü il 21 oktyabrda qəbul edilmiş "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsbit edilmişdir ki, ərazisi vahid valyuta ərazisidir və bu ərazidə milli valyuta kimi manatın alıcılıq qabiliyyətinin möhkəmləndirilməsini təmin edən pul-kredit və valyuta siyasəti yeridilir. Eyni zamanda, ölkənin valyuta ehtiyatları milli valyutanın alıcılıq qabiliyyətini qorumaq, dövlətin iqtisadi tələbatı və sosial inkişafı ilə bağlı ehtiyacları ödəmək, xarici borcun ödə-

nilməsi sahəsində öhdəlikləri yerinə yetirmək məqsədi ilə mərkəzləşdirilmiş xarici valyuta və digər valyuta sərvətləri kimi çıxış edir.

Valyuta ehtiyatları respublika büdcəsinin valyuta gəlirlərindən və sabitləşdirmə fondundan ibarət olmaqla, onun formalaşması qaydası Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Sabitləşdirmə fondu manatın məzənnəsinin sabitləşdirilməsini təmin etmək məqsədilə yaradılır və ondan istifadə edilməsi barədə sərəncamı Azərbaycan Respublikasının Milli Bankı verir. Hazırda Azərbaycanda həm rezident, həm də qeyri-rezident olan hüquqi şəxslərin valyuta vəsaiti xarici iqtisadi fəaliyyətdən, daxili valyuta bazarında valyuta alınmasından, valyuta kreditləri formasında, habelə ölkə qanunvericiliyinə zidd olmayan digər formalarda əldə edilən valyuta hasilatı hesabına formalaşır. Rezidentlər ölkənin müvəkkil banklarında xarici valyuta hesablarına malik ola bilərlər. Ölkə qanunvericiliyinə görə, Mərkəzi Bank tərəfindən başqa hal müəyyən edilmədikdə rezident müəssisə və təşkilatlar əldə etdikləri xarici valyutanı məcburi şəkildə müvəkkil banklardakı öz hesablarına köçürməlidirlər. Onu da qeyd edək ki, rezidentlər Mərkəzi Bankın müəyyən etdiyi hal və şərtlər daxilində respublika hüdudlarından kənarda xarici valyuta hesabı aça bilərlər. Müvəkkil banklar tərəfindən rezidentlərin xarici valyuta hesablarının açılması və bu hesablar üzrə əməliyyatların aparılması qaydasını Mərkəzi Bankı müəyyən edir.

Azərbaycanda hüquqi şəxs olan rezidentlər tərəfindən cari valyuta əməliyyatlarının həyata keçirilməsi üçün heç bir məhdudiyyət qoyulmur. Kapitalın hərəkəti ilə bağlı valyuta əməliyyatları hüquqi şəxs olan rezidentlər tərəfindən Mərkəzi Bankın müəyyən etdiyi qaydada aparılır. Bununla yanaşı, hüquqi şəxs olan rezidentlər valyuta sərvətlərini köçürmə yolu ilə ölkəyə gətirmək və ölkədən çıxarmaq, habelə gömrük prosedurlarına əməl etməklə nağd şəkildə ölkəyə gətirmək və ölkədən çıxarmaq hüququna malikdirlər. Eyni zamanda onlar, tərəfindən valyuta sərvətlərinin respublikaya köçürülməsi və nağd şəkildə gətirilməsi, habelə respublikadan köçürülməsi və nağd şəkildə çıxarılması qaydalarını Mərkəzi Bank müəyyən edir. Hazırda qiymətli metallarla və qiymətli daşlarla əməliyyatların aparılması ilə bağlı münasibətlər "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir Respublika ərazisində xarici investisiyaların iştirakı ilə hüquqi şəxslərin öz məhsulunun ixracından əldə etdikləri valyuta hasilatından istifadə etməsi qaydası "Xarici in-

vestisiyanın qoyulması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

Fiziki şəxs olan rezidentlər əvvəllər respublikamıza köçürülmüş valyuta sərvətlərini Azərbaycan Respublikasından maneəsiz köçürmək hüququna malikdirlər. Onlar əvvəllər respublikamıza köçürülmüş valyuta sərvətlərini Mərkəzi Bankın müəyyən etdiyi qaydalara uyğun olaraq müvəkkil banklar tərəfindən verilmiş arayışlar əsasında gömrük prosedurlarına əməl etməklə nağd şəkildə respublikadan çıxara bilərlər. Eyni zamanda, fiziki şəxs olan rezidentlər valyuta sərvətlərini gömrük prosedurlarına riayət etməklə Azərbaycan Respublikasına nağd şəkildə gətirə bilərlər. Fiziki şəxs olan rezidentlər tərəfindən ölkə ərazisinə gətirilən valyuta sərvətlərinin məbləği 50 min ABŞ dolları ekvivalentindən artıq olduqda, gömrük orqanları vəsaitlərin məbləği, gətirilmə tarixi, gətirilmiş şəxs və onların gətirildiyi ölkə barəsində məlumatı 7 gün müddətində Mərkəzi Banka və müvafiq icra hakimiyyəti orqanına təqdim edir.

Onlar respublikamıza əvvəllər nağd şəkildə gətirilmiş 50 min ABŞ dolları ekvivalentinədək valyuta sərvətlərini onların gətirilməsini təsdiqləyən gömrük sənədləri əsasında Azərbaycan Respublikasından kənara köçürə bilərlər. Fiziki şəxs olan rezidentlər Azərbaycan Respublikasına əvvəllər nağd şəkildə gətirilmiş valyuta sərvətlərindən 50 min ABŞ dolları ekvivalentindən artıq məbləğdə valyuta sərvətlərini respublikamızdan kənara köçürdükdə, valyuta gətirilən ölkənin müvafiq bank və ya digər kredit təşkilatı tərəfindən bu vəsaitin ona nağd şəkildə verilməsini təsdiq edən arayış təqdim etməlidirlər. Bununla yanaşı, fiziki şəxs olan rezidentlər respublikamıza əvvəllər nağd şəkildə gətirilmiş 50 min ABŞ dolları ekvivalentinədək valyuta sərvətlərini gömrük prosedurlarına əməl etməklə nağd şəkildə çıxara bilərlər.

Ölkə qanunvericiliyinə müvafiq qaydada Azərbaycan Respublikasına köçürülmüş və ya nağd gətirilmiş valyuta sərvətləri istisna olmaqla fiziki şəxs olan rezidentlərin digər valyuta sərvətlərinin Azərbaycan Respublikasından köçürülməsi və gömrük prosedurlarına əməl etməklə nağd çıxarılması qaydalarını ölkənin Mərkəzi Bankı, valyuta sərvətlərinin nağd çıxarılması zamanı ödənilməli olan rüsumların dərəcəsini isə müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Bundan əlavə, fiziki şəxs olan rezidentlər özlərinin valyuta vəsaitləri, o cümlədən Azərbaycan Respublikasında əldə etdikləri vəsaiti müvəkkil banklarda olan valyuta hesablarına sərbəst daxil edə bilərlər.

"Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanunvericiliyinə görə, qeyri-rezidentlər müvəkkil banklarda xarici valyutada və milli valyutada hesablarını aça bilərlər. Bu hesabların açılması və onlardan istifadə edilməsi qaydasını ölkənin Mərkəzi Bankı müəyyən edir. Onlar valyuta sərvətlərini köçürmə yolu ilə Azərbaycan Respublikasına gətirmək və oradan çıxarmaq, habelə gömrük prosedurlarına əməl etməklə nağd şəkildə ölkəyə gətirmək və çıxarmaq hüququna malikdirlər. Eyni zamanda, onlar respublikamıza əvvəllər köçürülmüş valyuta sərvətlərini ölkədən maneəsiz köçürmək hüququna malikdirlər.

Qeyd etmək lazımdır ki, ölkə qanunvericiliyinə görə, qeyri-rezidentlər Mərkəzi Bankın müəyyən etdiyi qaydada valyuta sərvətlərini manatla almaq və satmaq hüququna malikdirlər.

Azərbaycan Respublikasının Milli Məclisi valyuta siyasətinin ümumi prinsiplərini, xarici dövlət borcunun limitini, xarici ölkələrə verilən kreditlərin həcmini, Azərbaycan Respublikası büdcəsinin tərkib hissəsi kimi valyuta planını müəyyən edir, valyuta tənzimi və nəzarəti məsələlərinə dair qanunvericilik aktları qəbul edir. Onu da qeyd edək ki, ölkənin Mərkəzi Bankı respublikada valyuta tənzimini həyata keçirən əsas orqandır. Mərkəzi Bank valyuta tənzimi sahəsində aşağıdakı funksiyaları yerinə yetirir:

Qeyd etmək lazımdır ki, 2005-ci ildə Dünya bazarında neftin qiymətinin bahalaşması Azərbaycanda müəyyən tədbirlərin görülməsinə səbəb oldu. Belə ki, 2005-ci ildə atılan addımlardan ən mühümü ölkə Prezidenti İlham Əliyevin "Milli valyutanın denominasiyası haqqında" Fərmanı oldu. Fərmana əsasən 2006-cı il yanvarın 1-dən etibarən Azərbaycan milli valyutanın - manatın denominasiyasını aparır. Denominasiya üçün əsas aşağıdakılar hesab edilmişdir:

- Aparıcı valyutaların mübadilə məzənnələrinə uyğun manat məzənnəsinin formalaşması üçün əlverişli şəraitin meydana çıxması;
- Ölkədə pul dövriyyəsinin daha da yaxılaşdırılması zəruriliyi;
- Uçot və hesablaşma sistemlərinin sadələşdirilməsi;
- Dövlət xərclərinə qənaət edilməsi.

Belə bir faktı göstərmək lazımdır ki, bu dövr ölkə iqtisadiyyatının yüksəlişi dövrü ilə müşayiət olunsa da, dünyanı 2008-ci ildən bürüyən qlobal iqtisadi böhran respublika hökumətini müəyyən tədbirlər görməyə vadar etdi.

Azərbaycan iqtisadiyyatının dollarlaşmasının aradan qaldırılması üzrə tədbirlərin səmərəsizliyinin əsas səbəblərindən biri maliyyə-pul

sistemindəki aşağıdakı institutların maraqları arasında disbalansın saxlanmasından ibarətdir.

Belə ki, nağd və nağdsız valyuta ilə geniş əməliyyat aparan (xüsusilə də xaricə valyuta ilə əmanətlərin cəlb olunması və istifadəsi) maliyyə və kredit strukturları(o cümlədən kommersiya bankları) və Azərbaycan Respublikasının Mərkəzi Bankı(pul kütləsinin hərəkətinin idarə olunması ilə əlaqədar) və büdcə arasında tarazlıq gözlənilməlidir.

İqtisadiyyatın dollarlaşması dərəcəsi və valyuta münasibətlərinin dövlət tənzimlənməsi arasında disbalansın mövcudluğu maliyyə-pul sisteminə əhəmiyyətli təsir göstərir. Hazırkı şəraitdə qadağa və diskriminasion xarakterli tədbirlər üstün olaraq qeyri-sabit xarakter daşıya bilər.

Dollarlaşmanın yüksək səviyyəsi şəraitində əhalinin yığımı vətəndaşların əmanətləri haqqında xüsusi qanun qəbul edilməsi əsasında milli valyutanın alıcılıq qabiliyyətinin ardıcıl olaraq möhkəmləndirilməsinə və Azərbaycan banklarında yığımın zəmanətinin yüksəldilməsinə istiqamətlənən alternativsiz məzənnə ilə təmsil olunur. Əmanətlərin dollarlaşması səviyyəsinin aşağı salınması üzrə müvəqqəti xarakterli tədbirlər yalnız pul tədavülündə vəziyyəti kəskinləşdirə və dövlətə inamsızlığı möhkəmləndirə bilər, başlıcası isə istehlak bazarına təzyiqi qəfildən yüksəldə bilər. Bundan başqa, istənilən repressiya xarakterli fövqəladə tədbirlər, hər şeydən əvvəl, maliyyə bazarının müəyyən işbaz qruplarının maraqlarına xidmət edir. Xarici valyutanın real alıcılıq qabiliyyətinin milli iqtisadiyyatın siyasətindən və vəziyyətindən asılı olmaması onu, xüsusilə də dünya bazarı ilə inteqrasiya şəraitində, işgüzar dairələr üçün daha cəlbedici edir.

Əmanətlərin stimullaşdırılması üzrə bazar elementlərinin ardıcıl tətbiqi və bunun əsasında tələbə emission təzyiqin aşağı salınması əvəzində iqtisadi islahatların ilk illərində dövlətin qiymət siyasəti ilə manatın alıcılıq qabiliyyətinin aşağı salınması təşəbbüsünün fonunda mübadilə əməliyyatlarının tam liberallaşdırılması həyata keçirildi.

Həqiqətən iqtisadiyyatın pul kütləsinə real tələbini təmin etmək məqsədilə kredit emissiyasının həyata keçirilməsi təkcə maliyyə-kredit münasibətlərində deformasiyaların artmasını aradan qaldırmağa imkan vermir, həm də Azərbaycan iqtisadiyyatının inkişafına dinamizm bəxş edir. Hər şeydən əvvəl, pul-kredit siyasətində sistemli dəyişikliklər aparılması, iqtisadiyyatın bütün sektorlarının və kredit bazarı seqmentlərinin qarşılıqlı münasibətləri tələb olunur.

Milli valyuta statusunun bərpasının digər vacib istiqamətlərindən biri daxili maliyyə və xarici bazarlarda həyata keçirilən respublika və yerli büdcələrdən borc götürülməsinin tədriclə Azərbaycan Respublikası Mərkəzi Bankının məqsədli kreditlərlə əvəz olunması sayılır. Bu, bank vəsaitlərinin cari borc götürülməsinin artımı, eləcə də daxili dövlət borcuna xidmətlə əlaqədar respublika büdcəsi üçün qoyulan çox ağır xərcləri xeyli aşağı salmağa imkan verir. Eyni zamanda daxili maliyyə bazarında dövlətin pula tələbini aşağı salmaq və müvafiq olaraq DQİ və digər maliyyə alətlərinin gəlirliliyi və bank resurslarının real sektora istiqamətləndirilməsini təşkil etmək imkanı meydana çıxır.

Kreditlərin müsabiqə əsasında layihələr altında verilməsi və bundan başqa, bank strukturlarının özlərinin kreditlərin verilməsi müsabiqələrində iştirakı rejiminin tətbiqi mütləq sayılır.

Mövcud şəraitdə dövlətin bank krediti altında zəmanət verməsindən imtina etməsi ciddi surətdə kredit münasibətlərini poza bilər. Keçmişdə fəaliyyət göstərən rejimi nəinki bərpa etmək, həm də məqsədli dövlət proqramları çərçivəsində real sektorun müəssisələrinə banklar tərəfindən verilən kreditlər üzrə dövlət zəmanəti institutunu gücləndirmək lazımdır. 2014-cü ildə iqtisadiyyata kredit qoyuluşu aşağıdakı kimi olmuşdur:

**2014-cü ildə Azərbaycanda iqtisadiyyata kredit qoyuluşu**
**Real sektor**

| | **2014-cü il dekabrın 1-i vəziyyətinə, milyon manat** | **2013-cü ilin müvafiq dövrünə nisbətən, faizlə** |
|---|---|---|
| Kredit qoyuluşları – cəmi | 18152 | 119,1 |
| Ondan: -qısamüddətli<br>-uzunmüddətli | 3716<br>14436 | 108,7<br>122,1 |
| Ödənilmə vaxtı keçmiş kreditlər | 981 | 123,5 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, % | 5,4 | - |

Qeyd etmək lazımdır ki, respublikamızda maliyyə sabitliyinin təmin olunması və milli valyutanın möhkəmləndirilməsi kursu, daha dəqiq desək, pul kütləsinin və büdcə kəsirinin məhdudlaşdırılması kursu (büdcə maliyyələşdirilməsini azaltmaq yolu ilə tədiyəqabiliyyətli tələbi və müvafiq surətdə inflyasiyanı cilovlamaq nəzərdə tutulurdu) əslində çox ciddi iqtisadi problemin həllinə çox sadə yanaşmanı reallaşdırır. Bu kursu maliyyə sabitliyinin təmin olunması üçün dövlətin maliyyə-kredit tənzimlənməsi vasitələri və metodlarının bütün ehtiyatlarından istifadə etmək qabiliyyətsizliyinin meydana çıxması kimi qiymətləndirmək lazımdır. Bu zaman əmanətlərin və müvafiq olaraq daxili investisiya resurslarının formalaşması mənbələri bağlanır, pul kütləsinin artan kəsirinin təsiri altında pul bazarı seqmentlərinin gəlirliyinin iqtisadiyyatın real sektoru gəlirliyinin ziyanına süni olaraq ötüb keçməsi baş verir. İstehsalın dayanıqlı surətdə aşağı düşməsi və vergitutma bazasının azaldılması şəraitində pul kütləsinin və büdcə kəsirinin ixtisar olunması istiqaməti eyni vaxtda büdcənin məsrəf hissəsinin maliyyələşdirilməsi üzrə öhdəliklərin yerinə yetirilməsi və gəlir hissəsinin formalaşması arasında disbalansın yaranmasına gətirib çıxarır.

Valyuta sahəsində başlıca vəzifə, manatın kursunu idxal yox, ixracı stimullaşdırmağa, ixracatın səmərəliliyini yüksəltməyə istiqamətləndirməkdir Bu, respublikanın mənafeyini ifadə edən ticarət balansı və cari əməliyyatlar üzrə tədiyyə balansının formalaşmasını təmin edə bilər.

Respublikada iqtisadiyyatın pulla örtülməsi mexanizminin vacib şərtlərindən olan təminat sistemi kifayət qədər inkişaf etmədiyindən, təklif olunan hər bir yeni pul kütləsi real sektorun canlanmasına yox, əsasən ticarət və spekulyativ gəlir götürmək məqsədləri üçün istifadə edilir. Ona görə də tədavüldə olan pulların xeyli hissəsi banklara qayıtmır. Bu, maliyyə sektoru ilə real iqtisadiyyatın inkişaf tempinin koordinasiyasının kifayət qədər təmin olunmadığına sübutdur.

Bu gün manatın məzənnəsinin stabilliyinə nail olmaqla yanaşı, onun ticarət və tədiyyə balansı ilə birbaşa əlaqəsi, idxal olunanlarla ixrac olunanların dəyəri arasında nisbətlərin respublikanın mənafeyinə cavab verməsi təmin olunmalıdır. Bu, istehsalla istehlak arasında nisbətlərin əvvəlincinin xeyrinə dəyişilməsinə, istehlakı bir qədər məhdudlaşdırsa da, ölkədə iqtisadi fəallığın artmasına, istehsalın inkişafına təsir edə bilər.

Yerli xammal resursları əsasında istehlak malları istehsal edən, daxildə və xaricdə reallaşdırılan rəqabətqabiliyyətli milli yeyinti və yüngül sənaye müəssisələrinin inkişafı təmin olunmalıdır.

Bu məqsədlə bu sahənin inkişafına müəyyən müddət üçün vergi güzəştləri etməklə və eləcə də investisiyaya yönəltmək üçün əlverişli şərtlərlə onlara uzunmüddətli kreditlər verilməsini təmin etməklə, qısa müddət ərzində yüngül və yeyinti sənayesinin inkişafına nail ola bilər.

İstehsalda, ixracatda və idarəetmədə bazar iqtisadiyyatına adekvat struktur dəyişiklikləri aparmaqla, istehsalın səmərəliliyini yüksəltməklə, rəqabət- qabiliyyətli məhsul istehsalını artırmaqla, işsizlik problemini həll etmək və xalqın rifahını daha da yüksəltmək mümkündür.

### 3. Azərbaycanda valyuta- məzənnə siyasətinin xarici ticarətə təsiri

Xarici ticarətin, eləcə də qiymətlərin tədriclə liberallaşdırılması şəraitində sabit valyuta məzənnəsi xarici ticarət sahəsindəki islahatların mənfi nəticələrini aradan qaldırdı. Digər tərəfdən unutmaq olmazdı ki, tədiyyə balansı, hər şeydən əvvəl isə, cari əməliyyatlar balansının tarazlaşdırılmasında əsas ağırlıq məhz valyuta məzənnəsinin üzərinə düşür. Cari əməliyyatlar balansı kəsirinin maliyyələşdirilməsi isə öz növbəsində valyuta ehtiyatlarının əsas funksiyası olmuşdur. Əgər cari əməliyyatlar balansının pisləşməsinin əsas səbəbi daxili qiymətlərin sürətlə artması nəticəsində ölkənin xarici bazarlarda rəqabət- qabiliyyətliliyinin zəifləməsinə gətirib çıxararsa, onda milli valyutanın revalvasiyası ölkənin rəqabət gücünün bərpa olunmasına yardım edir. Bundan başqa, valyuta məzənnəsinin sabitliyi islahatların ilkin mərhələsində keçmiş iqtisadi sistemdən miras qalmış bir sıra nöqsan və çatışmazlıqları aradan qaldırır.

Azərbaycanda valyuta məzənnəsinin siyasəti seçimi ölkə iqtisadiyyatının diversifikasiya səviyyəsinin nisbətən aşağı olmasının və onun dünya neft bazarından asılılığının nəticəsidir. Neftin qiyməti ilə manatın məzənnəsi arasında əlaqənin statistik təhlili göstərir ki, manatın real məzənnəsinin dinamikası neftin qiymətinin hərəkəti ilə kifayət qədər uyğunlaşdırılmışdır. Tədqiqatlar göstərir ki, manatın real məzənnəsinin neftdən asılılığı qeyri-simmetrikdir. Daha doğrusu, neftin artan qiymətində manat tədriclə möhkəmlənir, neftin azalan qiymətində isə manat qiymət dəyişməsinə nisbətən daha sürətlə zəifləyir. İqtisadiyyatda canlanma əlamətlərinin yarandığı hallarda (neftin qiymətinin və neft ixracı həcmi zamanı) real məzənnə idxalçılar tərəfindən valyutaya tələbin artması üzündən zəifləyə bilər.

Azərbaycan hökuməti idarə edilən, üzən valyuta məzənnəsi siyasəti həyata keçirir. Hesab edirik ki, Azərbaycanın Mərkəzi Bankının tez bir zaman ərzində manatın məzənnəsinin azad bazar formalaşmasına keçməsi nəticəsində manatın azad üzməsi ölkənin daha çox bazar qanunları əsasında inkişafına imkan verərdi. Məzənnənin bazar qanunları əsasında əmələ gəlməsi isə iqtisadiyyatda nəyin səmərəli, nəyin səmərəsiz olmasını qiymətləndirməyə imkan verəcəkdir.

Onu da qeyd edək ki, heç də üzən valyuta məzənnəsi öz-özlüyündə Azərbaycan iqtisadiyyatının tam sağlamlaşdırılmasının əvəzedilməz vasitəsi sayılmamalıdır, çünki o, iqtisadi subyektlərə qeyri-müəyyənlik şəraitində işləməyə imkan verən bir sıra alətlərin mövcudluğunu nəzərdə tutur. Bu isə o deməkdir ki, normal valyuta bazarını formalaşdırmaq lazımdır.

Qeyd etmək lazımdır ki, dünya ölkələrinin təcrübəsində tam sərbəst məzənnə siyasətinə təsdüfi hallarda və çox qısa vaxt çərçivəsində rast gəlinir. Lakin bu heç də o demək deyildir ki, tənzimlənən və ya təsbit edilmiş məzənnə siyasətini daha məqsədəuyğun saymaq olar. Bu formada siyasətin tətbiqi isə, öz növbəsində makroiqtisadi sabitliyin təmin olunmasını və qorunub saxlanmasını tələb edir. Bu zaman respublika hökumətinin əsas problemi daha çox ortamüddətli dövrü əhatə edə bilən "xarici tarazlığın" formalaşdırılmasının üzərinə düşür.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərir ki, valyuta məzənnəsi siyasəti ilə bağlı yuxarıda qeyd etdiyimiz problemin birdəfəlik həlli yoxdur. Eyni zamanda, bu siyasət ölkənin həm siyasi, həm də iqtisadi prioritetlərindən düz mütənasib asılılıqda yerləşməklə, makroiqtisadi və sosial inkişafın bir-birinə uyğun gələn və bir-birini tamamlayan əsas istiqamətlərinə söykənməlidir. Başqa bir nəticə də ondan ibarətdir ki, valyuta məzənnəsinin dəyişikliyindən əldə edilən effekt stimullaşdırıcı xarakter daşıyan pul-kredit və büdcə siyasəti ilə tərs mütənasib asılılıqdadır. Bu isə o deməkdir ki, qeyd edilən şərtlər daxilində devalvasiya inflyasiyanın artmasına gətirib çıxarır.

Son illər ərzində Azərbaycanda məzənnə siyasətinin effektivliyinin artırılması istiqamətində görülən institusional tədbirlər Mərkəzi Bankın çoxtərəfli məzənnə indekslərinə təsir imkanlarını artırmışdır. Eyni zamanda, Mərkəzi Bankın valyuta bazarındakı dövranını dəyişmiş, nəticədə tətbiq olunan de-fakto məzənnə rejiminin yeni beynəlxalq statusu formalaşmışdır. Belə ki, BVF Azərbaycanı əvvəlki, "sürüşkən bağlılıq" rejiminə qarşı daha liberal olan "sürünən dəhliz" mə-

zənnə rejiminə malik ölkələr qrupuna daxil etmişdir. BVF-in tətbiq etdiyi yeni təsnifata görə, bu rejim üzən məzənnə rejimlərindən sonra ən liberaldır.

Qeyd etmək lazımdır ki, son dövrdə MDB-nin bəzi ölkələrində milli valyutanın devalvasiyası həyata keçirilmişdir. Keçirilən həmin tədbirlər nəticəsində MDB ölkələrində milli valyuta 25-33% intervalında dəyərdən düşmüşdür. İlk dəfə MDB ölkələri arasında Rusiyada həyata keçirilən devalvasiyada məqsəd rəsmi olaraq böhranın neqativ təsirlərini azaltmaq kimi qeyd edilirdi. İqtisadçılar arasında manatın devalvasiyası daha çox məqsədəuyğun məsələlərdən sayılsa da, hesab edirik ki, yaxın vaxtlarda manatın kəskin azaldılmasına getmək olmaz. Onlar bunun üçün devalvasiyanın qısamüddətli dövrdə neqativ, uzunmüddətli dövrdə isə pozitiv təsirlərə malik olduğunu əsas gətirirlər. Ona görə də hesab edirik ki, Mərkəzi Bank öz fəaliyyətində mərhələli olaraq yumşaq məzənnə siyasətindən istifadəyə üstünlük verməlidir. Bu siyasət həm manata olan azalmaya imkan verməyəcək, həm də bir sıra makroiqtisadi, eləcə də büdcə, investisiya siyasətinə müsbət təsirlər göstərmək imkanına malikdir.

Azərbaycan beynəlxalq yolların kəsişdiyi, siyasi-coğrafi cəhətdən əlverişli mövqedə yerləşdiyi üçün ölkəmiz beynəlxalq ticarətin tənzimlənməsində əhəmiyyətli rol oynayır. Ümumdünya Gömrük Təşkilatı beynəlxalq terrorçuluğun törətdiyi dünya miqyaslı təhlükəyə cavab olaraq gömrük xidmətlərinin səmərəli və vaxtında tədbir görməsini, ticarətin təhlükəsizliyi məsələsini diqqət mərkəzində saxlamışdır.

Ölkə Prezidentinin 17 fevral 2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının inkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər) respublikada qlobal informasiya mühitinin yaradılması və informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsinə, o cümlədən gömrük xidmətində bu sahədə aparılan işlərə müsbət təsir göstərdi və böyük imkanlar yaratdı.

Respublikanın gömrük işinin təşkilində informasiya texnologiyaları prioritet olaraq 1995-ci ildən başlayaraq intensiv formada tətbiq edilir. Ölkədə vahid avtomatlaşdırılmış informasiya sisteminin yaradılması gömrük rəsmiləşdirilməsi, nəzarəti və prosedurlarının tam avtomatlaşdırılması, gömrük xidmətlərində idarəetmə proseslərinin həllində elektron üsullardan geniş istifadə edilməsi, idarəetmə proseslərinin informasiya təminatının təşkili, xarici-iqtisadi əməliyyatları əks et-

dirən məlumatların operativ surətdə yığılması, mərkəzləşdirilmiş məlumat bazalarının yaradılması və onların təhlilinin aparılmasını həyata keçirməyə imkan verəcək.

Bundan başqa, Azərbaycan Respublikasının dövlət və icra orqanlarının müvafiq məlumatlarla təmin edilməsi və xarici ölkələrin mərkəzi gömrük orqanları ilə informasiya mübadiləsinin təşkili məsələləri də diqqət mərkəzində olmalıdır.

Ölkənin gömrük xidmətində operativ prosesi təmin etmək üçün vahid korporativ şəbəkənin yaradılması zəruri hesab edilir. Həmin şəbəkə gömrük sərhədini keçən və sərhədləşdirilmiş yüklər barədə operativ məlumatların "On-line" rejmində Dövlət Gömrük Komitəsinə göndərilməsini təmin edəcəkdir. Hazırda bu rejimdə işləyən korporativ şəbəkə 36 sərhəd və gömrük sərhədləşdirilməsi ilə məşğul olan gömrük orqanlarını əhatə edir. Bundan başqa, həmin gömrük orqanlarında lokal şəbəkələr yaradılmış və onların informasiya mübadiləsində və müxtəlif gömrük prosedurlarının təşkilində əhəmiyyəti danılmazdır. Korporativ şəbəkənin istismarı zamanı dörd növ rabitə kanalından: fiber-optik, peyk, telefon və radio kanallarından istifadə edilir. Ümumiyyətlə, korporativ şəbəkənin istismarı gömrük rəsmiləşdirilməsi, nəzarət və prosedurların avtomatlaşdırılması üçün imkan yaratmışdır.

Qeyd etmək lazımdır ki, gömrük işinin təşkilində müxtəlif rəsmiləşdirmə prosedurları, nəzarət formaları, sərhədi keçən zaman yüklərin qeydiyyatı, müşayiəti və s. prosedurlar böyük üstünlüyə malik olduqları üçün məhz bu prosedurların avtomatlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamətdə aparılan işlərin arasında "Çatdırma" proqram təminatının tətbiqi sərhədi keçən zaman yüklərin qeydiyyatına, nəzarətdə saxlanılmasına, daxili elektron poçt əsasında göndərən və təyinat gömrük orqanları əsasında informasiya mübadiləsinə və yüklərin elektron müşahidəsinə imkan verir. Həmin proqram təminatı vasitəsilə idxal, ixrac və tranzit yüklərə elektron nəzarət təşkil olunur.

Bundan başqa, gömrük rəsmiləşdirilməsi və ya yük gömrük bəyannamələrində qeyd edilən məlumatlara kompyuter proqram təminatı vasitəsilə elektron nəzarəti aparmaq üçün "Gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılması sistemi" nin (GRNAS) layihə sənədləri tərtib olunmuş və proqram təminatı qurulmuşdur. Bu proqram təminatı əvvəlcə, ekperimental qaydada gömrük rəsmiləşdirilməsi ilə məşğul olan 20 gömrük orqanında tətbiq olunmuşdur ki, bu da ümumi sayın 87%-ni təşkil edir. Məlum olmuşdur ki, qeyd edilən sistemin tət-

biqi nəticəsində rəsmiləşdirmə vaxtına təxminən altı dəfə qənaət olunur.

Bununla yanaşı, ölkənin gömrük sistemində mal və nəqliyyat vasitələrinə fiziki baxışın avtomatlaşdırılması, avtomatik rejimdə yüklərin müşayiət edilməsi, normativ sorğu materiallarının məlumat bazarlarının yaradılması nəzərdə tutulur. Onu da qeyd edək ki, hazırda yerli gömrük orqanlarının "Statistika və AİS" bölmələrində "Gömrük" proqram təminatının köməyilə gömrük fəaliyyət zonası üzrə xarici iqtisadi əlaqələrin təhlili həyata keçirilir. Məlum olduğu kimi, gömrük orqanları üçün əsas problemlərdən biri müvəqqəti ixrac və idxal olunmuş mallara və nəqliyyat vasitələrinə səmərəli nəzarətin təşkili sayılır. Mövcud proqram təminatı vasitəsilə yerli gömrük orqanlarında müvəqqəti yük və nəqliyyat vasitələrinə aid məlumatlar, eləcə də malların geri qaytarılması, vaxtının uzadılması, rejiminin dəyişdirilməsi haqqında məlumatlar kompyuterə daxil edilir və DGK-yə göndərilir. Ölkə səviyyəsində və yerli gömrük orqanlarında məlumat bazarları müvəqqəti yüklər üzrə təhlillərin aparılmasını və gömrük qaydalarının pozulmasını müəyyən etməyə imkan verir.

Təcrübə göstərir ki, gömrük işinin müasir səviyyədə təşkili, xeyli dərəcədə idarəetmə proseslərinin avtomatlaşdırılmasından asılıdır. Bu məqsədlə "Risklərin idarə edilməsinin avtomatlaşdırılmış sistemi"nin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Hazırda bu sahədə 45 sayda riskləri müəyyən edən meyarlar seçilmiş, yerli gömrük orqanlarından DGK-yə göndərilən riskləri təsvir edən ilkin məlumatların tərkibi və strukturu müəyyən edilmiş, eləcə də risklərin qiymətləndirmə prinsipi tərtib olunmuşdur.

Makromaliyyə sabitliyinin təmin edilməsində və ölkənin sosial-iqtisadi inkişafının möhkəm təməlinin qoyulmasında digər iqtisadi tənzimləyicilərlə yanaşı, gömrük siyasətinin də əhəmiyyəti danılmazdır. Lakin keçid dövrünün ilk illərində real şəraitə uyğun dövlətin gömrük siyasəti olmadığına görə bu proses ümumi iqtisadi mexanizmin tərkib hissəsi kimi yox, kortəbii şəkildə baş vermişdir. Respublikamızın o zaman vahid "rubl" məkanında olması, habelə MDB və digər qonşu ölkələrdə qiymətlərin sərbəstləşdirilməsi şəraitində ölkənin özü üçün zəruri olan məhsul və malların kənara axını təhlükəsi yaranmışdır. Bunun qarşısını almaq məqsədilə 1992-ci ilin aprelində hökumət tərəfindən "Respublikanın daxili bazarının iqtisadi müdafiəsi haqqında" qərar qəbul olundu. Həmin qərara əsasən yalnız neft və qaz

kondensatının, təbii və sıxılmış qazın, mühərrik və soba yanacağının, kerosin və benzinin, elektrik və istilik enerjisinin, çörəyin, uşaq qidasının əsas növlərinin, tibbi təyinatlı məhsulların və dərman ləvazimatının, taksidən başqa, əhaliyə nəqliyyat xidmətinin, telefon üçün abunə haqqının, yataqxanada yaşamağa görə haqq da daxil olmaqla, mənzil kirayəsi haqqının, kommunal xidmətlərin əsas növlərinin qiymət və tariflərinin dövlət tənzimlənməsi nəzərdə tutulurdu.

Azərbaycan Respublikasının NK-nın "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcləri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında" 12 aprel 2001-cil tarixli 80 saylı qərarına əsasən advalor, aksizli mallara isə spesifik rüsumlar tətbiq olunur.

Təhlil olunan dövrdə xarici-iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimlənməsinin və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi, gömrük-vergi qanunvericiliyinə dair normativ – hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli işlər görülmüş, spesifik rüsumların advalor rüsumlarla əvəz olunmasının mərhələli qrafiki əsasən yerinə yetirilmişdir. Nazirlər Kabinetinin Qərarı ilə daha 6 mal qrupunda spesifik rüsumlar advalor rüsumlarla əvəz edilmişdir. İstehsalı genişləndirmək və ixraca əlverişli şərait yaratmaq məqsədilə eyniadlı malların idxalına tətbiq olunan gömrük tarif dərəcələrinə yenidən baxılmış, daxili bazarın qorunması və yerli istehsalın həvəsləndirilməsi üçün müəyyən tədbirlər nəzərdə tutmuşdur.

Gömrük siyasəti sahəsində normativ-hüquqi bazanın mövcudluğu ilə yanaşı, hazırkı dövrdə bu bazanın yeniləşməsi, ölkənin xarici ticarətinin həcminin getdikcə artması və lazımi stimullaşdırıcı amillərin, həmçinin daxili bazarın qorunması, yeni bazarların araşdırılması və yerli məhsulların dünya bazarlarına çıxışının asanlaşdırılması kimi məsələlərin həlli üçün müasir tələblərə cavab verən yeni qanunların qəbul olunması və mövcud qanunvericiliyin təkmilləşdirilməsi məqsədəuyğundur.

Son vaxtlar ölkəmizdə malların idxal prosedurlarının sadələşdirilməsi istiqamətində müəyyən işlər görülmüşdür. Ölkə qanunvericiliyində idxal və ixrac zamanı subyektlərin hərəkətlərinin rəsmiləşdirilməsi qaydaları dəqiqləşdirilmişdir. Azərbaycana malların idxalı zamanı rezidentlər tərəfindən tələb olunan sənədlərin siyahısı qanunvericilikdə sadalanaraq (müqavilə, rüsum, invoys, yol-nəqliyyat sənədləri, malın mənşə ölkəsini müəyyənləşdirən sənədi, keyfiyyət sertifikatı və

s.) artıq prosedurlar aradan götürülmüş və bununla da süründürməçiliyə son qoyulmuşdur. Ölkəyə gətirilən malların gömrük rəsmiləşdirilməsi üçün gömrük yığımı gömrük qiymətinin 0,15%-i məbləğində müəyyən edilmişdir. Ölkə qanunvericiliyinə görə, tranzit yükləri üçün 30 ABŞ dolları, hər əlavə yük deklarasiyası üçün isə 10 ABŞ dolları məbləğində rüsum tutulur. Yük maşınlarının qeydiyyatı üçün 10 dollar, digər vasitələr üçün 15 dollar məbləğində ödəniş tələb olunur. Humanitar yardım kimi gətirilən, beynəlxalq təşkilatların göndərdikləri mallara idxal rüsumları tətbiq olunmur.

Son illər gömrük sistemində hər bir əmtəə kodu üzrə məlumat bazası yaradılmışdır. Bu cür məlumat bazası rəsmiləşdirilən mallar üzrə gömrük dəyərini təhlil etməyə və ortaya çıxan problemləri aradan qaldırmağa imkan verir.

Hal-hazırda gömrük sisteminin səmərəli fəaliyyətini təmin etmək üçün gömrük orqanlarında avtomatlaşdırılmış idarəetmə sisteminə keçidi tam təmin etmək, müasir tipli terminallar yaratmaq, gömrük orqanlarının modernləşdirilməsi işini davam etdirmək, sərhəd-keçid məntəqələrini ən yeni avadanlıq, cihazlarla təmin etmək, xidmət mədəniyyətini daim yüksəltməklə yanaşı, nəzarətini təkmilləşdirmək lazımdır. Bundan əlavə, kadrların peşə hazırlığını artırmaq və beynəlxalq əlaqələri daha da genişləndirmək olduqca vacibdir.

Gömrük xidmətinin avtomatlaşdırılmış idarəetmə sistemi konsepsiyasına uyğun olaraq qlobal şəbəkə yaradılmış, gömrükxanaların əksəriyyəti ilə "Modern əlaqə" təmin edilmiş, idxal-ixrac əməliyyatları üzrə gömrükxanalarda daxil olan gündəlik məlumat əsasında "Gün" məlumat bazası, sərhəd-keçid məntəqələrindən gündəlik keçən yüklər barəsində "Sərhəd" məlumat bazası yaradılmışdır. İdxal olunan malların qiymətinə nəzarəti gücləndirmək üçün onların maksimum, minimum və cari qiymətlərini müəyyən edən gündəlik proqram tərtib edilmişdir.

Gömrük islahatları dövründə DGK-nin beynəlxalq əlaqələri daha da inkişaf etmişdir. Ölkəmiz "Gömrük prosedurlarının sadələşdirilməsi və hormonizə edilməsi haqqında Beynəlxalq Konvensiya"ya (Kioto Konvensiyası) qoşulmuş, Azərbaycan hökuməti ilə Türkiyə, Yunanıstan, Litva hökumətləri və Belçika Krallığı arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər imzalanmışdır. DGK-si Ümumdünya Gömrük Təşkilatı, MDB İştirakçısı Dövlətlərinin Gömrük Xidməti Rəhbərləri Şurası, İqtisadi Əməkdaşlıq

Təşkilatı Gömrük Xidməti Rəhbərləri Şurası, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşən Gömrük Əməkdaşlıq Komitəsi, Avropa Komissiyasının TASİS Proqramı çərçivəsində Avropa Gömrüyü, BMT İnkişaf Proqramı və s. nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində məqsədyönlü iş aparılır. Avropa Birliyi ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması Birliyə daxil olan xarici ölkələrlə xarici-iqtisadi əlaqələrimizi daha da genişləndirmişdir.

Azərbaycanda müasir tələblərə cavab verən gömrük sisteminin formalaşması və inkişafının ən başlıca problemləri arasında ən birincisi, onun maddi-texniki bazasının yaradılması və təkmilləşdirilməsi sayılır. Hazırda qarşıda duran ən mühüm vəzifələrdən biri elə bir maddi-texniki bazanın yaradılmasından ibarətdir ki, bu, ölkənin ərazi məkanına nəzarəti həyata keçirə bilsin, onun iqtisadi təhlükəsizliyini təmin etmiş olsun və ölkənin parlamenti və hökuməti tərəfindən işlənib hazırlanmış gömrük siyasətini reallaşdıra bilsin.

Gömrük sənəd dövriyyəsinin islahatı elə bir nəticə ilə yekunlaşmalıdır ki, gömrük bəyannamələrinin rəsmiləşdirilməsi texnologiyası, növü, forması, "əmtəə-nomenklatura kodu" və onun "kompyuter variantı" həqiqətən də beynəlxalq standartlara uyğun olsun. Böyük İpək Yolunun daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan sahəsinin təlimat təminatı BMT-nin standartlar səviyyəsində tərtib olunmuş TRASEKA ölkələrinin eyniləşdirilmiş sənədlərinə uyğunlaşdırılmalıdı.

Müasir mərhələdə Azərbaycan ixracı böyük inkişaf perspektivinə malik deyildir. Buradan da göründüyü kimi, xarici ticarətin liberallaşdırılması, bizim fikrimizcə, milli iqtisadiyyatın müdafiə olunması amili kimi çıxış edir. Odur ki, xarici siyasətdə proteksionist və liberal istiqamətlərin müqayisə edilməsinə ehtiyac vardır. Xüsusilə də bu halda dünya təcrübəsindən faydalanmaq lazımdır. Belə ki, müasir dünyada heç bir ölkə mütləq azad ticarətlə məşğul olmurlar. İstənilən dövlət üçün onun qəbul olunmuş xarici ticarət siyasətinin milli modeli işlənib hazırlanmışdır. Təbii ki, Azərbaycanın xarici ticarət siyasəti milli iqtisadiyyatın genişlənməsi və inkişafı, iqtisadi artımın daha da sürətləndirilməsi vasitələrindən biri kimi çıxış etməlidir. Milli iqtisadiyyatın müdafiəsi üçün idxal rüsumları və müdafiənin səmərəli formalarından istifadə etmək lazımdır.

Bundan başqa, ölkənin sənaye siyasəti konsepsiyasına və xarici ticarət siyasəti prinsiplərinə əsaslanmaqla Azərbaycanın ixrac strategi-

yası konsepsiyasını işləyib hazırlamağı məqsədəuyğun hesab edirik. Azərbaycanın müasir xarici ticarətinin əmtəə strukturunu əhəmiyyətli dərəcədə dəyişmək lazımdır. Prioritet ixrac müəssisələrini ayırmaq lazımdır, oxşar məhsulların idxalına isə yüksək tarif dərəcələri tətbiq olunmalıdır.

İxrac-idxal əmtəələrinin struktur təhlili göstərdi ki, Azərbaycan əsasən xammal ixracatçısı sayılır. Təhlil göstərdi ki, ixracın strukturunda xammal və materialların payı 50-60%-ə qədər, qida məhsullarının, alkoqollu içkilərin və kimya sənayesi məhsullarının payı 25-30%-ə qədər təşkil edir. Azərbaycan əsasən, xam neft, kənd təsərrüfatı və mineral məhsullar ixrac edir. Yalnız bu əmtəə qrupunun ixracına əsaslanmaq arzuolunmazdır. Ona görə də ixracın məhz bu istiqamət üzrə genişləndirilməsinin heç bir perspektivi yoxdur. Ölkə dünya ticarət bazarının xeyli hissəsinə malik olmaya bilər, lakin o, ixracın vasitəsilə idxalın böyük hissəsini örtə bilər.

Qeyd etmək lazımdır ki, respublikada bütün sahələrin fəaliyyəti xarici bazara uğurlu çıxışa yönəldilməlidir. Xarici ticarət siyasətində ticarət maneələrinin məqsədyönlü istifadəsi yolu ilə ixrac təmayülünü seçmək və idxalın əvəzetməsinin strateji istiqamətlərinin balanslaşdırılması zəruridir. Vergitutmaların aşağı salınması və ya ləğvi yolu ilə ixrac stimullaşdırılmalıdır. Daxili(milli) bazar yalnız keyfiyyətsiz deyil, həm də istehsalı müvafiq şəraitlərdə Azərbaycanda tamamilə mümkün olan yüksəkkeyfiyyətli məhsulların - şərabın, alkoqolsuz içkilərin və s. rəqabətindən müdafiə olunmalıdır. Bu zaman yüksək ticarət maneələri xarici iqtisadi fəaliyyətdə partnyorların itkilərinin səbəbi olmalıdır.

İxracın stimullaşdırılmasını dövlət digər tədbirlər vasitəsilə də, o cümlədən xarici ticarət siyasətinin qeyri-tarif metodlarına aid olan maliyyə rıçaqları vasitəsilə həyata keçirə bilər.

ÜTT-nin gələcəkdə üzvü olmaqla Azərbaycan digər ÜTT üzvləri ilə müqayisədə "ticarətə üstün köməklik rejiminə" malik olmalıdır. Elə bir təminat olmalıdır ki, xarici ticarətdə ölkəyə münasibətdə hər hansı formada diskriminasiya şəraiti yaranmasın (miqdar məhdudiyyətləri, son dərəcə yüksək tariflər, antidempinq prosedurlar və s.). Vahid dünya bazarına inteqrasiya prosesində Azərbaycan ÜTT tərəfindən keçid iqtisadiyyatlı ölkələr üçün müəyyən edilmiş adaptasiya dövründən (nə vaxt ki, ölkə daxili bazarın tarif müdafiəsinin nisbətən sərt siyasətinin və yerli istehsalın həvəsləndirilməsinə digər yardım tədbirlərini həyata keçirmək hüququna malikdir) maksimum istifadə etməlidir.

Ölkənin xarici ticarətinin dövlət tənzimlənməsinin aparıcı orqanı kimi gömrük xidmətinin rolu xeyli artırılmalıdır.

Bundan başqa, Azərbaycan bazarı keyfiyyətsiz əmtəələrdən müdafiə olunmalı və gömrük laboratoriyalarının nəzarətedici rolu fəallaşdırılmalıdır. İdxal əmtəələrinin sertifikatlaşdırılması sistemi təkmilləşdirilməlidir. Gömrük qanunvericiliyinin stabilləşdirilməsi, gömrük rəsmiləşdirilməsinin sürəti və sadəliyi əlverişli investisiya mühitinin yaradılmasını və xarici investisiyaların cəlb olunmasını, o cümlədən emal gömrük rejiminin geniş tətbiqini təmin etməlidir ki, bu da beynəlxalq istehsal kooperasiyası, uzunmüddətli kontraktlar və müqavilənin rəsmiləşdirilməsi üçün əlverişli şərait yaradacaqdır.

Yaxın gələcəkdə ölkənin xarici ticarət siyasətində ixraca yönüm problemi və idxalının əvəzləndirilməsinin balanslaşdırılması ixracın stimullaşdırılması və idxalın səmərəli vergitutmaya cəlb edilməsi ilə əlaqələndirilir.

Bundan əlavə, ixracın genişləndirilməsi və tənzimlənməsi ölkə iqtisadiyyatının canlanması üçün real hərəkətverici qüvvəyə çevrilməlidir.

# VII FƏSİL

# GÖMRÜK –TARİF TƏNZİMLƏNMƏSİ VƏ ONUN MİLLİ İSTEHSALIN İNKİŞAFINA TƏSİRİ

*"Ölkəmizin ümumi tərəqqisində aparıcı qüvvəyə çevrilən gömrük orqanlarının fəaliyyəti günün tələbləri səviyyəsində qurulmuşdur."*

***İlham Əliyev***

## 1. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsində gömrük siyasətindən istifadənin nəzəri aspektləri

Beynəlxalq təcrübə göstərir ki, hər hansı bir ölkədə normal istehlak bazarının formalaşması, başqa sözlə, istehlak bazarının təmin olunması və tarazlaşdırılması, xeyli dərəcədə, tələb və təklifin həcm və strukturu və istehlakçıların gəlirləri və qiymətlər arasında dinamik uyğunluğun formalaşması səviyyəsindən asılıdır. Bazar iqtisadi sistemin təşəkkülü şəraitində isə belə uyğunluğun yaranması əhəmiyyətli dərəcədə xarici iqtisadi- ticarət əlaqələri ilə müəyyən olunur. Belə ki, bazar iqtisadi sistemində istehlak bazarında təklif, yalnız daxili istehsal hesabına deyil, həm də idxal mənbələri hesabına formalaşır. Bundan başqa, yerli istehsalı inkişaf etdirmək və səmərəliliyini artırmaq üçün əlavə imkanlar yaranır.

Qeyd etmək lazımdır ki, xarici ticarət-iqtisadi əlaqələri istənilən ölkədə istehlak bazarının formalaşmasına həm birbaşa, həm də dolayı şəkildə təsir göstərir.

Birbaşa təsir bilavasitə idxal-ixrac əməliyyatları ilə bablı olduğu halda, dolayı təsir çoxşaxəlidir. Adətən dolayı təsirin əsas istiqamətlərini aşağıdakı kimi ifadə edirlər.

İstehlak malları üzrə daxili bazar tələbatının daha dolğun ödənilməsi və inkişafı üçün imkan yaradılması;

İstehlak malları üzrə daxili bazar tələbatından artıq istehsal olunan yerli mallar üçün xarici bazarlara çıxış imkanının yaradılması;

Bazar həcmini genişləndirmək hesabına rəqabət mühitinin inkişafı və bununla da qiymətlərin aşağı salınması;

İstehsal amillərinə tələbatın daha dolğun ödənilməsi və beynəlxalq əmək bölgüsünün üstünlüklərinə uyğun olaraq ixtisaslaşma nəticəsində istehsal potensialının artırılması və ondan daha səmərəli istifadə məqsədilə əlverişli şərait yaradılması;

Elmi-texniki tərəqqinin dünya səviyyəsində mövcud olan son nailiyyətlərinin ölkədə tətbiqi üçün şərait yaradılması və bunun nəticəsində ölkə iqtisadiyyatında, o cümlədən daxili istehlak bazarında dinamikliyin artırılması və s.

Müqayisəli üstünlük prinsipinə görə, hər bir hüquqi və fiziki şəxs özünün daha yaxşı bacardığı işlə məşğul olmalıdır. Məhz bu halda həm o şəxsin özü, həm də cəmiyyət daha çox qazanır.

Bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadi proseslərə təsiri yalnız tənzimləmə şəklində mümkündür. Iqtisadi tənzimləmənin göstərilən tərəflərinin elmi əsaslarını öyrənmək məqsədilə əvvəlcə istehlak malları üzrə xarici ticarət dövriyyəsinə daxil olan malları iki qrupa bölək: Birinci qrupa ölkənin özündə istehsal olunmayan və ya ölkənin onu idxal etmək məcburiyyətində qaldığı malları daxil edək. Dövlətin həmin malların idxalını tənzimləməsi idxal rüsumlarının, bir sıra əlavə vergilərin və keyfiyyət ekspertizası kimi texniki yoxlamaların tətbiqi ilə məhdudlaşır. Ikinci qrupa ölkənin özünün kifayət qədər istehsal edə bildiyi malları daxil edək. Dövlətin bu sahədə xarici ticarəti çevik və düşünülmüş siyasət ilə tənzimləməsi ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir.

İqtisadi ədəbiyyatda adətən, xarici ticarət-iqtisadi əlaqələrinin tənzimlənmə sistemində istifadə olunan vasitələri aşağıdakı kimi qruplaşdırılır:

- İqtisadi vasitələr: gömrük rüsumları, yığımlar, bərabərləşdirici sərhəd vergiləri, milli əmtəə istehsalçılarına maliyyə yardımları və s.;
- İnzibati vasitələr: ixrac və idxal qadağaları və məhdudiyyətləri, lisenziyalaşdırma və kvotalaşdırma, ixracın könüllü məhdudlaşdırılması və s.;
- Texniki vasitələr: texniki norma və standartlar, standartlara uyğunluğu təyinetmə üsulları, təhlükəsizlik qaydaları və normaları, əmtəələrin sertifikatlaşdırma sistemləri, sanitar-baytar və səhiyyə normaları, ətraf mühitin mühafizəsi ilə bağlı tədbirlər və s.;
- Milli ixracatlara və ixrac üçün əmtəə istehsal edən istehsalçılara yardım tədbirləri;

- Valyuta-maliyyə tədbirləri: bank uçot dərəcəsi və borc faizi ilə manevr etməklə milli valyuta məzənnəsinə təsir göstərmək, valyuta məhdudiyyətləri və s.

Beynəlxalq təcrübə sübut edir ki, xarici ticarət-iqtisadi əlaqələrinin inzibati tənzimlənmə vasitələri yaznız fövqəladə şəraitdə səmərəlidir, normal iqtisadi inkişaf şəraitində isə inzibati vasitələrlə iqtisadi vasitələr arasındakı nisbət iqtisadi vasitələrin xeyrinə dəyişir. Lakin bu halda da xarici ticarət-iqtisadi əlaqələrin tənzimlənmə vasitələrindən konkret şəraitin tələbləri baxımından kompleks şəkildə istifadə olunması daha məqsədəuyğun hesab edilir.

Qeyd etmək lazımdır ki, istər rüsum, istərsə də kvota tətbiq olunduqda əmtəənin daxili bazar qiyməti artır, yerli istehlakçıların rifahı aşağı düşür və yerli istehsalçıların rifahı yüksəlir. Bununla yanaşı kvotanın rüsumdan iki əsas fərqi mövcuddur. Əvvəla, rüsum tətbiq edildikdə bazara çıxarılan və ya gətirilən(satılacaq) əmtəənin həcmi özözünə, tələb və təklif prinsipinə uyğun olaraq tənzimləndiyi halda, kvota tətbiq edildikdə əgər hökumət tənzimləmə işini bazarın öz ixtiyarına buraxarsa, o zaman "kim tez idxal etdi, o qazandı" prinsipi meydana çıxar, gömrük məntəqələrində növbə yaranar və buradan irəli gələn arzuolunmaz proseslər baş verə bilər. Ona görə də, hökumət kvotanı lisenziyalaşdırmaq məcburiyyətində qalır. İkincisi, rüsum tətbiqindən gələn vəsait vergi şəklində büdcəyə yığıldığı halda, kvotanın tətbiqindən gələn vəsait kvotaya lisenziyası olanların xeyrinə qalır. Onlar bu gəlirin bir hissəsini öz imiclərini artırmağa (curnal, televiziya, konfranslar, xeyriyyəçilik tədbirləri və s.) xərcləyir, az bir hissəsini isə lisenziya pulu kimi ödəyirlər.

Təbii ki, ilk baxışdan rüsum kvotadan daha cazibədar görünür. Lakin yaddan çıxarmaq olmaz ki, rüsum ciddi dövlətlərdə hər ay, hətta hər il dəyişdirilə bilmədiyindən, rəqabət üstünlüyünə malik xarici şirkətlərə yerli istehsalı sıxışdırmağa şərait yarada bilər. Bu mənada, bəzi hallarda, xüsusilə də, keçid iqtisadiyyatlı ölkələrdə kvotaya müraciət etmək zərurəti yaranır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, açıq iqtisadi siyasət hər hansı bir ölkənin təcridolmadan qurtarması, dünya təsərrüfatçılıq sisteminə uyğunlaşması üçün əsas şərt kimi çıxış edir. Lakin yaddan çıxarmaq olmaz ki, ölkənin "açıqlıq" dərəcəsi onun mənafeyinə uyğun qaydada müəyyənləşdirilməli və ölkənin strateji məqsədli istehsal sahələri

dəqiqləşdirilməlidir. Heç bir şübhə yoxdur ki, öz iqtisadiyyatını açıq elan etmiş ölkə həm dünyaya qovuşmaq, həm də xarici investisiyaların öz ölkəsinə axınını təmin etmək istəyir. Çox vaxt ölkənin ağır iqtisadi böhran şəraitində daha tez və böyük həcmdə investisiya cəlb etmək işində müəyyən tələskənliyə yol verilir. Ölkənin iqtisadi maraqlarına cavab verməyən və bir-biri ilə ziddiyyət təşkil edən iqtisadi qanunlar qəbul edilir və onların icra mexanizmlərinin işlənib hazırlanması zamanı dolaşıqlığa yol verilir. Qeyd etmək lazımdır ki, dövlət mülkiyyətinin özəlləşdirilməsi, investisiya və xarici kredit siyasəti, vergi və gömrük xidməti sahələrinə dair normativ-hüquqi sənədlərin qəbulu zamanı bu cür tələsiklik, xüsusilə, yolverilməzdir və son yekunda ağır nəticələrə gətirib çıxara bilər. Odur ki, mövcud nöqsanları aradan qaldırmaq və minimuma endirmək məqsədilə həmin sənədlərdə düzəlişlər aparılması zərurəti meydana çıxır.

Ölkənin iqtisadi təhlükəsizlik tələblərinə cavab verən daxili bazarın formalaşmasında özəlləşdirmə proqramının həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, özəlləşdirmə bir tərəfdən, iqtisadi təhlükəsizliyi möhkəmləndirə bilər, digər tərəfdən isə iqtisadi təhlükəsizliyin təmin olunmasına mənfi təsir göstərə bilər. Məsələ burasındadır ki, şəxsi mülkiyyət sahibləri heç də öz mallarının qədrini başqalarından az bilməz və onların qorunması məqsədilə hər cür tədbirlərə əl atmağa və müxtəlif yollar axtarmağa hazırdırlar.

Özəl sektorların inkişafına, xüsusilə istehsalyönümlü özəl müəssisələrin yaradılmasına dövlət qayğısının artırılması ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasına birbaşa yardım kimi qiymətləndirilməlidir. Belə ki, dövlət dünya bazarına məhsul çıxara biləcək özəl müəssisələrin rəqabətədavamlı olması üçün lazımi kömək göstərməlidir. Bunun üçün o, müxtəlif üsullardan, məsələn, maliyyə yardımı, güzəştli kredit, gömrük-tarif güzəştləri, vergidən azadetmə və ya onu azaltma, müasir texnologiyaların alınmasına və gətirilməsinə yardım və s. üsullardan istifadə edə bilər. Həm də bu zaman ixrac malları istehsal edənlərə üstünlük verilməlidir. Respublikada istehsalı stimullaşdırmaq üçün istər gömrük-tarif tənzimlənməsi tədbirlərindən, istərsə də vergi siyasətindən uğurla istifadə olunur. Bu isə artıq öz səmərəsini verməkdədir. Belə ki, istehsalın həcmi ilbəil artır və ixracda qeyri-neft sektoruna məxsus malların xüsusi çəkisi yüksəlir. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında, eləcə də bazarın formalaşmasın-

da elm və təhsilin məqsədyönlü təşkili ilə yanaşı, intellektual mülkiyyətin dövlət qanunları ilə etibarlı şəkildə, beynəlxalq normalara uyğun qorunması olduqca vacibdir. Elmtutumlu, yüksək məhsuldarlıqlı əməyin təşkili, yeni və ən yeni texnologiyanın yaradılması və tətbiqi bilavasitə, məhz bu amillərdən asılıdır. İntellektual mülkiyyətin qorunması bir tərəfdən rəqabətə davamlı istehsal sahələrinin yaranmasını, dünya bazarına çıxa biləcək məhsulların istehsalını, həmçinin yaradıcılıq axtarışlarını stimullaşdırır, digər tərəfdən də "zəka axını" deyilən çox qorxulu bir prosesin qarşısının alınmasına imkan verir.

Təcrübə göstərir ki, iqtisadi inteqrasiyanın ikili xüsusiyyəti və iqtisadi təhlükəsizliyin təmin olunması bir-biri ilə əlaqəli problemdir. Xüsusilə də yanacaq, enerji, rabitə, nəqliyyat sahələrinin inteqrasiyası daha böyük diqqət tələb edir. Başqa sözlə, inteqrasiya dərəcəsinin səviyyəsi ölkənin xaricdən asılılığını artıra, zəiflədə, eləcə də heç səmərə verə bilməyən amilə də çevirə bilər.

Hazırkı şəraitdə azad və yaxud ixrac istehsal zonası kimi adlandırılan iqtisadi zonaların yaradılması heç də həmişə ölkənin gələcək inkişafı, iqtisadi təhlükəsizliyin təmin edilməsi baxımından əlverişli olmur. Heç kimə sirr deyildir ki, xarici sahibkarlar, donor ölkələr və iri xarici investorlar xüsusi zona fəaliyyəti üçün bağlanan müqavilə şərtləri və müddəti daxilində daha çox fayda götürməyi nəzərdə tuturlar. Lakin zona sahibini gündəlik fayda deyil, uzunmüddətli strateji məqsədin həyata keçirilməsi düşündürməlidir. Xüsusilə də nəzərdə tutulmalıdır ki, azad iqtisadi zona birincisi, respublikanın dünya təsərrüfatına qovuşmasına, beynəlxalq iqtisadi məkana uyğunlaşmasına kömək etsin. İkincisi, ölkədə beynəlxalq qanunlara və bazar qaydalarına uyğun fəaliyyət göstərmək, işləmək vərdişləri aşılasın. Üçüncüsü, müasir texnologiyaya əsaslanan sənaye sahələrinin meydana gəlməsinə, habelə həmin sahələrdə işləyə biləcək kadrların hazırlanmasına kömək etsin. Dördüncüsü, ölkənin valyuta gəlirini artırsın, işsizliyin aradan qaldırılmasına yardımçı olsun.

Bununla yanaşı, onu da nəzərə almaq lazımdır ki, AİZ heç də yalnız öz qanunları ilə işləmir və bu zonanın yaradılması da, fəaliyyəti də beynəlxalq qanunlarla yanaşı,həm də ölkənin öz qanun-qaydaları ilə idarə olunur və tənzimlənir. Beləliklə, AİZ-in ölkənin iqtisadi təhlükəsizliyinə təsiri məsələsi birbaşa respublikanın müvafiq qanunlarına tabedir. İlk növbədə, AİZ-də özəlləşdirmə, sərmayə qoyuluşu, ixrac-

idxal, gömrük xidməti, yeni texnologiyaya əsaslanan istehsal sahələrinin və iş yerlərinin yaradılması məsələlərinə dair dövlətin qanunları və proqramları ölkənin uzaq gələcəyinin inkişafına və təhlükəsizliyin təmin olunmasına istiqamətlənməlidir.

İqtisadi islahatlar nəticəsində artıq 1995-ci ildən başlayaraq ölkədə iqtisadi tənəzzülün qarşısı alınmış, iqtisadi və siyasi sabitlik bərqərar olmuş, beynəlxalq aləmdə Azərbaycanın nüfuzu əhəmiyyətli dərəcədə artmış və iqtisadiyyatın dinamik inkişafı təmin edilmişdir. Prezident Ilham Əliyev demişdir: "2004-2014-cü illər ərzində Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə olmuşdur. Bütün göstəricilər bunu təsdiq edir. 2004-cü ildən bu günə qədər ÜDM 3,4 dəfə artmışdır.Sənaye istehsalı 2,7 dəfə artmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. 2004-cü ildə bizim valyuta ehtiyatlarımız 1,8 milyard dollar idisə, bu gün 50 milyard dollardan çoxdur"

Qeyd etmək lazımdır ki, strategiya ilə infrastruktur sahələrin genişmiqyaslı inkişafı, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsi və digər sosial problemlərin həlli, iqtisadiyyatın intellektual və texnologiya bazasının səviyyəsinin yüksəldilməsi və vacib bir aspekti - insan kapitalının inkişaf etdirilməsi 2005-2025-ci illər üzrə əsas inkişaf perspektivləri kimi müəyyən olunmuşdur.

Qeyri-neft sektorunun inkişafı digər mühüm sənədin -"Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasının müəyyən etdiyi əsas istiqamətlərdəndir.Xüsusilə, informasiya-kommunikasiya texnologiyalarını, nəqliyyat logistika və turizm sektorlarının inkişafı həmin sənəddə prioritet kimi müəyyənləşdirilmişdir.

Azərbaycan müstəqil dövlət kimi digər dünya dövlətləri ilə iqtisadi əlaqələri genişləndirdiyinə görə, digər tərəfdən isə müvafiq sənaye sahələrinin istehsalında əsaslı bir irəliləyiş olmadığına görə, artıq 1995-ci ildən sonra idxalın həcmi hər il artmışdır. Bu artım kənd təsərrüfatı və onun emalı sənayesinin məhsulları istisna olmaqla, bütün digər sahələri, xüsusilə maşınqayırma sənayesini əhatə etmişdir. Belə ki, artıq 2002-ci ildən etibarən bu sənaye sahəsinin məhsullarının idxalının həcmi hətta 1991-ci ilin səviyyəsini də keçmişdir. Bu hal eyni zamanda ağac emalı məhsullarına və tikinti materiallarına da aiddir. Qeyd edək ki, idxalın artımının bir səbəbi kimi müvafiq istehsal sahələrinin inkişafının zəif olmasını göstərmişdiksə də, bu baxımdan ma-

şınqayırma sənayesinin məhsulları olan maşın və avadanlıqların, həmçinin də tikinti materiallarının idxalının artmasını müsbət hal kimi qiymətləndirmək lazımdır. Çünki bu məhsulların idxalı müvafiq istehsal sahələrinin inkişaf etdirilməsinə səbəb olmaqla, idxal olunan bir sıra məhsulların gələcəkdə yerli istehsalla əvəzlənməsinə səbəb olacaqdır. Xarici iqtisadi əlaqələr genişləndikcə bir sıra məhsulların idxalının artmasının səbəblərindən biri kimi yerli istehsal sahələrinin inkişaf etməməsinin səbəb olması fikrinə nümunə kimi kənd təsərrüfatı və onun emalı sənayesinin məhsullarının idxalının 1995-ci illə müqayisədə 2000-ci ildə az olmasını göstərə bilərik. Belə ki, məlumdur ki, 1996-cı ildən başlayaraq ölkənin aqrar sektorunda inkişaf baş vermiş, bununla də kənd təsərrüfatı məhsullarına olan tələbatın daxili istehsal hesabına ödənilməsi səviyyəsi yüksəlmişdir ki, bu da müvafiq məhsullar üzrə idxalın azalmasına səbəb olmuşdur. Lakin burada bir məqamı da qeyd etmək lazımdır ki, araşdırmalara görə gəlirlər səviyyəsi aşağı olduğundan əhalinin ərzaq məhsullarına olan tələbatı müvafiq fizioloji normalara uyğun ödənmir. Yəni kənd təsərrüfatı və onun emalı sənayesinin məhsullarının idxalının az olması təkcə daxili istehsalın artmasına görə deyil, həm də əhalinin alıcılıq qabiliyyətinin aşağı olmasına görədir. Bu eynilə yüngül sənaye məhsulları istehsalına da aiddir. Belə ki, bildiyimiz kimi bu sənaye sahəsi üzrə daxili istehsalın həcminin çox cüzi olmasına baxmayaraq, onun idxalının da həcmi çox azdır.

Ölkə iqtisadiyyatının dirçəldilməsində, islahatların dərinləşməsinin təmin edilməsində, investisiya siyasətində, daxili bazarın yad ünsürlərdən qorunmasında, ən başlıcası isə, dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında, qaçaqmalçılıq və gömrük qaydalarının pozulmasına qarşı mübarizənin gücləndirilməsində gömrük sistemi müstəsna əhəmiyyətə malikdir. Iqtisadi təhlükəsizliyin, suverenliyin və milli mənafeyin qorunmasında gömrük orqanlarının da böyük rolu vardır. Bu gün gömrük sistemi dövlətin strateji marağının, iqtisadi təhlükəsizliyinin təminatçılarından birinə çevrilmişdir. Azərbaycan gömrük təşkilatı öz fəaliyyətində son illər əsaslı dönüşə nail olmuş, xarici ölkələrin gömrük orqanları ilə işgüzar əlaqələr yaratmaqla gömrük xidməti ilə bağlı beynəlxalq forumlarda fəallıq göstərir.

Azərbaycan DGK öz fəaliyyətini ölkədə aparılan iqtisadi siyasətə uyğunlaşdırmış və respublikanın iqtisadi siyasətini həyata keçirən ən mühüm qurumlardan birinə çevrilmişdir. Ölkədə aparılan səriştəli gömrük siyasəti nəticəsində gömrük sisteminin maddi-texniki və nor-

mativ bazası xeyli möhkəmləndirilmiş, dövlət büdcəsi gəlirlərinin formalaşdırılmasında gömrük vergi və rüsumlarının xüsusi çəkisi xeyli artmışdır. Beləliklə də, gömrük orqanları respublikada aparılan iqtisadi islahatlarda və bazar münasibətlərinin qurulmasında öz yeri olan çoxfunksiyalı bir kompleksə çevrilmişdir. Gömrük nəzarəti gücləndirilmiş, nəzarət formaları təkmilləşdirilmiş, maliyyə-vergi intizamının və normativ bazanın möhkəmləndirilməsi sahəsində müəyyən işlər görülmüşdür. Gömrük nəzarətinin səmərəliliyinin artırılması, gömrük-buraxılış məntəqələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni məntəqələrin yaradılması, gömrük xidmətinin avtomatlaşdırılmış idarəetmə sisteminə keçirilməsi, tarif-tənzimlənmə sisteminin təkmilləşdirilməsi, qaçaqmalçılığa qarşı mübarizənin gücləndirilməsi sahəsində müəyyən tədbirlər həyata keçirilmişdir. Belə bir faktı göstərə bilərik ki, 2000-ci ilə nisbətən 2012-ci ildə dövlət büdcəsi 2 dəfə artıb. Daxil olan vəsaitlərin 36,9%-ni vergilər, 3,4%-ni isə Dövlət Gömrük Komitəsi tərəfindən büdcəyə toplanılan vəsaitlər təşkil edib.

Respublikada iqtisadi islahatlar dövründə baş verən iqtisadi proseslər 2004-2014-cü illərdə də dövlət büdcəsinə, onun strukturuna, gəlir və xərclərinin dinamikasına müsbət təsir göstərmişdir. Dövlətin büdcə-vergi siyasəti başlıca olaraq, sabitliyin təmin olunmasına və onun möhkəmləndirilməsinə, iqtisadi inkişafın sürətləndirilməsinə, həmçinin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına istiqamətləndirilmişdir.

Azərbaycanda dayanıqlı makroiqtisadi sabitlik, bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan büdcə proqnozlaşdırılmasının yeni sisteminə keçidi təmin etmişdir. “Büdcə sistemi haqqında” Qanuna görə, dövlət büdcəsi layihəsi ortamüddətli makroiqtisadi proqnozlar nəzərə alınmaqla tərtib edilməlidir.

Bu gün dövlətin iqtisadi və sosial siyasətinin əsas məqsədi iqtisadiyyatın dinamik artımının, regionların tarazlı inkişafının, ölkə iqtisadiyyatının beynəlxalq iqtisadi münasibətlərdə mövqeyinin möhkəmləndirilməsi və insanlara bərabərhüquqlu iqtisadi fəaliyyətlə məşğul olmaq imkanlarının yaradılmasının, eləcə də yoxsullunun azaldıllması startegiyasında müəyyən olunmuş tədbirlərin həyata keçirilməsi ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin etməkdən ibarətdir. 2004-2014-ci illərdə qəbul edilmiş dövlət proqramlarının məhz bu ideyanın məntiqi nəticəsi hesab etmək lazımdır.

Ölkədə iqtisadi islahatların uğurla həyata keçirilməsi iqtisadi siyasətin tərkib hissəsi olan gömrük siyasətinin təşkilindən də xeyli

dərəcədə asılıdır. Dövlət müstəqilliyimizin əsas atributlarından biri olmuş gömrük işi bu gün daha da inkişaf etmiş və möhkəmlənmiş, eyni zamanda ölkədə aparılan iqtisadi islahatlarda fəal iştirak etməklə çoxfunksiyalı bir kompleksə çevrilməlidir.

Müasir şəraitdə daxili bazarı və bütövlükdə dövlətin iqtisadi maraqlarını qorumaq üçün gömrük-tarif tənzimlənməsi tədbirlərindən, gömrük işi sahəsində valyuta nəzarətindən, büdcə gəlirlərinin formalaşdırılmasında fiskal siyasətin tətbiqindən uğurla istifadə olunur. Bununla yanaşı, qaçaqmalçılıq və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə daha da gücləndirilmiş, gömrük işi sahəsində cinayətlərin və hüquqpozma faktlarının ilkin istintaqlarının keyfiyyəti xeyli yaxşılaşmalıdır. İnvestisiya mühitinin yaxşılaşdırılması və xarici ticarət dövriyyəsinin sürətləndirilməsi üçün qanunvericilikdə müyyən edilmiş tədbirlər daha da genişləndirilməkdədir.

Respublikamızda gömrük işinin təkmilləşdirilməsi və gömrük orqanlarının inkişaf etdirilməsi bu sahədə mövcud olan qanunvericilik aktlarını təkmilləşdirmədən və bu aktları beynəlxalq normalara uyğunlaşdırmadan mümkün deyil. Belə ki, Ümumdünya Gömrük Sisteminə inteqrasiya gömrük prosedurlarının harmoniya edilməsini və sadələşdirilməsini tələb edir. Şübhəsiz ki, belə bir şəraitdə normativ-hüquqi bazaya yenidən baxılması və onun təkmilləşdirilməsi zərurəti meydana çıxmışdır.

Məhz bununla əlaqədar olaraq, gömrük nəzarətinin qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində Gömrük Məcəlləsinə əqli mülkiyyət obyektləri olan malların gömrük rəsmiləşdirilməsi ilə bağlı fəsillər əlavə edilməlidir. Beləliklə də, əqli mülkiyyət obyektlərinə gömrük nəzarətinin həyata keçirilməsinin normativ-hüquqi bazası dəqiqləşdirilməlidir.

Son illərdə ölkədə gömrük nəzarətinin keyfiyyətinin yüksəldilməsi, qadağan olunmuş malların keçirilməsinin qarşısının alınması, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizədə əhəmiyyət kəsb edən texniki nəzarət vasitələri ilə gömrük orqanlarının təchiz olunması sahəsində görülmüş işlər davam etdirilmiş, Atom Enerjisi Üzrə Beynəlxalq Agentliklə (AEBA) əməkdaşlıq nəticəsində Texniki Əməkdaşlıq Proqramı çərçivəsində müasir tələblərə cavab verən ionlaşdırıcı şüa mənbələrini aşkarlayan stasionar radiasiya sistemləri alınmış və bu sistemin sərhəd-keçid məntəqələrində quraşdırılması üçün hazırlıq işləri görülmüşdür.

Azərbaycan Respublikasının"Malların təsviri və Kodlaşdırılması üzrə Harmoniyalaşdırılmiş Sistem haqqında "Beynəlxalq Konvensiyaya və göstərilən Konvensiyaya Düzəliş Protokoluna qoşulmaq barədə" Qanununa əsasən, Nazirlər Kabinetinin 19 yanvar 2001-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələri"ndə və 13 iyul 2000-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahı"sında XİF və MN üzrə kodların Beynəlxalq Harmonik Sistemin 2002-ci il variantına uyğunlaşdırması məqsədilə hökumət müvafiq qərar layihələrini təsdiq etmişdir.

2004-2014-ci illərdə istehsalçılardan və iş adamlarından daxili bazarın qorunması və yerli istehsalın həvəsləndirilməsi ilə bağlı daxil olan sorğular ümumiləşdirilərək Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasına təqdim olunmuşdur.

Bununla yanaşı, ölkəyə ixrac olunan malların gömrük dəyərinə nəzarəti gücləndirmək üçün "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları"na müəyyən dəyişikliklər və əlavələr edildikdən sonra yerli gömrük orqanlarına metodiki köməklik məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla "Azərbaycan Respublikasının gömrük ərazisinə idxal edilən və bu ərazidən çıxarılan malların gömrük dəyərinin müəyyən edilməsi və gömrük orqanları tərəfindən nəzarət prosesinin həyata keçirilməsi qaydaları" hazırlanmışdır.

Eyni zamanda malların gömrük qiymətləndirilməsi üzrə gömrük orqanları arasında operativ qarşılıqlı əlaqənin və zəruri əlaqələndirmənin təşkil edilməsi, habelə gömrük orqanlarına metodiki köməklik göstərilməsi və qiymət intizamının daha da gücləndirilməsi məqsədilə zəruri tədbirlər həyata keçirilmişdir.

Respublikada gömrük statistikasının və bu sahədə informasiya texnologiyalarının təkmilləşdirilməsi sahəsində həlli vacib olan məsələlər ön plana çəkilmişdir. Xüsusilə də "Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası" bülleteninin nəşri təkmilləşdirilmiş, müasir alqoritmik dildə tərtib edilmiş proqram təminatı əsasında hər ay qaçaqmalçılıq və gömrük qaydalarının pozulması faktları haqqında hesabat gömrükxanalardan alınaraq ümumiləşdirilmiş və DGK-nın müvafiq strukturlarına göndərilmişdir. Bundan başqa, Sərhəd bazası və bəyannamələşdirilmiş mallar bazasının qarşılıqlı müqayisəsi

əsasında gömrük rəsmiləşdirilməsindən yayınması ehtimal olunan mallar haqqında məlumatlar işlənib hazırlanmışdır. Həyata keçirilən tədbirlər nəticəsində yerli gömrük orqanlarında lokal şəbəkə yaradılmış və ümumi şəbəkəyə qoyulmuşdur.

BMT-nin İnkişaf Proqramı və DGK arasında imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması" layihəsinin 3-cü mərhələsinə uyğun olaraq, əlavə 6 gömrük orqanında "Gömrük rəsmiləşdirilməsi və nəzarət" avtomatlaşdırılmış sisteminin tətbiqi həyata keçirilir. Hazırda həmin sistem 20 gömrük orqanında eksperimental qaydada tətbiq olunmaqdadır.

Hal-hazırda dövlət büdcəsinin tərtibi ilə əlaqədar Maliyyə Nazirliyi və Hesablama Palatası tərəfindən Dövlət Gömrük Komitəsinə daxil olmuş sorğulara uyğun olaraq yeni yaradılmış proqram təminatı əsasında hesablamalar aparılmış və müvafiq formalar işlənib hazırlanmışdır. Son illərdə rəsmiləşdirilmiş yüklər haqqında məlumatlar gündəlik qəbul edilmiş, səhvlər araşdırılmış, onların əsasında vahid YGB bazası təşkil edilmişdir. Həmin baza əsasında aylıq məlumatlar Dövlət Statistika Komitəsinə, Milli Banka, Vergilər Nazirliyinə və İqtisadi İnkişaf Nazirliyinə təqdim olunmuşdur. Bununla yanaşı, vergitutumlu mallardan biri olan avtonəqliyyat vasitələrinə gömrük nəzarətini gücləndirmək məqsədilə yeni avtonəqliyyat gömrük postu yaradılmışdır.

İqdisadi islahatlar şəraitində gömrük orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir avadanlıq və texniki vasitələrlə təchiz edilməsi istiqamətində qarşıda duran vəzifələrin ardıcıllıqla həyata keşirilməsi davam etdirilmiş, əsaslı tikinti və təmir işləri aparılmışdır.

Bu məqsədlə gömrük rejimlərinin tam işlək hala gətirilməsi üçün gömrük orqanları tərəfindən məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, əvvəllər gömrük anbarlarının fəaliyyəti üçün müvafiq normativ hüquqi baza olsa da, vəsait çatışmadığına görə anbarların tikintisini həyata keçirmək mümkün deyildi. Respublika hökumətinin dəstəyi ilə sərhədlərdə, o cümlədən "Samur Gömrük Postu"nun yenidən qurulması və oradan gömrük terminallarının tikilməsinə başlanılmış, Bakı şəhərində böyük bir terminalın tikintisi başa çatdırılmış, respublikanın cənub bölgəsində müvəqqəti saxlanc anbarı inşa edilmiş və beynəlxalq sərhəd-gömrük buraxılış məntəqələrində 24 saatlıq iş rejiminə keçirilməsi təmin edilmişdir.

Respublikamızda dünya ölkələri ilə xarici ticarətdə vasitəli vergilərin alınmasının “son təyinat” prinsipinə keçilmiş, əlavə dəyər vergisinin dərəcəsi 20 faizdən 18 faizə endirilmişdir. Hazırda respublikamızın Ümumdünya Ticarət Təşkilatına üzv olmasının danışıqlar mərhələsi başa çatmaq üzrədir. Bundan əlavə Avropa Birliyi ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması ölkəmizin MDB-yə daxil olan ölkələrlə xarici-iqtisadi əlaqələrini xeyli genişləndirmişdir.

İqtisadi islahatlar dövründə DGK-nın beynəlxalq əlaqələri daha da genişlənmiş, keyfiyyətcə yeni səviyyəyə qalxmış, Azərbaycanın beynəlxalq iqtisadi inteqrasiyasının inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində məqsədyönlü iş aparılmışdır. Onu da qeyd etmək lazımdır ki, 2003-cü ilin may ayında Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında niyyət protokolunun imzalanmasını dünyanın nüfuzlu təşkilatı ilə əlaqələrin daha da genişləndirilməsi yolunda mühüm addım hesab etmək olar. Brüsseldə ÜGT-nin iqamətgahı qarşısında Dədə Qorqud heykəlinin qoyulması, ÜGT Baş Katibi Mişel Danenin təbirincə desək, “Ümumdünya Gömrük Təşkilatına daha böyük önəmlik verir. Bura Azəbaycan evi deyil, amma burada Azərbaycanın ürəyi döyünür. Bu tarixi hadisə həm də Azərbaycanla Avropa arasında daha sıx inteqrasiyanın göstəricisidir.”

Gömrük Prosedurlarının Sadələşdirilməsi və Harmonizə Edilməsi Haqqında Beynəlxalq Konvensiya”ya (Kioto Konvensiyası) qoşulmuş, Azərbaycan hökuməti ilə Türkiyə, Yunanıstan, Litva hökumətləri və Belçika Krallığı arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər imzalanmışdır. Eyni zamanda, Fransa və Azərbaycan hökumətləri arasında gömrük hüquqpozmalarının qarşısının alınması, təhqiqatının aparılması, aşkar edilməsi və aradan qaldırılmasına dair qarşılıqlı inzibati yardım, Azərbaycan və Ukrayna dövlət gömrük xidmətləri arasında qaçaqmalçılıq və gömrük qaydalarının pozulması, eləcə də silahların, döyüş sursatlarının, partlayıcı maddələrin, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında sazişlər imzalanmışdır. Azərbaycan hökuməti ilə Belarus, Çin və Almaniya hökumətləri arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş layihələri müvafiq dövlət strukturları ilə razılaşdırılmaq üçün Nazirlər Kabinetinə təqdim edilmişdir. Bundan başqa “Şəxsi yol nəqliyyat vasitələrinin müvəqqəti idxalı haqqında

Gömrük Konvensiyası"nın (Nyu-York,4 iyun 1954-cü il), "Turistə üçün Gömrük İmtiyazları haqqında Konvensiya"(Nyu-York, 4 iyun 1954-cü ilə) və "Beynəlxalq daşımalarda istifadə olunan, pula verilmiş konteynerlərə tətbiq olunan gömrük rejimi haqqında Konvensiya"nın (Cenevrə, 21 yanvar 1994-cü il) mətnləri tərcümə edilərək və ekspertizası aparılaraq Nazirlər Kabinetinə təqdim edilmişdir

Hazırda DGK-da Ümumdünya Gömrük Təşkilatı, MDB iştirakçı-dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası, İqtisadi Əməkdaşlıq Təşkilatı Gömrük Xidməti Rəhbərləri Şurası, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşən Gömrük Əməkdaşlıq Komitəsi, Avropa Komissiyasının TASSİS proqramı çərçivəsində Avropa Gömrüyü, BMT İnkişaf Proqramı və s. nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlağın genişləndirilməsi istiqamətində məqsədyönlüu tədbirlər həyata keçirilməkdədir.

Qeyd etmək lazımdır ki, xarici iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimləmələrinə üstünlük verilməsi ölkədə aparılan iqtisadi islahatların başlıca xüsusiyyətlərindən hesab edilir. Bazar iqtisadiyyatına keçidin hazırkı mərhələsində səmərəli fəaliyyət göstərə bilən gömrük-tarif tənzimləmə mexanizminin qurulması fəal və kiçik gömrük siyasətinin həyata keçirilməsinin, eləcə də ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin və iqtisadi maraqlarının qorunmasının mühüm şərti kimi çıxış edir.

Gömrük siyasətinin həyata keçirilməsinin əsas vasitələrindən biri də gömrük ödənişləridir. Gömrük məcəlləsinin 17-ci maddəsinin 19-cu bəndinə əsasən "Gömrük ödənişləri müəyyən olunmuş qaydada Azərbaycan Respublikası gömrük orqanları tərəfindən alınan gömrük rüsumları, vergilər, gömrük yığımları, hüquqi və fiziki şəxslərə gömrük fəaliyyəti üçün lisenziyaların verilməsinə görə alınan yığımlar, haqlar və digər ödənişlərdir".

Mövcud qanunvericilik aktları ilə aşağıdakı gömrük ödənişləri alınır:

- Gömrük rüsumu; Əlavə dəyər vergisi və Aksizlər;
- Azərbaycan Respublikasının gömrük işini aparan icra hakimiyyəti orqanı tərəfindən icazələrin verilməsi və icazələrin bərpa edilməsinə görə yığımlar;
- Gömrük rəsmiləşdirilməsi üzrə mütəxəssislərə ixtisas attestatlarının verilməsi və attestatların fəaliyyətinin bərpa edilməsinə görə yığımlar;
- Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları;
- Malların saxlancına görə gömrük yığımları;

- Malların gömrük müşaiyətinə görə gömrük yığımları;
- Məlumatlandırma və məsləhətverməyə görə haqq;
- İlkin qərarların qəbuluna görə haqq;
- Digər gömrük ödənişləri.

Xarici ticarətin dövlət tənzimlənməsində gömrük tariflərinin tətbiqi müstəsna rol oynayır. Gömrük tarifi proteksionist və fiksal funksiyaları yerinə yetirir. Proteksionist funksiya milli istehsalçıların mənafeyinin müdafiəsi ilə bağlı olduğu halda, fiskal funksiya isə gömrük rüsumlarının tutulması hesabına dövlət büdcəsinin mədaxil hissəsinə vəsait yığılmasını təmin edir. Belə ki, idxal mallarından gömrük rüsumu tutulması, onların daxili bazarda satışı zamanı dəyərin artmasına və bununla da milli sənaye və kənd təsərrüfatında istehsal edilən oxşar malların rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olur. Beləliklə, gömrük tarifi daxili qiymətlərə təsir etməklə, müəyyən dərəcədə milli istehsalın və ixracın inkişafına təsir edir.

Qeyd etmək lazımdır ki, idxal olunan malların daxili bazarda bahalaşması nəticəsində bu cür malların qiymətlərinin ümumi səviyyəsi qalxır. Bunun əvəzində milli istehsalçılar əlavə gəlir əldə edirlər ki, bu da öz növbəsində ölkə iqtisadiyyatına investisiya və yaxud ixrac qiymətlərinin aşağı düşməsi ilə yaranan itkilərə kompensasiya, eləcə də xarici bazarda ölkənin mallarının rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədi ilə istifadə edilə bilər.

Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallar üçün "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq gömrük rüsumu ödənilməlidir. Bu qanuna görə gömrük tarifinin əsas məqsədləri aşağıdakılardır:

- Azərbaycan Respublikası üzrə idxalın əmtəə strukturunu səmərəliləşdirmək;
- Azərbaycan Respublikası ərazisində malların gətirilməsi və çıxarılmasının, valyuta gəlirlərinin və xərclərinin əlverişli nisbətini təmin etmək;
- Valyuta sərvətlərinin Azərbaycanın gömrük ərazisinə gətirilməsi və çıxarılması üzərində səmərəli nəzarət təşkil etmək;
- Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişikliklər üçün şərait yaratmaq;
- Azərbaycan Respublikasının iqtisadiyyatının xarici rəqabətin mənfi təsirindən qorumaq;

- Azərbaycan Respublikası iqtisadiyyatının dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Gömrük məcəlləsinin 17-ci maddəsinə görə, "gömrük rüsumu Azərbaycan Respublikasının gömrük ərazisinə malların idxalı və ixracı zamanı alınan ödənişlərdir".

Gömrük rüsumları gömrük sərhədinə keçməsi faktı ilə qüvvəyə minən və xarici ticarət dövriyyəsi mallarına tətbiq edilən dolayı vergi növ müxtəlifliklərindən biridir. Gömrük rüsumları bütün əsas vergi xüsusiyyətlərini özündə cəmləşdirir.

- Gömrük rüsumlarının ödənişi də məcburi xarakter daşıyır və dövlət hakimiyyət məcburiyyəti ilə təmin edilir;

- Gömrük rüsumları göstərilən xidmətin əvəzi deyil və qarşılıqsız (əvəzində heç bir şey etmədən) tutulur;

- Gömrük ödənişlərindən daxilolmalar konkret dövlət xərclərini ödəmək üçün nəzərdə tutulmuşdur.

- Azərbaycan Respublikasında aşağıdakı gömrük rüsumları tətbiq edilir:

- Advalor-malların gömrük dəyərinə görə faizlə hesablanması;

- Spesifik rüsum-mal vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan kombinə edilmiş – hər ikisindən birlikdə istifadə olunur.

Malların ixracını və idxalını operativ tənzimləmək üçün bəzi mallara mövsümi rüsumların altı aya qədər tətbiq olunmasına qanun icazə verir.

Azərbaycan Respublikasının iqtisadi mənafeyini qorumaq üçün idxal edilən mallara müvəqqəti olaraq xüsusi növ rüsumlar tətbiq edilir. Bunlar aşağıdakılardır:

Xüsusi rüsumlar;

Antidempinq rüsumları;

Kompensasiya rüsumları.

Xüsusi rüsumlar aşağıdakı hallarda tətbiq olunur:

Əgər ölkənin gömrük ərazisinə gətirilən mallar, bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vuran və ya ziyan vura biləcək miqdarda və şərtlərdə gətirilmişdirsə, onda idxal mallarından müdafiə tədbiri kimi;

- Digər dövlətlərin və onların ittifaqlarının (siyasi, iqtisadi, hərbi və s.) Azərbaycan dövlətinin mənafeyinə toxunan ayrı-seçkilik və digər hərəkətlərinə cavab tədbiri kimi.

- Dempinq – xarici bazarlarda əmtəələrin dəyər-dəyməzinə, yəni istehsal xərclərindən aşağı qiymətlə satılması deməkdir. Antidempinq rüsumları, idxal olunan malların qiyməti ölkənin gömrük ərazisinə gətirildiyi vaxtda ixrac olunduğu ölkədəki real dəyərindən aşağı olduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və ya bu hal istisna olunmadıqda, eyni zamanda həmin mallar ölkə daxilində istehsalın təşkilinə və ya genişləndirilməsinə maneçilik törətdikdə tətbiq olunur.

Ölkənin gömrük ərazisinə gətirilən malların istehsalı və ya ixracı zamanı birbaşa və ya dolayı yolla subsidiyalardan istifadə olunduqda və belə bir idxal bu qəbildən olan malların yerli istehsalçılarına ziyan vurduqda və yaxud bu hal istisna edilmədikdə, habelə ölkədə bu malların istehsalının təşkilinə və genişləndirilməsinə maneçilik törətdildikdə kompensasiya rüsumları tətbiq edilir.

Cəlb olunma obyektlərinə görə gömrük rüsumları – idxal və ixrac kimi iki yerə ayrılır.

İdxal rüsumları ölkənin daxili bazarını xarici rəqabətdən qoruduğu halda, proteksionist (daxili bazarı qorumaq üçün yerli və dünya qiymətləri arasındakı fərqdən yüksək müəyyənləşdirilən rüsumlar) funksiyanı yerinə yetirir. Daxili bazarı qorumaq üçün idxal rüsumlarının artırılmasının əsas səbəbi yerli malların rəqabət qabiliyyətinin aşağı olmasından irəli gəlir. Belə ki, yenicə müstəqillik əldə etmiş respublikamız köhnə texnologiya ilə dünya bazarı standartlarına cavab verən əmtəə istehsal edə bilmir. Eyni zamanda ölkəni xarici mallardan asılı vəziyyətə salmaq, nəinki iqtisadi təhlükəsizliyə, həm də milli təhlükəsizliyə ciddi problemlər yarada bilər. Bu isə müstəqilliyini tam möhkəmləndirməmiş bir ölkə üçün acınacaqlı nəticələrə gətirib çıxarar. Odur ki, hər bir dövlət kimi Azərbaycan Respublikası da öz təhlükəsizliyini təmin etmək üçün proteksionist siyasətdən yararlanmağa çalışır.

Rüsumlar hesablanarkən, praktiki olaraq yerli və dünya qiymətlərindən istifadə etmək olar. Rüsumlar, yerli və dünya qiymətlərinin fərqi və ya fərqə uyğun müəyyənləşdrilir. Rüsumlar, yerli və xarici mallar arasında bərabər şərait yaradaraq, stabilləşdirmə funksiyasını yerinə yetirir.

Bəzən isə rüsumlar yerli və dünya qiymətlərinin fərqindən aşağı müəyyənləşdirilir ki, bu xarici malların idxalına böyük imkanlar yaradır. Bu cür rüsumlar isə stimullaşdırıcı adlanır.

Bazar iqtisadiyyatı və xarici iqtisadi fəaliyyətin liberallaşdırılması şəraitində gömrük rüsumları xarici iqtisadi fəaliyytən vacib iqtisadi tənzimləyicisi hesab olunur. Gömrük rüsumlarının köməyi ilə dövlət, malların idxal-ixracı zamanı bərabər iqtisadi şəraitdə rəqabəti tənzimləyir, ümümi dövlət və milli maraqlara xidmət edən konkret iqtisadi, elmi-texniki, ekoloji, valyuta-maliyyə siyasəti aparır.

Rüsum qiymət kateqoriyasına aid edilir. Bu isə ayrı-ayrı mallara rüsum müəyyənləşdirərkən, fərdi yanaşma tələb edir.

Istənilən mala (və ya əmtəələr qrupuna) rüsum qoyarkən, yerli və beynəlxalq xərcləri və qiymətləri müəyyənləşdirmək lazımdır.

Azərbaycan Respublikası Nazirlər Kabineti idxal və ixrac gömrük rüsumlarının dərəcələrini təyin edir. Azərbaycan Respublikasının əlverişli ticarət rejimi tətbiq etdiyi ölkənin malları üçün idxal və ixrac gömrük rüsumlarının dərəcələrinin son həddi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən müəyyən olunur. Lakin əlverişli ticarət rejimi tətbiq olunmayan ölkələrin mallarına və mənşə ölkəsi müəyyənləşdirilməyən mallara idxal- gömrük rüsumlarının dərəcələri iki dəfə artırılır.

Bir sıra hallarda gömrük tarifi birtərəfli qaydada ixrac məhsullarının istehsalına tələb olunan mallara aşağı və ya sıfır dərəcəli idxal rüsumu tətbiq etməklə, milli istehsalın və ixracın stimullaşdırılması üçün istifadə olunur.

Ölkə iqtisadiyyatının inkişaf səviyyəsi ilə gömrük rüsumlarının dərəcələri arasında müəyyən asılılıq mövcuddur. Belə ki, inkişaf etmiş ölkələrdə gömrük rüsumlarının dərəcələri aşağı olur. Çünki inkişaf etmiş ölkələrin istehsal etdiyi məhsulun rəqabət qabiliyyəti yüksək olduğu üçün, daxili bazarın yüksək rüsumlar hesabına qorunmasına, ixracın əlavə tədbirlərlə stimullaşdırılmasına və büdcənin gəlir hissəsinin gömrük ödənişləri hesabına doldurulmasına ehtiyac qalmır. Inkişaf etməkdə olan ölkələr daha yüksək rüsumlardan istifadə edirlər

Qeyd etmək lazımdır ki, Pakistanla Avropa Birliyi ölkələri arasında çox böyük fərq vardır. Inkişaf etməkdə olan ölkələrdə idxal rüsumlarının yüksək olmasının əsas səbəbi, ölkə sənayesini xarici rəqabətdən qorumaqdır. Azərbaycan Respublikası da öz sənayesini xarici rəqabətdən qorumaq üçün hələləik bu üsuldan istifadə edir.

2005-2014-cü illər ərzində Dövlət Gömrük Komitəsi üzrə dövlət büdcəsinə aşağıdakı vergilər daxil edilmişdir .

**Bəzi ölkələrdə sənaye mallarının idxal rüsumları ( % - lə)**

| Malların adı | Pakistan | Braziliya | ABŞ | Avropa Birliyi |
|---|---|---|---|---|
| Dəsmal və digər məmulatlar | 80-100 | 60 | 25-90 | 5 |
| Boru və digərləri | 80 | 30 | 6-33 | 6-13 |
| Akril plastmas | 1 kq 70 rupu | 40 | 4.2-37 | 12.5-21 |
| Minik maşınları | 80- 425 | 65 | 2.5-10 | 10-29 |
| Yük maşınları | 80 | 65 | 8.5-25 | 5-28 |

Cədvəl məlumatlarından görünür ki, Gömrük Komitəsi üzrə dövlət büdcəsinə daxilolmalar ildən-ilə artmışdır. Belə hal onunla izah olunur ki, ölkəyə bu dövrdə idxal malları da artmışdır. Həmçinin qeyd edək ki, Gömrük Komitəsi üzrə dövlət büdcəsinə daxil olmalarda əsasən əlavə dəyər vergisi üzrə daxilolmalar ilbəil artmışdır. Gömrük rüsumları isə 2005-2014-cü illərdə digər illərə nisbətən daha yüksək olmuşdur.

**Azərbaycan DGK üzrə gömrük rüsumları və gömrük vergiləri (mln. manatla)**

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dövlət Gömrük Komitəsi üzrə | 54,4 | 86 | 112,4 | 122,4 | 144,0 | 164,6 | 184,0 | 204,0 | 260,6 | 376,2 |
| Əlavə dəyər vergisi | 30,4 | 34,6 | 46,6 | 49,6 | 77,0 | 104,4 | 109,0 | 130,4 | 171,3 | 253,8 |
| Gömrük rüsumları | 22,4 | 46,8 | 57,4 | 62,8 | 62,2 | 52,2 | 58,0 | 60,0 | 77,0 | 101,2 |
| Aksiz | 1,6 | 3 | 6,4 | 8 | 2,8 | 6,4 | 15 | 12 | 11,1 | 19,7 |
| Tranzit yol vergisi | 0 | 1,6 | 2 | 2 | 2 | 1,6 | 2 | 1,6 | 1,2 | 1,4 |

***Qeyd:*** *Cədvəl Gömrük Komitəsinin məlumatları əsasında tərtib edilmişdir.*

Hazırda republikamızın gömrük orqanları fisikal siyasəti həyata keçirməklə dövlət büdcəsi gəlirlərinin beşdə bir hissəsindən çoxunu təmin edir. Onlar daxili bazarı və bütövlükdə dövlətin iqtisadi maraqlarını qorumaq üçün gömrük-tarif tənzimlənməsi tədbirlərini və gömrük işi sahəsində valyuta nəzarətini həyata keçirirlər. Belə ki, son illər ərzində idxalın əmtəə strukturunu səmərələşdirmək, ixracı stimullaşdırmaq, daxili istehsala şərait yaratmaq istiqamətində xeyli işlər görülmüşdür ki, bu da ölkə iqtisadiyyatını xarici rəqabətin mənfi təsirindən qorumaq üçün mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, ixracın strukturunda neft və neft məhsullarının daha böyük xüsusi çəkisi qalmaqda davam edir. Bununla yanaşı, 2005-ci ildə 2014-ci ilə nisbətən ixracda ərzaq məhsullarının xüsusi çəkisi 15,9%-dən 24,9%-ə qalxmışdır. Hesab edirik ki, bu, heç də respublikanın mövcud potenisalını tam əks etdirmir. Odur ki, ixracyönümlü malların istehsalı təşviq edilməli və ölkə iqtisadiyyatının idxaldan asılılığı tədricən aradan qalxmalıdır.

Hazırda Azərbaycana idxal olunan malların təqribən 70%-i vergitutma obyekti hesab olunur. Əvəzsiz maliyyə və texniki yardımlar, qrantlar, kreditlər və borclar hesabına idxal olunan mallar, habelə investisiyatəyinatlı mallar gömrük rüsumlarına cəlb olunmur.

Son vaxtlar respublikada aparılan gömrük siyasətinin əsas istiqamətlərindən sayılan diferensiallaşdırılmış tarif tənzimlənməsi sisteminə keçilmişdir. Hazırda Azərbaycanda mövcud tarif siyasəti daxili istehsalı dəstəkləməklə yanaşı, yeni texnika və texnologiya idxalını da təşviq edir. Tarif dərəcələrinin ən yüksək həddi 15%-dir ki, bu da MDB ölkələri arasında ən optimal göstərici sayılır.

Son vaxtlara qədər Azərbaycanda obyektiv zərurətdən irəli gələrək bir sıra mallara spesifik rüsumlar tətbiq olunurdu. Lakin həmin rüsumlar malın keyfiyyətini, real qiymətini nəzərə almağa imkan vermədiyi üçün spesifik rüsumlar advalor rüsumlarla əvəz olunmuşdur. Lakin bununla belə, aksizli malların idxalında bu cür rüsumlardan istifadə edilməsi zərurəti hələ də qalmaqdadır. Həyata keçirilmiş tədbirlərdən sonra gömrük-idxal rüsumları üzrə orta tarif dərəcəsi 8,3% -dən 5,7%-ə enmişdir.

Bununla yanaşı, ölkədə daxili istehsala şərait yaratmaq üçün bir sıra idxal malları Nazirlər Kabinetinin Qərarı ilə idxal rüsumlarından və ƏDV-dən azad edilmişdir. Lakin dünya təcrübəsinə görə vergi güzəştləri konkret sahəni və konkret dövrü əhatə etməlidir.

Qaçaqmalçılıq halları və ona qarşı mübarizənin daha da gücləndirilməsi sahəsində mövcud olan nöqsanlar, onun daha mütərəqqi yollarının axtarılması və qabaqlayıcı tədbirlərin görülməsi bütün dünya ölkələrinin diqqət mərkəzində duran aparıcı məsələlərdir. İdxal olunan mallara rüsum tətbiq edilməsi ondan yayınmağa cəlb edilməsi hallarını artırır. Digər tərəfdən, invoys qiymətlərinin bilərəkdən aşağı göstərilməsi halları mövcuddur. Belə halların obyekti daha çox yüksək vergitutumlu mallardır. Odur ki, respublikanın gömrük orqanları qaçaqmalçılıq hallarına qarşı mübarizəni kəskinləşdirmək, bunun üçün kifayət qədər maddi-texniki bazanı və zəruri kadr potensialını təmin etmək məqsədilə lazımi tədbirər planı işləyib hazırlamalıdır. Azaldılmış invoys qiymətlərinin real qiymətə uyğunlaşdırılması üçün qiymət-məlumat bazasının imkanlarından istifadə olunmalıdır.

Respublikamızda sahibkarlığın inkişafına əngəl törədə bilən hər cür maneələrin aradan qaldırılması, daxili bazarın qorunması, sağlam rəqabət və bütövlükdə şəffaf biznes mühitinin yaradılmasında gömrük-tarif tənzimlənməsi tədbirlərinin imkanlarından daha səmərəli istifadə olunmalı və qaçaqmalçılığa qarşı mübarizənin daha da gücləndirilməsində qabaqlayıcı tədbirlərdən istifadə imkanları daha da artırılmalıdır.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olmasına hazırlıq prosesi ilə əlaqədar olaraq ölkədə xüsusi qrup fəaliyyət göstərir. Ölkəmizin bu nüfuzlu quruma daxil olması üçün istehsalın stimullaşdırılması və rəqabət qabiliyyətli məhsulların istehsalı məqsədəuyğun hesab edilir. Mütəxəssislərin fikrincə, əgər yerli iş adamları yüngül, yeyinti və emal sənayesində hazır məhsulların istehsalına keçsələr, yəni xammal son məhsul halına gətirilib dünya bazarına çıxarılsa, Azərbaycan ÜTT-yə hazır ölkə kimi girmiş olacaq. Odur ki, Avropa ölkələri ilə sıx ticarət əlaqələri qurarkən, ilk növbədə, yerli istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsinə çalışılmalıdır.

MDB-yə üzv olan dövlətlər arasında ənənəvi ticarət əlaqələri mövcuddur və keçid dövrünü yaşayan üzv dövlətlərində həmin əlaqələrdən səmərəli istifadə olunması böyük fayda verir. Həmin əlaqələrin möhkəmləndirilməsi üçün müxtəlif siyasi iqtisadi cəhdlər edilir, çoxtərəfli və ikitərəfli sazişlər imzalanır. Son illərin təcrübəsi göstərir ki, MDB ölkələri ikitərəfli sazişlərə daha çox əhəmiyyət verirlər. 1994-cü ildə MDB ölkələri arasında Azad Ticarət Zonası yaradılması haqqında saziş imzalansa da, saziş yalnız Qırğızıstan və Ermənistan tərəfindən

yerinə yetirilir. Azərbaycan da daxil olmaqla digər üzv ölkələr öz aralarında ikitərəfli qaydada bu cür saziş tətbiq edir.

MDB daxilində qarşılıqlı ticarətin liberallaşdırılması meyillərinə baxmayaraq buraya daxil olan ölkələrin əksəriyyətində malların idxalı və ixracının tənzimlənməsi zamanı bir sıra məhdudiyyətlər tətbiq olunur. Mütəxəssislərin fikrincə, bu bir tərəfdən keçid dövrünü yaşayan ölkələrdə büdcə gəlirlərinin idxalından asılılığı, digər tərəfdən, daxili bazarı qorumaq istəyi ilə izah olunur. Onu da göstərək ki, qeyd edilən məhdudiyyətlər bütövlükdə götürdükdə dünya təcrübəsinə uyğundur, eyni zamanda, həmin məhdudiyyətlər əsasən idxala tətbiq olunur və vergitutumlu malların ölkə ərazisinə idxalı zamanı maneə yaratmaqla, başlıca olaraq bazarı qorumaq məqsədi daşıyır. Tədqiqatlara görə ixracda belə məhdudiyyətlər azdır və əsasən həmin malların daxili bazarda qalmasını təmin etmək məqsədi güdür. Həmin məhdudiyyətlər tarif və qeyri-tarif məhdudiyyətlərinə bölünür. Tarif məhdudiyyətləri idxal və ixraca tətbiq olunan gömrük rüsumlarının tarif dərəcəsinin azaldılması və ya ləğv edilməsi ilə müşayiət olunur. MDB çərçivəsində bu istiqamətdə müəyyən işlər görülür. Buna misal kimi göstərə bilərik ki, Azərbaycanla Rusiya Federasiyası, Qazaxıstan, Gürcüstan, Ukrayna və Belorusiya arasında bağlanmış Azad Ticarət Sazişinə uyğun olaraq həmin ölkələrdən Azərbaycana, Azərbaycandan isə həmin ölkələrə idxal olunan mallardan idxal rüsumları alınmır. Lakin Rusiya Federasiyası və Qazaxıstanla Azərbaycan arasında Azad Ticarət Sazişinə istisnalar mövcuddur. Həmin istisnalar əsas etibarı ilə aksizli malları əhatə edir. Onu da qeyd edək ki, istisnalar digər MDB üzv dövlətləri arasında da mövcuddur və bütövlükdə MDB çərçivəsində bu istisnaların ləğv edilməsi istiqamətində tədbirlər görülməkdədir. Qarşılıqlı ticarətdə qeyri-tarif maneələri, daha doğrusu, kvotalaşdırma və lisenziyalaşdırma məsələləri üzrə zərurət tələb edən tədbirlərin həyata keçirilməsi MDB-yə üzv dövlətlərin qarşısında duran ən mühüm məsələlərdən biridir.

Bu məqsədlə gələcəkdə Ümumdünya Ticarət Təşkilatına(ÜTT) daxil olarkən MDB ölkələrinin öhdəlikləri əlaqələndirilməlidir. Belə ki, xarici tədarükçülərin milli xidmətlər bazarına buraxılışı üzrə xüsusi öhdəliklərin siyahısı, ÜTT üzvlərinin hamısında xarici ticarətdə daha əlverişli rejim yaradılması üzrə ümumi qaydalardan çıxarışların təsviri (heç bir ölkə başqalarına nisbətən mal və xidmət bazarına pis buraxılış şəraitində olmamalıdır), idxal tarifi (ÜTT-yə daxil olduqdan sonra o,

qalxa bilməz), qüvvədə olan qanunvericilikdə və beynəlxalq sazişlərdə dəyişikliklərin edilməsi,son dövrdə respublikamızda xarici iqtisadi fəaliyyətdə gömrük-tarif tənzimlənməsi və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi, gömrük-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir.

Azərbaycanda sahibkarlığın və regionların inkişaf etdirilməsi məqsədilə xüsusi dövlət proqramlarının qəbul edilməsi, sahibkarlıq fəaliyyətinə mane olan bürokratik əngəllərin aradan qaldırılmasına yönəldilən tədbirlər, eləcə də mövcud problemlərin aradan qaldırılması, xarici iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraiti yaradılması üçün gömrük orqanlarının modernləşdirilməsi üzrə tədbirlər planına uyğun olaraq, spesifik rüsumların advalor rüsumlarla əvəz edilməsinin mərhələli qrafiki başa çatdırılmışdır. Nəticədə spesifik rüsumların advalor rüsumlarla əvəz edilməsinə dair Nazirlər Kabinetinin müvafiq Qərarı ilə daha 6 mal qrupu üzrə spesifik rüsumlar advalor rüsumlarla dəyişdirilmişdir.

Yüksək gömrük rüsumlarına baxmayaraq bəzi məmulatlar çoxlu miqdarda ölkəyə idxal oluna bilər. Lakin idxal kvotaları ölkəyə istənilən kəmiyyətdə əmtəələrin gətirilməsini qadağan edir. Kvotanın son həddi embarqodur. Embarqo qadağan edildikdə ayrı-ayrı məhsulların idxalı qadağan olunur. Qeyri-tarif maneələri dedikdə lisenziyalaşdırma sistemi nəzərdə tutulur. Bundan başqa, qeyri-tarif maneələrinə məhsul keyfiyyətinin standartının müəyyən edilməsi, bürokratik amillər və s. aiddir. Məsələn, Yaponiya və Avropa dövlətləri çox zaman idxalçıdan lisenziya almağı tələb edirlər. Lisenziyaların verilməsini məhdudlaşdırmaq yolu ilə idxalı məhdudlaşdırmaq çox asandır.

Ölkə sərhədindən gömrükxana nəzarəti altında keçirilən əmlak, əmtəə, qiymətli şey və s.-dən tutulan pul məbləğinə gömrük rüsumu deyilir. Gömrük rüsumlarını müxtəlif əlamətlərinə görə təsnifləşdirirlər: Əməliyyatın xarakterinə görə gömrük rüsumları ixrac gömrük rüsumları, idxalat gömrük rüsumları və tranzit gömrük rüsumlarına bölünür. Gömrük rüsumları dövlətin gömrük tarifləri ilə müəyyən etdiyi dərəcələr üzrə tutulur. Tarif stavkasından asılı olaraq gömrük rüsumları bir neçə əlamət: diferensial gömrük rüsumları, qoruyucu gömrük rüsumları və preferensial gömrük rüsumlarına bölünürlər. Belə olan şəraitdə respublikada istehsal olunan məhsullara analoji məhsulların gətirilməsini digər vasitələrlə, məsələn, aksiz vasitəsilə tənzimləmək

olar. Bu məhsullardan hələlik yalnız spirtli içkilərin və tütün məmulatlarının idxalına aksiz vergisi tətbiq edilir. Respublikaya gətirilən mallara vahid idxal rüsumunun tətbiqi nəticəsində daxili bazarda qiymətlərin artmasının qarşısını milli valyutanın məzənnəsinin yüksəldilməsi hesabına da almaq olar. Azərbaycanda gömrük siyasəti yenicə formalaşmaqdadır. Gömrük orqanları həm inzibati, həm də iqtisadi siyasəti həyata keçirirlər.

Ölkəmizdə gömrük siyasəti liberal və proteksionistik gömrük siyasətinə bölünür. Dünya dövlətlərinin bir hissəsi liberal gömrük siyasətinə, digər hissəsi isə proteksionistik gömrük siyasətinə üstünlük verirlər. Liberal gömrük siyasəti tərəfdarlarının fikrincə, liberal gömrük siyasəti rəqabəti stimullaşdırır və inhisarçılığı məhdudlaşdırır.

Proteksionistik gömrük siyasəti tərəfdarları isə belə hesab edirlər ki, xarici ticarətin liberal olduğu şəraitdə istehsalın heç bir sahəsində istehsalı genişləndirmək və effektivliyi artırmağa dair uzunmüddətli tədbirlər həyata keçirmək mümkün deyil. Onların fikrincə, proteksionistik gömrük rüsumları sənayenin yeni sahələrinin inkişafı üçün zəruridir. Yüksək proteksionistik gömrük rüsumları ölkəyə gətirilən malların qiymətlərini qaldırır və beləliklə də rəqabət qabiliyyətini azaldır. Qeyd etmək lazımdır ki, müasir dünyada istər qabaqcıl, istərsə də geridə qalmış ölkələrin əksəriyyəti proteksionizmə meyil göstərirlər. Həm də müasir proteksionizm siyasəti üçün qeyri-tarif maneələrinin rolunun artması xarakterikdir. Azərbaycanda proteksionizmin tərəfdarları kifayət qədərdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzv olması respublikamızda Gömrük Komitəsinin işinin dünya standartlarına uyğunlaşdırılması istiqamətində daha inamlı addımlar atmağa imkan verə bilər. Əsası 30 oktyabr 1947-ci ildə Cenevrədə 23 dövlət tərəfindən "Ticarət və ticarət siyasəti haqda" çoxtərəfli və hökumətlərarası Sazişin imzalanması ilə qoyulan bu təşkilatın hal-hazırda 130-dan çox üzvü vardır. ÜTM üzvü olan ölkələr dövri olaraq öz aralarında danışıqlar aparırlar. Belə danışıqlara tur-raundlar deyilir. Tur-raundlarda Ticarət siyasəti baryerlərin azaldılması və yeni qeyri-ticarət məhdudiyyətlərin tətbiqini nizamlayan məcəllə, yaxud qaydaların işlənib aparılması məsələləri müzakirə edilir. Tərəflər dəfələrlə gömrük tarifləri və rüsumları, ixracat qiymətləri, tarif güzəştləri və s. məsələləri müzakirə edirlər. Müzakirələr adətən sazişlərin imzalanması ilə başa çatır.

Azad və açıq ticarət, ölkələr arasında qarşılıqlı faydalı əmək bölgüsünə kömək etsə də və onlardan hər biri xüsusi istehsalı və istehlak imkanlarını genişləndirməyə imkan versə də, faktiki olaraq bu həmişə belə deyildir. İqtisadi cəhətdən geri qalmış ölkə üçün (bu halda Azərbaycan üçün) azad, rüsumsuz və tarifsiz ticarət ziyandır.

Qeyd etmək lazımdır ki, Azərbaycan üçün bu mərhələdə azad ticarət siyasəti zəruridir, çünki onun üçün, ilk növbədə, başlıcası iqtisadi azadlıq və milli təhlükəsizlik sayılır.

Proteksionist siyasətini həyata keçirmədən sənayenin, kənd təsərrüfatının, nəqliyyatın və digər milli təsərrüfat sahələrinin inkişafı mümkün deyildir. Proteksionizm, ilk növbədə, qiymətləri artırır, lakin müəyyən vaxtdan sonra istehsal o qədər səmərəli olur ki, xərclər və qiymətlər aşağı düşür. Tarixdə elə misallar var ki, himayədarlıq edilən sahələr, məsələn, Sinqapur, Koreya və s. kimi yeni sənaye ölkələrində uğurla inkişaf etmişdir. İnkişaf etməkdə olan ölkələrin çoxu zəruri məhdudiyyətlər müəyyən etməklə milli sənayenin yaradılmasına yardım göstərilməsinə və sənayeləşmənin həyata keçirilməsinə nail olmuşlar, lakin bunun əksi olan hallar da baş vermişdir. Məsələn, uğursuz proteksionizm siyasətinin aparıldığı Braziliyanın adını çəkmək olar.

Beləliklə, tarif və kvotaların istifadəsinə ehtiyatlı və ağıllı yanaşma tələb olunur. Belə ki, Azərbaycanda müasir mərhələdə optimal tarifləri müəyyən etmək məqsədəuyğundur.

## 2. "Milli istehsalın stimullaşdırılmasında gömrük-tarif tənzimlənməsinin rolu"

Hal-hazırda yüksək iqtisadi inkişafın artım sürətinə nail olmuş Azərbaycan, son illərdə dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı kimi nüfuzlu maliyyə institutlarının hesablamalarına görə növbəti illərdə də bu göstərici üzrə ölkəmiz dünyada lider dövlətlərdən biri olmaqla davam edəcəkdir. Öz növbəsində xarici sərmayə və neft gəlirləri nəticəsində əldə olunan daxili resurslar hesabına həyata keçirilən mühüm layihələr, eləcə də iqtisadi inteqrasiya proseslərinə yaxından cəlb olunmaqla Azərbaycan regional güc mərkəzinə çevrilməkdədir. Ölkəmizin əldə etdiyi bu yüksək iqtisadi göstəricilərin fonunda gömrük-tarif tənzimlənməsi sisteminin səmərəli fəaliyyətinin təmin edilməsi onun fəaliyyətinin daim mövcud olan problemlərinin üzə çıxarılmasını şərtləndirir.

Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasi Prezidentinin Fərmanı ilə 30 yanvar 1992-ci il tarixdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yaradıldı. Bu qıırum Azərbaycan Respublikasının sərhədindəki bütün gömrükxanalara nəzarəti həyata keçirir və ölkəmizin təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayır.

Son illərdə Azərbaycanda gömrük orqanlarının işi genişləndirilmiş, bu sahənin maddi-texniki bazası möhkəmləndirilmişdir. Gömrük orqanlarının infrastrukturunun formalaşdırılması və maddi-texniki bazasının gücləndirilməsi gömrük nəzarətinin təkmilləşməsinə xidmət etməkdədir. Ölkənin sərhəd keçid məntəqələrində infrastrukturun yerli iş şəraiti nəzərə alınmaqla gömrük nəzarətinin tam şəkildə aparılmasına şərait yaradan formada formalaşdırılması gömrük işinin effektivliyini daha da artırmaqdadır. Sərhəd-keçid məntəqələrində yerləşən gömrük orqanları ilə yanaşı, gömrük rəsmiləşdirilməsinin surətləndirilməsi və xarici fəaliyyət iştirakçılarına münbit şəraitin yaradılması məqsədilə daxili gömrük orqanlarının yaradılması respublikada gömrük işinin təkmilləşməsi istiqamətində atılan addımlardandır. Bir sıra gömrük rejimlərinin fəaliyyətinin təmin edilməsi, idxal və ixrac istiqamətində aparılan malların və nəqliyyat vasitələrinin saxlancının təmin olunması üçün respublikada gömrük anbarları da yaradılmışdır. Gömrük orqanlarının müasir tipli avadanlıq və texniki nəzarət vasitələrilə təchiz olunması ölkədə gömrük işinin məhsuldarlığını artırmaqdadır.

Ölkəmizin dünya iqtisadiyyatına inteqrasiya etməsi gömrük-tarif tənzimlənməsi sisteminin qabaqcıl dünya təcrübəsi əsasında təkmilləşdirilməsini şərtləndirir. Qeyd etmək lazımdır ki, dünya ölkələrində inteqrasiya prosesinin müvəffəqiyyətlə həyata keçməsi inteqrasiya edən ölkələrin iqtisadiyyatının yüksəlişdə olmasını tələb edir. Birmənalı şəkildə onu da demək lazımdır ki, böhran şəraitində olan ölkələr adətən bir-biri ilə çətin inteqrasiya edirlər və bu istiqamətdə dövlətlərin əməkdaşlığı çətinləşir.

Beynəlxalq iqtisadi inteqrasiya proseslərini müəyyən edən amillərə aşağıdakılar aid edilir: təsərrüfat həyatının qloballaşması; beynəlxalq əmək bölgüsünün dərinləşməsi; elmi-texniki inqilabın öz xarakterinə görə ümumdünyəvi olması; milli iqtisadiyyatların açıqlığının təmin edilməsi, ölkələrin rəhbərliyinin siyasi iradəsi və s. Ölkə rəhbərlərinin siyasi iradəsinə misal kimi Avropa Ittifaqı, Şimali Amerika Azad Ticarət Assosiasiyası (NAFTA), Cənubi Konus Ölkələrin Ümumi Ba-

zarı (MERKOSUR) kimi inteqrasiya birliklərinin yaradılmasında maraqlı ölkələrin siyasi rəhbərliyinin təşəbbüsü qeyd edilir.

Dünya iqtisadiyyatına inteqrasiyada Azərbaycan tərəfindən də bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Belə ki, Azərbaycan Respublikası MDB, IƏT, Qara Dəniz Iqtisadi Əməkdaşlıq Təşkilatında, GÜAM təşkilatı çərçivəsində bir sıra istiqamətlər üzrə, o cümlədən gömrük işi sferasında əməkdaşlığın qurulması və inkişaf etdirilməsində bilavasitə yaxından iştirak edir.

Avropa ölkələri azad ticarət zonası və gömrük ittifaqları yaradılarkən iştirakçı dövlətlər bazarın genişləndirilməsini və öz aralarında ticarət üçün əlverişli şəraitin yaradılmasını müəyyənləşdirir, azad ticarət zonasının və gələcəkdə gömrük ittifaqlarının yaradılması üçün hüquqi bazanın formalaşdırılmasını qarşıya məqsəd kimi qoyurlar. Bu qlobal məqsədin reallaşdırılması isə 1986-cı il tarixli Vahid Avropa Aktı ilə müəyyənləşir və həmin akta təsərrüfat fəaliyyətinin prioritet sahələrində ümumi sahəsi və elmi-texniki siyasətin həyata keçirilməsi, iştirakçı dövlətlərin sosial-iqtisadi inkişafını müəyyən etmək məqsədilə vahid regional siyasətin, ümumi xarici siyasətin, siyasi əməkdaşlığın işlənib hazırlanması, reallaşdırılması və s. daxildir.

İqtisadi inteqrasiyanın iştirakçı-dövlətlər üçün müsbət səmərə gətirməsi şübhəsizdir. Belə ki, inteqrasiya bloklarının formalaşdırılması dövlətlərin iqtisadi potensialını gücləndirir, mal dövriyyəsinin genişlənməsinə, istehsal əlaqələrinin artmasına səbəb olur. Bundan başqa, dövlətlərin iqtisadi yaxınlaşması iqtisadi inteqrasiya iştirakçılarının ərazisində yerləşən şirkətlər üçün əlverişli şərait yaradır.

Beynəlxalq iqtisadi inteqrasiyanın güclənməsində məqsəd regionun iqtisadiyyatının üstünlüklərindən istifadə edilməsi, əlverişli xarici siyasət mühitinin yaradılması, ticarət siyasətinin düzgün həyata keçirilməsi, iqtisadiyyatın struktur cəhətdən yenidən qurulmasına kömək edilməsi, birgə gömrük-tarif münasibətlərinin tənzimlənməsi, milli iqtisadiyyatın inkişafı və gənc sahibkarlığın inkişafına kömək edilməsindən ibarətdir.

Qeyd etmək lazımdır ki, dünya dövlətləri qarşılıqlı yaxınlaşma üçün ilkin addımlar atırlar və onların arasında preferensial ticarət sazişləri imzalanır. Bu sazişlər ya ayrı-ayrı dövlətlər arasında ikitərəfli əsasda, ya da müvafiq inteqrasiya qruplarında iştirak edən ayrı-ayrı ölkələr üçün münasibətdə təqdim edilən daha əlverişli recim şəraitini yaradır.

İnteqrasiyanın ikinci mərhələsində inteqrasiya edən ölkələr azad ticarət zonalarının yaradılmasına keçir. Bu zaman ikinci ölkələrə münasibətdə milli gömrük tariflərini saxlamaqla, qarşılıqlı münasibətlərdə gömrük tariflərinin tam ləğvi nəzərdə tutulur. Əksər hallarda azad ticarət zonaları üçün müəyyən edilən şərtlər kənd təsərrüfatı məhsullarından başqa bütün mallara şamil edilir.

Inteqrasiya proseslərində ən yüksək səviyyə iqtisadi ittifaqların yaradılması ilə nəticələnir. Bu zaman ümumi gömrük tarifinin tətbiq edilməsi, malların və istehsal amillərinin sərbəst hərəkəti ilə yanaşı, makroiqtisadi siyasətin əlaqələndirilməsi daha mühüm sahələrdə (məsələn, valyuta, büdcə, pul və s.) qanunvericiliyin unifikasiyasını (vahid şəklə salınmasını) nəzərdə tutur. Bu zaman ayrı-ayrı dövlətlərin hökumətləri səviyyəsində həyata keçirilən bəzi funksiyalar dövlətlər tərəfindən yaradılmış orqanlara verilir.

Gömrük ittifaqları beynəlxalq iqtisadi inteqrasiyanın daha geniş yayılmış formasıdır. Onu iki və daha çox dövlətin öz aralarında ticarətdə gömrük rüsumlarının aradan qaldırılması kimi başa düşmək olar. QATT-ın 14-cü maddəsinə görə, gömrük ittifaqı daxilində gömrük rüsumlarının tam ləğvi və vahid xarici gömrük tarifinin yaradılmasını nəzərdə tutur. Azad iqtisadi zonalar və gömrük ittifaqları arasında bir sıra fərqlər var. Belə ki, azad iqtisadi zonalarda gömrük rüsumlarının tədricən aşağı salınması, qeyri-tarif baryerlərinin aradan qaldırılması tədricən həyata keçirilir. Son nəticədə, azad iqtisadi zonalar üzv ölkələr arasında rüsumsuz ticarəti təmin edirlər. Gömrük ittifaqlarında isə üzv ölkələr arasında rüsumsuz ticarət əlaqələri olmaqla bərabər, ittifaqa daxil olmayan ölkələrə münasibətdə ümumi gömrük tarifi mövcud olur. Gömrük ittifaqları çərçivəsində üzv ölkələrin istehsal və istehlak strukturunda ciddi dəyişikliklər baş verir. Vahid xarici ticarət siyasətini həyata keçirərək gömrük ittifaqı daxilində inteqrasiya proseslərinin inkişafına ciddi təsir göstərir. Təcrübə göstərir ki, bu daxili mal və xidmətlər bazarının inkişafına da əlverişli təsir edir.

Müxtəlif regionlarda inteqrasiya prosesinin öyrənilməsi ilə beynəlxalq iqtisadi inteqrasiya və qarşılıqlı gömrük tarif münasibətlərinin bir qədər geniş təhlil edilməsi zəruridir. Ilk növbədə Avropa Ittifaqında inteqrasiya prosesinin təhlili bu problemi hərtərfli nəzərdən keçirməyə imkan vermiş olar.

Avropa Ittifaqında inteqrasiya prosesinin inkişafı bir neçə mərhələyə bölünür:

-Azad ticarət zonası mərhələsi (1958-1968-ci illər);
-Gömrük ittifaqı mərhələsi (1968-1976-cı illər);
-Ümumi bazar mərhələsi (1987-1992-ci illər);
-Iqtisadi ittifaq mərhələsi (1993-cü ildən indiki dövrə qədər).

Qeyd etmək lazımdır ki, Avropa Ittifaqı çərçivəsində inteqrasiya prosesinin daha yüksək mərhələsinin əsası 1992-ci ilin sonundan ümumi bazarın yaradılması ilə qoyulmuşdur. Bu zaman mühüm inteqrasiya nəticələri ilə bərabər üzv, ölkələr arasında daxili iqtisadi siyasətin razılaşdırılması üzrə ciddi tədbirlər həyata keçirilmişdir. Belə ki, vahid aqrar siyasət həyata keçirilərkən kənd təsərrüfatı məhsulları istehsalının yüksəldilməsi və s. digər başlıca məqsədlər qarşıya qoyulur. Məsələn, Avropa Ittifaqı daxilində kənd təsərrüfatı məhsullarına vahid qiymətin və ona yardım üzrə vahid mexanizmin müəyyən olunması, tarif və digər məhdudlaşdırmaların nəzərdə tutulmadığı kənd təsərrüfatı məhsulları ticarətinin azadlığı (Avropa Ittifaqı daxilində), kənd təsərrüfatının maliyyələşdirilməsi və s.

Bundan başqa, Avropa Ittifaqı çərçivəsində üçüncü ölkələrə münasibətdə vahid siyasətin yeridilməsindən də söhbət gedir. Avropa valyuta siyasətinin və sosial siyasətin həyata keçirilməsində də ciddi irəliləyişlər əldə edilmişdir.

Qeyd etmək lazımdır ki, Avropa Ittifaqına inteqrasiya Azərbaycan Respublikası qarşısında duran ciddi məsələlərdəndir. Belə ki, müxtəlif istiqamətlər üzrə əməkdaşlığın, o cümlədən xarici investisiyaların cəlb edilməsi istiqamətində mühüm addımların atılmasını nəzərdə tutan Azərbaycan Respublikası ilə Avropa Ittifaqı arasında 22 aprel 1996-cı il tarixdə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq sazişi bu cəhətdən xüsusi qeyd edilə bilər.

Digər regionlar üzrə də bu məsələləri bir qədər geniş təhlil edək. Belə ki, 1992-ci ildə Macarıstan, Polşa, Slovakiya və Çexiyanın iştirak etdiyi Azad Ticarət Zonası haqqında Mərkəzi Avropa Sazişi imzalanmışdır. Sonradan ona bir sıra dövlətlər də (Rumıniya, Bolqarıstan) qoşulmuşdur. Sazişlə sənaye və kənd təsərrüfatı sahəsində gömrük rüsumlarının ləğvinə qədər onların tədricən aşağı salınması və digər qeyri-tarif məhdudlaşdırmaların aradan qaldırılması nəzərdə tutulurdu.

Şimali Amerika regionunda inteqrasiya prosesinin tənzimlənməsində 17 dekabr 1992-ci ildə ABŞ, Kanada və Meksika arasında yaradılmış NAFTA (1 yanvar 1994-cü ildə qüvvəyə minmişdir) xüsusi yer tutur. Bu zaman nəinki gömrük maneələrinin aradan qaldırılmasına,

həmçinin vahid kontinental bazarın formalaşmasına mühüm yol açılmışdır. Eyni zamanda, 3 qonşu ölkə arasında iqtisadi münasibətlərin tənzimlənməsində bir sıra qarşılıqlı vəzifələr qarşıya qoyulmuşdur. Məsələn, 2010-cu ilə qədər bütün gömrük rüsumlarının ləğvi, ticarətdə çoxlu sayda qeyri-tarif maneələrinin aradan qaldırılması, Meksikada Şimali Amerika kapital qoyuluşu reciminin yumşaldılması və s.

Inteqrasiya prosesləri Asiya-Sakit okean regionunda da inkişaf etmişdir. Belə ki, Asiya-Sakit okean regionu mürəkkəb bir sistemi– Yaponiya – Çin, yeni sənaye ölkələrini (Cənubi Koreya, Tayvan, Honkonq) və ASEAN-ı əhatə edir. ASEAN – Cənub-Şərqi Asiya Dövləti Assosiasiyası 1967-ci ildə formalaşmaqla, Indoneziyanı, Malayziyanı, Tailandı, Filippini, Sinqapuru, Bruneyi və Vyetnamı birləşdirir. Bundan başqa, 1989-cu ildə yaranmış Asiya-Sakit Okean İqtisadi Birliyi xüsusi qeyd edilə bilər. Yeni formalaşma mərhələsini keçməsinə baxmayaraq, həmin inteqrasiya birliyi çərçivəsində 2020-ci ilə qədər daxili maneələrin və gömrüyün olmadığı azad ticarət zonasının yaradılması nəzərdə tutulur.

Bundan əlavə, 1981-ci ildə Fars Körfəzi Ərəb Dövlətləri Əməkdaşlığı Şurası yaradılmışdır ki, bu da özündə altı neft dövlətini – Səudiyyə Ərəbistanını, Bəhreyni, Qətəri, Küveyti, Birləşmiş Ərəb Əmirliklərini və Omanı birləşdirir.

Latın Amerikasında inteqrasiya prosesinin tənzimlənməsində 1991-ci ildə Argentina, Braziliya, Uruqvay və Paraqvay arasında imzalanmış və 1995-ci il yanvarın 1-dən quvvəyə minən Ticarət Paktı Cənubi Konus Ölkələri, Ümumi Bazarı - MERKOSUR mühüm yer tutur ki, bu zaman qarşılıqlı şəkildə təqribən 90 faiz istənilən tarif maneələrindən azadedilmə nəzərdə tutulur və 3-cü ölkələrə münasibətdə vahid gömrük tarifi müəyyən edilir. MERKOSUR dövlətləri digər dövlətlərlə birlikdə (bütövlükdə 11 dövlət) Latın Amerikasında iri inteqrasiya birliyinin - Latın Amerikası Iqtisadi Assosiasiyasının üzvüdürlər. Inteqrasiya prosesləri Afrika regionunda da formalaşmışdır. Məsələn, Afrika Birliyi (1994), Qərbi Afrika Dövlətlərinin Iqtisadi Birliyi (1975), Şərqi və Cənubi Afrika Ümumi Bazarı (1993), Mərkəzi Afrika Gömrük və Iqtisadi Birliyi (1967) və s.

Qeyd etmək lazımdır ki, 1991-ci ildə Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması qərara alınmış və 1993-cü ildə MDB-nin Nizamnaməsi qəbul edilmişdir. MDB-nin Nizamnaməsinin iqtisadi, sosial və hüquqi sahədə əməkdaşlığa həsr olunmuş bölmələrində ra-

zılaşdırılmış iqtisadi siyasətin ümumi istiqamətləri müəyyən edilmişdir.

1995-ci ildə MDB çərçivəsində Gömrük İttifaqı formalaşmışdır. 13 mart 1992-ci ildən MDB çərçivəsində gömrük siyasətinin prinsipləri haqqında saziş imzalanmışdır. Həmin sazişə uyğun olaraq Gömrük Şurası yaradılmış və fəaliyyətə başlamışdır.

MDB çərçivəsində bu istiqamətdə digər sənədlər də qəbul edilmişdir. Məsələn, Tranzit qaydaları haqqında 8 fevral 1992-ci il Razılaşması, Tranzit yüklərin rəsmiləşdirilməsi haqqında 2 aprel 1992-ci il Razılaşması, Gömrük sərhədlərində gömrük rəsmiləşdirilməsi qaydalarının sadələşdirilməsi və unifikasiyası haqqında 8 iyul 1994-cü il Razılaşması, MDB iştirakçı-dövlətlərinin gömrük qanunvericiliyinin əsasları – 10 fevral 1993-cü il tarixli MDB ölkələri iştirakçı dövlətlərində gömrük işi təşkilinin ümumi razılaşdırılmış Prinsipləri, 1993-cü il tarixli malın mənşə ölkəsinin müəyyənedilmə qaydaları və s. MDB çərçivəsində əməkdaşlığın müxtəlif istiqamətlərindən danışarkən Gömrük İttifaqının və vahid iqtisadi məkanın yaradılması istiqamətində bir sıra addımların atılması, o cümlədən Gömrük İttifaqı orqanlarının fəaliyyətinin səmərəliliyinin təmin edilməsi kimi həyata keçirilən tədbiri qeyd etmək lazımdır. Bütövlükdə götürsək, MDB çərçivəsində yaradılmış təsisatların və müqavilələrin işləməməsi və ya müəyyən mexanizmlərin yaradılmaması MDB çərçivəsində inteqrasiya prosesini ləngidir.

Azərbaycan MDB çərçivəsində qəbul edilmiş bir sıra beynəlxalq sənədlərin iştirakçısıdır. Məsələn, 10 fevral 1995-ci il tarixli «MDB iştirakçı-dövlətlərin gömrük qanunvericiliyinin əsasları» (12 mart 1995-ci il tarixli Qanunla Azərbaycan Respublikası da müqaviləyə qoşulmuşdur) 15 aprel 1994-cü il tarixli Azad İqtisadi Zonanın yaradılması haqqında Konvensiya (8 oktyabr 1996-cı il tarixli Qanunla Azərbaycan Respublikası bu konvensiyaya qoşulmuşdur) və s.

Hal-hazırda bu istiqamətdə Azərbaycan Respublikası tərəfindən əməli fəaliyyət həyata keçirilir. Belə ki, digər dövlətlərlə həm ikitərəfli, həm də regional əsasda sıx əməkdaşlıq münasibətləri quran Azərbaycan Respublikası gömrük tarif sistemini də bu istiqamətdə təkmilləşdirir və inkişaf etdirir. Bəzi mühüm istiqamətlərdə gömrük-rüsum dərəcələrinin aşağı salınması və bununla da iqtisadi inteqrasiyaya bilavasitə kömək etmiş olan tədbirlər bu nöqteyi-nəzərdən xüsusilə əhəmiyyətlidir.

Gömrük tarifi ilə əlaqədar məsələlərin təhlili dövlətin milli iqtisadiyyatının formalaşması və inkişafında rolunun qarşılıqlı şəkildə araşdırılmasını tələb edir. Bu problemlərin daha dərindən öyrənilməsi isə gömrük tarifinin müxtəlif xarici ölkələrin praktikasında inkişaf mərhələlərinə uyğun araşdırılması zəruriliyini tələb edir. Gömrük tarifi xarici ticarətin tənzimlənməsinin mühüm vasitələrindən biridir və gömrük siyasətinin həyata keçirilməsi ilə əlaqədar özünəməxsus xüsusiyyətlərə malikdir. Bu zaman gömrük tarifi parametrlərinin - əmtəə nomenklaturası, gömrük rüsumlarının dərəcəsi, növləri və s. xüsusiyyətləri, idxal və ixrac həcmi və strukturu məlumatlarının toplanılması, daxili tələbatın müəyyən edilməsi, yerli malların istehsalı və s. məsələlərin geniş təhlili mövzu üçün əhəmiyyətli hesab edilə bilər. Ona görə də ilk növbədə xarici dövlətlərin təcrübəsində onların iqtisadi inkişaf mərhələlərinə uyğun məlumatların müqayisəli təhlili zəruridir. Sonra isə həmin məlumatların mərhələli və müqayisəli şəkildə araşdırılması həmin dövlətlərlə iqtisadi inkişaf münasibətlərini quran və daha da inkişaf etdirməyi qarşısına məqsəd qoyan Azərbaycan Respublikası üçün də xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, gömrük-tarif tənzimlənmə sistemində gömrük tarifinin fiskal funksiyasının Azərbaycan Respublikası praktikasında hələlik kifayət qədər mühüm yer tutduğunu bir daha təsdiq edir. Bu isə həm də Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin kəskin surətdə artması ilə izah edilə bilər.

Fiskal funksiyanın digər dövlətlərin praktikasında əhəmiyyətli dərəcədə xüsusi yer tutduğu qeyd edilir. Məsələn, Rusiyanın gömrük-tarif tənzimlənməsi sistemində onun həlledici rola malik olduğu göstərilir. Digər dövlətlərin praktikasının təhlili ilə məsələni bir qədər ətraflı izah edək. Belə ki, büdcənin gəlir hissəsinin formalaşmasında Rusiya Federasiyasında gömrük rüsumlarının xüsusi çəkisi hər bir rublda 38 qəpik, ABŞ-da ümumi federal büdcə gəlirlərində bir faiz, Avropa Ittifaqı ölkələrində isə bu göstərici 18-25 faiz arasında tərəddüd edir.

Müstəqil dövlət kimi Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin təhlili göstərir ki, 1994-2015-ci illər ərzində dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasında gömrük ödənişləri və onun xüsusi çəkisi xeyli artmışdır. Bu isə son nəticədə xalqın maddi rifahının yaxşılaşması üçün xeyli vəsaiti ayırmağa imkan vermişdir.

Azərbaycan tarixən Şərqlə Qərb, Şimalla Cənub istiqamətində formalaşmış ticarət əlaqələrinin mərkəzində yerləşmişdir və bilavasitə

tranzit əhəmiyyətinə görə daim fərqlənmişdir. Qədim Ipək Yolu, Avropanın Şimal ölkələrini Yaxın və Orta Şərqlə birləşdirən başlıca nəqliyyat dəhlizləri qədim zamanlardan Azərbaycanın tarixi ərazilərindən keçmişdir. Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan əlverişli coğrafi mövqeyi ilə yanaşı, zəngin təbii sərvətləri, gözəl iqlim şəraiti hesabına tarixən diqqət mərkəzində olmuşdur. Xüsusilə, dünya iqtisadiyyatının hazırda ən mühüm komponentlərindən olan neft–qaz ehtiyatlarına malik olmaqla regional və qlobal iqtisadi proseslərə təsir etmək imkanına malikdir.

Azərbaycanın əsas neft və qaz ehtiyatları dənizdə yerləşir. Belə ki, Xəzər dənizinin Azərbaycan setkorunda 28 neft və qaz yatağı vardır ki, bunlardan 18-i hal-hazırda istismardadır, 2-sində ilkin tədqiqat işləri başa çatmışdır, 8 yataq isə hələ tam tədqiq olunmamışdır. Bu sektorda təsdiq olunmuş neft ehtiyatları təxminən 12,5 milyard barel təşkil edir ki, bunun da böyük hissəsi ehtiyatları 5,4 milyard barel həcmində qiymətləndirilən Azəri - Çıraq – Günəşli yataqlarının payına düşür. Ümumilikdə təsdiq olunan neft ehtiyatlarının həcminə görə Xəzər hövzəsində Azərbaycan yalnız Qazaxıstandan geri qalır. Belə ki, Azərbaycan Qazaxıstanın təsdiq olunan potensial neft ehtiyatının təqribən üçdə birinə bərabər neft ehtiyatına və potensial qaz ehtiyatının təqribən dörrdə birinə bərabər qaz ehtiyatlarına malikdir. Son məlumatlara görə isə Azərbaycanın təsdiq edilmiş neft ehtiyatları ən azı 15 milyard barrel, təsdiq edilmiş qaz ehtiyatları isə ən azı 2 trilyon kubmetrə bərabərdir[1].

Qeyd etmək lazımdır ki, ölkənin iqtisadi artımı öz növbəsində xarici iqtisadi siyasətin də dəyişməsinə səbəb olur. Respublikamızın iqtisadiyyatına investisiya qoyuluşlarında xarici və daxili resursların hərəkət istiqamətləri üzrə baş verən dəyişikliklər də bunun göstəricisidir. Belə ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın iqtisadiyyatına qoyulan xarici investisiyalar ilk 15 il ərzində daxili investisiyaları üstələyirdi və yaranan maliyyə vəsaiti çatışmazlıqları xarici sərmayə hesabına ödənilirdi. Neft sektoruna investisiya qoyuluşları ilbəil dinamik sürətlə artmışdır. Bu da xarici investorların neft setkoruna olan yüksək marağının göstəricisidir. Qlobal miqyasda enerci təhlükəsizliyi məsələsinin aktuallığı və iqtisadi səmərəliliyin yüksək olması xarici investorların məhz neft sektoruna marağının artmasına vüsət

[1] Алиев Ильхам. Каспианская нефть Азербайджана, Москва, Известие, 2003.

vermişdir. Belə ki, respublikamızın neft sənayesinə xarici investisiya qoyuluşları 1995-ci ildə 139,1 milyon ABŞ dolları olduğu halda, 2005-ci ildə bu göstəricinin 29 dəfə artaraq 4074,4 milyon ABŞ dolları olması deyilənləri təsdiqləməkdədir. 2010-cu ildə isə Azərbaycan iqtisadiyyatına yatırılan xarici investisiyaların ümumi həcmi 17 mlrd.ABŞ dolları təşkil etmişdir.

Müstəqillik qazanıldığı dövrdən respublikada birgə və xarici firmaların sayının və investisiya kapitalının müəyyən həcmli artımının müşahidə olunması səmərəli investisiya mühitini əks etdirməklə keçid dövründə olan digər dövlətlər kimi yüksək gəlir mənbəyinin mövcudluğu, yerli sərmayədarlara nisbətən xarici investorların kapital yerləşdirmək imkanlarının yüksəkliyilə bilavasitə bağlıdır.

Azərbaycanda xarici kaptalın cəlb olunması və onun fəaliyyətinin tənzimlənməsinin hüquqi əsaslarını «Xarici investisiyaların qorunması haqqında», «Investisiya fəaliyyəti haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında» qanunvericilik aktları, həmçinin Azərbaycan Respublikasında ticarətin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 23 iyul 1999-cu il tarixli Fərmanı və respublikamızın iştirakçısı olduğu beynəlxalq müqavilələr təşkil edir. Ümumilikdə qeyd etmək lazımdır ki, respublikamızda xarici investisiyalara dövlət və qanunvericilik tərəfindən aşağıdakı zəmanətlər verilir:

- Qanunvericiliyin pozulmasına qarşı zəmanət – investisiyanın qoyulduğu müddətdə mövcud olan qanunvericilik növbəti 10 ildə qüvvədə olur;

- Investisiyanın milliləşdirilməsinə (xalqın və dövlətin marağı ilə ziddiyyət təşkil etdiyi hal istisna olmaqla) və rekvizisiya olunmasına, təbii fəlakətlər, epidemiyalar, hadisələr, fövqəladə hallar istisna olmaqla, qarşı zəmanət verilir. Milliləşdirmə və rekvizisiya hallarında xarici investorlara dəymiş ziyanın məbləğinin təcili və adekvat şəkildə ödənilməsinə zəmanət verilir;

- Dövlət qurumlarının qeyri-qanuni hərəkətləri nəticəsində xarici investora ziyan dəyərsə və o, gəlirini itirərsə, vurulmuş ziyanın məbləğinin ödənilməsinə zəmanət verilir;

- Xarici investorun müvafiq vergiləri ödədikdən sonra əldə etidiyi gəliri istənilən yerə repartriasiya etməsinə zəmanət verilir.

Digər tərəfdən son illər müşahidə olunan iqtisadi inkişaf ölkə iqtisadiyyatında xarici və daxili investisiyaların nisbətinin dəyişməsinə, yerli kapitalın hərəkətlənməsinə, daxili bazarda xarici sərmayə ilə rə-

qabətə girişməsinə və müvafiq olaraq xarici iqtisadi siyasətin, eləcə də gömrük-tarif siyasətinin dəyişməsinə stimul vermişdir. Artıq ölkə iqtisadiyyatında daxili investisiyaların payı böyük ölçüdə artmışdır.

Bundan başqa, artan neft gəlirləri yerli kapitalın da xarici bazarlara doğru yönəlməsinə təkan vermişdir. Neft gəlirlərinin daxil olması ilə onun daxili bazarda izafi kapital yaradacağı səbəbindən mənfəət norması aşağı düşəcəkdir. Belə ki, yaxın 20 ildə Azərbaycan hökumətinin neftdən gələn ümumi gəlirlərinin 200 mlrd.ABŞ dollarından çox olacağı ilə bağlı proqnozlar bu vəsaitlərin xarici bazarlara yönəldilməsini labüdləşdirir. Artıq Dövlət Neft Şirkətinin Gürcüstan, Türkiyə, Ukrayna, Rumıniyada neft, neft-kimya, infrastruktur layihələrinə sərmayə ayırması yerli investisiyaların xaricə axınından xəbər verir.

Belə bir şəraitdə isə ölkəmizin xarici iqtisadi siyasətinin müəyyənləşdirilməsində gömrük tənzimləmələri mühüm rol oynayır. Azərbaycan Respublikasında həyata keçirilən gömrük siyasətinin məqsədi respublikanın gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadənin təmin edilməsi, daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətindən irəli gələn digər vəzifələrin yerinə yetirilməsinə köməklik etməkdir. Iqtisadi siyasətin tərkib hissəsi olan gömrük-tarif siyasəti yerli sahibkarlığı, istehlakçıların mənafeyini, dövlətin iqtisadi maraqlarını da nəzərə almaqla xarici ticarət əlaqələrinin tənzimlənməsini təmin etməyə yönəlmişdir. Azərbaycan Respublikasında gömrük qanunvericiliyi xarici ticarətin formalaşmasında müxtəlif tənzimlənmə metodlarından istifadəyə icazə verir. İqtisadi, inzibati, texniki və digər tənzimlənmə metodlarından istifadə isə ölkənin apardığı iqtisadi siyasətə müvafiq olaraq xarici ticarət əlaqələrinin tənzimlənməsinə və lazım olan məcrada inkişaf etdirilməsinə şərait yaradır. Respublikamızda göstərilən tənzimlənmə tədbirlərindən daha çox iqtisadi metoddan istifadə olunmaqdadır. Bu isə öz növbəsində xarici ticarət əlaqələrinin inkişafına və sağlam daxili rəqabətin formalaşmasına şərait yaradır.

Azərbaycan Respublikası iqtisadi-coğrafi mövqeyi, maddi nemətləri və ixtisaslaşmış istehsal məhsulları hesabına beynəlxalq iqtisadi münasibətlər sistemində fəal iştirakçılardandır. Müasir qloballaşma dövründə isə bu sistemdən kənarda qalmaq istənilən sivil ölkə üçün qaçılmazdır. Dünya iqtisadiyyatına inteqrasiya etmədən heç bir sosial-iqtisadi inkişafdan danışmaq olmaz. Hər-hansı bir dövlət, o cümlədən

Azərbaycan daxili tələbatını yalnız yerli istehsal məhsullarının hesabına ödəmək iqtidarında deyil və bu səmərəlilik baxımından sərfəli sayıla bilməz. Sosial-iqtisadi inkişafın nəticəsi olaraq əhalinin istehlak əmtəələrinə olan maraqları da dəyişməkdədir. Əgər həyat səviyyəsi aşağı olduqda əsasən gündəlik tələbat malları istehlakın çox hissəsini təşkil edirsə, bu göstəricinin yüksəlməsi istehlakın strukturunu dəyişməklə uzunmüddətli istehlak mallarına olan tələbatı artırmaqdadır. Azərbaycan Respublikası əhalinin istehlak mallarına olan tələbatının ödənilməsi, ixrac mallarının dünya bazarına çıxarılaraq realizə olunması, yerli istehsalın xammal və texnoloci yeniliklərlə təchiz olunmaqla təşkili, xarici investorların cəlb edilməsi, milli iqtisadiyyatın inkişafının təmin edilməsi və digər amilləri nəzərə almaqla xarici iqtisadi əlaqələrdə, o cümlədən onun tərkib hissəsi olan ticarət əlaqələrində yaxından iştirak edir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, xarici iqtisadi fəaliyyətin düzgün təşkil edilməsi məsələsi olduqca vacibdir. Məhz bu baxımdan bütün dünya ölkələri bu məsələyə xüsusi diqqət yetirirlər. Xarici iqtisadi fəaliyyətin köməyi ilə dövlət, bir tərəfdən özünün milli iqtisadiyyatının dünya təsərrüfatına azad çıxışını təmin edirsə, digər tərəfdən, ayrı-ayrı malların idxalı və ixracına, eyni zamanda lisenziyalaşdırma, kvotalaşdırma və başqa növ tədbirlərin həyata keçirilməsi yolu ilə özünün istehsalçılarının maraqlarının qorunmasına, iqtisadi təhlükəsizliyinin təmin olunmasına, ictimai qaydanın, insanların həyat və sağlamlığının qorunmasına yönəlmiş tədbirlər həyata keçirir, həmçinin dövlət büdcəsinin gəlir hissəsinin gömrük ödənişləri hesabına doldurulmasını təmin edir.

Qeyd etmək lazımdır ki, beynəlxalq iqtisadi münasibətlərin tarixi və məntiqi baxımdan ən ilkin əsas forması əmtəə və xidmətlərlə beynəlxalq ticarətdir və müasir dövrdə təxminən 2/3 hissəsindən çoxu məhz xarici ticarət əlaqələrinin payına düşür.

Bir qrup iqtisadçılar xarici iqtisadi fəaliyyətin dörd əsas növün olduğunu qeyd edirlər:

Xarici ticarət fəaliyyəti;

Istehsal kooperasiyası;

Beynəlxalq investisiya əməkdaşlığı;

Valyuta və maliyyə kredit əməliyyatları.

Hər bir dövlət üçün xarici iqtisadi fəaliyyətin tənzimlənməsi məsələsi olduqca vacibdir. Tənzimlənmənin həyata keçirilməsi üçün tən-

zimetmənin müəyyən normativ hüquqi bazasının mövcudluğu, tənzimetmənin müəyyən institusional-təşkilati strukturunun mövcudluğu, iştirakçıların qeydiyyatı, xarici ticarət razılaşdırmaların kvotalaşdırılması, idxal mallarının sertifikatlaşdırılması, bir sıra kontraktların qeydiyyatı, gömrük-tarif tənzimlənməsi, valyuta və pul-kredit tənzimlənməsi və s. müstəsna rol oynayır.

Xarici iqtisadi fəaliyyətin əsasını malların və xidmətlərin ixracı və idxalı olan xarici ticarət təşkil edir. Bu isə xarici iqtisadi əlaqələrin daha inkişaf etmiş formasıdır. Son dövrdə Azərbaycanın dünya dövlətləri ilə beynəlxalq ticarəti, işçi qüvvələrinin miqrasiyası, kapital idxalı, beynəlxalq valyuta münasibətləri, beynəlxalq elmi-texniki və istehsal əməkdaşlığı sahəsində əlaqələri xeyli genişlənmişdir. Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsində əsas məqsəd dövlətlərarası müqavilələrin yerinə yetirilməsi əsasında xarici iqtisadi sektorun inkişaf etdirilməsi və son nəticədə, dövlətin valyuta gəlirlərinin artırılmasıdır. Bu əlaqələr əsasən gömrük işi sahəsində çoxtərəfli müqavilələrdə iştirakı, mühüm beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq, gömrük işi sahəsində ikitərəfli əməkdaşlığın formalaşması və inkişafı sahəsində həyata keçirilir. Beynəlxalq gömrük əlaqələrinin qurulmasında Azərbaycanın gömrük işi sahəsində imzalanmış beynəlxalq müqavilələrdə və beynəlxalq təşkilatlarda fəal iştirakı əvəzsizdir və bu istiqamətdə hazırda böyük işlər həyata keçirilir. Belə ki, Dövlət Gömrük Komitəsi Iqtisadi Əməkdaşlıq Təşkilatı, BMT-nin Inkişaf Proqramı, MDB Gömrük xidməti rəhbərləri Şurası, Gömrük Əməkdaşlığı Komitəsi və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

Hal-hazırda sənayecə inkişaf etmiş ölkələrin beynəlxalq ticarətdə xüsusi çəkisi həmişə yüksək olub dünya ticarət dövriyyəsinin 70 faizindən çoxunu təşkil edir. Beynəlxalq təcrübəyə əsasən dünya ölkələri 3 qrupa bölünür:

Sənaye cəhətdən inkişaf etmiş ölkələr;

Keçid iqtisadiyyatlı ölkələr;

Inkişaf etməkdə olan ölkələr.

Azərbaycan dünya birliyi sistemində keçid iqtisadiyyatlı ölkə kimi tanınsa da, bu gün artıq bu dövr başa çatmışdır. Keçid dövründə isə ölkəmizin qarşısında duran mühüm vəzifələrdən biri də xarici iqtisadi əlaqələrdən iqtisadiyyatın yenidən qurulmasında istifadə etmək və onun səmərəliliyini artırmaq olmuşdur. Belə ki, xarici ticarətin ölkənin maliyyə sabitliyinin əsas amili olduğu artıq sübut edilmişdir.

Xarici iqtisadi fəaliyyətdən daxilolmalar (gömrük rüsumları, yığımları və s.) dövlət büdcəsinin əhəmiyyətli hissəsini təşkil edir. Xarici iqtisadi fəaliyyətin həyata keçirilməsində mühüm vəzifələrdən biri də digər xarici ölkələrlə qarşılıqlı faydalı ticarət-iqtisadi əlaqələrin qurulmasıdır. Azərbaycan iqtisadiyyatında xarici iqtisadi əlaqələrin səmərəli təşkili bir sıra məsələlərlə sıx bağlıdır. Belə ki, beynəlxalq ticarətdə qarşılıqlı faydalı əlaqələrin artması istehlak malları dairəsinin zənginləşməsinə səbəb olur, səmərəli ixtisaslaşma mövcud maddi, maliyyə, əmək və elmi ehtiyatdan səmərəli istifadə imkanlarını müəyyən edir və nəhayət, xarici iqtisadi əlaqələrin düzgün qurulması xarici kreditlərin, xarici kapitalın, investisiya qoyuluşu ilə əlavə vasitələrin cəlb edilməsinə gətirib çıxarır.

Hal-hazırda respublikamızda elmi-texniki əlaqələrin daha da inkişaf etməsi, beynəlxalq əlaqələrdə yeni texnologiyalırın tətbiqi ayrı-ayrı sahələrin daha da inkişafına səbəb olur. Buna görə də respublikamızın qarşısında duran mühüm vəzifələrdən biri də Avropaya inteqrasiya proseslərinin daha da sürətləndirilməsidir.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsinə dövlətin xarici və daxili siyasətinin vahidliyi, xarici ticarət fəaliyyətini tənzimləmə siyasətinin və onun reallaşması üzərində nəzarətin vahidliyi, dövlətin gömrük ərazisinin və gömrük siyasətinin vahidliyi, xarici ticarət fəaliyyətində inzibati xarakterli metodlara nisbətən iqtisadi (gömrük-tarif) metodlara üstünlük verilməsi, xarici iqtisadi fəaliyyət subyektlərinin fəaliyyətinə dövlətin və onun orqanlarının əsassız müdaxilələrinin qarşısının alınması öz təsirini göstərir. Bu vacib məsələlərə Azərbaycan dövləti xüsusi diqqət yetirir. Məsələn, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidentinin 2 sentyabr 2002-ci il tarixli «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» və 28 sentyabr 2002-ci il tarixli «Sahibkarlığın inkişafına maneçilik törədən halların aradan qaldırılması haqqında» fərmanları xüsusi qeyd edilməlidir. Belə ki, əgər birinci fərmanla xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirilmişdirsə, ikinci fərmanla sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması (məsələn, bu sahədə fəaliyyət – yoxlama və nəzarəti həyata keçirən orqanların fəaliyyətinin təkmilləşdirilməsi və ya onların ləğvi) nəzərdə tutulur.

Xarici iqtisadi fəaliyyətdə mühüm istiqamətlərdən biri də bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsidir. Həyata keçirilən

xarici iqtisadi siyasət dövlətin beynəlxalq iqtisadiyyatda iştirakı hesabına özünün siyasi, iqtisadi, hərbi və sosial potensialını möhkəmləndirmək üçün milli iqtisadiyyatın formalaşdırılması və daha da inkişaf etdirilməsi üzrə fəaliyyəti başa düşülməlidir. Bütün bunları, o cümlədən dövlətin xarici iqtisadi əlaqələrinin formalaşması və inkişafını nəzərə alaraq xarici ticarət siyasəti, xarici investisiya siyasəti, valyuta siyasəti və gömrük siyasəti həyata keçirilir.

Xarici ticarət siyasəti malların, xidmətlərin, informasiyaların və əqli mülkiyyət fəaliyyəti nəticələrinin xarici ticarət sahəsində ölkənin digər ölkələrlə münasibətlərinin müəyyən edilməsinə və formalaşmasına yönəlmişdir.

Gömrük-tarif siyasəti xarici ticarətin tənzimlənməsi, milli iqtisadiyyatın xarici təsirdən qorunması və digər maliyyə məsələlərinin həll edilməsi məqsədi ilə dövlətin iqtisadi metodlar vasitəsilə həyata keçirdiyi xarici ticarətin tənzimlənməsi sistemidir. Gömrük–tarif siyasəti dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olaraq xarici iqtisadi fəaliyyətin və dünya birliyi ölkələrinin maraqlarının möhkəmləndirilməsində əsas vasitə kimi çıxış edir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasında xarici iqtisadi fəaliyyətin tarif və qeyri-tarif tənzimlənməsi xüsusi qarşılıqlı əlaqədə götürülməli və təhlil edilməlidir. Lakin dünya iqtisadiyyatına inteqrasiya ölkələrarası əməkdaşlığın genişləndirilməsi üzrə fritderçilik siyasətinin formalaşdırılması və daha da inkişafını nəzərdə tutsa da, milli iqtisadiyyatın inkişafı və onun müdafiəsi zamanı proteksionist tədbirlərin tətbiq edilməsi zəruriyyəti ortaya çıxır. Gömrük-tarif siyasətinin elmi əsaslara söykənərək reallaşdırılması xarici iqtisadi fəaliyyətin səmərəliliyini artırır.

Dövlətin xarici iqtisadi siyasəti onun beynəlxalq aləmdə mövqeyi, geosiyasi amillərin iqtisadiyyatın səmərəliliyinə təsiri və rəqabətqabiliyyəti ilə müəyyən edilir. Xarici iqtisadi əlaqələrin liberallaşdırılması şəraitində Azərbaycanda milli iqtisadiyyatın bütün sektorları dövlət himayəsinin bu və ya başqa ölçülərdə tətbiq edilməsini şərtləndirir. Proteksionist siyasət və daxili bazarın tənzimlənməsi, o cümlədən azad ticarət siyasətinin həyata keçirilməsi isə iqtisadi cəhətdən əsaslandırılmalı və milli iqtisadiyyatın durğunluğunu istisna etməlidir. Dünya ölkələri ilə yeni yaranan əməkdaşlıq sferalarının inkişaf etdirilməsi gömrük-tarif siyasəti sahəsində yaranan münasibətlərə daha geniş və bir-biri ilə qarşılıqlı əlaqədə yanaşmanı tələb edir. Belə ki,

dövlətin gömrük xidməti sisteminin formalaşması və inkişafında onun dünya təsərrüfatına inteqrasiyası mühüm amil kimi çıxış edir. Dövlətin gömrük sistemi mürəkkəb kompleks xarakter daşıyır və bir-biri ilə qarşılıqlı əlaqədə olan mühüm elementlərdən ibarətdir.

Dövlətin gömrük siyasəti bütün gömrük fəaliyyətinin əsasını təşkil edir və ölkədə bazar münasibətlərinin formalaşdırılması şəraitində siyasi, iqtisadi və sosial dəyişikliklərin dinamik həyata keçirilməsi vasitəsilə daxili və xarici iqtisadi maraqların və vəzifələrin müdafiəsinə yönəlmiş siyasi, hüquqi, iqtisadi, təşkilati və digər geniş əhatəli tədbirlər sistemidir. Gömrük siyasəti dövlətin xarici ticarət dövriyyəsinin gömrük sərhədindən mal və nəqliyyat vasitələrinin uyğun gömrük recimlərinin müəyyən edilməsi vasitəsilə keçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir.

Gömrük siyasətinə verilən təriflər çox rəngarəngdir. Fikrimizcə, gömrük siyasətini xarici ticarətin tənzimlənməsi, milli iqtisadiyyatın müdafiəsi və bir sıra digər məsələlərin həll edilməsi məqsədilə dövlət iqtisadi və inzibati gömrük tədbirləri sistemi kimi səciyyələndirilməsi daha düzgün olardı. Digər dövlətlərlə sıx əməkdaşlıq münasibətləri quran Azərbaycan üçün gömrük siyasətinin tətbiqi gömrük işinin praktiki tətbiqi və inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Respublikası beynəlxalq iqtisadi inteqrasiyanın inkişaf etdirilməsi və möhkəmlənməsi üçün digər dövlətlərlə gömrük ittifaqları, sərbəst iqtisadi zonalar yaradır, gömrük məsələləri üzrə beynəlxalq hüquq normalarına uyğun sazişlər bağlayır. Hazırkı şəraitdə digər dövlətlərlə sıx əməkdaşlıq münasibətləri quran Azərbaycan üçün gömrük sisteminin, gömrük recimlərinin, gömrük nəzarətinin müəyyən edilməsi, dünya iqtisadiyyatına inteqrasiyada digər beynəlxalq təşkilatlara, o cümlədən gömrük işi sahəsində beynəlxalq təşkilatlara daxil olmasında gömrük siyasətinə yeni yanaşma tələb edilir.

### 3. Azərbaycanda gömrük-tarif tənzimlənməsinin milli istehsalın inkişafına təsiri və iqtisadi təhlükəsizlik məsələləri

Azərbaycanda bazar münasibətlərinin formalaşması, hər şeydən əvvəl milli iqtisadiyyatın mövcud potensialından səmərəli istifadə etməkdən asılıdır. Bu prosesdə dövlət və digər iqtisadi subyektlər milli iqtisadiyyatın səmərəli fəaliyyətini yüksəltmək üçün bazarla əlaqədar istehsal və tədavülün bütün tənzimləyici ünsürlərindən istifadə etməlidir.

Milli iqtisadiyyat əsasında formalaşan, bazar subyektlərinin (istehsalçı və istehlakçıların) səmərəli fəaliyyətinə müvafiq olan və ölkənin gələcəkdə dünya iqtisadi məkanına çıxarılmasına xidmət edən bazar, milli bazar hesab olunur. Milli bazarın formalaşması, ilk növbədə, daxili bazarın formalaşmasını tələb edir.

Daxili bazarın yaranması və inkişaf etdirilməsində əvvəllər əsas məsələlərdən biri onun xarici müdaxilədən qorunması olmuşdur. Qeyd etmək lazımdır ki, bu problem həmişə əksər milli dövlətlərin öz iqtisadiyyatını möhkəmlətmək işində qarşıya çıxan əsas məsələlərdən biri kimi çıxış edir. Bu problemin ənənəvi və sınanılmış yolu isə, hər şeydən əvvəl, sahibkarlığın formalaşdırılması, tələb və təklif əsasında daxili bazarda əmtəə və xidmətlər bolluğunun yaradılmasıdır. Ikincisi, ölkənin tələbatına cavab verən iqtisadi struktur və infrastrukturlar formalaşdırılması, habelə daxili bazarın idxaldan asılılığını minimuma endirməklə istehlak bazarını yerli istehsal hesabına inkişaf etdirməklə iqtisadiyyatın normal fəaliyyətini təmin etməkdir. Nəhayət, ölkənin iqtisadi potensial imkanlarına uyğun olaraq, milli iqtisadiyyatın yeni səviyyədə əlaqələndirilən əmək bölgüsü əsasında qurulması, ölkə daxilində istehsalın səmərəli təşkili daxili bazarın kooperasiya əlaqələrinin yaradılması qarşıya məqsəd kimi qoyulur. Belə ki, sovetlər dönəmində əmək bölgüsü sənaye müəssisələrinin yalnız Bakı, Sumqayıt, Gəncə, Mingəçevir kimi iri şəhərlərində cəmləşməsinə səbəb olmuşdur. SSRI dağıldıqdan sonra isə regionlarda sənaye müəssisələri kəskin şəkildə azaldı. Bu isə regionların qeyri-bərabər inkişafına, təbii resurslardan qeyri-səmərəli istifadə edilməsinə və həm də ekoloji tarazlığın pozulmasına gətirib çıxardı. Bu problemin həlli istiqamətində Azərbaycanda görülən işlər artıq öz müsbət nəticələrini verməkdədir. Belə ki, 2014-2018-ci illər ərzində Azərbaycanda regionların sosial-iqtisadi inkişaf proqramının reallaşması nəticəsində bütün regionlarda yeni müəssisələr yaradılmış və iş yerləri açılmışdır.

Regionların sosial-iqtisadi inkişafını təmin etmək üçün milli iqtisadiyyatı daxili və xarici təhdidlərdən qorumaq məqsədilə aşağıdakı istiqamətlərdə iqtisadi siyasət işləyib hazırlamaq məqsədəuyğun olardı:

- Bir sıra sənaye sahələrinin dirçəldilməsi və inkişafı üçün bu sahələrə xarici investorların cəlb olunmasının aktivləşdirilməsi;
- Kənd təsərrüfatı məhsullarına qoyulan gömrük tariflərinin yüksəldilməsi və idxalın məhdudlaşdırılmasına yönəldilmiş ticarət siyasətinin aparılması;

- Beynəlxalq təşkilatlar, inteqrasiya qrupları və inteqrasiya bloklarına üzv olan ölkələr arasında qarşılıqlı ticarətin liberallaşdırılması ilə proteksionist maneələrin qoyulması nisbətinin optimallaşdırılması;
- İxracın dövlət həvəsləndirilməsi sisteminin getdikcə gücləndirilməsi;
- Çoxtərəfli ticarət müqavilələrinin rolunun gücləndirilməsi;
- Məqsədyönlü iqtisadi siyasət işləyib həyata keçirərək yerli istehsalçılarda stimul yaratmaq və daxili tələbatın yerli məhsulların hesabına daha çox ödənilməsinə nail olunması.

Bir məsələni xüsusi vurğulamaq lazımdır ki, açıq iqtisadiyyat şəraitində ölkənin sabitqədəmli inkişafına mənfi təsir göstərən daxili və xarici amillərin rolu güclənir. Ona görə də bu problemin həlli zamanı gömrük tarif tənzimlənməsi sisteminin fəaliyyət mexanizminin səmərəliliyi gücləndirilməlidir.

Beynəlxalq mübadiləni inkişaf etdirdikdə hər hansı bir ölkənin qarşısında duran əsas məsələlərdən biri də həmin ölkənin xarici ticarət əlaqələrinin coğrafi quruluşudur. Hər bir ölkə yaxşı bilməlidir ki, hansı dövlətlə və nə səviyyədə ticarət əlaqələrinə girməklə özünün iqtisadi təhlükəsizliyini qoruya bilər. Ümumilikdə iqtisadi təhlükəsizlik anlayışının mahiyyəti dövlətin beynəlxalq əlaqələrini genişləndirərkən, iqtisadiyyatın açıqlıq səviyyəsini yüksəldərkən digər dövlətlərdən tam asılı vəziyyətə düşməməyə çalışmasından ibarətdir. Qeyd etməliyik ki, bu problemə müxtəlif yanaşmalar mövcuddur. Rus alimi L.Abalkinin fikrincə, ölkənin iqtisadi təhlükəsizliyi üçün birinci iqtisadi sərbəstlik (yəni dövlətin bütün milli ehtiyatlara və istehsala tam nəzarəti, eləcə də sərbəst iqtisadi qərar qəbul edə bilməsi), milli iqtisadiyyatın dayanıqlığının və sabitliyin təmin edilməsi; ikincisi, milli iqtisadiyyatın bütün formalarının qorunması və fəaliyyətinə şərait yaradılması, vəziyyətin dayanıqlığını poza biləcək addımların qarşısının alınması və üçüncüsü, iqtisadiyyatın inkişafetmə qabiliyyətinin ödənilməsi lazımdır.

Qeyd etmək lazımdır ki, respublikada aparılan uğurlu islahatlar maddi sərvətlərdən səmərəli istifadə etməklə səmərəli yerli istehsal sahələrinin yaradılması milli iqtisadiyyatın təkmilləşməsinə xidmət etməklə yanaşı, respublikanın xarici mallardan asılılığını da azaltmaqdadır. Mövcud resurslara və iqtisadi-coğrafi mövqeyə görə Azərbaycanda neft sektorundan sonra investisiya üçün ən səmərəli sahə kənd təsərrüfatı və xammalı olan istehsal sahələridir. Yeyinti məhsullarının

idxalın strukturunda mühüm yerə malik olması və bıı adda əmtəələrə gündəlik istehlak malları olmaqla, böyük həcmdə tələbat respublikada bu sahənin idxalı əvəzetmə siyasəti aparılmasına stimııl yaratmaqdadır. Regional inkişaf proqramı çərçivəsində maddi nemətlərdən maksimum dərəcədə səmərəli istifadəni, müəyyənləşdirilmiş istiqamətdə iqtisadiyyatın inkişafını, xarici mallardan asılılığın azalmasını nəzərdə tutan yerli istehsal sahələrinin yaradılması öz növbəsində həm də idxalı əvəzetmə siyasətini formalaşdırır. Idxal olunan bütün mallar bütünlükdə əvəz oluna bilməz və bu heç səmərəlilik baxımından da sərfəli deyil. Buna görə də respublikamızda sahibkarlara kreditlər verilməsilə, istehsal sahələrini gömrük- tənzimlənmə metodları ilə tənzimləməklə, daxili bazarın xarici təsirlərdən qorunması ilə milli iqtisadiyyat üçün əhəmiyyətli, prioritet yerli istehsal sahələri inkişaf etdirilir. Milli iqtisadiyyatın düzgün və səmərəlilik prinsipləri əsas götürülməklə formalaşdırılması üçün idxalı əvəzetmə siyasətində ölkənin maddi nemətlərinin strukturu və onların istehsaledilmə mühiti, qurulması nəzərdə tutulan istehsal sahəsinin məhsulunun ümumi idxaldakı həcmi və daxili tələbatın həcmi nəzərə alınmalıdır. Bundan əlavə, istehsal sahəsinin formalaşdırılmasının digərlərinə nisbətən səmərəlilik dərəcəsi, xarici ticarətin tənzimlənməsi ilə idxalı əvəzetmə siyasətinin milli iqtisadiyyata etdiyi təsirin səmərəliliyinin müəyyənləşməsi, yeni yaradılacaq istehsal sahəsinin gələcək perspektivlərinin genişliyi, rəqabətqabiliyyətli ixrac əmtəələrinin istehsalı və s. məsələlərin həyata keçirilməsi olduqca vacibdir.

İdxalı əvəzetmə siyasətinin həyata keçirilməsi yerli istehsalın formalaşmasına şərait yaratmaqla yanaşı, daxili bazarın qorunması və ixracın stimulladırılmasına da təkan verir. Azərbaycan Respublikasında daxili bazar qorunmaqla yerli istehsal məhsullarının satış bazarı genişləndirilir, sahibkarlıq sahələrinin xarici təsirlərdən qorunması ilə rəqabətqabiliyyətli əmtəələrin istehsalına şərait yaradılır. Daxili bazarın qorunması ilə yeni yaradılan istehsal sahələrinin ilkin formalaşma dövrünə normal şərait yaradılır və bununla da istehsalın təkmilləşdirilməsinə köməklik göstərilmiş olur. Dövlət tərəfindən texnoloji cəhətdən tam formalaşmamış istehsal sahəsinin xarici təsirlərdən qısa müddətli qorunması həyata keçirilməklə bıı sahənin təkmilləşməsi üçün şərait yaradılır. Xaricə valyuta axınının qarşısının alınması, əhalinin işsizlik probleminin aradan qaldırılması, xarici dövlətlərdən asılılığın azaldılması və digər səbəblərdən də bəzi strateji istehsal sahələrinin

milli istehsalının formalaşdırılması üçün daxili bazarın qorunması həyata keçirilə bilər. Bu zaman milli istehsalın qorunması əsasən uzunmüddətli olur. Azərbaycanda daxili bazarın qorunması məqsədilə əsasən tarif, qeyri-tarif və texniki metodlardan istifadə olunur. Ümumiyyətlə, Azərbaycan Respublikasında proteksionist siyasətə üstünlük verilməklə tarif tənzimlənməsinin milli iqtisadiyyatın inkişafına təsiri gücləndirilməlidir. Xammal və istehsal avadanlığının sərbəst şəkildə, aşağı dərəcəli gömrük vergi və rüsumlara cəlb olunmaqla gətirilməsinə, kənd təsərrüfatı məhsullarının mövsüm dövründə rüsum dərəcələrinin dəyişdirilə, yəni artırıla bilən olması ilə çevikliyi tarif tənzimləməsini respublikamızda milli iqtisadiyyata istiqamətlənməsini təmin edir. Xarici ticarət əməliyyatlarında bir sıra dövlət orqanlarından müvafiq icazə sənədlərinin tələb olunması isə qeyri-tarif və texniki tənzimlənmənin də ölkəmizdə tətbiqinə şərait yaradır.

Ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin olunmasında gömrük strukturlarının rolu çox böyükdür.

Belə ki, gömrük işi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və onun struktur bölmələri tərəfindən həyata keçirilir. Gömrük siyasətinin həyata keçirilməsilə yanaşı, gömrük orqanları gömrük qanunvericiliyinin formalaşdırılmasını təmin etməkdədirlər. Azərbaycan Respublikası Gömrük Məcəlləsinin 10-cu maddəsində də göstərildiyi kimi, gömrük orqanları milli gömrük siyasətinin işlənib hazırlanmasında iştirak edir və bu siyasəti həyata keçirirlər; icrasına nəzarət gömrük orqanlarına həvalə olunmuş qanunvericilik aktlarına riayət edilməsini təmin edirlər; öz səlahiyyətləri daxilində dövlətin iqtisadi təhlükəsizliyini təmin edirlər; ticarət-iqtisadi münasibətlərdə gömrük tənzimlənməsi vasitələrini tətbiq edir, gömrük ödənişlərini alır, iqtisadi siyasət tədbirlərinin həyata keçirirlər; gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilmə qaydalarına riayət olunmasını təmin edirlər; gömrük işi sahəsində cinayətlərə, həmçinin gömrük qaydalarının və vergi qanunvericiliyinin pozulmasına qarşı mübarizə aparırlar; xarici iqtisadi fəaliyyətin gömrük statistikasının aparılmasını təmin edirlər. Göründüyü kimi, gömrük orqanları təkcə fiskal deyil, gömrük siyasətinin bütün sahələrini əhatə edən funksiyaları yerinə yetirməkdədir. Dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi olan gömrük siyasəti isə Gömrük Məcəlləsinin 2-ci maddəsinə əsasən Azərbaycan Respublikası "gömrük ərazisində gömrük nəzarəti və mal dövriyyəsinin tənzimlənməsi vasitələrindən daha səmərəli istifadəsi-

nin təmin edilməsi, daxili bazarın qorunması, milli iqtisadiyyatın inkişafının stimullaşdırılması, dövlətin iqtisadi siyasətindən irəli gələn vəzifələrin yerinə yetirilməsinə köməklik edilməsi, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun müəyyənləşdirilmiş digər məqsədləri özündə təcəssüm etdirməkdədir.

## 4. Daxili bazarın formalaşması və inkişafına gömrük siyasətinin təsiri

Ölkə iqtisadiyyatının inkişafında, islahatların dərinləşməsinin təmin edilməsində, investisiya siyasətində, qiymətlərin optimallaşdırılmasında, daxili bazarın yad ünsürlərdən qorunmasında, ən başlıcası isə dövlət büdcəsinin gəlirlər hissəsinin formalaşmasında gömrük sistemi müstəsna əhəmiyyətə malikdir. Azərbaycan Gömrük Təşkilatı öz fəaliyyətində son illər əsaslı dönüşə nail olmuş, yaxın və uzaq xarici ölkələrin gömrük orqanları ilə işgüzar əlaqələr yaratmaqla əməkdaşlığı xeyli genişləndirmiş, gömrük xidməti ilə bağlı beynəlxalq formalarda respublikamızı layiqincə təmsil etməyə çalışmışdır. Azərbaycan gömrüyü gündəlik fəaliyyətini ölkədə aparılan iqtisadi siyasətə uyğun qurmağa səy göstərmiş və respublikanın iqtisadi siyasətini həyata keçirən ən mühüm qurumlardan birinə çevrilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində dövlət büdcəsi gəlirlərinin formalaşdırılmasında gömrük və vergi rüsumlarının xüsusi çəkisi xeyli artmışdır. AR DSK-nın statistik məlumatlarına görə, təhlili göstərir ki, Dövlət Gömrük Komitəsindən gəlirlərin dövlət büdcəsinin gəlirlərində xüsusi çəkisi 2014-cü ildə 7,3% təşkil etmişdir.

Dövlət Gömrük Komitəsindən daxil olan gəlirlərin tərkibində ƏDV daha üstün xüsusi çəkiyə(50-60 faiz civarında) malikdir.

Hazırda respublikamız Ümumdünya Gömrük Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının və bir sıra beynəlxalq qurumların üzvüdür. Respublikamızın həyatında və beynəlxalq aləmdə mühüm hadisəyə çevrilən, ölkə rəhbərinin təşəbbüsü ilə Bakı şəhərində keçirilən Beynəlxalq Konfransda Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı üzrə imzalanan beynəlxalq nəqliyyat sahəsində çoxtərəfli sazişin, onun texniki əlavəsindən biri olan gömrük qaydaları və sənədlərin işlənməsi haqqında Əlavənin hazırlanmasında Avropa Birliyi ilə yanaşı, Gömrük Komitəsinin ekspertləri də yaxından iştirak etmişlər.

Milli və dövlətlərarası nəqliyyat-ticarət kommunikasiyalarının inkişaf strategiyasına həsr edilmiş həmin zirvə görüşündə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi təsis edilmişdir.

Bu proqram Avrasiya məkanında həyata keçirilən ən dinamik və iqtisadi cəhətdən səmərəli layihələrdən biridir. Konkret desək, Bakıda keçirilmiş Beynəlxalq konfransda Avropa və Asiya ölkələri arasında nəqliyyat kommunikasiyalarının inkişafı üçün ticarət, iqtisadi inteqrasiya proseslərinə, dövlətlərin qarşılıqlı surətdə faydalanmasına və zənginləşməsinə kömək istiqamətində səyləri birləşdirməyə yönələn tarixi bir addım atılmışdır. Azərbaycan tranzit ərazisi olduğu üçün tranzitdən əldə edilən vergi, hətta nəqliyyat idarə edən adamların Azərbaycan ərazisində xərcləyəcəyi vəsait, rəsmi investisiyalar, beynəlxalq maliyyə ayırmaları, kreditlər və bir çox başqa amillər Azərbaycan iqtisadiyyatının inkişafına səbəb olmaqla Qafqazda münaqişələrin aradan qaldırılmasında, mürəkkəb problemlərin həllində mühüm rol oynayacaqdır. Mütəxəssislər bərpa olunan İpək Yolunu Azərbaycanın "qızıl kəməri" adlandırmaqla, onu sülhə, əmin-amanlığa aparan işıqlı yol olduğunu vurğulayırlar.

Danılmaz həqiqətdir ki, Azərbaycanda dövlətçiliyin inkişafı, daxili və xarici siyasətdə, iqtisadi və sosial sahədə əldə etdiyimiz nailiyyətlər çağdaş dünyamızın görkəmli şəxsiyyəti, Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərimizin rəhbərliyi ilə uğurla başlanmış genişmiqyaslı iqtisadi islahatlar nəticəsində 1995-ci ildən başlayaraq ölkədə iqtisadi tənəzzülün qarşısı alınmış, iqtisadi və siyasi sabitlik bərqərar olmuş, beynəlxalq aləmdə Azərbaycanın nüfuzu əhəmiyyətli dərəcədə artmış və iqtisadiyyatın dinamik inkişafı təmin edilmişdir. Təkcə bir faktı demək kifayətdir ki, uğurla aparılan iqtisadi və struktur islahatlar nəticəsində 2000-2014-ci illər ərzində ümumi daxili məhsul 11,4 dəfə artmışdır. ÜDM-də qeyri-neft sektorunun payı 2011-ci ildə 48,8%, 2012-ci ildə 53,6%, 2013-cü ildə, 2014-cü ildə isə 61% olmuşdur.

Ölkədə iqtisadi islahatların uğurla həyata keçirilməsi iqtisadi siyasətin tərkib hissəsi olan gömrük siyasətinin təşkilindən bilavasitə asılıdır. Hazırda daxili bazarı qorumaq üçün gömrük-tarif (qiymət) tənzimlənməsi tədbirlərindən, gömrük işi sahəsində valyuta nəzarətindən, büdcə gəlirlərinin formalaşdırılmasında fiskal siyasətin tətbiqindən müvəffəqiyyətlə istifadə olunur.

Gömrük işinin təkmilləşdirilməsi və gömrük orqanlarının inkişaf etdirilməsi bu sahədə mövcud olan qanunvericilik aktlarını təkmilləşdirmədən, yəni bu aktları beynəlxalq normalara uyğunlaşdırmadan mümkün deyil. Digər tərəfdən, ümumdünya gömrük sisteminə inteqrasiya gömrük prosedurlarının hormonizə edilməsini və sadələşdirilməsini də tələb edir. Əlbəttə, belə bir şəraitdə normativ-hüquqi bazaya yenidən baxılması və onun təkmilləşdirilməsi zərurəti yaranır və keçən illərdə bu sahədə xeyli işlər görülmüşdür.

Malların ixracının sıfır (0) dərəcəsi ilə ƏDV-yə cəlb edilməsi ƏDV-nin tətbiqinin əsas prinsiplərindən biridir. Malların ixracının sıfır (0) dərəcəsi ilə ƏDV-yə cəlb edilməsi eyni zamanda ixracı stimullaşdırır ki, bu da bütövlükdə iqtisadiyyatın inkişafına müsbət təsir göstərir. Vergi Məcəlləsinin 13.2.29 maddəsinə əsasən malların ixracı gömrük qanunvericiliyinə uyğun olaraq ixrac malları hesab edilən malların Azərbaycan Respublikası ərazisindən çıxarılmasıdır. Həmin maddənin məqsədləri üçün gömrük bəyannamələri və digər aidiyyəti sənədlərlə təsdiq edildiyi halda mallar ixrac edilmiş hesab edilir. Hər hansı vergi ödəyicisi tərəfindən respublikamızda alınmış mal ixrac edilirsə, bilavasitə ixrac əməliyyatını aparmış vergi ödəyicisi tərəfindən malların ixracı ƏDV-yə sıfır(0) dərəcəsi ilə cəlb edilir. İxrac əməliyyatı ümumi qaydada ƏDV-yə cəlb edilir. İxrac əməliyyatını aparmış malların təqdim edilməsi əməliyyatını aparan şəxs tərəfindən respublikamızda mallar alınarkən ödənilmiş ƏDV məbləği əvəzləşdirilir. Vergi ödəyicisi tərəfindən müvəqqəti idxal qaydasında idxal olunan mal emal edilmiş və ya onun üzərində hər hansı iş görülmüşdürsə və sonradan bu mal ixrac edilmişdirsə, həmin malla əlaqədar ölkə ərazisində işlərin görülməsi, xidmətlərin göstərilməsi zamanı ödənilmiş ƏDV məbləği əvəzləşdirilir. Onu da qeyd edək ki, vergi ödəyicisi tərəfindən ümumi qaydada idxal olunmuş mallar ölkə ərazisində emal edilmiş və ya onun üzərində hər hansı iş görülmüşdürsə və sonradan bu mal ixrac edilmişdirsə, həmin malların idxalı və bu malla əlaqədar respublika ərazisində işlərin görülməsi, xidmətlərin görülməsi zamanı ödənilmiş ƏDV məbləği əvəzləşdirilir.

Vergi Məcəlləsinin 165.1.3.-cü maddəsinə əsasən 168.1.5-ci maddədə göstərilən xidmətlərin ixracına görə ƏDV sıfır(0) dərəcəsi ilə tutulur. Göründüyü kimi, 168.1.5-ci maddəsində göstərilən xidmətlər "daşınan" və ya "ixrac oluna bilən" xidmətlərdir və çox vaxt bu xidmətlərin göstərilmə yerini müəyyənləşdirmək qeyri-mümkündür .

Odur ki, beynəlxalq təcrübədə qəbul olunmuş ƏDV modellərində belə xidmətlərin ixracının mallarda olduğu kimi sıfır (0) dərəcəsi ilə ƏDV-yə cəlb edilməsi, idxalının isə ümumi qaydada ƏDV-yə cəlb edilməsi nəzərdə tutulur, yəni bu xidmətlər alıcının və ya istehlakçının olduğu yerdə ƏDV-yə cəlb edilir. Son dövrlərdə elektron ticarət inkişaf etdiyi bir vaxtda bu prinsipin tətbiqi zəruri hesab edilir .

Yuxarıda qeyd edilənlərdən aydın olduğu kimi, ölkə qanunvericiliyi ilə ixrac oluna bilən xidmətlərin ixracının sıfır (0) dərəcəsi ilə ƏDV-yə cəlb edilməsini nəzərdə tutur. Qalan digər hallarda isə Azərbaycan Respublikasının ərazisində malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi ümumi qaydada ƏDV-yə cəlb edilir.

Qeyd etmək lazımdır ki, respublikamızın vergi qanunvericiliyinə görə, aksiz vergisinin dərəcələri xüsusi(spesifik) və faiz(advalar) ola bilər. Beynəlxalq təcrübədə belə bir fikir formalaşıb ki, advalar dərəcəsinin tətbiqinin əsas üstün cəhətlərindən biri, onun malların idxalı prosesinin tənzimlənməsində çox təsirli bir vasitə olmasındadır. Eyni zamanda bu dərəcələr idxal olunan malların dəyər ifadəsinin artmasına paralel olaraq büdcə daxilolmalarının artmasına şərait yaradır. Lakin qeyd etmək lazımdır ki, malların qiymətinin düşməsi daxilolmaların azalmasına gətirib çıxara bilər. Eyni zamanda, qiymətlərin qalxması daxilolmaların artmasına səbəb olur. Buradan aydındır ki, dünya bazarındakı iqtisadi dəyişkənliyin təsiri nəticəsində qabaqcadan proqnozlaşdırılmış büdcə gəlirlərinin artıb-azalması əslində məqbul sayılmır. Xüsusi dərəcələrin tətbiqi zamanı isə daxilolmaların qiymətdən asılılığı ehtimalı aradan qalxır. Xüsusi dərəcələrin tətbiqi eyni zamanda idxal zamanı vergidən yayınma hallarının qarşısını almağa imkan verir. Belə ki, bəzi hallarda idxal əməliyyatlarını aparan şəxslər ödəniləcək aksiz məbləğini aşağı salmaq üçün malın dəyərini mümkün qədər minimum qiymətlə rəsmiləşdirirlər. Xüsusi dərəcələrin tətbiqi bu cür halların qarşısını almağa imkan verir. Lakin bu dərəcələrin tətbiqinin mənfi xüsusiyyəti ondan ibarətdir ki, burada idxal olunan mallar arasında keyfiyyət fərqi nəzərə alınmır. Odur ki, istər faiz (advalar), istərsə də xüsusi (spesifik) dərəcələrin tətbiqi zamanı bu və ya digər xüsusiyyətlərə diqqət yetirilməsi çox mühüm əhəmiyyət kəsb edir.

Mövcud qanunvericiliyə görə idxal olunan malların mal göndərən tərəfindən müəyyən edilən qiyməti bazar qiymətlərindən fərqləndikdə gömrük orqanlarının bazar qiymətləri nəzərə alınmaqla ƏDV-ni hesablamaq hüququ vardır. Həmin qiymətlərdən vergitutma məqsədləri

üçün istifadə edilir. Malları idxal edən vergi ödəyicisi həmin malları malgöndərənin müəyyən etdiyi qiymətlə mədaxil edərək uçota alır. Gömrük orqanlarının müəyyən etdiyi şərti bazar qiymətləri sonradan həmin mallarla aparılan əməliyyatlarda vergi orqanları tərəfindən bazar qiymətləri barədə bir mənbə kimi istifadə edilə bilər. ƏDV ödəyiciləri tərəfindən gömrük orqanlarına ödənilmiş ƏDV məbləği idxal olunan mallardan sahibkarlıq məqsədləri üçün istifadə edildikdə Vergi Məcəlləsinin 175-ci maddəsinə uyğun olaraq əvəzləşdirilir.

Ölkədə sahibkarlığın və regionların inkişaf etdirilməsi məqsədilə xüsusi dövlət proqramlarının qəbul edilməsi, sahibkarlıq fəaliyyətinə mane olan bürokratik əngəllərin aradan qaldırılmasına yönəldilən tədbirlər Dövlət Gömrük Komitəsi tərəfindən də dəstəklənmiş və movcud problemlərin aradan qaldırılması, xarici iqtisadi fəaliyyət iştirakçılarının sağlam rəqabət şəraiti yaradılması üçün gömrük orqanlarının modernləşdirilməsi üzrə tədbirlər planına uyğun olaraq, spesifik rüsumların advalar rüsumlarla əvəz edilməsinin mərhələli qrafikinə əsasən yerinə yetirilmişdir. Həmin qrafikin dördüncü mərhələsində spesifik rüsumların advalar rüsumlarla əvəz edilməsinə dair Nazirlər Kabinetinin müvafiq Qərarı ilə daha 6 mal qrupu üzrə spesifik rüsumlar advalor rüsumlarla dəyişdirilmişdir. Həmçinin istehsalı genişləndirmək və ixraca əlverişli şərait yaratmaq məqsədilə eyniadlı malların idxalına tətbiq olunan gömrük tarif dərəcələrinə yenidən baxılması istiqamətində işlər davam etdirilmişdir.

İxrac olunan malların gömrük dəyərinə nəzarəti gücləndirmək üçün “Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları”na hökumətin müvafiq qərarı ilə dəyişikliklər və əlavələr edilikdən sonra yerli gömrük orqanlarına metodiki köməklik məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla “Azərbaycan Respublikasının gömrük ərazisinə idxal edilən və bu ərazidən çıxarılan malların gömrük dəyərinin müəyyən edilməsi və gömrük orqanları tərəfindən nəzarət prosesinin həyata keçirilməsi qaydaları” hazırlanmışdır.

Sahibkarlığın inkişafına mane olan problemlərin aradan qaldırılması, xarici-iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraiti yaradılması üçün respublika gömrük orqanlarının modernləşdirilməsi üzrə tədbirlər planına uyğun olaraq spesifik rüsumlar advalar rüsumlarla əvəz olunmuşdur. Bununla yanaşı, istehsalı genişləndirmək və ixraca əlverişli şərait yaratmaq məqsədi ilə eyniadlı malların idxalına

tətbiq olunan gömrük tarif dərəcələrinə son illər xüsusi diqqət yetirilir.

Belə ki, son dövrlərdə Dövlət Gömrük Komitəsi gömrük siyasətinin həyata keçirilməsində bir sıra vəzifələrin yerinə yetirilməsini daima diqqət mərkəzində saxlayır. Belə ki, ölkədə sahibkarlığın və regionların inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə mane olan bürokratik əngəllərin aradan qaldırılmasına yönəldilən tədbirlər arasında xarici iqtisadi fəaliyyət iştirakçılarına sağlam rəqabət şəraiti yaradılması, istehsalın genişləndirilməsi, ixraca əlverişli şərait yaradılması, daxili bazarın qorunması və yerli istehsalın həvəsləndirilməsinin həyata keçirilməsi.

Son illərdə malların gömrük qiymətləndirilməsi üzrə gömrük orqanları arasında operativ qarşılıqlı əlaqənin və zəruri əlaqələndirmənin təşkil edilməsi, habelə gömrük orqanlarına metodiki köməklik göstərilməsi və qiymət intizamının daha da gücləndirilməsi üçün əlavə tədbirlər görülməsi işi və qiymət-məlumat bazasının yaradılması istiqamətində xeyli işlər görülmüşdür.

Belə ki, gömrük sistemində hər bir əmtəə kodu üzrə məlumat bazası yaradılmışdır. Bu cür məlumat bazası rəsmiləşdirilən mallar üzrə gömrük dəyərini təhlil etməyə və ortaya çıxan problemləri aradan qaldırmağa imkan verir.

Bu məqsədlə gömrük sisteminin səmərəli fəaliyyətini təmin etmək üçün qarşıda bir sıra tədbirlərin həyata keçirilməsi durur. Bu məqsədlə gömrük orqanlarında avtomatlaşdırılmış idarəetmə sisteminə keçidi tam təmin etmək, müasir tipli terminallar yaratmaq, gömrük orqanlarının modernləşdirilməsi işini davam etdirmək, sərhəd-keçid məntəqələrini ən yeni avadanlıq, cihazlarla təmin etmək, xidmət mədəniyyətini daim yüksəltməklə yanaşı, nəzarətini təkmilləşdirmək olduqca vacibdir. Həmçinin kadrların peşə hazırlığını artırmaq və beynəlxalq əlaqələri daha da genişləndirmək məsələlərinə xüsusi diqqət yetirilməlidir.

Son dövrdə respublikamızın DGK-nin beynəlxalq əlaqələri daha da inkişaf etmişdir. Respublikamız "Gömrük Prosedurlarının Sadələşdirilməsi və Hormonizə edilməsi haqqında Beynəlxalq Konvensiya" (Kioto Konvensiyası) qoşulmuş, Azərbaycan hökuməti ilə Türkiyə, Yunanıstan, Litva hökumətləri və Belçika Krallığı arasında gömrük məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında sazişlər imzalanmışdır. DGK-si Ümumdünya Gömrük Təşkilatı, MDB iştirakçısı-dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurası, İqtisadi Əməkdaşlıq

Təşkilatı Gömrük Xidməti Rəhbərləri Şurası, Asiya İnkişaf Bankı tərəfindən maliyyələşən Gömrük Əməkdaşlıq Komitəsi, Avropa Komissiyasının TASİS Proqramı çərçivəsində Avropa Gömrüyü, BMT İnkişaf Proqramı və s. nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində məqsədyönlü iş aparılır. Avropa Birliyi ilə Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması Birliyə daxil olan xarici ölkələrlə xarici-iqtisadi əlaqələrimizi daha da genişləndirmişdir.

Azərbaycanda müasir tələblərə cavab verən gömrük sisteminin formalaşması və inkişafının ən başlıca problemləri arasında ən birincisi onun maddi-texniki bazasının yaradılması və təkmilləşdirilməsi sayılır. Hazırda qarşıda duran ən mühüm vəzifələrdən biri elə bir maddi-texniki bazanın yaradılmasından ibarətdir ki, bu, ölkənin ərazi məkanına nəzarəti həyata keçirə bilsin, onun iqtisadi təhlükəsizliyini təmin etmiş olsun və ölkənin parlamenti və hökuməti tərəfindən işlənib hazırlanmış gömrük siyasətini reallaşdıra bilsin.

Həm ölkə sərhədində, həm də ölkə daxilində gömrük infrastruktur obyektləri və xidmətlərinin beynəlxalq standartlar səviyyəsində təşkili məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac vardır. Qısa müddət ərzində nüvə və radioaktiv materialların yerləşdirilməsinə nəzarət sferasında ixtisaslaşan gömrük orqanlarının maddi-texniki bazasını yaratmaq lazımdır.

Bununla yanaşı, gömrük sisteminin normativ-təlimat bazasını yaxşılaşdırmaq tələb olunur. İlk növbədə isə Gömrük Məcəlləsinin dövri olaraq təkmilləşdirilməsi vacib sayılır. Gömrük sisteminin normal fəaliyyəti üçün şərhlərin və müxtəlif təşkilatların nəşri məqsədəuyğun hesab edilir.

Gömrük sənəd dövriyyəsinin islahatı elə bir nəticə ilə yekunlaşmalıdır ki, gömrük bəyannamələrinin rəsmiləşdirilməsi texnologiyası, növü, forması, "əmtəə-nomenklatura kodu" və onun "kompyuter variantı" həqiqətən də beynəlxalq standartlara uyğun olsun. Böyük İpək Yolunun daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan sahəsinin təlimat təminatı BMT-nin standartlar səviyyəsində tərtib olunmuş TRASEKA ölkələrinin eyniləşdirilmiş sənədlərinə uyğunlaşdırılmalıdır.

Müasir mərhələdə Azərbaycan ixracı böyük inkişaf perspektivinə malik deyildir. Buradan da göründüyü kimi, xarici ticarətin liberallaşdırılması, milli iqtisadiyyatın müdafiə olunması amili kimi çıxış edir. Buna gorə də xarici siyasətdə proteksionist və liberal istiqamətlərin

müqayisə edilməsinə ehtiyac vardır. Xüsusilə də bu halda dünya təcrübəsindən faydalanmaq lazımdır. Belə ki, müasir dünyada heç bir ölkə mütləq azad ticarətlə məşğul olmurlar. İstənilən dövlət üçün onun üçün qəbul olunmuş xarici ticarət siyasətinin milli modeli işlənib hazırlanmışdır. Təbii ki, Azərbaycanın xarici ticarət siyasəti milli iqtisadiyyatın genişlənməsi və inkişafı, iqtisadi artımın daha da sürətləndirilməsi vasitələrindən biri kimi çıxış etməlidir. Milli iqtisadiyyatın müdafiəsi üçün idxal rüsumları və müdafiənin səmərəli formalarından istifadə etmək lazımdır.

Qeyd etmək lazımdır ki, dünya bazarının tələbi yaxın gələcəkdə tamamilə mümkündür ki, Azərbaycanın ixracının mövcud istiqamətlərinin inkişafını məhdudlaşdıra bilər. Odur ki, xarici ticarət siyasətinin tənzimləyici mexanizmi iqtisadiyyatın sənayeləşdirilməsinə kömək etməlidir ki, bununla da ölkə dünya ixrac bazarında tam səviyyədə iştirak edə bilsin. Mal yubanmalarının çevik sisteminin formalaşması böyük əhəmiyyətə malikdir.

Vergi siyasəti o məhsulun istehsalını stimullaşdırmalıdır ki, həmin məhsuldan daha böyük miqdarda dünya bazarına çıxarılsın. Gələcəkdə prioritet istiqamətlər müəyyən edildikdən sonra yüksək ticarət məhdudiyyətlərini ləğv etmək lazımdır.

Yeni sənaye ölkələrinin təcrübəsini nəzərə almaq lazımdır ki, istehsalın inkişafı və ixracın arzuolunan strukturunun formalaşması yalnız bazarın köməyi ilə əldə edilmir. Müsbət nəticələrə yalnız dövlətin ardıcıl və səriştəli tədbirlərinin aparılması ilə nail olmaq mümkündür.

Belə bir məsələni göstərmək lazımdır ki, bəzi metodlardan milli istehsalın müdafiəsi məqsədilə istifadə etmək mümkün olsa da, ÜTT-yə üzvlük müstəqil proteksionist xarici ticarət siyasətinin aparılması imkanlarını məhdudlaşdırır.

ÜTT miqdar metodları ilə qeyri-tarif məhdudiyyətlərini, kvotalaşdırmanın və lisenziyalaşdırmanın istifadəsini qadağan edir. Ona görə də ön planda xarici ticarət siyasətinin "gizli" metodları, məsələn, texniki maneələr, sanitar və fitosanitar tədbirlər çıxış etməlidir.

İxracın stimullaşdırılmasını dövlət digər tədbirlər vasitəsilə də, o cümlədən xarici ticarət siyasətinin qeyri-tarif metodlarına aid olan maliyyə rıçaqları vasitəsilə həyata keçirə bilər.

ÜTT-nin gələcəkdə üzvü olmaqla Azərbaycan digər ÜTT üzvləri ilə müqayisədə "ticarətə üstün köməklik rejiminə" malik olmalıdır. Elə bir təminat olmalıdır ki, xarici ticarətdə ölkəyə münasibətdə hər hansı

formada diskriminasiya şəraiti yaranmasın (miqdar məhdudiyyətləri, son dərəcə yüksək tariflər, antidempinq prosedurlar və s.). Vahid dünya bazarına inteqrasiya prosesində Azərbaycan ÜTT tərəfindən keçid iqtisadiyyatlı ölkələr üçün müəyyən edilmiş adaptasiya dövründən (nə vaxt ki, ölkədaxili bazarın tarif müdafiəsinin nisbətən sərt siyasətinin və yerli istehsalın həvəsləndirilməsinə digər yardım tədbirlərini həyata keçirmək hüququna malikdir) maksimum istifadə etməlidir.

Ölkənin xarici ticarətinin dövlət tənzimlənməsinin aparıcı orqanı kimi gömrük xidmətinin rolu xeyli artırılmalıdır. Belə ki, gömrük işinin təkmilləşdirilməsi və Azərbaycanın iqtisadi maraqlarının müdafiəsi nəzərə alınmaqla onun xarici iqtisadi fəaliyyətinin tənzimlənməsi mexanizminə uyğun şəklə gətirilməsi olduqca vacibdir. Bundan əlavə, respublika büdcəsinə vergilərin ayrılması texnologiyasının tətbiq edilməsi və gömrük, bank-valyuta nəzarətinin həyata keçirilməsi zəruridir. Gömrük xidməti tarif və qeyri-tarif tənzimlənməsinin köməyilə yerli sahibkarların və ölkənin daxili bazarının müdafiəsini təmin etməli, gömrük-tarif tənzimlənməsi mexanizmini təkmilləşdirməli və gömrük tariflərinin səmərəliliyinin yüksəldilməsinə və əmtəələrin təsnifatına nail olmalıdır, Azərbaycan bazarı keyfiyyətsiz əmtəələrdən müdafiə olunmalı və gömrük laboratoriyalarının nəzarətedici rolu fəallaşdırılmalıdır. Bu işdə İdxal əmtəələrinin sertifikatlaşdırılması sistemi təkmilləşdirilməlidir.

Azərbaycanın gömrük sərhədində nəzərdə tutulan əmtəələrin gömrük rəsmiləşdirilməsi proseslərinin səmərələşdirilməsi, habelə gömrüyün rəsmiləşdirilməsi sisteminin təkmilləşdirilməsi, yük-gömrük bəyannaməsinin təqdim olunması elektron-hesablama texnikasından maksimum istifadə olunması məsələləri olduqca vacibdir.

Azərbaycanın gömrük orqanlarının əmək şəraitinin yaxşılaşdırılması, gömrük xidmətinin nüfuzunun yüksəldilməsi tədbirlərinin reallaşdırılması, eləcə də gömrük orqanları işçilərinin sosial müdafiəsi daim diqqət mərkəzində saxlanılmalıdır.

Xarici ticarət siyasətində ixraca yönüm probleminin və idxalın əvəzləndirilməsinin balanslaşdırılması ixracın stimullaşdırılması və idxalın səmərəli vergitutmaya cəlb edilməsi ilə əlaqələndirilir.

Hal-hazırda xarici ticarət təcrübəsində təsdiq edilmiş qeyri-tarif tənzimlənməsinin müxtəlif metodlarından Azərbaycanda xarici iqtisadi münasibətlər sferasında islahatların aparılması şəraitində xarici ticarət sövdələşmələrinin kvotalaşdırılması və lisenziyalaşdırılması, embarqonun sertifikatlaşdırılması son dərəcə vacibdir.

Qeyd etmək lazımdır ki, dövlətin iqtisadi maraqlarının təmin edilməsi işində mühüm rol, bazar infrastrukturunun ən vacib ünsürlərindən birinə-gömrük xidmətinə məxsusdur. Xarici ticarət dövriyyəsinin tənzimlənməsində iştirak etməklə və fiskal funksiyanı həyata keçirməklə gömrük xidməti dövlət büdcəsini müntəzəm olaraq tamamlayır və bununla da iqtisadi problemin həllinə kömək edir.

Gömrük sisteminin inkişafını sürətləndirmək, onun normativ-hüquqi bazasını və maddi-texniki təminatını yaxşılaşdırmaq və gömrük orqanlarının fəaliyyətini daha da təkmilləşdirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə «Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı» təsdiq edilmişdir. Gömrük işində qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə Avropa Ittifaqı və BMT-nin Inkişaf Proqramının dəstəyi ilə «Azərbaycan Respublikasında Gömrük xidmətinin təkmilləşdirilməsi» layihəsi çərçivəsində beynəlxalq ekspertlər cəlb olunmuşdur. Bununla yanaşı, ixrac nəzarəti haqqında qanunvericilikdən irəli gələn məsələlərin həlli və ikili təyinatlı malların gömrük nəzarəti və təkmilləşdirilməsi üçün lazımi tədbirlər görülmüşdür. Gömrük sərhədindən keçirilən mallar və nəqliyyat vasitələri üzərində gömrük nəzarətinin səmərəliliyinin artırılmasında mühüm rol oynayan müasir texniki nəzarət vasitələrinin tətbiqi daha da genişləndirilmişdir.

«Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanına uyğun olaraq daxili bazarın qorunması, yerli istehsal sahələrinin genişləndirilməsi və ixraca əlverişli şərait yaradılması məqsədilə lüzumsuz tarif güzəştlərinin ləğvi yönümündə mühüm tədbirlər həyata keçirilmişdir.

Gömrük vergi və rüsumları, habelə gömrük qaydalarının pozulmasına görə tətbiq olunan cərimələr və yığımlar üzrə ödəmələrin ödəniş kartları vasitəsilə həyata keçirilməsi üçün gömrük orqanlarında ödəniş poçt-terminalları quraşdırılır. Konsiqnasiya əməliyyatları üzrə vaxtı çatmış və gecikdirilmiş vəsaitlərin ixracatçıların bank hesablarına daxil olması, habelə barter yolu ilə aparılan ixrac əməliyyatları üzrə göndərilən malların ekvivalent dəyərində əvəzinin ölkəmizə gətirilməsi təmin edilir. Eyni zamanda, ölkə gömrük statistikasının təkmilləşdirilməsi, korporativ şəbəkənin genişləndirilməsi, müxtəlif gömrük prosedurlarının avtomatlaşdırılması, zəruri olan məlumat bazalarının yaradılması məqsədilə operativ məlumatların yerli gömrük orqanların-

dan qəbulu, yoxlanılması və emalı həyata keçirilmiş, yeni proqramm təminatı yaradılmışdır.

Malın mənşə yerinin dəqiq müəyyən edilməsi ölkənin gömrük siyasətinin əməli olaraq həyata keçirilməsində vacib rolu yerinə yetirir, idxal və ixracın rəqabət əməliyyatlarında sahibkarlara xüsusi xidmət göstərir. Bu və ya digər ölkədə azad və gömrük ittifaqlarında iştirak daha aşağı preferensial gömrük vergilərilə ticarət üçün şərait yaradır. Məhz bu, əmtəənin mənşə yerinin dəqiq müəyyən edilməsi zərurətini şərtləndirir.

Malın gömrük dəyərinin müəyyən edilməsi metodikasının təkmilləşdirilməsi ölkədə aparılan gömrük siyasətinin düzgün məcraya yönəldilməsində xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün isə gömrük dəyərinin müəyyən edilməsinin (gömrük qiymətləndirilməsinin) beynəlxalq təcrübəsinin tədqiqi və onun milli təcrübədə tətbiqi variantlarının araşdırılması xüsusi əhəmiyyətə malikdir. Hazırda ümumdünya ticarət dövriyyəsində əhəmiyyətli rol oynayan ölkələr tərəfindən istifadə olunan gömrük dəyərinin müəyyən edilməsi sistemi tarixən uzun bir müddət ərzində formalaşmışdır.Onu da qeyd edək ki, gömrük sərhədindən keçirilən malların gömrük məqsədləri üçün qiymətləndirilməsi beynəlxalq gömrük təcrübəsində ən mürəkkəb prosedurlardan biri sayılır və Ümumdünya Gömrük Təşkilatının ekspertləri onu «Bir nömrəli problem» adlandırırlar.

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin 17 fevral 2003-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının inkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiyası (2003-2012-cil illər) respublikada qlobal informasiya mühitinin yaradılması, informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsinə, o cümlədən gömrük xidmətində bu sahədə aparılan işlərə müsbət təsir göstərdi və böyük imkanlar yaratdı. Ölkəmizdə gömrük işinin təşkilində informasiya texnologiyaları prioritet olaraq 1995-ci ildən başlayaraq intensiv formada tətbiq olunur. Həmin dövrdə gömrük xidmətinin üç səviyyəli vahid avtomatlaşdırılmış idarəetmə sisteminin (AİS) texniki tapşırığı və funksional strukturu tətbiq olunmuşdur.

Mütəxəssislərin fikrincə, vahid AİS-in yaradılması aşağıda göstərilən məqsədlərə nail olunmasını təmin etməlidir;

Gömrük rəsmiləşdirilməsi, nəzarəti və prosedurların tam avtomatlaşdırılması;

Gömrük xidmətində idarəetmə proseslərinin həllində elektron üsullardan geniş istifadə edilməsi;

İdarəetmə proseslərinin informasiya təminatının təşkili;

Xarici-iqtisadi əməliyyatları əks etdirən məlumatların operativ surətdə yığılması, mərkəzləşdirilmiş məlumat bazalarının yaradılması və onların təhlilinin aparılması;

Azərbaycan Respublikasının dövlət və icra orqanlarının müvafiq məlumatlarla təmin edilməsi;

Xarici ölkələrin mərkəzi gömrük orqanları ilə informasiya mübadiləsinin təşkili.

Azərbaycan Respublikası gömrük xidməti vahid avtomatlaşdırılmış informasiya sisteminin yaradılması haqqında Fəaliyyət Proqramında (2003-2012-ci illər) müvafiq olaraq səkkiz istiqamət üzrə işlər aparılmış və bu sahədə müxtəlif nailiyyətlər əldə olunmuşdur.

Dövlət Gömrük Komitəsi səviyyəsində operativ idarəçilik prosesini təmin etmək üçün vahid korporativ şəbəkə yaradılmışdır. Körporativ şəbəkə gömrük sərhədini keçən və rəsmiləşdirilmiş yüklər barədə operativ məlumatların "On-line" rejimində Dövlət Gömrük Komitəsinə göndərilməsini təmin edir.

Dövlət Gömrük Komitəsinin siyasətində gömrük prosedurlarının şəffaflığı mühüm yer tutur. Bu məqsədlə "İnformasiya köşkləri" yaradılmış və 5 gömrük orqanında tətbiq olunmuşdur. Həmin "İnformasiya köşkləri"ndə hüquqi-normativ aktlar, mallar üzrə gömrük tarifləri və xarici-iqtisadi əlaqələrin mal nomenklaturası yerləşdirilib.

"İnformasiya köşkləri" "Gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılmış sistemi" ilə birbaşa birləşib və bunun nəticəsində hüquqi və fiziki şəxslər heç bir struktur bölməyə müraciət etmədən rəsmiləşdirmə barəsində məlumat ala bilərlər. Gömrük nəzarətini gücləndirmək məqsədilə sərhəd postlarında və bəzi gömrükxanalarda video-müşahidə sistemlərinin tətbiqi nəticəsində sərhəddə yüklərə baxış və rəsmiləşdirmənin müşahidəsinə imkan yaradılmışdır.

Gömrük əməkdaşları üçün avtomatlaşdırılmış iş yerlərinin yaradılması istiqamətində çox böyük həcmli işlərin aparılması nəzərdə tutulur. Bu istiqamətdə görülən işlər təbii ki, gələcəkdə yaradılan "elektron poçt" və "elektron gömrük idarəsi"nin təməlini təşkil edəcək. Mal və nəqliyyat vasitələrinə fiziki baxışın avtomatlaşdırılması, avtomatik rejimdə yüklərin müşayiət edilməsi, normativ-sorğu sənədlərinin məlumat bazarlarının yaradılması planlaşdırılır.

Azərbaycan Respublikasının İnkişafı Naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiyaya müvafiq olaraq Dövlət Gömrük Komitəsi "Elektron hökumət" prinsiplərinin həyata keçirilməsi məqsədi ilə sənəd dövriyyəsini avtomatlaşdıran proqram təminatı yaradıb və gömrük xidmətində tətbiq edib. Amma ən əsas məqsəd "elektron poçt" və "elektron gömrük idarəsi"nin yaradılmasıdır. Eyni zamanda respublikanın icra orqanları arasında şəbəkə vasitəsi ilə informasiya mübadiləsinin aparılması və təşkili qarşıda duran əsas problemlərdəndir. Azərbaycan Respublikası gömrük xidmətinin vahid avtomatlaşdırılmış informasiya sisteminin yaradılması haqqında Fəaliyyət Proqramı üzrə aparılan işlərin nəticəsi əsasında gömrük sərhədini keçən mallar və nəqliyyat vasitələrinə və gömrük idarələrində rəsmiləşdirilən yüklərə aid məlumatlar operativ surətdə korporativ şəbəkə vasitəsilə Dövlət Gömrük Komitəsinə daxil olur və onların əsasında dörd məlumat bazaları yaradılır: "Sərhəd bazası", "YGB əsasında rəsmiləşdirilmiş yükləri əhatə edən baza", "Tranzit yüklər bazası" və "Gömrük mədaxil orderləri əsasında rəsmiləşdirilmiş yüklər bazası". Göstərilən məlumat bazalarından istifadə etməklə Dövlət Gömrük Komitəsində tam avtomatlaşdırılmış rejimdə xarici-iqtisadi əlaqələr təhlil olunur və hər rüb üzrə "Azərbaycan Respublikası xarici ticarətinin gömrük statistikası" bülleteni tərtib olunur və yayılır.

## 5. Azərbaycanda gömrük–tarif tənzimlənməsinin milli istehsalın inkişafa təsirinin perspektivləri

Azərbaycanın xarici ticarət əlaqələrinin və onun gömrük–tarif tənzimlənməsi sisteminin inkişafı dövrü müstəqillik illərinə təsadüf edir. Müstəqillik illərində Azərbaycanın xarici ticarət əlaqələrinin coğrafiyası nə qədər genişlənsə də, MDB məkanı yenə də ölkənin xarici ticarət dövriyyəsində mühüm yer tuturlar.

Azərbaycanın xarici ticarət dövriyyəsində MDB dövlətlərindən Rusiya Federasiyası, Ukrayna, Türkmənistan, Qazaxıstan, Gürcüstan, Belorusiya və Moldovanın xüsusi çəkiləri böyükdür. Azərbaycan üçün mühüm xarici bazar ola biləcək Orta Asiya respublikaları ilə ticarət-iqtisadi əlaqələri hələ ki, zəifdir.

Müstəqillik illərində Azərbaycanın xarici ticarət əlaqələrindəki inkişaf mal dövriyyəsinin dəyər həcminin ilbəil çoxalması fiskalyönümlü iqtisadi siyasət sayəsində yığılan gömrük ödəmələrinin həcmi-

nin artması ilə nəticələnirli. Bu dövrdə gömrük vergi və rüsum larının həcmi artan tepmlə inkişaf etmişdir.

Müstəqilliyin birinci onilliyi ərzində hətta ixrac rüsumunun ləğv olunması belə gömrük ödənişlərinin həc minin artmasına əks təsir göstərə bilməmişdir. Aksizli malların idxalı və aksiz vergisinə cəlb olunması idxal mallarının ilbəil əmtəə strukturunun genişlənməsinə gətirib çıxardı.

1996-1999-cu illəri gömrük işində köklü dəyişikliklər dövrü kimi də qiymətləndirmək olar. Qanunvericilik bazasının formalaşdırılması ilə nəzarətin və gömrük ödəmələrinin təkmilləşdirilməsi özünü respublika büdcəsinin gəlirlər hissəsinin formalaşdırılmasında gömrük orqanlarının payı ilə də göstərməkdə idi. Ümumi iqtisadi inkişaf nəticəsində ilbəil kəskin surətdə artan dövlət büdcəsinin gəlirlər hissəsinin əmələ gəlməsindəki gömrük orqanlarının payının artması xarici ticarət dövriyyəsinin artması ilə yanaşı, bilavasitə gömrük dəyərinin əmələ gəlməsinin əsas kriteriyalarının müəyyənləşdirilməsindən də asılı idi.

1996-1999-cu illər xarici ticarət əlaqələrinin dünya standartlarına uyğun, fiskalyönümlü və milli iqtisadi inkişafı nəzərdə tutan qanunvericilik bazasının yaradılması ilə də bir təkmilləşdirilmə dövrüdür. İxraca qoyulan lisenziyalaşdırma və kvotalaşdırma maneələrinin aradan götürülməsi nəticəsində ixrac əməliyyatları asanlaşdırılmaqla bu istiqamətə hüquqi və fiziki şəxslərin marağını artırmaqla yanaşı, anbarlarda olan əvvəlki istehsal mallarının da reallaşdırılmasına şərait yaratmışdır.

Gömrük rəsmiləşdirilməsi prosesi, gömrük rejimləri, gömrük ödəmələrinin alınması və digər əməliyyatlara dair qanunvericilik aktlarının qəbul olunması da bu dövrdə həyata keçirilmişdir. 20 iyun 1995-ci ildə "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun, 10 iyun 1997-ci ildə "Azərbaycan Respublikası Gömrük Məcəlləsi"nin və 27 oktyabr 1998-ci ildə "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi haqqında Əsasnamənin" qəbul olunması gömrük qanunvericiliyinin formalaşdırılması üçün əsas qanunverici baza olmuşdur. Belə ki, bu qanunvericilik aktları Azərbaycanın gömrük qanunverici bazasının təməlini təşkil etməklə onun gələcək inkişaf istiqamətlərini də müəyyənləşdirirdi.

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanıınu xarici ticarətin dövlət tənzimlənməsinin mühüm vasitəsi olan tarifin formalaşdırılması və tətbiqi qaydalarını müəyyənləşdirməklə Azər-

baycanın milli iqtisadiyyatının planlı inkişafını nəzərdə tutan, daxili istehsalın müdafiəsini və rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün qanunvericilik bazasını təşkil edir. Tarif qanunu və bunun bazası əsasında formalaşan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 yanvar 1998-ci il tarixli 7 saylı qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan malların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları" gömrük dəyərinin, gömrük tarifinin, gömrük ödənişlərinin, gömrük rüsum və vergilərin alınaraq prosedurunun beynəlxalq konvensiyaların müddəaları nəzərə almaraq müəyyənləşdirilməsilə ölkənin fiskal siyasətinin daha düzgün, dəqiq və bütün sahibkarlara və mallara eyni cür yanaşılmasını təmin edir. Gömrük tarifinin tətbiqinə dair qanunvericiliyin formalaşması xarici iqtisadi fəaliyyət iştirakçıları arasında haqsız rəqabəti aradan qaldırmaqla yanaşı, büdcədən yayınmaların da qarşısını alırdı. Gömrük qiymətləndirilməsi sisteminin tətbiqinə əsasən gömrük dəyərinin təyin olunmasının ümumi prinsipləri müəyyənləşdirilməklə, sağlam iqtisadi mühitin yaranmasına və əvvəlki dövrlərdə qanunvericilikdə olan boşluqdan yararlanmaqla gömrük ödəmələrindən yayınma hallarının qarşısını almağa yönəlmişdir.

Azərbaycan dövlətinin yerli istehsalı stimullaşdırmaq məqsədilə həyata keçirdiyi tədbirlər içərisində gömrük-tarif sistemində aparılan dəyişikliklər mühüm əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 1998-ci il tarixli 91 saylı "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Qərarına müvafiq olaraq yerli sahibkarlıq fəaliyyətləri dəstəklənmiş, ölkədə rəqabətədavamlı məhsulların istehsalına və ixrac-rüsum dərəcələrinin "0"-a endirilməsi ilə xarici ticarət əlaqələrinin inkişafına şərait yaradılması nəzərdə tutulmuşdur. Bütün göstərilənlər, bu dövrün gömrük işinin digər sahələrlə yanaşı, tarif sahəsində də qanunvericilik, iqtisadi tənzimləmə baxımından təkmilləşmə dövrü olduğuna sübutdur.

1996-1999-cu illər ərzində xarici ticarət əlaqələrində qanunvericilik formalaşma dövrü keçirir, ixrac sadələşdirilir və rüsumlar 0-a endirilir, əvvəlki istehsal məhsullarının ixracı ilə yanaşı, yeni məhsulların ixracı təmin olunur, yerli sahibkarlıq sahələri nəzərə alınaraq idxalın əmtəə strukturu müəyyənləşir.

2000-2014-cu illəri isə Azərbaycanın gömrük-tarif tənzimlənməsi sistemində yüksəliş və inkişaf dövrü kimi səciyyələndirmək olar.

Bu dövr xarici ticarət əlaqələrində qanunvericiliyin təkmilləşmə, gömrük işinin kompyuterləşmə, yerli sahibkarlığın nəzərə alınması və daxili bazarın qorunmasına yönəlmiş tarif siyasəti, regional və ya konkret istehsal sahələri üzrə inkişaf proqramlarının həyata keçirilməsi, idxalın istehlak yönümlülüyünün avadanlıq və xammala dəyişdirilməsi, ümumi iqtisadi inkişaf dövrü kimi qiymətləndirilməlidir. Bıı göstərilən irəliləyişlərin məhz 2000-2010-cu illərdə həyata keçirilməsi Azərbaycan dövlətinin apardığı iqtisadi siyasətin düzgünlüyünü və səmərəliliyini təsdiqləyir.

2000-2014-cu illər həm də gömrük işinə dair qanunvericilik bazasının təkmilləşmə və inkişaf dövrü kimi qiymətləndirilməlidir. 1996-1999-cu illərdə formalaşma dövrü keçirən qanunvericilik bazası bu dövrdə dünya standartları, praktiki işləmə zamanı ortaya çıxan nöqsanlar, lokal şərait nəzərə alınmaqla təkmilləşməkdə və inkişaf etməkdə idi. Əgər keçən dövrdə gömrük işinə dair qanunvericiliyin təməli və əsas bazası sayılan normativ aktlar qəbul olunmuşdursa, 2000-2014-cü illərdə bunların beynəlxalq konvensiyalar əsas götürülməklə icra mexanizmini nəzərdə tutan hüquqi aktlar hazırlanmışdır. Bu dövr keçmiş qanunverici aktların təkmilləşməsi, beynəlxalq konvensiyaların tətbiqi, gömrük işinə dair boşluqların aradan qaldırılmasını təmin edən qanunvericiliyin yaradılması və avtomatlaşmanın tətbiqi dövrü də adlandırıla bilər. Xarici iqtisadi fəaliyyət zamanı idxal olunan əmtəələrin müvafiq olaraq gömrük rüsumlarına cəlbolunma dərəcələrinin yenidən hazırlanması və bu zaman yerli istehsal sahələri və sahibkarlığın qorunması və stimullaşmasının nəzərə alınması qanunvericilikdə olan təkmilləşdirmələrdəndir. Istehsal sahələrinin xammalı olan əmtəələrin və istehsal avadanlığının gömrük rüsum dərəcələrinin aşağı salınması özlüyündə salıibkarlığın inkişafını nəzərdə tutmaqda idi. Xarici ticarət əlaqələrində gömrük tənzimlənməsinin fiskalyönümlü deyil, məhz istehsalı nəzərdə tutması bu dövrü digərlərindən fərqləndirir.

2000-2014-ci illər ərzində gömrük rəsmiləşdirilmə və gömrük nəzarəti prosesinin avtomatlaşdırılması sürətlənmişdir. Əgər ilkin mərhələdə rəsmiləşdirilmiş mallar barədə məlumatların elektron ötürülməsi və bazası formalaşdırılmışdırsa, bıı mərhələdə artıq rəsmiləşdirilmə prosesinin, təyinat məntəqəsinə çatdırılmanın avtomatlaşdırılması həyata keçirilmişdir. Avtomatlaşdırılma prosesi rəsmiləşdirilmə prosesinin sürətliliyini təmin etməklə yanaşı, qanunvericilik aktlarına maksimal dərəcədə riayət olunmasına da şərait yaradırdı. Rəsmiləşdirilmə-

nin gömrük orqanının müvafiq şöbələrindəki hərəkətinin texnoloji sxemə uyğun olaraq təmin olunması, bu prosesin hər anının deklarant tərəfindən izlənilməsi, mövcıd çatışmazlıqların anda həll olunması avtomatlaşmanın effektivliyini göstərir.

Yeni gömrük məcəlləsinin 2012-ci ilin yanvarın 1-dən qüvvəyə minməsi və 2013-cü ildə gömrük tarifi haqqında Azərbaycan Respublikasının yeni Qanununun qəbul edilməsi xarici iqtisadi fəaliyyətin tənzimlənməsi sisteminin müasir dövrün yeni tələblərinə uyğunlaşmaması zəruriyyətindən yaranmışdır. Belə ki, müasir dövrdə ölkə qeyri-neft sektorunun inkişaf edirilməsinə və milli istehsalın rəqabət qabiliyyətinin yüksədilməsi istiqamətində kompleks tədbirlər görür və gömrük işinin təşkili burada aparıcı rol oynayır. Burada ayrıca olaraq xüsusi iqtisadi zonalar haqqında qanunu qeyd etmək lazımdır.

Azərbaycanın gömrük-tarif tənzimlənməsi sisteminin formalaşdırılması, təşəkkülü və təkmilləşdirilməsinin kompleks şəkildə təhlili göstərir ki, ölkəmizin xarici ticarət əlaqələrinin inkişafına sözügedən sistemin fəaliyyətinin çox böyük müsbət təsiri olmuşdur. Xarici ticarət əlaqələrinə ümumi baxış isə əlaqələrin 1992-ci ildən bu günə qədər olan zaman aralığındakı inkişaf dinamikası bizə ölkənin xarici ticarət əlaqələrinin ümumi inkişafını göstərməklə yanaşı, hal-hazırdakı mövcıd reallığı da görməyə şərait yaradır.

Hal-hazırda dünya təsərüfatında və ölkələrin xarici iqtisadi siyasətində baş verən proseslər bilavasitə iqtisadi aktivliyin qloballaşması ilə bağlıdır. Çünki, bu gün mallar bazara ya xarici ticarət, ya da xarici komponentlərdən istifadə edərək istehsal olunmaqla çıxır. Bircə faktı qeyd etmək kifayət olar ki, son 40 ildə dünya mal dövriyyəsi 15 dəfə artdığı halda, məhsul istehsalı sadəcə olaraq 6 dəfə artmışdır. Burada belə bir zərurət ortaya çıxır ki, dünya təsərrüfatının vahid bir orqanizmə çevrildiyi, ETI-nin bir çox milli və regional problemləri qlobal problemlərə çevirdiyi bir şəraitdə beynəlxalq iqtisadi təşkilatların rolu da artmalıdır.

Müasir dövrdə Azərbaycan Respublikasının xarici iqtisadi siyasətinin əsas istiqamətləri ixracın stimullaşdırılması və dünya bazarında bizim ixrac etdiyimiz mallar üçün münbit şərait yaratmaq olmalıdır. Azərbaycan iqtisadiyyatının çoxtərəfli inkişafını təmin etmək üçün isə yaxın və uzaq xarici dövlətlərlə, eləcə də beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək və mövcud əlaqələri inkişaf etdirmək lazımdır. Bu günün ən aktual məsələlərindən biri xarici iqtisadi fəaliyyətin beynəl-

xalq normalara uyğunlaşması, unifikasiyası, tarif və qeyri-tarif tənzimləməsinin metod və qaydalarını işləyib hazırlayan, mühüm beynəlxalq institut olan Beynəlxalq Ticarət Təşkilatı ilə sıx əlaqəlrin yaradılmasıdır.

Qeyd etmək lazımdır ki, hazırda ölkələrin ÜTT-yə qəbul olunmasının əsas şərtlərindən biri bu ölkələrin mövcud milli qanunvericiliyinin və xarici iqtisadi fəaliyyəti tənzimləyən qaydalarının Uruqvay Raundu sazişlərinin müddəalarına uyğunlaşdırılmasıdır.

Sonuncu mərhələ kimi üzv olan ölkənin parlamenti tərəfindən bütün sənədlər toplusunun ratifikasiyasini göstərmək olar.

Azərbaycan Respublikasının ÜTT-yə üzvolma mərhələsində keçən danısıqlar zamanı qarşısında duran əsas məqsədbeynəlxalq ticarət aləmində ölkənin hüquqlarının pozulmasının qarşısını almaqdan, xarici ticarət müqavilələri ilə eyni şərtlər əsasında və şəraitdə ticarət əlaqələri qurmaqdan, Azərbaycan mənşəli malların və xidmətlərin dünya bazarına maneəsiz və hüquqları pozulmadan çıxarılmasını təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikasının ÜTT-yə üzvolma istəyi ölkənin müasir ticarət siyasətinin xarakterindən irəli gəlir. Bu siyasətin əsas məqsədi dünya iqtisadiyyatına, beynəlxalq ticarətə maksimum dərəcədə səmərəli və əlverişli şərtlərlə daxil olmaqdan ibarətdir ki, bu vəzifələrə nail olaraq bir sıra mühüm vəzifələri həyata keçirmək mümkün olur:

- Azərbaycan mənşəli mallar və xidmətlərin beynəlxalq bazarlara əlverişli və diskriminasiyasız şərtlərlə daxil olması;
- Ölkənin ixrac potensialının gücləndirilməsi, ixracın strukturunun və tərkibininn təkmilləşdirilməsi;
- ÜTT-nin qaydalarından istifadə edərək "açıq" iqtisadiyyat şəraitində yerli istehsalçıların hüquqlarının qorunması.

Buradan belə bir sual ortaya çıxır. Azərbaycan ÜTT-yə üzv olarkən bir çox üstünlüklər əldə edir. Bu zaman ticarətin və digər xarici iqtisadi fəaliyyət formalarının inkişafı üçün daha əlverişli şətrlər yaradılacaq. Bundan başqa, ölkəmiz öz ticarət maraqlarının haqsız zərərdən qorunması üçün ÜTT-nin ticarət mübahisələrinin həlli üzrə olduqca səmərəli və praktiki olaraq yeganə mexanizminə yiyələnəcək və sonda ÜTT-nin norma və qaydalarını öz praktikamıza tətbiq etməklə yerli qanunvericiliyi xarici iqtisadi fəaliyyətin və ticarətin tənzimlənməsi sahəsində beynəlxalq təcrübəni müvafiq qanunvericiliyə uyğunlaşdıra biləcək.

Ümumiyyətlə, ÜTT-yə üzvolma prosesini şərti olaraq 2 mərhələyə bölmək olar. Bunlardan birincisi, "məlumat" mərhələsidir. Burada üzv olmaq niyyətində olan ölkə danısıqlar zamanı ÜTT-nin üzvü olan ölkələrin iqtisadiyyatı, ticarət sistemi və s. tanış olur. Üzv ölkələr isə öz növbələrində, namizəd ölkəni hərtərəfli və çox diqqətilə öyrənir, onun siyasi və iqtisadi vəziyyəti haqqında məlumat əldə edirlər. Ölkəmiz hal-hazırda məhz bu mərhələdədir.

Azərbaycan Respublikası ÜTT-nin tamhüquqlu üzvü deyil. Belə ki, ölkəmiz mürəkkəb danışıqlar prosesini keçməlidir ki, bu da bəzən uzun illər ərzində davam etmiş olur.

Iqtisadiyyat mürəkkəb bir sistemdir. Onun özünün qanunları var. Hər bir iqtisadiyyat müəyyən məkan və vaxt çərçivəsində fəaliyyət göstərir. Dövlət siyasəti müəyyən edilərkən bir çox daxili və xarici amillər nəzərə alınır. Bu amillərdən biri də beynəlxalq qurumların tövsiyələridir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq iqtisadi qurumlarla əməkdaşlığa ciddi ehtiyac yarandı və bu əməkdaşlıq formalaşdı, onların köməyilə respublikamızda islahatların aparılması, makrosabitliyin təmin olunması sahəsində köklü irəliləyişlər əldə edildi.

Azərbaycan neft və qazın böyük ehtiyatlarına, iri sənaye və kənd təsərrüfatı potensialına, kifayət qədər əmək resurslarına malikdir. Onun gələcək harmonik inkişafı iqtisadiyyatın qeyri-neft sektoruna sürətli modernləşmə strategiyası ilə müəyyən ediləcək, bu da ölkənin ixracında 90%-dən cox, büdcənin gəlir hissəsinin formalaşmasında 40-45%, ÜDM-də 25%-dən cox hissəni təşkil edən neft sektorundan asılılığını aradan qaldırmağa imkan verəcəkdir. Azərbaycanın dünya ticarət sisteminə inteqrasiyası yuxarıda göstərilən vəzifənin stimullaşmasında zəruri faktordur.

Azərbaycana gətirilən mallar üzrə gömrük rüsum dərəcələrinin optimal səviyyəsinin müəyyən edilməsi prosesi daha məsuliyyətli və ağırdır. Milli bazarın mümkün liberallaşma həddini müəyyən etmək vacibdir. Söhbət gedən məsələ Azərbaycanın ticarət-iqtisadi xarakterli inteqrasiya birlikləri üzrə əməkdaşlarının maraqlarının nəzərə alınması ilə də çətinləşir.

Daxili bazarın tələblərinin tam ödənildiyi mal mövqeləri üzrə gömrük rüsum dərəcələri 25%-dən az olmamalıdır. Analoci mal idxalının milli istehsalçılara heç bir təhlükə yaratmayan mal mövqeləri

üzrə daxili bazarın bu mallarla təminatlılığı səviyyəsindən asılı olaraq gömrük rüsumunu 5%-dən 20%-ə qədər tətbiq etmək olar.

Kənd təsərrüfatı istehsalı məhsullarına münasibətdə isə milli aqrar-sənaye sektorunun müdafiəsinə yardım məqsədilə, tarifləşməni ən geniş mal spektri üzrə həyata keçirmək tələb olunur.

İsveçrə Konfederasiyasının nümunəsi bu baxımdan mühüm göstəricidir. Kənd təsərrüfatı istehsalının səviyyəsi bu ölkədə ən inkişaf etmiş sayılır, bununla belə, kənd təsərrüfatının, demək olar ki, bütün namenklaturası üzrə idxal-gömrük rüsumunun dərəcəsi 100%-i ötür. Nümunə üçün Isveçrə Konfederasiyasında kənd təsərrüfatı mallarının bəzi kateqoriyalarına gömrük rüsum dərəcələrinin mövcud kəmiyyətini göstərək. Belə ki, Isveçrəyə gətirilən süd və süd məhsullarına gömrük rüsumu 452%, ət məhsullarına 119%, dondurulmuş tərəvəzə 115% təşkil edir.

Dünya təcrübəsi göstərir ki, QATT/ÜTT norma və prinsiplərinə əsaslanan iqtisadi tənzimlənmə metodları ilə yanaşı, fəaliyyətdə olan səmərəli gömrük tarifindən istifadənin köməyilə, ölkənin xarici iqtisadi kompleksinin idarəedilməsi daxili və xarici bazarlarda milli müəssisələrin haqlı rəqabət recimini yaradır. Qeyd etmək lazımdır ki, Azərbaycan tərəfinin gömrük rüsum dərəcələrini dəyişməsi bir sıra MDB ölkələri ilə razılaşdırılmalıdır, bu isə sərbəst ticarət zonasının yaradılmasını əsaslandırır.

Qeyd etmək lazımdır ki, hal-hazırda sosial-iqtisadi inkişafla bağlı fəaliyyət proqramında qeyri-neft sektorunun daha sürətlə inkişaf etdirilməsi xüsusi yer tutur. Bu məsələdə neftlə zəngin olan ölkələrin təcrübəsi nəzərə alınır. Neft hasil edən bir cox ölkələrdə iqtisadiyyatın birtərəfli inkişafı cox ağır nəticələr vermişdir. İqtisadiyyatın bütün sahələri, o cümlədən, qeyri-neft sektoru, infrastruktur inkişaf etməlidir. Bunun üçün güclü vasitələrdən biri sahibkarlığın keyfiyyətcə yeni mərhələyə çatdırılmasıdır. Hazırda respublikada sahibkarlığın inkişaf dinamikasını xarakterizə edən göstəricilərin yaxşılaşması meyli sabit xarakter alır.

Sahibkarlığın fəaliyyəti genişləndikcə real sektorun strukturu da təkmilləşir. Ilk illərdə sahibkarlar öz fəaliyyətini əsasən ticarət, ictimai iaşə sahələrinə yönəldirdilərsə, indi ixrac yönümlü sahələrə, informasiya texnologiyaları, telekommunikasiya, intellektual mülkiyyət tələb olunan fəaliyyət növlərinə maraq artır. 2004-cü ilin birinci yarısında Azərbaycanda 2547 yeni müəssisə qeydiyyatdan keçmişdir. Bu müəssisələrdən 301-i tikinti, 214-ü isə emal müəssisələridir. Qeydiyyatdan

keçmiş yeni müəssisələrdən 90%-i özəl sektorun, bütövlükdə ümumi daxili məhsulun 75%-i qeyri-dövlət bölməsinin payına düşür.

Xarici iqtisadi əlaqələrin səmərəlilik kriteriyalarını müəyyənləşdirməmişdən əvvəl, ölkənin sosial-iqtisadi inkişafında onu əvəzedilməz rola malik olduğu baxımdan qiymətləndirmək lazımdır. Belə ki, xarici iqtisadi fəaliyyət ümıımiqtisadi konyunkturanı formalaşdıran amil kimi çıxış edir. Başqa sözlə, o, konyunkturanın dəyişməsinin xarakteri, onun inkişaf tempi və istiqamətlərini müəyyənləşdirən, eyni zamanda konkret situasiyada həmin iqtisadi prosesin şərti kimi çıxış edən hərəkətverici qüvvədir. Xarici iqtisadi fəaliyyətə iqtisadi qanunların konkret təzahür forması, yaxud iqtisadiyyatın mövcudluğıı və inkişafının mühüm şərti kimi baxmaq lazımdır.

Xarici iqtisadi əlaqələrin tənzimlənməsinin iqtisadi konyunkturaya həm kəmiyyətcə, həm də keyfiyyətcə təsirini müəyyənləşdirmək ölkənin milli-iqtisadi maraqları baxımından mühüm əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, beynəlxalq ticarət ixracat məhsullarının istehsalına sərf edilən amillərə olan tələbi artırır və əksinə, idxalatı əvəz edəcək sahələrdə intensiv istifadə olunan amillərə olan tələbi azaldır. Beləliklə, butövlükdə ticarət ölkə üçün faydalı olsa da, ayrı-ayrı sahibkarlara zərər vura bilər. Məhz bu məqam dövlətin müdaxiləsinin zəruriliyini ortaya çıxarır. Söhbət, hər şeydən əvvəl, xarici iqtisadi strategiyanın müəyyənləşdirilməsindən gedir.

Dünya təcrübəsi göstərir ki, xarici iqtisadi fəaliyyət strategiyaları müxtəlif ola bilər.

**Xarici iqtisadi fəaliyyət strategiyalarının formaları**



Aydındır ki, respublikamızdakı muasir vəziyyət hər hansı bir starteqiyanı «xalis» şəkildə tətbiq etməyə imkan vermir. Fikrimizcə, xarici iqtisadi fəaliy-yətiıı strategiyasının müəyyənləşdirilməsi faydalılığın təkcə kəmiyyətcə deyil, həm də keyfiyyətcə maksimumuna nail olunması ilə əsaslandırılmalıdır.

Zənnimizcə, bu istiqamətdə respublikanın başlıca strateji vəzifəsini aşa-ğıdakı kimi formalaşdırmaq məqsədəuyğun olardı: Xarici iqtisadi fəaliyyət elmi-texniki tərəqqinin sürətlənməsinə, ölkənin iqtisadi subyektlərinin məhsul və xidmətlərin keyfiyyəti, texnika, texnologiya baxımından dünya standartları səviyyəsinə çıxmasına yardım etməlidir.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin, o cümlədən ölkənin gömrük-tarif tənzimlənməsi sisteminin səmərəliliyi əməkdaşlıq edən ölkələrlə qarşılıqlı təsərrütat fəaliyyəti prosesi zamanı əldə olunan xalis gəlirin kəmiyyətindən asılıdır. Beynəlxalq mübadilə sferası yolu ilə əldə edilən gəlir nə qədər yüksək olursa, xarici iqtisadi əlaqələrin səmərəliliyi də o qədər çox olur. Milli gəlirin artım ölçüsünün kəmiyyətcə müəyyənləşdirilməsi mexanizmi ən mürəkkəb nəzəri-metodoloji problemlərdən biri kimi özünü göstərir və elə mürəkəbliyinə görə də bu problemə münasibətdə tədqiqatçılar arasında yekdil fikir yoxdur.

Milli gəlirin artması ilə xarici ticarətin səmərəliliyi arasında olan asılılıq probleminə «Xarici iqtisadi əlaqələrin effektivliyi: aktual problemlər» monoqrafiyasının müəllifləri yeni nöqteyi-nəzərdən yanaşırlar:

Əmtəənin ixracı axırıncı ticarət əməliyyatlarının tərkib hissəsi olmaqla, ölkə istehsalının milli gəlirini öz tam dəyəri miqdarında azaldır, idxal mallarının milli dəyəri ixrac mallarının milli dəyəri ilə uyğun gəlir.

Canlı əmək ictimai əməyin əsas hissəsini təşkil edərək, milli gəlirin həqiqi artım mənbəyi hesab edilır. Belə ki, bu hal xammal və əmək resurslarının azad edilməsinə və başqa ictimai məqsədə yönəldilməsinə gətirib çıxarır. Qənaət edilmiş canlı əmək (ictimai istehsal prosesində istifadə edilən hissəsi) yeni dəyər yaradır. Yalnız göstərilən xarici ticarət fəaliyyətindən yaranmış yeni dəyər milli gəlirin artımı hesab edilir.

Beləliklə, beynəlxalq əmək bölgüsündə iştirak etmək nəticəsində yaranan xalis gəlirin maksimum meyarı öz mahiyyəti etibarı ilə həmin növ malların istehsal və daşınmasında material və əmək məsrəflərinin minimuma endi-rilməsinə gətirib çıxarır.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin tarif tənzimlənməsinin səmərəliliyi əməkdaşlıq etdiyi ölkələrlə qarşılıqlı təsərrüfat fəaliyyətindən alınan xalis gəlirin kəmiyyətindən və həmin ölkələrdə mövcud olan resurs və onların məhsullarına çəkdikləri xəclərdən asılıdır. Beynəlxalq iqtisadi mübadilə vasitəsi ilə reallaşdırılan gəlir nə qədər çox olsa, xarici iqtisadi əlaqəlirin effektivliyi o qədər də yüksək olar.

Azərbaycan dünya ölkələri xarici iqtisadi əlaqələrinin ümumi effektivli-liyini ölçmək üçün, onların konkret formalarından asılı olmayaraq, effek-tıvliyin müqaisə ölçüsü düsturunun təklif edilməsi məqsədəuyğun olardı.

Azərbaycan-dünya ölkələri iqtisadi əməkdaşlığında effektivliyin yüksəldil-məsi üçün müxtəlif növ qarşılıqlı əlaqələrin yaradılmasında gözlənilən iqtisadi səmərəni proqnozlaşdırarkən məqam yetişdikcə düzəlişlər edilə bilinən iqtisadi-riyazi modellərin işlənilib hazırlanması mühüm yer tutur.

Xarici və milli iqtisadi inkişaf proqramlarında hesablamalarla əsaslandırı-lan nəqliyyat vasitələri və yüklərin hərəkəti, valyuta və texnologiya bazarla rının vəziyyəti haqqında çox geniş informasiyaları özündə əks etdirən iqtisadi-riyazi modellər inzibati-hüquqi tənzimlənmədə idarəetmə heyətinə xarici iqtisadi fəaliyyət variantlarından ən optimalını və yaxud ən səmərəlisini seçməyə imkan yaradır.

# VIII FƏSİL

# AZƏRBAYCANIN MALİYYƏ BAZARI VƏ ONUN İNKİŞAFI

*"Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır"*

***İlham Əliyev***

## 1. Azərbaycanda maliyyə bazarının formalaşması.

Bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasında maliyyə bazarı xeyli inkişaf etmişdir. Belə ki, respublikada bazar infrastruktur kompleksi içərisində ən inkişaf edən bazarlardan biri maliyyə bazarıdır. Bazar münasibətləri şəraitində aktiv maliyyə resurslarına sahib olan hüquqi və fiziki şəxslər öz sərbəst maliyyə vəsaitlərini əlverişli şərtlərlə müxtəlif kommersiya institutları və maliyyə şəbəkələrində yerləşdirməyə, daha yüksək dividendlərin əldə edilməsinə çalışırlar. Belə bir şəraitdə kreditor və pul vəsaitlərinə ehtiyacı olan tərəflər vasitəçilərin xidmətindən istifadə edərək maliyyə bazarlarında təmaslar qururlar. Deyilənlər bir daha bunu təsdiq edir ki, maliyyə bazarının əsas funksiyası hüquqi və fiziki şəxslərdə dövriyyədənkənar, azad pul vasitələrini təkrar dövriyyəyə cəlb etməkdən ibarətdir. Bütün bunlar nəticəsində cəmiyyətin aktivləri istehsal prosesinə, xidmət sahələrinə və iqtisadi inkişafa yönəldilir. Göstərilən istiqamətlərdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkədə iş yerlərinin artması, büdcəyə əlavə vəsaitlərin daxil olması baş verəcəkdir. Əgər iqtisadi aktivlər dövriyyədə tam iştirak etməzsə, iqtisadiyyatın müxtəlif sahələrində pul qıtlığı müşahidə edilə bilər, müvafiq olaraq ölkənin mərkəzi bankı dövriyyəyə əlavə emissiyalar buraxacaqdır. Nəticədə, inflyasiya müşahidə olunacaq, makroiqtisadi göstəricilər aşağı düşəcək, bütünlükdə əlverişsiz iqtisadi situasiya yaranacaqdır. Göründüyü kimi, maliyyə bazarı əmanətlərin daha çox cəlb edildiyi, yüksək investisiya yatırımlarının çox olduğu ölkələrdə inkişaf edir.

Maliyyə bazarına sərbəst pul kütləsinin cəlb edilməsi üçün ölkə vətəndaşlarının inamı qazanılmalıdır, vətəndaş müxtəlif yatırımlar

edərkən əmanətlərini istər investisiyalar, istərsə də depozitlər formasında kassalara qoyduqda həmin vəsaitlərin müəyyən vaxtdan sonra geriyə qaytarılacağı və mənfəət gətirəcəyi barədə inamı olmalıdır. Azərbaycan hökuməti bu istiqamətdə xeyli işlər görərək müvafiq normativ hüquqi baza yaratmışdır. Qəbul edilmiş hökumət qərarları içərisində aşağıdakıları göstərmək olar:

"Azərbaycan Respublikasında mülkiyyət haqqında", "Müəssisələr haqqında", "Banklar haqqında", "Səhmdar cəmiyyətlər haqqında", "Xarici investisiyaların müdafiəsi haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "İnvestisiya fəaliyyəti", "Qiymətli kağızlar haqqında", "Valyuta tənzimlənməsi haqqında", "Sığorta haqqında", "Girov haqqında", "Qiymətləndirmə fəaliyyəti haqqında" qanunları və həmçinin respublikada maliyyə bazarının inkişaf etdirilməsi üçün Nazirlər Kabinetinin bir sıra qərarlarını göstərmək olar. Yuxarıda göstərilən qanun və qərarların dünyada baş verən proseslərə adekvat olması üçün daimi olaraq təkmilləşdirilməlidir.

Ümumiyyətlə, müstəqilliyin ilk illərindən başlayaraq Azərbaycan Respublikasında dövlətin iqtisadiyyata müdaxiləsinin minimuma endirilməsi istiqamətində intensiv fəaliyyət həyata keçirilmişdir. Bir çox təsərrüfat subyektləri, müəssisələrin əksəriyyəti, şirkət və təşkilatlar sərbəst olaraq özləri maliyyə vəsaitlərini axtarırlar. Bütün bunlar isə öz növbəsində maliyyə bazarının inkişaf etməsinə ciddi təkan vermişdir. Çünki resurslara olan tələblərin qarşılanmasının bazar mexanizmləri ilə təminatı özü-özlüyündə maliyyə bazarının başlıca formalaşma səbəblərindən biri kimi çıxış edir. Hüquqi və fiziki şəxslər bank və digər maliyyə institutlarına öz vəsaitlərini borc vəsaiti kimi verməyə başladılar ki, sonradan həmin vəsaitlərin bank və digər maliyyə təsisatları vasitəsi ilə cəmlənərək kreditlərə ehtiyacı olan digər subyektlərə verilməsinə başlanıldı. Təbiidir ki, bütün bu əməliyyatlar müəyyən şərtlərlə, maliyyə resurslarına olan tələblərin təmin olunması qarşılığında müəyyən mənfəətlərin əldə edilməsinə istiqamətlənmişdir.

Maliyyə bazarları müəyyən iqtisadi mexanizmlərlə tənzimlənməzsə bütün bunlar adı çəkilən bazarda neqativ təmayüllərin müşahidə olunmasına gətirib çıxara bilər. Bir çox analitiklər müstəqilliyin ilk illərində Azərbaycanda qiymətli kağızlar bazarında yaşanan böhranın, həmçinin adı çəkilən bazarın lazımı səviyyədə inkişaf edə bilməməsinin səbəblərini məhz bununla izah edirlər. Bu isə hər şeydən öncə, Milli Bankın səmərəli pul-kredit siyasətinin həyata keçirməsinə əngəl

olurdu və Milli Bank respublikada pul-kredit siyasətinin həyata keçirilməsində açıq bazar əməliyyatlarına üstünlük verməli olmuşdur. Belə ki, açıq bazar əməliyyatı dövlət qiymətli kağızların kommersiya banklarına və əhaliyə alınılıb satılması ilə həyata keçirilir. İnkişaf etmiş dövlətlərin təcrübəsindən də məlumdur ki, dövlətin maliyyə bazarına müdaxiləsi olduqca məhdud hüdudlarda həyata keçirilir. Göründüyü kimi, maliyyə bazarı özünün ilkin təsəvvürlərindən daha geniş anlayışdır. Maliyyə bazarı təkcə iqtisadiyyatın maliyyələşdirmə aspektlərini deyil, həmçinin, kredit, borc, valyuta, qiymətli kağızlarla alqı-satqı və digər münasibətlər sistemini də özündə əks etdirir. Maliyyə bazarının strukturu bir-biri illə sıx və qarşılıqlı əlaqədə olan üç bazarın inkişaf səviyyəsindən asılıdır.

Azərbaycan Respublikası Milli Bankının hesabatlarında da maliyyə bazarı üç hissədən ibarət, 1) kredit, 2) valyuta, 3) qiymətli kağızlar bazarı kimi xarakterizə edilir. Ancaq deyilənlərlə yanaşı, maliyyə bazarının strukturuna qızıl bazarı da əlavə olunmalıdır. Çünki qızıl, eyni zamanda ehtiyat valyuta kimi yığım vasitəsidir, bir çox ölkələrdə banklar, bəzi maliyyə institutları qızıldan girov vasitəsi kimi də istifadə edirlər. Məhz bu səbəbdən də maliyyə vəsaitlərinin hərəkətinə nəzarət edilməsi üçün qızıl bazarı da maliyyə bazarının seqmenti kimi təqdim olunmalıdır.

Qeyd etmək lazımdır ki, müasir dövrdə, bazar iqtisadiyyatı şəraitində maliyyə şirkətləri, iş adamları və hətta bəzən hökumətlər maliyyə bazarları vasitəsi ilə tələb olunan resurslarla təmin edilirlər. Məhz bu səbəbdən də maliyyə bazarları cəmiyyətdə pul kütləsinin, bütünlükdə maliyyə resurslarının bölgüsü və təkrar bölgüsünü həyata keçirir, pul kütləsinin bolluğu və qıtlığı kimi maliyyə resursları disproporsiyaların aradan qaldırılmasına xidmət edir. Müvafiq olaraq maliyyə bazarının mahiyyətinin daha ətraflı nəzərdən keçirilməsi zərurəti hiss olunur. Bunun üçün isə maliyyə bazarının tərkib hissələri bir qədər daha ətraflı nəzərdən keçirilməlidir.

Müasir dövrdə maliyyə bazarı xeyli genişlənmişdir, bunun əsas səbəbi isə kredit ehtiyatlarının satılmasıdır. Göstərilən fakt isə öz növbəsində, kredit bazarının bəzi hallarda müstəqil bazar kimi çıxış etməsinə səbəb olmuşdur və bu sahədə banklar fəaliyyət göstərirlər. Qeyd etmək lazımdır ki, kredit bazarı maliyyə bazarının mühüm tərkib hissəsi olmasına baxmayaraq yaranmış şərait iqtisadi ədəbiyyatlarda maliyyə bazarının strukturu ilə əlaqədar fikir ayrılıqlarını daha da dərinləşdirmişdir.

Adətən Avropa kredit faizləri London birjalarında təyin olunur və LİBOR adlanır (London İnterbank Offerede Rate), yəni London birjasında təklif olunan faizdir. LİBOR ABŞ dolları, yapon iyeni, alman markası Fransa frankı üçün təyin olunmuşdur. İndiki dövrdə Avropada milli valyutaları əvəz edən avro valyutalar sırasına daxil olmuşdur. Milli kredit faizləri ayrı-ayrı ölkələrin banklararası kredit birjalarında formalaşır. Nümunə üçün qeyd etmək lazımdır ki, yapon iyeninə görə LİBOR Tokio banklararası birjada təklif faiz, fransız franki üçün RİBOR, Rusiya rublu üçün MİBOR formalaşır. Bir məsələnin də xüsusi olaraq qeyd edilməsi yerinə düşərdi ki, Azərbaycanda banklararası kredit birjasının yaradılması, BİBOR-un formalaşması və fəaliyyət göstərməsi gündəmdə olan məsələlərdəndir. Azərbaycan Respublikasının Milli Bankı təkcə kredit hərracları ilə kifayətlənir. Milli Bankın diskont faizləri (uçot dərəcələri) həmin hərracların nəticələrinə əsasən müəyyənləşdirilir və yaranmış vəziyyət səmərəli situasiya hesab olunan bilməz. Bu səbəbdən də ancaq burada Milli Bank öz resurslarını satışa çıxarır. Digər banklar isə satışa vəsait çıxara bilmirlər. Göründüyü kimi, kreditlərə olan tələb və təklif tam olaraq nəzərə alınmır, müvafiq olaraq kredit faizləri düzgün formalaşmır.

Azərbaycan Respublikasında həyata keçirilən bu kredit münasibətləri Milli bankın uçot dərəcələrinin dəyişdirilməsi əməliyyatıdır. Göründüyü kimi, Milli Bank kommersiya banklarının ehtiyat fondlarına və onların kreditvermə qabiliyyətinə müsbət təsir göstərir. Yəni, kommersiya bankları hüquqi və fiziki şəxslərə kredit verir, müvafiq olaraq nəticədə milli valyutanın təklifi artır. Bu kredit münasibətlərində iştirakçı tərəflər kimi kredit alan tərəf hüquqi və fiziki şəxslərdir, kredit verən tərəf isə banklardır.

Nəhayət, ölkə banklarının xarici banklarla olan münasibətləri əks olunur. Hesablamalar Loro və Nostro hesablarından istifadə olunmaqla gerçəkləşdirilir. Azərbaycan Respublikasında inkişaf prosesləri, xüsusən də regionların inkişaf etdirilməsi maliyyə bazarının infrastrukturlarının daha da genişləndirilərək regionları da əhatə etməsindən asılıdır. Çünki maliyyə bazarının inkişaf etməsi, şəhərlər və regionlar arasında kapitalın səmərəli axınının təmin olunmasına xidmət edə bilər. Nəticədə, kommersiya bankları, sığorta şirkətləri, investisiya fondlarının fəaliyyəti regionlarda da xeyli genişlənmiş olar.

Maliyyə bazarının digər əhəmiyyətli hissəsi valyuta bazarı bir ölkənin digər ölkələrin valyutalarına dəyişdirilməsi prosesi zamanı for-

malaşan iqtisadi mexanizmlər sistemidir. Çünki bir ölkədən digər ölkəyə hər hansı bir əmtəənin idxal-ixrac əməliyyatları valyuta mübadiləsini zəruri edir. Qarşılıqlı olaraq valyutaların mübadiləsi valyuta məzənnəsini formalaşdırır. Müasir dövrdə valyuta məzənnəsinin təyin olunmasının müxtəlif rejimləri vardır. Ən geniş yayılmış rejim isə qeydə alınmış valyuta məzənnəsidir. Göstərilən rejimdə milli valyutanın məzənnəsinin hökumət tərəfindən rəsmi olaraq təyin olunması nəzərdə tutulur. İndiki dövrdə Azərbaycan manatının məzənnəsi Milli Bank tərəfindən təyin edilir.

Bir valyutanın digər valyutaya mübadiləsi valyuta məzənnəsini formalaşdırır. Valyuta məzənnəsinin iki növü mövcuddur:

1. Kassa əməliyyatları üzrə valyuta məzənnəsinin dəyişdirilməsi, 48 saat ərzində ticarət əməliyyatlarına xidmət göstərilməsi üçün tələb olunur.

2. Təcili əməliyyatlar üzrə valyuta mübadiləsi gələcəkdə ticarət sazişlərinin yerinə yetirilməsinə xidmət edir.

Normal valyuta məzənnəsi - milli valyutanın xarici valyutaya nisbətən qiymətidir, İki ölkədə istehsal edilən məhsulların nisbi qiyməti real valyuta məzənnəsini əks etdirir. Yəni real valyuta məzənnəsi bir ölkənin mallarının digər ölkələrini mallarına (əmtəələrinə) dəyişdirilməsini xarakterizə edən nisbətdir:

Müasir dövrdə hər bir ölkədə valyuta məzənnəsinin tənzimlənməsi iqtisadi siyasətin önəmli istiqamətlərindəndir. Valyuta məzənnəsinin yüksəlməsi və aşağı düşməsi, ilk növbədə, həyata keçirilən iqtisadi şəraitə, daha doğrusu, maliyyə şəraitinə uyğun iqtisadi siyasətdən asılıdır. Valyutanın məzənnəsinin digər ölkələrin valyuta məzənnəsinə əsasən aşağı düşməsi devalvasiya adlanır .

Qiymətli kağızlar bazarında adətən qiymətli kağızlar alınıb satılır. Çox zaman iqtisadi ədəbiyyatlarda qiymətli kağızlar bazarı fond bazarları da adlanır. Qiymətli kağızlar bazarının subyektləri əmanətçilər və emitentlərdir. Emitentlər- sənaye müəssisələri, şirkətlər, dövlət ola bilər, qiymətli kağızlar isə emissiyalardır.

Əmtəəçilər gəlir (dividend) əldə etmək üçün qiymətli kağızları satın alan müəssisə və vətəndaşlar hesab olunur. Ümumiyyətlə, qiymətli kağızların iki növü vardır. İlkin və ikinci dərəcəli qiymətli kağızlar. İlkin emissiya bazarında qiymətli kağızlar fond mexanizmi vasitəsi ilə brokerlərə və banklara emissiyalar paylanır. Qiymətli kağızların bölüşdürülməsi zamanı dövlət istiqraz bazarı, bələdiyyə istiq-

raz bazarı , korporativ müəssisələrin səhm bazarı, korporativ istiqraz və veksel bazarı formalaşır.

İkinci dərəcəli qiymətli kağızlar bazarı adətən əvvəllər alqı-satqı əməliyyatlarında iştirak edən qiymətli kağızların təkrar alqı-satqısının həyata keçirildiyi bazarlardır. Daha sonra qiymətli kağızların əsas növləri barəsində də bir neçə kəlmənin qeyd edilməsi məqsədəuyğun olardı. Qiymətli kağızların iki əsas növü vardır. Bunlar səhmlər və istiqrazlardır. Səhmlər iki cür qeydə alınır: adi və imtiyazlı səhmlər. Adi səhm alıcısı bir sıra hüquqlar əldə etmiş olur. İlk növbədə, səhm sahibləri satın aldıqları səhmləri digər şəxslərə sata bilər və yaxud güzəştə gedə bilərlər. Çox nadir hallarda göstərilən səhmdar hüququ məhdudlaşdırıla bilər.

Səhmdar cəmiyyətin öz səhmlərini səhm sahiblərindən satın almaq hüququ vardır. Belə səhmlər iqtisadi ədəbiyyatlarda xəzinədarlıq səhmləri adlanır. Xəzinədarlıq səhmləri real bazar qiymətlərinə deyil, güzəştlərlə səhmdar cəmiyyətlərinin əməkdaşlarına satılır. Səhmdar cəmiyyətin öz səhmlərinin alınmasına marağın bir sıra səbəbləri vardır. Bunlar, ilk növbədə, öz səhmlərinin kursunun qorunması və artırılması üçündür.

Qeyd etmək lazımdır ki, müasir dövrdə maliyyə bazarında ən vacib məsələlər sırasında qiymətli kağızların dəyəri, qiymətləri məsələsidir. Ümumiyyətlə, səhmlərin dəyərinin müəyyənləşdirilməsinin müxtəlif növləri mövcuddur. Bunlar səhmlərin nominal, elan edilmiş, mühasibatlıq və bazar dəyərləridir. Nominal dəyər səhmlər üzərində göstərilmiş dəyərdir. Bu dəyər uçot məqsədləri üçün istifadə olunur. Bir sıra ölkələrdə, məsələn, ABŞ-da səhmlər, nominal dəyərləri səhm üzərində göstərilmədən buraxıla bilər. Belə olan təqdirdə qiymətli kağızların uçotu elan edilmiş dəyərdən istifadə olunmaqla həyata keçirilə bilər.

Maliyyə bazarının müxtəlif alət və mexanizmləri vasitəsi ilə iqtisadi inkişaf proseslərinə ciddi təsir göstərməsi müasir dövrdə birmənalı olaraq iqtisadi ədəbiyyatlarda geniş yayılmış fikirlərdəndir. Qeyd edilən təmayüllərin bariz nümunəsini maliyyə bazarının müxtəlif seqmentlərinin ÜDM-ə olan nisbətlərində müşahidə etmək mümkündür. Məsələn, Azərbaycanda qiymətli kağızlar bazarının həcmi ÜDM-ə nisbəti 1,8%-ə bərabərdir. Lakin müasir dövrdə dünyanın aparıcı dövlətlərində tamamilə fərqli mənzərənin şahidi oluruq. Yuxarıda göstərilən göstəricilər ABŞ-da 98%, Böyük Britaniyada-129%, Yaponiyada-73%-ə bərabərdir.

Rəqəmlərdən də göründüyü kimi. inkişaf etmiş dövlətlərlə müqayisədə respublikamızda qiymətli kağızlar bazarının hələ kifayət qədər inkişaf etməməsini əyani olaraq müşahidə etmək mümkündür. Belə ki, bazar münasibətlərinin üfüqi və şaquli istiqamətlərdə daha da dərinləşməsi üçün hər şeydən öncə qiymətli kağızlar bazarının inkişafına xüsusi diqqət yetrilməlidir. Bunun üçün, ilk növbədə, istehsal sahələrini əhatə edən səhmdar cəmiyyətlərinin yaradılaraq, məqsədyönlü şəkildə onların fəaliyyətlərinə nəzarət artırılmalıdır. Digər tərəfdən nəzərə almaq lazımdır ki, yaddan çıxarmaq qloballaşma şəraitində beynəlxalq şirkətlərin, transmilli korporasiyaların Azərbaycan iqtisadiyyatına getdikcə daha çox nüfuz etmək istəyi və meylləri güclənməkdədir. Belə bir şəraitdə ən münasib variant kimi həmin şirkətlərin bəlli səviyyə və ölçülərdə respublika iqtisadiyyatına təsir göstərə bilmələrinə yol verilə bilər. Bütün bunlar bir şərtlə məqbul sayıla bilər ki, həmin təsirlər əvvəlcədən müəyyənləşdirilmiş hüdud və səviyyələrdən kənara çıxmasın və ancaq respublikada iqtisadi inkişaf proseslərinin getdikcə vüsətlənməsinə xidmət etsin. Birmənalı olaraq demək lazımdır ki, Azərbaycan Respublikasında iqtisadi inkişaf və istehsal proseslərinə milli nəzarətin itirilməsinə heç bir vəchlə yol vermək olmaz. Nəzərə almaq lazımdır ki, xarici kapital getdikcə daha çox respublikada neft sənayesinə nüfuz edə bilmək əzmini nümayiş etdirir.

Azərbaycan Respublikasında həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində qeyd edilən real təhlükələr aradan qaldırılmış, milli iqtisadiyyatın xarici kapitaldan asılılığına yol verilməməsi üçün Azərbaycan hökuməti aparıcı istehsal sahələrində və o cümlədən ölkə iqtisadiyyatının strateji sahələri üzrə səhm paketlərinə nəzarət hüququnu saxlamağa müvəffəq olmuşdur.

Müasir dövrdə maliyyə bazarının alət və mexanizmləri vasitəsi ilə istehsal sahəsi ilə yanaşı, emal və xidmət sahələrində ciddi təsir göstərmək mümkündür. Nümunə üçün qeyd etmək olar ki, ən gəlirli sahələrdən hesab edilən turizm, sanatoriya-kurort və bir sıra digər xidmət sahələrində işgüzar fəallığın artırılması üçün maliyyə vəsaitlərinə olan ehtiyacların məhz maliyyə bazarında təkrar dövriyyədə olan vəsaitlər hesabına təmin edilməsi hər kəsə məlumdur. İqtisadi inki°af proseslərinin bir qədər ləng getdiyi ölkələrdə kreditlər və investisiyalar hər şeydən öncə prioritet sahələrə yönəldilir.

Faktların təhlil edilməsi əsasında müşahidə olunmuşdur ki, 2012-ci ildə kommersiya bankları ticarət və xidmət sektoruna ümumi dəyəri

1194,0 milyon manat həcmində kredit vermişdir və təxmini olaraq bu göstərici bankların verdikləri ümumi kreditlərini 25,5 %-ni təşkil etmişdir.

Bank sistemi və maliyyə bazarının inkişaf etdirilməsi, onların iqtisadiyyatın canlandırılmasına getdikcə daha çox xidmət edə bilməsi üçün kapitalın və istehsal faktorlarının təmərküzləşməsinə ehtiyac vardır. Bunun üçün isə hər şeydən öncə, bazar iqtisadiyyatı münasibətlərinə keçid dövrünün erkən mərhələlərində yaradılan xırda bankların və istehsal müəssisələrinin daha iri maliyyə və istehsal təşkilatlarında birləşərək fəaliyyət göstərməsinə ehtiyac yaranmışdır. Çünki maliyyə kapitalının təmərküzləşməsi daha iri layihələrin reallaşdırılması üçün maliyyə resurslarına olan tələbi qarşılaya bilər. Digər tərəfdən isə istehsal sahələri üzrə ancaq iri və güclü səhmdar şirkətlər qrupu qiymətli kağızlar bazarında emitentlər kimi çıxış edə bilərlər.

## 2. Azərbaycanin maliyyə bazarinin müasir vəziyyəti və onun qiymətləndirilməsi

Ölkədə aparılan uğurlu islahatların umdə vəzifəsi ölkədə maliyyə sabitliyinin yaranmasıdır. Bu işdə valyuta bazarının normal fəaliyyəti mühüm rol oynayır. Belə ki, qloballaşma prosesinin daha da dərinləşməsi, qlobal iqtisadi situasiyanın dayanıqlılıq probleminin mövcudluğu və ölkələrarası qarşılıqlı asılılığın güclənməsi, onsuz da dinamik xarakter daşıyan valyuta bazarının konyunktur problemlərini zaman-zaman kəskinləşdirməkdədir. Eyni zamanda, valyuta ilə bağlı məsələlərin dayanıqlılıq müstəvisində sistemli həlli baxımından güdülən strateji məqsəd, siyasətin əsas konturları və istiqamətləri konkret şəkildə müəyyənləşdirilmişdir.

Ölkədə valyuta münasibətlərinin institusional təminatı, funksional fəaliyyətin məzmunu və təməl prinsipləri qabaqcıl dünya standartları səviyyəsinə çatmaqdadır.

Qeyd etmək lazımdır ki, Mərkəzi Bankın valyuta siyasətini formalaşdırmaq yönümündə müstəqil fəaliyyət yalnız 1996-cı ildən etibarən, yəni unitar dövlət quruculuğunun başa çatması və iqtisadi sabitliyin qərarlaşdığı dövrdən başlayaraq həyata keçirilmişdir.

Respublikada valyuta sisteminin institusional təminatını yaxşılaşdırmaq məqsədilə Bakı Banklararası Valyuta Birjası (BBVB) yaradıldı və 1994-cü ildən etibarən fəaliyyətə başladı. Məhz həmin ildən baş-

layaraq Birjada valyuta hərracları keçirilmiş, ixracatçıların məcburi şəkildə valyuta gəlirlərinin bir hissəsinin satışı daxili bazarın canlanmasına, konyunktur nisbətlərin sabitləşməsinə gətirib çıxardı.

Eyni zamanda, qeyd etmək lazımdır ki, valyuta münasibətləri ilə bağlı 1994-cü ildə qəbul edilmiş "Valyuta tənzimlənməsi haqqında" Qanunun qüvvəyə minməsi ilə hüquqi-normativ bazanın formalaşdırılması yönümündə əsaslı keyfiyyət dəyişikliyinə nail olundu.

Ölkənin maliyyə bazarında ayrı-ayrı aparıcı valyutaların ümumi dövriyyəsinin müqayisəli təhlili bir sıra nüansların aşkarlanmasına imkan vermişdir. İlk növbədə, söhbət Açıq Banklararası Valyuta Bazarında (ABVB) və Mütəşəkkil Banklararası Valyuta Bazarında (MBVB) ABŞ dollarının dinamikasından gedir.

Qeyd etmək lazımdır ki, ABŞ dollarının milli valyuta bazarında dövriyyəsi öz pik səviyyəsinə 2015-ci ildə çatmışdır. Bu da onunla əlaqədardır ki, həmin ildə Mərkəzi Bank özünün valyuta ehtiyatlarının idarəetməsinin yeni strategiyasını hazırlamışdır. Bu strategiyaya əsasən maliyyə alətlərinin diversifikasiyası nəzərdə tutulurdu və ehtiyatların coğrafiyasının genişlənməsini hədəf kimi ortalığa qoymuşdur. Bu hal ABŞ dolları üçün təsirsiz keçməmişdir, çünki xaricdə valyuta əməliyyatlarının sayına müsbət təsir göstərmişdir. Eyni zamanda, carı ildə bu valyuta dövriyyəsinin müəyyən sabitləşməsi və hətta həcmcə azalması müşahidə olunur.

Məlumdur ki, daxili valyuta bazarının valyuta strukturu ilk növbədə ölkənin beynəlxalq öhdəlikləri və eləcə də, tədiyyə balansının tələblərinə adekvat olaraq formalaşır. Əsas məqsəd makroiqtisadi sabitliyin təminatı, qlobal maliyyə böhranının dağıdıcı təsirinin neytrallaşdırılması, ölkənin valyuta ehtiyatlarının dəyərcə artırılmasıdır. Buna görə də investisiya əsasən ABŞ dolları, avro və ingilis funtsterliqində həyata keçirilir.

Valyuta bazarının normal fəaliyyətinin təminatı nöqteyi-nəzərindən milli valyuta ilə baş verən məzənnə dəyişikliyi mühüm amillər sırasına aiddir.

Qeyd etmək lazımdır ki, valyutanın məzənnə dəyişikliyi bütövlükdə iqtisadi prosesə, ələlxüsus xarici iqtisadi əlaqələrə güclü təsir göstərir. Məsələn, manatın (digər şərtlərin dəyişməzliyi halında) başqa valyutalarla müqayisədə bahalaşması "Holland xəstəliyi"nin mövcud olmasının göstəricisi kimi qəbul edilə bilər. Belə ki, ölkənin pul vahidi digər valyutalara nisbətən bahalaşdıqda, ixrac edilən mallara dəyəri di-

gər valyutalar baxımından yüksəlir. İdxal edilən malların qiymətləri isə yerli valyuta baxımından ucuzlaşır. Bu isə o deməkdir ki, ixrac daha bahalı, idxal isə daha ucuz olur. Belə hal öz növbəsində, ölkədə istehsal edilən malların daxili və xarici bazarda rəqabət qabiliyyətinin azalmasının göstəricisidir. Belə vəziyyətin yaranması isə ölkə daxilində istehsal edilən mallara müxtəlif cür təsir göstərə bilər. Belə ki, aşağı məhsuldarlıqla istehsal edilən və çox aşağı mənfəət səviyyəsinə malik olan mallar daxili və xarici ucuz mallarla rəqabətə girə bilməyəcək, qiymətini aşağı saldıqda isə gəlir səviyyəsi aşağı enəcək və nəticə etibarilə ziyanlı olacaqdır. Son nəticədə isə belə malların istehsalı ya azala bilər, ya da tamamilə dayandırıla bilər. Məhz bu mənada mübadilə məzənnəsinin dəyişməsi makroiqtisadi səviyyədə rəqabətliliyin göstəricisi kimi çıxış edir.

Manatın məzənnəsi ilə bağlı xronoloji ardıcıllıqla apardığımız araşdırmalar göstərir ki, proseslərin ilkin başlanğıcında (1994-cü il) dollara münasibətdə 12 dəfə, cəmi bir il sonra – 1995-ci ildə 3,6% devalvasiya baş vermişdir. 1996-cı ildən etibarən manatın bahalaşması müşahidə edilməkdədir. Sabitləşdirici tempi saxlamaq məqsədi ilə 1998-ci ildən etibarən milli valyutanın – manatın məzənnə siyasəti qlobal iqtisadi proseslərdə müşahidə edilən meyil və təmayüllərə istinadla formalaşdırılmağa başlamışdır. Belə bir faktı göstərmək lazımdır ki, 2015-ci ilin əvvəlində isə Azərbaycanda manatın dəyərinin kəskin şəkildə aşağı düşməsi baş verdi ki, bu da öz güclü təsirini göstərdi.

Bu baxımdan milli valyutanın məzənnəsinin sabitləşdirilməsi yönümündə proqram xarakterli tədbirlər kompleksi həyata keçirilməyə başlandı. Bununla əlaqədar olaraq, Mərkəzi Bank və Bakı Banklararası Valyuta Birjasının valyuta müdaxilələri azalmağa başladı.

Qeyd etmək lazımdır ki, hal-hazırda Azərbaycanın birjalarında tələb və təklifdən asılı olaraq milli valyutanın sərbəst məzənnəsi müəyyənləşir, eyni zamanda manatın rəsmi məzənnəsinin heç bir xarici valyutaya və valyuta səbətinə istinad etmədən birbaşa kotirovkası aparılır.

Son dövrün hadisələri göstərir ki, son dövrlərdə Mərkəzi Bankın apardığı valyuta siyasətinin məntiqi nəticəsi olaraq manata olan etibarın dərəcəsi hissediləcək dərəcədə azalmışdır.

Beləliklə, real valyuta məzənnəsi və real məzənnə siyasətinin birmənalı olaraq umumiqtisadi konyunkturada və dövlət büdcəsinin məcmu gəlirlərində əks olunduğunu, eyni zamanda, "Holland xəstəliyinin" real məzənnə ilə büdcənin gəlir və xərcləri arasındakı əlaqədən "qidalandığını"

nəzərə alsaq, onda belə bir qənaətə gələ bilərik ki, real məzənnənin aşağı salınması qeyri-neft sektorunun inkişafına, onun həm ölkədaxili, həm də xarici iqtisadi məkanda rəqabətqabiliyyətliliyinin yüksəlməsinə müsbət təsir göstərməklə, gəlir vergilərinin və ƏDV-nin artımı hesabına dövlət büdcəsinin gəlirlərinin çoxalmasına şərait yaradacaqdır.

Respublikada maliyyə bazarının normal fəaliyyət göstərməsində qiymətli kağızlar bazarı mühüm rol oynayır.

Qiymətli kağızlar bazarı kapitalın təmərküzləşməsi və mərkəzləşdirilməsini də əhatə etməklə kapital yığımının gerçəkləşməsini, onun artımını, ümumiyyətlə, mövcud kapital resurslarının tam şəkildə iqtisadi dövriyyəyə daxil edilməsi və ayrı-ayrı fəaliyyət sferaları üzrə bölüşdürülməsini təmin eməklə ölkə iqtisadiyyatının sabitqədəmli, proporsional (zərər-mənfəət qarşılaşdırılması aspektindən) inkişafına əlverişli şərait yaradır. Ölkədə, müəyyən sferalarda sərbəst pul vəsaitlərinin mövcudluğu ilə paralel olaraq digər sferalarda vəsait çatışmazlığı natarazlığının aradan qaldırılmasında qiymətli kağızlar bazarı mühüm rol oynayır. Başqa sözlə, qiymətli kağızlar bazarı dövlət büdcəsi və banklarla birlikdə maliyyələşmə mənbəyi kimi çıxış edir.

Azərbaycan Respublikasında qiymətli kağızlar bazarı, peşəkarlar zümrəsinin zəif inkişaf etməsi, ənənələrin və sabit iş metodlarının təzə-təzə təşəkkül tapmağa başlaması səbəbindən qiymətli kağızlar bazarının idarəedici yarımsistemində əsas rolu oynayırdı. Ölkədə qiymətli kağızlar bazarının baş əlaqələndirici orqanı kimi Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) müəyyən edilmişdir (Azərbaycan Respublikası Prezidentinin 26 iyun 1999-cu il tarixli Fərmanına əsasən). Prezidentin Fərmanına əsasən, bu komitə qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən qiymətli kağızlar bazarında, digər mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə münasibətdə üstün səlahiyyətə malikdir və bu sahədə onların fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi qiymətli kağızlarla fəaliyyət sahəsində, o cümlədən qiymətli kağızlar bazarında dövlət siyasətinin işlənib hazırlanmasını və onun həyata keçirilməsini, dövlət idarəetməsini və tənzimlənməsini, nəzarətin təmin edilməsini, qiymətli kağızlar bazarının təşkili və inkişaf etdirilməsini, əlverişli investisiya mühitinin yaradılmasını, qiymətli kağızlar bazarında emitentlərin, peşəkar iştirakçıların, fond birjalarının fəaliyyəti üzərində nəzarətin təmin edilməsini həyata keçirir.

Bundan başqa, qiymətlı kağızlar bazarında sağlam rəqabət mühitinin yaradılması və qiymətli kağızlar bazarının iştirakçılarının, o cümlədən investorların, səhmdarların və digər qiymətli kağızların sahiblərinin hüquqlarının müdafiəsini təmin edir.

QKDK ilə paralel olaraq, Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının tənzimlənməsi prosesində ölkənin Mərkəzi Bankı da yaxından iştirak edir. Belə ki, Mərkəzi Bank (MB) kommersiya banklarına qiymətli kağızlar bazarında fəaliyyət hüququ verir və bu fəaliyyətə nəzarət edir. Həmçinin MB dövlət qiymətli kağızlarının yerləşdirilməsi üzrə baş agent kimi çıxış edir. Amma ölkədə bu qiymətli kağızların buraxılışına, tam həcmdə və vaxtında geri alınmasına görə məsuliyyət Maliyyə Nazirliyinin üzərinə düşür. Bundan əlavə, qeyd edək ki, bələdiyyə qiymətli kağızlarının buraxılışı haqqında qərar "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununa və bələdiyyələrin nizamnamələrinə müvafiq qəbul olunur, buraxılışın tənzimlənməsi isə QKDK tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının dövlət tənzimlənməsindən danışarkən, ilk növbədə qeyd etmək lazımdır ki, bu tənzimlənmə dünya təcrübəsinə oxşardır. Belə ki, bizim respublikada da qiymətli kağızlar bazarının dövlət tənzimiənməsi: a) xüsusi normativ-hüquqi aktların hazırlanması və həyata keçirilməsi; b) standartların, xüsusi tələblərin hazırlanması və c) əsas qaydaların nizamlanması və bazar iştirakçıları tərəfindən mövcud qanunvericiliyə riayət olunmasına nəzarət etmək kimi əsas məsələləri özündə cəmləyir. Lakin məsələyə daha detallı yanaşdıqda aydın olur ki, ölkəmizdə hal-hazırda mövcud olan normativ-hüquqi baza nə kəmiyyət, və də keyfiyyət baxımından mütərəqqi dünya təcrübəsi ilə bir sıraya gəlmək iqtidarında deyildir.

Aydındır ki, hər bir cəmiyyətdə qiymətli kağızlar bazarının xüsusi dövlət orqanları vasitəsilə tənzimləməsi ilə paralel olaraq, həmin bazarın özünütənzimləmə təşkilatları da olur. Bu cür təşkilatların respublikamızda xarakteristikası öz rəsmi əksini "Qiymətli kağızlar haqqında" Azərbaycan Respublikasının Qanununda (maddə 4) tapmış və sonralar, daha dəqiq desək, 24 mart 2000-ci ildə QKDK tərəfindən "Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının öz-özünü tənzimləyən təşkilatlarının fəailyyəti qaydaları" qəbul olunmuşdur. Lakin bütün bu qeyd edilənlərə baxmayaraq, indiyə kimi Azərbaycan Respublikasında qiymətli kağızlar bazarı sistemində özünütənzimləmə təşkilatları fəallaşmamışdır.

Eyni zamanda ölkədə özəlləşdirmənin başlanğıcı, respublikada ixtisaslı kadrların olmadığı bir şəraitdə həyata keçirilmişdir. Həmçinin, bu dövrdə respublikada dövlət əmlakının özəlləşdirilməsi üçün zəruri olan maliyyə ehtiyatları praktiki olaraq yox idi.

1995-1998-ci illərdə Azərbaycan Respublikasında Dövlət mülkiyyətinin özəlləşdirilməsinin birinci Proqramı qəbul edildi və 1120 saylı 29 sentyabr l995-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edildi. Bu proqramda özəlləşdirmənin müddəti və mərhələləri, məqsədləri, əsas vəzifələri, prioritetləri, özəlləşdirilən müəssisə və obyektlərin təsnifatı, onların səhmdar cəmiyyətə çevrilmələri, səhmləşdirmənin konkret variantları, özəlləşdirmədən daxil olan vəsaitlərin istifadə qaydaları, özəlləşdirmə çeklərinin verilmə şərtləri və miqdarı, onlardan istifadə qaydaları və s. məsələlər öz əksini tapmışdır.

Birinci dövlət proqramına uyğun olaraq, 1996-cı ilin avqust ayının 1-dən oktyabr ayının 1-dək respublika əhalisinə 32 mln. çek və ya 8 mln. özəlləşdirmə payı paylanılmışdır. Birinci özəlləşdirmə proqramının 29 sentyabr 1995-ci il tarixli Qanun ilə təsdiq olunmasına baxmayaraq, kiçik müəssisələrin kütləvi özəlləşdirilməsi ölkədə 26 mart 1996-cı ildə yanacaqdoldurma stansiyalarından (YDS-dən) başlandı. Həmin gün respublikada fəaliyyətdə olan 696, o cümlədən Bakıda 156 YDS-dən 5-nin satışı üzrə ilk auksion keçirildi. Dövlət mülkiyyətinin özəlləşdiriməsi Proqramında isə 25000 kiçik müəssisə və obyektlərin özəlləşdirilməsi nəzərdə tutulmuşdur. 1999-cu ilin əvvəlində faktiki olaraq, 20 mindən çox müəssisə və obyekt özəlləşdirilmişdir.

Orta və iri müəssisələrin özəlləşdirilməsinə gəldikdə isə özəlləşdirmənin Dövlət Proqramına uyğun olaraq, özəlləşdirməyə 4500 orta və iri müəssisə cəlb olunmuşdur. Lakin Proqramda göstərildiyi kimi, özəlləşdirilən orta və iri müəssisələr əvvəlcə səhmdar cəmiyyətinə çevrilirlər. Yaradılan səhmdar cəmiyyətlərin səhmlərinin bir hissəsi cəmiyyətin işçilərinə qapalı abunə üzrə, qalan hissə isə çek və pul auksionlarında satılır.

Beləliklə, Birinci Proqram ilə Azərbaycan Respublikasında keçirilən dövlət mülkiyyətinin özəlləşdirilməsinin ilkin mərhələsi başa çatdı. Onun ardınca ikinci özəlləşdirmə proqramı çərçivəsində ölkədə əsasən rabitə, nəqliyyat, kimya, maşınqayırma, yanacaq-energetika kompleksinin müəssisələri özəlləşməyə açılmağa başladı. Qeyd edilən proqram indi də özünün reallaşma mərhələsindədir.

Qeyd etmək lazımdır ki, 1995-2008-ci illər arasında qiymətli kağızlar bazarının fəaliyyəti və tənzimlənməsi istiqamətində fəaliyyət davam etdirilmiş, institusional təminatın yaxşılaşdırılması yönümündə müəyyən irəliləyişlər əldə olunmuş, Bakı Fond Birjası yaradılmış, Milli Depozit Mərkəzi yenidən təşkil edilmişdir. Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının əsas inkişaf istiqamətləri qiymətli kağızlar bazarının inkişafı Proqramında (bu proqram QKDK tərəfindən 7 avqust 2000-ci ildə təsdiq edilmişdir) müəyyən edilib. Proqramda əsas diqqət qiymətli kağızlar bazarının əsasını təşkil edən infrastrukturun yaradılmasına yönəlib. Burada həmçinin normativ-hüquqi aktların hazırlanması, onları beynəlxalq standartlara uyğun olması və qiymətli kağızlar bazarının professional iştirakçılarının (brokerlərin, dilerlərin, depozitar mərkəzlərin, fond birjalarının və s.) fəallaşdırılması nəzərə alınıb.

Hal-hazırda qiymətli kağızlar bazarının inkişafı üçün Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi (QKDK) tərəfindən broker fəaliyyətinə 16 lisenziya verilib. Bundan başqa, diler fəaliyyətinə - 15, depozitar fəaliyyətinə - 3, reyestr aparmaq fəaliyyətinə - 2, klirinq və birja fəaliyyətinə - 2 lisenziya verilmişdir.

Buna baxmayaraq, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında qiymətli kağızlar bazarı hələ ilk mərhələdədir. Onu bu gün dörd sektora bölmək olar: dövlət qiymətli kağızlar bazarı, veksellər və borc öhdəlikləri bazarı, opsion və özəlləşdirmə payları bazarı, korporativ qiymətli kağızlar bazarı. Lakin fond bazarının ən inkişaf etmiş seqmentlərindən (onun təşkil olunması baxımından) biri - dövlət qiymətli istiqraz vərəqələri (DQİV) ilə səciyyələndirilir.

Hal-hazırda, Azərbaycanda qiymətli kağızlar bazarı təkcə DQİV ilə xarakterizə olunmur, həmçinin digər qiymətli kağızlarla da, o cümlədən Daxili Uduşlu İstiqraz Vərəqələri ilə (DUİV) də səciyyələnir. Belə ki, dövlət illər boyu əhalidən DUİV vasitəsilə borc pul götürməyi özü üçün əlverişli hesab etmişdir. Lakin bu əhali üçün vəsaitlərin əlverişli yerləşdirilməsinə çevrilməmişdir.

1993-cü ildə DUİV-nin heç də uğurlu olmayan buraxılışı buna əyani sübutdur. O vaxt dövlət DUİV-i 10 il müddətinə 3.5 mird. manat dəyərində buraxmışdır, yəni 2002-ci ilə qədər ümumi buraxılış məbləğindən uduş fondu 15% təşkil etməli idi. Onların nominal qiyməti 250, 500 və 1000 manat arasında diferensasiya edilmişdir.

90-cı illərin ortalarında müşahidə olunan inflyasiya prosesi ilə əlaqədar istiqrazlar üzrə illik faiz əvvəlcə müəyyən olunmuş 9% həcmindən 15%-ə qədər artırılmış, sonradan bu rəqəm 33%-ə çatmışdır.

Daha sonralar, yəni 2001-ci ildən etibarən dövriyyəyə yeni DUİV-lər (onillik) buraxıldı. Qeyd etmək lazımdır ki, bu istiqrazların ümumi, uduş məbləği əvvəlkilərdən fərqli olaraq ilk 12% dərəcəsində planlaşdırılmış və bu istiqrazların 40%-i uduşlu hesab edilmişdir.

Qeyd etmək lazımdır ki, son dövrlər ölkənin qiymətli kağızlar bazarında dövlət istiqrazları ilə paralel olaraq bir sıra kommersiya strukturlarının istiqrazları da buraxılır ki, bu da ölkədə qiymətli kağızlar bazarnın müasir dünya tələbləri çərçivəsində formalaşmasına və inkişaf etməsinə xidmət edir.

**Azərbaycanda qiymətli kağızlar bazarının göstəriciləri**

| Qiymətli kağızların növləri | 2014-cü il Yanvar-Noyabr | | 2013-cü il Yanvar-Noyabr | | Məbləğ üzrə fərq (%) |
|---|---|---|---|---|---|
| | Əqdlərin sayı | Məbləğ (AZN) | Əqdlərin sayı | Məbləğ (AZN) | |
| Korporativ qiymətli kağızlar | 2 575 | 1 857 354 820 | 2 049 | 449 647 540 | 4,1 dəfə |
| Səhmlər | 2 418 | 733 307 936 | 1 948 | 206 511 905 | 3,6 dəfə |
| Səhmlər (ilkin bazar) | 535 | 719 397 980 | 157 | 154 570 589 | 4,7 dəfə |
| Səhmlər (təkrar bazar) | 1 883 | 13 909 956 | 1 791 | 51 941 316 | -73% |
| Korporativ istiqrazlar | 157 | 1 124 046 885 | 101 | 243 135 634 | 4,6 dəfə |
| Korporativ istiqrazlar – AZN (ilkin bazar) | 41 | 64 982 940 | 41 | 137 167 836 | -53% |
| Korporativ istiqrazlar - USD (ilkin bazar) | 2 | 728 867 503 | 2 | 27 854 297 | - |
| Korporativ istiqrazlar - EUR (ilkin bazar) | - | - | - | - | - |
| Korporativ istiqrazlar – AZN (təkrar bazar) | 114 | 330 196 441 | 58 | 78 113 501 | 4,2 dəfə |

| | | | | | |
|---|---|---|---|---|---|
| Korporativ istiqrazlar - USD (təkrar bazar) | - | - | - | - | - |
| Korporativ istiqrazlar - EUR (təkrar bazar) | - | - | - | - | - |
| Dövlət qiymətli kağızları | 362 | 3 958 802 548 | 263 | 2 207 227 689 | 79% |
| Dövlət istiqrazları | 23 | 54 822 798 | 20 | 37 471 871 | 46% |
| Dövlət istiqrazları (ilkin bazar) | 15 | 44 097 097 | 17 | 28 538 243 | 55% |
| Dövlət istiqrazları (təkrar bazar) | 8 | 10 725 701 | 3 | 8 933 628 | 20% |
| Mərkəzi Bankın notları | 54 | 392 739 283 | 67 | 208 903 038 | 88% |
| Mərkəzi Bankın notları (ilkin bazar) | 33 | 99 923 373 | 63 | 164 947 426 | -39% |
| Mərkəzi Bankın notları (təkrar bazar) | 21 | 292 815 909 | 4 | 43 955 612 | 6,7 dəfə |
| Repo/əks-repo | 285 | 3 511 240 468 | 176 | 1 960 852 781 | 79% |
| Korporativ istiqrazlar (repo/əks-repo) | 34 | 163 171 685 | - | - | - |
| Dövlət istiqrazları (repo/əks-repo) | 2 | 2 005 474 | 8 | 11 189 639 | -82% |
| Mərkəzi Bankın notları (repo/ əks-repo) | 249 | 3 346 063 308 | 168 | 1 949 663 142 | 72% |
| Qiymətli kağızlar bazarı | 2 937 | 5 816 157 368 | 2 312 | 2 656 875 229 | 2,2 dəfə |

Son dövrdə qiymətli kağızların həcmi 2,3 dəfə artmış, eyni zamanda 1,25 mlrd. manatlıq avro istiqrazları xarici bazarlarda yerləşdirilmişdir.

Qeyd edilən təmayül bütünlüklə repo/əks-repo əməliyyatlarına da aid edilə bilər. Belə ki, bu dövr ərzində sözügedən əməliyyatların həcmi (mütləq ölçüdə cüzi olsa da – cəmi 3,3 mln. manat) 2,4 dəfə artmışdır.

Beləliklə, qiymətli kağızlar bazarının əsas funksiyaları və onların Azərbaycan Respublikasında reallaşması mexanizmi mövcud gerçəkliklərinin tədqiqi bir sıra qənaətlərə gəlməyə imkan verir: Bazar iqtisadiyyatı şəraitində qiymətli kağızlar bazarının bir sıra köməkçi funksiyaları da vardı. Qiymətli kağızlar bazarının bu istiqamətdə olan köməkçi funksiyalarına qiymətli kağızların özəlləşmə prosesində, antiböhran idarəetməsində, iqtisadiyyatın restrukturizasiyasında, pul tədavülünün sabitləşdirilməsində, antiinflyasiya siyasətində tətbiqi ilə bağlıdır.

Azərbaycanda qiymətli kağızlar bazarının digər bir problemi dövlət qiymətli kağızlar üzrə zəmanət sisteminin natamam formalaşmasıdır. Belə ki, bu problem ölkədə qiymətli kağızlarından özəl şirkətlərin kreditləşməsi prosesində girov kimi istifadə edilməsinə imkan verilir. Həmçinin bu amil də öz növbəsində ölkədə əsasən fiskal məqsədlərdən çıxış edərək istifadə edilən qiymətli kağızların beynəlxalq təcrübəyə əsasən fond bazarlarında daşıdıqları bütün funksiyaların fonunda hərtərəfli maliyyə aləti kimi istifadə edilməsinə çətinlik yaradır.

Bu gün ölkənin qiymətli kağızlar bazarında problemli məsələlərdən biri də bazarda alqı-satqı obyekti olan qiymətli kağızların diversifikasiyası sisteminin qeyri-bərabər formalaşması ilə bağlıdır. Belə ki, beynəlxalq təcrübədə çox geniş yayılmış qiymətli kağız növü olan veksellər respublikada olan bütün debitor borclarının çox az bir hissəsini təşkil edir və onların qiymətli kağızlar bazarındakı dövriyyəsi hələ də inkişaf etməmişdir. Həmçinin real sektorda fəaliyyət göstərən müəssisə və təşkilatların bir çoxunun qiymətli kağızlarının olmaması və ya onların qiymətli kağızlar bazarında iştirak etməməsi də Azərbaycan Respublikasının qiymətli kağızlar bazarında alqı-satqı obyekti olan qiymətli kağızların diversifikasiyasının geniş olmamasını sübut edir.

Hazırkı şəraitdə Azərbaycan Respublikasında qiymətli kağızların böyük hissəsinin alqı-satqısının birjadankənar bazarların payına düşməsi də milli qiymətli kağızlar bazarının bu istiqamətdə beynəlxalq iqtisadi inkişafdan və inteqrasiyadan kənarda qalmasına stimul verir. Həmçinin bu proses özü-özlüyündə qiymətin əmələ gəlməsində bazar xarakteri daşımır. Buna görə də qiymətli kağızların sağlam kotirovkası həyata keçirilmir.

Ölkədə fəaliyyət göstərən Bakı Fond Birjasında səhmləri ticarət dövriyyəsində olan emitentlər haqqında məlumat sisteminin formalaşma-

sının təmin edilməməsi də qiymətli kağızlar bazarının problemlərindəndir. Aydın məsələdir ki, bu problem investorlara bu müəssisələrin maliyyə-təsərrüfat fəaliyyəti haqqında ətraflı məlumatların əldə edilməsinə imkan verir. Həmçinin, bütün fond birjaları üçün xarakterik olan və birja fəaliyyətində əsas vəzifə kimi təsbit edilən bu məlumat sisteminin olmaması son nəticədə qiymətli kağızların tələb amilinə təsir göstərir.

Hazırkı dövrdə bir sıra iri səhmdar cəmiyyətlər mövcuddur ki, onların səhmləri nə satılır, nə də alınır. Belə səhmdar cəmiyyətlərin səhmləri yalnız özləri arasında bölüşdürülür. Yəni formalaşan qiymətli kağızlar bazarının fəaliyyətində bir növ bazardankənar, gizlin əməliyyatlar həyata keçirilir ki, bu da təkcə qiymətli kağızlar bazarının fəaliyyətinə deyil, həmçinin də iqtisadiyyatda sağlam rəqabət mühitinin formalaşmasına mənfi təsir etmiş olur. Digər tərəfdən, hər il dövlət müəssisələrindən səhmdar cəmiyyətlərə çevirlməsi nəzərdə tutulanlar üçün dövlət tərəfindən (İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən) keçirilən hərraclarda da bu proses yaşanır. Yəni bu hərraclarda tam sərbəst olaraq, iştirak etmək hüququna malik olan və özəlləşdirilən müəssisələrdə müəyyən paya sahib olmaq üçün çek özəlləşdirmə paylları təqdim edən fiziki və hüquqi şəxslərə süni maneələr yaradır. Bu cür maneələrdə əsas məqsəd məhz özəlləşdirilən müəssisələrdə nəzərdə tutulmayan şəxsin iştirakını təmin etməməkdir.

Azərbaycan Respublikasında qiymətli kağızlar bazarında digər bir problem dövlət istiqraz vərəqələri ilə bağlıdır. Belə ki, bu sahədə əsas çatışmazlıqlardan biri kimi, DQİV-lər üzrə təkrar hərracların hələ ki, formalaşmamasını qeyd etmək olar.

Maliyyə bazarının digər seqmentlərində - valyuta bazarı və qiymətli kağızlar bazarı – üzə çıxan inkişaf təmayülləri, problematik xarakter daşıyan aspektlər və ümumiyyətlə, makroiqtisadi tənzimləmə mexanizminin əsas səciyyəvi cəhətləri kredit bazarı üçün də əhəmiyyətlidir. Vahid istiqamətə (maliyyə) xidmət edən seqmentlər arasında analogiyanın mövcudluğu, dəyişikliklərin ana xətti yönümündə üst-üstə düşən məqamların ortalığa çıxması, əslində iqtisadi prosesin daxili məntiqindən "qidalanan" və yekun etibarı ilə təbii xassə daşıyan nüanslar sırasındadır.

Ölkədə kredit bazarının təşkili, fəaliyyət mexanizmi və institusional təminatı aspektindən fərqli məzmun daşıyan, yalnız kredit bazarının özünəxas spesifik xüsusiyyətləri də mövcuddur.

Azərbaycan Respublikasında kredit bazarının tənzimlənməsi sisteminə həm institusional, həm iqtisadi və həm də hüquqi istiqamətdə nəzər saldıqda məlum olur ki, bunların demək olar ki, hamısı kompleks halında ölkənin bank sistemində cəmlənir. Çünki məhz bank sistemi ölkədə kredit münasibətlərini tənzimləyir, kreditiərin start və sonrakı faizlərini müəyyən edir, bazarda kreditin təklif edəni, bəzən isə tələb edəni və s. rolunda çıxış edir. Kredit bazarının institusional tənzimlənməsi sahəsində ölkənin bank sisteminin iki əsas qrupunu fərqləndirmək lazımdır.

Birincisi, Azərbaycan Respublikası Mərkəzi Bankı ölkədə pul-kredit siyasətinin işlənməsi və həyata keçirilməsi; sonuncu instansiyalı kreditor rolunun yerinə yetirilməsi, kommersiya banklarının fəaliyyəti üzərində nəzarət və s. kimi funksiyaları yerinə yetirməklə kredit bazarının ən operativ və yuxarı instansiyalı tənzimləyicisi sayılır.

Ölkədə kredit bazarının hüquqi tənzimlənmə mexanizmindən danışdıqda ilk növbədə, həmin bazarın institusional tənzimlənmə obyektlərinin hüquqi-normativ bazasını nəzərdə tutmaq lazımdır. Belə ki, Azərbaycanda kredit bazarının əsas tənzimləyici institutu olan Mərkəzi Bank əsasən Azərbaycan Respublikasının Konstitusiyası və "Mərkəzi Bank haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Qeyd edək ki, 1993-cü ilin fevral ayının 10-da yeni redaktədə qəbul olunmuş "Mərkəzi Bank haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Mərkəzi Bankın müstəqillik statusu möhkəmləndirilmişdir. Lakin daha sonralar ölkənin maliyyə bazarında və ümumilikdə iqtisadi vəziyyətində baş verən dəyişikliklər və yeni sosial-iqtisadi şərait bu qanunun təkmilləşdirilməsini tələb etdi. Buna görə də müvafiq qanun 10 iyun 1996-cı ildə müəyyən əlavə və dəyişikliklərə məruz qalaraq yenidən qəbul edildi. Bu mərhələdən başlayaraq Mərkəzi Banka ölkənin maliyyə-kredit sektorunda daha geniş səlahiyyətlər verildi və o yalnız ölkə başçısına hesabat verən struktura çevrildi (əvvəl Mərkəzi Bank Parlamentə hesabat verirdi). Bu mərhələdə ölkənin xarakterik spesifikliyi kimi, kredit və qeyri-kredit təşkilatlarının dövlət qeydiyyatına alınması müəyyən edildi. 2000-ci ildə isə "Kredit birlikləri haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu.

Digər bir hüquqi normativ akt 1992-ci ildə qəbul edilmiş "Banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu-

dur. Bu qanun kredit təşkilatlarına lisenziyalarda müəyyən edilən hüdudlarda bir sıra hüquq və vəzifələr verir ki, bunların da böyük əksəriyyəti ölkədə kredit münasibətlərinin tənzimlənməsi, kredit bazarında iştirak və s. ilə bağlıdır. Qeyd edək ki, müvafiq qanun da 1996-cı ildə müəyyən dəyişikliklərlə yenidən qəbul edildi.

Son illər kredit bazarının da tənzimlənməsinin təkmilləşdiriməsi məqsədilə innovativ bazanın gücləndirilməsi işi aparılmışdır. Belə ki, 2001-cı ildən başlayaraq, o vaxtdaki Mərkəzi Bank tərəfindən kreditlərin verilməsini tənzimləyən yeni qaydalar qəbul oluımuş və bu qaydalarda lombard və overrayt kreditlərinin verilməsi nəzərdə tutulmuşdur. Həmin dövrdə Azərbaycan üçün yeni olan bu müasir maliyyə vəsaitləri yüksəktəminatlı kredit bazarının yaradıması ilə yanaşı, eyni zamanda bankların qısamüddətli likvidliyə ehtiyacını ödəməyə və dövlət qiymətli kağızlar bazarının inkişafını stimullaşdırmağa xidmət etmişdir.

2001-ci ildən başlayaraq Mərkəzi Bank mütəşəkkil banklararası kredit bazarının təkmilləşdiriməsi sahəsində də bir sıra addımlar atmağa başlamışdır. Qeyd edilən ildə mütəşəkkil banklararası kredit bazarında maliyyə resurslarının sərbəst hərəkətinin təmin edilməsi məqsədilə müvafiq infrastrukturun yaradılması üçün mühüm işlər görülmüşdür.

Ölkənin kredit bazarının tənzimlənməsi sahəsində ən son dəyişikliklər sırasında ölkədə bank sistemini tənzimləyən qanunların dəyişikliklərə məruz qalmasını qeyd etmək olar. Belə ki, 2004-cü ildə "Banklar haqqında" və "Milli Bank haqqında" növbəti qanunların qəbul edilməsi ölkənin kredit bazarında, maliyyə-kredit münasibətlərində və bank sistemində yeni bir mərhələnin başlamasından xəbər verirdi. Əsas yenilik kredit təşkilatlarının yaradılması və ləğv edilməsi ilə bağlı prosedurların təkmilləşdirilməsi idi. "Banklar haqqında" yeni Qanun Azərbaycan Respublikasında bank sisteminin hüquqi bazasının beynəlxalq standartlara daha da uyğunlaşdırıması, iqtisadiyyatda bank xidmətlərinin rolunun artırılması, bank əmanətçılərinin və kreditorlarının müdafiəsinin gücləndirilməsi və bütövlükdə maliyyə-kredit sisteminin, maliyyə bazarının stabil və təhlükəsiz fəaliyyətinin təmin edilməsi məqsədilə bankların təşkili, daxili idarə edilməsi, fəaliyyətinin tənzimlənməsi və ləğv edilməsi prinsiplərini, qaydalarını və normalarını müəyyən etdi.

Ölkənin kredit bazarında bankların xüsusi rolu əsasən onların təsərrüfat subyektlərinə və əhaliyə verdiyi kreditlərlə ölçülür. Bu gün ölkədə fəaliyyət göstərən banklar (kommersiya və əmanət bankları) müxtəlif sahələr üzrə və şəxslər (fiziki və hüquqi) üçün qısa və uzunmüddətli kreditlər verirlər.

**Azərbaycan Respublikasında iqtisadiyyata kredit qoyuluşları (ilin axırına mln. manatla)**

| İqtisadiyyata kredit qoyuluşları | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|
| Onlardan: qısamüddətli | 2295,9 | 2359,9 | 2567,1 | 2951,2 | 3508,3 |
| Yekuna görə, faizlə | 32.0 | 28.0 | 28.0 | 30.0 | 28.6 |
| uzunmüddətli | 4895,4 | 6047,6 | 6596,3 | 6899,1 | 8735,4 |
| Yekuna görə, faizlə | 68.0 | 72.0 | 72.0 | 70.0 | 71.4 |

Beləliklə, iqtisadiyyata qoyulmuş həm qısamüddətli, həm uzunmüddətli kreditlər 2008-ci illə müqayisədə nominal həcmdə artmış və 2012-cü ildə bu məbləğ 12 mlrd. manata yaxınlaşmışdır. Eyni zamanda, ölkə iqtisadiyyatına qoyulan kreditlərin kəmiyyət ifadəsilə yanaşı, keyfiyyət ifadəsində də müsbət dəyişikliklər baş vermişdir. Belə ki, cədvəldən göründüyü kimi, ümumi kredit qoyuluşlarının həcmində uzunmüddətli kreditlərin payı 2008-ci ildəki 68.0 %-dən 2012-cü ildə 71.4 % səviyyəsinə çatmışdır. Uzunmüddətli kreditlərin ümumi kredit qoyuluşlarındakı payının get-gedə yüksək paya malik olması, bir daha ölkədə kredit bazarlarında əlverişli mühitin formalaşması, maliyyə-kredit sisteminin sağlamlaşması, investisiya mühitinin yaxşılaşması və s. kimi müsbət tendensiyalardan xəbər verir.

Tədqiqatın materialları göstərir ki, son 10 il (2003-2013) ərzində ölkə iqtisadiyyatına kredit qoyuluşlarının sahələr üzrə artım tempi yuxarıda rast gəlinən nəticənin əyani sübutu kimi qəbul edilə bilər.

## Sahələr üzrə kredit qoyuluşlarının dinamikası (milyon manat)

| | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi kredit qoyuluşları | 670,3 | 989,6 | 1441,0 | 2362,7 | 4681,8 | 7191,3 | 8407,5 | 9163,4 | 9850,3 | 12243,7 | 15422,9 |
| **O cümlədən** | | | | | | | | | | | |
| Ticarət və xidmət sektoru | 112,5 | 217,6 | 361,0 | 647,2 | 1194,0 | 1911,3 | 1834,0 | 2206,8 | 2744,4 | 2649,3 | 2219,9 |
| Energetika, kimya və təbii ehtiyatlar sektoru | 38,9 | 24,4 | 141,4 | 92,2 | 302,0 | 855,7 | 1522,0 | 984,0 | 289,7 | 396,7 | 288,2 |
| Kənd təsərrü-fatı və emal | 30,2 | 56,2 | 97,6 | 136,5 | 197,2 | 261,5 | 394,8 | 441,3 | 466,7 | 546,2 | 733,3 |
| Inşaat və əmlak | 30,3 | 46,4 | 82,2 | 152,5 | 312,3 | 461,4 | 576,5 | 660,6 | 875,3 | 1270,3 | 2362,6 |
| Sənaye və istehsal sektoru | 43,6 | 65,7 | 83,3 | 192,6 | 308,0 | 427,5 | 536,9 | 682,4 | 582,9 | 1297,6 | 1516,4 |
| Nəqliyyat və rabitə | 57,1 | 149,6 | 128,2 | 214,9 | 469,6 | 669,1 | 520,4 | 454,4 | 409,7 | 429,1 | 506,0 |
| Ev təsərrüfat-larına | 142,9 | 276,9 | 389,2 | 778,0 | 1657,2 | 2334,9 | 2328,9 | 2700,8 | 3315,0 | 4316,7 | 6214,7 |
| **O cümlədən:** | | | | | | | | | | | |
| Daşınmaz əm-lakın tikintisi-nə və alınma-sına | - | - | - | 63,3 | 171,6 | 197,6 | 254,6 | 401,4 | 575,8 | 703,7 | 890,8 |
| İctimai təşki-latlara verilmi° kreditlər | 0,4 | 1,3 | 0,5 | 1,2 | 3,1 | 7,1 | 1,0 | 0,7 | 1,0 | 0,6 | 6,1 |
| Hökumət idarələrinə | 35,2 | 14,2 | 8,2 | 18,2 | 64,8 | 0,6 | 0,6 | 1,0 | 1,0 | 0,5 | 1,2 |
| Digər sektorlar | 179,2 | 137,3 | 109,4 | 66,1 | 2,0 | 64,6 | 437,8 | 630,0 | 588,8 | 633,0 | 683,7 |

Cədvəldə verilən dinamikadan göründüyü kimi, müvafiq dövr ərzində (2003-2013) kredit qoyuluşlarının ümumi həcmi 23 dəfə, o cümlədən ticarət və xidmət sektoru üzrə 19,7 dəfə, energetika, kimya və təbii ehtiyatlar üzrə 7,4 dəfə, kənd təsərrüfatı və emalı üzrə 24,2 dəfə, inşaat və əmlak üzrə 77,9 dəfə, sənaye və istehsal sektoru üzrə 34,7 dəfə, nəqliyyat və rabitə üzrə 8,8 dəfə, ev təsərrüfatları üzrə isə 43,4 dəfə artmışdır. Eyni zamanda, kreditin sahələr üzrə bölgüsünün təhlili göstərir ki, real sektorun payı cəmi 19,7% (2013-cü il) təşkil edir. 2003-cü ildə isə analoji göstərici 25,3% olmuşdur. Həmçinin ev təsərrüfatlarına verilən kreditlərdə də eyni situasiya müşahidə edilməkdədir. Belə ki, 2013-cü ildə ev təsərrüfatlarına verilən kreditlərdə istehlak xarakterli kreditlərin xüsusi çəkisi 85,7% təşkil etmişdir. Aydındır ki, ölkədə işgüzar aktivliyin artımının təmin edilməsinə təkcə təklifin deyil, həmçinin tələbin həcminin artımı hesabına da nail olmaq mümkündür. Lakin əgər istehlak kreditləri əsasən idxal mallarına yönəlirsə, bu hal nəinki ölkədaxili işgüzar aktivliyi yüksəltmir, əksinə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına müəyyən əngəllər yaratmaq iqtidarındadır.

Qeyd etmək lazımdır ki, ölkənin kredit bazarının inkişafında və fəaliyyətində dövlət özü bir iqtisadi subyekt kimi çıxış edir. Son bir neçə ildə dövlət sektorundan verilən kreditlərin xüsusi çəkisinin aşağı düşməsinə baxmayaraq, onların məqsədliliyi artmışdır. Əgər əvvəlki illərdə yönəldilən kreditlər yalnız özəl sektorun məhsulu kimi qəbul edilirdisə (Kapital bank və Azərbaycan Beynəlxalq Bankı istisna olmaqla), 2002-ci ildən başlayaraq dövlət büdcəsindən iqtisadiyyata kreditlərin ayrılması başlanmışdır. Belə ki, 2013-ci ildə dövlət bankları tərəfindən iqtisadiyyata kredit qoyuluşlarının həcmi 160 mlrd.manat çox olmuşdur. 2012-cü ildə bu vəsaitin həcmi 130 mlrd.manat, 2010-cü ildə isə bu göstərici 100 mlrd.manata olmuşdur. Qeyd edək ki, sahibkarlıq fəaliyyətinin inkişafına yönəldiən vəsaitlər müvəkkil banklar vasitəsilə sahibkarlıq subyektlərinə verilir.

Son bir neçə ildə kredit bazarının daha təkmil və sosial-iqtisadi tələbatı nəzərə alan səviyyədə inkişafını təmin etmək məqsədilə kredit növlərindən ipoteka kreditiərinin verilməsi ilə bağlı xüsusi hüquqi-normativ baza hazırlanması da nəzərdə tutulur. Belə ki, ölkədə olan bankların sırasında ixtisaslaşdırılmış kommersiya bankları yoxdur. Fikrimizcə, məhz ipoteka kreditlərinin verilməsi sonda bu növ kreditlərin verilməsində ixtisaslaşa biləcək bankların yaranması ehtimalını artırmış və kredit bazarının genişlənməsinə kömək etmiş olardı.

Qeyd etmək lazımdır ki, ölkənin kredit bazarının daha da genişlənməsinə, təsərrüfat subyektlərinin kreditə olan tələbatın ödənilməsinə və sosial-iqtisadi inkişafın sürətlənməsinə kömək etmək məqsədilə Azərbaycan hökuməti beynəlxalq maliyyə-kredit qurumları ilə əməkdaşlıq edir, onlardan kredit alır. 2004-cü il yanvar ayının birinə imzalanmış sazişlər üzrə investisiya layihələri üçün alınan kreditiər 2267 milyon dollar istifadə olunmuş və dövlət borcu hesab edilən kreditlər isə 1507 milyon dollar təşkil etmişdir. İmzalanmış sazişlər üzrə investisiya layihələri üçün alınan kreditlərin 724 milyon dolları və ya 32%-i iqtisadi islahatlara, 1543 milyon dolları və ya 68%-i investisiya layihələrinə, istifadə olunmuş və dövlət borcu hesab edilən kreditlərin isə 473 milyon dolları və ya 31 %-i iqtisadi islahatların aparılmasına yönəldilmişdir. Belə ki, ölkə iqtisadiyyatına yönələn xarici investisiyaların təqribən 8%-i beynəlxalq maliyyə qurumlarının kreditləri hesabına maliyyələşən layihələrin, 19%-i isə xarici və birgə müəssisələrin payına düşür.

Kreditiərin tərkibinə gəldikdə isə onu qeyd etmək olar ki, l995-2004-cü illər ərzində xaricdən alınan kreditlərin 62,2%-i sabit dərəcə, 21,1%-i dəyişkən dərəcə ilə olan kreditlərin, 16,7%-i isə Beynəlxalq Valyuta Fondunun (BVF-nin) kreditlərinin payına düşür. Uzun və ortamüddətli kreditlər üzrə orta faiz dərəcəsi 2,3% təşkil etmişdir. 2004-cü ilin əvvəlinə olan statistik məlumatlara görə, imzalanmış sazişlər üzrə alınan kreditlərin 3858,1 mln. dolları və ya 82%-i istifadə olunub, bundan isə yalnız 19%-i qaytarılıb.

Kreditorlar üzrə xarici borcların strukturunda Dünya Bankı (DB) və Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı (YBƏB) 27%, BVF l7%, Eksimbank 10%, Kommersiya bankları 6%, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) 5%, KFV və İİB 3%, xarıci ölkələr 2%, Kənd Təsərrüfatının Beynəlxalq İnkişaf Fondu isə 1% təşkil edir.

Həmçinin qeyd edək ki, bir çox beynəlxalq maliyyə qurumları ilə Azərbaycan hökumətinin kredit əməkdaşlığı hələ də davam etməkdədir. Məsələn, Beynəlxalq İnkişaf Agentliyi ilə Azərbaycan hökuməti arasında bağlanılmış sazişə görə alınacaq kreditlərin ümumi məbləği 628,6 mln. dollar həcmindədir. Bu kreditlər l0 il güzəştli və 0,75% olmaqla uzunmüddətli xarakter daşıyır (ən son ödəmə müddəti 2030-cu ildir). Alınmış kreditlərin 534,6 mln. dolları və ya 85,l%-i artıq istifadə olunub. Kreditlərə görə ödənilməli olan məbləğ isə 422 mln. dollar və ya alınan kreditlərin 67,1%-ni təşkil edir.

Digər bir maliyyə qurumu BVF-dir. Ölkədə həyata keçirilən iqtisadi islahatları maliyyələşdirmək məqsədilə BVF-dən 514,1 mln. dollar məbləğində kredit alınmışdır. Alınmış kreditlərin 431,8 mln. dolları və ya 84,0 faizi istifadə edilib, verilən kreditin isə 82,2 mln. dolları və ya 12%-i qaytarılıb. Ödənimәli məbləğin (262,0 mln. dollar) məcmu xarici kreditlərdə xüsusi çəkisi 51 % olmuşdur. Kreditiərin 6,9%-i struktur dəyişikliklərin maliyyələşməsinə (STF krediti), 27%-i struktur yenidənqurmanın maliyyələşməsinin genişləndirilməsinə (ESAF krediti), 16,9%-i geniş maliyyələşdirməyə (EFF krediti), 16,2%-i konpensasiyalı və fövqəladə maliyyələşməyə, 23,2%-i isə yoxsulluğun azaldılmasına yönəldilmişdir.

Alınan xarici kreditlərin digər iri kreditoru Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankıdır. Kreditorlar üzrə xarici borcun 17%-i bu bankın payına düşür. YBƏB-in verdiyi kreditiər daha çox istehsal xarakterli olmaqla 465,4 milyon dollar məbləğindədir. Bu kreditlərin 460,6 milyon dolları və ya 99%-i istifadə edilib, 35,9 milyon dolları və ya 7,7%-i isə artıq qaytarılıb. YBƏB- in verdiyi kreditlər başlıca olaraq "Şimal" SES-in (ümumi məbləğin 12%-i) və "EP- 300" Zavodunun tikintisinə (ümumi məbləğin 3,3%-i) yönəldilmişdir.

Avropa Yenidənqurma və İnkişaf Bankından isə “Yenikənd” SES-in tikintisi, Bankının su təchizatı, Aeronaviqasiya sisteminin yenidən qurulması, Mingəçevir SES-in tikintisi, Bakı Dəniz Limanının və Transqafqaz dəmiryolunun bərpası layihələrinin maliyyələşdirilməsi məqsədilə 148 milyon dollar həcmində kredit alınmışdır. Bu kreditlərin 127,4 milyon dolları və ya 86,1%-i istifadə edilib, 47,2 milyon dolları və ya 31,9 %-I qaytarılıb, 80,1 milyon dolları və ya 54,1%-I isə ödənilməli məbləğdir.

Ümumiyyətlə, qeyd edək ki, ölkədə aparılan iqtisadi islahatları maliyyələşdirmək məqsədilə beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən kreditlərin 44%-i SDR-lə, 27%-i Yapon yenası, 17%-i ABŞ dolları, 6%-i İsveç frankı, 3%-i AVRO ilə verilmişdir.

Hal-hazırda ölkənin kredit bazarında, subyektlər arasındakı kredit münasibətlərində bir sıra problemlər mövcuddur ki, bu problemlər də ölkədə effektiv kredit bazarının formalaşmasına və normal inkişaf etməsinə, beynəlxalq maliyyə-kredit bazarlarına inteqrasiya olunmasına maneələr törədir. Ölkənin kredit bazarında nəzərəçarpacaq problemlərdən biri bank kreditlərinin birtərəfli axını ilə bağlıdır. Bu birtərəfli

axın bankların real sektorunun kreditləşdirilməsindəki iştirakınıləngidir və ya maraqsız edir. Belə ki, ölkədə dövlət qiymətli kağızların (DQK) daha yüksək likvidliyə və gəlirliliyə malik olması və digər qiymətli kağız növlərinin zəif inkişaf etməsi həmin seqmentin cəlbediciliyini artırmışdır. Bu da öz növbəsində bankların kredit resurslarının qeyri-real sektora, daha doğrusu, dövlət qiymətli kağızlar bazarına axınını stimullaşdırmışdır. Nəticədə isə real sektorun kreditləşmə səviyyəsi tələb olunan səviyyədə olmamışdır.

Ölkədə fəaliyyət göstərən bankların təqdim etdikləri kreditlərin əsas mənbəyi kimi əmanətlərin strukturunu araşdırarkən məlum olur ki, resurs mənbələrinin zəifliyi rentabelliyin səviyyəsinin azalmasına və zərərlə işləyən müəssisələrin artmasına səbəb olmuş və deməli, mənfəəti azaltmaqla kredit bazarında, o cümlədən real sektorda bankların kredit təqdim edən subyekt kimi səmərəli fəaliyyətini zəiflətmişdir. Lakin müəssisə və təşkilatların, ev təsərrüfatlarının kommersiya banklarının passivlərini tamamlamaq imkanları təkcə onların mənfəətinin, əmək haqlarının və digər pul gəlirlərinin həcmindən (ölçüsündən) deyil, eləcə də iqtisadiyyatın ümumi maliyyə vəziyyətindən asılıdır. Bu mənada, 2001-ci ilə kimi həyata keçirilən ortodoksal monetar siyasətin ölkə iqtisadiyyatında pul qıtlığı və kütləvi ödəmə yaratması kredit resurslarının və əmanətlərin formalaşmasına mənfi təsir göstərmişdir. Qeyd etməliyik ki, belə bir şəraitdə nəinki real sektorun, hətta bankların da pul (borc) vəsaitinə olan tələbatının ödənilməsi müsbət nəticə verə biiməzdi. Məhz bu baxımdan, bütün bunlar onu qeyd etməyə əsas verir ki, kredit bazarının zəif inkişaf etməsini və real sektorun kreditləşdirilməsini məhdudlaşdıran əsas problem dəyər və müddəti üzrə tarazlaşdırılmış resurs bazasının mövcud olmamasıdır.

Azərbaycan Respublikasında kredit bazarının inkişafını və beynəlxalq maliyyə bazarlarına inteqrasiyasının, daha doğrusu, beynəlxalq maliyyə təşkilatlarının, xarici ölkələrin, vətəndaşların kredit bazarlarında iştirakını ləngidən amillərdən biri də ölkənin kredit bazarında əhəmiyyətli kredit riskinin mövcudluğu ilə bağlıdır. Bunun əsas səbəbləri kimi ölkədə biznes mühitinin nisbətən əlverişsiz olması; real və qeyri-real sektorda sağlam rəqabət mühitinin zəif inkişafı, bir çox sahələrdə inhisarçılığın geniş vüsət alması; sahibkarların böyük əksəriyyətinin biznes-plansız və ya zəif biznes-plan ilə fəaliyyət göstərməsi, alınan kreditin geri qaytarılması imkanlarını sübut edə bilməməsi;

ölkədə kölgə iqtisadiyyatının mövcudluğu; real sektorda fəaliyyət göstərən müəssisələrin bir çoxunun zərərlə və ya az mənfəətlə fəaliyyət göstərməsi və ya onların maliyyə vəziyyətinin qeyri-sabitliyini və s. qeyd etmək olar.

Respublikada kredit bazarının resurs bazasının zəifliyi də günün aktual problemlərindəndir. Belə ki, apardığımız təhlildən də göründüyü kimi, hal-hazırda ölkənin kredit bazarında təqdim edilən kreditlərin böyük hissəsi qısamüddətli kreditlərin payına düşür. Fikrimizcə, bunun əsas səbəbi məhz həmin bu kreditlərin resurs bazasının müddətinin onunla eyni xarakterli olmasıdır. Yəni kreditlərin əsas təminatçısı olan bankların uzunmüddətli resurslarının ümumi resurslardakı payının az olması, resurs bazasının tərkibində qısamüddətli və tələb olunanadək əmanətlərin (o cümlədən depozitlərin) yüksək xüsusi çəkiyə malik olması, həmin bu kreditorların kredit bazarında daha ehtiyatlı hərəkət etməsinə, qısamüddətli kreditlər verilməsinə və s. kimi ölkə iqtisadiyyatı üçün neqativ hadisələrə səbəb olur.

Azərbaycan Respublikasının kredit bazarında mövcud olan digər problem Mərkəzi Bankın keçirdiyi kredit hərraclarının dominantlığı ilə əlaqədardır. Qeyd edək ki, Mərkəzi Bankın diskont faizləri də (uçot dərəcələri) həmin hərracların nəticələrinə uyğun olaraq müəyyən olunur. Belə hal isə heç vaxt səmərəli ola bilməz. Ona görə ki, burada yalnız Mərkəzi Bank öz resurlarını satışa çıxarır. Digər banklar isə satışa vəsait çıxara bilmirlər. Başqa sözlə, kredit bazarına qeyd edilən prizmadan yanaşdıqda müəyyən olunur ki, burada kreditə olan tələb və təklif tam nəzərə alınmır. Belə hal isə təbii olaraq kredit faizlərinin düzgün formalaşmamasına gətirib çıxarır. Ümumiyyətlə, kredit bazarında olan problemləri açıqlayarkən aydın olur ki, Mərkəzi Bankın kommersiya bankları üçün yenidən maliyyələşdirmə dərəcəsini 7 faiz həcmində müəyyənləşdirsə də, kommersiya banklarının hüquqi və fiziki şəxslərə satdıqları kreditdə bu məbləğ birmənalı olaraq 20-25 faiz arasında olur. Belə hal ilk növbədə kredit bazarında mövcud olan problemi göstərməklə yanaşı, ölkədə kreditə olan ehtiyacın böyük olduğunu göstərir. Başqa sözlə, ölkənin Mərkəzi Bankı kommersiya bankları üçün vəsaitlərinin digər banklara satışını təmin etməlidir. Belə hal isə fikrimizcə, kommersiya banklarının hüquqi və fiziki şəxslərə satdıqları kreditlərin faiz dərəcəsini aşağı salmasına şərait yaratmış olar.

### 3. Maliyyə bazarinin inkişaf istiqamətləri

Respublikada maliyyə bazarının normal təşkili və səmərəli fəaliyyətinin əsası, şərti makromaliyyə sabitliyinin mövcudluğudur. Maliyyə bazarının səmərəli fəaliyyətinin əsasında dayanan amillər sırasında makromaliyyə sabitliyi xüsusi əhəmiyyət kəsb etməklə yanaşı, eyni zamanda, həmin fəaliyyətin əsas məqsədlərindən biri kimi çıxış edir. Makromaliyyə sabitliyi maliyyə bazarında fəaliyyətin səmərəli təşkilinin əsas şərtlərindən biri, həmçinin fəaliyyətin məntiqi yekunlarının əsas nəticələrindən biridir. Qarşılıqlı bağlılıq həm səbəb-nəticə, həm struktur, həm də funksional aspektdən qarşılıqlı asılılıq formasında təzahür edir.

Ayrı-ayrı ölkələrdə makromaliyyə sabitliyinə nail olmanın əsas şərti isə iqtisadiyyatda aparılan yenidənqurma işlərinin, struktur islahatlarının, tənzimlənmə sisteminin və s. bu kimi digər proseslərin ölkə daxilində sosial-iqtisadi dirçəlişə, dinamik və davamlı iqtisadi inkişafa, beynəlxalq iqtisadi inteqrasiyaya, beynəlxalq əmək bölgüsündə sərfəli mövqeyə malik olmasına ilkin şərait yaratması ilə bağlıdır.

Makromaliyyə sabitliyinə nail olmaq və onu qoruyub saxlamaq hansı iqtisadi sistemdə olmasından asılı olmayaraq, hər bir dövlətin əsas funksiyalarından biri və bəzən də ən əsası hesab edilir. Dövlətin ən ümumi halda hansı iqtisadi funksiyalarının olması barədə müxtəlif iqtisadi ədəbiyyatlarda nisbətən fərqli fikirlər mövcuddur. Məsələn, Pol Samuelson öz tədqiqatlarında bazar iqtisadiyyatı şəraitində dövlətin üç əsas iqtisadi funksiyasını yerinə yetirdiyini göstərərək qeyd edir ki, səmərəliliyin yüksəldilməsi, tarazlığın əldə edilməsi və makroiqtisadi sabitliyin və artımın genişləndirilməsi əsas iqtisadi amillərdəndir .

Digər Amerika iqtisadçıları – Makkonnel və Bryu isə özlərinin iqtisadi tədqiqatlarında dövlətin aşağıdakı beş əsas iqtisadi funksiyasını göstərirlər:

- Fəaliyyətin hüquqi və sosial əsaslarının təmin edilməsi;
- Bazarlarda rəqabətin qorunması;
- Mülkiyyət payına görə gəlirlərin yenidən bölüşdürülməsi;
- Resursların yenidən bölgüsü;
- Ölkədə iqtisadi situasiyanın sabitləşdirilməsi.

Başqa bir iqtisadi ədəbiyyatda da dövlətin iqtisadi tənzimlənməsinin aşağıdakı funksiyaları qeyd edilir .

– Bazar iqtisadiyyanın effektiv fəaliyyət göstərməsini təmin edən təsərrüfat qanunvericiliyinin (hüquqi və sosial iqlimin) hazırlanması;

– Rəqabətin qorunması və bazar mexanizminin bütövlüyünün təmini; Müxtəlif ictimai qrupların sosial təminat və müdafiə ehtiyacının ödənilməsinə yönəldilmiş gəlir və maddi nemətlərin yenidənbölgüsü;

– Milli məhsulun strukturunu dəyişmək məqsədilə resursların bölüşdürülməsinin tənzimlənməsi;

– İqtisadi konyunkturun dəyişməsi şəraitində iqtisadiyyatın sabitləşdirilməsi və həmçinin də iqtisadi artımın stimullaşdırılması;

– Sahibkarlıq fəaliyyəti.

Dövlətin iqtisadi tənzimlənmə funksiyaları barədə müxtəlif iqtisadi ədəbiyyat1ardan misal gətirməkdə əsas məqsədimiz, məhz makroiqtisadi sabitləşdirmənin iqtisadçılar tərəfindən dövlətin iqtisadi tənzimlənmədə mütləq funksiyası kimi qəbul edilməsini sübut etməkdir.

Makroiqtisadiyyat elminin yaradıcısı hesab edilən C.M.Keyns və onun təlimi ilk dəfə olaraq ölkədə iqtisadi sabitliyin əldə edilməsini dövlətin iqtisadi funksiyaları sırasına daxil etmişdir. 30-cu illər böhranı dövlətin iqtisadi tsiklinin neqativ mərhələlərinin tənzimlənməsi, sabitləşdirilməsi yolu ilə iqtisadi artıma getməyin mümkün olduğunu sübüt etdi. İqtisadi tarixdə Keynsçilərin təliminə əks cavab olaraq yaranan monetarist iqtisadi təlimi də bir məsələdə Keynsçilərlə tam razı idilər. Bu da "iqtisadiyyatın sabitləşdirilməsi dövlətin əsas funksiyaları sırasında" olması ilə bağlı olan ideya ilə əlaqədar idi.

Qeyd etmək lazımdır ki, müstəqillik dövründən başlayaraq Azərbaycan dövləti də inzibati-amirlik sistemindən bazar iqtisadi sisteminə keçidi rəsmiləº dirmək, reallaşdırmaq məqsədilə radikal sosial, iqtisadi, siyasi, struktur və s. yönümlü islahatlar aparmağa başlamışdır. Bütün bu islahatlar ölkənin sosial, iqtisadi və siyasi həyatında müxtəlif neqativ və pozitiv meyillərin müşahidə olunması ilə nəticələndi. Xüsusilə, iqtisadi sahədə qiymətlərin liberallaşdırılması, xarici iqtisadi fəaliyyətin sərbəstləşdirilməsi, dövlət mülkiyyətinin özəlləşdirilməsi, müxtəlif maliyyə və fiskal tənzimlənmə alətlərindən intensiv istifadə və s. nəticəsində neqativ hal kimi ölkədə qeyri-sabit iqtisadi vəziyyət yaşanmağa başlandı.

Qeyd etmək lazımdır ki, keçid dövrünün ilkin illərində maliyyə-bank sisteminin iflic vəziyyətə düşməsi, büdcə kəsirinin ÜDM-ə nisbətinin təhlükəli səviyyəyə çatması (məsələn, 1994-cü ildə büdcə kəsirinin ÜDM-ə nisbəti 13 faiz olmuşdur, büdcə kəsirinin Mərkəzi Bank

tərəfindən maliyyələşdirilməsi nəticəsində ölkədə pul kütləsinin həddindən çox artmasına səbəb olması, pul emissiyasının əhalinin pul gəlirlərinin 40-45 faizini təşkil etməsi, kredit həcminin ÜDM-ə nisbətinin 55-60 faiz təşkil etməsi, Mərkəzi Bankın faiz dərəcələrinin 250 faizə çatması, milli valyuta-manatın qiymətdən düşməyə başlaması, ölkədə inflyasiyanın pik səviyyəyə çatması və s. kimi maliyyə problemlərinin yaranması makroiqtisadi sabitlik strategiyasının reallaşdırılmasını, maliyyə sabitliyinin əldə edilməsini qaçılmaz zərurətə çevirmişdir.

Ölkədə makromaliyyə (o cümlədən, makroiqtisadi) sabitliyin qorunması BVF ilə əməkdaşlıq nəticəsində mümkün olmuşdur. Belə ki, BVF üzv ölkələr arasında valyuta-kredit münasibətlərinin tənzimlənməsini həyata keçirən, üzv ölkələrə makroiqtisadi sabitliyin təmin olunması məqsədilə kreditlər verən və texniki yardım göstərən beynəlxalq maliyyə təşkilatıdır. Azərbaycan Respublikası BVF-yə 1992-ci ilin sentyabr ayının 18-də üzv qəbul edilsə də, bu beynəlxalq qurum ilə əməkdaşlıq 1995-ci ildən başlamışdır. 1995-2005-ci illər ərzində ölkəmiz bu fonddan "STF", "Stend-bay", "ESAF", "EFF" kreditləri almış və bu kreditlərin ümumi məbləği 438,50 mln. ABŞ dolları məbləğində olmuşdur. Həmin vəsaitlərin böyük hissəsi qaytarılmışdır. Qalan qaytarılacaq məbləğ ÜDM-in 0,7% hissəsini təşkil edir.

1995-ci ildə Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı (DB) ilə sıx əməkdaşlıq şəraitində sabitləşməyə nail olundu. Bu istiqamətdə iqtisadiyyatda mövcud olan izafı ödəniş qabiliyyətli tələbatın azalması yolu ilə inflyasiyanın artım sürətinin kəskin azaldılması və onun müəyyən hədd çərçivəsində saxlanılması tədbirlərinin formalaşdırılması və mərhələlər üzrə reallaşdırılması həyata keçirilirdi.

BVF-nun dəstəyi ilə həyata keçirilən antiinflyasiya yönümündə tədavüldəki ümumi pul kütləsinin həcminin məhdudlaşdırılması, mərkəzləşdirilmiş kredit resurslarının azaldılması, uçot stavkasının yüksəldilməsi hesabına kredit resurslarına olan tələbin azaldılması, milli valyutanın (manatın) məzənnəsinin sabitləşdirilməsi, ölkədə inflyasiyaya səbəb ola biləcək qiymətlərə və əmək- haqqına nəzarətin gücləndirilməsi tədbirləri həyata keçirildi.

Ölkədə BVF-nin dəstəyi ilə həyata keçirilən pul-krelit siyasətinin makroiqtisadi baxımdan konkret olaraq nəticələri aşağıdakı cədvəldə verilmişdir.

**Əsas makroiqtisadi göstəricilərin dinamikası**

| Göstərici lər | 2003 | 2005 | 2008 | 2012 | 2012-ci il | |
|---|---|---|---|---|---|---|
| | | | | | 2003-cü ilə nisbətən | 2008-ci ilə nisbətən |
| ÜDM (mln. man) | 7146,5 | 12522,5 | 40137,2 | 53995,0 | +7,5 dəfə | +34,5% |
| İnflyasiya (%) | 2,2 | 5,4 | 15,4 | 1,1 | -1,1% | -14,3 % |
| Məcmu pul kütləsi (mln. man) | 2592,2 | 796,7 | 6081,0 | 13806,4 | +5,3 dəfə | +2,3 dəfə |
| Mərkəzi Bankın uç ot stavkası (%) | 7 | 7,8(1) | 11,8(2) | 5 | -2% | -6,8% |

Ölkədə makroiqtisadi sabitliyə nail olunmasında istifadə olunan metod maliyyə və pul-kredit siyasəti ilə bağlı olmuşdur. Bu siyasət əsas makroiqtisadi göstəricilərin məcmu pul kütləsi (M2), faiz dərəcəsi, inflyasiya və valyuta məzənnələrinin tənzimlənməsini nəzərdə tutur. Belə ki, 1994-cü ilin II yarısından etibarən inflyasiyanın qarşısının alınması üçün Azərbaycanda sərt pul-kredit siyasəti həyata keçirilməyə başlamışdır. Bu siyasət həmin dövr üçün alternativ olmayan tədbirlər kimi qiymətləndirilirdi. Belə ki, 1994-cü ilə qədər Azərbaycanda yürüdülən pul-kredit siyasəti bazar iqtisadiyyatı metodları ilə tənzimlənmə sisteminə keçsə də, reallıqda tamamilə fərqli bir situasiya yaranmışdır. Bu özünü məcmu pul emissiyasının həcminin mövcud iqtisadi durumun real tələblərinə uyğunlaşdırılmasında və inflyasiyanın fəlakətli həddə çatmasında özünü göstərmişdir.

Həyata keçirilən sərt pul-kredit siyasəti Mərkəzi Bank tərəfindən resursların satışının məhdudlaşdırılması yolu ilə banklar tərəfindən inflyasiya doğuran kredit qoyuluşlarının və kredit faizi həcminin yüksəlməsinin qarşısının alınması ilə bağlı olmuşdur.

Yürüdülən sərt pul-kredit siyasətinin əsas istiqamətlərindən biri də manatın məzənnəsinin möhkəmləndirilməsi, valyuta bazarının formalaşdırılması və bu əsasda Bakı Banklararası Valyuta Birjasının (BBVB) işinin bərpa olunması ilə əlaqədar olmuşdur.

Ümumiyyətlə, həmin dövrdə həyata keçirilən pul-kredit siyasətinin tez bir zamanda səmərə verməsinin əsas səbəbi fiksə olunan və ya müəyyən olunan sərt valyuta siyasətinin həyata keçirilməsi və valyuta bazarının formalaşması ilə əlaqədar olmuşdur.

BVF və DB-nin makroiqtisadi sabitləşdirmə strategiyası çərçivəsində digər islahat tədbirlərinin özəlləşdirmə proqramlarının reallaşdırılması, xarici ticarətin liberallaşdırılması, milli valyutanın daxili və xarici dönərliliyinin təminatı ilə bağlı tədbirlər olmuşdur. Bütün bu və ya digər islahat tədbirləri nəticəsində ölkənin maliyyə sektorunda və ümumilikdə iqtisadiyyatında bir sıra müsbət nəticələrin əldə edilməsinə imkan yarandı: yüksək inflyasiya səviyyəsi kəskin olaraq azaldı, büdcə kəsirinin ÜDM-ə nisbəti tənzimlənən səviyyəyə çatdı (1-2%), Mərkəzi Bankın mərkəzləşdirilmiş kredit faizi 250%-dən 7%-ə endirildi, manatın daxili dönərliliyi təmin edildi, Birinci özəlləşdirmə proqramı başa çatdırıldı və ÜDM-də özəl sektorun payı 70%-i keçdi, ÜDM-in dinamik artımı təmin edildi, əhalinin real pul gəlirləri ilbəil artdı və s.

Qeyd edək ki, iqtisadi sabitliyi əldə etmək nə qədər çətin bir işdirsə, həmin sabitliyi qoruyub-saxlamaq bir o qədər ağır və məsuliyyətlidir. Ölkənin iqtisadi qərarlar qəbul edən institutları daxildə makroiqtisadi sabitliyin qorununb saxlanılmasını daima diqqət mərkəzində saxlayırlar. Çünki yalnız iqtisadi və maliyyə sabitliyi mövcud olan şəraitdə optimal qərarlar qəbul etmək və onların müsbət səmərə verməsini müşahidə etmək mümkündür.

Makromaliyyə sabitliyini mühafizə etmək sahəsində aparıcı qüvvəyə malik olan institutlar içərisində Mərkəzi Bankı, Maliyyə Nazirliyini, İqtisadi İnkişaf və Sənaye Nazirliyini, Vergilər Nazirliyini, Nazirlər Kabinetini göstərmək olar. Bu institutlar öz səlahiyyətləri çərçivəsində müxtəlif idarəetmə alətlərindən istifadə etməklə ölkənin iqtisadi subyektlərinin davranışlarına təsir edir, əsas iqtisadi indikatorların pozitivliyinin qorunub-saxlanılmasına və yüksəlməsinə təkan verirlər.

Ölkənin maliyyə sektorunda sabitliyin əldə edilməsi və onun mühafizəsinin təmin edilməsi əsasən, Mərkəzi Bank tərəfindən həyata keçirlir. Bildiyimiz kimi, Mərkəzi Bank pul-kredit siyasətinin müxtəlif alətlərindən (məcburi ehtiyat norması, mərkəzləşdirilmiş kredit faizi və açıq bazar əməliyyatları) istifadə etməklə əsasən, kommersiya banklarının fəaliyyətlərini sabitliyin təmin edilməsi marağı çərçivəsində tənzimləyir və ona nəzarət edir.

Mərkəzi Bank və digər dövlət qurumları ölkədə büdcə kəsirinin yüksəlməməsini və müəyyən həddə saxlanılmasını (ÜDM-in 2-3%-i nisbətində), yüksək inflyasiyanın baş verməməsini, milli valyutanın dönərliliyinin qorunmasını və onun məzənnəsinin xarici valyutalara

nisbətdə kəskin dəyişikliklərə uğramamasını, maliyyə bazarında böhranın baş verməməsini və s. təmin etmək istiqamətində fəaliyyət göstərməklə maliyyə sabitliyini tənzimləyir.

Ölkədə makromaliyyə sabitliyini təmin etmək və inkişaf etdirmək məqsədilə digər görüləsi tədbirlər içərisində: xarici bank kapitalının bank sektoruna birgə formada cəlb edilməsinin stimullaşdırılması; kredit verilmə və qaytarılma mexanizminin təkmilləşdirilməsi; kredit götürülərkən girov məsələsinin həlli istiqamətində tədbirlərin görülməsi, bankların vəsait cəlb etməsində qiymətli kağızlar bazarına müraciət etməsinin stimullaşdırılması; bankların ənənəvi xidmətlərlə yanaşı lizinq, faktorinq, forfeytinq, dilinq və s. bu kimi yeni xidmətlər göstərməsi sahəsində fəaliyyətlərinin gücləndirilməsi və s. kimi maliyyə tədbirlərini də xüsusi qeyd etmək lazımdır.

Bazar iqtisadiyyatına keçmiş bir sıra ölkələrin təcrübəsi göstərir ki, qiymətlərin liberallaşdırılması heç də onların artırılması kimi çıxış etmir. Belə ki, Azərbaycandan fərqli olaraq, bir sıra ölkələrdə qiymətlərin artımı əhali gəlirlərinin aşağı düşməsi ilə müşayiət edilmir. Qiymətləri liberallaşdırmaqla yanaşı, əhaliyə öz real gəlirlərini artırmaq üçün şərait də yaratmaq lazımdır. Əhalinin həyat səviyyəsi aşağı olan bir respublikada alıcılıq qabiliyyətli tələbin uzun müddət məhdudlaşdırılması iqtisadiyyata dağıdıcı təsir göstərə bilər. Çünki istehsalın azalmasına səbəb olan bu tədbir, az sonra istehsal həcminin də azalmasına gətirib çıxarır. Nəticədə, təklifin stimullaşdırılması, iqtisadi artımın təmin edilməsi arxa plana keçir.

BVF tərəfindən irəli sürülən dördüncü prinsip isə sərt kredit siyasətinin həyata keçirilməsi ilə bağlı olmuşdur. Bu prinsip ölkənin bazar iqtisadiyyatına keçidlə və həmin dövrdə ölkədə mövcud olan inflyasiyanın qarşısının alınması ilə əlaqədar olmuşdur. Məlumdur ki, bazar iqtisadiyyatı səraitində hər hansı bir ölkənin Mərkəzi Bankı adətən üç siyasətdən məcburi ehtiyat normasının dəyişdirilməsindən, faiz dərəcəsinin dəyişdirilməsindən və açıq bazar əməliyyatından istifadə edir. Sərt pul-kredit siyasətinin təmin edilməsinə ehtiyac respublikamız dövlət müsəqilliyini yenidən bərpa etdikdən sonra 1991-1994-cü illərdə kəskin inflyasiya prosesi ilə üz1əşməsi nəticəsində ortaya çıxmışdır. Bununla əlaqədar olaraq qeyd edək ki, 1994-cü ildə pul-kredit siyasətinin əsas istiqamətlərinə dair Milli Məclisin qəbul etdiyi qərarda Milli Banka tapşırılmışdır ki, 1994-cü il avqustun l-dən məcburi ehtiyat normasını bütün banklar üçün 12 faiz səviyyəsində müəyyən

etsin. Bu qərar Milli Bankın ehtiyat normalarını tənzimləməklə kredit siyasətini çevik dəyişmək imkanından məhrum etdi.

Şübhəsiz, ölkədə məhsul və resurs təminatı olmayan kredit emissiyasının artdığı, neqativ faiz siyasətinin yeridildiyi və inflasiyanın dərinləşdiyi bir şəraitdə sərt kredit siyasətinin alternativi ola bilməz. Lakin yeridiləcək bu siyasətin özünün də dəqiq mexanizmi müəyyənləşdirilməli və nəzərə alınmalıdır ki, sərt kredit siyasəti Azərbaycan iqtisadiyyatında dərin kök salmış digər problemlərin kəskinləşməsinə də şərait yarada bilər. Bu gün müəssisələrin böyük bir hissəsi öz maliyyə vəziyyətlərinin yaxşılaşdırılması yolunu ucuz kreditlərin alınmasında görürlər. Lakin bunun özü də müəssisələrin maliyyə yükünü daha da ağırlaşdıra bilər. BVF Azərbaycana sərt kredit siyasətinin yeridilməsini təklif etməklə yanaşı, həm də respublikada ödəməmələr probleminin həlli barədə də öz tövsiyəsini bildirməsi məqsədəuyğun olardı.

Kredit siyasətinin sərtləşdirilməsi ilə əlaqədar bir cəhəti də nəzərə almaq lazımdır. Bu da, hər şeydən əvvəl, Azərbaycan iqtisadiyyatının inflyasiya ilə deyil, məhz staqflyasiya (qiymət artımının istehsalın tənəzzülü ilə müşayiət edilməsi) ilə üzləşməsilə bağlıdır. Belə bir şəraitdə bahalı kreditlərin istehsalda canlanma yaradacağını söyləmək olmaz. İlk baxışdan belə bir təsəvvür yarana bilər ki, kredit siyasətinin sərtləşdirilməsi intlyasiya tempini azaldacaq və bu nəticə etibarilə investisiya fəallığının artmasına səbəb olacaq və istehsal həcmi genişlənəcək. İnflyasiya yalnız kredit emissiyası ilə bağlı olsaydı belə bir müsbət nəticəni gözləmək olardı. Lakin Azərbaycan iqtisadiyyatının dol1arlaşdığı bir dövrdə inflyasiya daha çox manatın məzənnəsinin aşağı düşməsinə təkan verır. Əslində, inflyasiya manatın məzənnəsini əks etdirməli olduğu halda, manatın məzənnəsi inflyasiyanın tempini müəyyən edir və həlledici amilə çevrilir. Bu baxımdan, təklif edilən sərt kredit siyasəti həm də milli valyutanın sabitliyini təmin edə bilən valyuta siyasəti ilə tamamlanmalıdır. Həmçinin, sərt kredit siyasətinin həyata keçirilməsi yolunda maneə kimi çıxış edən və kredit sistemində rəqabət münasibətlərinə imkan verməyən bəzi qurumların fəaliyyət mexanizminə və onların statusuna da yenidən baxılmalı idi.

BVF-nin başqa bir prinsipi dövlət sifarişinin ləğvi ilə bağlıdır. Dövlət sifarişinin tətbiq edilməsinin mövcud mexanizminin səmərəsiz olduğunu birmənalı şəkildə inkar etmək, fıkrimizcə, doğru olmazdı. Mövcud olmuş bu mexanizm özəl müəssisələrin mənafeyini nəzərə

almadığı kimi, dövlətin də maraqlarına cavab vermir. Lakin bu heç də dövlət sifarişinin tamamilə ləğv edilməsinə əsas vermir. Bu dövləti iqtisadiyyata birbaşa təsir göstərmək imkanından məhrum etmiş olar. Bu gün sadəcə olaraq, dövlətlə müəssisələr arasında qarşılıqlı əlaqənin daha səmərəli formaları seçilməlidir.

Beynəlxalq maliyyə qurumları ilə ölkədə maliyyə bazarının inkişaf etdirilməsi istiqamətində əməkdaşlığın ikinci istiqaməti kimi Dünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və ayrı-ayrı ölkələrin kommersiya bankları ilə olan əməkdaşlığı göstərmək olar.

Qeyd etmək lazımdır ki, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının yerinə yetirdikləri funksiyaların fərqli olmasına baxmayaraq, son nəticə etibarı ilə onların fəaliyyəti bir-birini tamamlayır. Belə ki, hər iki qurum beynəlxalq səviyyəli kredit təşkilatı olmaqla yanaşı, ölkədə ticarət və investisiyaların canlanması üçün maliyyə bazarının fəaliyyətinin sabitləşdirilməsi və dərinləşdirilməsi, mübadilə məzənnəsinin tənzimlənməsi, milli infrastrukturun inkişafının yaxşılaşdırılması və ölkədə struktur islahatlarının həyata keçirilməsi üçün kreditlərin verilməsini həyata keçirir.

Son 10 il ərzində Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun mütəxəssisləri ölkədə struktur islahatlarının sürətləndirilməsi və dərinləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirir. Bu tədbirlərin əsası kimi BVF-nin və DB-nin mütəxəssisləri aşağıdakı istiqamətlərin üstünlük təşkil etməsini və bu istiqamətlər üzrə layihələrin dəstəklənməsini məqbul hesab edir:

- Enerji sektorunda islahatların həyata keçirilməsi;
- Maliyyə sektorunda islahatların həyata keçirilməsi;
- Özəlləşdirmənin ikinci proqramının həyata keçirilməsi;
- Sosial sferada islahatların həyata keçirilməsi.

Beynəlxalq maliyyə qurumlarının respublikamızda azad, sərbəst bazar münasibətlərinin, eləcə də maliyyə bazarının formalaşması və inkişafı üçün bank sektorunda da islahatların həyata keçirilməsini məqsədəuyğun hesab edir. Belə ki, hal-hazırda ölkədə 45-ə yaxın bank fəaliyyət göstərir.

Son dövrlərdə bank sektorunun inkişafının mühüm istiqamətlərindən - biri kimi ölkədə xarici kapitalın inkişafına qoyulan limitin aradan qaldırılmasını göstərmək olar (qeyd edək ki, mövcud məhdudiyyət 30%-dən 50%-ə çatdırılıb).

Ticarət rejiminin liberallaşdırılmasının dərinləşməsi ölkədə mövcud olan valyuta rejiminin də liberallaşdırılma səviyyəsinin yüksəldilməsini tələb edir. Bura gömrük xidmətləri zamanı valyutanın həcmindən asılı olmayaraq ölkəyə daxil olması və ölkədən çıxarılması, habelə valyuta köçirmələri sahəsində mövcud olan problemlərin aradan qaldırılması daxildir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı modelini özünə əsas iqtisadi inkişaf forması kimi seçmiş istənilən ölkə üçün bazar iqtisadiyyatlı ölkə statusunu alması mühüm şərtdir. Bu ilk növbədə həmin ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasını, uzunmüddətli xarici investisiyaları ölkəyə gətirməsini, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıqda üstün mövqe qazanmasını və digər bir sıra münbit şəraitin əldə olunmasını şərtləndirir. Belə ölkənin Ümumdünya Ticarət Təşkilatına üzvolma prinsiplərinə də kömək edir. Bazarın iqtisadiyyatının qərarlaşması ilə aşağıda sadalanan prinsiplərin gözlənilməsi arasında sıx qarşılıqlı bağlılıq mövcuddur:

- Ölkə daxilində enerji daşıyıcılarının qiymətlərinin beynəlxalq və ya dünya qiymətlərinə uyğunlaşdırılması;
- İqtisadiyyatda dövlət nəzarətinin və dövlət mülkiyyətinin xüsusi çəkisinin minimuma endirilməsi;
- Milli valyutanın dönərliliyinin tam şəkildə təminatı;
- Liberal əmək bazarının yaradılması və inkişafının təmin edilməsi;
- Qiymətlərə nəzarətin minimuma endirilməsi və qiymətlərin sərbəst bazar tənzimlənməsi prinsiplərinə keçilməsi;
- Xarici investisiyaların fəaliyyətinə qoyulmuş qadağaların aradan qaldırılması;
- Ölkədə maliyyə bazarının formalaşmasının beynəlxalq standartlara uyğunlaşdırılması.

Bütün bu sadalananlar göstərilməklə yanaşı, Azərbaycan hökumətinin ölkədə bazar iqtisadiyyatının yaradılması və maliyyə bazarının formalaşması və inkişafı üçün əməkdaşlıq etdiyi ikinci istiqamət, regional və ayrı-ayrı ölkələrin maliyyə qurumlarıdır. Belə qurumlara Kuveyt Fondu, Almaniya Yenidənqurma Kredit Bankı, Kənd Təsərrüfatının İnkişafı Fondu, Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankı, Türk Eksimbankı, Britaniya Bankları Qrupu, Amerika Eksimbankı ilə də əməkdaşlığı göstərmək olar. Bunlarla yanaşı, respublikamız regional maliyyə qurumlarından Avropa Yenidənqurma və İnkişaf Bankı

(AYİB), Asiya İnkişaf Bankı (AİB), İslam İnkişaf Bankı (İİB) və Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) ilə də əmakdaşlıq edir və müvafıq əməliyyatlar aparırlar.

Belə bir faktı göstərmək lazımdır ki, Azərbaycan 1997-ci ildə Qara Dəniz Ticarət və İnkişaf Bankının üzvü olmuşdur. Bankın müvafıq əməliyyatlara yalnız son zamanlar başlaması ucbatından bu günə kimə heç bir layihə müqaviləsi bağlanmamışdır. Qara Dəniz Ticarət və İnkişaf Bankı Azərbaycandakı fəaliyyətini, xüsusilə qeyri-neft sektorundakı layihələrin maliyyələşdirilməsini təmin etməyə yönəldəcək. O, özəlləşdirilmiş müəssisələri yenidən qurulmaqda və inkişaf etməkdə kömək göstərmək məqsədilə özəlləşmədən sonrakı əlverişli şəraitləri yaratmağı planlaşdırır. Uzunmüddətli prioritet kimi nəzərdə tutularaq, Qara Dəniz Ticarət və İnkişaf Bankı Azərbaycanda gedən özəlləşmə prosesində iştirak etmək arzusunda olan üzv ölkələrdən olan sərmayədarlara kömək edəcək.

Bank eyni zamanda telekommunikasiya, nəqliyyat, istehsal, kənd təsərrüfatı biznesi, neft-qaz sənayeləri sahəsindəki maliyyə layihələrini nəzərdən keçirir.

Dünya Bankı Qrupunun bir hissəsi kimi, Çoxsahəli İnvestisiya Zəmanəti Agentliyinin zəmanət proqramı xüsusi investisiyaların axınını inkişaf etməkdə olan ölkələrə layihə ilə əlaqədar ola biləcək siyasi risklərin yumşaldılması yolu ilə stimullaşdırmaq üçün nəzərdə tutulub. Çoxsahəli investisiya Zəmanəti Agentliyi Azərbaycanda fəaliyyət göstərən şirkətlərə 21 milyon ABŞ dolları həcmində iki zəmanət vermişdir. Birinci zəmanət Türkiyənin Efes şirkətinin Bakıdakı Koka-Kola Şirkətinə 18,3 milyon ABŞ dolları həcmində investisiyasına təminat verilmişdir. İkincisi isə, Türkiyənin Koçbank bankına onun bank fəaliyyəti üzrə birgə müəssisənin yaradılması üçün nəzərdə tutulan 2,7 milyon ABŞ dolları həcmində ayırmış olduğu investisiyasını təmin etmək məqsədilə verilmişdir. Həmin kreditlər siyasi risklərə qarşı, daha doğrusu, köçürmə məhdudiyyətləri, müsadirə və ya özgəninkiləşdirmə, müharibə və mülki iğtişaş risklərinə qarşı sığortalanmışlar.

Layihə maliyyələşdirilməsi eyni zamanda, German KfW, ABŞ-ın Xarici Özəl İnvestisiya Korporasiyası (OPİC), Yapon JEXİM, Turkish Eximbank və İsveçrə Hökumətinin (SECO) Layihə Buraxılışları Fondu kimi ikitərəfli vasitələrlə həyata keçirilirlər.

İndi Azərbaycanda Qafqaz Fondu və İpək Yolu Fondu (AİG) adlı iki vəsait fondu fəaliyyət göstərir. AİG İpək Yolu Fondu 1997-ci ilin

sentyabrında imzalanmış 70 milyon ABŞ dolları həcmində kapital qoyuluşu həyata keçirmişdir. Bu fond kapital və kvazi-kapital investisiyalarının özəl sektora ayrılmasını həyata keçirir və həmin investisiyaların Mərkəzi Asiya, Qafqaz və Rusiyada da həyata keçirilməsi nəzərdə tutulur.

Beynəlxalq Əməkdaşlıq üzrə Yaponiya Bankı (BƏYB) da eyni zamanda enerji sektorunun mühüm maliyyələşmə mənbəyi olmuşdur. O, sektorun inkişafını təmin etmək məqsədilə 339 milyon ABŞ dolları həcmində 40 illik kredit və Sumqayıt şəhərində yerləşən neft-kimya mərkəzinin enerji blokunun tikintisi məqsədilə 100 milyon ABŞ dolları həcmində əlavə kredit ayırmışdır. O, həmçinin Qaradağ rayonunda (Bakının cənubu) yerləşən qaz emalı qurğusundan regiondakı elektrik stansiyasına gedən boru xəttini də maliyyələşdirir.

Azərbaycan Respublikasında maliyyə bazarının müasir vəziyyətinin kompleks təhlilinin nəticələri göstərir ki, bu sahədə müəyyən problemlər mövcuddur. Həmin bu problemlər həm valyuta, qiymətli kağızlar bazarının inkişafına, beynəlxalq maliyyə bazarlarına inteqrasiyasına, həm də ümumilikdə ölkənin iqtisadi inkişafına bəlli ölçüdə maneələr yaradır.

Hal-hazırda Azərbaycan Respublikasının maliyyə bazarının beynəlxalq maliyyə bazarına inteqrasiya olunmasına, xarici investisiyaların milli maliyyə bazarı vasitəsilə iqtisadiyyata cəlb edilməsinə mənfi təsir göstərən amillərdən biri də maliyyə bazarında alqı-satqı obyekti olan alətlərin azçeşidli olması ilə bağlıdır. Bu problem ölkənin qiymətli kağızlar bazarında daha qabarıqdır. Bildiyimiz kimi, hər bir xarici investor portfel investisiya qoyuluşu barədə qərar qəbul edərkən, qiymətli kağızlar bazarında təqdim edilən alqı-satqı predmetlərinin gəlirliliyinə, risk səviyyəsinə, likvidliyinə fikir verməklə yanaşı, təklif edilən maliyyə alətlərinin çeşidliliyinə də diqqət yetirir. Yəni, daha çox çeşidli qiymətli kağızların təklifi ölkə maliyyə bazarının inkişafına, onun dövriyyəsinin artmasına dəlalət edən faktorlardan hesab edilir. Bildiyimiz kimi, Azərbaycan Respublikasında (Bakı Fond Birjasında) yalnız dörd sektor üzrə əməliyyatlar aparılır və qiymətli kağızların çeşidi nöqteyi-nəzərindən təklifi məhduddur. Məhz bu baxımdan, hesab edirik ki, ölkədə maliyyə bazarının inkişafı, təşkilati bazarlarda ticarət meydanının genişləndirilməsi və beynəlxalq maliyyə bazarlarına səmərəli inteqrasiya olunmaq məqsədilə daha çox çeşiddə maliyyə alətləri ilə (məsələn, opsion, varrant,

səhmlər və s.) ticarətin aparılmasının təmini istiqamətində zəruri tədbirlərin görülməsinə ehtiyac var.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi siyasətin, eləcə də maliyyə bazarının səmərəli fəaliyyət göstərməsi üçün milli valyuta sistemi sahəsində də olan problemlərin tənzimlənməsi zəruridir. Qeyd etmək lazımdır ki, valyuta münasibətləri sahəsində tənzimlənmənin əsas istiqaməti xarici iqtisadi əməkdaşlıq sahəsində normal şərait yaratmaq və bunun vasitəsilə valyuta məzənnəsindən ixracın stimullaşdırılması, daxili bazarın xarici rəqabətdən müdafiə olunmasına nail olmaq əsas hədəf kimi qarşıya qoyulmalıdır.

Əvvəlki fəsildə aparılan araşdırmalar göstərdi ki, ölkədə nə ixrac üzrə, nə də idxal üzrə səmərəli valyuta siyasətinin yürüdülməsi təmin olunmamışdır. Bunu real və nominal effektiv valyuta məzənnələri barədə hesablamalar və onların nəticələrinin interpretasiyası da göstərir. Belə bir siyasətin həyata keçirilməməsi bir sıra hallarda təbii olaraq milli iqtisadiyyata mənfi təsir göstərir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, istehsal vasitələri üzərində xüsusi mülkiyyətin mövcud olduğu bir şəraitdə valyuta siyasətindən səmərəli istifadə olunması əsas şərtdir.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitlərindən və rəsmi qızıl-valyuta fondunun vəsaitlərindən də ölkə iqtisadiyyatının inkişafı istiqamətində istifadənin təkmilləşdirilməsinə diqqət yetirilməsi də zəruridir. Bunlarla yanaşı, valyutanın dönərliyinin təmin olunması və ölkə daxilində valyuta vəsaitlərinin yenidən bölgüsünün təkmilləşdirilməsi sistemi yaradılmalıdır.

### 4.Azərbaycanda siğorta bazarinin formalaşmasi və inkişafi

Azərbaycan Respublikasında iqtisadi islahatların həyata keçirilməsi, bazar münasibətlərinin tətbiqi və milli sığorta bazarının formalaşması prosesi ilə əlaqədar olaraq sığorta resurslarının təşəkkül tapması və onlardan istifadə xüsusiyyətlərində mühüm dəyişikliklər baş vermişdir. Son onilliklər ərzində pul vəsaiti ehtiyatlaının dövlət sığortası vasitəsilə akkumulyasiya edilməsi və mərkəzləşdirilmiş qaydada bölüşdürülməsi sistemi, müstəqil sığorta şirkətlərinin iqtisadi maraqları və məsuliyyətlərinə əsaslanan idarəetmənin iqtisadi metodları ilə əvəz olunmuşdur. Bu isə öz növbəsində sığorta müəssisələri resurslarının həm səfərbərliyə alınmasının miqyas və həcminin, həm də onların yerləşdirilməsində böyük dəyişikliklərə uğraması ilə nəticələn-

mişdir. İndi dövlət sığorta təşkilatları ilə yanaşı digər səhmdar, fərdi və sığorta və təkrarsığorta fəaliyyətini həyata keçirən müştərək sığorta cəmiyyətləri formalaşmış və müvəffəqiyyətlə inkişaf etmişdir.

Beynəlxalq sığorta münasibətlərinin inkişafının ideologiyası belə bir fundamental təməl üzərində qurulur ki, sığorta bazarı nə qədər genişdirsə, o bir o qədər çox pul vəsaitlərini və maliyyə resurslarını özünə cəlb edib «uda» bilir. Çünki, müasir dünyada pul axınlarının səmərəli təşkili və idarəedilməsi əsasən, sığorta şirkətlərinin və ümumilikdə, sığorta bazarının inkişafmdan asılı olur. İndi sığorta işində qloballaşmanın əsasını - dünya maliyyə axınlarının sürətli hərəkəti, transsərhəd ticarətinin genişlənməsi, təkrarsığorta bazarının adekvat inkişafı çərçivəsində virtual iqtisadiyyatın mütəşəkkil seqmentinə çevrilməsi prosesi təşkil edir.

Bu baxımdan respublikada da əsasən sığorta xidmətlərinə olan tələbatı formalaşdıran sığortalılar və bu tələbatı ödəyən sığorta şirkətlərinin fəaliyyət göstərdikləri iqtisadi məkanı ifadə edən yeni sığorta bazarı təşəkkül tapmağa başlamışdır. Pul vəsaiti ehtiyatlarının səfərbər olunması və onların investisiya kimi iqtisadiyyatın real bölməsinə cəlb edilməsi respublikanın iqtisadi cəhətdən inkişaf etdirilməsi tempinə əsaslanmışdır. Belə ki, sığorta üzrə olan investisiyalar hal-hazırda bank kreditləri kimi təsərrüfat subyektlərinin xarici maliyyələşdirilməsinin əsas mənbələrindən birinə çevrilmişdir. Öz növbəsində sığorta şirkətlərinin bu istiqamət üzrə fəaliyyətinin səmərəliliyi ehtiyatların səfərbər olunması üçün nəzərdə tutulmuş sığorta məhsullarının yeni növlərinin keyfiyyətli şəkildə tətbiq olunması və eləcə də sığortaçılar tərəfindən idarəetmənin bazar prinsiplərinə uyğun yeni metodlarımn mənimsənilməsi ilə müəyyən edilmişdir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sığorta resurslarının idarəolunması üzrə böyük təcrübə toplanılmasına baxmayaraq Azərbaycanın milli sığorta sisteminə mexaniki şəkildə tətbiq oluna bilməzlər. Belə ki, respublikada sığorta bazarının formalaşdırılması və inkişafı, eləcə də sığorta şirkətlərinin bu bazarda fəaliyyət göstərməsi ilə əlaqədar olan bir sıra iqtisadi-təşkilati xüsusiyyətlər mövcuddur. Bunlara sığorta sahəsində bir tərəfdən milli sığorta bazarı və iqtisadi cəhətdən müstəqil olan sığorta şirkətlərinin meydana çıxması, digər tərəfdən isə bu şirkətlərin inkişafında çoxsayh maneyələrin (həm hüquqi-normativ, həm də iqtisadi) qorunub saxlanması aid edilə bilər. Sığorta sahəsinin müasir sisteminin respublikada özünəməxsus xüsusiyyətlərə malik olması ölkənin milli sığorta bazarının strateji və cari inkişafı üzrə

yeni yanaşma üsullarının işlənib hazırlanmasını tələb edir. Bu isə öz növbəsində toplanılmış təcrübənin elmi cəhətdən ümumiləşdirilməsi və sığorta resurslarının keçid tipli iqtisadiyyat şəraitində idarəolunması nəzəriyyəsi və metodologiyasının daha da inkişaf etdirilməsi zərurətini ortaya qoyur və dissertasiya mövzusunun aktuallığını təsdiq edir. Sığorta bazarının normal fəaliyyət göstərməsinin əsas şərti onun iştirakçılarını və ilk növbədə sığorta təşkilatlarının sabit və səmərəli fəaliyyəti ilə bağlıdır. Sabitlik və etibarlılıq kriteriyası isə öz növbəsində etibarlı ödəniş qabiliyyəti, maliyyə sabitliyi, sığorta müqaviləsi üzrə olan öhdəçiliklərin yerinə yetirilməsinin operativ və tam şəkildə icra olunması ilə əlaqədardır. Bütün bunlar isə sığorta müəssisələri resurslarının səmərəli idarəolunması ilə təmin edilir.

Zəruri maliyyə ehtiyatlarının müxtəlif formalarda yaradılması – mikro və makro iqtisadi sabitliyin mühüm şərti kimi dəyərləndirilir. Məhz buna görə də bu cür ehtiyatların optimal şəkildə yaradılması məsələləri öz kardinal həllini mütləq tapmalıdır. Sığorta (ehtiyat) fondunun ölkənin milli sərvətinin mühüm bir hissəsi olması faktını nəzərə alsaq, problemin aktuallığı heç bir şübhə doğurmur.

Ümummilli sığorta ehtiyatlarının xarakterik xüsusiyyətlərindən biri onun ümumi daxili məhsulun müstəqil tərkib hissəsi olmaqla, əvvəlcədən, qeyd-şərtsiz nə yığun, nə də istehlak fonduna aid edilə bilməməsidir. Bu fondlar nə gəlir kimi istehlak edilə, nə də mütləq yığım fondu kimi çıxış edə bilməzlər. Son nəticədə onların yığım və ya istehlak fondları kimi istifadə olunması baş verəcək hadisədən və həmin hadisənin nəyə zərər yetirəcəyndən birbaşa asılıdır.

Müasir iqtisadi ədəbiyyatda «sığorta resurslarının» tərifinin müəyyən edilməsinə dair bir neçə yanaşma üsulları mövcuddur. Bir çox müasir Rusiya alimləri (həmçinin MDB ölkələrinin müəllifləri) «sığorta resursları» anlayışının məzmununu şərh edərkən, müasir, iqtisadçılar tərəfindən elmi işlərdə geniş istifadə olunan «sığorta ehtiyatları» kateqoriyasına əsaslanırlar. Bizim fikrimizcə sığorta resursları dedikdə sığorta təşkilatlarının sərəncamında olan, həm cari daxilolmaları, həm də sığortaçının xüsusi vəsaitləri və cəlbedilmiş vəsaitlər hesabına yaradılmış fondları əhatə edən pul resurslarının məcmuu başa düşülür. Sığorta resursları nəinki sığorta fəaliyyətinin maüyyələşdirilməsində, eyni zamanda, həmçinin, sığortaçının maliyyə və investisiya fəaliyyətinin müxtəlif növlərində yerləşdirilə bilərlər.

## Sığorta resurslarının tərkibi




"Sığorta resursları" termininin mahiyyətini "geniş" və "dar" mənada xarakterizə etmək mümkündür. Dar mənada bu ilk növbədə, konkret götürülmüş hər hansı bir sığortaçının öz sığorta fəaliyyətini və digər aktiv əməliyyatların həyata keçirilməsi üçün sərəncamında olduğu pul resursları kimi başa düşülür. Eyni zamanda bütün sığorta təşkilatlarının məcmu resursları keyfiyyətcə yeni iqtisadi anlayış olub, pul ehtiyatlarının yaradılması, cəlbedilməsi və yerləşdirilməsi üzrə münasibətləri xarakterizə etmiş olur. Bu isə sığorta resurslarının mahiyyətinin "geniş" mənada izahına imkan yaradır.

Sığortaçının maliyyə potensialı və müvafiq olaraq sığorta resursları iki əsas hissədən - xüsusi və cəlbolunmuş kapitaldan təşkil edilir. Qeyd edək ki, sığortada ehtiyatların ikinci hissəsi birinciyə nisbətən həmişə üstünlük təşkil edir. Belə vəziyyət sığortanın sahə spesifikası

ilə bağlıdır. Həmçinin qeyd etmək lazrmdır ki, sığorta təşkilatının kapitalının tərkibi və strukturu onun fəaliyyətinin sahə istiqamətinə uyğun formalaşır, yəni bu, şirkətlərin sığorta fəaliyyətinin hansı növləri ilə məşğul olmasından birbaşa asılıdır.

Müasir sığorta resurslarının tərkibi yuxarıdakı şəkildə sxematik olaraq təsvir edilmişdir.

Göründüyü kimi, sığorta təşkilatlarının resurslarının müasir şəraitdə tərkibi çoxşaxəlidir və onun optimal tənzimlənməsi üçün hər bir elementi dərindən öyrənilmiş və təhlil olunmuşdur.

Tədqiqat işində alınmış nəticlərdən biri də bundan ibarətdir ki, xüsusi vəsaitlərin müəyyən zəruri həcminin yaradılması sığorta təşkilatı üçün fəaliyyətin ilk mərhələsində xüsusi aktuallığa malik olur. Çünki, bu mərhələdə onun sığorta çantası kiçik həcmli və tarazlaşdırılmamış olduğundan o zərərin bölüşdürülməsinə imkan vermir, bu isə öz növbəsində sığorta əməliyyatları üzrə mənfi maliyyə nəticələrinin yaranması imkanını kəskin şəkildə artırır. Sığorta resurslarının qiymətləndirilməsinin əsas meyarı sığortaçıların xüsusi vəsaitlərinin həcmi səviyyəsinə əsaslanmışdır, çünki, məhz bu meyar qəbul olunmuş öhdəçiliklərin və müvafiq olaraq, cəlb olunmuş resursların həcminin müəyyən olunmasına imkan verir.

Müqavilə öhdəçiliklərinin yerinə yetirilməsi, maliyyə xarakterli zəmanətlər və eləcə də inflyasiyanın təsiri sığortaçı tərəfindən düşünülmüş və ağıllı investisiya siyasətinin həyata keçirilməsini tələb edir. Bütün bunlarla əlaqədar olaraq milli sığorta təşkilatları üçün hal-hazırda investisiyanın planlaşdınlması (investisiya siyasəti) xüsusi əhəmiyyət kəsb edir.

Tamamilə aydın məsələdir ki, vəsaitlərin optimal şəkildə investləşdirilməsi investisiya və sığorta risklərinin mövcudluğu, eləcə də investisiyaların gəlirlilik proqnozuna dair aydın təsəvvürlərin olmaması şəraitində tamamilə qeyri- mümkündür. Digər tərəfdən sığortaçının investisiya siyasəti onun ödəniş qabiliyyətli olmasına, perspektivdə isə rəqabət qabiliyyətli olmasına əhəmiyyətli dərəcədə təsir göstərmək iqtidarındadır. Məhz buna görə də investisiyaların etibarlılığı, bu investisiyaların etibarlılığı üçün şərait yaradan likvidlik qabihyyəti, gəlirlilik və qayıtma xarakteri bir qayda olaraq sığorta təşkilatının aktivlərinin yerləşdirilməsinin əsas prinsipləri kimi qiymətləndirilir.

İstənilən hər hansı bir sığortaçının resurslarının formalaşdırılmasının əsasını onun xüsusi kapitalı, daha doğrusu sığorta şirkətinin mülkiyyətçilərinin kapitalı təşkil edir. İlkin olaraq, o sığorta təşkilatmın

yaradılması dövründə formalaşır, daha sonra isə əldə olunan gəlir hesabına daima artırılır. Xüsusi kapital, mahiyyəti etibarilə, sığortaçının xalis aktivlərindən, yəni, öhdəçiliklərdən azad olan aktivlərdən təşkil olunmuşdur. O sığorta cəmiyyətinin ləğv edilməsi şəraitində səhmdarlar arasmda bölüşdürülən pul vəsaitlərinin məbləğini təcəssüm etdirir. Xüsusi kapital sığortaçının iqtisadi müstəqilliyini və onun sabit şəkildə fəaliyyət göstərməsini təmin edir.

Əbəs deyildir ki, sığorta şirkətlərinin fəaliyyətinin tənzimlənməsi məqsədilə müəyyən edilmiş bəzi iqtisadi normativlər sığortaçının xüsusi vəsaitlərinin ölçüləri ilə uzlaşdırılır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, sığorta təşkilatının xüsusi kapitalının aşağıdakı mənbələri mövcuddur: nizamnamə kapitalı, əlavə kapital, ehtiyat kapitalı, bölüşdürülməmiş mənfəət, məqsədli daxilolmalar və maliyyələşdirmə, habelə yığım fondları və sosial sfera üzrə yaradılan müxtəlif təyinatlı fondlar.

Respublikanın Dövlət Sığorta Nəzarəti fəaliyyət göstərən və yeni fəaliyyətə başlayan sığortaçıların nizamnamə fondunun minimal ölçüsünə qarşı tələblərini irəli sürürlər və bu tələblər daim artırıhr. Sığortaçıların nizamnamə kapitalının minimal məbləği üzrə tələblərin artması əgər bir tərəfdən dövlətin sığorta təşkilatlarının kapitallaşma bazasının möhkəmləndirilməsinə yönəldilmiş qayğısını əks etdirirsə, digər tərəfdən, milli sığorta sisteminin müli normativ və tələblərinin beynəlxalq standartlara yaxınlaşdırılması yolu ilə dünya sığorta sisteminə inteqrasiyasını ifadə edir.

Fəahyyət göstərən sığorta təşkilatları üçün 01.01.2012-ci il üçün nizamnamə kapitalı 5,0 mln. manat, təkrarsığortaçılar üzrə isə 10,0 mln. manat müəyyən edilmişdir.

Adətən beynəlxalq təcrübədə nizamnamə kapitalının minimal ölçüsü empirik üsul ilə hesablanır və bu zaman sığorta təşkilatlarının fəaliyyətə başlaması üzrə olan xərcləri və ilkin sığorta əməliyyatlarının həyata keçirilməsi üzrə zəruri olan vəsaitləri nəzərə alınır. Respublikamızm sığorta təcrübəsində (digər MDB ölkələrində olduğu kimi) qeyd olunmuş amillər nizamnamə kapitah minimumunun müəyyən edilməsində tamamilə nəzərə alınmışdır. Bütün bunlara baxmayaraq, göstərilən problemin aktuallığı bu günədək qalır.

Sığorta təşkilatlarının etibarlılığı xüsusi kapitalın təhlili prizmasından daha aydm görünür. Burada bir növ aktivlərin təminatlılığını xarakterizə edən xüsusi kapitahn səviyyəsi göstəricisi böyük önəm daşıyır. Analitiklər bu əmsalın sabit olmasına üstünlük verirlər (0,2-dən

aşağı olmamaq şərtilə). Xüsusi vəsaitlərin payı nə qədər yüksək olarsa, sığortaçının maliyyə sabitliyi də bir o qədər yüksək hesab edilir. Bir sıra müəlliflər bu əmsalı muxtariyyət əmsalı adlandırırlar, çünki, bu əmsalın yüksəlməsi gələcəkdə, maliyyə müstəqilliyinin artması və maliyyə çətinlikləri riskinin azalmasmda ifadə olunur.

Son zamanlar həyata keçirilən sığorta siyasəti sığorta təşkilatlarının ümumi passivlərində xüsusi kapitalın payının sürətlə artırılması tendensiyasını müəyyən etmişdir. Azərbaycanda ümumihkdə sığorta təşkilatlarının xüsusi fondları 2000 - 2008- ci illərdə 14,6 dəfəyə qədər yüksəlmişdilərsə. nizamnamə fondunun təkcə 2008- ci il üçün artımı şirkətlərin xüsusi vəsaitlərinin ümumi artımının 70,9 %- ni təşkil etmişdir. Ümumilikdə sığortaçının fondunun tərkibində olan xüsusi və-saitlərinin həcmi 2008- ci ildə - 92,3%, balans mənfəəti üzrə və-saitlər isə - 7,0%- dək təşkil etmişdir.

Sığortaçılar üçün xüsusi vəsaitəlrin qorunub saxlanılmasının mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq sığortaçıların fəaliyyətinin inkişaf etdirilməsində sığorta şirkətlərinin resurslarının tərkibində cəlb olunmuş vəsaitlərin xüsusi çəkisinin artması prosesi gedəcəkdir. 2000-2008-ci illərdə Azərbaycan sığortaçılarının bütün sığorta resurslarının 70 %-dən çoxu cəlb olunmuş vəsaitlərin payına düşmüşdür. Cəlb olunmuş vəsaitlər üzrə resurslarının payının və həcminin çoxalması prossesi sığorta şirkətlərinin mahyyə sabitliyini nisbi olaraq, müəyyən qədər azaltmışdır. Məhz buna görə də xüsusi və cəlb olunmuş vəsaitlərin qəbul olunmuş nisbətinə həmişə ciddi riayət olunmalıdır. İqtisadi-maliyyə gərginliyil zamanı bu nisbətin əhəmiyyəti daha da artır. Bu göstəricilərə diqqətin daha da artırılması Azərbaycanın sığorta bazarının dünyanın sığorta sisteırinə inteqrasiya olunması prossesi ilə diktə olunmuşdur. Müasir beynəlxalq sığorta bazarında isə sığortaçıların maliyyə sabitliyinə nail olunmasında xüsusi kapitalın məqbulluğu problemi öz əhəmiyyətinə görə mühüm yerlərdən birini tutur.

Kapitalın əsaslandmlmış normativ və strukturuna tədrici keçid Azərbaycan sığortaçılarının maliyyə hesabatının beynəlxalq standartlara yaxınlaşmasına yardım edir, onların respubhkanın milh sığorta bazarının formalaşması və inkişafı şəraitində sərbəstliyinin və maliyyə sabitliyinin təmin olunmasına təkan verir. Sığortaçının maliyyə sabitliyinin təmin edilməsinə onun hüquqi təşkilati forması da əhəmiyyətli şəkildə təsir göstərir.

Hesab edilir ki, dövlətin sığorta təşkilatı (nizamnamə kapitalının yarısından çoxunun dövlətə məxsus olduğu təşkilatlar) sığorta müqaviləsi üzrə öhdəliklərin yerinə yetirilməsində daha çox təminatlı olur. Çünki, bu növ təşkilatların həm hüquqi, həm də maliyyə öhdəçilikləri arasında dövlətin nüfuzu durur. Bu gün milli sığorta bazarında fəaliyyət göstərən Dövlət sığortası Kommersiya Şirkəti -Azərsığorta respublikanın güclü sığorta cəmiyyətlərindən hesab olunur. Yüz faiz dövlət mülkiyyətində olan bu təşkilatın nizamnamə kapitalı 01.01.2010-cu il tarixə 4,0 mln. manat (o cümlədən 3,7 mln. manat pul, 0,3 mln. manat əmlak) təşkil etmişdir. Azərsığorta 2009-cu ildə 26,5 mln. manat sığorta tədiyyəsi toplamış və 12,1 mlrd. manat sığorta ödənişini həyata keçirmişdir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə sığorta şirkətlərinin maliyyə resurslannm genişləndirilməsində mənfəətin formalaşdırılması və istifadəsi probleminin nəzərdən keçirilməsi xüsusi olaraq nəzərə alınmalıdır. Bu göstəricinin spesifik xüsusiyyətləıindən biri onun yalnız netto-stavkaya daxil edilməsi ilə bağlıdır. Lakin, obyektiv səbəblərin təsiri altında faktiki mənfəət tarifin istənilən hər hansı bir elementi hesabına formalaşa bilər.

Göründüyü kimi respublikanın milli sığorta bazarında, orta hesabla, mənfəətin böyük əksəriyyəti (60%-i) sığorta əməliyyatlardan əldə edilmiş mənfəətin payına düşmüşdür. İnvestisiya fəaliyyətindən əldə olunmuş mənfəət isə 10-15 -% təşkil etmişdir.

Bazar münasibətlərinin inkişafı şəraitində mənfəətin formalaşdırılması və istifadəsi xüsusi aktuallığa malik olur. Bu proses zamanı formalaşan sığorta resurslarının spesifik xüsusiyyəti onların iqtisadi və sosial amillərdən asılı olan daxili xarakterinə əsaslanır.

Ümumiyyətlə, ehtiyatlar minimum olaraq aktivlərə uyğun gəlməlidir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, sığorta təşkilatının maliyyə sabitliyinin təmin edilməsi, xüsusi və cəlb edilmiş resurslar arasmda optimal nisbətin əldə edilməsindən bilavasitə asılıdır. Milli sığorta bazarında sığorta ehtiyatlarının kifayətlilik səviyyəsinin təhlili zamanı, belə bir vəziyyət də aşkarlandı ki, sığorta tədiyyələrinin toplanması üzrə liderlər qrupunda gedən təşkilatlar, bu normativ göstəricinin heç yansını da formalaşdıra bilmirlər və bu vəziyyət belə bir faktı bir daha sübut etdi ki, sığorta haqqlarının maksimal toplanması, hələ sığorta şirkətinin tədiyyəqabiliyyətli olması demək deyildir. Sı-

ğorta iqtisadi fəahyyətin elə bir sahəsidir ki, orada «maksimalizm» yox, məhz «optimal» fəaliyyət xüsusi önəm daşımış olur.

Qeyd etmək lazımdır ki, sığorta ehtiyatlarının formalaşdrılmasının prinsipial məqamı bu ehtiyatların gəlirlərdən deyil, məhz öhdəçiliklərdən asılı olaraq formalaşmasına əsaslanmasıdır. Sığorta ehtiyatları xarakterlərinə görə borc kapitalı hesab edildiyi üçün müqavilələr üzrə sığorta öhdəçiliklərinin sığorta ehtiyatlarına adekvat olması şərtilə sığortaçının maliyyə sabitliyindən iki şərt daxilində danışmaq olar:

1) sığorta ehtiyatları həcminin xüsusi vəsaitlərin həcminə olan proporsiyası;

2) onların optimal yerləşdirilməsi (yəni səmərəli investisiya siyasəti).

Təklliflər planının mahiyyəti sığorta bazarının 5-7 ərzində mərhələlər üzrə liberallaşdırılmasından və eləcə xarici sığortaçıların iştirakının icazə verilmədiyi sektorla müəyyənləşdirilməsindən ibarətdir. Bura sığortanın məcburi növləri və həyat sığortası növlərini aid etmək mümkündür. Necə deyərlər, sığorta biznesinin rəqabət qarşısında olan «qorxusu» böyükdür, çünki, seçim imkanına malik olan müştəri daha etibarlı və keyfiyyətli sığorta xidmətlərinə üstünlük verir. Eyni zamanda belə bir həqiqət də yaddan çıxarılmamalıdır ki, xarici kapital axını sığorta bazarının maliyyə tutumunun genişləndirilməsinə təkan verəcək və sığortaçıların beynəlxalq standartlar səviyyəsində çahşması məcburiyyət meydana çıxaracaqdır.

İqtisadivyatın dinamik inkişafı zamanı sığorta xidmətlərinə olan tələbat təsərrüfat fəaliyyətinin həcminin artması ilə əlaqədar olaraq yüksələcəkdir.

Əksər sahələrdə sığorta iqtisadi yüksəlişin zəruri şərti, onun tərkib komponenti kimi qiymətləndirilir. Bu, xüsusilə hipoteka krediti ilə malliyyələşdirilən borclu olan şəxsin həyatının kreditorun xeyrinə sığorta olunması ilə zəmanətləndirilən yaşayış tikilisinə investisiyaların qoyulması ilə təzahür edəcəkdir. Məhz buna görə də milli sığorta sisteminin az tutumlu olması, hələ onda potensial imkanların heç də mövcud olmamasmı ifadə etmir.

Unutmaq olmaz ki, Azərbaycanda sərbəst sığorta bazannm formalaşma tarixi 5-10 ili əhatə edir və o özünün inkşafmın hələ başlanğıc mərhələsindədir.

Qeyd etmək lazımdır ki, yaxın gələcəkdə rəqabət qabiliyyətinə malik olan milli sığorta bazarının yaradılması və qorunub saxlanması

üçün bir tərəfdən dövlətin dəstəyi, digər tərəfdən isə real fəaliyyət qabiliyyətinə malik olan şirkətlərin sığorta pullarında (daxıllarında), sığorta holdinqlərində, müxtəlif qruplarda və s. birləşdirilməsinə dair konkret tədbirlərin həyata keçirilməsi olduqca vacibdir. Burada problemin həlli bizcə iki istiqamət üzrə həyata keçirilməlidir. Birincisi, milli təkrarsığorta şirkətinin yaradılması və ikincisi, sığorta pullarının yaradılması məsələlərinin tənzimlənməsi.

Azərbaycan Respublikasının 2007-ci ildə qəbul olunmuş yeni «Sığorta fəaliyyəti haqqında» qanununa əsasən təkrarsığorta institutu qanunvericilik yolu ilə təsbit olunmuşdur. Təkrarsığorta məsələləri milli qanunvericilikdə həddən artıq məhdud şəkildə şərh olunur. Müvafiq qanunun bəzi maddələrində sığorta bazarında təkrar sığorta əməliyyatlarinın tənzimlənməsinə deyil, sadəcə olaraq onların mövcudluğuna işarə edən normalar müəyyən edilmişdir.

Respublikamızda sığorta bazarının miqyasının və təkrarsığorta əməliyyatlarının həcminin artması, təkrarsığorta təsisatı üzrə xüsusi normativ bazanın işlənib hazırlanmasını tələb edir. Sığorta bazarının hal-hazırda mövcud olan inkişaf proqnozlarına əsaslanaraq demək mümkündür ki, təkrarsığorta fəaliyyətnin tam hüquqi təminatının təşkili zərurəti, təqribən, 2-3 ildən sonra öz kəskinliyi ilə qarşıda duracaq, ölkə qanunvericiliyi və hüququ üçüı daha aktual məsələyə çevriləcəkdir.

Azərbaycan Respublikası «Sığorta fəaliyyəti haqqında» Qanununu 82.5-ci maddəsinin tələblərinə əsasən, sığortaçının bir sığorta predmeti üzrə sığorta riskləri ilə bağlı şəxsi tutumunun həcmi onun məcmu kapitalının 10%-dən çox və eyni zamanda bir sığorta müqaviləsi üzrə riskləri ilə bağlı şəxsi tutumunun həcmi isə onun məcmu kapitalının 30%-dən çox ola bilməz. Başqa sözlə demiş olsaq, bu təkrarsığorta təsisatının zəruriliyinin qanunvericilik yolu ilə təsbit edilməsi deməkdir.

Özü-özlüyündə sığorta resurslarının və müvafiq olaraq sığorta risklərinin xaricə axması təkrarsığorta institutu üçün tamamilə təbii bir haldır. Bizcə, təhlükə və problem bundadır ki, belə təkrarsığorta prosesi bir kanallı, bir istiqamətlidir. Azərbaycan sığorta və təkrarsığorta bazarı öz həcmi və maliyyə imkanları baxımından zəif olduğu üçün xarici partnyorlardan respublika sərhədləri daxilinə mahyyə axmları baş vermir. Belə bir tendensiyanı isə heç cür əlverişli və müsbət dəyərləndirmək olmaz.

Bununla əlaqədar olaraq bizcə, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin risklərin xaricə bu cür total ötürülməsinin qarşısının alın-

ması üçün, sığorta mükafatının xaricə ötürülən hissəsinə (həm rezidentlər, həm də qeyri-rezidentlər tərəfindən) xüsusi verginin dərəcəsinin artırılması məqsədəuyğun olardı. Məsələni bir qədər də detallaşdıraraq qeyd edək ki, milli sığortaçılar topladıqları tədiyyələrin 40%-dən çoxunu xarici təkrarsığortaçıya satırsa, onda bu məbləğ ikiqat vergiyə cəlb edilməlidir. Lakin etiraf edək ki, bu cür sərt tədbirlərin reallaşdırılması üçün daxili bazarda müvafiq mühitin yaradılması da mühüm şərtdir.

Bizcə, yaxın perspektivdə ölkədə təkrarsığorta seqmentinin inkişafının ssenarisi iki istiqamətdə inkişaf edə bilər: birincisi, elə təkrarsığorta, ikincisi isə broker variantı.

Birinci halda kifayət qədər kapitala və zəruri ixtisaslaşmaya malik milli şirkətlər, böyük həcmli xüsusi saxlama məbləği daxilində tamhüquqlu təkrarsığorta şirkətləri kimi fəaliyyət göstərəcəklər. Bu zaman onların kapitalı həm daxili, həm də xarici mənşəli ola bilər. Hətta dövlətin də iştirakçısı olduğu iri şirkətin formalaşması da mümkündür.

Broker variantı isə milli təkrarsığortaçıların daxili və xarici sığorta şirkətləri arasında vasitəçiyə çevrilməsini nəzərdə tutur. Buna müxtəlif səbəblər ola bilər. Əvvəla, bir çox sığorta şirkətləri hələ də qərbin sığorta bazarına çıxmaqda, xarici partnyorlar axtarmaqda çətinlik çəkirlər. Digər tərəfdən-kiçik və orta həcmli risklər xarici sığorta şirkətləri üçün heç də həmişə cəlbedici olmurlar. Əksər hallarda xarici sığortaçılar onlar üçün tanış olmayan milli sığortaçılarla işləməkdən çəkinirlər. Araşdırmalar göstərir ki, MDB ölkələrində, o cümlədən respublikamızda məhz broker variantı daha perspektiv hesab olunur, çünki, məhz bu variant milli və xarici şirkətlərin bərabərhüquqlu partnyorlar kimi əməkdaşhğına zəmanət verir.

Hal-hazırda Sığorta Nəzarəti Maliyyə Nazirliyinin bir struktur bölməsi kimi müstəqil qərarlar qəbul etmək imkanından məhrumdur. Başqa söziə, o ancaq sonradan qəbul ediləcək qərarlar səlahiyyətinə malikdir. Belə prosedura nəzarətin operativliyini və səmərəliliyini azaldır, onu daha formal və bürokratik edir. Bizcə, sığorta bazarının idarəedilməsi üzərində nəzarətin müstəqil funksional təsisat tərəfindən həyata keçirilməsi yeganə düzgün addım olardı. Bu əksər ölkələrin təcrübəsində də sübut olunmuşdur. Bu zaman sığorta bazarınm səmərəli şəkildə tənzimlənməsi üçün ilkin şərtlər kimi iki vacib aspekti xüsusi vurğulamalıyıq. Birinci aspekt nəzarət orqanlannın müstəqil statusa malik olmasıdır. İngiltərə və Fransada mövcud olan sığorta nəzarəti sərbəst və təmamilə müstəqil orqanların öhdəsinə qoyulur. Məsələn,

Fransada həyata keçirilmiş islahatlar nəticəsindəcəsində müstəqil orqan olan və hakimlərdən ibarət olan sığorta nəzarəti üzrə komissiya təşkil olunmuşdur. Şuraya iqtisadiyyat naziri başçılıq etsə də, sığorta təşkilatlarının fəaliyyətlərinə nəzarət sərbəst dövlət strukturunun vəzifəsinə daxil olur.

İkinci həlledici aspekt isə onların işinin keyfiyyətidir, Məhz onların öhdəsinə peşəkar mütəxəssislərin hazırlanmasrı sığorta bazarının statistik bazasının inkişafma və bütövlüyünə nəzarət; sığorta sahəsinə aid olan ümumi normalar ilə qaydaların yaradılması və yayılması; çətin və mürəkkəb 32əməliyyatlann həyata keçirilməsi zamanı həmkarlara zəruri xidmətin göstərilməsi və sığortaçılar arasmda yaranmış mübahisələrin tənzimlənməsi üzrə tapşırıqların həlli vəzifəsi qoyulur.

Bizcə, nəzarətin daha məhsuldar şəkildə yerinə yetirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab edilməlidir:

- nəzarət sisteminin sabitliyi;
- nəzarət funksiyalarının həyata keçirilməsini təmin edən qanunvericiliyin şəffaf və aydm olması;
- qanunvericilikdə nəzərdə tutulmuş sanksiyaların məcburiliyi və dönməzliyi;
-nəzarətdən daha çox idarəetmə və tənzimlənmənin iqtisadi aləti kimi istifadə olunması və s.

Respublikamızın sığorta nəzarəti sistemində son illərdə baş vermiş müsbət dəyişikliklərlə yanaşı, həll edilməsi zəruri olan bir sıra məsələlər hələ də mövcuddur. Bu nöqsanlar, hər şeydən əvvəl milli sığorta nəzarəti sisteminin beynəlxalq təsisatlara inteqrasiya prosesinə mənfi təsir göstərmiş olur.

Mövcud vəziyyət sığorta nəzarətinin hüquqi statusunu, strukturunu, funksiyalarının, maliyyələşdirilmə mənbələrini müəyən edən, ilkin, cari və sonradan nəzarətin, sığorta təşkilatlarına qarşı tətbiq olunan sanksiyalar və tədbirlər sisteminin həyata keçirilməslnə dair əsas müddəaları əsaslandıran sığorta nəzarəti haqqında ayrıca qanunun qəbul olunması ilə normallaşdırıla bilər. Xüsusi qüvvəyə malik bu cür qanunlar və yaxud digər ümumi qanunlarda əksini tapan müvafiq bölmələr praktiki olaraq AB-nin bütün ölkələrində qəbul olunmuşdur.

# IX FƏSIL

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BÜDCƏSİ

*"Dövlət büdcəsi vətəndaşların iqtisadi və sosial hüquqlarının təminatına xidmət edir"*

***İlham Əliyev***

## 1. Dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə edilməsinin təkmilləşdirilməsi

Maliyyə sistemi, dedikdə müəyyən iqtisadi formasiya çərçivəsində mövcud olan maliyyə münasibətlərinin məcmusunu ifadə edir; sözün dar mənasında isə o, sosial-iqtisadi məzmunu, funksiyaları və strukturu dövlət siyasəti ilə müəyyən edilən maliyyə müəssisələri sistemidir. Buraya maliyyə təşkilatları və Dövlət Vergi Xidmətinin bütün struktur bölmələri daxil edilir.

Maliyyə sisteminin strukturunda əsas yeri dövlət maliyyəsi tutur. Başqa sözlə desək, maliyyə sisteminin əsasını dövlət maliyyəsi təşkil edir. Dövlət maliyyəsində isə əsas yer dövlət büdcəsinə məxsusdur.

Büdcə dövlətin, yerli özünüidarəetmə orqanlarının, ayrı-ayrı təşkilatların və hətta ailənin müəyyən dövr üçün (adətən 1 il) gəlir və xərclərini əks etdirən maliyyə sənədidir. Büdcə bir-biri ilə qarşılıqlı əlaqədə olan iki hissədən ibarətdir: gəlirlər (və ya mədaxil) və xərclər (və ya məxaric). Gəlirlər hissəsində müəyyən dövr ərzində büdcəyə bütün mənbələr üzrə daxilolmalar, xərclər hissəsində isə həmin dövr ərzində bütün istiqamətlər üzrə məsrəflər, yəni maliyyələşmələr əks olunur.

Büdcə – ingilis mənşəli söz («budget») olub, «çanta», «torba» mənasını verir. Lakin bu söz XVIII əsrdən etibarən maliyyə kateqoriyası kimi leksikona daxil olmuş və məna etbarilə «xəzinə» sözünə yaxındır.

Iqtisadi yanaşmaya görə, büdcə ictimai maliyyənin yaradılması, bölgüsü və istifadəsi üzrə əsas maliyyə planıdır. Hüquqi baxımdan büdcə dövlət hakimiyyətinin səlahiyyətli orqanı tərəfindən xüsusi pro-

sedur şəklində qəbul olunan qanundur. Ölkə qanunvericiliyinə görə, büdcə – Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədidir .

Dövlət Büdcəsi özünün iqtisadi mahiyyətinə görə, milli gəlirin bölüşdürülməsi üçün dövlətlə hüquqi və fiziki şəxslər arasında yaranan münasibətlərdir. Bu isə ilk növbədə iqtisadiyyatın ayrı-ayrı sahələrində tədbirlərin həyata keçirilməsinin, ölkənin müdafiəsinin möhkəmləndirilməsinin və dövlət idarəetməsinin maliyyələşdirilməsi üçün büdcə fondunun yaradılması

və istifadəsi ilə bağlıdır. Suverenliyini bərpa etmiş və bazar iqtisadiyyatı yoluna yenicə qədəm qoymuş ölkələrdə qarşıda duran vəzifələrə uyğun olaraq dövlət bölməsi üçün bu cür planlaşdırma son dərəcə vacibdir. Bu zaman Dövlət Büdcəsinin əsas göstəriciləri olan gəlirlər və xərclərin məbləği dəqiqləşdirilir. Bu isə o deməkdir ki, dövlət öz gəlir və xərclərini qabaqcadan bilir. Dünya təcrübəsində belə hal hər bir dövlətin büdcə siyasətinin əsas amili kimi qəbul edilir və bunun reallaşması yalnız dövlətin mükəmməl büdcə sistemi olduğu şəraitdə mümkündür.

Qeyd etmək lazımdır ki, hər hansı bir büdcə sisteminin seçilməsi müəyyən məqsədlərin yerinə yetirilməsinə göstərdiyi faydalılıqla bağlıdır. Başqa sözlə, büdcə sisteminin mükəmməllilik dərəcəsi söhbət gedən potensial məqsədlərə göstərdiyi müsbət tərəflərlə ölçülür. Həmçinin qeyd etmək lazımdır ki, büdcə icra edilərkən yuxarıdakı məqsədlərdən hansı biri və ya ikisinə nail olmağa imkan verən büdcə sistemi əvəzinə, bütün məqsədlərə çatmağa imkan verən büdcə sistemləri qəbul edilməlidir. Büdcə həyata keçirilərkən birinci növbədə, bu zaman əldə edilən nəticələrin müsbət olmasına,dövlət bölməsinə ayrılan vəsaitlərin təsirli şəkildə istifadəsinə diqqət yetirilir. Büdcə sistemləri büdcənin nəzarət, idarəetmə, planlaşdırma vasitəsi olmaq xüsusiyyətlərini daşıyır.

Azərbaycan Respublikasında büdcə sistemini Azərbaycan Respublikasının dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr təşkil edir. Həmin büdcələr arasında münasibətlər, onların formalaşması prinsipləri, tərtibi prosesi, təsdiqi, icrası və icrasına nəzarət «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının

Qanunu ilə tənzimlənir. Azərbaycan Respublikası dövlət büdcəsini və Naxçıvan MR büdcəsini müvafiq olaraq Azərbaycan Respublikasının Milli Məclisi və Naxçıvan MR Ali Məclisi qanun şəklində, yerli büdcələri isə yerli bələdiyyə orqanları qərar şəklində təsdiq edirlər.

Dövlət Büdcəsi dövlətin gəlir və xərclərinin əsas hissəsini özündə birləşdirdiyinə görə, o, maliyyə sisteminin əsas və aparıcı halqasını təşkil edir. Dövlət büdcəsi dövlət krediti, gəlirər, dövlət xərcləri, mənfəət kimi iqtisadi kateqoriyalarla bilavasitə bağlıdır. Bundan əlavə, dövlət büdcəsi vasitəsilə bütün sadalanan kateqoriyaların vəhdətliyi təmin edilmiş olur. Dövlət Büdcəsi pul münasibətlərini ifadə etməklə dövlətin mərkəzləşdirilmiş pul vəsaitləri fondunun əmələ gəlməsi və istifadəsi prosesini müəyyənləşdirir. Bununla yanaşı, büdcə vasitəsilə müəssisələrin və əhalinin pul vəsaitləri səfərbər edilir və bu vəsaitlər istehsal, emal və xidmət sahələrinin və digər işlərin maliyyələşdirilməsi üçün istiqamətləndirilir.

Həqiqətdə də belədir ki, büdcənin mahiyyəti onun həyata keçirdiyi funksiyalarda öz ifadəsini tapır. Bəzi iqtisadçıların fikrincə, büdcə mərkəzləşdirilmiş ümumdövlət pul vəsaiti fondunun yaradılması, bu fondun istifadə edilməsi və büdcə vəsaitlərinin hərəkətinə nəzarətin həyata keçirilməsi kimi mühüm funksiyaları yerinə yetirməklə cəmiyyətdə baş verən sosial-iqtisadi prosesləri tənzimləyir .

Dövlət büdcəsi vasitəsilə ölkənin sosial sahələrini maliyyələşdirilməsi təmin edilir, iqtisadi rayonların və ayrı-ayrı sahələrin inkişafı tənzimlənir. Dövlət iqtisadi münasibətlərin bu cür tənzimlənməsi vasitəsilə ölkədə məhsuldar qüvvələrin inkişafını tənzimləyir.

Büdcə vasitəsilə ilə ümumi daxili məhsulun yenidən bölgüsü eyni vaxtda həyata keçirilən və bir-biri ilə sıx əlaqədə olan ikitərəfli prosesdir:

- Büdcənin gəlirlərinin yaradılması;
- Büdcə vəsaitlərinin istifadəsi (büdcənin xərcləri).

Büdcə gəlirləri – Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalardır. Büdcə gəlirlərinin yaranması prosesində, ictimai istehsal prosesində ümumi daxili məhsulun bir hissəsinin dövlətin və bələdiyyələrin xeyrinə yenidən bölüşdürülməsi baş verir. Bununla dövlətlə və bələdiy-

yə orqanları ilə vergi ödəyiciləri arasında maliyyə münasibətləri yaranır.

Büdcə xərcləri – büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaitlərdir.

Büdcə xərcləri «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanununa və hər il qəbul olunmuş «Dövlət Büdcəsi haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq ayrı-ayrı təşkilatlar üzrə təsdiq olunmuş smetaya əsasən dövlət xəzinədarlıq orqanları vasitəsilə istifadəsi formasıdır.

Bazar münasibətləri şəraitində kompleks məqsədli proqramların həyata keçirilməsi, iqtisadiyyatın prioritet sahələrinin yenidən qurulması, ETT-nin maliyyələşdirilməsi və əhalinin sosial təminatında büdcə mühüm rol oynayır. Bununla əlaqədar olaraq, büdcə gəlirlər və xərclər mexanizmi vasitəsilə də iqtisadiyyata əhəmiyyətli təsir göstərir, onun dövlət tərəfindən dəstəklənməsi üçün zəmanət verir. Nəzarət funksiyası isə imkan verir ki, maliyyə resursları dövlətin sərəncamına nə qədər öz vaxtında və tam daxil olur, vəsaitlərin bölgüsündə proporsiyalar necə formalaşır, onlar necə istifadə olunurlar. Büdcə iqtisadiyyatın struktur halqalarında baş verən iqtisadi prosesləri əks etdirir ki, bunun da vasitəsilə vəsaitlərin necə və hansı həcmlərdə daxil olması aydın görünür.

Qeyd etmək lazımdır ki, dövlət büdcəsi iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin ən mühüm vasitələrindən biri hesab edilir. Belə ki, dövlət büdcəsinin tarazlığı iqtisadiyyatın özünün tarazlığını müəyyən edən başlıca və ən mühüm meyardır. Dövlət büdcə mexanizmi vasitəsilə iqtisadi və sosial prosesləri stimullaşdırmaq imkanına malikdir. O, iqtisadiyyata subsidiyalar, investisiyalar yönəltməklə ona birbaşa təsir edə bilər, lazım gəldikdə, iqtisadiyyatın mövcud proporsiyalarını dəyişə bilər. Büdcə mexanizmi qurulduqda və tətbiq edildikdə iqtisadi yüksəlişə, sosial sferanın inkişafına, elmi-texniki tərəqqinin templərinin sürətlənməsinə, istehsal sahələrinin maddi-texniki bazasının yaxşılaşdırılmasına daha real və səmərəli təsir edilir. Dövlət büdcə vasitəsilə əldə etdiyi vəsaitlərlə manevr etməklə iqtisadiyyatı və burada baş verən prosesləri tənzimləyir.

Bazar münasibətləri şəraitində dövlət büdcəsinin ölkənin sosial proseslərdəki rolunu daha da artırır. Belə ki, əhaliyə sosial xidmət sahələrinin əksəriyyəti təhsil, səhiyyə, sosial təminat kimi sahələr büdcə vəsaitləri hesabına maliyyələşdirilir. Əhalinin sosial-mədəni ehtiyaclarının daima yüksəldiyini nəzərə alsaq, onların bu tələbatlarının ödənilməsi defisit maliyyələşdirmə hesabına olsa belə həyata keçirilməlidir. Gələcəkdə sosial proseslərdə dövlət büdcəsinin rolu və əhəmiyyəti daha da artacaqdır. Çünki büdcədənkənar fondlarda bərabər büdcə vəsaitləri sosial dəyişikliklərin həyata keçirilməsində, əhaliyə sosial xidmətlərin daha yüksək səviyyəsini təmin etməkdə əsas maliyyə bazası olacaqdır. Qeyd etdiyimiz kimi, dövlətin vəzifələrinin həyata keçirilməsinin maddi əsasını dövlət büdcəsi təşkil edir. Iqtisadi münasibətlərin mühüm tərkib hissəsi sayılan maliyyə münasibətləri sistemində dövlət maliyyəsi adlanan dairədə dövlət büdcəsi əhəmiyyətli yer tutur.

Maliyyə münasibətlərinin tərkib hissəsi kimi çıxış edən büdcə münasibətlərinin əsas spesifik xüsusiyyəti ondan ibarətdir ki, bü münasibətlər, ilk növbədə,bölgü prosesində meydana gəlir, dövlət bu prosesin əsas iştirakçısı, eləcə də təkrar istehsal prosesinin birbaşa iştirakçısıdır. Digər tərəfdən, büdcə münasibətləri mərkəzləşdirilmiş pul vəsaitləri fondunun formalaşdırılması və istifadəsi ilə bağlıdır və ümumi dövlət tələbatlarının ödənilməsi üçün nəzərdə tutulmuşdur.

Idarəetmə baxımından dövlət gəlirləri dövlət fəaliyyətinin maliyyələşdirilməsi üçün onların mülkiyyətə çevrilməsi və dövlət sərəncamının verilməsi prosesində tədavül olunan mili gəlirin bir hissəsi kimi müəyyən edilir.

Beynəlxalq təcrübədə dövlət gəlirlərinin tərkibinə aşağıdakı gəlir növləri daxildir: Dövlətin sərvətindən istifadəyə görə alınan gəlirlər, vergiyə bənzər dövlət gəlirləri, vergilər, borclanmalardan gələn gəlirlər və xəzinənin imkanlarından istifadə etməklə əldə edilən gəlirlər. Bu gəlirlərdən dövlətin sərvətindən istifadə gəlirləri, vergilər, vergiyəbənzər dövlət gəlirləri həqiqi dövlət gəlirləri hesab olunur. Xəzinə imkanlarından istifadə etməklə əldə edilən gəlirlər isə fövqəladə dövlət gəlirləri adlanır.

Fövqəladə dövlət gəlirləri dövlətə şübhəsiz xeyli gəlir gətirir. Lakin bu gəlirlərin qeyri-həqiqiliyi ondadır ki, bu gəlirlərin əvəzi gələcəkdə həqiqi dövlət gəlirləri ilə ödənilməli və ya qaytarılmalıdır. Çün-

ki xəzinənin buraxdığı dövlət qiymətli kağızları və alınmış borc gələcəkdə mütləq ödənilməlidir.

Qeyd etmək lazımdır ki, dövlət və bələdiyyə gəlirlərinin sistemi birlikdə büdcə gəlirlərini təşkil edir. Yaranma mənşəyinə görə büdcə gəlirlərini vergilər, qeyri-vergilər və əvəzsiz köçürülmədən (qrantlar) ibarətdir.

İqtisadçıların fikrinə görə, dövlət gəlirlərinin əsas mənbəyi milli gəlirdir. Ancaq bəzi hallarda, xüsusilə müharibə, təbii fəlakət və s. hallarda dövlət gəlirlərinin mənbəyi kimi əvvəllər toplanmış milli varidat da çıxış edə bilər. Bu zaman büdcə vəsaitlərinin keçmiş ildəki qalığı, qızıl ehtiyatının satışından əldə edilən gəlir, dövlət əmlakının pulu satışı qaydasında özəlləşdirilməsindən əldə edilən vəsaitlər dövlət gəlirləri kimi səfərbərliyə alına bilər.Dövlət gəlirlərinin mənbələrini iki əsas qrupa bölmək olar – daxili mənbələr və xarici mənbələr. Daxili mənbə ölkə daxilində yaradılan və dövlətin ona xas olan vəzifələrini yerinə yetirmək üçün istifadə etdiyi milli gəlir və milli varidatdır.Xarici mənbə isə dövlət borcu formasında alınan digər ölkələrin milli gəliri və yalnız xüsusi hallarda milli varidatıdır.

İqtisadi ədəbiyyatda büdcə gəlirləri ölkənin dövlət quruluşundan asılı olaraq unitar (vahid), mərkəzi (dövlət) və yerli büdcələrin gəlirlərinə bölünürlər . Onu da qeyd edək ki, büdcə gəlirləri dövlət gəlirlərindən fərqli olaraq daha dar mənaya malikdir. Belə ki, bütün səviyyəli büdcələrin maliyyə vəsaitlərindən başqa, buraya büdcədənkənar fondların və bütün dövlət sektorunun vəsaitləri də daxildir.

Azərbaycan Respublikasında büdcənin gəlirləri təsnifata uyğun olaraq 4 hissədən – vergilərdən daxilolmalar, vergi olmayan gəlirlər, əsaslı ödənişlər və əvəzsiz olan vəsaitlər (transfertlər) hesabına formalaşır.

Vergilər və digər dövlət gəlirləri ilə dövlət büdcəsinə səfərbərliyə alınan vəsaitlər büdcə vasitəsilə yenidən bölüşdürülərək milli iqtisadiyyatın inkişafının müxtəlif istiqamətlərinə yönəldilir. Büdcə xalq təsərrüfatının bütün sahələrini özü ilə əlaqələndirir. Büdcə gəlirləri məcmu milli məhsulun dəyər formasında bölüşdürülməsi nəticəsində yaradılır. Büdcə gəlirlərinin yaradılması dövlət tədbirlərinin həyata keçirilməsi üçün vacibdir. Büdcə gəlirləri ərazi, sahə və məqsədli təyinatı üzrə yaradılır. Büdcə gəlirləri dövlət gəlirləri sisteminin əsas tərkib hissəsi olmaqla möhkəm gəlirlərə əsaslanır.

Gəlirlər sahəsində büdcə siyasəti gəlirlərin artım templərinin müəyyən edilməsi, müxtəlif gəlir növləri arasında nisbət, büdcə-vergi siyasəti, büdcə sisteminin halqaları arasında gəlirlərin bölüşdürülməsi istiqamətlərini əhatə edir. Dövlət büdcəsinin gəlirləri dövlətin maliyyə ehtiyatlarının təxminən 2/3 özündə birləşdirir. Büdcə gəlirlərinin əsas hissəsi müəssisə və təşkilatlardan daxil olan vergilər hesabına təşkil edilir.

İqtisadi ədəbiyyatlarda göstərilir ki, vergiqoymada ən mühüm prinsip amillərdən biri səmərəlilik prinsipidir. Vergiqoyma istehsal imkanlarını pisləşdirmək, stimulları zəiflətmək və resursların yerləşdirilməsi prosesini təhrif etmək və iqtisadi səmərəliliyə zərər vura bilər, yaxud ölçülüb-biçilmiş vergiqoyma şərtləri arzu olunan iqtisadi fəaliyyət növlərinin inkişafına stimul yarada bilər.

Vergilərin səmərəli olması üçün üç əsas xüsusiyyətlərin zəruriliyi mütləqdir. Bu xüsusiyyətlər vergilərin faydalılığı, vergilərin möhkəmliliyi və vergilərin elastikliyindən ibarətdir. Vergiqoymada faydalılıq verginin səmərəliliyinin artırılması, verginin yığılmasının maksimum normada həyata keçirilməsi deməkdir. Verginin faydalı olması, hər şeydən əvvəl, verginin ümumi olması ilə bağlıdır. Vergilər öz məzmununa uyğun olaraq gəlir, xərc sərvət və s.-dən asılıdır.

Vergilər, həm də ilk növbədə, büdcənin gəlirinin mənbəyi kimi deyil, əsas etibarilə iqtisadiyyatın tənzimlənmə aləti iqtisadiyyata müdaxilə vasitəsi kimi qiymətləndirilir. Vergilər vasitəsilə iqtisadiyyata müdaxilənin yolları çoxdur. Bunlardan ən mühümlərindən biri vergilərin artırılması və ya azaldılması yolu ilə iqtisadiyyata müdaxilə edilməsidir. Burada vergilər bütövlükdə artırılır. Bu halda iqtisadi sahədə inkişaf daha tez hiss edilir. Dolayı vergilərin azaldılmasının həyata keçirilməsi, satılan malların qiymətlərini aşağı salır. Bu hal bir tərəfdən, satışı stimullaşdırır, başqa bir tərəfdən şəxslərin gəlirlərini artırır, iqtisadiyyatda məcmu tələbin səviyyəsini yüksəldir. Buna müvafiq olaraq dolayı vergilərdə artım baş verərsə, satılan malların qiymətlərini yüksəldir və bu mallara olan tələbatı və istehlaklarını azaltmış olurlar. Müasir iqtisadiyyatda dövlətin gəlirlərinin böyük ölçüdə artdığı və hətta milli məhsulun 40%-dən çoxunu əhatə etdiyi bir şəraitdə bu vergilərin təsirsiz qalması heç cür mümkün deyil. Özü də vergilər dövlət gəlirlərinin böyük bir hissəsini təşkil etdiyi halda, vergilər istehsala əsas etibarilə stimullaşdırma investisiya həcmi, istehsal maliyyəsi, məşğulluq norması və idarəetmənin texniki təşkili vasitəsilə təsir edir.

Vergilərin iqtisadi stimullaşdırmaya mənfi təsir göstərməsi daha çox müzakirələrə səbəb olur. Çünki vergilər şəxslərin əldə etdikləri ticarət gəlirlərini və əməkhaqqı şəklində əldə etdikləri gəliri azaldır. Hər bir vergi sistemi tənzim olunarkən qəbul olunan əsas məqsəd vergilərin stimullaşdırmaya ola biləcək mənfi təsirinin qarşısını almaqdır. Burada əsas məqsəd və diqqət stimullaşdırmaya daha səmərəli təsir edən vergi sisteminin təşkil edilməsinə yönəldilir. Vergilər investisiya qoyulmasında istifadə olunan yığımların bölgüsünü dəyişərək investisiya həcminə təsir edir. Vergi faizinin artması investisiyaya azaldıcı göstərdiyi halda vergilərin aşağı salınması investisiyaları artırır. Vergilərin istehsal məsrəflərini azaltmaqla və ya artırmaqla istehsalın ümumi həcminə çox böyük təsir göstərə bilər. Istehsalçılar satın aldıqları mallara əlavə dəyər və s. vergilər ödəyirlər. Bu vergilər istehsal maliyyəsinə və istehsal qiymətinə böyük təsir göstərir. Ona görə də istehsalçıların satın aldıqları mallar və xidmətlərdən tutulan vergilərin müəyyən dövrlərdə artırılması və ya azaldılması istehsal maliyyəsinə və istehsal qiymətinə də təsir edir.

Rüsumların digər daxilolmalardan fərqi ondan ibarətdir ki, rüsum tutularkən dövlət onun müqabilində müəyyən xidmət göstərir. Hər bir büdcə sistemi halqası özünün qanunvericiliklə müəyyən olunan və «Büdcə haqqında» qanunla hər il təsbit olunan gəlir mənbələrinə malikdir. Qanunvericiliyə görə milli gəlirin və milli gəlirin və milli varidatın hansı hissəsinin büdcə vasitəsilə yenidən bölüşdürüləcəyi hər il büdcə haqqında qanunda elan edilməlidir.

Qeyd etmək lazımdır ki, respublikamızın bazarla tənzimlənən iqtisadiyyata keçməsi ilə əlaqədar olaraq vergilərin rolu və əhəmiyyəti getdikcə artmaqdadır. Müxtəlif mülkiyyət formalarının mövcudluğu və özəl təsərrüfatlarda ümumi daxili məhsulun 85 %-nin istehsal edilməsi büdcənin əsasən vergilərə istiqamətləndirilməsini zəruri edir.

Qeyd etmək lazımdır ki, büdcə gəlirlərinin effektiv formalaşdırılması və idarə edilməsi metodlarının təkmilləşdirilməsi məsələsi olduqca diqqəti cəlb edən məsələdir. Belə ki, bu proses «Büdcə sistemi haqqında» Azərbaycan Respublikasının Qanunu əsasında tənzimlənir.

Vergi dərəcələri vergi ödəmələrində də mühüm əhəmiyyətə malikdir. Vergi dərəcələri əslində dövlət büdcəsinin xeyrinə ayrılan vəsaitin miqdarını, kəmiyyət nisbətini göstərir. Dünyanın inkişaf etmiş ölkələrində bu nisbətlər müxtəlifdir.

İqtisadi mənbələrdən aydın olduğu kimi, Avropada vergilərin dərəcəsi digər ölkələrə nisbətən yüksəkdir.Məsələn, ABŞ-da və Kanada-da vergilərin ÜDM-də xüsusi çəkisi müvafiq olaraq 30% və 34% təşkil edir. Lakin bu dövlətlərdən fərqli olaraq Fransada, Avstraliyada, Danimarkada, Belçikada, Niderlandda, İsveçdə bu göstərici 40%, Almaniyada isə 37-38% təşkil edir . Lakin həmin müxtəlifliklərə baxmayaraq inkişaf etmiş ölkələr arasında bu sahədə müəyyən qanunauyğunluqlar vardır. Həmin qanunauyğunuqlardan biri mənfəətdən gəlir vergisi sahəsində edilən güzəştlər və həmçinin onların yerinə yetirdikləri funksional vəzifələrdir. Bu funksional vəzifələr investisiyanın, elmi-texniki tərəqqinin, sahibkarlıq fəaliyyətinin və s. stimullaşdırmasıdır. Bundan başqa , bir sıra ölkələrdə stimul rolunu amortizasiyanın sürətləndirilməsi təşkil edir.

Dünya ölkələri təcrübəsində əsas məsələlərdən biri verginin iqtisadiyyatın stimullaşdırılması və sabitləşməsi tədbirləri ilə əlaqələndirilməsidir. Bu əslində təklif nəzəriyyəsinə, istehsal amillərinin stimullaşdırılması konsepsiyasına uyğundur. Bəzi iqtisadçılar bu mənada tamamilə alternativ mövqe tutur və göstərir ki, verginin funksiyası yalnız vəsait toplamaqdan ibarət olmalıdır. Bu fikir vergi vasitəsilə stimullaşdırmanın ədalətsiz rəqabətə, gizli gəlirlərin törəməsinə, əmək, kapital və digər resursların səmərəsiz bölüşdürülməsinə göstərdiyi təsirlə izah edilir.

## 2. Azərbaycanda dövlət büdcəsi gəlirlərinin formalaşması və idarə olunması xüsusiyyətləri

Son illər Azərbaycanda aparılan uzunmüddətli uğurlu iqtisadi siyasət nəticəsində respublikamızda sürətli və dayanıqlı iqtsiadi inkişafı təmin olunmuş, Azərbaycan iqtisadiyyatının dünya iqtisadi inteqrasiyasında böyük irəliləyişlər əldə edilmiş, ölkəmiz regiondakı beynəlxalq əhəmiyyətli layihələrin hazırlanması və həyata keçirilməsində aparıcı dövlətə çevrilmişdir.

2008-ci ildə dünyanın əsas maliyyə mərkəzlərində başlayan böhranın dalğası Azərbaycanın aid olduğu bölgədəki ölkələri də sarsıdaraq həmin dövlətlərdə iqtisadi vəziyyətin pisləşməsinə, ÜDM-in həcminin və gəlirlərin azalmasına gətirib çıxarmış, investisiya qoyuluşları və kreditlərin cəlb edilməsi imkanlarını məhdudlaşdırmışdır. Odur ki,

belə bir şəraitdə böhranın Azərbaycan iqtisadiyyatına, onun dövlət büdcəsi sisteminə təsirinin qiymətləndirilməsi aktual xarakter daşıyır. Qlobal maliyyə-iqtisadi böhran Azərbaycandan da yan keçməyərək, iqtisadiyyatımızın bəzi sahələrinə öz təsirini göstərmişdir. Əlverişsiz xarici mühit amilərinə baxmayaraq, respublika hökuməti maliyyə böhranının mənfi fəsadlarını qismən də olsa dəf etməyə nail olmuşdur. 2009-cu ildən başlayaraq dünya bazarında neftin və digər xammal növlərinin, o cümlədən metalın qiymətinin yüksəlməsi ixrac gəlirlərinin artmasına və nəticədə regional bazarda tələbin böyüməsinə səbəb olmuşdur ki, bu da Azərbaycanda xüsusilə qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərmişdir.

Təhlil göstərir ki, Azərbaycan Respublikasının 2012-cu il icmal büdcənin gəlirləri 22,1 mlrd. manat çoxdur. Cədvəlin məlumatlarından göründüyü kimi, ölkə üzrə icmal büdcənin xərcləri 2012-ci ildə 19,8 mlrd. manat icra olunmuşdur ki, bu da 2006-cı illə müqayisədə 4,2 dəfə çox olmuşdur. Icmal büdcənin artıqlığı (profisiti) təhlil olunan dövrdə 18,5 dəfə artaraq, 2006-cı ildəki 124,8 mln. manatdan 2012-ci ildə 2312,5 mln. manata yüksəlmişdir.

AR DSK-nın məlumatlarına görə, ölkə üzrə 2012-ci il icmal büdcəsinin gəlirləri 22,1 mlrd. manat və ya 101,0 % icra olunmuşdur ki, bu da 2009-cu ilə nisbətən 2732,3 mln. manat və ya 14,1% çoxdur. İcmal büdcənin xərcləri isə 19,8 mlrd manat və ya 94,5% icra edilməklə, 2010-cu ilə nisbətən 6225,5 mln. manat və ya 12,0% çox olmuşdur.

Təhlil göstərir ki, dövlət büdcəsinə daxilolmaların həcmi 2012-ci ildə 17,3 mlrd. manat təşkil etmişdir ki, bu da 2003-cü illə müqayisədə 14,2 dəfə çoxdur.

2013-cü il dövlət büdcəsi gəlirlərinin 7149,0 mln. manatı vergilərdən daxilolmalar hesabına, 11350,0 manatı Dövlət Neft Fondunun vəsaitləri hesabına, qalan hissəsi isə digər mənbələrdən təmin olunması üzrə planlaşdırılır. 2014-cü ildə isə dövlət büdcəsi gəlirləri 18384.0 mln. manat təsdiqləndiyi halda, bu məbləgin 9337,0 mln. manatının Dövlət Neft Fondundan daxilolmalar hesabına formalaşması planlaşdırılır. Statistik məlumatların təhlili göstərir ki, vergi daxilolmalarının dövlət büdcəsinin gəlirlərində payı azalmışdır. Belə ki, əgər 2009-cu ildə bu göstərici 49,7%-ə bərabər idisə, 2010-cu ildə bu göstərici 47,5 %-ə, 2012-ci ildə isə 42%-ə enmiş, 2013-cü ildə isə 37,3 %-ə bərabər olmuş, 2014-cü ildə isə 33,4%-ə enməsi proqnozlaşdırılır.

**2003-2012-ci illərdə büdcə daxilolmalarının, onu təmin edən orqanlar üzrə inkişaf dinamikası (mln.manat)**

| Büdcə daxilolmalarını təmin edən orqanlar | İ L L Ə R | | | | | 2012-ci il 2003-cü ilə nisbəti %-lə |
|---|---|---|---|---|---|---|
| | 2003 | 2006 | 2010 | 2011 | 2012 | |
| Gəlirlərin cəmi | 1220,8 | 3868,8 | 11402,4 | 15700,7 | 17281,6 | 14,2 dəfə |
| **O ümlədən** | | | | | | |
| 1. Vergilər Nazirliyi | 817,9 | 2664,7 | 4292,8 | 5471,9 | 6025,5 | 7,4 dəfə |
| 2. Dövlət Gömrük Komitəsi | 212,2 | 516,0 | 1101,7 | 1141,5 | 1208,3 | 5,7 dəfə |
| 3. Əmlak Məsələləri Dövlət Komitəsi | 2,5 | 2,9 | 5,4 | 5,1 | 5,2 | 2,1 dəfə |
| 4 Dövlət Neft Fondu | 100,0 | 585,0 | 5915,0 | 9000 | 9905,0 | 99,1 dəfə |
| 5. Dövlət büdcəsindən maliy-yələşən təşkilatların büdcədən- kənar daxi lolmaları | 59,5 | 66,0 | - | - | - | - |
| 6. Sair | 28,7 | 34,2 | 87,5 | 82,2 | 121,2 | 4,2 dəfə |

Bütün bunların nəticəsində büdcə daxilolmalarında onu təmin edən orqanlar üzrə strukturunda xeyli dəyişikliklər baş vermişdir. Belə ki, büdcə gəlirlərinin strukturunda Vergilər Nazirliyinin xüsusi çəkisi 2003-cü ildəki 67,0 %-dən 2012-ci ildə 34,9 %-ə, Dövlət Gömrük Komitəsinin payı müvafiq olaraq 17,4 %-dən 7,0 %-ə enmiş, bunun müqabilində isə Dövlət Neft Fondunun payı müvafiq surətdə 8,2 %-dən 57,3%-ə yüksəlmişdir.

**2003 – 2012-ci illərdə büdcə daxilolmalarının, onu təmin edən orqanlar üzrə strukturu**

| Büdcə daxilolmalarını təmin edən orqanlar | İ L L Ə R | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2003 | 2006 | 2007 | 2009 | 2010 | 2011 | 2012 |
| Gəlirlərin cəmi O cümlədən | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| 1.Vergilər Nazirliyi | 67,0 | 68,9 | 75,1 | 39,8 | 37,7 | 34,8 | 34,9 |
| 2.Dövlət Gömrük Komitəsi | 17,4 | 13,3 | 12,8 | 10,8 | 9,7 | 7,3 | 7,0 |
| 3.Əmlak Məsələləri Dövlət Komitəsi | 0,2 | 0,1 | 0,1 | 0,1 | 0,4 | 0,03 | 0,03 |
| 4.Dövlət Neft Fondu | 8,2 | 15,1 | 9,7 | 47,6 | 51,9 | 57.3 | 57,5 |
| 5. Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları | 4,9 | 1,7 | 1,4 | 0,9 | -- | -- | -- |
| 6. Sair | 2,3 | 0,9 | 0,9 | 0,8 | 0,6 | 0,5 | 0,7 |

Təhlil göstərir ki, ümumi iqtisadi inkişafa uyğun olaraq büdcə gəlirlərinin artımı baş verir. Büdcə gəlirlərini strukturunda əsaslı dəyişikliklər nəzərdə tutulmuşdur. Bu baxımdan ilk növbədə, ümumi gəlirlər sırasında qeyri-vergi dövlət gəlirlərinin payının artması meylinin bərpa olunması qeyd edilməlidir.

Qeyd etmək lazımdır ki, büdcə xərclərinin planlaşdırılmasında nəzərə çarpan mühüm cəhətlərdən biri əhalinin sosial müdafiəsi və sosial təminatının gücləndirilməsi meylinin davam etdirilməsidir. Hesab

edirik ki, müvafiq xərclərin həcminin, pensiyanın baza hissəsinin, ehtiyac meyarının və s. bu kimi sosial normativlərin yaşayış minimumu səviyyəsinə hədəfləndirilməsi əhalinin həyat səviyyəsinin yüksəldilməsini davam etdirəcəkdir.

Bununla yanaşı, dövlət büdcəsi xərclərinin son illərdə olduğu kimi, artımla planlaşdırılması hökumətin sürətli inkişaf şəraitində iqtisadiyyatda inflasiya təzyiqinin yumşaldılması və dayanıqlı inkişafın təmin edilməsi məqsədlərinə yönəldilmiş müsbət yanaşması kimi dəyərləndirilməlidir. Onu da qeyd edək ki, neft gəlirlərindən büdcə məqsədlərinə istifadə olunmasında sitemliyin gücləndirilməsi üçün Dövlət Neft Fondundan transferin həcmi artırılmışdır. Gələcəkdə də böyük neft gəlirinin aktiv təsərrüfat dövriyyəsinə cəlb edilməsinin sürətlənməsinin davam edəcəyi proqnozlaşdırılır.

Dövlət Neft Fondu vəsaitlərinin son bir neçə ildə dövlət büdcəsinə fəal transfer dövründə belə, Fondun məcmu vəsaitləri ildən-ilə artır. Daha doğrusu, mühüm strateji məqsədlərə xidmət edən dövlət büdcəsinə vəsaitlərin yönəldilməsi özlüyündə düşünülmüş doğru addımdır. Odur ki, bunu heç bir halda gələcək nəsillərin payına müdaxilə kimi qiymətləndirmək olmaz. Ona görə ki, Neft Fondunun və dövlət büdcəsinin həmin vəsaitləri cari xərclərə yox, əsasən strateji layihələrin reallaşdırılmasına yönəldilir.

Hesablamalar göstərir ki, son illərdə gəlirlərin yenidən bölgüsü mexanizmi kimi dövlət büdcəsinin milli iqtisadiyyatda rolu da yüksəlmişdir. Büdcə gəlirlərinin ÜDM-ə nisbəti 2003-cü ildəki 17,1%-dən 2009-cu ildə 29,9%-ə , 2010-cu ildə 27,4%-ə çatmış, 2012-ci ildə 32,0 %, 2013-cü ildə 39% olmuşdur.

2013-cü il dövlət büdcəsinin gəlirləri 19159 mln. manat, xərcləri isə 19850 mln manat təşkil edir. 2013-ci ildə büdcənin gəlirləri 2011-ci ilə nisbətən 22,0%, 2012-ci ilə nisbətən 10,9 %, büdcənin xərcləri isə müvafiq olaraq 28,9% və 16,0% artmışdır. Dövlət büdcəsinin kəsiri 691 mln. manat məbləğində müəyyən edilmişdir ki, bunun da ÜDM-ə nisbəti 1,1% təşkil edir. Onu da qeyd edək ki, son illərdə dövlət büdcəsinin kəsiri Avropa Birliyi ölkələri üçün müəyyən olunmuş 3%-lik normadan yüksək olmamışdır. Eyni zamanda, 2013-ci ildə büdcə kəsirinin əvvəlki illərdən fərqli olaraq inflyasiya yaratmayan mənbələr hesabına maliyyələşdiriməsi nəzərdə tutulmuşdur. Bu mənbələrə özəlləşdirmədən, daxili və xarici borclanmadan daxilolmalar və 2012-ci ilin

1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı aiddir.

2013-cü il dövlət büdcəsi gəlirlərinin 7149 mln. manatı vergilərdən daxilolmalar hesabına, 11350 manatı Neft Fondunun vəsaitləri hesabına, qalan hissəsi isə digər mənbələrdən təmin olunması üzrə planlaşdırılır. Statistik məlumatların təhlili göstərir ki, vergi daxilolmalarının dövlət büdcəsinin gəlirlərində payı azalmışdır. Belə ki, əgər 2009-cu ildə bu göstərici 49,7%-ə bərabər idisə, 2010-cu ildə bu göstərici 47,5 %-ə , 2012-ci ildə isə 42%-ə enmiş 2013-cü ildə isə 37,3%-ə bərabər olacağı proqnozlaşdırılır. Bununla yanaşı, qeyd etmək lazımdır ki, vergi gəlirlərinin gözlənilən nisbi azalması artıq gələn ildə qeyri-neft sektorunun vergi gəlirlərinin artmasına mane olmayacaqdır.

Son illərdə neft gəlirlərinin artması və bu gəlirlərin bir hissəsinin ölkənin inkişafına yönəldilməsi büdcə gəlirlərinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olmuşdur. Neft strategiyasının uğurla reallaşdırılması nəticəsində yaranan neft gəlirləri büdcə gəlirlərinin artırılmasının əsas mənbələrindən biri kimi hələ uzun müddət qalacaqdır. Son illərdə Azərbaycanda həyata keçirilən büdcə siyasətinin əsas istiqamətlərindən biri əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasıdır. Bu məqsədlə dövlət büdcəsi hesabına əhalinin təhsil, səhiyyə və mədəni xidmətlərə tələbatların ödənilməsi, pensiya və sosial təminat səviyyəsinin artırılması nəzərdə tutulur.

Hazırkı şəraitdə ölkədə makroiqtisadi inkişafın xarakteri və səmərəliliyi xeyli dərəcədə sosial-iqtisadi siyasətin strateji məqsədlərindən asılıdır. Odur ki, iqtisadiyyatın real sektorunun modernləşdirilməsi və yenidən qurulmasının sürətləndirilməsinin məntiqi davamı kimi hökumət 2010-2015-ci illərdə iqtisadi siyasəti növbəti iki əsas məqsədə, daha doğrusu, rəqabətqabiliyyətli mili iqtisadiyyatın qurulmasına və sosial sahələrin inkişafına dövlət dəstəyinin gücləndirilməsinə nail olunmasına istiqamətləndirməyi nəzərdə tutur. Bu məqsədlə iqtisadiyyatın strukturunun optimallaşdırılması, qeyri-neft sektorunun üstün inkişaf etdirilməsi, təbii resurslardan istifadənin səmərəliliyinin artırılması olduqca vacibdir.

Bununla yanaşı, büdcə zərfində 2010-2015-ci illərdə dövlət tərəfindən iqtisadi tənzimləmənin aşağıdakı prioritetləri, dövlətin iqtisadiyyata müdaxiləsinin optimallaşdırılması, inhisarçılığa qarşı mübarizənin gücləndirilməsi, azad və ədalətli rəqabət mühitinin, makroiqtisadi sabitliyin gələcəkdə də təmin edilməsi məqsədilə adekvat monetar

və fiskal siyasət tədbirlərinin reallaşdırlmasının və koordinasiyasının gücləndirilməsi, qiymətli kağızlar bazarının inkişafının hərtərəfli stimullaşdırılması müəyyənləşdirilmişdir.

Azərbaycanın rəqabətqabiliyyətliliyinin yüksəldilməsində uğurlu büdcə siyasətinin mühüm rolu olmuşdur. Belə ki, 2014-cü il «Qlobal Rəqabət qabiliyyətlilik Hesabatı»nda Respublikamız iqtisadi sahədə rəqabətqabiliyyətliyinə görə 38-ci yerə layiq görülmüşdür.

Ölkədə sosial problemlərin həllini təmin etmək üçün davamlı iqtisadi inkişaf tempinə nail olmaq lazımdır. Bunun üçün isə makroiqtisadi sabitliyin təmin olunması, mükəmməl vergi sistemi formalaşdırılmalıdır. Həmin şərtlərin təmin olunması büdcə siyasətinin əsas məqsədlərindən hesab edilir. Bu məqsədlə büdcədə neftin qiymətinin ehtiyatlı sayıla biləcək proqnozu əsas götürülmüşdür. Yaxın illər ərzində neftin qiymətlərinin yüksək olaraq qalacağı gözlənilir və bunun da ölkənin maliyyə imkanlarının artmasına gətirib çıxaracağı şübhəsizdir. Hesab edirik ki, neft gəlirlərindən gələcək inkişafın təmin olunması üçün istifadə edilməsi yönümündə aparılan siyasəti təqdirəlayiq sayılmalıdır.

Tədqiqatlar göstərir ki, son illərdə neft gəlirlərinin dövlət büdcəsinə transferlərinin həyata keçirilməsi müəyyən inflyasiya təzyiqi yaradır. Lakin Mərkəzi Bank və hökumətin bu sahədə gördüyü tədbirlər bu təsiri zəiflədir. Hesab edirik ki, son illərdə büdcə xərclərinin artım tempi zəruri səviyyədə olmuşdur ki, bu da iqtisadiyyatın həmin xərclərə uyğunlaşmasını təmin etmiş və şok effekti yaratmasının qarşısını almışdır. Belə ki, 2013-cü ildə inflyasiyanın səviyyəsinin 5% olacağı, milli valyuta məzənnəsinin isə nisbətən sabit qalacağı proqnozlaşdırılır. Eyni zamanda, qeyri-neft sektorunun inkişafı da bu sahədən daxil olan vergi gəlirlərinin artmasına səbəb olacaqdır.

Son illərdə həyata keçirilən tədbirlər ölkədə investisiya və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına gətirib çıxarmışdır. Belə ki, vergi ödəyicilərinin hüquqlarının artırılması və mənafelərinin qorunması, vergi yükünün aşağı salınması, vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsi ilə əlaqədar məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Azərbaycan, Cənubi Qafqazda ən güclü iqtisadiyyata malik ölkə olaraq, regionun iqtisadi güc mərkəzinə çevrilmişdir. Hesablamalar göstərir ki, 2013-cü ildə Azərbaycanın dövlət büdcəsinin həcmi digər iki qonşu dövlətin (Ermənistan və Gürcüstanın) birlikdə büdcəsindən dəfələrlə çoxdur. Azərbaycanın 2012–ci ildə büdcə gəlirləri və xərcləri Er-

mənistanın müvafiq göstəricilərindən 6,3 dəfə və 5,7 dəfə çoxdur. Təkcə onu demək kifayətdir ki, 2012-ci ildə Azərbaycanın ümumilikdə hərbi xərcləri Ermənistanın bütövlükdə büdcəsindən xeyli yüksəkdir.

Azərbaycan dövlətinin maliyyə imkanlarının artması ölkədə həm fiziki, həm də insan kapitalının yaradılması istiqamətlərində investisiya qoyuluş -larının artırılmasına səbəb olmuşdur. Həmin sahələrin inkişafına çəkilən xərclər ölkə daxilində məcmu tələbin artmasına, nəticə etibarilə, qeyri-neft sektoru sahələrinin inkişafına müsbət təsir göstərir. Eyni zamanda, dövlət investisiyaları hesabına nəqliyyat, kommunal infrastrukturu, təhsil səhiyyə və digər sahələrin inkişafının təmin olunması insanların səmərəli fəaliyyəti üçün təminat imkanlarını artırılmaqla yanaşı, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından da mühüm amillərdən biri kimi çıxış edir. Bu baxımdan göstərilən həmin istiqamətlərə uyğun olaraq dövlət büdcəsindən kapital xərcləri son illərdə xeyli artmışdır. Belə ki, 2003-cü ildə dövlət əsaslı vəsait qoyuluşlarının həcmi 250 mln. manat idisə, 2010-cu ildə bu rəqəm 5307 mln. manata qədər artmış, 2013-cü ilin dövlət büdcəsində isə 3383 mln. manat məbləğində nəzərdə tutulmuşdur. 2013– cü ildə Dövlət Investisiya Proqramı çərçivəsində 4568,8 mln manat investisiya qoyuluşunun həyata keçirilməsi planlaşdırılır ki, bunun da 67,3 %-i infrastruktur layihələrinin payına düşür.

### 3. Dövlət büdcəsi gəlirlərinin strukturunda vergi daxilolmalarının rolu

Dövlət Büdcəsi gəlirləri sistemində mərkəzi yeri vergilər tutur. Bazar iqtisadiyyatı şəraitində maliyyə münasibətlərinin vergi forması üstünlük təşkil edir. Vergilər fiskal, iqtisadi və sosial əhəmiyyətə malikdir. Vergilər pul vəsaitləri mənbəyi olmaqla fiskal rolu yerinə yetirir. Vergi mexanizmini tənzimləməklə (güzəşt və s.) ictimai istehsal inkişaf etdirilir. Nəhayət, vergilər vasitəsilə mühüm sosial məsələlər həll olunur. Məsələn, müxtəlif sosial qrupların gəlirləri tənzimlənir və s.

Vergi siyasəti, ümumiyyətlə, kapital yığımı onun təmərküzləşməsi proseslərinə və əhalinin alıcılıq qabiliyyətinə təsir edir. Vergilər iqtisadi tsikllərin hamarlanması üçün fəal istifadə olunur. Belə ki, vergilərin tənzimləyicisi funksiyası vergilər vasitəsilə dövlətin təkrar istehsal prosesinə müdaxiləsi ilə əlaqədardır. Ölkədə istifadə olunan bütün vergi növlərinin, vergiqoyma üsul və prinsiplərinin məcmusu həmin

ölkənin vergi sistemini əmələ gətirir. Vergilər birbaşa və dolayı vergilərə bölünür. Birbaşa vergilər hüquqi və fiziki, eləcə də həm hüquqi, həm də fiziki şəxslərdən alınan vergilərdir. Hüquqi şəxslərdən alınan birbaşa vergilərə mənfəətdən vergilər, kommersiya bankları və sığorta cəmiyyətlərindən gəli vergisi, müəssisənin əmlakın görə vergi, sənaye müəssisələrindən sudan istifadəyə görə haqq, renta ödəmələri və s. Fiziki şəxslərdən alınan vergilərə gəlir və əmlak vergiləri, məqsədli yığımlar, həm hüquqi, həm də fiziki şəxslərdən alınan vergilərə isə torpaq vergisi, meşə vergisi, qiymətli kağızlarla əməliyyatlara görə vergi və s. aid edilir. Dolayı vergilərə aksizlər, fiskal inhisar vergiləri, gömrük rüsumları və həmçinin ƏDV aiddir. Büdcəyə qeyri-vergi gəlirlərinə pullu özəlləşdirmə, dövlətin istiqrazlarının və digər qiymətli kağızların satışından daxilolmalar aiddir.

Hazırda büdcə sistemində ən mühüm gəlir mənbəyi kimi daha böyük xüsusi çəkiyə malik olan vergi növündən biri, əlavə dəyər vergisidir. 1992-ci ildən Azərbaycan Respublikasında tətbiq olunan ƏDV dolayı vergi olmaqla dövriyyədən vergini əvəz etmişdir. ƏDV vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə verilən elektron vergi hesab fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməsi olan verginin məbləği arasındakı fərqdir.

Bazar iqtisadiyyatı ölkələrində əlavə dəyər vergisi ən səmərəli vergi növü sayılır. Bildiyimiz kimi, onun yığım sistemi sadədir. Bu vergi iqtisadiyyatın bütün sahələri aralarında bərabər bölünmüşdür. Lakin yuxarıda sadalanan keyfiyyətlərlə yanaşı, qeyd etməliyik ki, bu gün bazar iqtisadiyyatına keçmiş ölkələrdə əlavə dəyər vergisi dövlət büdcəsi gəlirlərinin əksər hissəsini təşkil etsə də, onun Dövlət Büdcəsi gəlirlərində payı ildən-ilə azalmaqdadır. Təbii ki, bu da vergi yükünün azalmasına xidmət edir.

Əlavə dəyər vergisi ilk dəfə 1958-ci ildə Fransada tətbiq edilmişdir. Azərbaycanda isə 01.01.1992-ci il tarixdən başlayaraq satış və dövriyyə vergisinin əvəzinə «Əlavə dəyər vergisi haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən tətbiq olunur. Respublikamızda bu vergi növünün faizi əvvəlki illərə nisbətən azalmaqdadır. Belə ki, əlavə dəyər vergisi dərəcəsi 1992-ci ildə 28% olmuşdursa, hal-hazırda 18% həcmindədir. Lakin inkişaf etmiş digər ölkələrlə müqayisədə bu yüksək göstəricidir.

ƏDV-nin dərəcəsi hər vergi tutulan əməliyyatın və hər vergi tutulan idxalın dəyərinin 18 faizidir. Vergi tutulan dövriyyə hesabat dövrü ərzində vergi tutulan əməliyyatın ümumi dəyərindən ibarətdir.

Dolayı vergilərdən birini aksiz vergisi təşkil edir. Aksizlər dolayı vergilər olmaqla dövlətin büdcə siyasətinin ən mühüm alətlərindən biri sayılır. Əksər hallarda dövlət öz iqtisadi maraqlarını bu vergi vasitəsilə həyata keçirməyə çalışır. Aksiz qanunvericilikdə müəyyən edilən aksizli malların satış qiymətinə daxil edilən dolayı (istehlak) vergi növüdür.

Azərbaycan Respublikasında aksizli mallara aşağıdakılar aid edilir: spirt,pivə və spirtli içkilərin bütün növləri; tütün məmulatları; neft məhslları; minik avtomobilləri (xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı avtonəqliyyat vasitələri istisna olmaqla); istirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələr.

Statistik məlumatların təhlili göstərir ki, aksiz vergisi 2005-ci ildə 141 mln. manat təşkil edirdisə, bu göstərici 2009-cu ildə 417,4 mln. manat olmuşdur. Lakin bununla belə, büdcə daxilolmalarında aksiz vergisinin payı 6,9 % dən 4,7 %-ə enmişdir. 2010-cu ildə bu göstərici 452,0 mln manat, 2012-ci ildə isə 454,6 mln manat olmuşdur.

Dövlət aksiz vergiləri vasitəsilə daxili istehlak bazarına nəzarət edir. Milli istehsalın qorunmasında aksizlərin rolu böyükdür. Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, aksizlərin istehsal baxımından büdcə gəlirlərində əhəmiyyəti o qədər də qənaətbəxş deyildir.

Dövlətin vergi resurslarının artırılmasında əsas yer mənfəət vergisinin payına düşür. Mənfəət vergisi birbaşa vergi olmaqla əldə olunmuş mənfəətin bir hissəsinin büdcəyə alınması formasıdır.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən mənfəət vergisi hüquqi şəxs olan bütün müəssisə və təşkilatlara, o cümlədən banklar, kredit idarələri sığorta təşkilatları, respublika ərazisində yaradılmış, xarici investisiyalı müəssisələr, sahibkarlıq fəaliyyətini həyata keçirən beynəlxalq birliklər və təşkilatlara aiddir. Azərbaycanda mənfəət vergisinin tətbiq olunması Birinci Dünya müharibəsi edən sonrakı illərə təsadüf edir. Hal-hazırda isə mənfəət vergisi dünya ölkələrinin hamısında tətbiq edilir.

Respublikamızda tutulan mənfəət vergisi inkişaf etmiş ölkələrdəki mənfəət vergisindən bir qədər fərqlidir, yəni mənfəət vergisi müəssisələrdə mənfəətdən deyil, xalis gəlirdən tutulur. Buna görə də hazır-

kı şəraitdə dünyanın əksər ölkələrində olduğu kimi, mənfəət vergisindən gəlir vergisinə keçilməlidir ki, bu da indiki şəraitdə müəssisə və təşkilatların fəaliyyətsizliyinin aradan qalxmasına təkan verər.

Hazırda respublikamızda müəssisənin mənfəətindən 20% dərəcə ilə vergi tutulur. Dövlət Büdcəsi gəlirlərinin formalaşmasında xüsusi yer tutan vergi növlərindən biri də fiziki şəxslərin gəlir vergisidir. Fiziki şəxslərdən gəlir vergisi vergi sistemindəki payına görə mühüm əhəmiyyətə malikdir. Dünya ölkələrinin əksəriyyətində bu verginin büdcə daxilolmalarında xüsusi çəkisi 25-30 faiz arasında olduğu halda, Azərbaycanda bu rəqəm 6-10 faiz arasındadır. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 2005-ci ildə edilmiş əlavə və dəyişikliklərə uyğun olaraq 2006-cı il 1 yanvar tarixindən gəlir vergisinin mövcud 3 pilləli vergi sistemindən 2 pilləli vergi sisteminə keçilmişdir və gəlirlərin miqdarından asılı olaraq bu vergi 14 və 35 dərəcələrlə tətbiq olunur.

Istehsalın artırılması yüksək məhsul səviyyəsinin əldə olunmasına, əhalinin işlə təmin olunmasına, yüksək gəlir əldə edilməsinə şərait yaradır ki, bu da büdcə gəlirlərində əhalinin gəlir vergisinin payının artmasına öz müsbət təsirini göstərmiş olur. Əhalinin gəlir vergilərindən daxilolmaları Türkiyə və Rusiya ilə müqayisə etsək görərik ki, respublikamızda bu göstərici çox aşağıdır. Buna əsas səbəblərdən biri kimi vergidən yayınma hallarının olmasını misal göstərmək olar.

Bir vacib məsələni qeyd etmək lazımdır ki, dünyanın inkişaf etmiş ölkələrində, həmçinin keçid iqtisadiyyatı şəraitində olan ölkələri də daxil olmaqla, əhalidən gəlir vergisinin büdcə daxilolmalarında payı daha yüksəkdir. Məsələn, hazırda ABŞ və Kanadanın dövlət büdcəsinin 42%-ə yaxını, Italiya və Ingiltərədə 30%-ə yaxını, Polşa və Macarıstanda isə müvafiq olaarq 15-18%-ə yaxını əhalidən gəlir vergisinin hesabına formalaşır ki, bunun da əksər hissəsini əməkhaqqı vergiləri təşkil etmiş olur. Əhalinin gəlir vergisindən daxilolmaların payı dünya praktikasından digər əsas göstərici ilə müqayisədə kəskin surətdə fərqlənir. Məsələn, əhalinin gəlir vergisindən daxilolmaların ümumi daxili məhsulda payı Almaniya. Niderland, Norveçdə 10-12%, Polşa, Macarıstan, Ukraynada 8-10%, Türkiyədə 61 %, Rusiyada 2,7 % təşkil edirsə də, bu göstərici bizim respublikada cəmi 1,5% həcmindədir.

Dövlət büdcəsinin formalaşmasında torpaq və əmlak vergisi mühüm rol oynayır.

«Mədən vergisi haqqında» Azərbaycan Respublikası Qanununa görə yerin təkindən faydalı qazıntıları çıxaran rezident və qeyri-rezident fiziki şəxslər, rezident müəssisələr, sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri- rezident müəssisələr vergi ödəyiciləridirlər.Mədən vergisinin artımı bağlanılan neft sazişlərinin, neft-mədən vergisinin artımı bağlanılan neft sazişlərinin, neft-qaz hasilatının artımı ilə sıx əlaqəlidir.

Əmlak vergisi 2005-ci ildə 40,4 mln. manat (2,0%) təşkil edirdisə, 2009-cu ildə bu rəqəm 66,2 mln. manat (0,6%) 2011-ci ildə 101,8 mln. manat, 2012-ci ildə 103,9 mln. manat olmuşdur. Dünyanın bir çox qabaqcıl ölkələrində əmlak vergisindən daxilolmalar getdikcə artmaqdadır. Məsələn, Ingiltərədə əmlak vergisinin Dövlət Büdcəsində payı 8 %-dir. Təbii ki, respublikamızın bu keçid şəraitində belə yüksək göstəriciyə nail olmaq mümkün deyil. Vergi qanunvericiliyində aparılan dəyişikliklər nəticəsində yaxın gələcəkdə iqtisadiyyatın dirçəldilməsi, büdcə kəsirinin aradan qaldırılmasına şərait yaradılmasına müəyyən təsirini göstərəcəkdir.

Ölkə iqtisadiyyatının sağlamlaşdırılması, istehsalın genişləndirilməsi, artırılması üçün vergi sisteminin təkmilləşdirilməsi tələbi ön plana çəkilir. Əlbəttə, vergilərin büdcəyə daxil olmasının sabitliyini təmin etmək birinci vəzifə olmalıdır. Hazırda respublikamızda vergi sahəsində müəyyən islahatlar aparılır, lakin bununla yanaşı bir sıra neqativ hallar hələ də davam etməkdədir. Vergi sistemində aparılacaq islahatlar bütövlükdə cəmiyyəti əhatə etməlidir. Belə ki, vergi xidməti orqanlarının işi sadalanan tələblərə cavab verməlidir. Ən əvvəl vergi mədəniyyəti və vergi savadının artırılması məktəbdən başlayaraq, bütövlükdə təhsil sisteminin bütün pillələrində tədris proqramına daxil edilməlidir.

Milli iqtisadiyyatın sahə quruluşunun optimal məzənnəsinin, eləcə də konkret əmtəə, iş və xidmətlərin stimullaşdırılması üçün dövlət vergisi güzəştləri praktikasından təsirli vasitə kimi istifadə edilməlidir.Hazırki dövrdə vergidən yayınma halları ilə mübarizə son həddə çatdırılmalı, əhalinin, digər müəssisə və təşkilatların şüurlu olaraq vergi qanunvericiliyinə əməl etmələri üçün vergi orqanları təsirli və şüurlu bir orqan kimi nəzarəti gücləndirməlidirlər.

# X FƏSİL

# MİLLİ İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFINDA XARİCİ SİYASƏTİN ROLU

*"Xarici siyasət strategiyası dövlətin beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirir."*

***İlham Əliyev***

## 1. Davamlı inkişafın təmin edilməsində xarici iqtisadi siyasətin rolu

Milli iqtisadiyyatın fəaliyyətinin uzunmüddətli dövrə davamlı və dayanıqlı olması onun suverenliyinin və müstəqilliyinin təminatçısı olduğundan daim aktuallığını saxlayır və öz əksini dövlətin həyata keçirdiyi iqtisadi strategiyasında, siyasətində tapır. K.R.Makkonnell və S.L.Bryu qeyd edirlər ki, «iqtisadi siyasətin əsaslandırılması iqtisadi prinsiplərə istinad etməlidir… İqtisadi prinsiplər… arzu- olunmaz proseslərə nəzarət etmək və çətinlikləri üstələmək məqsədini güdən iqtisadi siyasətin işlənib hazırlanması üçün əsasdır». Belə ki, müasir şəraitdə iqtisadi siyasətin işlənib hazırlanması üçün əsas kimi götürülən iqtisadi prinsiplər, əsas etibari ilə iqtisadi qanunlar milli iqtisadiyyatların və onun əsasında qlobal iqtisadi sistemin davamlı inkişafını təmin etmək məqsədini daşıyır.

Hazırda milli iqtisadiyyatlar öz iqtisadi siyasətlərini reallaşdırarkən artıq yalnız iqtisadi artıma nail olunmanı deyil, həm qlobal səviyyədə həyata keçirilən davamlı inkişafın təmin edilməsinin əsas prinsiplərini nəzərə alırlar. Burada əsas məsələ, aşağıdakı prinsiplərə əməl edilməsidir:

İnkişaf uzunmüddətli olaraq hazırkı dövrdə yaşayan insanların tələbatını ödəməklə, həm də gələcək nəsillərin tələbatının ödənilməsi imkanlarını məhdudlaşdırmamalı;

Təbii resursların məhdudluğu və dünyanın ekoloji vəziyyəti nəzərə alınmalı, insanların elementar tələbatları ödənilməli və firavan yaşama istəklərinin reallaşdırılması üçün imkanlar yaradılmalı;

Əhalinin artım surəti və sayı dünyanın ekosisteminin istehsal potensialı ilə əlaqələndirilməli, əsasən də biosferanın qlîbal insan fəaliyyətinin nəticələrinin öhdəsindən gəlməsi imkanları təmin edilməlidir.

Qeyd etmək lazımdır ki, XXI əsrin əvvəllərində dünya iqtisadi və elmi fikrində davamlı inkişaf mövzusu xüsusi aktuallıq kəsb etməyə başladı. Məhz dünya səviyyəsində davamlı inkişaf tipinə keçid bir sıra səbəblərlə izah edilir: iqtisadi, ekoloji, sosial böhranların və sahibkarların, siyasətçilərin, alimlərin baxışlarında uyğunsuzluğun artması, təsərrüfat subyektlərinin məqsədlərinin konfliktliliyinin güclənməsi baş verdi. Bütün bu kimi səbəblər isə öz növbəsində dünya birliyini narahat edən məsələlər üzrə ümumi bir razılığa gəlməyə vadar etdi. Davamlı İnkişaf üzrə Yoxannesburqda (2002-ci ildə) Ümumdünya Sammitində dünya birliyinin 2005-ci ilin dekabrından başlayaraq 2014-cü il ərzində Davamlı İnkişafa keçməsi haqda qərar Qəbul olundu. Bu sammitin qərarlarının reallaşması planına əsasən hər bir ölkə davamlı inkişafa nail olmaya kömək göstərmək məqsədi ilə Davamlı İnkişafla bağlı dəqiq və səmərəli qanunlar qəbul etməli, institusional bazanın möhkəmləndirilməsi üzrə digər tədbirləri həyata keçirməlidir. «Davamlı İnkişaf» termininin çoxsaylı izahlarına baxmayaraq onun altında Q.X. Brundtlandın verdiyi tərifə görə, «Davamlı iqtisadi inkişaf – uzunmüddətli zaman intervalında müsbət artım və balanslaşdırılmış qarşılıqlı təsir əsasında iqtisadi sistemin tərkibi hesab olunan bir halın digəri tərəfindən davamlı olaraq yaxşılaşdırılmasıdır».

Belə ki, Davamlı İnkişaf İqtisadi tərəqqinin əldə olunmasını ətraf mühitin imkanlarının tükədilməsi hesabına deyil, əksinə insan davranışı və iqtisadi fəaliyyətinin dünyada mövcud olan bütün səviyyələrinə (lokal, regional və s.) və müxtəlif (bioloji, kimyəvi, fiziki, texniki və s.) sahələrinə aid olan tsikllərla uzlaşdırılmasını, istənilən milli iqtisadi sistemin isə qlobal səviyyəli bağlı bir mühitin bir hissəsi, elementi kimi nəzərə alınmasını tələb edir. Belə yanaşmanın formalaşması milli iqtisadi sistemlərin kəmiyyət göstəricilərinə əsaslanan iqtisadi artımdan tədricən keyfiyyət göstəricilərini əsas kimi götürən səmərəli iqtisadi inkişafı seçməsinə səbəb olur. Tam səmərəliliyin əldə edilməsi milli iqtisadiyyatların can atdığı, lakin təcrübədə hələ mümkün olmayan bir prosesə çevrilməsi, son nəticədə onun milli iqtisadiyyatlar tərəfindən əhalisinin kəmiyyət və keyfiyyət baxımından zəruri olan nemətlərlə əsaslı təminatı məqsədinə çevrilmişdir.

Hal-hazırda Azərbaycan iqtisadiyyatının davamlı inkişaf modelinə keçidi onun həm müstəqilliyinin qorunmasını, həm də təhlükəsizliyinin təminini, qloballaşma şəraitində iqtisadi maraqlarının reallaşmasını həyata keçirə bilən, öz xüsusiyyətləri və vəzifələri, strateji və taktiki yanaşmaları ilə fərqlənən yeni bir istiqamətdə xarici iqtisadi siyasətinin aparılmasını tələb edir. Xarici iqtisadi siyasətin dövlətin iqtisadi siyasətinin ayrılmaz, bir çox hallarda ölkədəki sosial-iqtisadi və s. proseslərə daha çox təsir göstərə bilən istiqaməti olduğunu nəzərə alsaq onun məqsədlərinin davamlı inkişaf baxımından təyini respublikamızın gələcək inkişafı üçün zəzurət doğurur. Davamlı inkişaf istənilən şəraitdə inkişafa nail olmaq, onu saxlamaq və davam etdirmək istəyini əks etdirdiyindən indiyə qədər mövcud olan və xarici fəliyyətdə reallaşdırılan «xammal» əsaslı modelin çatışmazlıqlarını nəzərə almaqla, hazırda tam yeni tələblər, standartlar üzərində qurulan inkişaf modelinə keçilməsi dövlətin qarşısında duran vaçib prioritet hesab edilir. Qeyd etmək lazımdır ki, inkişafın Azərbaycan modeli ilk əvvəllər əgər iqtisadi qeyri-sabitlik, dövri olaraq maliyyə və hətta sosial-siyasi böhranlara gətirə bilən vəziyyət xasdırsa, artıq son bir neçə ildə hətta dünyada baş verən maliyyə böhranının ağır nəticələri ölkəmizin iqtisadiyyatına əhəmiyyətli təsir göstərməmiş və Azərbaycan bir çox ölkələrə nisbətən daxili sosial-iqtisadi sabitliyini qoruyub saxlamışdır. Yəni iqtisadiyyatda mövcud olan sabitlik artıq «xammal»a əsaslanan modeldən imtina etmək üçün əldə edilmiş ilk nailiyyətdir. Bundan əlavə ölkədə sabitliyin xammaldan, bizim halda isə neft və neft məhsullarından, onların dünya bazarındakı qiymətindən birbaşa asılı olması problemidir. Bu asılılıq xarici ticarətdə belə məhsulların çəkisinin yüksək olması ilə daha da artır. Belə bir modeldə ölkənin sosial-iqtisadi inkişafının dünya neft qiymətlərinin dinamikasından asılılığı iqtisadi siyasət və institusional islahatlardan asılılığına nisbətdə daha yüksək olur. Ona görə də sosial-iqtisadi inkişafın proqnozları hazırlanarkən və büdcə layihəsi tərtib olunarkən neft və neft məhsullarının qiymətlərinin dəyişməsini nəzərə almaq lazımdır. Bu səbəbdən gələcək dövr üçün davamlı inkişafı təmin etmək üçün ölkənin neftdən asılılığının azaldılması, zəiflədilməsi zərurəti yaranır ki, bu da yeni iqtisadi inkişaf istiqaməti və strategiyasının seçimini labüd edir və bir vəzifə olaraq qarşıya qoyulur. Davamlı inkişaf modelini seçən bir ölkə onun əsas şərti olan resurslara qənaət və onların gələcək nəsillərə saxlanılaraq çatdırılması tələbini mütləq nəzərə almalı və yerinə yetirməlidir. Bu isə

tamamilə reallaşdırılan modellə uyğunlaşmır. Həm də nəzərə alsaq ki, «xammal» əsaslı iqtisadi model resursların tükənməsi, yeni yataqların kəşfiyyatı və istismarının get-gedə daha yüksək kapital qoyuluşu tələb etməsi səbəbindən iqtisadiyyatın normal inkişafını uzunmüddətli dövrə təmin edə bilmir. Bu da ölkəyə daxil olan maliyyə vəsaitlərinin, gəlirlərin yaranmasının artıq qeyri-neft sektorunun və digər aktivlərin inkişaf etdirilməsi hesabına baş verəcəyi yeni, davamlı inkişafa əsaslanın bir iqtisadi inkişaf modelinin üstünlüyü kimi qəbul olunmalıdır. Qeyd etmək lazımdır ki, «xammal» əsaslı iqtisadi modelin daha bir çatışmazlığı xammal ixracının dünya bazarında onun qiymətlərinin artması hesabına yüksəlməsi bazarda iqtisadi paradoksa, yəni əmək və kapital ehtiyatlarının ticari sektordan sıxışdırılaraq hasilat sektoruna ötürülməsinə gətirir. Nəticədə, ÜDM artımı yüksək olsa da, emal sənayesində bu artım xeyli geri qalır və valyuta siyasəti sahəsində yerli məhsulların milli valyutanın məzənnəsinin hesabına rəqabətqabiliyyətliyinin artırılması isə xarici iqtisadi fəaliyyətə təsir etsə də, bu uzunmüddətli xarakter daşıya bilməz. Ona görə də həm ölkənin valyuta ehtiyatlarının saxlanılması, artırılması, həm də iqtisadiyyatda emal sənaye, kənd təsərrüfatı, nəqliyyat və digər sahələrin inkişafını uzun müddət təmin edə biləcək, rəqabət qabiliyyətliliyi və onun sayəsində həm müstəqilliyi, həm də təhlükəsizliyi təmin edəcək yeni modelin formalaşdırılması və reallaşdırılması prioritet seçilir.

Belə bir faktı göstərmək lazımdır ki, özünəməxsus, unikal cografi mövqeyinə görə Azərbaycanda xarici iqtisadi fəaliyyətin inkisafı Avropanı Çin ilə birləsdirən potensial Sərq-Qərb Trans - qafqaz nəqliyyat dəhlizi və Rusiyanı Iranla (Bəndər-Abbas limanınadək) birləsdirən Simal-Cənub nəqliyyat dəhlizinin inkisafı ilə sıx əlaqədardır. Nəticədə, Azərbaycanda ticarətin artımının potensial imkanlarından tam və səmərəli istifadə etmək üçün qonsu ölkələrlə siyasi sabitliyin olması, həmçinin nəqliyyat infrastrukturunun yüksək səviyyədə inkişafına nail olmaq zəruridir. Yəni Azərbaycanın cografi mövqeyi xarici ticarətdə onu tranzit qonsu ölkələrdən asılı edir və qonsu ölkələrin də tranzit infrastrukturunun inkisaf səviyyəsinin, idarəetmə prosedurlarının və təcrübəsinin təkmilliyini tələb edir. Ənənəvi təsir sferalarının yenidən qiymətləndirilməsi, müstəqilliyin qorunması ilə yanaşı, tarixən formalaşmış iqtisadi, siyasi, mədəni əlaqələrin saxlanılaraq daha da inkişaf etdirilməsi, mövcud resurs və imkanlardan daha rasional istifadə müxtəlif dövlətlərin, beynəlxalq təşkitlatların, iqtisadi qurumların, TMK

və s. həyata keçirdiyi fərqli, bəzən də milli maraqlarla ziddiyyət təşkil edən iqtisadi siyasətləri fonunda çoxşaxəli və balanslaşdırılmış xarici iqtisadi fəaliyyətin təşkilində həm də davamlı inkişaf mövqeyindən yanaşmaları və yeni yaranan amillərin təsirini nəzərə almaq zərurətini yaradır.

Dövlətin xarici iqtisadi siyasəti bir sıra məsələləri əhatə etdiyindən onun istiqamətləri kimi digər siyasətlərə da baxılır. Əsasən xarici iqtisadi siyasətin istiqamətləri kimi xarici ticarət siyasəti, xarici investisiya siyasəti, valyuta siyasəti və gümrğk siyasətləri qeyd olunur. Nəzərə alsaq ki, xarici iqtisadi siyasət ölkə daxilində iqtisadi artımın sürətləndirilməsi və ya zəiflədilməsi üçün istifadə olunan əsas makroiqtisadi alətlərdən biridir, onda onun davamlı inkişaf baxımından insanların rifahının yüksəldilməsi, fərdlərin, cəmiyyətin, nəhayət dövlətin həyat fəaliyyətinə təsirini də gözə almaq, həm qlobal, həm də milli zərzivədə yoxsulluğun ləğvi, ərzaq təminatı, təhlükəsizliyin təmini və digər məsələlərin həyata keçirilməsində rolunu diqqətdə saxlamaq da vacib hesab olunur. Bu qeyd olunan ümumi müddəaları qlobal iqtisadiyyatın təsiri ilə əlaqələndirsək və XXI əsrin ilk onilliyində müxtəlif ölkələrin xarici iqtisadi siyasətlərinə nəzər salsaq, onda dövlətlərin xarici iqtisadi siyasətlərində milli iqtisadiyyatın xüsusiyyətlərini və ərazisinin miqyasını nəzərə almaq şərti ilə öz əhalisini enerji, xammal, ərzaq, ucuz və rahat nəqliyyat yolları ilə təmin etmək, yeni texnika və texnologiyanın əldə olunması imkanlarını yaratmaq, əmək miqrasiyasını tənzimləmək və s. kimi vəzifələrin qarşıya qoyulduğunu müşahidə etmiş olarıq. Müasir dövrdə xarici iqtisadi siyasət bütün xarici iqtisadi fəaliyyət sahələrini, yəni əmtəə və xidmətlərin, maddi, əmək, maliyyə, informasiya, intellektual resusrların beynəlxalq yerdəyişməsini tənzimləyir. Belə bir halda, fikrimizcə, qeyd edilən xarici ticarət siyasəti, xarici investisiya siyasəti, valyuta siyasəti və gömrük siyasətlərilə yanaşı, istehsal və elmi-texniki əməkdaşlıq sahələrində siyasət, yeni texnologiyaların ötürülməsi sahəsində siyasət, kredit siyasəti, innovasiya siyasəti artıq xarici iqtisadi siyasətin istiqamətlərinə çevrilir. Onlar bir növ xarici iqtisadi siyasəti vahid bir sistem kimi formalaşdıran elementlər olmaqla, onun səmərəli həyata keçirilməsinə xidmət edir.

Digər tərəfdən ölkələrlə iqtisadi əməkdaşlıq zamanı müxtəlif resurslara olan tələbat, onların mövcudluq imkanları və mobilliyindəki fərqlərin də nəzərə alınması vacib şərt kimi çıxış etməyə başlayıb. Əgər XX əsrdə ölkələrin xarici iqtisadi siyasətində əsas kimi istehsalın

ixtisaslaşması və istehsal xərcləri, ərazi yaxınlığı və s. müqayisələrin aparılaraq səmərəliliyinin müəyyən edilməsi götürülürdüsə, artıq XXI əsrdə iqtisadi artımın inkişaf səviyyəsi, elmi-texniki tərəqqinin nailiyyətlərinin və innovasiyaların tətbiqi potensialı, iş qüvvəsinin hazırlıq dərəcəsi, idarəetmədə kreativ kadrlardan istifadə səviyyəsi, bilik və informasiya əldə etmək, reallaşdırmaq imkanları, iqtisadiyyatda fəaliyyət göstərmə forması kimi şaquli-üfüqi əlaqələrdən tədricən üfüqi-şəbəkə əlaqələrə keçid kimi məsələlərə diqqət artmaqdadır. Bunlar isə xarici iqtisadi fəaliyyətin daha da mürəkkəbləşdiyini və daha yüksək inkişaf səviyyəsində beynəlxalq rəqabətin nə dərəcədə çətin, çoxşaxəli olmasını əks etdirir.Bu səbəbdən bir sıra iqtisadi mənbələrdə qeyd edilən xarici iqtisadi siyasətin əsas prinsiplərinin həyata keçirilməsinə diqqət yetirilməlidir. Belə ki, xarici iqtisadi siyasətin məqsədlərinin daxili iqtisadi siyasətin prioritetlərinə əsaslanması və hər iki istiqamətdə nəzərdə tutulan məqsədlərin bir inkişaf istiqaməti üzrə təyin edilərək reallaşdırılması baş verməlidir. Bundan əlavə, dünyada biliklər və informasiya cəmiyyətlərinin formalaşdırılmasına üstünlüyün verilməsini nəzərə almaqla iqtisadiyyat innovasiya yönümlü inkişaf yoluna keçməli və reallaşdırılan xarici iqtisadi siyasət buna xidmət etməlidir.Bir tərəfdən inteqrasiya proseslərinin nəticələrini, digər tərəfdən isə həm mövcud olan, həm də proqnozlaşdırılan iqtisadi, siyasi, hərbi və digər riskləri nəzərə almaqla milli maraqların gözlənilməsi və reallaşdırılmasının təmini, o cümlədən yerli müəssisələrin dünya bazarlarında iştirak payının artırılması üçün investisiya qoyuluşu, əmtəə və xidmət ixracı və s. sahələr üzrə himayədarlıq, müdafiə və digər zəruri tədbirlər zəruriliyinə görə təyin edilməlidir. Qeyd etmək lazımdır ki, rəqabət mühitinin həm daxili bazarda, həm də yerli istehsalçılar üçün xarici bazarlarda ədalətli olması üçün imkanlar formalaşdırılmalı və strateji sahələrin müəyyən olunması və bu istiqamətdə uzunmüddətli inkişaf proqramlarının təyin edilməsi zamanı xarici və milli maraqların qarşılıqlı uzlaşdırılması nəzərə alınmalıdır.

İqtisadi inkişafın müasir mərhələsində həm ənənəvi sahələr üzrə, həm də yüksək texnologiyalar, informasiya və biliklər iqtisadiyyatı sahələrində müqayisəli üstünlüklərin təyin edilməsi ilə qlobal iqtisadi sistemdə ölkənin iştirakı və ixtisaslaşması təmin edilməlidir. Həmçinin qlobal problemlərin həll edilməsi prosesində və beynəlxalq inkişafın humanitar, innovasiyon və texnoloji potensialının formalaşmasında ölkəmizin yaxından iştirak etməsi təmin edilməlidir.

Milli iqtisadiyyatın beynəlmiləlləşmə və qloballaşma şəraitində təcrid olunmasının praktiki olaraq qeyri-mümkün olması xarici iqtisadi sferada baş verən proses və tendensiyaların, qanunauyğunluqların milli maraqlarda nəzərə alınmasını, dövlətdən isə reallaşdırılan xarici iqtisadi əlaqələri təkmilləşdirməyi tələb edir. Bu təkmilləşmə isə öz növbəsində həyata keçirilən xarici iqtisadi siyasətin məqsədlərinin də dəyişməsini gündəmə gətirir. Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli Sərəncamına əsasən hazırlanmış və 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında göstərilir ki, "hazırkı mərhələdə qarşıda duran əsas vəzifə iqtisadiyyatın şaxələndirilməsini sürətləndirmək, neft gəlirlərinin səviyyəsindən asılı olmayaraq qeyri-neft sektorunun yüksək inkişaf tempini gələcək illərdə də qoruyub saxlamaq və onun ixrac imkanlarını genişləndirməkdir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında ixracyönümlü iqtisadi model əsas götürülmüşdür və nəzərdə tutulur ki, iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır. Qeyri-neft sənayesinin sürətli inkişafı ilə yanaşı, innovasiya fəaliyyətinin təşviqi və genişləndirilməsi ölkədə biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün əlverişli zəmin yaradacaqdır." Uzunmüddətli dövr üçün xarici iqtisadi siyasətin əsas məqsədi kimi milli iqtisadiyyatın qlobal rəqabət-qabiliyyətliliyinin artırlması mövqeyindən çıxış etdiyindən dünya əmək bölgüsündə ölkənin səmərəli iştirakını təmin etmək üçün ölkənin yüksək texnologiyalı əmtəələr və keyfiyyətli emal məhsulları, intellektual xidmət üzrə beynəlxalq əmək bölgüsündə ixtisaslaşmasını təmin etmək dünya enerji bazarlarının fəaliyyət göstərməsi qaydalarında və qlobal enerji infrastrukturunun yaradılmasında iştirak etməklə enerji ehtiyatlarının dünya bazarına çıxarılması sahələrində gələcək mövqelərini möhkəmləndirmək beynəlxalq nəqliyyat, aqrar sektorları, ərzaq məhsullarının istehsalı və kənd təsərrüfatı məhsullarının emalı üzrə rəqabət üstünlüklərindən istifadə etməklə ixrac potensialını artırmaq lazımdır. Bundan əlavə, yüksək qlobal risklər fonunda milli iqtisadiyyatın dayanıqlı inkişafına xidmət edəcək dünya iqtisadi mərkəzləri ilə sabit diversifikasiya olunmuş iqtisadi-siyasi əlaqələrin təmin edilməsi və ölkənin qlobal problemlərin həllində səmərəlilik baxımından təhlil edilərək iştirak payının müəyyən edilməsi məsələsi olduqca vacibdir.

Qeyd etmək lazımdır ki, Beynəlxalq bazarlarda ixtisaslaşmaya üstünlük verən, istehsal texnologiyasını, innovasiya potensialını inki-

şaf etdirən və beləliklə, yüksək əlavə dəyər yaradan sahələri təşviq edən ölkələrin qlobal və regional səviyyədə rəqabətədavamlılığının artacağı gözlənilir. Sənayenin innovasiyalar əsasında inkişafı elm və texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır. İnkişaf etməkdə olan ölkələrin məhsuldarlığa əsaslanan iqtisadi artıma nail olmaları və müqayisəli üstünlüyü olan yeni istehsal sahələrini formalaşdırmaları zəruridir. Belə ki, hazırkı mərhələdə qarşıda duran əsas vəzifə qeyri-neft sektorunun daha sürətli inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini və rəqabət qabiliyyətini artırmaq və onun innovasiya- əsaslı irəliləyişini təmin etməkdir. Başqa sözlə, artıq indidən ənənəvi iqtisadiyyatdan "bilik iqtisadiyyatına" keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir. Bu isə iqtisadi modelin formalaşdırılmasında müvafiq tələblər irəli sürməklə bərabər, təhsil sisteminin də kökündən dəyişdirilməsinə, əlavə təhsil, həyat boyu təhsil kimi komponentlərin əhəmiyyətinin artırılmasına gətirib çıxarır, həmçinin İKT və virtual tədrisin, kompyuter-şəbəkə biliklərinin rolunun artırılmasını nəzərdə tutur. Eyni zamanda, əsas missiyası yaradıcılığın, innovasiyaların stimullaşdırılmasına və bazarın tənzimlənməsinə dəstək olan əqli mülkiyyətin əhəmiyyəti də yüksələcəkdir. Bundan başqa, növbəti dövr dünya iqtisadiyyatının əsas mərkəzləri arasında tarazlığın dəyişməsi və bununla əlaqədar onun strukturca yenidən qurulması, regional iqtisadi birliklərin rolunun güclənməsi ilə səciyyələnəcəkdir. Azərbaycan üçün bu həm xarici iqtisadi inteqrasiya baxımından yeni imkanlar açır, həm də sosial-iqtisadi inkişafın istiqamətlərində ümumdünya kontekstini üstün tutmağı, lokal regional dairə ilə məhdudlaşmamağı, müxtəlif iqtisadi məkanların təsərrüfat əlaqələrində və bazarlarında iştirakdan yararlanmağı zəruri edir.

Azərbaycanda xarici iqtisadi siyasətin məqsədlərinə nailolma nətəcəsində artıq 2015-ci ilə "nüfuzlu beynəlxalq maliyyə institutunun proqnozlarına görə, bölgədə zəngin neft ölkələrindən olan Azərbaycanın valyuta ehtiyatları qarşıdakı illərdə əhəmiyyətli dərəcədə artacaq. Belə ki, qeyri-neft sektorunda artım ÜDM-də 40-45% yer tutmaqla maliyyə imkanlarının daha da yaxşılaşmasına təkan vermiş olacaq. İllik iqtisadi artımın təxminən 6-7% olması, maliyyə və makroiqtisadi sabitliyin indiki tempdə saxlanması, valyuta ehtiyatlarının il ərzində 5-10 milyard manat artması və digər makro amillər Azərbay-

canın «orta gəlirli ölkələr» qrupunun daha yüksək şkalasına çatmasına baza yaradır. 2015-ci ildən sonrakı dövrdə isə respublikamızın qarşıya qoyduğu strateji hədəf «yüksək gəlirli dövlətlər qrupu»nda yer almaqdır. Qarşıdakı illərin sosial-iqtisadi proqnozları və yeni inkişaf ssenariləri ölkəmizdə inkişaf meyillərinin ardıcıl şəkildə davam edəcəyindən xəbər verir. Beynəlxalq Valyuta Fondunun proqnozlarına görə, 2013-2020-cü illərdə respublikamızda milli məhsul istehsalı bir neçə dəfə artacaq, valyuta ehtiyatları 200 milyard dolları ötəcək. Bu mərhələdə adambaşına düşən gəlirlər 252% artacaq. Milli gəlirin dünya ölkələri üzrə bölgüsünə görə, Azərbaycan 181 ölkə arasında 91-ci yerdən 56-cı yerə yüksələcək. Bu isə Azərbaycanın Avropa İttifaqı ölkələri, Şimali Amerika və Asiyanın inkişaf etmiş dövlətləri, həmçinin Yaxın Şərqin əsas neft hasilatçıları, xüsusilə də OPEK ölkələri ilə eyni səviyyədə olmasına imkan verəcək».

Dünya və reqional təsərrüfat sistemlərinə qoşularkən ölkələr tərəfindən əsas şərt kimi qarşılıqlı xarici iqtisadi münasibətlərdə mövcud imkanlardan rasional, səmərəli və qənaətlə istifadə olunma götürülür. Uzun illərin təcrübəsi göstərir ki, xarici iqtisadi fəaliyyətin düzgün təşkil edilməməsi bütünlükdə milli iqtisadiyyatın müxtəlif səviyyə və sferalarında bir sıra neqativ halların yaranmasına, əsasən də məhsul və xidmətlərin süni qıtlığının yaradılmasına, qiymət artımına və əsassız olaraq məhsullara görə yüksək ödənişetmə sayəsində alıcıların itkilərinə, müxtəlif sahələr arasında resursların axınının məhdudlaş-dırılmasına və onun nəticəsi kimi qeyri-səmərəli bölgünün formalaşmasına, nəhayət məhsulun keyfiyyətinin pisləşməsinə, istehsalın texniki, texnoloji inkişaf səviyyəsinin ləngiməsinə, nəticədə isə həm daxili bazarda, həm də beynəlxalq aləmdə rəqabətqabiliyyətliliyinin itirilməsinə və s. səbəb olur.

Azərbaycanın dünya iqtisadiyyatına fəal inteqrasiya olunması öz növbəsində ölkəmizin xarici iqtisadi fəaliyyətinin qloballaşma prosesləri ilə qarşılıqlı əlaqə və asılılıqda araşdırılaraq dəyərləndirilməsini, xarici iqtisadi siyasətin davamlı inkişaf baxımından təyin edilməsini tələb edir. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında göstərilir ki, “Qlobal, planetar xarakterli amillər ölkə həyatının, demək olar ki, bütün sahələrində - iqtisadi, sosial, siyasi, humanitar-mədəni və s. sahələrdə gedən proseslərə nüfuz edir. Bununla yanaşı, hər bir ölkədə olduğu kimi, Azərbaycanda da öz mənşəyinə və təsir dairəsinə görə regional (region ölkələrinə xas olan), yaxud ölkədaxili amil-

lər mövcuddur ki, ölkənin ictimai həyatının müxtəlif sahələrinin idarə edilməsində onların da nəzərə alınması səmərəli siyasətin formalaşdırılması baxımından vacibdir".

Milli iqtisadiyyatların iqtisadi inkişafın davamlı olmasının təmin edə bilinməməsi isə müasir dövrün ən aktual və diskussiyaya səbəb olan problemi olaraq müxtəlif amillərlə əlaqələndirilir. Haqlı olaraq rus alimi V.V.Kuşlin qeyd edir ki, «quruluşca iqtisadi davamlılıq – ümumi təsərrüfat məqsədinin bir sıra aspektlərini sintezləşdirir. Onlar arasında resurslu təminat (xammal, kapital və işçi qüvvə) və zəruri əmtəə və xidmətlərinin nomenklaturasının yaradılmasının texnoloji imkanları var. Elmi-texniki yeniliklərinin və nailiyyətlərinin mənbəyi kimi intellektual potensial, həmçinin sivil iqtisadi əlaqələrin faktoru kimi maliyyə axımlarının lazımi stabilliyi əsas rol oynayır. Təsərrüfat sisteminin daxili və xarici mənbələrin mənfi təsirində lazımi qədər təhlükəsizliyi də zəruridir.Milli iqtisadiyyatın davamlı inkişafı təsərrüfat işlərini aparan subyektlərin iqtisadi maraqlarının məcmusu, makroiqtisadi göstəricilərin dinamikası və onların dəyişikliklərinin istiqaməti, iqtisadiyyatla idarəetmə institutlarının vəziyyəti, iqtisadi əlaqələrin xarici mühitdə vəziyyəti kimi strateji vacib xarakteristikaların müvafiqliyindən asılıdır. İqtisadiyyatın davamlı inkişafının maddi əsası təbii sərvətlər və onların istifadəsinin texnoloji prosesləri iqtisadiyyatın stabil inkişafının maddi əsası kimi çıxış edir. Bu strukturun birinin məhvi və başqasının yaradılması onun vəziyyətinin iqtisadi parametrlərinin zəruri atributudur. Onları bu mərhələ üçün gözlənilən və gözlənilməyən daxili və xarici mənbələrin təsiri baxımından qiymətləndirmək lazımdır».

Bu zaman davamlı inkşafın xarici iqtisadi siyasət vasitəsilə təmin edilməsi üçün mütləq surətdə dünya iqtisadiyyatında son illər mövcud olan dünya bazarında rəqabət mübarizəsinin kəskinləşməsi, dönərli valyutaların məzənnələrinin qeyri- sabitliyi, milli iqtisadiyyatların tədiyyə balanslarının tarazlıqlarının pozulması və ölkələrin xarici borclarının artması məsələləri nəzərə alınmalıdır.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyatın davamlı inkişafını təmin edə biləcək amillərin təsirinin xarici iqtisadi siyasətdə aşağıdakı kimi nəzərə alınması olduqca vacibdir. Belə ki, ölkənin rəqabətqabiliyyətliyinin təmin edilməsi və artırılması onun davamlı inkişafının zəminidir. Ölkənin rəqabətqabiliyyətliyinin səviyyəsi onun xarici təsirlərə qarşı dayanıqlığına və dünya iqtisadi sistemində davamlı inkişafına

birbaşa təsir edir. Müasir dünyada milli iqtisadiyyatın təsərrüfat subyektlərinin xarici bazarlarda öz mövqeyini möhkəmləndirmək qabiliyyəti onun rəqabətqabiliyyətliliyi kimi şərh olunur ki, bunun özü də çoxsaylı iqtisadi, sosial, siyasi, ekoloji, mental və s. kimi obyektiv və subyektiv amillərlə şərtlənir. İqtisadçılar ölkənin iqtisadiyyatında rəqabətqabiliyyətliliyin təmin edilməsi üçün çox vaxt sabit iqtisadi artıma nail olmanı göstərirlər. Amma davamlı inkişaf sosial-iqtisadi baxımdan elə haldır ki, milli iqtisadiyyatın fasiləsiz artımını təmin edəcək daxili və xarici amillərin balanslaşdırılmasını, iqtisadi aktivliyin isə neqativ nəticələrinin vaxtında aradan qaldırılmasını tələb edir. Bu isə iqtisadi artıma nail- olma zamanı ETT-nin resurs, texnologiya, ekologiya, demoqrafiya, informasiya, maliyyə sahələrində təhlilin aparılmasını, ekoloji, texnogen və s. təhlükələrin neqativ nəticələrinin qiymətləndirilməsini vacib edir. Xarici iqtisadi siyasəti reallaşdırarkən isə bu neqativ nəticələrə gətirməyən rəqabətqabiliyyətli yerli istehsalın və idxalın təmin edilməsi nəzərdə tutulur. Əsasən tələbat xüsusiyyətinə görə keyfiyyətli, texniki və kommersiya servisi ilə təmin edilən məhsulların istehsalı və idxalı əhalinin sağlamlığı, təhlükəsizliyi kimi bir sıra məqamlara diqqətin artması ilə müşayiət olunur. Bundan başqa, müasir beynəlxalq rəqabət sistemində elmi-texniki, təşkilati və idarəetmə elementlərinin səmərəliliyinə təsir edən informasiya-texnologiya amili nəzərə alınır. İKT keyfiyyəti, bu resurslardan istifadənin geniş olması davamlı inkişaf üçün zəmin yaradır. Dünya iqtisadiyyatında keyfiyyət dəyişikliklərinin baş verməsi son məhsul kimi yüksək texnoloji və elmtutumlu məhsulların istehsalına üstünlüyün verilməsini, bu da tədricən beynəlxalq ticarətdə texnologiyalar üzrə mübadilənin güclənməsinə şərait yaradır. Beynəlxalq ticarətdə məhsulların informasiya tutumluğu artırır, keyfiyyət göstəricilərinin yüksəlməsi baş verir və keyfiyyətli informasiyatutumlu məhsullara daha çox diqqət yetirilir. İKT inkişafı və "on-layn" kommunikasiyadan kütləvi istifadə «məkan-zaman-materiya» strukturunun dəyişməsinə, istək və arzuların, tələbin xüsusiyyətləri ilə bağlı məlumat bazasının yaranmasına, ümumilikdə heç kimdən asılı olmayan yeni iqtisadi mühitin və iqtisadiyyatda vertuallığın yaranmasına gətirdi. Vertuallıq isə təkcə ticarətlə əlaqəli olan istehsal sahələrini əhatə etmir, həm də maliyyə sferasının, maliyyə kapitalının müstəqilliyinin artmasında, əmək miqrasiyasının güclənməsində da rol oynayır. Məhz istehsalın daha çox fərdiləşdiyi, istehlakçının tələblərinin isə onu istiqamətləndirdiyi bir şəraitdə ənə-

nəvi ticarət araçıları Web-saytlar vasitəsilə sıxışdırılır və yeni, informasiya araçıları yaranır ki, onlar da yeni iqtisadi mühiti formalaşdıraraq şəbəkə platformalarını inkişaf etdirir və nəticədə, qlobal iqtisadi təsir şəbəkələri yaranır. Xarici iqtisadi siyasətin reallaşması və ölkənin rəqabətqabiliyyətliyinin artırılması üçün elektron dövlət, on-layn ticarət, on-layn xidmət və s. kimi innovasiyalardan istifadəyə böyük ehtiyac duyulur.

Tələbin xüsusiyyətləri ilə bağlı məlumat bazasının yaranmasına, ümumilikdə heç kimdən asılı olmayan yeni iqtisadi mühitin və iqtisadiyyatda vertuallığın yaranmasına gətirdi. Vertuallıq isə təkcə ticarətlə əlaqəli olan istehsal sahələrini əhatə etmir, həm də maliyyə sferasının, maliyyə kapitalının müstəqilliyinin artmasında, əmək miqrasiyasının güclənməsində da rol oynayır. Məhz istehsalın daha çox fərdiləşdiyi, istehlakçının tələblərinin isə onu istiqamətləndirdiyi bir şəraitdə ənənəvi ticarət araçıları Web-saytlar vasitəsilə sıxışdırılır və yeni, informasiya araçıları yaranır ki, onlar da yeni iqtisadi mühiti formalaşdıraraq şəbəkə platformalarını inkişaf etdirir və nəticədə, qlobal iqtisadi təsir şəbəkələri yaranır. Xarici iqtisadi siyasətin reallaşması və ölkənin rəqabətqabiliyyətliyinin artırılması üçün elektron dövlət, on-layn ticarət, on-layn xidmət və s. kimi innovasiyalardan istifadəyə böyük ehtiyac duyulur.

Üçüncüsü, milli iqtisadiyyatın davamlı inkişafının təmin edilməsində insan resursları və təhsil önəmli yer tutur ki, bu da dünyada «biliklər iqtisadiyyatı»nın formalaşması üçün xüsusi əhəmiyyətli bir amildir. Dünyada insan resurslarının mobilliyi, keyfiyyəti və inkişaf imkanları dövlətlərarası əlaqələrə, həm də beynəlxalq əmək bölgüsündə ölkələrin ixtisaslaşmasına təsir göstərir. Bu nöqteyi-nəzərdən xarici iqtisadi siyasətdə biliklərin, «ağılların» və mütəxəssislərin cəlb edilməsi, istər XİƏ idarəedilməsində, istərsə də kommersiya, biznes və digər sahələrdə şəxsi keyfiyyətlərin, kreativliyin rolunun artması, yüksəkixtisaslı kadrların əmək miqrasiyası, təhsilartırma, ixtisaslaşma və s. kimi məsələlər artıq beynəlxalq əməkdaşlıqda və xarici iqtisadi siyasətdə əhəmiyyətli bir istiqaməti kimi sayılır. İnsanlar artıq ETT aparıcı qüvvəsi olmaqla yalnız biliklərin daşıyıcısı kimi deyil, həm də onun yaradıcısı kimi çıxış edirlər.

Milli iqtisadiyyatın davamlı inkişafına təsir edən amilləri aşağıdakı kimi vermək olar.




Davamlı inkişafın təmin edilməsi zərurəti, iqtisadi artımın sürətli inkişafı və mobilliyinin, dünya ölkələrinin əksəriyyətində yüksək sosialyönümlü iqtisadiyyatın qurulması tələblərinin artması, ölkələrin daxili və xarici iqtisadi əlaqələrinin keyfiyyətcə dəyişilməsi, sosial-iqtisadi proseslərə ekzogen və endogen amillərin təsirinin güclənməsi bir sıra proseslərin tənzimlənməsi və idarə olunmasında dövlətin iştirakına səbəb olur. İstənilən halda dövlətin vəzifəsi milli iqtisadiyyatın beynəlxalq iqtisadi rəqabətdə dayanıqlı olmasnın sığortalanması, cəmiyyətin maksımum rıfah halının təmin olunması, digər ölkələrlə hesablaşmalarda xarici iqtisadi balansa nail olunma, xarici iqtisadi siyasətdə mövcud olan və gözlənilən əsas problemlərin müəyyən edilməsi və tədricən aradan qaldırılmasıdır. Xarici iqtisadi əlaqələrin inkişafında dövlətin tənzimləyici rolu onun həyata keçirdiyi geniş miqyaslı tədbirlərlə ölçülür. Bu tədbirlərin sayının və keyfiyyətinin, tətbiqi müddətinin dəyişməsi ölkənin beynəlxalq iqtisadi əlaqələrdə iştirak payının, ümumi məqsədinin və xarici iqtisadi əlaqələrdən gözləmələrinin də-

yişməsi ilə əlaqədardır. Məhz sonuncu amil dünya iqtisadiyyatında baş verən neqativ hallardan, yəni tsiklik enmələrdən, valyuta məzənnələrinin kəskin dəyişməsindən, haqsız rəqabət formaları və diskriminasiyalardan və s. müdafiə olunma üçün yeni alət və mexanizmlərin tətbiq edilməsi, mövcudların təkmilləşdirilməsi tələbini yaradır.

Ölkənin iqtisadi qüdrəti və xarici iqtisadi siyasəti əksər hallarda tədiyyə balansının vəziyyətindən asılıdır. Xarici tarazlıq tədiyyə balansının saldosunun (idxal və ixrac arasında balansın) sıfır olmasına nail olmaqdır. Dövlət buna valyuta, pul-kredit siyasətlərinin köməyi ilə nail olur. Dövlət milli valyutanın məzənnəsini, bank faizini dəyişir və idxalın, ixracın səviyyəsinə təsir göstərir. Lakin milli istehsalçıların maraqlarının gözlənilməsinin vacib şərt kimi qoyulmasa onda iqtisadi artımda, yəni milli istehsalın səviyyəsində və əməkhaqqının səviyyəsinin digər ölkələrə nisbətən aşağı düşməsində, o cümlədən inflyasiya ilə bağlı problemlər yarana bilər. Ona görə burada da valyuta, pul-kredit və büdcə –vergi siyasətlərini həyata keçirən zaman məqsədlər arasında razılıq gözlənilir. Azərbaycanın xarici iqtisadi strategiyası ixracı yüksəltməklə xarici ticarət dövriyyəsini artırmaq, dünya bazarında özünəməxsus yer tutmaq və davamlı olaraq ticarət balansının müsbət saldosunu qoruyub saxlamaqdır. Ticarət balansının yüksək aktivliyinə nail olmaqla borclu dövlətlər sırasıından inkişaf etmiş, kredit verə bilən ölkələr sırasına daxil olmaq və yuksək, davamlı maliyyə gəlirlərinə malik olan inkişaf etmiş ölkə olmaq bu strategiyanın məqsədidir.

Dövlət iqtisadiyyatın davamlı inkişafını təmin edəcək xarici iqtisadi siyasəti formalaşdırarkən müəyyən bazaya malik olmalıdır, yəni ilk növbədə milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə alan normativ-hüquqi bazanın, daha sonra zəruri iqtisadi institutlar sisteminin və nəhayət, bu və ya digər halqəanı lobbiləşməyə və iqtisadiyyatda lider rolunu ələ keçirməyə imkan verməyən geniş şəbəkəli milli bazar strukturunun və demokratik cəmiyyətin olması mütləqdir.

## 2. Milli iqtisadiyyatın davamlı inkişaf strategiyasının xarici iqtisadi siyasətlə qarşılıqlı əlaqəsi

Müasir dünyada hazırda müstəqil iştirakçı dövlətlərin sayının 200-dən artıq olması, onların inkişaf tipinin, idarəetmə sisteminin, maraq və imkanlarının fərqliliyi dünya iqtisadiyyatını proqnozlaşdıran

zaman çətinlik yaradır. Lakin bütün bu xaotikliyin içində müəyyən dayanıqlılıq və inkişafın pronozlaşdırılması müəyyən mənada mümkündür.

Dünya iqtisadiyyatı vaxtaşırı olaraq tsiklik inkişafa məruz qalır və təqribən hər 10 ildən bir vaxtaşırı iqisadi böhranlar müşahidə edilmişdir ki, onlara əsasən Kondratyevin tsiklinin texnoloji sistemlərinin dəyişmə müddətlərində daha qabarıq şəkildə özünü göstərir. Bu böhranlar zamanı istehsalın, ixracın həcmində və əmtəə qrupları üzrə dünya ixracı qiymətlərindəki qalxma-enmələr çox güclü fərqlənirlər.

Hazırda dünyada istehsalın postindustrial üsula keçidi və altıncı nəsil texnoloji sistemlər üzərində iqtisadiyyatların qurulması cəhdi yeni nəsil texnoloji sistemin ilk mərhələsi kimi qəbul edilir və iqtisadi strukturda radikal dəyişikliklərlə nəticələnməsi gözlənilir. Lakin bu prosesin dünya ölkələri arasında birmənalı baş verməməsi artıq göz qabağındadır. Bu səbəbdən bir sıra ölkələrdə yeni texnoloji sistemin inkişaf dinamikasının da fərqli olması artıq tam şəkildə özünü büruzə verir. İqtisadçıların proqnozlarına görə, XXI əsrin ilk 20 ilində köhnə (5-ci) texnoloji sistemin başa çatması dövrü olacaq və onun bir çox göstəricilər üzrə potensialını tükətməsi, yeni dəyişən tələblərə cavab verə bilməməsi tədricən yeni texnoloji sistemə keçidi sürətləndirəcək. Amma bu prosesin məkan baxımından qeyri-bərabər getməsi dünyadakı həm istehsal prosesinə, həm də ixraca təsirsiz ötüşməyəcək.

Dünya ölkələri və regionları isə əvvəllər olduğu kimi indi də qeyri-bərabər inkişaf edir. Dünyanın 3 regionunda (Avropa, Asiya və Amerika), 3 iqtisadi güc mərkəzi (Qərbi Avropa, Yaponiya və ABŞ) formalaşmışdır. Həmin mərkəzlərin arasında texnoloji inkişaf sahəsində rəqabət genişlənir. Xüsusən, mikroelektronika, biotexnologiya, kimya-texnologiya, yeni xammal və materialların yaradılması ön sıraya çıxır. ABŞ beynəlxalq iqtisadi münasibətlər sistemində özünün aparıcı mövqeyini və liderliyini nəinki saxlamaq və habelə onu daha da gücləndirmək üçün dünya iqtisadiyyatında gedən qloballaşma proseslərinin bu və ya digər istiqamətlərindən istifadə etməyə çalışır.

Əlbəttə, əlində dünya ixracatında liderlik mövqeyini qoruyub saxlamaq üzərində ölkələr arasında güclü rəqabət gedir ki, bu da onları yeni nəsil texnoloji sistemin imkanlarını mümkün qədər öz xeyrinə istifadə etməyə sövq edir. Əsasən texnoloji liderliyi ən yüksək elmi-texnikiliyi və iqtisadi potensiala malik ölkələr (IEÖ) bu prosesdən daha

yüksək səmərə və gəlir götürməyə, dünya bazarlarında rəqabətqabiliyyətliliyin şərtlərini təyin etməyə və texnoloji innovasiyalardan əlavə gəlir əldə etməyə can atır. Bu fonda bazis innovasiyalarını IEÖ götürərək həm keyfiyyət, həm də daxili və xarici bazarlarda texnoloji baxımdan tələbləri ödəyən rəqabətqabiliyyətli məhsul istehsal edə bilən dövlətə çevrilmək imkanı və yaxud da texnoloji, kadr və iqtisadi potensial baxımından yeni texnoloji sistemin imkanlarından kənarda qalan dövlətlər qrupuna aid olmaq təhlükəsi təhlil olunmalıdır.

Azərbaycanın əlverişli iqtisadi-coğrafi, Asiya və Avropanın kəsişməsində yerləşərək geosiyasi mövqeyi, ümumilikdə inkişaf etmiş nəqliyyat, kommunal və istehsal sistemlərinin, əhəmiyyətli faydalı qazıntıları mövcudluğu, ixtisaslı kadr hazırlığı sisteminə, çoxsahəli sənaye kompleksinə malik olması onun dünya birliyində rolu və yerinə şübhəsiz təsir edir. Aydındır ki, dünyada gedən geosiyasi, iqtisadi və nəhayət, ekoloji dəyişikliklər əsas şərtlərdən biri kimi çıxış etməklə dövlətin xarici iqtisadi siyasətində mütləq nəzərə alınan amil rolunu oynayır. Ümumən, respublikamızda bazar münasibətlərinin qurulduğu ilk illərdə məqsədlərin dövlətin suverenliyi, müstəqilliyi və rəqabətqabiliyyətliliyi kimi göstəricilər əsasında qurulması və təhlilinin aparılması bir sıra iqtisadçılar tərəfindən təklif olunsa da, müasir dövrdə onların sırasına milli iqtisadiyyatın davamlı inkişafı baxımından innovasiyayönümlü iqtisadi strukturunun qurulması, bəzi hallarda investisiyaların stimullaşıdırılmasına tələbi olan və modernləşən bir strukturun qloballaşmanın təsirini nəzərə alaraq formalaşdırlması kimi məqsədlərini də aid etmək olar.

Son illər respublikamızın sürətlə inkişaf etməsi, ÜDM-in artması dayanıqlı inkişaf təsəvvürü yaratmışdır. Lakin nəzərə almaq lazımdır ki, qloballaşma böyük imkanlar yaratmaqla yanaşı, eyni zamanda müxtəlif iqtisadi, siyasi, sosial və s. riskləri də artırır. Perspektivdə davamlı inkişaf və milli iqtisadi təhlükəsizlik mövqeyindən bu riskləri izləmək, onlarla işləmək və digər tərəfdən qloballaşma prosesinin genişlənməsi nəticəsində yaranan yeni imkanlardan istifadə etmək bacarığının olması vacibdir. Nəticədə, bir sıra ekspertlərin qeyd etdiyi qlobal iqtisadi tarazlaşmanın qısa zamanda baş verməsi üçün əsas vasitə olan proqressiv struktur siyasətinin həyata keçirilməsi zərurəti yaranır. Məlumdur ki, xarici ticarətin liberallaşması zamanı sahələrin ixrac maraqlarının artması və dünya iqtisadi sisteminə istiqamətlən-

məsi zəminində daxili bazarın maraqlarına cavab vermək istəyinin azalması meyli ola bilir. Yəni bir tərəfdən tərəf müqabillərinin sayının artması və bunun nəticəsi kimi öz işgüzarlıq fəaliyyətində müqayisələrin çoxalması və nəticədə məqsədlərinə və maraqlarına cavab verən (bəzən yerli deyil, xarici) partnyorların seçilməsi, digər tərəfdən milli bazarda daha rəqabəqabiliyyətli xarici istehsalçılar tərəfindən sıxışdırılma ehtimalının artması həm investisiya qoyuluşları sahəsində, həm də innovasiyaya olan tələbatlar sahəsində dəyişkənliyə səbəb olduğundan milli iqtisadiyyatda dərin enmə və böhran hallarının baş verməməsi üçün proqressiv struktur siyasətin xarici bazara istiqamətlənməsi ilə yanaşı, daxili tələbin yerli istehsal hesabına ödənilməsinin də proqnozlaşdırılması vacib sayılır. Davamlı inkişaf baxımından səmərəli hesab edilməyən xammal əsaslı ixracın dayandırılması üçün struktur dəyişikliklərin aparılmasında bilavasitə əsas kimi götürülən innovasiya prosesinin istehsal güclərinin maddi amillərinin təkmilləşdirilməsi, qeyri–istehsal sahələrinin texniki vasitələrinin inkişafı və təbiətdən istifadənin yaxşılaşdırılması istiqamətində reallaşdırılması və sənayedə islahatların aparılması ehtiyacı yaranır. Sənaye istehsalı 2004-cü ilə nisbətən 2004-cü ildə 2,7 dəfə artmışdır. On bir il ərzində ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyulmuşdur. 2004-cü ildə respublikanın valyuta ehtiyatı 1,8 milyard dollar idisə, bu rəqəm 2015-ci ilin əvvəlinə 50 milyard dollardan çox olmuşdur.

2014-cü ilin “Sənaye ili” elan edilməsi və bu çərçivədə tədbirlər planının icrası regionlarda da sənayenin inkişafına təkan vermiş ötən il regionlarda 105 sənaye müəssisəsi açılmışdır. Ümumilikdə “Sənaye ili” də görülən tədbirlər nəticəsində qeyri-neft sənayesi 9 faiz artmışdır.

Son illərdə sənayedə həyata keçirilən dövlət dəstəyi tədbirləri o cümlədən 124 layihənin maliyyələşdirilməsinə 380 milyon manat güzəştli kreditin verilməsi nəticəsində bir sıra sənaye məhsulları üzrə idxaldan asılılıq azalmış, bəziləri üzrə isə ixrac potensialı yaranmışdır. 14 rayonda gündəlik istehsal gücü 820 ton olan 28 müasir çörək zavoduna 50 milyon manat güzəştli kredit ayrılmış və artıq 22 zavod istifadə verilmişdir.

Qeyd etmək lazımdır ki, bu gün mövcud problemlərdən biri texnoloji yenilənmənin həyata keçməsi üçün böyük maliyyə vəsaiti tələb olunması və geniş- miqyaslı modernləşdirmənin hazırkı şəraitdə yalnız xarici texnologiyaların alınması ilə reallaşdırılması hesabına mümkün-

lüyü ilə bağlıdır. Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı isə azalmaq tendensiyasına malik olmaqla 2005-ci ildə əgər 0,08 % idisə, 2008-ci ildə 0,22 %, artıq 2011-ci ildə isə 0,002 % olmuşdur. Amma onu da nəzərə alaq ki, «dünyada istehlak olunan əmtəə və xidmətlərin, demək olar ki, yarısı istehlak olunan ölkədən kənarda istehsal olunur. Bu qarşılıqlı əlaqə əsasən özünü maşınqayırma və yüksək texnololoji sahələrdə özünü göstərir ki, bu da son məhsulun müxtəlif detallarının ayrı-ayrı ölkələrdə istehsal olunması ilə əlaqədardır. Ölkələr daxildə istehsal etdikləri mal və xidmətləri dünyaya satdıqca onların rəqabət gücləri, texnoloji inkişafı, böhranlara qarşı dayanıqlıqları, iqtisadiyyatdakı artım sürətləri pozitiv istiqamətdə dəyişir. Həmçinin daxildə istehsal edilmiş artıq mallara yeni satış imkanlarının əldə edilməsi və geniş bir bazara giriş baxımından da ixrac ölkələr, şirkətlər və şəxslər üçün əhəmiyyətlidir».

Qeyd etmək lazımdır ki, Azərbaycanda elmi-texniki liderliyi öz əlində saxlayan ölkələr arasında müasir informasiya reallığı müqayisə oluna bilməz. ABŞ, Almaniya, Yaponiya korporasiyaları özlərinin güclü potensialından istifadə edərək çox yüksək intensivliklə nəinki mütərəqqi texnologiyalar yaradır və habelə yeni qlobal İnternet şəbəkəsini yarada bilən və iqtisadiyyatın bütün sahələrini yeni aspektdə öyrənə bilən mütəxəssislər də hazırlayır. Ən vacibi odur ki, respublikamız həmin nailiyyətlərdən yalnız bacarıqla istifadə etməklə yanaşı, sənayenin strukturunun formalaşmasına, rəqabətqabiliyyətli texnologiyalar yaradılmasına və istehsala tətbiqinə cəhd göstərməlidir. Azərbaycana dünya qloballaşma prosesinə qoşulmasında və sənayenin, o cümlədən texnologiyaların inkişafı sahəsində dəstək olan əsas təşkilat BMT sənaye inkişafı üzrə strukturudur (UNIDO). Əsasən ekoloji problemləri nəzərə alaraq inkişaf etməkdə oan ölkələrə yeni texnologiyaların tətbiqi ilə dəstək göstərilir. 1994-cü ildən UNIDO və Azərbaycanın birgə əməkdaşlığı nəticəsində müasir texnologiyaların istehsala tətbiqi və ixracyönümlü istehsalların inkişafı və idarə edilməsi, ölkə sənayesinə xarici investisiyaların cəlb edilməsi və texniki-iqtisadi əsası olan layihələrin reallaşdırılması istiqamətində işlər görülmüş, hüquqi baza formalaşdırılmışdır. Bu təşkilatın xətti ilə Azərbaycana xarici ekspertlər cəlb edilərək əməkdaşlığın istiqamətləri yerli mütəxəssislərlə razılaşdırılmış, 2005-2010-cu illər üzrə Azərbaycan hakimiyyətilə UNIDO arasında əməkdaşlaq haqqında saziş imzalanmışdır. Xüsusilə ekoloji problemlərin həlli, energetika, müasir texnologiyala-

rın və investisiyaların cəlb edilməsi məsələləri müzakirə obyektinə çevrilməklə neft-qaz sektoru üzrə ekoloji standartların tətbiqi, sənaye mənşəli və toksiki tullantıların idarə edilməsi, enerji sektorunda müasir texnologiyalardan istifadə edərək həm istehsal, həm də nəqletmə prosesində itkilərin azaldılması, külək və dağ çayları üzərində qurulan elektrostansiyaların inşası, istismarı ilə bağlı pilot layihələr işlənib hazırlanmışdır. Həmin illərdə bir çox normativ-hüquqi sənədlər qəbul edilmiş, o cümlədən Azərbaycanla Avropa Birliyi arasında energetika, kənd təsərrüfatı, nəqliyyat və təhsil sahəsində əməkdaşlıq nəzərdə tutularaq «Energetika sahəsində Azərbaycanla AV arasgnda strateji əməkdaşlıq Memorandumu», UPU (Beynəlxalq Poçta Şurası) ilə Azərbaycan arasında «İqtisadi, ticarət və texniki kömək haqqında» normativ sənəd imzalanmışdır.

Milli iqtisadiyyatın texniki modernləşmə və səmərəlilik səviyyəsinin yüksəldilməsi məqsədi ilə atılmalı olan addımlar içərisində modernləşməyə böyük ehtiyacı və ixrac imkanları olan emal sahələrinə xarici investisiyaların xüsusi layihələr əsasında cəlb edilməsini, daxili və dünya bazarında tələbata uyğun məhsul istehsal edə bilən subyektlərin zəruri texnologiyaların əldə edilməsi üçün müvafiq lisenziya əldə etməsinə köməklik göstərmək (bu həm informasiya əldə etmək sahəsində, həm də maliyyə formasında köməklik ola bilər) və paralel olaraq hazır maşınların, qurğu və avadanlıqların idxalını keyfiyyət cəhətdən və uzun perspektivə istiqamətlənən seçim əsasında tənzimləmək, rəqiblərlə müqayisədə daha az xərcli və idxalı əvəz edə biləcək istehsal sferasını təşkil etməyi və s.göstərmək olar.

İqtisadiyyatımızın modernləşdirilməsi üçün zəruri olan və dövlət tərəfindəni tənzimlənə, bir sıra hallarda təşkil edilə bilən qeyri-bazar kanalları kimi elmi-təcrübi konfransların, tematik sərgilərin keçirilməsi və yeni texnologiyaların təbliği, onları ixrac edən kampaniyalarla şəxsi və akademik əlaqələrin yaradılması, ideyaların verilməsi üzrə müəssisədaxili müsabiqələrin təşkili, işçi heyətinin təhsil almasının, staj keçməsinin artırılması, beynəlxalq təşkilatların qrant fondlarından istifadə imkanlarının araşdırılması və artırılmasını qeyd etmək olar.

Qloballaşmanın inkişafı milli iqtisadiyyatlarla dünya iqtisadiyyatının qarşılıqlı əlaqəsini dəyişdirir, onun daha geniş olmasına imkan verir. Əsas etibarı ilə kapital, investisiya, texnologiya sahəsində axınların güclənməsi, informasiya və işçi qüvvələrinin mobilliyinin artması milli iqtisadi sistemin strukturunda yeniliklərin yaranmasına sə-

bəb olur. Bir tərəfdən dünya iqtisadi sistemində innovasiya- yönümlü yeniliklərin təsirinin artması, digər tərəfdən transmilli korporasiyaların məqsədlərinin ölkələrin iqtisadi siyasətləri ilə ziddiyyət təşkil etməsi müasir dövrün əsas problemlərindən birinə çevrilmiş, hətta bəzən siyasi rəng almağa da başlamışdır. Ona görə gənc və suveren ölkələrin öz müstəqilliyini saxlamaq istəyi ilə yanaşı, xammal təchizatçısı rolundan tədricən imtina edərək ÜTT-yə üzv olmaq məqsədinə çatana qədərki inkişaf yolu dünya iqtisadi sisteminə daxil olmada inkişaf perspektivlərinin dəqiqləşdirilməsini tələb edir. Belə ki, dünyada gedən proseslər yalnız qloballaşmanın təsirini deyil, həm də tamamilə yeni cəmiyyətlərin və onların da özünəməxsus yeni tələblərinin formalaşdığını da nəzərə almaq zərurətini doğurur. Müasir Azərbaycan cəmiyyətində tamamilə yeni, bilik və texnologiyalarla bağlı dəyişikliklərin getməsi, bu əsasda cəmiyyətin iqtisadiyyatla bağlı müasir tələblərinin formalaşması istehsal və idxalın, ixracın strukturunun dəyişdiyini, tamamilə yeni prioritetlərin müəyyənləşdiyini göstərir.

Azərbaycan Respublikası Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev demişdir: "İqtisadi modernləşmə, bazarın sabitliyi, bank mühitinin təkmilləşməsi, orta sinfin formalaşması və ölkənin ÜDM-ində özəl sahibkarlığın rolunun güclənməsi, ictimai şüuru patent şəkildə təzələyəcək, onu yeni demokratik ənənələr və təsisatlar müstəvisinə yönəldəcəkdir". Bu isə infrastruktur sahələrinin modernləşdirilməsini, inkişafını tələb edir. 2013-cü ilin ölkə Prezidenti İlham Əliyev tərəfindən İKT ili kimi elan edilməsi, 2013-cü ilin fevralında Azərbaycanın süni peykinin orbitə buraxılması infrastruktur sahələrinin modernləşdirilməsinə böyük təkan vermişdir. Hazırda Elektron Sənəd Dövriyyəsi Sisteminin yaradılması istiqamətində avtomatlaşdırma proseslərinin yerinə yetirilməsi və "Elektron Azərbaycan", "Elektron Hökumət" platformasının formalaşdırılması, Elektron imza üzrə Sertifikatlaşdırma Mərkəzinin yaradılması ilə elektron imza alətindən istifadə edilməsi, dövlət idarəçiliyinin, o cümlədən gömrük fəaliyyətinin informasiya texnologiyalarının ən qabaqcıl standartlar əsasında qurulması, daim yenilənməsinin qorunub saxlanılması istiqamətində qısa və uzunmüddətli strateji tədbirlərin həyata keçirilməsi, idarəetmədə yeni, kreativ baxışın formalaşması, informasiya təhlükəsizliyinin idarə edilməsi və təkmilləşdirilməsi üzrə fəaliyyətin təşkili həm cəmiyyətin, həm də iqtisadiyyatın modernləşdirilməsi istiqamətində atılan əsas addımlardandır.

Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan regionlarında sənayeləşmənin investisiya-innovasiya yoluna qədəm qoyulması müşahidə edilir. Ölkəmizdə neft sektorunun inkişaf etməsinə baxmayaraq iqtisadiyyatın digər qeyri-neft sektorlarının inkişaf etdirilməsi tələbi gündəmdə olmaqla, bu sahədə tədbirlərin həyata keçirilməsi də diqqəti cəlb edir. Əsas nəzərə alınan məqam isə «Azərbaycan ixracının təqribən 90%-i neft və neft məhsullarından ibarətdir. Bunların isə bazarı və qiyməti DTT qaydalarına əsasən müəyyənləşmir. Bu səbəblə, bu təşkilata üzv olunduğu təqdirdə ixrac həcminin artması və müxtəlifliyi baxımından bir itki olmayacaqdır. Ancaq DTT qaydalarına müvafiq olaraq daxili bazarın xaricə geniş bir şəkildə açılması, xarici məhsulların istehsalçıları ilə hələ rəqabət apara biləcək səviyyədə olmayan və varlığını davam etdirmək üçün sanki dirənən Azərbaycan sənayesinin və kənd təsərrüfatı və heyvandarlıq sektorunun daha da pis vəziyyətə düşməsinə səbəb ola biləcəkdir. Bu baxımdan DTT-yə üzv olmağın vaxtı və şərtləri çox diqqətlə hesablanmalı ki, ölkə iqtisadiyyatı üçün bu üzvlükdən maksimum fayda əldə edilə bilsin».

Diqqəti cəlb edən digər cəhət inkişaf konsepsiyasının uzunmüddətli dövrü əhatə etdiyindən xarici iqtisadi siyasət sahəsində ölkənin ixrac imkanlarının dəqiq göstəricilərinin təyin edilməsinin çətinliyindən ibarətdir. Bu baxımdan xarici iqtisadi siyasətlə struktur-investisiya-innovasiya siyasətlərinin və milli iqtisadi inkişaf strategiyanın qarşılıqlı əlaqəsi və onun tənzimlənməsi məsələlərinin, qloballaşma şəraitində milli iqtisadiyyatın makroiqtisadi tarazlığının təmin edilməsi ilə birgə sosial-iqtisadi problemlərinin tədqiq edilməsi böyük elmi və praktiki əhəmiyyətə malikdir. Dünyada, sənayedə aparıcı innovasiya sahələri kimi kimya və neft kimyası, yeyinti sənayesi, maşınqayırma və texnologiyalar tanınır.

Xarici iqtisadi fəaliyyət istiqamətində respublikamızda aparılan təhlil isə göstərir ki, 2010-cu ildə ixracda xam neft 86,53 %, neft məhsulları 6,02 %, bitki və heyvan mənşəli yağlar 0,88%, meyvə və tərəvəz 0,73%, kimya sənayesi məhsulları 0,22% və s., idxalda isə maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri 28,83%, nəqliyyat vasitələri və onların hissələri 12,07% təşkil etmişdir. Amma Azərbaycan reallıqlarını nəzərə alaraq qeyd etməliyik ki, iqtisadiyyatımız üçün xarakterik olan ənənəvi sahələr yenə də öz inkişafını davam etdirir və bu sahələr ( əsasən ağır sənaye sahələri, neft və

neft-kimya məhsulları, boru və gübrə, sement istehsal edən sahələr, o cümlədən yüngül və yeyinti sənaye sahələrinin texniki cəhətdən yenidən təchiz olunmasına və inkişafına istiqamətlənən struktur siyasət nəticəsində) kapital və əməktutumlu olmasına baxmayaraq ixracyönümlü ola bilərlər.

Ölkəmizdə iqtisadiyyatın strukturunda qeyri-neft sektoru kimi ən çox diqqətdə olan və investisiya qoyuluşları ilbəil artırılan, dövlət səviyyəsində ən çox güzəştlər tətbiq edilən sahə kənd təsərrüfatıdır. Eyni zamanda bu sahə ixrac potensialı yüksək olan sahə kimi də dəyərləndirilir. Aparılan təhlillərdən aydın olur ki, Azərbaycanda kənd təsərrüfatında tam ixtisaslaşmış sahələr-pambıqçılıq, meyvəçilik, üzümçülük, tərəvəzçilik, tütünçülük, amma potensiallı hesab olunan, lakin hələ ixtisaslaşmamış sahələri kimi baramaçılıq, arıçılıq, çəltikçilikdir.

Azərbaycanda üzümçülük hələ bazar münasibətləri qurulana qədər də geniş sənaye xarakteri daşımış və hazırda ölkə iqtisadiyyatının ixrac imkanlarının yüksəldilməsi nöqteyi-nəzərindən üzümçülük prioritet sahələrdən biri sayılır. Məhz onun əsasında şərabçılığın inkişafına dünya bazarlarına Azərbaycan brendlərinin çıxarılması imkanı kimi baxılır. Təkcə 2010-2012-ci illərdə Xanlar, Samux, Tovuz, Qəbələ, Yevlaxda, geniş sahələrdə plantasiyalar salınıb. Dünya bazarının tələblərinə cavab verən keyfiyyətdə məhsul istehsal etmək məqsədi ilə xarici ölkələrdən mütəxəssislər dəvət olunaraq Fransa, İtaliya, İspaniya, İran, Gürcüstan, Moldova, Ukrayna, Özbəkistan və s. ölkələrdən gətirilmiş 70-dən artıq yüksək üzüm sortu əkilmişdir. Bu sahədə əsas işin məqsədi məhsuldarlığın artırılmasına yönəldilir və ikinci məsələ hazır məhsulun dünya bazarında satışına dəstək və köməkliyin göstərilməsidir ki, bu isə artıq menecment mexanizmlərinin araşdırılmasını tələb edir.

Tütün ixrac potensialı baxımından əhəmiyyətinə görə Azərbaycanın ikinci texniki bitkisi hesab olunur və 2010-cu ildə tütün istehsalı 3243 ton təşkil etmişdir ki, ba da 2009-cu illə müqayisədə ötən il 634 ton artıqdır. Hazırda «Samsun», «Trabzon» və «İtiyarpaq» kimi qiymətli tütün növləri əkilir.

Bütövlükdə BMT, BVF, AYİB və DB-nın proqnozlarında Azərbaycanda pozitiv gözləntilərin xüsusilə sənayenin kimya, tikinti materiallarının istehsalı və toxuculuq sahələrində, ticarətin isə mebel və elektrik məişət avadanlıqlarının satışı seqmentlərində müşahidə edilməsi qeyd edilir. Xidmət sektorunda artım rabitə və otel sahərinə aid-

dir. Satış və ixracla əlaqədar qeyd etməliyik ki, 2011-2012-ci ildə sənayedə və ticarətdə mal ehtiyatının azalması da müşahidə edilmişdir.

Qeyri-neft sektoru kimi sənayenin bir çox sahələrinin inkişaf imkanları araşdırıldıqda ixracyönümlü sahə kimi kimya sənaye sahəsini göstərmək olar. Lakin ölkəmizdə fəaliyyət göstərən kimya sənayesi müəssisələrinin əksəriyyətinin yüksək xərc tutumlu olması müşahidə edilmişdir. Bu əsasən enerji tutumluğu ilə bağlıdır və ölkəmizdə istehsal olunan kimya məhsullarının vahid məhsul istehsalına enerji sərfinin dünya ölkələrinə nisbətən xeyli yüksək olması faktı üzə çıxır. Elə kimyəvi məhsullar ( məsələn, poletilen) var ki, onların maya dəyərində elektrik enerjisi və ya enerjidaşıyıcılarının xüsusi çəkisi, hətta 50 faizdən də çoxdur. Azərbaycan "Azərkimya" Dövlət Şirkəti bu problemi aradan qaldırmaq məqsədi ilə tərkibinə daxil olan müəssisələrdə islahatlar apararaq son illərdə məhsul istehsalının həcminin və keyfiyyətinin artırılması sahəsində tədbirlər həyata keçirmişdir. Nəticədə, şirkətin dünya bazarında özünəlayiq yer tutması üçün zəmin yaradılıb. Hazırda şirkətin müəssisələrində müxtəlif markalı və kifayət qədər yüksəkkeyfiyyətli kimyəvi məhsullar - polietilen, piroliz qətranı, propilen, texniki və mütləqləşdirilmiş izopropil spirti, propilen oksidi, propilenqlikol, müxtəlif markalı poliefirlər, BDF (butilen-divinil fraksiyası), kaustik soda və xlor, texniki sulfat turşusu və s. istehsal olunur ki, onların da müəyyən hissəsi daxili tələbat üçün, böyük əksəriyyəti isə yaxın və uzaq xarici ölkələrə ixrac üçün nəzərdə tutulub. Dünyada yüksəktəzyiqli polietilenə, mütləqləşdirilmiş izopropil spirtinə tələb artır və bu da yerli «Etilen-polietilen», "Sintez-kauçuk" zavodlarının həmin məhsullarının ixracının yüksəlməsinə imkan verir. Lakin digər problem bu məhsulların gömrük sərhədində yüksək gömrük tariflərinə cəlb edilməsidir. Məsələn, Azərbaycandan Türkiyəyə ixrac edilən polietilenə gömrük tarifi tətbiq olunduğu halda, Yunanıstandan Türkiyəyə ixrac edilən polietilenə gömrük tarifi tətbiq edilmir. Belə məqamlar yerli məhsulların rəqabətqabiliyyətliliyinə mənfi təsir göstərir. Lakin "Azərkimya" markalı kimyəvi məhsulların keyfiyyətlərinin yüksək olması onların geniş çeşiddə və iri həcmdə ABŞ, Almaniya, İngiltərə, İsveçrə, Rusiya, Türkiyə, Polşa, Rumıniya, İran, Ukrayna, Gürcüstan, Qazaxıstan, Özbəkistan və s. ölkələrə ixrac edilməsinə imkan verir. Statistik məlumatlara diqqət yetirdikdə aydın olur ki, 2003-cü illə müqayisədə 2011-ci ildə əmtəəlik məhsul istehsalı həcmi 2 dəfədən artıq

çoxalmış, məhsul ixracı 3,6 dəfə çoxalmışdır ki, bu da respublikaya xarici valyuta axınının ümumi həcmini xeyli artırıb. Qeyd etmək lazımdır ki, davamlı inkişafın göstəricilərindən biri məhsuldarlığın yüksək olmasıdır və kimya sənayesi sahəsi üzrə 2011-ci ildə bir işçiyə düşən məhsul istehsalının həcmi 2,57 dəfə artmışdır.

Uzun illər Azərbaycanda neft maşınqayırması sahəsi ixrac potensiallı olduğuna görə ölkəmiz bu sahə üzrə ixtisaslaşmış hesab edilir. Hazırda bu sahənin məhsulları 40-dan artıq ölkəyə ixrac edilir və bu imkanların artırılması sahəsi üzrə tədbirlər davam etdirilir.

Qeyd edək ki, Azərbaycan İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən hazırlanan Azərbaycan Sərmayə Xəritəsi isə xaricdən gələn iş adamlarının, Azərbaycanın hansı bölgəsində, hansı sahələrdə və nə qədərlik bir sərmayə qoya biləcəkləri haqqında köməkçi olma məqsədi daşıyır. Bakıda fəaliyyət göstərən İngiltərənin "MAİ Consulting" firmasının araşdırmalarına görə, 2030- cu ilə qədər isə sərmayə qoyuluşlarının toplamı 135 milyard dollara çatacaqdır . Lakin struktur-investisiya və innovasiya fəaliyyətinin genişləndirilməsi sahəsində hələ də problemlərin mövcudluğu hiss edilir. Bu ilk növbədə innovativ iqtisadiyyatın qurulması üçün struktur dəyişikliklərin aparılması və bunu həyata keçirmək üçün investisiyalara tələbin artması ilə bağlıdır.

Son dövrdə müxtəlif fəaliyyət növləri üzrə innovasiyalara çəkilən xərclər xeyli artmışdır. Bu barədə ətraflı məlumat əldə etmək üçün aşağıdakı cədvəl məlumatlarına nəzər salaq.

**Fəaliyyət növləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat, amillər**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 53 273 | 43 875 | 9 620 | 8 020 | 4 618 | 8 139 | 31 589 |
| müəssisələrin öz vəsaiti hesabına | 4 060 | 888.0 | 25 586 | 5 890 | 3 589 | 3 584 | 22 996 |
| dövlət büdcəsi | 43 026 | 34 109 | 29.8 | 9.4 | - | - | 8 593 |
| büdcədən kənar fondlar | 1 619 | 329.1 | 9 255 | - | - | - | - |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Sair | 4 569 | 8 549 | 14 750 | 2 120 | 1 030 | 4 555 | - |
| Mədənçıxarma sənayesi | 43 892 | 245.0 | 97.7 | 592.3 | 397.5 | 4.8 | 692.9 |
| müəssisələrin öz vəsaiti hesabına | 866.6 | 154.0 | 71.5 | 592.3 | 397.5 | 4.8 | 692.9 |
| dövlət büdcəsi | 43 025 | 15.8 | - | - | - | - | - |
| büdcədən kənar fondlar | - | 75.2 | - | - | - | - | - |
| Sair | - | - | 26.2 | - | - | - | - |
| Emal sənayesi | 8 573 | 1 085 | 49 493 | 7 428 | 4 102 | 8 128 | 29 319 |
| müəssisələrin öz vəsaiti hesabına | 2 384 | 734.0 | 25 514 | 5 298 | 3 072 | 3 573 | 20 726 |
| dövlət büd | 0.2 | - | - | 9.4 | - | - | 8 593 |
| büdcədən kənar fondlar | 1 619 | 253.9 | 9 255 | - | - | - | - |
| Sair | 4 569 | 96.9 | 14 724 | 2 120 | 1 030 | 4 555 | - |
| Elektrik enerjisi, qaz və bu ar isteh-sa lı, bölüşdü rül-məsi və təchizatı | 808.5 | 42 545 | 29.8 | - | 119.1 | - | - |
| müəssisələrin öz-vəsai ti hesabına | 808.5 | - | - | - | 119.1 | - | - |
| Dövlət büdcəsi | - | 34 093 | 29.8 | - | - | - | - |
| Sair | - | 8 452 | - | - | - | - | - |
| Su təchiza tı, tul-lantı ların təmiz lənməsi və emalı | - | - | - | - | - | 5.7 | 1 577 |
| müəssisələrin özvəsai ti hesa-bına | - | - | - | - | - | 5.7 | 1 577 |

Cədvəl məlumatlarından aydın olur ki, əsas kapitala yatırılan investisiyaların və texnoloji innovasiyalara çəkilən xərclərin artırılması sektorlarda müasir texnologiyaların, yeniliklərin artırılmasına səbəb olur ki, bu da bütün sənaye üzrə modernləşmənin və restrukturizasiyasının getməsinə, rəqabətqabiliyyətliliyin təmin edilməsinə imkan verir. Sənaye üzrə rəqabətqabiliyyətliliyinin artırılması üçün eyni zamanda, yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcminin artırılması vacib şərtlərdəndir. Belə ki, emal cənaye sahələrində əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olmuş məhsul, təkmilləşdirilmiş məhsul artımı hər il olsa da mədənçıxarma sənayesi sahəsindən hələ xeyli geri qalır. Cədvəldən görünür ki, sənaye müəssisələrində innovasiyalara mane olan amillər qismində müəssisələrin öz pul vəsaitinin kifayət qədər olmaması və yeniliklərin dəyərinin yüksək olması çıxış edir.

İnnovasiyaların artırılmasını təmin etmək üçün xarici investisiyaların cəlb edilməsi və stimullaşdırıcı tədbirlərin genisləndirilməsi ehtiyacı duyulur. Lakin stimullaşdırıcı tədbirlər ixracla əlaqələndirilməli və xarici investorlardan istehsal edilən məhsulun müəyyən hissəsini ixrac etmək tələbi qoyulmalıdır.Bu halda investisiyaların müddəti ilə ixrac imkanları uzlaşdırılmalı və investisiyalar iri istehsalın təşkilinə yönəldilməlidir.Nəzərə almaq lazımdır ki, investisiya prosesinin müvəffəqiyyətli olması hər iki tərəfin maraqlarını təmin etdikdə baş verir. Bu səbəbdən innovasiyaların artırılması hesabına ixracın artırılmasına istiqamətlənə biləcək pilot layihələrə investisiya qoyuluşları həyata keçirilməli və nəticələr ən azı 5 il müddətinə hesablanaraq proses sığortalanmalıdır. Paralel olaraq innovasiya mühitinin əlverişli olmasını təmin edəcək normativ-hüquqi baza formalaşdırılmalı, zamanın tələbinə uyğun təşkilati mexanizm və sxemlər üzrə tədbirlər həyata keçirilməli və zəruri infrastruktur yaradılmalıdır.

Azərbaycanın davamlı iqtisadi inkişafına səbəb olacaq innovasiya tipli ixracın inkişaf prioritetlərini təyin etmək zəruridir. Bu məqsədlə dövlət tərəfindən aşağıdakı tədbirlərin görülməsini şərtləndirir:

1.Milli iqtisadiyyatın bütün sferalarında davamlı inkişafla bahalı standartların təyin edilərək tətbiq edilməsi; ixracyönümlü sahələrdə bərpa olunan enerji mənbələrindən istifadə və ekoloji tələblərin gücləndirilməsi; dövlət maliyyəsi xətti ilə ən azı 5 illik səmərə nəzərə alınmaqla innovasiya texnologiyalarının xaricdən ölkəmizə gətirilməsi və lizinq vasitəsilə yayılması; innovasiya fəaliyyəti haqda ictimai rə-

yin formalaşdırılması və bu yolla tələbə təsiretməni artırmaq olduqca vacibdir.

2. Bundan əlavə, xarici iqtisadi fəaliyyətin artırılmasına istiqamətlənən sənayenin struktur yenidənqurmasını təmin etməyə imkan verən dövlətin innovasiya siyasəti dünya bazarında sənaye müəssisələrinə rəqabət üstünlüklərini təmin edən texnologiyaların aşkar edilməsi və ölkəmizə gətirilərək sahə strukturlarının formalaşması istiqamətində aparılmalı, bunun üçün isə regionlarda yeni yüksək texnologiyalı sənaye müəssisələrinin elmi-tədqiqat və innovasiya fəaliyyətini təmin edən kompleks proqramlardan geniş istifadə olunmalıdır.

### 3. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya məsələləri

Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatına inteqrasiyası genişləndikcə dünyada gedən iqtisadi proseslər, ölkəmizin dünya iqtisadiyyatında yeri və rolu əsas müzakirə obyektlərindən birinə çevrilib. Qloballaşmanın sürətləndiyi indiki dövrdə dünyada gedən iqtisadi, siyasi və sosial dəyişikliklər birbaşa və dolayı yollarla Azərbaycan iqtisadiyyatına təsir göstərir. Bu baxımdan dünya iqtisadiyyatının hazırkı vəziyyəti və ölkəmizin bu proseslərdə iştirakının öyrənilməsi xüsusilə əhəmiyyətlidir.

Qeyd edək ki, hələ 50-60 il əvvəl dünya iqtisadiyyatının gələcəyi ilə bağlı irəli sürülən bədbin proqnozların çoxu bu gün özünü doğrultmur. 1950-1960-cı illərdə belə bir təhlükə var idi ki, əhalisi sürətlə artan Çin, Hindistan, İndoneziya kimi inkişaf etməkdə olan ölkələrdə əhalinin ərzağa tələbatı ödənilə bilməyəcək və bu ölkələrdə aclıq, səfalət baş verəcək. Ancaq kənd təsərrüfatında baş verən yaşıl inqilabdan və bu ölkələrdə iqtisadi inkişafa yönəlik aparılan iqtisadi islahatlardan sonra belə bir təhlükə aradan qaldırıldı. Əksinə, hazırda Çinin dünya ÜDM-ində xüsusi çəkisi artaraq 15.4% təşkil edib (alıcılıq qabiliyyəti pariteti ilə hesablananda) və 1992-ci ildən başlayaraq Çində iqtisadi artım, demək olar ki, hər il dünyada ÜDM-in 0.1% artmasına səbəb olub. ÜDM-in həcminə görə isə Çin 2009-cu ildə Yaponiyanı qabaqlayaraq dünyada ABŞ-dan sonra 2-ci yerə çıxıb.

Ümumiyyətlə, 2008-ci il dünya iqtisadiyyatında neçə illərdir davam edən yüksək artımın dayanması ilə tarixə düşdü. Dünya iqtisadiyyatında aparıcı mövqeyə malik olan ölkələrdən (ABŞ, Yaponiya, Çin,

Böyük Britaniya, Hindistan, Almaniya, Fransa, İtaliya, Rusiya) heç biri qlobal böhranın təsirindən yaxa qurtara bilmədi. Statistik məlumatlara görə, dünya üzrə ÜDM-in təxminən 70 faizi bu ölkələrdə formalaşır (bu ölkələr həmçinin «trilyonluq» ÜDM-i olan ölkələr adlandırılır), Yer kürəsi əhalisinin təqribən yarısı onların payına düşür. Bu ölkələrdə iqtisadi artım templərinin zəifləməsi nəticəsində dünya üzrə orta illik artım tempi 2 dəfəyədək azalaraq 2007-ci ildəki 5.7 faizdən 2,8 faizə endi. 2008-2009-cu illərdə dünyada baş vermiş iqtisadi böhran və onun nəticələri onu göstərdi ki, süni mənbələr hesabına yaradılmış iqtisadi artım tez bir zamanda durğunluq və böhrana çevrilə bilər. Bu baxımdan dünya ölkələrində iqtisadi inkişafın əsas məqsədi həyat səviyyəsinin keyfiyyətinin yaxşılaşdırılmasıdır ki, bu da təkcə əhalinin gəlirlərinin artırılması ilə deyil, həmçinin yüksək təhsil, səhiyyə və qida, yoxsulluğun azaldılması, ətraf mühitin qorunması, imkanların eyniləşdirilməsi, şəxsi azadlığın genişləndirilməsi və mədəni həyatın təmin edilməsində öz əksini tapmalıdır. Bu gün dünya ölkələrinin praktikasından aydın olur ki, makroiqtisadi siyasətin əsas istiqamətləri iqtisadiyyatda əmək məhsuldarlığının və səmərəliliyinin artırılması, enerji effektivliyinin təmin edilməsi, rəqabətqabiliyyətli məhsul istehsalına şərait yaradılması, elmi-texniki proqres, resurslara qənaət və təsərrüfat subyektlərinin dünya iqtisadiyyatına səmərəli inteqrasiyasını təmin etmək olmalıdır.

Dünyada baş vermiş son iqtisadi böhran Azərbaycan üçün də müəyyən nəticələr əldə olunmasına imkan verdi:

1) Azərbaycan hökuməti baş vermiş böhrana zamanında reaksiya verdi və antiböhran tədbirləri həyata keçirməyə başladı. Böhran son on ildə həyata keçirilən makroiqtisadi siyasətin – geniş həcmli infrastruktur layihələrin həyata keçirilməsilə yanaşı, neft gəlirləri hesabına strateji valyuta ehtiyatlarının artırılmasının doğru olduğunu göstərdi;

2) Bir daha təsdiq olundu ki, son illər əldə edilmiş sürətli iqtisadi artım zəruri olsa da, kifayət deyil. Əsasən iqtisadi artımın keyfiyyət amillərinin hesabına artması və iqtisadi inkişafın əldə olunması Azərbaycan iqtisadi strategiyasının ən prioritet istiqamətidir. Azərbaycan iqtisadiyyatının gələcəkdə baş vermiş qlobal iqtisadi böhranlara qarşı dayanıqlığı tamamilə bundan asılı olacaq;

3) Böhran onu göstərdi ki, iqtisadiyyatın diversifikasiyası və modernləşməsi qaçılmaz bir zərurətdir. İqtisadiyyatın modernləşməsi ictimai həyatın bütün tərəflərini - texnoloji, institutlar və ideologiyanı

əhatə etməlidir. İqtisadiyyatın modernləşməsi üçün insan kapitalının inkişafı, enerji effektivliyi və institutların keyfiyyətinin yüksəldilməsi vacibdir.

**Dünya ölkələrində iqtisadi artım templəri (%-lə)**

| | 1993-2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dünya | 3.3 | 3.6 | 4.9 | 4.6 | 5.3 | 5.4 | 2.8 | -0.7 | 5.1 | 4 | 4 | 4.9 |
| İnkişaf etmiş ölkələr | 2.8 | 1.9 | 3.1 | 2.7 | 3.1 | 2.8 | 0.1 | -3.7 | 3.1 | 1.6 | 1.9 | 2.7 |
| İnkişaf etməkdə olan ölkələr | 4.1 | 6.2 | 7.5 | 7.3 | 8.2 | 8.9 | 6 | 2.8 | 7.3 | 6.4 | 6.1 | 6.7 |
| MDB ölkələri, Gürcüstan və Monqolustan | -1.2 | 7.7 | 8.1 | 6.7 | 8.9 | 8.9 | 5.3 | -6.4 | 4.6 | 4.6 | 4.4 | 4.2 |
| Azərbaycan | -1.4 | 10.5 | 10.2 | 26.4 | 34.5 | 25 | 10.8 | 9.3 | 5 | 0.2 | 7.1 | 2.3 |
| Rusiya | -0.9 | 7.3 | 7.2 | 6.4 | 8.2 | 8.5 | 5.2 | -7.8 | 4 | 4.3 | 4.1 | 3.8 |
| Ermənistan | 4.4 | 14 | 10.5 | 13.9 | 13.2 | 13.7 | 6.9 | -14 | 2.1 | 4.6 | 4.3 | 4 |
| Gürcüstan | ... | 11.1 | 5.9 | 9.6 | 9.4 | 12.3 | 2.4 | -3.8 | 6.4 | 5.5 | 5.2 | 5 |
| Qazaxıstan | 0.3 | 9.3 | 9.6 | 9.7 | 10.7 | 8.9 | 3.2 | 1.2 | 7.3 | 6.5 | 5.6 | 6.4 |
| Özbəkistan | 1.9 | 4.2 | 7.4 | 7 | 7.5 | 9.5 | 9 | 8.1 | 8.5 | 7.1 | 7 | 6 |

Qeyd edək ki, hələ 90-cı illərin əvvəlində iqtisadiyyatda baş vermiş dərin tənəzzül Azərbaycanda adambaşına düşən ümumi daxili

məhsul və milli gəlirin səviyyəsi ilə dünya göstəriciləri arasında böyük uçurum yaratdı. Statistik məlumatlara görə, Azərbaycanda cari qiymətlərlə əhalinin hər nəfərinə düşən ÜDM 1993-cü ildə dünyadakı orta göstəricinin cəmi 4%-ni, Atlas metodu ilə hesablanmış adambaşına düşən milli gəlir isə 12.94%-ni təşkil edirdi. 2003-cü ilə qədər Dünya Bankının hesabatlarında Azərbaycan yoxsul ölkələr qrupuna aid edilsə də, neft sektorunun inkişafı, «Əsrin müqaviləsi» layihəsinə uyğun olaraq ilk neftin hasil edilməsi və dünya bazarında neftin qiymətinin qalxması ilə ölkəmizdə adambaşına düşən ÜDM 2009-cu ildə 1993-cü ilə nisbətən 9.24 dəfə artaraq 4899 dollar təşkil edib.

Hazırda dünyanın 56 ölkəsi yüksəkgəlirli ölkələr qrupuna daxildir ki, bunların içərisində Avropa və Amerikanın inkişaf etmiş ölkələri ilə yanaşı, XX əsrin ikinci yarısında öz iqtisadi uğurları ilə dünya iqtisadiyyatında yeni mərhələ açan Honq-Konq və Sinqapur, neft ixracında əsas rola malik olan Küveyt, BƏƏ və Səudiyyə Ərəbistanı var. Aşağı gəlirli ölkələr sırasına isə 54 ölkə, əsasən də təbii fəlakətlər, xəstəlik və münaqişələrdən əziyyət çəkən Afrika və Asiyanın yoxsul ölkələri daxildir. 1960-cı ildə əhalisinin sayına görə, dünyanın 1/6-ni təşkil edən ölkələrin gəlirləri digər 5/6-in ümumi gəlirlərindən 2.9 dəfə çox idi. 1980-ci ildə bu fərq 3.15 dəfə, 2003-cü ildə 4.2 dəfəyə çatmışdır. Əhalinin hər nəfərinə düşən milli gəlir isə inkişaf etmiş ölkələrdə aşağı gəlirli ölkələrə nisbətən 1970-ci ildə 24.67 dəfə, 1980-ci ildə 32.71 dəfə, 1990-cı ildə 54.89 dəfə, 2003-cü ildə 65 dəfə, 2010-cu ildə isə 73 dəfə çox olmuşdur. İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı Ölkələri ilə inkişaf etməkdə olan ölkələr arasında bu fərq 2010-cu ildə 56 dəfə təşkil etmişdir. Avropa və Şimali Amerika ölkələrinin yüksək inkişaf etməsinin əsas səbəbi sərbəst bazar iqtisadiyyatının formalaşması, innovasiyanın istehsalata tətbiqinin sürətlənməsi, demokratik institutların formalaşması və s.-dir. Yaponiya və «Asiya pələngləri» ölkələrinin iqtisadi inkişafında əsas rolu texniki yenilik, insan kapitalının inkişafı, menecmentin yüksək səviyyəsi, yuxarı keyfiyyətli və ucuz mallar istehsal edilməsidir.

Dünya ölkələrində insan kapitalına tələbat getdikcə artır: dünyada ixtisaslı və yüksək intellektuallı işçi qüvvəsinə malik olan ölkələrdə iqtisadi inkişaf daha dayanıqlı və sürətli olur. Ona görə də, dünyada elm və təhsilə, ixtisaslı işçi qüvvəsinə çəkilən xərclər getdikcə artır. Əsas fondlara qoyulan investisiyalara nisbətən insan kapitalına qoyulan investisiyalar daha sürətlə artır. Məsələn, 90-cı illərdə İƏİT

(OECD) ölkələrində əsas fondlara qoyulan investisiyalar orta hesabla 2.25% artsa da, insan kapitalına qoyulan investisiyalar 3.4% artmışdır.

Son 10 ildə dünya iqtisadiyyatına təsir edən amillərdən biri də neftin qiymətinin ilbəil yüksəlməsidir. Hazırda neftin qiymətinin qalxması dünya iqtisadiyyatında disbalansın yaranmasında əsas rol oynayır və bu problemin yaxın gələcəkdə də həll edilməsi mümkün olmayacaq. Neft idxal edən ölkələrdə xarici ticarət balansı pisləşir, cari əməliyyatlar hesabının defisiti artır, ümumi tələb aşağı düğür, korporasiyaların xərci artır, rentabellik azalır. Neft ixrac edən ölkələrdə isə əksinə, xarici ticarət balansının profisiti artır və real valyuta məzənnəsi bahalaşmağa başlayır. Statistik məlumatlara görə, 2005-ci ildə neft ixrac edən ölkələrin (OPEK) gəlirləri 500 mlrd. dollara çatıb ki, bu da 2003-cü ildəkindən 2 dəfə çoxdur. Neftin qiymətinin artması bütünlükdə dünyada ümumi tələbi aşağı salır və iqtisadi artımı zəiflədir. Bu proses həmçinin maliyyə bazarlarına da ciddi təsir göstərərək qiymətli kağızlar və obliqasiyaların ucuzlaşmasına səbəb olur. Dünya ölkələrində isə neft istehlakı ilbəil artır. 2010-cu ildə dünyada günlük neft istehlakı 87.38 mln. barel olub. Bu göstərici 2000-ci illə müqayisədə 14% artıb. Neft istehsalında isə risklər hələ də qalmaqdadır: Ərəb ölkələrində qeyri-sabitlik, İraqda münaqişə və İranda beynəlxalq nüvə problemi. Ümumiyyətlə, neft istehsalına çəkilən xərclər də artmağa başlayıb. Əvvəla, iri neft yataqlarının tapılması çətinləşib. Buna görə də neft hasilatı daha çox böyük xərclər və risklər olan rayonlarda həyata keçirilməyə başlanılıb. 1980 və 1990-cı illərdən sonra neftin qiymətinin aşağı olmasının nəticəsi kimi hazırda bu sahədə ixtisaslı kadr və neftçi-mühəndislərin çatışmazlığı hiss olunur. Həmçinin neft ixrac edən ölkələrdə xarici şirkətlərə qoyulan əlavə vergi və royalti, onlarının fəaliyyətinin lisenziyalaşdırılması neft hasilatına çəkilən xərclərin artmasında əsas rol oynayır.

Dünya bankı ekspertləri tərəfindən neft və dünya ərzaq qiymətləri arasında tarixi asılılıq araşdırılmışdır. Məlum olmuşdur ki, neftin dünya bazar qiymətinin hər 10%-lik artımı ərzaq qiymətlərinin 2-3% artımına səbəb olur. Bütövlükdə bu əlaqə kənd təsərrüfatı məhsullarının maya dəyərində sənaye məhsulları ilə müqayisədə xərc maddəsi kimi neft və neft məhsullarının daha böyük paya malik olması ilə əlaqədardır. Müqayisə üçün deyək ki, dünya üzrə sənaye məhsullarının maya dəyərində neft və neft məhsullarının payı 2.5% olduğu halda, bu göstərici kənd təsərrüfatında 11%-ə yaxındır. Belə bir əlaqənin müəyyən

olunması ölkə baxımından çox önəmlidir. Belə ki, Azərbaycan bir tərəfdən neft ixracatçısıdır (neftin dünya bazar qiymətinin qalxması əlavə gəlir gətirir və ya əksinə), digər tərəfdən isə artan neft qiymətləri dünya ərzaq qiymətlərinin, o cümlədən idxal olunan ərzağın qiymətinin yüksəlməsinə səbəb olur. Dünya bankının hesablamalarını və ölkədə ərzağın istehlak səbətində payını nəzərə aldıqda deyə bilərik ki, neftin dünya bazar qiymətinin hər 10% qalxması ölkədə 1.5-2% inflyasiyaya səbəb ola bilər.

Dünyada gedən bu proseslər Azərbaycandan da yan keçməyib. Azərbaycanda son 20 ildə müstəqillik əldə etdikdən sonra qarşıda duran, bir-birindən çətin 3 əsas sosial-iqtisadi problem həll edilib: totalitar rejimdən demokratik cəmiyyətə keçid, mərkəzləşdirilmiş planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya. Müstəqil dövlət kimi dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli əlaqələrin qurulması, beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycan iqtisadi strategiyasının əsas prioritet istiqamətinə çevrilib və bu sahədə əldə olunan uğurların nəticəsində hazırda dünya iqtisadiyyatının bərabərhüquqlu üzvü kimi çıxış edir. Ərazisi dünyanın cəmi 0.065%-i, əhalisi isə dünya əhalisinin 0,13%-ni təşkil etsə də, XX əsrin sonu və XXİ əsrin əvvəlində dünyada və regionda gedən proseslər göstərdi ki, Azərbaycanın dünya iqtisadiyyatında rolu heç də bu göstəricilərlə ölçülmür. Belə ki, regionda tutduğu mövqe və bir sıra üstünlüklərinə görə Azərbaycan dünya iqtisadiyyatında hazırda tutduğu mövqedən dəfələrlə yüksəkdə olmalıdır.

Şübhəsiz ki, Azərbaycanın iqtisadiyyatının ən mühüm müqayisəli üstünlüyü onun təbii sərvətləridir. "BP"-nin məlumatına görə, Azərbaycanda kəşf edilmiş neft ehtiyatı 2005-ci ilin sonuna 7 mlrd. Bareldir ki, bu da dünyadakı neft ehtiyatlarının 0.6%-ni təşkil edir. Əgər əlavə kəşflər olmasa hazırkı hasilatla ölkəmizdə neft 42.4 ildən sonra tükənəcək. Dünyanın, əsasən də Avropanın ən maraq doğurduğu məsələ, Azərbaycandan hasil ediləcək təbii qazın Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasında oynayacağı roludur. Rusiyanın təbii qaz ixracında inhisarçılığı və bundan iqtisadi məsələlərdən çox, siyasi təzyiq vasitəsi kimi istifadə etməsi dünyanı əlavə təbii qaz mənbələrinin axtarışına məcbur edir və belə bir mənbənin Azərbaycan olduğu barədə fikirlər ekspertlər tərəfindən tez-tez səslənməkdədir. Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, hazırda Avropanın qaza illik tələbatı 520 mlrd. kub metrdir ki, bunun da 44%-i Rusiya

tərəfindən təmin olunur. Azərbaycanın Xəzər dənizindəki təbii qaz ehtiyatları 625 mlrd. kub metr və kondensat isə 101 mln. ton qiymətləndirilir. Azərbaycanın Şahdəniz yatağından hasil ediləcək qaz hesabına ilkin mərhələdə Türkiyəyə 2.5 mlrd. kub metr, 2008-ci ildə isə 6.6 mlrd. kub metr qaz ixrac edilməsi planlaşdırılır. 2010-cu ildən sonra isə Azərbaycan qazının Türkiyə üzərindən əvvəlcə Yunanıstan, oradan isə Fransa və İtaliyaya ixrac edilməsi düşünülür. Qeyd edək ki, Azərbaycan ərazisindən keçəcək qaz kəməri vasitəsilə Türkmənistan və Qazaxıstan qazının nəql edilməsi layihəsinin reallaşdırılması isə Azərbaycanın dünya iqtisadiyyatında rolunu daha da artıracaq.

Azərbaycanın əsas üstünlüklərindən biri onun əlverişli coğrafi mövqeyidir. Şərq və Qərb arasında əsas körpü rolu oynamaqla, Azərbaycan dünyanın əsas nəqliyyat və kommunikasiya mərkəzlərindən birinə çevrilir və bu proses hələ də davam edir. Böyük İpək Yolu, Bakı-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərləri, Bakı-Axalkalaki-Qars dəmiryolu xəttində aparıcı rola malik olması Azərbaycanın nəinki regionda, həmçinin dünyada iqtisadi-siyasi cəhətdən mövqeyini və əhəmiyyətini yüksəldir.

Qeyd etmək lazımdır ki, Azərbaycan milli iqtisadiyyatının dünya təsərrüfatına səmərəli inteqrasiyası və dünya iqtisadiyyatında mövqeyinin daha da gücləndirilməsi üçün müxtəlif istiqamətlərdə fəaliyyətin genişləndirilməsi zərurətə çevrilmişdir. Belə ki, iqtisadiyyatda liberallaşmanın davam etdirilməsi, biznes mühitinin yaxşılaşdırılması, xüsusi mülkiyyətin qorunması, qanunların aliliyi, vergi yükünün azaldılması və iqtisadiyyatın inzibati metodlarla tənzim edilməsindən imtina edilməsi, beynəlxalq standartlara uyğun demokratik vətəndaş cəmiyyətinin qurulması Azərbaycan hökuməti və bütünlükdə cəmiyyətin qarşısında duran prioritet vəzifələrdəndir. Artıq bütün dünyada iqtisadi azadlıq, kapital və əmtəələrin hərəkətinə maneələrin aradan qaldırılması, sərbəst ticarət, vətəndaşların iqtisadi və mülkiyyət hüquqlarının qorunması prosesləri çox sürətlə gedir. Əgər Azərbaycan da Avropa və dünyanın inkişaf etmiş ölkələri sırasına pozitiv bir imiclə qoşulmaq istəyirsə yuxarıda göstərilən proseslərin ən yaxın zamanda daha sürətlə həyata keçirilməsi qaçılmaz olacaq. Düzdür bu problemlərin həlli sahəsində əsaslı tədbirlər həyata keçirilməsinə baxmayaraq, hələ də Avropaya inteqrasiya üçün qarşıda qoyulan tələblər tam yerinə yetirilməyib.

## Dünyanın neft ehtiyatlarında Azərbaycanın payı (2009-cu il)

| Ölkələr | Əhali-nin sa-yı, mln nəfər | Ehti-yat-lar, mlrd. barel | Dünya ehtiya-tında xüsusi çəkisi, %-lə | Adamba-şına dü-şən ehti-yatlar, barrel | Tü-kən-mə müd-dəti, Il | Dünynı neft is-thesalın-da xüsusi çəkisi, %-lə |
|---|---|---|---|---|---|---|
| Səudiy-yə Ərə-bistanı | 22.53 | 264.6 | 19.8 | 11744.34 | 74.6 | 12 |
| İran | 72.9 | 137.6 | 10.3 | 1887.52 | 89.4 | 5.3 |
| İraq | 31.49 | 115 | 8.6 | 3651.95 | * | 3.2 |
| Küveyt | 2.79 | 101.5 | 7.6 | 36379.93 | * | 3.2 |
| BƏƏ | 4.6 | 97.8 | 7.3 | 21260.87 | * | 3.2 |
| Venesue-la | 28.38 | 172.3 | 12.9 | 6071.18 | 72.6 | 3.3 |
| Rusiya | 141.85 | 74.2 | 5.6 | 523.09 | 20.3 | 12.9 |
| Qazaxıs-tan | 15.89 | 39.8 | 3 | 2504.72 | 64.9 | 2 |
| Liviya | 6.41 | 44.3 | 3.3 | 6911.08 | 73.4 | 2 |
| Nigeriya | 154.7 | 37.2 | 2.8 | 240.42 | 49.5 | 2.6 |
| Əlcəzair | 34.89 | 12.2 | 0.9 | 349.67 | 18.5 | 2 |
| Norveç | 4.56 | 7.1 | 0.5 | 1557.02 | 8.3 | 2.8 |
| Anqola | 18.5 | 13.5 | 1 | 729.73 | 20.7 | 2.3 |
| Azərbay-can | 8.78 | 7 | 0.5 | 797.27 | 18.6 | 1.3 |

** Cədvəl BP-nin məlumatları əsasında hazırlanıb. www.bp.com.*

Dünya və milli iqtisadi sistemlər arasında qarşılıqlı əlaqəni təmin edən əsas alət xarici iqtisadi əlaqələrdir ki, bu da özündə ölkələr arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığı nəzərdə tutur. Beynəlxalq praktikada xarici iqtisadi əlaqələrin 20-dən çox forması fərqləndirilir. Belə ki, xarici iqtisadi əlaqələr aşağıdakı istiqamətlər üzrə təhlil edilməlidir.

**Xarici iqtisadi əlaqələrin əsas istiqamətləri**




Statistik məlumatlara görə, 2000-ci ilə nisbətən 2012-ci ildə ÜDM-11,4 dəfə, sənaye məhsulları 17,3 dəfə, kənd təsərrüfatı və meşə təsərrüfatlarında artım 3,7 dəfə olub, minimum əməkhaqqı 105 manat, minimum istehlak büdcəsi 125 manat, işsizlik 5%, yoxsulluq 5,5% təşkil edib. 2012-ci ildə adambaşına ÜDM-in həcmi 5884,5 manat təşkil edib.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının inkişafında, daxili amillərlə yanaşı, xarici amillər də müstəsna rol oynayır. Bununla yanaşı son dövrdə daxili tələbin formalaşmasında isə xarici amillərin payı yüksək olmuşdur. Belə ki, daxili tələbdə əsas hissə istehlak xərcləri ilə əlaqədardır ki, bu da 3 amildən asılıdır: 1) iqtisadi aktivliyin səviyyəsi; 2) əmək bazarında vəziyyət; 3) neftin dünya qiymətləri ilə əks olunan xarici konyunktur. İqtisadi aktivlik səviyyəsi və əmək bazarında vəziyyətə isə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına həyata keçirilən infrastruktura layihələr və əməkhaqqının artırılması təsir göstərir. Azərbaycanda dövlət büdcəsinin gəlirlərinin formalaşması və müxtəlif sosial və infrastruktur layihələrin yerinə yetirilməsi üçün mühüm mənbələrdən biri isə Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) vəsaitləridir.

Qeyd etmək lazımdır ki, Dövlət Neft Fondu 1999-cu ildə yaradılmışdır. Onun əsas vəzifəsi inflyasiya və valyutanın möhkəmlənməsinin potensial "Holland sindromu" effektlərini azaltmaq məqsədilə dənizdəki yataqlardan əldə olunan neft gəlirlərinin təcrid olunması, neft gəlirlərinin sonralar iqtisadiyyata sərmayə kimi qoyulması və gələcək nəsil üçün uzunmüddətli yığım kimi formalaşması toplanmış neft gəlirlərindən istifadə edərək, xaricdə bacarıqların artırılması və tələbə təqaüdü proqramları, qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və sair. məsələləri həyata keçirməkdən ibarətdir.

Təhlil göstərir ki, 2000-2015-ci illərdə Azərbaycanın xarici iqtisadi əlaqələri bütün istiqamətlər üzrə dinamik inkişaf edib. Bu əsasən özünü aşağıdakılarda göstərib:

Xarici ticarətin bütün göstəricilərinin yaxşılaşması, xarici ticarət balansının müsbət saldosunun sürətli artımı;

Qızıl-valyuta ehtiyatlarının artması;

Xarici borcun azalması;

Manatın digər valyutalara nisbətən stabilliyinin qorunması;

Xarici ticarət və bütünlükdə xarici iqtisadi əlaqələrdə liberallaşmanın sürətlənməsi;

Azərbaycanın beynəlxalq reytinq təşkilatları tərəfindən müəyyən edilən investisiya cəlbediciliyi və makroiqtisadi sabitlik reytinqində mövqelərinin yaxşılaşması;

Ölkə iqtisadiyyatında xarici investisiyaların artması;

Region ölkələrində iqtisadi inkişaf və daxili tələbin genişlənməsi və əhalinin gəlirlərinin artması hesabına Azərbaycanın qeyri-neft məhsullarının ixracının artması.

Azərbaycanda iqtisadi artıma təsir edən əsas amil 1994-cü ildə xarici şirkətlərlə bağlanmış müqavilə əsasında investisiya qoyuluşu nəticəsində neft hasilatının və ixracının artması, eyni zamanda neftin dünya qiymətlərinin sürətlə qalxmasıdır. Bunun nəticəsidir ki, xarici ticarət dövriyyəsinin sabit inkişafı müəyyən dərəcədə ÜDM-in istehsalına və ölkənin digər makroiqtisadi göstəricilərinə təsir göstərib və bu proses yaxın perspektivdə də davam edəcək.

Qeyd etmək lazımdır ki, təbii ehtiyatların ümumi ixracda və ÜDM-də xüsusi çəkisi ilbəil artır ki, bu da əsasən xam neft ixracı ilə bağlıdır. Qeyd etmək lazımdır ki, Azərbaycanda ixracın əsas hissəsinin xammal və mineral yanacaq olması iqtisadi sistemin qarşısında duran ən böyük problemdir. Neft ehtiyatları ilə zəngin və əsas neft ix-

racatçısı olan ölkələrin təcrübəsi göstərir ki, hansı ölkədə neft ixracından daxil olan vəsait hesabına digər sahələrin inkişafına nail olunubsa, iqtisadiyyatda liberallaşma və biznesin inkişafı təmin edilibsə neftin dünya bazar qiymətlərinin kəskin aşağı düşməsi həmin ölkələrin iqtisadiyyatında ciddi problemlərə yol açmayıb.

Beynəlxalq iqtisadi statistikanın təhlili göstərir ki, neft, qaz və digər təbii sərvətlərin olması ölkədə dayanıqlı iqtisadi inkişafın təminatı deyil və ya bu ehtiyatlar, zəngin olmayan ölkələrdə isə daha pozitiv iqtisadi göstəricilərə nail olmaq mümkündür. İqtisadi göstəricilərə görə də, neft ixrac edən ölkələr dünyada aparıcı rola malik deyillər. Dünyada neft ehtiyatının əsas hissəsinə sahib olan OPEC ölkələrinin ərazisi dünyanın 9.41%-i, əhalisi isə dünya əhalisinin 8.46%-ni təşkil etməsinə baxmayaraq, neftin ən pik həddə olduğu 2005-ci ildə bu ölkələrdə istehsal edilmiş ÜDM, cari qiymətlərlə Ümumidünya ÜDM-nin cəmi 3.25%-ni təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM-in məbləği isə OPEC ölkələrində orta dünya göstəricilərinə nisbətən 72% azdır.

Dünya iqtisadiyyatını əks etdirən bütün statistik məlumatlarda neft ixrac edən ölkələrlə müqayisədə digər ölkələrin daha çox iqtisadi uğur qazandığı təsdiq olunur. Əgər dünya üzrə əhalinin hər nəfərinə düşən ÜDM 2000-ci ilin qiymətləri ilə 2003-cü ildə 1970-ci ilə nisbətən 61% artıbsa, Küveytdə 2.47 dəfə, Venesuelada 38.8 % aşağı düşüb, Səudiyyə Ərəbistanında cəmi 17.6 %, Nigeriyada isə 3.8% artıb. Səudiyyə Ərəbistanında bu göstərici 1980-ci illə müqayisədə 45% az olub. 1975-2004-cü illərdə alıcılıq qabiliyyəti pariteti ilə hesablanmış adambaşına düşən ÜDM BƏƏ-də orta hesabla ildə 2.8%, Səudiyyə Ərəbistanında 2.3%, Venesuelada 0.9%, Küveytdə 0.8%, İranda 0.1% azalıb. Dünya bankının araşdırmalarına görə isə son 20 ildə təbii sərvətlərlə zəngin olan 65 ölkə içərisində yalnız Botsvana, İndoneziya, Mali və Tailandda bu göstəricinin artım tempi 4%-dən az olmayıb. Bunların içərisində isə yalnız İndoneziyada neft ehtiyatları var. Ancaq bunun əksinə olaraq təbii sərvətlərlə zəngin olmayan Cənubi-Şərqi Asiya ölkələrində (Honq-Konq, Sinqapur, Cənubi Koreya və Tayvan) yüksək iqtisadi artıma nail olublar. Digər tərəfdən neftin dünya qiymətləri sabit deyil və dünyada gedən siyasi, hərbi, iqtisadi və təbii proseslərin nəticəsi olaraq çox sürətlə dəyişir. Bu baxımdan ixracın və bütünlükdə iqtisadi inkişafın əsas lokomotivinin neft sektoru olması çox təhlükəli nəticələrlə yekunlaşa bilər.

Dünya Bankının araşdırmasına görə isə 1965-1998-ci illərdə neftlə zəngin ölkələr qrupuna daxil olan İran və Venesuelada adambaşına düşən ÜDM orta illik 1%, Liviyada 2%, İraq və Küveytdə 3%, Qətərdə isə 1970-1995-ci illərdə 6% azalıb. Ümumilikdə neft ixrac edən (OPEC) ölkələrdə əhalinin hər nəfərinə düşən ÜDM son 30 ildə artmayıb, əksinə orta hesabla hər il 1.3% aşağı düşüb. Son 20 ildə təbii sərvətlərlə zəngin olan 65 ölkə içərisində yalnız Botsvana, İndoneziya, Mali və Tailandda bu göstəricinin artım tempi 4%-dən az olmayıb. Bunların içərisində isə yalnız İndoneziyada neft ehtiyatları var.

Ümumiyyətlə, neft ixrac edən ölkələrin əksəriyyətində «Holland sindromu»nun təzahürləri özünü göstərir. Neft istehsalı və ixracının artmasından əldə edilən «neft dollarının» valyuta bazarına daxil olması nəticəsində milli valyutanın möhkəmlənməsi «Holland sindromu» nun əsas xarakterik xüsusiyyətidir. Neft pullarının artması ilə cəmiyyətin ölkənin təbii sərvətlərindən gələn gəlirlər hesabına həyat şəraitlərinin yaxşılaşdırılması gözləntiləri və tələbləri nəticəsində dövlət, sosial xərcləri artırır və nəticədə inflyasiya yüksəlir. Milli valyutanın möhkəmlənməsi nəticəsində ənənəvi ixrac məhsullarının rəqabət qabiliyyətinin aşağı düşməsi və qeyri-neft sektoruna aid ixracın səviyyəsinin azalması qaçılmaz olur.

Azərbaycanda xaric iqtisadi əlaqələrin əhəmiyyətini göstərən əsas göstəricilərdən biri də ixrac edilmiş məhsulların ümumi istehsalda xüsusi çəkisinin və idxal mallarının ümumi tələbdə xüsusi çəkisi göstəriciləridir. Qeyd edək ki, iqtisadi artımı xarakterizə edən əsas parametrlərdən biri ümumi tələbin strukturudur. İxracın xammal yönümü üzrə ixtisaslaşması şəraitində isə daxili tələbi stimullaşdırmaq zəruri məsələlərdəndir. Dünya ölkələrinin təcrübəsi göstərir ki, digər amillər sabit qaldıqda illik iqtisadi artımı 4-5% saxlamaq üçün daxili tələbin son artımı ildə 6-7% olmalıdır. Əgər 1995-ci ildə Azərbaycanda ümumi məhsul istehsalının 16.54%-i ixrac olunurdusa, 2009-cu ildə bu göstərici 37.47%-ə qədər yüksəlib.

İdxalın ümumi təklifdə xüsusi çəkisi 2009-cu ildə 2003-cü ildəki, 39.6% və 2004-cü ildəki 42.1 %, 2005-ci ildəki 36.05%-dən 19%-ə qədər düşüb ki, bu da yerli məhsulların istehsalının artması ilə əlaqədardır. Bu meyillər həmçinin idxalın daxili tələbdə payının aşağı düşməsində də özünü göstərir. Belə ki, 2005-ci ildə daxili tələbin 60%-i idxal malları hesabına ödənilirdisə, 2009-cu ildə bu göstərici 32%-ə düşüb. Azərbaycanda iqtisadi artımın gələcək prioritet istiqamətlərin-

dən biri orta keyfiyyətli idxal mallarının yerli istehsalla əvəz edilməsidir.

Xarici ticarətlə yanaşı, Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu da iqtisadi artımın əsas amillərindən biridir. 1994-cü ildən etibarən, Azərbaycan öz iqtisadiyyatını, xüsusən də enerji sektorunu daha da inkişaf etdirmək məqsədilə böyük həcmdə xarici investisiyalar cəlb etmişdir. Bütövlükdə, 1995-ci ildən 2014-cü ilə qədər ölkə iqtisadiyyatına 160 milyard dollar sərmayə qoyulmuşdur ki, onların 50 milyardı neft-qaz sektoruna qoyulan sərmayədir və mütləq əksəriyyəti xarici sərmayədir. Son illər ərzində Azərbaycan iqtisadiyyatına qoyulmuş sərmayələrin təxminən 5%-i xarici sərmayə olmuşdur. Təbii ki, neft sektoruna böyük investisiyaların qoyulmasından sonra, son illərdə neft sektorunun investisiya qəbulediciliyi aşağı düşmüşdür və paralel olaraq, neft gəlirlərinin artması kapitaltutumlu malların istehlakına olan ehtiyacı artırmışdır. Bu da, öz növbəsində, qeyri-neft sektorunda investisiyaya tələbatın yüksəlməsinə səbəb olmuşdur. Eyni zamanda, neft sektorunun inkişafı onunla bağlı olan tikinti, xidmətlər və rabitə sektorları kimi qeyri-neft sektorlarının inkişafına da kömək olur. Yuxarıda qeyd edildiyi kimi, biznes mühitində həyata keçirilmiş son islahatlar xarici investisiyaların qeyri-neft sektoruna cəlb edilməsində öz rolunu oynamağa başlamışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanda xidmətlər ticarəti də, iqtisadi artımın yaradılmasına müəyyən qədər təsir göstərib. Bu əsasən regionda böyük nəqliyyat layihələrinin həyata keçirilməsinə görə əldə edilən gəlir və turizm xidmətlərindən daxil olan vəsaitlər hesabına mümkün olmuşdur. Qeyd edək ki, Şərq və Qərb arasında əsas körpü rolu oynamaqla Azərbaycan, dünyanın əsas nəqliyyat və kommunikasiya mərkəzlərindən birinə çevrilir və bu proses hələ də davam edir. "Böyük İpək Yolu", "Bakı-Ceyhan" neft və "Bakı-Ərzurum" qaz kəmərləri, "Bakı-Axalkalaki-Qars" dəmiryolu xəttində aparıcı rola malik olması Azərbaycanın nəinki regionda, həmçinin dünyada iqtisadi-siyasi cəhətdən mövqeyini və əhəmiyyətini yüksəldir.

Qeyd etmək lazımdır ki, son dövrdə respublikada tarazlaşmış sosial-iqtisadi inkişafın təmin edilməsində xarici ticarətin həcmi, nomenklatur strukturu və coğrafiyası böyük rol oynamağa başlayıb. Qısa müddət ərzində Azərbaycan özünün iqtisadi potensialını xeyli artırıb və neft-qaz sektorunun dirçəlməsi sayəsində ölkənin imici, geosiyasi əhəmiyyəti nəinki regionda, həm də bütün dünyada daha da

yüksəlib. Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, xarici ticarətin liberallaşması, ölkə iqtisadiyyatına xarici və daxili investisiya qoyuluşalrının artması, sahibkarlığın inkişafına dəstək verilməsi, əhalinin real gəlirlərinin yüksəlməsi, regionların inkişafı, iri infrastruktur layihələrin həyata keçirilməsi və ən əsası neft-qaz hasilatının artması xarici ticarət dövriyyəsinin həcminin artmasında əsas rol oynamışdır. Xarici ticarət dövriyyəsinin stabil inkişafı isə əhəmiyyətli dərəcədə ÜDM-in istehsalına və ölkənin digər makroiqtisadi göstəricilərinə təsir göstərib.

Xarici ticarət sahəsində əsas problem xarici ticarətin əmtəə, ölkə və regional strukturunda təmərküzləşmə və konsentrasiya riskinin böyük olmasıdır. Əvvəla, ixrac olunan malların əksəriyyəti ölkənin müqayisəli üstünlüyünə əsaslanmır və istehsal prosesinin nəticəsi deyil. İkincisi, ixrac mallarının nomenklaturası çox aşağıdır. Cəmi 2-3 çeşid mal ümumi ixracın 80%-dən çoxunu təşkil edir. Belə ki, Azərbaycanda ixracın strukturunun əsasını neft və neft məhsulları təşkil edir. Statistik məlumatlara görə, 2010-cu ildə 10 adda məhsulun ixracda xüsusi çəkisi 2005-ci ildə 84.43 %, ÜDM-də isə 29.24 % təşkil etsə də, 2010-cu ildə artaraq müvafiq olaraq 94,6% və 39% olub.

Ölkədən ixrac edilən bir-neçə məhsulun ümumi ixracda xüsusi çəkisi yüksək olmaqla yanaşı, ÜDM-də böyük paya malikdir. 2008-ci ildə "Əsrin Müqaviləsi" çərçivəsində "Azəri-Çıraq" yataqlarından neft hasilatı və ixracı ilə əlaqədar olaraq bu məhsulların ÜDM-də xüsusi çəkisi 96.4% təşkil edib. Sonrakı illərdə bu göstərici bir qədər azalsa da, hələ də yüksək olaraq qalır. Son 10 ildə Azərbaycanın ixracının əsas hissəsini neft və neft məhsulları, o cümlədən xam neft, yüngül neft distillatları, aviasiya benzini, qaz, kerosin, neft yağları, daha sonra isə alüminium oksidi və xam alüminium, qoz-fındıq, polietilen, pambıq, səkər, təzə meyvələr və s. təşkil edir. Baxılan dövrdəki ixrac və idxal olunan məhsulların sayının dinamikası da təhlil edilərkən müəyyən olunur ki, hazırda Azərbaycanın ixrac məhsullarının ümumi sayı (6 rəqəmli HS sistemi üzrə) 2071-dir. 2001-ci illə müqayisədə ixrac siyahısında 491 məhsul artmışdır. İdxal olunan məhsulların sayı isə 2001-ci ildə 2466 olduğu halda, 2009-cu ildə artıq 3545-ə çatmış, yəni 1079 sayda məhsul artmışdır. İdxal məhsullarının say artımı ixracla müqayisədə 2,2 dəfə çox olmuşdur. Ümumiyyətlə isə, 2001-2009-cu illər ərzində idxal olunan məhsulların sayı ixrac olunan məhsulların sayından orta hesabla 4 dəfə artıq olmuşdur.

İxrac mallarının əmtəə strukturunun təhlili göstərir ki, mineral yanacaq, neft və neft emalı məhsullarının həm dəyər ifadəsində məbləği, həm də ümumi ixracda xüsusi çəkisi əvvəlki illərlə müqayisədə artıb. Belə ki, mədən sənayesi məhsullarının ümumi ixracda xüsusi çəkisi əgər 1995-ci ildə 58.55% idisə, 2000-ci ildə 85.11%, 2010-cu ildə isə 94.19% təşkil edib. Bu malların xüsusi çəkisinin artmasının əsas səbəbi neft-qaz layihələri üzrə işlərin yerinə yetirilməsi və hasilat prosesinin başlamasıdır.

1995-2010-cu illər ərzində maşın və avadanlıqların ümumi ixracda payı isə cəmi 2,7% təşkil etmişdir. Azərbaycanda yüksək texnologiyaya əsaslanan malların ixracı çox aşağı olmasının əsas səbəbi iqtisadiyyatda innovasiyanın tətbiq edilməməsi, maşın və avadanlıqların fiziki və mənəvi aşınması, elmlə istehsal sahələrinin zəif əlaqəsi və s.-dir. Texnologiyanın tətbiqinə görə Azərbaycan dünyanın digər ölkələrindən çox geri qalır. Məsələn, 2010-2011-ci illəri əhatə edən The Global Information Technology Report-da Azərbaycan dünyanın 138 ölkəsi arasında 70-ci yerdədir.

Azərbaycanda iqtisadi artımın prioritet istiqamətlərindən biri olan və ərzaq təhlükəsizliyində əsas rol oynayan kənd təsərrüfatı məhsullarının istehsalında və ixracında müəyyən problemlər mövcuddur. Kənd təsərrüfatının inkişafı ölkədə iqtisadi artımın yaradılmasına pozitiv təsir etmək, regionların inkişafını təmin etməklə yanaşı, şəhərlə kənd arasında iqtisadi mühitin tarazlaşmasına və miqrasiyanın qarşısının alınmasına kömək edər və eyni zamanda ərzaq idxalını azalda bilər. Kənd təsərrüfatında ümumi daxili məhsulun artım tempi kənddə adambaşına düşən əlavə dəyərin səviyyəsini şəhərdəki adambaşına əlavə dəyər səviyyəsində təmin etməlidir ki, miqrasiya və idxalı normal səviyyədə saxlamaq mümkün olsun. Ancaq Azərbaycanda kənd təsərrüfatı və ərzaq mallarının xarici ticarətinin təhlili göstərir ki, bu sahədə son illər müsbət dəyişikliklər baş verməsinə baxmayaraq, bu sahənin inkişaf etməsi üçün potensial imkanlar digər sahələrlə müqayisədə daha çoxdur.

Azərbaycanda iqtisadi artımın prioritet istiqamətlərindən biri ölkənin ərzaq təhlükəsizliyində əsas rol oynayan kənd təsərrüfatı məhsulları istehsalının və ixracının artırılmasıdır. Kənd təsərrüfatının inkişafı ölkədə iqtisadi artımın yaradılmasına pozitiv təsir etmək, regionların inkişafını təmin etməklə yanaşı, şəhərlə kənd arasında iqtisadi mühitin tarazlaşmasına və miqrasiyanın qarşısının alınmasına kö-

mək edər və eyni zamanda ərzaq idxalını azalda bilər. Kənd təsərrüfatında ümumi daxili məhsulun artım tempi kənddə adambaşına düşən əlavə dəyərin səviyyəsini şəhərdəki adambaşına əlavə dəyər səviyyəsində təmin etməlidir ki, miqrasiya və idxalı normal səviyyədə saxlamaq mümkün olsun.

Aqrar sektorun ən əsas məsələlərindən biri isə istehsal edilmiş malların ixrac edilməsidir. Belə ki, kənd təsərrüfatı və ərzaq mallarının ixracının artırılması, əvvəla, ölkənin xarici ticarət balansının optimallaşdırılması baxımından əhəmiyyətlidir. İkincisi, ixracın genişləndirilməsi kənd təsərrüfatı müəssisələrinin maliyyə vəziyyətinin yaxşılaşmasına səbəb olacaq və sonda aqrar sektorun inkişafı ilə müşahidə olunacaq. Bunun üçün dünya ölkələrinin təcrübəsindən də istifadə etmək olar. Məsələn, Hollandiyanın ərazisi Azərbaycanın ərazisindən 2 dəfə kiçik olsa da, kənd təsərrüfatı mallarının ixracına görə dünyada ABŞ və Fransadan sonra üçüncü yerdədir. 2002-ci ilin məlumatlarına görə, Hollandiya illik 40 mlrd. avroluq aqrar sektorun mallarını ixrac edir. İxracın belə yüksək olmasının əsas səbəbi təkcə istehsalın yüksək səviyyədə olması deyil, həmçinin dünya bazarında bu malların bazarlama və marketinqində Hollandiyanın dünya ölkələri arasında ön yerdə olmasıdır. Digər tərəfdən, əsas prinsip odur ki, ölkədə aqrar siyasət əhalinin tələbat və ehtiyaclarına uyğun formalaşır. İstehsal edilmiş malların keyfiyyəti çox yüksəkdir ki, bu da dünya bazarına çıxarılmış malların rəqabət gücünü daha da artırır. Ümumiyyətlə, Hollandiyada aqrar siyasət yenilikçilik və elmi araşdırmalar əsasında, dünya bazarındakı konyunktura vəziyyəti, istehsal və satış şərtlərini, ekoloji və təbii prosesləri nəzərə almaqla həyata keçirilir. Bu baxımdan Azərbaycan da Hollandiyanın təcrübəsindən istifadə edərək kənd təsərrüfatı və ərzaq mallarının istehsalı və ixracını inkişaf etdirə bilər. Bunun üçün mövcud problemlər araşdırılaraq təhlil edilib stimullaşdırıcı siyasət formalaşdırılmalıdır.

Belə bir vacib məsələni qeyd etmək lazımdır ki, son dövrdə Azərbaycanın MDB ölkələri ilə ticarət əlaqələrinin xüsusi çəkisi xeyli azalıb. Bunun əsas səbəbi Azərbaycanda neft məhsullarının uzaq xarici ölkələrə ixracının artması olsa da, postsovet respublikalarında xarici ticarətlə bağlı müxtəlif əngəllər mövcuddur ki, bu da Azərbaycandan bu ölkələrə qeyri-neft məhsullarının ixracına mane olur.

MDB ölkələrində xarici ticarətin əsas problemləri bu ölkələrdə gömrük vergilərinin yüksək olması, bürokratik əngəllər, qaçaq idxal

edilmiş mallarla rəqabət aparılmasında çətinlik, nəqliyyat sektorunun və infrastrukturun inkişaf etməməsi, bank sektorundakı problemlərdən (valyuta məzənnələrinin tez-tez dəyişməsi, hesablaşmaların aparılmasında problemlər) ibarətdir.

Ancaq bu problemlərə baxmayaraq Azərbaycanda qeyr-neft sektorunun mallarının satılacağı potensial bazarlar bu region ölkələridir. Məsələn, Azərbaycanın Rusiyaya ixracı əsasən qeyri-neft sektoru ilə bağlıdır. Statistik məlumatlar göstərir ki, Azərbaycanda qeyri-neft sektoru üzrə ixracın 50-55%-i Rusiyanın payına düşür. Bu ölkəyə əsasən meyvə-tərəvəz, pambıq lifi, marqarin və bitki yağları, meyvə şirələri, çay, tütün ixrac olunur.

İxracla yanaşı, son illərdə idxalın coğrafi strukturunda da dəyişikliklər baş verib. Azərbaycanın idxalında əsas yer tutan ölkələrdən Rusiya, Türkiyə, Almaniya, Ukrayna, Böyük Britaniya, Çin, ABŞ, Yaponiya, Qazaxıstan, İtaliya, Finlandiya, Fransa, Hollandiya, İran və Hindistanı göstərmək olar.

Belə bir qənaətə gəlmək olar ki, bu gün Azərbaycanda ixracın problemləri aşağıdakılardan ibarətdir:

-Yerli müəssisələrdə güclü maliyyə imkanları olmadığına görə ixrac mallarının tanıdılması və xarici bazarların ciddi araşdırılması həyata keçirilmir;

- Azərbaycanda böyük ölçülü sifarişləri qarşılaya biləcək müəssisələrin sayı azdır;

- Xarici ticarət sahəsində ixtisaslı kadrların sayı azdır;

-İxracat müəssisələrində istehsal və satışda beynəlxalq keyfiyyət standartlarının və idaretmədə korporativ menecementin tətbiqi həyata keçirilmir;

- satış sonrası zəmanət və xidmətlər, demək olar ki yoxdur;

- Bu müəssisələrin ucuz maliyyə vəsaitlərinə çixiş imkanları yoxdur və ölkədə inflyasiya səviyyəsi yüksəkdir;

- Yerli istehsalçı müəssisələr qiymət baxımından ucuz olduğuna və yetərli bazar araşdırılmadığına görə xaricdən mənəvi və fiziki köhnəlmiş avadanlıqlar almağa üstünlük verirlər.

### 4. Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyi

«Rəqabətqabiliyyətli iqtisadiyyat», «iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyəti» kimi anlayışlar artıq uzun illərdir ki, dünyanın inki-

şaf etmiş ölkələrində, son onillikdə isə yeni bazar ölkələrində iqtisadi tənzimləmə siyasətinin diqqət mərkəzində dayanmaqdadır. Makroiqtisadi nəzəriyyə kimi 70-cı illərin əvvəllərində yaranan «Ölkələrin Rəqabət Qabiliyyəti» qısa bir zaman içində iqtisadçılar arasında sürətlə yayıldı, hətta geniş müzakirələrin əsas mövzusuna və fundamental tədqiqatların obyektinə çevrildi. Rəqabətqabiliyyətliliyin artırılmasının ölkələr üçün əsas prioritet vəzifəyə çevrilməsinə bir sıra amillər səbəb oldu. Xarici iqtisadi ədəbiyyatlarda rəqabətqabiliyyətlilik müxtəlif cür izah edilir:

- Rəqabətqabiliyyətlilik iqtisadiyyatda əhalinin həyat səviyyəsinin yüksəldilməsinə aparan uğurlu mövqe əldə etmək qabiliyyətidir (ABŞ-ın Rəqabətqabiliyyətlilik üzrə Milli Soveti).

- Rəqabətqabiliyyətlilik insan, təbii və kapital resurslarının səmərəliliyi ilə müəyyən olunur. Səmərəlilik ölkədə əhalinin həyat səviyyəsini müəyyən edir. Ölkələrin rəqabətqabiliyyətli olması üçün ölkədə əmək məhsuldarlığını daimi olaraq rəqib ölkələrdən yuxarı səviyyədə saxlamaq lazımdır. (Porter, 2003) Porterin fikrincə, rəqabətqabiliyyətlilik elmi və praktiki əhəmiyyət daşımaqla cəmiyyətin inkişafının əsas amilidir. Praktiki olaraq bütün müəlliflər rəqabətqabiliyyətliliyin əsas komponentlərinin aşağıdakılardan ibarət olduğunu qeyd edirlər:

- Əmtəələrin texniki səviyyəsi, alıcıların tələblərinə uyğunluğu, texniki standart və şərtlər; servis və zəmanət xidmətlərinin təşkili; qiymət və ödəmə şərtləri; əmtəə və xidmətlərin bazara vaxtında çatdırılması; həmin regionda siyasi-iqtisadi vəziyyət.

- Rəqabətqabiliyyətlilik ölkənin vətəndaşlarının real gəlirlərini stabil saxlamaq və ya artırmaq şərtilə dünya bazarının tələblərinə uyğun əmtəə və xidmətlər istehsal etmək imkanlarıdır. (ABŞ prezidenti yanında Sənaye Rəqabətqabillyyətlilik Komissiyası) Rəqabətqabiliyyətlilik real milli gəlirin artırılması şəraitində xarici partnyorların tələblərinə cavab verəcək əmtəə və xidmətlərin istehsal dərəcəsini əks etdirir. (İİƏT-in Texnologiya və İqtisadiyyat Proqramı, 2001)

M.Porter ölkələr və regionların rəqabətqabiliyyətliliyinin araşdırılması sahəsində ən tanınmış tədqiqatçıdır. O öz konsepsiyasını neoklassik iqtisadi nəzəriyyələrin banilərindən olan A. Marşalın “Firmaların xarici iqtisadi fəaliyyəti nəzəriyyəsi” ilə uyğunlaşdırmağa çalışıb. Ölkələrin rəqabətqabiliyyətliliyini öyrənmədən öncə Porter, ayr-ayrı firmalar arasında rəqabət problemi ilə məşğul olub. Onun tədqiqatları əsasən 2 kitabında: «Rəqabət strategiyası: sahələri və rəqiblərin təhlil

metodu» (Porter,1980) və «Müqayisəli üstünlük, uğurlu fəaliyyətin yaradılması və qorunması» (Porter, 1985) kitablarında əks olunub. O öz tədqiqatlarının nəticəsində sonrakı logik zəncir yaradıb: əgər firmalar rəqabətqabiliyyətlidirsə, bu ölkə iqtisadiyyatında rəqabətqabiliyyətli sahələr formalaşdırır və nəticədə, ölkənin dünya bazarında rəqabətqabiliyyətli olmasını təmin edir. Ona görə də, ölkələrin beynəlxalq rəqabətqabiliyyətliliyinin əsas kriteriyası kimi ölkələrin hər növ məhsul üzrə ixracının dünya ixracında xüsusi çəkisi əsas götürülür. Bu baxımdan ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyi dedikdə, onun ixracının rəqabətqabiliyyətliliyi başa düşülür.

Rəqabətqabiliyyətlilik ilk olaraq əmtəə və xidmətlər üzrə çıxır. Məhsulun rəqabət qabiliyyəti – eynitəyinatlı rəqib məhsullarla müqayisədə istehlakçılar tərəfindən daha çox üstünlük verilmə səviyyəsini əks etdirir. İstehlakçıların bu seçimi məhsulun qiyməti və qeyri-qiymət amillərindən asılı olur. Yəni məhz o məhsul yüksək rəqabətqabiliyyətli hesab olunur ki, o həm ucuz qiymətlə reallaşsın, həm keyfiyyət və zövq baxımından istehlakçıların tələblərini ödəsin, həm də istehsal və ekoloji standartlara cavab versin. Təbii haldır ki, bütün bu standartlara cavab verən və maksimal rəqabət qabiliyyətinə malik ideal məhsul olmur. Rəqabət şəraitində bu və ya digər müəssisə əldə etdiyi üstünlüklərdən faydalanaraq digərindən önə çıxır. Beləliklə, daim rəqabət aparan müəssisələr öz məhsullarını ilk növbədə daxili, sonra isə beynəlxalq bazarlarda irəlilətməklə, son nəticədə müəssisələrin rəqabət qabiliyyətini formalaşdırmış və möhkəmlətmiş olur.

Hazırda Sinqapur dünyada ən rəqabətqabiliyyətli ölkələrdən biri kimi tanınır. Asiyanın kiçik ölkəsi, lakin tez bir zamanda iqtisadi əjdahaya çevrilən Sinqapur süni surətdə ucuzlaşdırılan işçi qüvvəsinin və görünməmiş miqyasda xarici sərmayələrin cəlb edilməsi hesabına rəqabət aparmağı bacarır. Bu Asiya ölkəsində həyati əhəmiyyətli sahələrdə vəziyyət ideal səviyyədədir: iqtisadiyyatı bütünlüklə iş adamlarının üzünə açıqdır, dövlət aparatı o qədər də böyük deyil, amma səmərəlidir (büdcə kəsiri sıfır səviyyəsindədir və vergilər aşağıdır və hamı həvəslə ödəyir), maliyyə sistemi sağlamdır, texnologiya yenidir, bacarıqlı menecerləri var, qanunverici sistemi müqavilələrin gerçəkləşməsinə zəmanət verir, səmərəli polis sisteminə malikdir və buna görə də cəmiyyətdə sabitlik və rahatlıq hökm sürür. Hon-konq, İndoneziya, Malayziya, Cənubi Koreya və Tailand barəsində də eyni sözləri demək olar.

ABŞ-ın ən başlıca üstünlüyü texnologiyanın və idarəetmə ustalığının həddən artıq yüksək səviyyədə olmasındadır. Digər üstünlükləri də var: böyük olmayan sosial xərclər, yaxşı fəaliyyət göstərən əmək bazarı, yeni firma yaradılmasının asan olması, maliyyə bazarı iştirakçılarının hüquqlarının möhkəm qorunması. ABŞ-dan sonra Böyük Britaniyanın rəqabətqabiliyyətli olmasını önə çəkirlər. Britaniyanın başlıca üstünlüyü, digər Avropa ölkələrinə nisbətən mükəmməl vergi sisteminə malik olmasıdır. İngilislər də amerikalılar kimi vergiləri vaxtında ödəməyə meyillidirlər. Digər Avropa ölkələrinin - Almaniya, Fransa və İtaliyanın isə çatışmayan cəhətləri yüksək vergilərin olması, dövlətin həddən artıq iqtisadiyyata qarışması və normal əmək bazarının olmamasıdır. Hər halda, Ümumdünya İqtisadi Forumunun mütəxəssisləri belə düşünürlər.

Qeyd etmək lazımdır ki, beynəlxalq rəqabətqabiliyyətli milli iqtisadi sistem – uzunmüddətli zaman şəraitində ölkənin malik olduğu istehsal resurslarının elə səmərəli istifadəsidir ki, son məhsul və xidmətlər dünya bazarında mövcud tələbləri ödəsin, yeni tələb formalaşdırsın və buradan gələn milli gəlir vətəndaşların rifah halının yüksəlməsinə xidmət etsin. Uzunmüddətli zaman şəraitində rəqabətqabiliyyətlilik anlayışı ölkələrin beynəlxalq arenada yalnız cari mövqelərini deyil, onların uzunmüddətli dayanıqlı uğura malik olmalarını ifadə edir. Belə ki, dünya bazarında məhz o iqtisadi sistemlər beynəlxalq rəqabət qabiliyyətinə malik olurlar ki, sahib olduqları üstün mövqeyi uzun müddət qoruyub saxlaya bilir və onun gələcək dövrlərdə də təmin edilməsi üçün davamlı şəkildə inkişaf mexanizmlərini işləyib hazırlayırlar.

İqtisadiyyatda rəqabətqabiliyyətlilik yaradılması üçün dünya bazarında mövcud tələblər ödənməlidir ki, bura qiymət, keyfiyyət ünsürləri aiddir. Hər iki amil qrupu üzrə tarazlığı qorumaq və optimal nəticəyə nail olmaq hər bir istehsal halqasının əsas hədəfi olmalıdır.

Ölkənin rəqabət qabiliyyəti eyni zamanda onun sosial səmərə şərtlərinə də cavab verməlidir. Rəqabətqabiliyyətli iqtisadi sistem qapalı bir mexanizm olmamalı, inkişafın nəticələrini vətəndaşların həyat səviyyəsinin yüksəldilməsində göstərməlidir.

Beynəlxalq rəqabət nəzəriyyəsi müəssisələrin beynəlxalq bazara çıxması və inkişaf etməsi üçün ölkə daxilində 4 əsas şərtə əməl edilməsini vacib sayır:

1. Müəyyən kəmiyyət və keyfiyyətdə istehsal amilləri.

2. Əmtəə və xidmətlərə daxili tələbin səbəbləri, onun kəmiyyət və keyfiyyət parametrləri.

3. Dünya bazarında rəqabət aparmaq təcrübəsi olan yaxın və köməkedici sahələrin mövcudluğu.

4. Firmaların struktur və strategiyalarının formalaşması, daxili rəqabət şərtləri.

Bu xüsusiyyətlər iqtisadi ədəbiyyatlarda determinant adını alıb. Belə ki, onların hər bir təsərrüfat qərarlarının müəyyən edilmiş nəticəsi olmalıdır. Ölkənin müqayisəli üstünlük determinantı aşağıdakı kimidir:

Ölkələr sahə və seqmentdə də uğur qazana bilərlər ki, milli iqtisadiyyatın komponentləri qarşılıqlı olaraq güclənir və hər bir determinant bir-birinə təsir edir. Ayrı-ayrılıqda hər bir determinant üzrə üstünlük ümumilikdə rəqabət üstünlüyü demək deyil. Yalnız bütün determinantlar üzrə üstünlüklər arasında olan qarşılıqlı əlaqə rəqabətdə udmaq imkanlarını təmin edir.

Rəqabətqabiliyyətliliyi əhalinin həyat səviyyəsi və əhalinin gəlirləri, insan kapitalının keyfiyyəti və təkrar istehsalı ilə əlaqəli olmadan təhlil etmək mümkün deyil. Qeyd edək ki, ölkələrin bir məhsul üzrə müqayisəli üstünlüyə malik olması daimi deyil. Tarixdə çoxlu misallar var ki, ölkə bəzən bir sahə üzrə, məsələn kənd təsərrüfatı üzrə ixtisaslaşıb və sonradan isə digər sahənin məhsullarının istehsalçısına çevrilib. İlk dəfə olaraq XIX əsrdə Böyük Britaniyada sərbəst tisarət siyasəti meydana çıxanda ABŞ və Almaniya kənd təsərrüfatı üzrə müqayisəli üstünlüyə malik idilər. I Dünya müharibəsinin əvvəllərində bu ölkələrin sənaye məhsulları Böyük Brtaniyada istehsal edilən sənaye məhsulları ilə əsaslı rəqabət aparırdılar. II Dünya müharibəsindən sonra Yaponiya, son illərdə isə Sənubi Koreya, Tayvan, Çin dünya bazarında rəqabətqabiliyyətli sənaye məhsulları ilə çıxış edirlər. Ansaq ölkənin yeni sahədə müqayisəli üstünlük əldə etməsi üçün hökumətin bu sahədə düşünülmüş siyasəti olmalıdır.

Rəqabətqabiliyyətliliyi artırmaq üçün dövlətin siyasəti aşağıdakıları əhatə edir:

-1.Makroiqtisadi stabillik və iqtisadiyyatın diversifikasiyası;

- 2.Əmək məhsuldarlığı;
- 3.Kredit əldə etmək imkanları;
- 4.İnnovasiya yaradılması və tətbiqi;
- 5.İnfrastrukturun inkişafı;
- 6. Əlverişli biznes mühiti;
- 7. Dövlətin iqtisadi siyasətinin qəbul edilməsi.

İkinci Dünya müharibəsindən sonra dünya iqtisadiyyatında əsas rolu ABŞ oynamağa başladı ki, bunun da əsas səbəbi bu ölkənin müharibədə digər inkişaf etmiş ölkələrlə müqayisədə daha az itkilər verməsi idi.

Qeyd etmək lazımdır ki, keçən əsrin 90-cı illərindən sonra ABŞ-da da rəqabətqabiliyyətlilik dövlətin prioritet vəzifəsinə çevrildi. 1993-cü ildə Bill Klinton hakimiyyətə gəldikdən sonra "Amerikda iqtisadi artım üçün texnologiya: iqtisadi güc yaradılması üçün yeni kurs" adlı sənəd qəbul edildi. Belə qərara gəlindi ki, iqtisadi artım yaradılması və rəqabətqabiliyyətliliyin artırılması üçün dövlət əsas qarant olmalıdır. Sənəddə əsas 3 strateji istiqamət müəyyən edilmişdir;

1) Yeni iş yerlərinin yaradılması ilə nəticələnən uzunmüddətli iqtisadi artım və ətraf mühitin mühafizəsi;

2) Əhalinin ehtiyaclarına təsir göstərən səmərəli istehsalın yaradılması;

3)Fundamental elm, riyaziyyat və mühəndislik sahəsində dünya lideri olmaq.

Ölkədə rəqabətqabiliyyətliliyin artırılması üçün görüləcək işləri koordinasiya etmək üçün ABŞ prezidenti yanında rəqabətqabiliyyətlilik üzrə Sovet yaradılıb.

Ümumiyyətlə, bu dövrdə əksər ölkələrdə ticarət məhdudiyyətlərinin aradan qaldırılması və ticarətin liberallaşdırılması milli korporasiyalara imkan verdi ki, istehsal güclərini bütün dünya üzrə yerləşdirərək, məhsul vahidinin istehsalına çəkilən xərcləri azaldaraq, mənfəəti maksimum artırsınlar. Bu proses bir çox istehsalın Avropa və Amerikanın inkişaf etmiş ölkələrindən işçi qüvvəsi daha ucuz olan Cənub-Şərqi Asiya və Cənubi Amerika ölkələrinə keçməsinə səbəb oldu. Nəticədə, yüksək inkişaf templəri əldə edən Hon-konq, Sinqapur, Koreya Respublikası, Malayziya və s. kimi yeni sənaye ölkələri dünya bazarına rəqabətqabiliyyətli məhsullar ixrac etməyə başladılar. Sosializmin dağılması ilə isə keçmiş Sovet respublikaları və Şərqi Avropa ölkələrinə investisiyaların cəlb edilməsi ilə innovasiyanın tətbiq edilməsi dünya bazarına bu ölkələrin də az olsa belə, müəyyən tələbatlara cavab verəcək mallar çıxarmasına səbəb oldu. İki proses – dünya təsərrüfatında Qərbi Avropa və ABŞ-a nisbətən daha çox müqayisəli üstünlüyə malik olan yeni ölkələrin iştirak etməsi və istehsalın transmilliləşməsi Qərb ölkələrində ölkələrin dünya təsərrüfatında rəqabətqabiliyyətliliyi məsələsini geniş tətbiq etməyə vadar etdi.

Qeyd etmək lazımdır ki, ölkənin beynəlxalq rəqabətqabiliyyətlilyi ilə iqtisadi inkişaf arasında birbaşa əlaqə mövcuddur. Ölkənin rəqabətqabiliyyətliyini müəyyən edən əsas göstəricilər iqtisadi inkişafla birbaşa bağlıdır. Rəqabətqabiliyyətlilik əsasən 3 istiqamət üzrə inkişaf edən iqtisadiyyatlar üçün müxtəlif göstəricilərlə müəyyən olunur. Statistik hesablamalar göstərir ki, innovasiyaya və effektivliyə əsaslanan iqtisadiyyatlarda rəqabətqabiliyyətlilik daha yüksək, adambaşına düşən ÜDM-in həcmi isə resurslara əsaslanan iqtisadiyyata nisbətən 4-5 dəfə çox olur.

Qeyd etmək lazımdır ki, son beş ilin statistikasına əsasən, ölkədə neft və neft məhsullarının ixracda payının 76-97 % aralığında dəyişməsi iqtisadiyyatın strukturunda resurs amilinin yüksək olduğunu göstərir. Beləliklə də, rəqabət qabiliyyətinin yüksəldilməsində ortamüddətli planlardan, ilk növbədə, ixracda qeyri-neft məhsullarının payının artırılmasının stimullaşdırılması olmalıdır.

12 pillənin hər biri üzrə ayrılıqda təhlil aparmaqla, Azərbaycanın beynəlxalq rəqabət üstünlüklərini və gələcək imkanlarını üzə çıxarmaq mümkündür.

**Azərbaycanın 2010-2015-ci illərdə rəqabətqabiliyyətliliyi**

| Müsbət amillər | Mənfi amillər |
|---|---|
| Dinamik iqtisadi artım | İqtisadi artımın neft-qaz sektorundan asılı olması |
| Adambaşına düşən ÜDM-in stabil artımı | Əmək məhsuldarlığı və səmərəliliyinin aşağı olması |
| Valyuta ehtiyatları | Xarici investisiyaların əsasən neft sektoruna cəlb edilməsi |
| Makroiqtisadi idarəetmənin təkmilləşdirilməsi | Əsas fondların fiziki və mənəvi aşınması |
| Yüksəkixtisaslı işçi qüvvəsi | Qeyri- neft sektoru məhsulları nın ixracının zəif olması |
| İri həcmli xarici investisiyaların cəlb edilməsi | Qiymətli kağızlar bazarının inkişaf etməməsi |
| Regionda xarici investor kimi fəallığın artması | İnsan kapitalına yönəldilən xərclərin az olması |
| Yoxsulluq səviyyəsinin sürətlə azalması | |

Ölkənin rəqabət qabiliyyətinin uzunmüddətli qorunub saxlanması üçün ən vacib şərt ölkədə davamlı innovativ istehsal münasibətlərinin təşkili və inkişafının dəstəklənməsidir. Bu münasibətlərin dəstəklənməsi dedikdə, həm texnoloji yeniliklərin tətbiqini, həm də idarəetmədə yeni mexanizmlərin işlənib hazırlanmasını nəzərdə tutmaq lazımdır.

Azərbaycan regional liderliyini möhkəmləndirmək üçün beynəlxalq reytinqlərdəki mövqelərini sürətlə yaxşılaşdırmaqda davam etməlidir. İslahatlar reytinqi yüksəltdiyi kimi, reytinqlərin artması da öz sırasında iqtisadiyyatın rəqabət qabiliyyətini və diversifikasiya dərəcəsini, habelə insan inkişafını sürətləndirəcək, güclü inkişaf öz növbəsində yeni islahatları zəruri edərək yüksək reytinqlərə yol açacaq. Azərbaycanın reytinqlərdə yüksəlməyinin paradoksallığı ondadır ki, beynəlxalq ranqlarda yuxarı qalxdıqca marjinal faydalılıq da azalır: yəni autsayderlərdən uzaqlaşdıqca ölkə eyni sayda pillə artırmaq üçün daha çox enerji və resurs sərf etməli olur. Əlbəttə, inkişaf etməkdə olan ölkələrin sırasını tərk etmək nə qədər asan da olsa, inkişaf etmiş ölkələrlə müqayisədə reytinq qazanmaq bir o qədər çətindir. Azərbaycan yaxın gələcəkdə beynəlxalq reytinqlərdə ilk 50-likdə mövqelərini gücləndirdikcə qazanılan hər növbəti pillə ölkənin regional liderliyi və beynəlxalq reputasiyası nöqteyi-nəzərindən daha çox dividend gətirəcək. Azərbaycanın sosial-iqtisadi sahədə reytinqlərinin artması ölkənin strateji əhəmiyyətinin artmasını şərtləndirir.

Azərbaycanın xarici iqtisadi əlaqələrinin təhlili onu deməyə əsas verir ki, bu gün dövlətin xarici iqtisadi siyasət strategiyasında ölkənin Dünya Təsərrüfatı Sisteminə səmərəli inteqrasiya olunması, davamlı yüksək artım sürətinin təmin edilməsi, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və bütövlükdə iqtisadi fəaliyyət üstünlüklərindən tam şəkildə istifadə edilməsi və s. məsələlərə diqqət artırılmalıdır. Xarici ticarət əlaqələrinin təhlili göstərir ki, son qlobal iqtisadi və maliyyə böhranının nəticələri də nəzərə alınmaqla, bu sahədə dövlət siyasətin təkmilləşdirilməsinə və maraqlı tərəflərin fəaliyyətlərinin gücləndirilməsinə böyük ehtiyac vardır. Bunlara-biznes mühiti, istehsal potensialı, ixracın təşviqi, ticarət siyasəti, bazarlara çıxış və s.-ni aid etmək olar.

Rəqabətqabiliyyətliliyi müəyyən edən mühüm qrup amillərə ölkənin ümumi iqtisadi vəziyyəti ilə bağlı olan amillər aiddir. Ölkədə adambaşına düşən ÜDM-in məbləği, inflyasiyanın aşağı olması, siyasi və hüquqi sistemin stabilliyi, vergi və gömrük tariflərinin aşağı ol-

ması, ölkədə və regionlarda inkişaf etmiş infrastrukturun inkişaf səviyyəsi, daxili bazarın həcmi, resurslardan səmərəli istifadə edilməsi, rəqabətqabiliyyətli bank sistemi ölkənin beynəlxalq rəqabətqabiliyyətliliyini yüksəldən əsas amillərdəndir. Son illər Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində bazar prinsiplərinə əsaslanan iqtisadi sistem yaradılıb. Onun necə aparılmasından, başa çatıb çatmamasından, dünya ölkələrindəki modellərdən nə dərəcədə fərqləndiyi barədə fikir söyləmədən qeyd etməliyik ki, Azərbaycanda bazar iqtisadiyyatının əsas prinsipləri həyata keçirilir bu sahədə ilbəil irəliləyiş baş verir. Bütün bunlar və dünya bazarında baş verən proseslərin nəticəsi olaraq ölkə iqtisadiyyatı inkişaf edir və iqtisadi göstəricilər hər il əvvəlki illərə nisbətən yüksəlir. Məhz Dünya İqtisadi Forumunun hazırladığı 2011-ci il üçün rəqabətqabiliyyətlilik göstəricilərində Azərbaycan makroiqtisadi vəziyyətə görə dünyanın 142 ölkəsi arasında 16-cı yerdə olub. Bu onu göstərir ki, beynəlxalq ekspertlər gələcəkdə Azərbaycanda iqtisadi uğurların daha çox olacağını proqnozlaşdırırlar. Ancaq Azərbaycanda qanunvericilik bazasının hələ də kifayət qədər təkmil olmaması, keyfiyyət sertifikatlarının beynəlxalq standartlara uyğunsuzluğu, intelektual mülkiyyətin qorunmaması rəqabətqabiliyyətliliyin yüksəldilməsinə mənfi təsir göstərir.

Ölkənin rəqabətqabiliyyətliliyini müəyyən edən altıncı amil enerji effektivliyinin əldə edilməsidir. Son 5 ildə iqtisadi artımın tempinə görə, Azərbaycan dünyanın bütün ölkələrini qabaqlayıb. Beynəlxalq təşkilatlar və müstəqil ekspertlər iqtisadiyyatda baş vermiş bu artımın növbəti illərdə də davam edəcəyini proqnozlaşdırırlar. Azərbaycandakı bu inkişafın təməlini energetika sektoru təşkil etdiyindən, qarşıda duran ən əsas məsələlərdən biri energetika siyasətinin dünyadakı mövcud tələblərə uyğun yenidən qurulmasıdır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, dayanıqlı iqtisadi inkişaf və enerji effektivliyi arasında birbaşa əlaqə mövcuddur. Dayanıqlı iqtisadi inkişaf konsepsiyasında qarşıya qoyulan vəzifənin həll edilməsi üçün əsas elementlərdən biri insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edən enerji effektivliyi siyasəti, ətraf mühitin qorunması və davamlı olaraq enerji təminatından ibarətdir. Həmin dövrdən başlayaraq dünyanın inkişaf etmiş ölkələri iqtisadi inkişaf siyasətinin tərkib hissəsi kimi istər hökumət, istərsə də şəxsi biznes səviyyəsində istehsal edilmiş məhsulun enerji tutumunun azaldılması üçün tədbirlərin həyata keçirilməsini daha da genişləndiriblər. Bu tədbirlər iqtisa-

diyyatın bütün sahələrində, o cümlədən mənzil-kommunal təsərrüfatında yeni texnika və texnologiya cəlb etməklə enerjiyə qənaət edilməsini əsas tutur. Bunun nəticəsidir ki, həmin ölkələrdə ÜDM-in 1% artması, maksimum 0.4% enerji istehlakının artması ilə müşahidə edilir və iqtisadi artım 60-65%-i enerji effektivliyi hesabına əldə olunur.

Enerji resursları ilə zəngin Azərbaycanın da enerji siyasətinin əsas strateji məqsədi optimal təkrar istehsal prosesinin yaradılması, enerji resurslarından rasional istifadə olunması və ətraf mühitin mühafizəsi, ölkənin enerji təhlükəsizliyinin təmin edilməsi və enerji ehtiyatlarından gələcək nəsillərin həyat şəraitinin yaxşılaşdırılması üçün istifadə edilməsidir.

Azərbaycanda enerji effektivliyi sahəsindəki hazırkı vəziyyət belə qənaətə gəlməyə imkan verir ki, istehsal edilmiş ÜDM dünya ölkələri ilə müqayisədə daha çox enerji tutumludur. Ona görə də Azərbaycanda iqtisadi təhlükəsizlik strategiyasının əsas məqsədlərindən biri enerji resurslarından səmərəli istifadənin təmin edilməsidir. Son illər Azərbaycan regionunun və Avropanın enerji təhlükəsizliyinin təminatında əsas rola malik olan ölkəyə çevrilib və bu proses davam edərək mövqelərimiz ilbəil daha da möhkəmlənir. Təbii ehtiyatlar illər keçdikdən sonra tükəndiyindən ən vacib məsələlərdən biri ölkə daxilində enerji resurslarından istifadənin səmərəliliyinin artırılmasıdır. Digər tərəfdən, Azərbaycanda ÜDM-in ilbəil sürətlə artdığını nəzərə alsaq, onda gələcəkdə məhsul və xidmətlər üçün daha çox enerji resursları lazım olacaq.

2014-cü il sistemli böhranın davam etməsi ilə yanaşı, geosiyasi faktorların güclü təsiri ilə onların daşıyıcılarının qiymətlərində müşahidə olunan azalma meyillərinin dünya ölkələrini enerji istehsalçısı olub-olmamasından asılı olmayaraq artan dövlət borcu və iqtisadi tənəzzüllə mübarizədə bu və ya digər səviyyədə fiskal islahatların keçirilməsi zərurəti ilə qarşı-qarşıya qaldığı bir il olmuşdur.

Belə bir şəraitdə ölkəmizdə Ümumi Daxili Məhsulun (ÜDM) real artım tempi 2,8 faiz təşkil etmiş, iqtisadi sistemin tarazlı inkişafına nail olunmuş, 2014-cü ildə neft-qaz sektorunun ÜDM-də payının azalma meyli təmin edilmişdir. Təbii resurslarla zəngin ölkə kimi bir sıra makroiqtisadi göstəricilərin təhlili zamanı bu faktor mütləq nəzərə alınmalıdır və təhlil neft gəlirləri nəzərə alınmadan iqtisadi göstəricilərin müsbət dinamikaya malik olduğunu göstərir. Ötən il dövlət büdcəsinin qeyri-neft sahələrindən daxilolmalarının xüsusi çəkisi 1,6% bən-

di yüksəlmiş, qeyr-neft ÜDM-ə nisbətən 17,4 faiz təşkil etmişdir. Bu müsbət dinamika neft gəlirlərinin müvafiq göstəricilərinin azalmasına səbəb olmuşdur.

| 2011-2014-cü illərdə Ümumi Daxili Məhsul | | | | |
|---|---|---|---|---|
| | **2011** | **2012** | **2013** | **2014** |
| Ümümi Daxili Məhsul – cəmi (1+2+3), min.manat | 52082,0 | 54743,7 | 58182,0 | 58977,8 |
| Əvvəlki ilə nisbətən artım tempi, %-lə | 100,1 | 102,2 | 105,8 | 102,8 |
| O cümlədən | | | | |
| 1.Neft-qaz sektoru, mln.manat | 25829,9 | 24487,3 | 23778,1 | 21619,0 |
| Əvvəlki ilə nisbətən artım tempi, %-lə | 90,7 | 95,0 | 101,0 | 97,1 |
| ÜDM-də payı | 49,6 | 44,7 | 40,9 | 36,7 |
| 2.Qeyri-neft sektoru, min.manat | 23196,1 | 26864,4 | 30525,9 | 33038,3 |
| Əvvəlki ilə nisbətən artım tempi, %-lə | 109,4 | 109,7 | 110,0 | 107,0 |
| ÜDM-də payı | 44,5 | 49,0 | 52,5 | 56,0 |
| 3.Məhsula və idxala xalis vergilər | 3056,0 | 3392,0 | 3878,0 | 4320,5 |
| ÜDM-də payı | 5,9 | 6,3 | 6,6 | 7,3 |

2014-cü ildə dövlət büdcəsinin icrası ilə bağlı Azərbaycan Respublikası Hesablama Palatasının hazırladığı rəydə də qeyd olunduğu

kimi, aparılan təhlillər əksər göstəricilər üzrə respublikamızın vergi sisteminin kifayət qədər güclü və dayanıqlı olmasından xəbər verir. Eyni zamanda təbii resursla zəngin və dinamik inkişaf edən bir ölkə olaraq gələcək perspektivlərin və maliyyə imkanlarının sərhədlərinin müəyyən edilməsi zamanı neft amilinin diqqətdə saxlanılması mümkün mənfi meyillərin qarşısının alınması və sabit inkişafın təmin edilməsi baxımından mühüm amildir.

Azərbaycanda da müasir texnika və texnologiya cəlb etməklə, enerjidən səmərəli istifadə edilməsi metodlarının aşkar edilməsi üçün tədqiqatların genişləndirilməsi ilə gələcəkdə enerji istehlakının azaldılmasına nail olmaq mümkündür. İqtisadi strategiyanın əsas məqsədi hasilat sənayesinin xüsusi çəkisinin azaldılması ilə iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi olmalıdır. Enerji resurslarından qeyri-səmərəli istifadə nəticəsində təbii sərvətlərin itkilərinin uçotu aparılmalıdır və bu məlumatlara əsasən iqtisadi siyasət formalaşdırılaraq, itkilərin azaldılması üçün hər il hədəflər müəyyən edilməlidir. Həmçinin sənayedə enerji effektivliyini artırmaq üçün dövlət proqramı hazırlanmalıdır. Ümumi enerji istehlakında sənayenin xüsusi çəkisinin azaldılması və istehsal edilmiş malların beynəlxalq rəqabətqabiliyyətliliyinin artırılması üçün sənaye sahələrində enerjidən səmərəli istifadə edilməsini təmin edəcək bu proqram iqtisadiyyatın bütün sahələrində mövcud olan strategiya ilə uyğunlaşdırılmalıdır. İstehsalı daha çox enerjitutumlu olan sənaye müəssisələrinin siyahısı tərtib olunaraq bu müəssisələrin sayının azaldılmasına yönələcək tədbirlər həyata keçirilməlidir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, ÜTT-yə üzvlüklə bağlı danışıqların nəticələri yalnız cari müqayisəli üstünlüyə malik olan istehsal sahələrinin deyil, həm də potensial müqayisəli inkişaf xüsusiyyətlərinə malik olan istehsal sahələrinin maraqlarının nəzərə alınması təmin edildikdə daha uğurlu sayıla bilər. Əvvəllər qeyd edildiyi kimi, Azərbaycan iqtisadiyyatı bir sıra məhsulların istehsalı üzrə potensial müqayisəli üstünlüyə malikdir. Bu, inkişaf prosesinin ilk dövrlərində həmin sahələrin xarici rəqabətdən qorunmasını və müvafiq istehsal sahələrinin yaradılmasını tələb edir. Bu məsələyə yanaşmada bir sıra ölkələrin təcrübəsi – xüsusən Finlandiya ən yaxşı nümunə ola bilər. Burada, əsas istehsal müəssisələri ilə yanası, onların inkişafı üçün zəruri olan yardımçı sahələrin olması klaster yanaşmanın üstünlüyünü göstərir.

Ölkənin ÜTT qarşısında üzvlük üzrə öhdəlikləri dəqiqləşdirilərkən cari və potensial müqayisəli üstünlüyə malik məhsullar istehsal edən və onlara yardımçı olan istehsal sahələrinin maraqlarına üstünlük vermək daha məqsədəuyğun olardı. Bu halda ərzaq təhlükəsizliyi, ticarət dövriyyəsi və büdcə gəlirləri üçün əhəmiyyətli olan istehsal sahələri üzrə tariflərin yüksək səviyyədənsə orta səviyyədə müəyyənləşməsinə nail olmaq lazımdır. Digər məhsullar üzrə tariflərin aşağı olmasına, bəzi hallarda isə ləğv olunmasına da razılaşmaq olar.

ÜTT-yə qoşulmanın müsbət tərəflərini əsasən aşağıdakı kimi qruplaşdırmaq olar:

- Geniş və zəngin informasiya şəbəkəsinə daxil olur, o cümlədən bu təşkilat vasitəsilə ticarət mübahisələrinin ədalətli yolla həllinə nail olur;
- Azərbaycan beynəlxalq çoxtərəfli ticarət danışıqlarında tam və bərabər-hüquqlu üzv dövlət olaraq iştirak edir və dünya ticarət siyasətində öz maraqlarının qorunması ilə çıxış etmək imkanı yaranır;
- Üzv ölkələrin bazarlarına təhlükəsiz daxil olur; idxal rüsumlarının azaldılması nəticəsində milli bazarlarda rəqabətin yüksəlməsini təmin edir;
- İqtisadi zəmində yaranan mübahisələrin həllinə dair ÜTT-nin qaydalarından və mexanizmindən istifadə etmək imkanı yaranır;
- Üzv ölkələrin bir-birlərinin ərazilərindən təhlükəsiz olaraq tranzit kimi istifadə etmək hüququ əldə edir;
- İstehlakçılara rəqabətin üstünlüklərindən tam istifadə etmək imkanının verilməsi daha geniş seçim və aşağı qiymətlər vəd edir;
- Tariflərin aşağı salınması xammal materialları, aralıq məhsul və komponentlərin qiymətlərinin aşağı düşməsinə gətirib çıxarır ki, nəticədə də son məhsul və xidmətlərin maya dəyəri aşağı düşür, istehlak xərcləri azalır;
- Milli qanunların beynəlxalq qanunlarla uzlaşdırılması və müvafiq üzv ölkələrin bu sahə üzrə standartları tətbiq etməklə iqtisadiyyatda liberallaşmanın və iqtisadi islahatların təsadüfi olmadığını və bu prosesin daha sürətlənəcəyini bir daha təsdiq edir, ölkəmizin investisiya və kredit cəlbedicilik riskləri azalır;
- Azərbaycanda istehsal olunan məhsullar ÜTT-yə üzv olan ölkələrin bazarlarına ixrac olunarkən diskriminasiyaya malik olmur;
- Xarici ticarət prosedurlarının sadələşdirilməsi, idxalda şəffaflaşdırma, ixrac əməliyyatlarının uçotunun düzgün aparılması və süni bü-

rokratik əngəllərin qarşısının alınması nəticəsində gizli ticarət dövriyyəsi və korrupsiya halları azalır;

- İdxal-ixrac əməliyyatlarında prosedur qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi gözəgörünməz xərclərin azalmasına və sonda malların qiymətinin aşağı düşməsinə gətirib çıxarır;

- Azad rəqabət mühitinin formalaşması daha da sürətlənir, bərabər biznes və qiymət mühiti təmin edilir;

- İdxal rüsumlarının azaldılması ilə milli bazarda rəqabətqabiliyyətlilik artır, yerli istehlakçılar daha ucuz və keyfiyyətli mallar əldə etmək imkanı yaranır;

- Qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi genişlənir və s.

- Əmtəə nişanlarının, müəllif hüquqlarının qorunması bütün ölkələr tərəfindən qəbul olunmuş qaydalar əsasında həyata keçirilir və s.

Məlum olduğu kimi, Azərbaycanın ÜTT-yə üzvlük zamanı və ÜTT çərçivəsində aparılan ticarət danışıqlarında ən çox müzakirə olunan məsələ kənd təsərrüfatıdır. Kənd təsərrüfatı ilə bağlı danışıqlar zamanı Azərbaycanın üzvlük prosesində narahatlıq doğuran məsələlər aşağıdakılardır:

• Azərbaycan inkişaf etməkdə olan ölkə hesab edilmir və buna görə də Kənd Təsərrüfatı Sazişi əsasında 10% minimal yardımın (aqrar sektora verilən daxili yardımın xüsusi çəkisi) əldə edilməsində problem var;

• Vergilərdən azad olunma nəticəsində yaranan imtiyazların subsidiya kimi qəbul edilməməsi;

• Kənd təsərrüfatı müəssisələrinin borclarının silinməsi nəticəsində yaranan imtiyazların subsidiya kimi qəbul edilməməsi.

ÜTT-yə üzv olmanın əsas müsbət tərəflərindən biri odur ki, Azərbaycanda istehsal olunan məhsullar bu təşkilata üzv olan ölkələrin bazarlarına ixrac olunarkən diskriminasiyaya malik olmayacaqlar. Digər tərəfdən, Azərbaycanın ÜTT-yə qəbul edilməsi ən əsası xarici ticarət sahəsində mübahisələrin həllinə yardım etməklə yanaşı, ABŞ və Avropa Birliyinin pambıq istehsalçılarına subsidiyaları ayrılmasına qarşı ciddi mübahisə etmək imkanı qazandıra bilər. Statistik məlumatlara görə, 2001-2002-ci ildə ABŞ-da pambıq istehsalçılarına verilən birabaşa dövlət subsidiyaları 2.3 mlrd. dollar, Avropa Birliyində 800 mln. dollar olub. Bu da dünya bazarında pambığın aşağı qiymətə satılmasına səbəb olub. Dünya Bankının hesablamalarına görə ABŞ və Avropa Birliyinin pambıq istehsalçılarına subsidiyaların dayandırılması

pambığın dünya bazar qiymətlərinin 71% artmasına gətirib çıxarar. Qiymətlərin bu qədər artması nəticəsində əlavə olaraq 90-100 mln. dollar gəlir əldə etmək olar. Həmçinin proqnozlara görə, dünya bazar qiymətləri əlverişli olduqda ixrac edilmiş pambığın həcmi müəyyən qədər artır ki, bu da potensial mənfəət deməkdir.

Azərbaycan strateji perspektivdə ÜTT qaydaları çərçivəsində dünya təsərrüfat sisteminə aktiv inteqrasiya olunması vacibdir, bu bizim ölkəyə unifikasiya edilmiş, inteqrasiya olunmuş vahid investisiya mühitinin bir hissəsi olmaq imkanı verən, müqayisə olunan iqtisadi, hüquqi, texniki, sanitar, fitosanitar və ekoloji standartlarla, norma və qaydalarla və bunun nəticəsi kimi bizim ölkənin iqtisadiyyatına daha aktiv investisiya cəlb olunmasına əlverişli şəarit yaratmağa imkan verə bilər.

## XI FƏSİL

# AZƏRBAYCANIN BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARI İLƏ ƏLAQƏLƏRİ VƏ ONUN PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

*"Ölkə iqtisadiyyatının makroiqtisadi sabitliyi təmin edən yüksək maliyyə dayanıqlılığı qorunacaqdır."*

***İlham Əliyev***

## 1. Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrinin inkişafı

İkinci Dünya müharibəsindən sonra beynəlxalq arenada hökumətlər arasında iqtisadi təşkilatların (xüsusilə, beynəlxalq valyuta və kredit münasibətləri sahəsində) inkişafı geniş vüsət aldı. Beynəlxalq Valyuta Fondu (1946), Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (1946), daha sonra Beynəlxalq Maliyyə Korporasiyası (1956) və Beynəlxalq İnkişaf Assosiasiyası(1960) yaradıldı. Eyni zamanda iqtisadi münasibətlərin məhz bu sahəsində fəaliyyət göstərən müxtəlif regional təşkilatlar formalaşmağa başladı.

Beynəlxalq Valyuta Fondu tipli təşkilatın yaradılması ehtiyac 1930-cu illərdə dünya iqtisadiyyatını dağıdan Böyük Depressiya dövründə yarandı. Bu dövrdə bütün dünyada aclıq və işsizlik hökm sürürdü. Böhran ölkə iqtisadiyyatının bütün sahələri üçün dağıdıcı gücə malik idi. Yüzlərlə banklar iflasa uğrayır, əmanətçilər öz əmanətlərini itirir, kənd təsərrüfatı mallarının qiyməti maya dəyərindən aşağı düşürdü. Eyni zamanda beynəlxalq maliyyə dünyası və valyuta birjaları dağıdıcı təsirə məruz qaldı. Kağız pullara olan etibarın aşağı düşməsi qızıla olan tələbatı artırdı, bu isə öz növbəsində maliyyə orqanlarının sərəncamında olan qızıl ehtiyatlarının artırılmasına təkan verdi. Bunu nəzərə alaraq Böyük Britaniyanın rəhbərliyi altında bir sıra ölkələr uzun illər boyu hər bir valyutanın dəyər ölçüsünün müəyyən miqdarda həcm kimi qəbul edilməsini özündə əks etdirən qızıl standartından

imtina etdilər. Beləliklə 1929-1933-cü illər "həddindən artıq istehsal" tsiklik böhranı ABŞ-da (1933) qızıl pul standartı, Böyük Britaniyada (1931), daha sonra Fransa (1936), Hollandiya (1936) və İsveçrədə (1936) qızıl külçə standartları sisteminin tənəzzülünə gətirib çıxardı.

1929-1933-cü illər böhranından sonra nə beynəlxalq ticarət, nə də ki, kapital ixracı inkişaf etmədi. Müharibədən əvvəlki illərdə beynəlxalq ticarətin inkişaf səviyyəsi 1927-ci ilin səviyyəsini keçməmişdi. Kapital ixracı isə 30-cu illərdə praktiki olaraq həyata keçirilmir, əvvəllər ixrac edilmiş kapitalın bir hissəsi gâri çağırılmışdı. Mövcud vəziyyətdən çıxmaq üçün ABŞ hökuməti hələ 30-cu illərin əvvəllərində "valyuta silahsızlaşdırılması" ideyası ilə çıxış etdi. Bütövlükdə Qərb ölkələrinin beynəlxalq valyuta-kredit münasibətləri sahəsində tədbirləri beynəlxalq konferensiyaların çağırılması, komissiyaların yaradılması və 1936-cı ildə İngiltərə, Fransa və Amerika Birləşmiş Ştatları arasında üçtərəfli sazişin bağlanması ilə nəticələndi. Bununla bu ğz ülkə müvcud nəgd resurslardan istifadə etməklə öz valyutalarını sabit saxlamaq və valyuta nəzarətini yüngülləşdirmək üçün müvafiq tədbirlər görmək öhdəliyini görürdülər. Bu saziş hərbi əməliyyatlar bağladıqdan sonra qüvvədən düşdü.

Beynəlxalq valyuta təşkilatının yaradılması beynəlxalq iqtisadi əməkdaşlıq şurası adı altında keçirilirdi. Gələcək təşkilat rəsmi olaraq BMT-in əsas problemlərinin həllinə yardım etməli idi .

Beynəlxalq valyuta təşkilşatı – stabilləşdirilmiş Fondun yaradılmasının Amerika Planı Amerika Birləşmiş Ştatları Maliyyə Nazirliyinin valyuta tədqiqatı şöbəsinin direktoru, maliyyə naziri Q.Morqentaunun iqtisadi məsləhətçisi Harri Dekster Uayt tərəfindən işlənilmişdir.

Onun layihəsi 7 aprel 1943-cü il tarixində nəşr olunmuş və ona öz fikirlərini bildirmək üçün Birləşmiş Millətlərin maliyyə nazirlərinə göndərilmişdir. 30 ölkənin texniki ekspertləri Vaşinqtonda görüşərək Uayt planını müzakirə etmiş və 10 iyul 1943-cü ildə bu layihə müəyyən düzəlişlər olunmuş şəkildə yenidən nəşr olunmuşdu.

Müəllifin fikrincə, Beynəlxalq Stabilləşdirmə Fondunun yaradılması aşağıdakı məqsədləri güdür:

-Valyuta kurslarının stabilləşdirilməsi;

-Üzv ölkələrin tədiyyə balanslarındakı pozuntuların dərəcəsini azaltmaq və ixtisar etmək;

-Xarici ticarətin normal inkişafı və istehsal kapitalının hərəkəti üçün şərait yaratmaq;

-Bəzi ölkələrdə müharibə nəticəsində meydana gələn dondurulmuş xarici hesabların istifadəsini təmin etmək;

-Dünya ticarətinin inkişafına və istehsal kapitalının hərəkətinə mane olan ikitərəfli kliringq sazişləri, kursların çoxluğu, valyuta diskriminasiyası kimi məhdudiyyətlərin istifadəsini azaltmaq.

Uayt sərəncamında ən azı 6 mlrd. dollar olan təşkilat yaratmağı təklif edirdi. Bu təşkilat öz əməliyyatlarını yalnız üzv ölkələrin hökumətləri və ya onların maliyyə orqanları, yəni xəzinədarlığı, mərkəzi bankları, stabilləşdirmə fondları ilə aparmalıdır.

Valyutanın sabitləşdirilməsi üzrə ingilis planı 1943-cü il 8 aprel tarixində, yəni Amerika planı nəşr olunandan bir gün sonra nəşr olunmuşdur. İngilis planının müəllifi İngiltərə bankının direktoru, maliyyə nazirinin məsləhətçisi professor Con Meynard Keyns olmuşdur.

Gələcək təşkilatın layihəsinin izahatını verən Keyns II Dünya müharibəsi bitdikdən sonra həyata keçirilməsli olan bir sıra tədbirləri göstərmişdir:

Valyuta və ödəniş münasibətlərini tənzimləmək;

Subsidiya, idxalat və s. məhdudiyyətlər daxil edilməklə gömrük tariflərini, mal mübadiləsini tənzimləmək;

Bazar şərtlərinin həddindən artıq tərəddüdləri ilə əlaqədar risk və itkilərdən həm istehsalçını, hm də istehlakçını qorumaq məqsədilə əsas əmtəələrin istehsalının qiymətini tənzimləmək;

İnkişafı xarici kapitalın cəlb edilməsini tələb edən ölkələrə orta və uzunmüddətli kreditlərin verilməsini təşkil etmək.

Qeyd etmək lazımdır ki, C.M.Keynsin layihəsi sadəcə olaraq beynəlxalq ticarətdə və tədiyyə münasibətlərinə aiddir.

Öz layihəsində Keyns istənilən bu cür təşkilatın fəaliyyəti üçün zəruri olan ümumi şərtləri irəli sürür:

Dövlətin beynəlxalq siyasətinə müdaxiləni minimuma endirmək;

Təşkilatın iş mexanizmi hansı iqtisadi siyasət yürütdüyündən asılı olmayaraq hər bir ölkə üçün əlverişli olmalıdır;

Təşkilatın idarə edilməsi metodu hər hansı ölkə və ya ölkələr qrupu üçün üstünlük yaratmalıdır;

Üzvlüyün könüllüyü və öz öhdəliklərinin ciddi surətdə yerinə yetirilməsi;

Təkcə bütövlükdə bütün ölkələr üçün deyil, həm də hər bir ölkə üçün üstünlüyə nail olmaq.

Keyns layihələşdirilən təşkilatın həyata keçəsi olduğu bir sıra tapşırıqları aşağıdakı kimi sxemləşdirirdi.

- Bütün millətlər üçün əlverişli olan beynəlxalq pul tədavülü vasitəsini yaratmaq. Bu tədavül mərkəzi banklar və xəzinədarlıq tərəfindən digər ölkələrlə öz əlaqələrini tənzimləmək üçün istifadə olunmalıdır;

- Rəqabət məqsədilə valyuta kursunun aşağı düşməsi və birtərəfli tədbirləri əvvəlcədən xəbər vermək üçün valyuta kursunun müəyyən edilməsinin razılaşdırılmış metodunu işləyib hazırlamaq;

- Müəyyən miqdarda beynəlxalq valyutaya malik olmaq;

- Balansı istənilən miqdarda kənara çıxan və digər ölkələrdə əks saldo yaradan ölkəyə təzyiq göstərmək üçün istifadə oluna bilən daxili stabilləşdirmə mexanizmi sistemini yaratmaq.

Uayt və Keynsin planlarından başqa, 1943-cü ildə, ayrı-ayrı vaxtlarda fransız ekspertlərinin planı (Beynəlxalq valyuta razılaşması), Norveç Planı ("Beynəlxalq Valyuta İttifaqı") və bir sıra digər planlar nəşr olundu .

9 iyun 1943-cü ildə Kanada ekspertlərinin Beynəlxalq Valyuta İttifaqının yaradılması haqqında Uayt və Keynsin planları arasında kompromis xarakteri daşıyan layihəsi nəşr olundu.

Danışıqlar zamanı ingilis ekspertləri öz ölkəsinin zəifliyini dərk edib bir sıra bəndlərdə öz mövqeyini ABŞ planına verdi və hətta ingilis dairələri öz nüfuzunu saxlamaq naminə Kanada ekspertlərinin mahiyyətcə 90%-i Amerika, yalnız 10%-i ingilis planı olan "kompromis" layihəsini qəbul etdilər.

Kvotaların ödənilməsi sahəsində böyük dəyişikliklər edilmişdir. Birincisi, kvotaların ümumi məbləği beynəlxalq, yəni Fondun nizamnamə kapitalı 5 mlrd. dollardan 8-10 mlrd. dollara qaldırıldı. Bunun da əsas səbəbi Fonda dünya ölkələrinin bir çoxunun qoşulması oldu. İkincisi, qızılla kvota haqları kvotanın 25%-i və ya bu məbləğin hansıngı aşağı olmasından asılı olaraq ölkənin qızıl-valyuta ehtiyatlarının 10%-i həcmində müəyyən edilmişdir, kvotaların dəyişdirilməsi məsələsi əvvəlcə olduğu kimi səslərin 4/5-ü ilə həll edilirdi.

Ölkənin Fonda daxil olması zamanı milli valyutanın pariteti 1 iyul 1943-cü ilə görə qızılla müəyyən edilir. Valyuta paritetinin dəyişilməsi Fondun razılığı – səslərin sadəcə çoxluğu ilə həyata keçirilir.

Bəyanatda eyni zamanda göstərilir ki, üzv ölkələr üç il müddətində valyuta nəzarətini özləri bildiyi kimi saxlaya bilərlər. Lakin bu müddət bitdikdən sonra Fondla "məhdudiyyətlərin bundan sonra saxlanılması" barəsində məsləhətləşməlidirlər.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Ruzveltin xüsusi çağırışından sonra 1944-cü il 1-22 iyul aralığında ABŞ-ın Nyu-Hempşer ştatının Bretton-Vuds şəhərində valyuta-maliyyə konfransı keçirilmişdir.

Bretton-Vuds Sazişi 31 iyul 1945-ci il tarixində xüsusi qanunvericiliyin qəbul edilməsi ilə ABŞ Konqresi tərəfindən qəbul edildi. 1945-ci il 13 dekabrda Böyük Britaniyanın Nümayəndələr Palatası da bu sazişi müzakirə etdi.

1944-cü ildə keçirilən Bretton-Vuds konferensiyasında cəmi 44 ölkə iştirak edirdi. 1945-ci ilin 31 dekabrına kimi bu ölkələrin 35-i Beynəlxalq Valyuta Fondu və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı haqqında Sazişi müzakir etdilər. 1946-cı ilin birinci rübünün sonuna kimi təşkilatın üzvlərinin sayı 39-a çatdı.

Qeyd etmək lazımdır ki, Dünya Bankı ilk dövlətlərarası İnvestisya və əməkdaşlıq müəssisəsidir. Bu təşkilat, demək olar ki, hər yerdə Dünya Bankı adlandırılır Dünya Bankının yaranma kökləri hələ 1923-1932-ci illərdə bütün dünyanı bürümüş olan dərin iqtisadi böhranlar dövrünə gedib çıxır. İqtisadi ədəbiyyatlarda o dövrü "böyük depressiya" dövrü adlandırırlar. Bu dövrə aid olan yazılardan və şəkillərdən aydın olur ki, göstərilən dövrdə iqtisadiyyatın bütün sahələrində böyük dağıntılar baş vermişdir. Yəni kənd təsərrüfatı məhsulları və torpaq dəyərindən dəfələrlə ucuz satılır, heyvandarlıq ziyanla işləyir, minlərlə bank müflisləşir, bütün sahələrdə işsizlik baş alıb gedir, zavodlar işləmirdi. Bir sözlə, iqtisadiyyatın bütün sahələri "iflic" vəziyyətinə düşmüşdür. Bu vəziyyət eyni zamanda özünü beynəlxalq və pul-kredit bazarında da göstərirdi. Kağız pullara qarşı inamsızlığın dünyada qızıla tələbatı şiddətli dərəcədə artırdı. Bir sıra ölkələr, o cümlədən, Birləşmiş Krallıq qızıl standartlarından, yəni valyuta dəyərərinin qızılla təyin edilməsi prosesindən məcburi surətdə imtina etməli oldular. Hansı ki, bu qanun uzun müddət idi ki, pulun dəyərinin sabit saxlanmasına qulluq edirdi. Buna görə də qızıl standartlarından imtina edən ölkələr, qızıl standartlarını qəbul edən ölkələr arasında valyuta mübadiləsi məsələsi çətinləşdi. Ölkələr kağız pulun dəyərində qızıl ödəmələri olduqları üçün qızıl və pul ehtiyatları yığmağa başladılar. Kağız pulun dövriyyəyə buraxılması azaldıldı. Bu da iş yerlərinin azalmasına səbəb oldu. Həyat səviyyəsi kəskin şəkildə aşağı düşdü. Bəzi ölkələr milli pulun xarici pula dəyişdirilməsinə qadağa qoydular və barter mübadiləsini tətbiq etməyə başladılar. Bir qism ölkələr isə öz milli valyutalarını dəyərlərindən aşağı qiymətə xarici alıcılara satmaq-

la, öz kənd təsərrüfatı məhsullarını əslində çox ucuz qiymətə satdılar. Bununla da onlar digər ölkələrin ticarət əlaqələrini pozurdular. Yəni rəqabət devalivasiyası yaradırdılar. Bu da rəqiblər tərəfindən eyni qayda ilə cavablandırılırdı. Məhsulun dəyəri ilə pulun nisbəti pozulurdu. Beləliklə bütün bunlar nəticə etibarilə dünya iqtisadiyyatının dağılmasına gətirib çıxartdı. 1929-1932-ci illərdə bütün dünyada əmtəələrin qiyməti 48% aşağı düşdü, ticarətin həcmi 63%-ə qədər azaldı. Bu problemləri həll etmək üçün 30-cu illərdən başlayaraq dəfələrlə beynəlxalq konfranslar çağırılsa da, lakin qəbul edilmiş müvəqqəti qərarlar məsələni tam həll etmirdi. Bunun üçün dünyanın əksər ölkələrinin birgə əməkdaşlığı lazım idi. Yalnız bu halda bütün dövlətlərdə valyuta sistemini tənzimləyən və böhran nəticəsində iqtisadiyyatı dağılmış ölkələrə uzun müddətə kredit verə bilən bir maliyyə təşkilatının yaradılması mümkün idi. Odur ki, 1940-cı illərin əvvəllərində Birləşmiş Ştatlardan Qarri Dekster Uayt və Birləşməş Krallıqdan Con Meynard Keyns məhz belə bir sistemin yaradılması yollarını təklif etdilər. Onlara görə bu sistem hazırkı şəraitə təsir etməliydi. Çoxsaylı danışıqlardan sonra çətin vəziyyətdə olan beynəlxalq aləm belə bir sistemin yaradılmasına nəzarət etmək üçün təşkilatlanmağa razılıq verdi. 1944-cü ilin iyul ayında BMT-yə daxil olan 45 dövlətin iştirakı ilə ABŞ-ın Bretton-Vuds şəhərində (Nyu-Hempşir Ştatı) Beynəlxalq Valyuta Maliyyə konfransı keçirildi. Bu konfrans tarixə “Bretton-Vuds Konfransı” kimi daxil oldu. Konfransın qəbul etdiyi qərarla 1945-ci ilin dekabr ayında BMT-nin iki xüsusiləşmiş təşkilatı – Dünya Bankı və Beynəlxalq Valyuta Fondu (BVF) təsis edildi. 1946-cı ilin may ayında isə bu təşkilatlar fəaliyyətə başladı. Bu təşkilatlar fəaliyyətə başlarkən qarşılarına qoyduqları əsas məqsəd İkinci Dünya müharibəsindən sonra daha da pis vəziyyətə düşmüş dünya iqtisadiyyatını əsaslı fundament üzərində qurmaq oldu. Lakin bu təşkilat ümumi məqsəddə bir-birlərini tamamlasalar da funksiyalarına görə bir-birlərindən fərqlənirdilər. Dünya Bankı kredit təşkilatı olub, məqsədi inkişafda olan ölkələrə kömək etmək, onların iqtisadiyyatını yüksəltmək, uzunmüddətli iqtisadi tərəqqiyə nail olmaq, inkişaf etməkdə olan ölkələrdə kasıbçılığı aşağı səviyyəyə çatdırmaq və ləğv etməkdir.

Beynəlxalq Valyuta Fondu isə dünya valyutasının monitorinqini həyata keçirtmək, ölkələr arasında ödəmə sistemini təşkil etmək və ödəmə balansında ciddi kəsiri olan ölkələrə borc verməyi qarşısına məqsəd qoyur.Yarandıqları dövrdə cəmi 45 üzvü olmasına baxmaya-

raq, hazırda hər iki təşkilatın üzv ölkələrinin sayı 180-i keçmişdir. Bu üzv ölkələr öz maraq və məqsədlərini Dünya Bankının Vaşinqtonda yerləşən Direktorlar Şurasına və İdarə Heyətinə veriblər. Dünya Bankının Nizamnaməsini qəbul edən, sərbəst xarici siyasət yeridən hər bir ölkə eyni zamanda Beynəlxalq Valyuta Fonduna da üzv seçilir. Üzv olan ölkələrin icraçı direktorları idarəetmədə öz payları olan səhmdarlardır. Beş iri səhmdarın – ABŞ, Fransa, Almaniya, Yaponiya və İngiltərənin ayrılıqda öz icraçı direktorları var. Qalan üzvlər isə 19 icraçı direktor təyin edirlər. Çin və ona birləşən ölkələr bir; Rusiya və ona birləşən ölkələr bir; Səudiyyə Ərəbistanı və ona birləşən ölkələr bir və beləliklə, başqaları çoxsaylı şəkildə bir icraçı direktor təyin edirlər. Beləliklə, 24 icraçı direktor həftədə iki dəfə yığışıb Dünya Bankının fəaliyyətinin bütün sahələrini müzakirə edir, məsələləri həll edirlər. Ənənəyə görə Dünya Bankının prezidentliyinə 5 il müddətinə ən iri səhmdar ölkənin – ABŞ-ın vətəndaşı seçilir. O, Direktorlar Şurasına rəhbərlik edir və Dünya Bankının ümumi fəaliyyətinə cavabdehdir.Dünya Bankı-II.Dünya müharibəsindən sonra Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD) adı ilə qurulmuş, 1947-ci ildə Birləşmiş Millətlərin müstəqil ixtisaslaşmış təşkilatlarından biri olmuşdur. Hal- hazırda dünya dövlətlərinin 181-i Bankın üzvüdür. Bunlardan 11-i, bank sərmayəsinin 55 %-inə sahibdir. Dünya Bankı Qrupu beynəlxalq miqyasda ən böyük inkişafa yardım mənbələrindən biridir. 2014-ci maliyyə təqvimində qurum tərəfindən 30 mlrd. dollardan çox kredit vəsaitini bankın beynəlxalq miqyasda müştəri ölkələrinə paylamışdır. Təşkilat 100-dən çox inkişaf etməkdə olan ölkədə çalışmaqla ən kasıb əhali və ən kasıb ölkələrə yardım etmək kimi sadə və əhəmiyyətli hədəflər uğrunda iş görür. Bankın bütün müştəriləri üçün ümumi yardım sahələri aşağıdakılardır:

Əhaliyə yönəldilmiş ibtidai səhiyyə və təhsil məsələlərilə bağlı birbaşa investisiyalar ;

İctimai tərəqqinin dövlət idarəetməsi və müəssisə strukturlarının inşası məsələlərinin yoxsulluğun azaldılması istiqamətində ən əhəmiyyətli vasitələr olduğunu nəzərə alaraq həyata keçirilməsi;

- Hökumətlərin keyfiyyətli, effektli və şəffaf xidmət etmə qabiliyyətlərinin artırılması ;
- Ətraf mühitin mühafizəsi ;
- Özəl biznes sektorunun inkişafını həvəsləndirən və dəstəkləyən xidmətlər;

- Uzun müddətli planlaşdırmaya və investisyaların həyata keçirilməsinə imkan yaradan stabil makroiqtisadi şəraitin formalaşmasına dair reformların tərtib edilməsi .

Zaman içində bir qrup halına gələrək Dünya Bankı Qrupu (World Bank Group) adını alan təşkilatın tərkibində beş əsas təşkilat təmsil olunur.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı -1945-ci ildə yaradılmış olan və Dünya Bankının nisbətən inkişaf etməkdə olan ölkələrin dövlət sektorunu kreditlə təmin edən bölməsidir. Əsas qruplardan sayılır və üzv dövlətlərdə iqtisadi islahatların sürətləndirməsi, xüsusi ilə də özəl sektorun inkişafı, sənaye potensialının artırılması məqsədi ilə onlara hərtərəfli maliyyə dəstəyi göstərir. Əsasən əhalisinin hər nəfərinə düşən gəliri 1 500 ABŞ dollarından çox olan ölkələrə böyük miqdarda kredit verir. 2014-cü ilə qədər 183 ölkə bu təşkilatdan kredit alıb. Təşkilatın fəaliyyətinin əsas istiqamətlərindən biri investisiya layihələrini və fermer təsərrüfatlarını maliyyələşdirilməsindən ibarətdir. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı öz istiqrazlarını beynəlxalq kapital bazarında satmaqla öz maliyyə imkanlarını təmin edir. Təşkilat krediti ölkələrə aşağı faizlə verir.

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının struktur dəyişikliklərinin formalaşdırılması üçün ayırdığı kreditlər əsasən iqtisadi reformaların həyata keçirilməsinə, maliyyə bölməsinin idarəçiliyinə, dövlət sektoruna sərf edilir .

Beynəlxalq İnkişaf Təşkilatı -1960-ci ildə yaradılmışdır. Adambaşına düşən milli gəlirə görə yoxsulluq həddinin aşağısında olan ölkələrə kredit verməkdədir. Bu ölkələrə ümumi olaraq sıfır faizli və 35-40 il müddətli kreditlər verilir. Beynəlxalq İnkişaf Assosiasiyası verdiyi kreditlərin şərtləri müəyyən edilərkən onu alan ölkənin ödəmə qabiliyyəti imkanları və ölkələrədə adambaşına düşən gəlirin məbləği nəzərə alınır. Beynəlxalq İnkişaf Assosiasiyası öz maliyyə imkanlarını ən yüksək inkişaf etmiş ölkələrin ayırdığı pulların hesabına formalaşdırır.

Beynəlxalq Maliyyə Əməkdaşlığı -1956-cı ildə yaradılmışdır. Bu təşkilat inkişaf etməkdə olan ölkələrdə özəl sektora kredit vermək və özəl sektorun inkişafına kömək etmək məqsədi ilə ixtisaslaşmışdır. Onun əsas məqsədi "üçüncü dünya" ölkələrində özəl sektorun inkişafı üçün vəsait toplamaq və onu həmin ölkələrə istiqamətləndirməkdir. Bunun üçün Beynəlxalq Maliyyə Korporasiyası həm onun sərəncamında olan vəsaitlərdən, həm də bu məqsəd üçün digər mənbələrdən

cəlb olunmuş vəsaitlərdən istifadə edir. Beynəlxalq Maliyyə Korporasiyası öz maliyyə imkanlarının 80%-ni beynəlxalq maliyyə bazarlarından, 20%-ni isə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankından borc götürür. Beynəlxalq İnkişaf Assosiasiyasından fərqli olaraq bu təşkilat kreditləri güzəştsiz, bazar şərtlərinə uyğun faizlə təklif edir . Kreditlər 3-15 il müddətinə verilir. Beynəlxalq Maliyyə Korporasiyası verilən kreditlərin qaytarılmasını təmin etmək məqsədi ilə zəruri hallarda kredit ayrılarkən onu alan firmanın səhmlərinin bir hissəsinə sahib olma şərtini irəli sürür. Yalnız kredit ödənildikdən sonra və ya onun ödənilməsi üçün tam əminlik yarandıqdan sonra Beynəlxalq Maliyyə Korporasiyası alınan səhmlərə sahiblik hüququnu geri qaytarır. Hazırda 180 ölkə Beynəlxalq Maliyyə Korporasiyasının maliyyə imkanlarından istifadə edir.

Çoxtərəflı İnvestisiya Təminat Agentliyi-1985-ci ildə yaradılmışdır. İnkişaf etməkdə olan ölkələrdə qoyulacaq xarici investisiya qoyuluşlarına, ticari olmayan riskləri aradan qaldırma istiqamətində təminat vermək ilə məşğul olan bir təşkilat olaraq çalışmaqdadır. Agentliyin əsas vəzifəsi kommersiya fəaliyyəti ilə bağlı olmayan risklərdən, o cümlədən, siyasi risklərdən təminat vermək və ölkəyə qoyulan investisiyaları sığortalamaq yolu ilə zəif inkişaf etmiş dövlətlərə investisiya axınına dəstək verməkdir. Agentliyin təminat verdiyi risklər sırasına milli valyutanın dövri olmaması, yerli hökumətin investisiya sahibinin mülkiyyət və ona nəzarət hüququndan məhrum etməsi, ölkədə hərbi müdaxilə və ya mülki itaətsizlik ucbatından yaranan problemlərin beynəlxalq məhkəmədə və arbitrajlarda həll edilməsi məsələləri daxildir. Belə hallarda investisiyaların Hərtərəfli Təminatı Agentliyi Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Birləşmiş Millətlər Təşkilatı sisteminə daxil olan digər təşkilatları cəlb etməklə ölkəyə qoyulmuş investisiyaların tam müdafiəsini təmin edir. İnvestisiyaların Hərtərəfli Təminatı Agentliyi bir növ "sığorta polisi" rolunu oynayaraq investisiyalara 15 il müddətinə təminat verir. İnvestisiyaların Hərtərəfli Təminatı Agentliyinin fəaliyyəti 151 ölkəni əhatə edir.

Beynəlxalq İnvestisiya Mübahisələrini Aradan Qaldırma Mərkəzi - 1965-ci ildə yaradılmışdır. Mərkəz, tərəflərin qarşılıqlı güzəştə getmələri və mübahəsəli məsələlərinə baxan bir təşkilatdır. Bü təşkilatın məqsədi beynəlxalq investisiya qoyuluşlarını təşviq etməkdir. Hazırda 131 ölkə İnvestisiya Mübahisələrin həlli üzrə Beynəlxalq Mərkəzin üzvüdür.

Qeyd etmək lazımdır ki, hazırda bir sıra ölkələrin bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar olaraq Dünya Bankının kömək etdiyi bazar iqtisadiyyatı siyasəti islahatı, idarəçilikdə bürokratiya, süründürməçilik və korrupsiyanın aradan qaldırılması istiqamətində qanunvericiliyin hazırlanmasına və həyata keçirilməsinə köməklik edən bank müştərilərinə edilən texniki köməklər, məsləhət və maliyyə köməyini əhatə etməkdədir.

Belə ki, ticarət rejiminin, maliyyə sektorunun və investisiya qanunvericilik islahatı, ixracat lisenziyaları, valyuta-bank münasibətlərinin struktur islahatı və digər bu kimi məsələləri əhatə etməkdədir.

Bundan başqa, vergi sistemlərinin sadələşdirilməsi və gücləndirilməsi ilə vergi yığımı həcminin artırılması vasitəsilə gömrük və vergi sistemindəki neqativlərin azaldılmasına xüsusi diqqət yetrilir.

Dövlət idarə sistemində struktur islahatları və sağlam rəqabət olmayan bazarda fəaliyyət göstərən özəl şirkətlər və dövlət müəssisələri ilə əlaqəli nizamnamələrin müasirləşdirilməsi qanunvericiliyin güclənməsinə köməklik edilir.

Bank əsasən bazar iqtisadiyyatına keçid alan ölkələrdə özəlləşdirmənin effektiv və şəffaf olmasına köməklik göstərməkdədir.

Bundan əlavə, bank struktur islahatlarını təşviq etməklə müəssisələrin gücləndirmələrinə, büdcələrini, maliyyə sistemini, muhasibat və audit sistemlərini müasirləşdirmək istəyən ölkələrə köməklik etməkdədir.

Əmək haqları və məşğulluq şərtləri, təhsil və personal idarəsi kimi mövzulara əhəmiyyət verən bank 10 ildir ki, dövlət xidmət sahələrinin islahatı üçün 40-dan artıq ölkəyə kredit verməkdədir.

Dünya Bankının rəhbər orqanları İdarə Heyəti və xarici idarə olan Orqan Direktorluğudur. Birlik üzvü ölkələrin maliyyə nazirlərindən və ya Mərkəz Bank rəhbərlərindən ibarət olmaqla, ildə bir dəfə öz sessiyasını keçirir. Dünya Bankına yalnız BVF-ə üzv olan ölkələr üzv ola bilirlər. Bu tələb onunla izah edilir ki, bankın üzvləri olan ölkələr öz maliyyə-valyuta siyasətlərini BVF-nin nizamnaməsinə uyğun olaraq həyata keçirməyi öhdəlik olaraq seçmişlər.

Dünya Bankının sərmayəsinin 20 %-dən çoxu ABŞ-ın payına düşdüyündən səslərin 20% -i təkcə ona məxsusdur. Ona görə də bir çox qərarların qəbul edilməsi bu dövlətin mövqeyindən asılıdır.

Qeyd etmək lazımdır ki, Dünya Bankının kredit siyasəti çox ciddi olduğundan vəsaitlərin ayrılması məsələsinin həlli zamanı bank həmin

ölkənin iqtisadi və maliyyə vəziyyəti haqqında çox geniş informasiya tələb edir və həmin ölkəyə öz nümayəndə heyətini göndərir . Nümayəndələr hər şeydən əvvəl ölkədə özəl sektorun vəziyyəti ilə maraqlanır və inkişaf imkânlarını təhlil edir. Sonra isə təkliflər verilir. Əgər ölkə həmin təklifləri qəbul etməsə, onda kredit almaq imkanlarını itirmiş olur. Bu təkliflər ölkənin müstəqilliyinə toxunmur və digər maliyyə-kredit təşkilatlarının ölkədə fəaliyyətinə uyğunlaşdırılır. Lakin onu da qeyd edək ki, bankın kredit siyasətində həmçinin siyasi motivlər də nəzərə alınır və böyük dövlətlərin möqeləri qorunur.Dünya Bankı Qrupu 200-dən çox ölkədə yaşayan 5.7 milyard insanı öz müştərisi olaraq görən bir təşkilatdır.

Dünya Bankının vermiş olduqları kreditlər layihə kreditləri, proqram kreditləri, ölkədaxili pul kreditləridir.

Bankın kredit siyasəti layihə krediti üzərində qurulmuşdur. Digər kreditlər bir o qədər də yaxşı inkişaf etməmişdir. Kreditin qiymətləndirilməsində, istifadə ediləcək fondların borclu olan ölkənin istehsal həcmi və iqtisadi baxımdan səmərəliliyi nəzərə alınır.

İnkişaf etməkdə olan ölkələrdə, layihə kreditləri qədər proqram kreditlərinə, yəni inkişafa ümumi olaraq lazım olan xammal, yerli istehsalın inkişafı üçün müəyyən miqdarda pula ehtiyac var idi. Halbuki Dünya Bankı 1987-ci ilə kimi ancaq layihə krediti verirdi. O vaxtdan etibarən layihə kreditləri ilə birgə ölkələrin aldığı kreditlərin geri qaytarılmasına köməklik göstərən proqram kreditləri də verilirdi. İnkişaf etməkdə olan ölkələrdə ayrı bir xüsusiyyətə malik bəzi layihələr də mövcuddur ki, bunların milli valyuta dəyərindən xərclərlə nisbətdə idxalat ehtiyacları olduqca azdır. Bəlli şərtlər çərçivəsində Dünya Bankından kredit ala bilmək üçün ilk növbədə tələblərə uyğun bir layihə hazırlanmalıdır. Amma Dünya Bankının mütəxəssisləri birbaşa layihənin hazırlanmasında iştirak edə bilərlər. Dünya Bankı maliyyə yardımı etməklə bərabər, texniki köməkliklər də göstərir. Layihələrin hazırlanmasında Dünya Bankı tərəfindən müəyyən edilmiş və icra edilməsi vacib olan bəzi standartlar vardır.

Layihə krediti verilərkən Dünya Bankının mütəxəssisləri verilən layihələri iqtisadi, maliyyə və texniki cəhətdən təhlil edir. Bu layihələr təkcə bir tərəfli təhlil edilmir. Kredit almaq üçün əsas amil, üzv olan ölkənin krediti qaytara bilmə gücünə malik olmasıdır.

Dünya Bankı dövlət qurumlarına və sahibkarlara kreditlər verir, amma özəl sektora kredit verərkən aid olduğu dövlətin, Mərkəzi Ban-

kın ya da başqa səlahiyyətli orqanın zaminliyini tələb edir. 1970-ci ildən sonra Dünya Bankının kredit siyasətində mühüm inkişaflar oldu. Bunlardan biri yuxarıda qeyd olunduğu kimi proqram kreditlərinin verilməyə başlanmasıdır. Bir başqası da getdikcə daha da pis vəziyyətə düşən inkişaf etməkdə olan ölkələrə dair kreditlərin daha da artmasıdır. Əsas amil ehtiyacların qarşılanması və yoxsulluğun qarşısının alınmasıdır.

1982-ci ildə Dünya Bankı "Struktur krediti" Proqramını həyata keçirdməyə başladı. Bu məqsədlə orta və uzun illər ərzində iqtisadi inkişaf və xarici investorlarla ayaqlaşma siyasətini izləyir. Bu sahədə kənd təsərrüfatı, enerji, sənaye kimi sektorlar və sub-sektorlar investisiyalarla təmin olunur.

1947-ci ildən etibarən Dünya Bankı hər il gəlir əldə etməkdədir. 2014-cü ildə Dünya Bankının gəliri 5 mlrd ABŞ dolları olnmuşdur. Əslində Dünya Bankının gəlir əldə edən bir təşkilat kimi fəaliyyət göstərməsi düzgün deyil, amma bu gəlirlər Dünya Bankının daha da əlverişli şərtlərlə kredit verməsinə yol açır . Dünya Bankının yuxarıda göstərildiyi kimi, edilən maliyyə və texniki köməkliklərlə yanaşı, üzv ölkələrin iqtisadi vəziyyətlərini incələyir və bu istiqamətdə lazımi tədbirləri görür.

Qeyd etmək lazımdır ki, hal-hazırda DB koordinàsiyà ilə fəàliyyət göstərən MİQA zəmanət proqramı genişlənir. Bu zəmanətlərin mahiyyəti özəl xarici investistiyaların müxtəlif siyasi risklərindən sıgortalanmaqdır. Sığortalanmanın obyektinə düvlət єirkətlərinin səhmlərinin alqısı və s. daxildir.

Beynəlxalq İnkişaf Assosiasiyasının (BİA) kreditlərini yalnız kasıb ölkələr ala bilər. BİA kriteriyaları yoxsulluq və kredit ödəmə qabiliyyatinin kifayət qədər olmamasından asılıdır. BİA vəsaitlərini almaq üçün nəticə planı çərçivəsində yoxlamanı keçməlidirlər. İstisna hallarda BİA mövcud kriteriyaya o ölkələrdə daxil edir ki, ÜDM "kəsişmə nöqtəsi əməliyyatı"nı qabaqlayır və iqtisadiyyatın yenidən qurulması kimi iri layihələri həyata keçirirlər, lakin BYİB vəsaitlərini almaq üçün kredit qabiliyyətli deyillər. Adambaşına gəlir 885 ABŞ dollarından aşağı düşən az kredit qabiliyyətli ölkələr BYİB və BİA kreditlərindən ibarət olan kompleks maliyyədən istifadə edə bilərlər. Ümumiyyətlə, adambaşına illik 5225 ABŞ dollarından aşağı gəlir düşən ölkələr BYİB borclarını ala bilərlər. İllik gəlir 5225 ABŞ dollarına çatanda BYİB vəsaitlərinə giriş qadağan olunur.

DB kapital bazarında qiymətli kağızlar satmaq yolu ilə öz inkişaf proqramlarını maliyyələşdirmək üçün vəsaitlərin mobilləşdirilməsini həyata keçirir. Kredit bankı tərəfindən təqdim edilən illik vəsaitin yarısından çoxu BYİB payına düşür, ona lazım olan vəsaitlərin təqribən hamısını maliyyə bazarında formalaşdırır. Ən ehtiyatlı və konservativ idarə olunan beynəlxalq maliyyə qurumu olan BYİB AAA reytinqi ilə bütün dünyada borc öhdəlikləri, pensiya fondları, sığorta firmaları, kooperasiyaları digər banklar və fərdi şəxslərin təqdim etdiyi obliqasiyalar və digər qiymətli kağızlar satır. YİİB borclulardan stavkalar üzrə faizlər götürür. Borclar 15-20 ilə ödənməlidir: ödəməyə başlamazdan əvvəl 3-5 il güzəşt dövrü nəzərdə tutulur. Banka üzv olan ölkələrin qoyuluşları BYİB-ın büdcəsinin 5%-ni təşkil edir. Üzv-ölkələrin hökuməti səhm alırlar, səhmlərin həcmi isə bu və ya digər ölkənin iqtisadiyyatının inkişaf səviyyəsi ilə müəyyənləşir. Yalnız əhəmiyyətsiz bir hissəsinin pulunu ödəyir, ödənilməyən hissə isə o vaxt tələb olunur ki, Bank o qədər böyük itkilərə məruz qalır ki, kreditorlara ödəmək qabiliyyəti olmur. Lakin belə hal heç vaxt olmayıb. Bu zəmanət kapitalı yalnız obliqasiyaları ödəyicilərinə ödəmək məqsədilə istifadə oluna bilər və administrativ xərcləri ödəmək üçün istifadə oluna bilməz. BYİB qanunları tələb edir ki, ödənilməmiş və istifadə olunmuş borclar ümumi kapitalı və ehtiyatları ötməməlidir.

Beynəlxalq İnkişaf Assosiasiyası 1960-cı ildə kommersiya faiz qoyuluşları ilə kömək ala bilməyən kasıb ölkələrə güzəştli kömək üçün yaranıb. BYİB -in BİA-da iqtisadi artımı stimullaşdırmaq və yoxsulluğun aşağı salınmasına kömək edir. Bununla belə BİA faizsiz borclar təqdim edir, texniki köməklik göstərir və iqtisadi-siyasi suallar üzrə məsləhətlər verir. BİA bankın kreditlərinin dörddə birini təşkil edir. Borc alanlar administrativ xərcləri ödəmək üçün 1% ssudalar verməlidir. Kreditlərin ödənilməsi 10 illik güzəştli dövrlə 35-40 ilə ödənilməlidir.

BİA-nın büdcəsini təqribən 40 ölkə doldurur, 3 ildə bir dəfə verilir. Donor ölkələr yalnız sənayecə inkişaf etmiş ölkələr deyil: Böyük Britaniya, ABŞ, Almaniya, Fransa və Yaponiya, həmçinin inkişaf etməkdə olan ölkələr, məsələn Argentina, Braziliya, Koreya, Rusiya və Türkiyədir. Bu ölkələrin əksəriyyəti keçmişdə BİA borc alanları idi. BİA maliyyə vəsaitlərinin idarəsi BYİB kimi dəqiq, konservativ və ehtiyatlıdır. BYİB kimi, BİA-da da kredit üzrə ödəmələr qeydə alınmayıb.

BİA büdcəsinə yatırımlar Dünya Bankına əhalisinin sayı 2,5 mlrd insan olan, 79 ən kasıb ölkəyə faizsiz 7-8 mlrd ABŞ dolları ayırır. Belə yardımların həyati əhəmiyyəti var. Belə ki, bu ölkələr praktiki olaraq bazar şəraiti ilə borc almaq imkanından məhrumdurlar. Bu ölkələrin əksəriyyətində əhalinin yarısının gəliri 2 ABŞ dolları, hər 10 nəfərdən 4-ünün minimum gəlir 1 ABŞ dollarıdır.

Beynəlxalq İnkişaf Assosasiyası (BİA) – bu Dünya Bankı qrupuna daxil olan təşkilatdır ki, bunun vasitəsilə Bank güzəştli şərtlərlə kreditlərlə verir. BIA ən kasıb ölkələrə sıfır dərəcəli faizlə uzunmüddətli ssudalar verir. BİA bu ölkələrdə ekoloji dayanıqlı, iqtisadi artım üçün mühüm olan fiziki infrastrukturun inkişafına kömək edir. BİA-nın məqsədi ölkələr arasında və içində, xüsusən ilkin təhsilə, elementar tibbi xidmətə, su təchizatına və kanalizasiya sistemində bərabərsizliyi aradan qaldırmaqdır və həmçinin böyük miqdarda əmək məhsuldarlığını artırmaqla ictimai rifahdan istifadəni təmin edir. BİA ilk borcları 1961-di ildə təsdiqlənib. Onlar Hondurasa, Hindistana, Sudana və Çiliyə verilib. BYİB və BİA eyni prosedur qaydaları ilə idarə olunur, müxtəlif layihələri qiymətləndirərək eyni standartlardan istifadə edirlər.

BYİB öz vəsaitlərinin əksəriyyətini beynəlxalq maliyyə bazarlarında əldə edəndə, BİA varlı ölkələr tərəfindən maliyyələşdirilir. BİA yarandığı gündən artan templə qoyuluşlar 109 mlrd təşkil etmişdir. Əlavə vəsaitlər alınmış kreditlərin qaytarılması və BYİB təmiz gəlirindən əldə olunur. Donorlar büdcəni doldurmaq üçün 3 ildən bir yığışırlar. 13-cü doldurma hesabına BİA 23 mlrd. ABŞ dolları həcmində kredit təqdim edəcək. BİA 13 doldurulmasında əsas donorlar ABŞ, Yaponiya, Almaniya, Fransa, Birləşmiş Krallıq, İtaliya və Kanadadır. Misal olaraq ən iri donorlardan olan ABŞ 2850 mln ABŞ dolları köçürəcəyinə söz vermişdir. Nisbətən az inkişaf etmiş ölkələrdə BİA büdcəsinin maliyyələşdirilməsində iştirak edirlər. Misal olaraq, Koreya və Türkiyə, bu ölkələrin özləri də nə vaxtsa BIA kredit alanlar olublar. Hal-hazırda BYİB kreditini almaq hüququ olan ölkələr – Argentina, Braziliya, Çexiya, Meksika, Polşa, Rusiya, Slovakiya, Qərbi Afrika və Venesuela da 13-cü doldurulmada iştirak etmişlər. Digər vəsait alınan ölkələr Avstraliya, Asvtriya, Barbodos, Baham adaları, Danimarka, Yunanıstan, İsrail, Küveyt, Lüksemburq, Niderland, Yeni Zellandiya, Norveç, Portuqaliya, Səudiyyə Ərəbistanı, Sinqapur, İspaniya, İsveç və İsveçrədir.

BİA sosial sferada layihələrin maliyyələşdirilməsində də iştirak edir. 2013-cü ildə təhsil, səhiyyə, sosial xidmət, su təchizatı 44 layihənin maliyyələşdirilməsi üçün 2 mlrd ABŞ dolları ayrılmışdır.

Qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrə kreditlərin verilməsində DB ilə yanaşı, BBF-də yaxından iştirak edir.

Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ayrı-ayrı məqsədləri olan fərqli təşkilatlardır. Hər hansı bir ölkə Dünya Bankına üzv olmaqla Beynəlxalq Valyuta Fonduna da üzv seçilir. Dünya Bankının əsas məqsədi inkişaf etməkdə olan ölkələrin böyük bir vaxt çərçivəsində iqtisadi inkişaflarına kömək etmək və həmin ölkələrdə yoxsulluq səviyyəsini azaltmaqdır. BVF-nun əsas məqsədi isə Dünya maliyyə sisteminin vəziyyətinin yaxşılaşdırılmasına səy göstərmək və üzv ölkələrə qısamüddətli maliyyə problemlərinə köməklik göstərməkdir. Dünya Bankı ancaq inkişaf etməkdə olan ölkələrə kredit verməkdədir. BVF isə az bir vaxt çərçivəsində yaranan maliyyə problemlərini aradan qaldırmaq üçün ehtiyacı olan bütün üzv ölkələrə kredit verir .

Beynəlxalq Valyuta Fondu ilə Dünya Bankı 1944-cü ildə Bretton Woods konfransında qurulmuş əkiz təşkilatdır. Bunlardan birinə üzv olan hər hansı bir ölkə avtomatik olaraq o birisinə də üzv olur. Əsas müqaviləyə görə hər iki təşkilatın fəaliyyət sahələri bir-birindən fərqlidir. Birincisi, xarici ölkələrlə valyuta problemləri və beynəlxalq maliyyə məsələləri ilə maraqlanarkən, digəri isə, inkişaf etməkdə olan ölkələrin inkişaf etməsi sahəsində işlər aparır. Amma bu mövzular heç də bir-birindən ayrılmır. Məsələn: dirçəlmək istəyən, inkişaf etməkdə olan ölkələrin çoxu eyni zamanda xarici borclarla üz-üzədirlər. Problemlərin bu formada bütünlük təşkil etməsinə görə, bu iki təşkilat arasında möhkəm bir əlaqədə olmalıdırlar .

Amma fəaliyyətlərinin fərqli olmasına baxmayaraq, bu iki təşkilatın əsas məqsədi üzv olan ölkələrdə iqitisadi inkişafı yüksəltmək və işsizliyin aradan qaldırılmasıdır. Bu da üzv olan ölkələrə daha da əlverişli şəkildə kömək etmək üçün mütəxəssislərin fəaliyyətlərini bir araya gətirmək, siyasət problemlərini və maliyyə cəhətdən köməklik göstərmək üçün planlı bir şəkildə əlbir olmalıdırlar.

Dünya Bankı və Beynəlxalq Valyuta Fondu arasındakı əlaqələrin əsasən yaxın dövrlərdə daha da güclənəcəyi gözlənilməkdədir. Bu da əsasən bu iki təşkilatın gələcək zamanlarda borcvermə fəaliyyətinin yaxşılaşacağına bir işarədir. Əvvəldə qeyd olunduğu kimi, Beynəlxalq Valyuta Fondu borcvermə siyasəti qısa müddətli kreditlərdən, orta-

müddətli və digər dövlətlərlə uyğunlaşmaq üçün verilən kreditlərə doğru dəyişilməkdədir.

Beynəlxalq Valyuta Fondu - valyuta qıtlığı və maliyyə balansının kəsirliliyi vaxtı üzv ölkələrə qısa və ortamüddətli krediltər verən və bu ölkələr arasında valyuta münasibətlərini tənzimləmək üçün yaradılmış hökumətlərarası valyuta-kredit təşkilatıdır. BVF, 1930-cu illərdəki dünya iqtisadi böhranının gətirdiyi bir neçə problemlərlə birlikdə ortaya çıxmışdır. Bu zamanda valyutaya olan inamın azlığı ilə birlikdə ölkələr öz valyutalarını artıq qızıl ilə tənzimləməyə imkansız hala gəldilər. Hətta elə bir vəziyyət əmələ gəldi ki, ticarət mal mübadiləsi ilə aparılırdı. Bu vəziyyətə qarşı valyutanın dəyərinin ölçülə biləcəyi bir müəssisə qurmaq üçün addımlar atıldı. Belə bir sistemin idarə edilməsini təşkil edəcək bir müəssisə bir ölkə valyutasının digərinə təxrəsalınmadan çevrilə bilməsini təşkil edəcək, hər bir valyutanın dəyərini müəyyənləşdirəcək və ölkələrin rəqabət üçün öz valyutalarının dəyərini düşürməsini kontrol edəcəkdir. Bu məqsədlərlə bərabər, ticarətin istiqrarlı bir şəkildə həyata keçirməsini təşkil etmək və valyuta kursunun səviyyəsini qorumaq da vardır. 44 ölkənin nümayəndələri 1944-cü ildə Amerikada Bretton Vudsda toplaşdı və BVF 1946-cı ilin may ayında fəaliyyətə başladı. Bretton Vudsda imzalanan müqavilədə BVF-nin nəzarət sahəsi inkişaf etmiş ölkələr olduğu halda, Dünya Bankının vəzifəsi isə az inkişaf etmiş ölkələrin inkişaf probləmləri ilə maraqlanmaq və onlarla məşğul olmaq planlanmışdır . BVF-in rəsmi məqsədləri - beynəlxalq ticarətin tarazlaşdırılmış şəkildə inkişafı prosesinə kömək etmək, valyutaların mübadilə məzənnələrinin sabitliyinə şərait yaratmaq, üzv dövlətlər arasında cari əməliyyatlar üzrə çoxtərəfli hesablaşmalar sisteminin yaradılmasına, eləcə də dünyada ticarətin tərəqqisinə mane olan valyuta məhdudiyyətlərinin aradan qaldırılmasına kömək etmək; üzv dövlətlərin tədiyyə balansındakı qeyri-mütənasibliyi xarici ticarət və hesablaşmalar sahəsində məhdudlaşdırıcı tədbirlərdən istifadə etmədən aradan qaldırmağa imkan verən maliyyə resursları təqdim etməkdən ibarət idi. Fond beynəlxalq valyuta-maliyyə problemlərinə dair məsləhətləşmələr aparmaq və birgə iş üçün forum kimi xidmət edir. BVF müvafiq prinsiplərin və prosedurların köməyi ilə, o cümlədən öhdəliklərin başqa aspektlərinə nəzarətin əsas elementi kimi mübadilə məzənnələri barəsində üzv dövlətlərin siyasətinə ciddi nəzarət etməklə üzv dövlətlərin hər birinin öz öhdəliklərini yerinə yetirməsinə nəzarət edir .

BVF-nin maliyyə resursları üzv dövlətlərin üzvlük haqlarından və borc vəsaitərindən yaranır. Üzvlük haqqı xüsusi borclanma hüquqlarında (SDR) - fondun hesablaşma vahidində ifadə edilmiş kvotaya bərabərdir. Dövlətin kvotası həmin dövlətin fond ilə maliyyə və təşkilati münasibətlərinin mühüm elementidir. Üzv dövlətlərdən hər birinin 250 baza səsi və öz kvotasının hər 100 min SDR-i üçün daha bir səsi vardır. Fondun maliyyə resurslarından istifadənin limiti kvotaların kəmiyyətindən asılıdır. Hər 5 ildən bir kvotalara yenidən baxılmalıdır. Üzv dövlətlərə BVF-in maliyyə resursları maliyyələşdirmə siyasəti və mexanizmləri çərçivəsində ümumi resurslar hesabından verilir. Bu resursların həcmi tədiyyə balansının köməyi ilə həll edilməli problemlərdən, eləcə də fond tərəfindən təqdim edilən şərtlərin spesifikasından və sərtlik dərəcəsindən asılıdır. Hər bir konkret halda fond kreditlər verilməsi barədə qərarı öz mülahizəsinə əsasən qəbul edir. Əgər BVF onun verdiyi vəsaitlərdən “fondun məqsədlərinə zidd olaraq” istifadə olunduğunu hesab edərsə o, həmin vəsaitləri azalda bilər və ya üzv dövləti onun resurslarından istifadə etmək hüququndan məhrum edə bilər .

BVF üzv ölkələrdən onların qızıl və valyuta ehtiyatları, qızılın və əmtəələrin istehsalı, ixracı və idxalı barədə, tədiyyə balansları, xarici investisiyalar, milli gəlir, qiymətlərin indeksləri, valyutaların məzənnələri, valyuta nəzarəti tədbirləri, klirinq sazişləri və s . barədə məlumat alır . Fond tədqiqatlar aparır və üzv ölkələrə valyuta və maliyyə məsələlərinə dair icmal məruzələri təqdim edir, maliyyə problemlərinin həllinə kömək edir, mütəxəssislər hazırlanmasını təşkil edir. BVF direktorluğun illik məruzələrini, ticarət va maliyyə barədə rüblük məlumatları, üzv ölkələrin valyuta paritetləri barədə vaxtaşırı məlumatları ingilis dilində dərc edir.

Qeyd etmək lazımdır ki, BVF ölkələrin borç ödəmə problemlərinədə nəzarət edir. Belə ki, ölkələr borclarını ödəyə bilməmə problemi ilə başbaşa qaldıqları zaman öz ticarət strukturunda bir neçə islahat apararaq bu problemi aradan qaldırmağa çalışırdılar. BVF bu ölkələrə borcödəmə problemlərini aradan qaldırmaları üçün bir yandan borc verir, bir tərəfdən də ticarətdəki bu maneələrin aradan qaldırılmasını və ticarətin sərbəstləşməsini istəməkdə idi. Bu siyasətin izahı isə bu vəziyyətin bütün ölkələrin rifah səviyyəsini artıracağı iddiasıdır. Ancaq asanlıqla görmək olur ki, ticarətdə bu cür sərbəst ölkələrin rəqabət imkanlarında getdikcə zəifləməsi və ölkədaxili iqtisadi sabitliyin qoru-

na bilməməsi vəziyyətinə gətirib çıxarmaqdadır. Fərqli imkanlara sahib iqtisadi sistemlər arasında bu şəkildə bir ticarət sərbəstləşməsi təmin etmək sərt bir rəqabətə yol açmaqda, nəticədə bu işdən beynəlxalq şirkətlər və inkişaf etmiş ölkələr qazanclı çıxmaqdadır. Ölkələrin ödəmələr balansındakı problemləri aradan qaldırmaq üçün verilən borclar, BVF və bənzəri borc verən təşkilatlardan asılılıqları artmaqdadır. Beynəlxalq maliyyənin tarazlığını təmin etmək məqsədi ilə tədiyyə balansı kəsirli olan ölkələrə qısa müddətli kredit vermək, üzvlərin məzənnə siyasətini nəzarətdə saxlamaq, onların kommersiya banklarına və rəsmi təşkilatlarına qarşı öhdəliklərini yerinə yetirə bilməsi halında tərəfdarlara vasitəçilik etmək və öhdəlikləri təxirə salmaq üçün müqavilə hazırlamaq, ölkələrin daha liberal bir valyuta və xarici ticarət rejiminin tətbiqini təşviq etmək, onlara texniki köməklik göstərmək və s .

Eyni zamanda BVF-də ölkə nə qədər çox valyuta yatırmışsa o qədər çox səs haqqına sahib olmaqdadır. Ancaq ölkənin nə qədər pul yatıra biləcəyini BVF müəyyənləşdirməkdədir. Məsələn, ABŞ bütün səslərin 17,35%-nə sahibkən, Azərbaycan səslərin 0,27%-nə sahibdir. Bu vəziyyət qərar mexanizmində güclü olduqları üçün təbii olaraq daha artıq söz sahibi olan ölkələrin bu vəziyyətini legitim hala gətirməkdədir.

BVF-nin vəzifələri iqtisadiyyatı böhran vəziyyətində olan və xarici ödəmə kəsirləri olan ölkələrə qısa müddətli kredit vermək, beynəlxalq valyuta münasibətlərinin nizamlı və stabil şəkildə inkişafını nəzarətdə saxlamaq, üzv ölkələrin beynəlxalq kommersiya banklarına və ya rəsmi təşkilatlara olan və ödənə bilməyən borclarının ortaya çıxması halında, problemin həlli üçün vasitəçilik etmək, yeni ödəmə planları və borcun müddətinin uzadılması şərtlərini tərtib etmək, yeni bir səlahiyyət olaraq, üzv ölkələrdəki makroiqtisadi və struktur-istiqrar siyasətlərinə maliyyə köməkliyi etmək, üzv ölkələrin xarici ticarət siyasətlərini liberallaşdırmağa təşviq istiqamətində işlər aparmaqdan ibarətdir.

Qeyd etmək lazımdır ki, son illər BVF-nun kapitalında ən böyük kvotaya ABD və Avropa İqtisadi Birliyi ölkələri malik olmuşdur. İnkişaf etməkdə olan ölkələrin payı cəmi 32,4 % təşkil edir.

BVF-nun əsas vəzifəsi maliyyə və valyuta çətinlikləri yaşayan ölkələrin kreditləşdirilməsidir.Ona görə də fond çox sayda kredit əməliyyatları həyata kâçirir. Fondun nizamnaməsinə uyğun olaraq üzv

ölkələri öz tədiyyə balanslarında muvəqqəti kəsiri aradan qaldırmaq üçün xarici valyutadan vəsait ala bilər . Təşkilat kredit əməliyyatlarını ancaq üzv ölkələrin rəsmi orqanları vasitəsi ilə həyata keçirir. Yəni əsasən xəzinədarlıqla, mərkəzi banklarla, valyuta sabitləşdirmə fondları ilə və s. Fonda üzv olan ölkələr avtomatik olaraq ondan kvotanın 25 %-i həcmindən çox olmayan miqdarda kredit ala bilərlər.

Bundan başqa, fond krediltəri ölkələrə qarşılarına qoyulan bir sıra tələbləri yerinə yetirdikdən sonra təqdim edir. Bu tələblər çox vaxt sabitləşdirmə proqramı adlanan proqramda nəzərdə tutulur. Bu tələblərin ödənilməsi tam məcburi xarakter daşıyır və ən çox ölkənin pul-kredit sisteminin vəziyyəti ilə bağlı olur. Çünki, BVF istehsalı, ticarəti, xidmət sahələrini maliyyəlşdirmək üçün deyil, ölkənin maliyyə valyuta sistemində sabitliyin qorunması, milli valyutanın dəyərinin qorunması və tədiyyə balansındakı kəsirin aradan qaldırılması üçün krediltər verir.

Bundan başqa, BVF-nun adi fondlarının içərisinə EFF krediti də daxildir. Bu kredit 3 il davam edən ortamüddətli proqramlara köməklik göstərir. Makro iqtisadi və struktur problemlərindən ortaya çıxan tədiyyə balansındakı çətinliklərin aradan qaldırılmasına istiqamətlənir. Geri qaytarılmasına 4-5 ildən sonra başlanılır. Müddəti 10 ilə kimidir. Bu kredit formasında illik faiz dərəcəsi dəyişkəndir.

Qeyd etmək lazımdır ki, BVF kreditləri qısamüddətlidir. Ancaq son illərdə xarici ticarət balansı ilə yanaşı, makroiqtisadi siyasətə görə də məhdud ölçülərdə kreditlərin verildiyi müşahidə edilməkdədir. Fonddan borclanma üzv ölkələrin öz milli valyutaları ilə istədiyi bir valyutanın dəyişdirilməsi, yada öz milli valyutasının qarşılığında fonddan istənilən milli valyutanın alışı şəklində olur. Krediti istifadə edən ölkələr aldığı xarici valyutalara görə fondda yığılan milli valyutanın miqdarı üzərindən fonda faiz verirlər. BVF-nun kredit mənbəyi kredit hissəsindən olan borclanmalardır. Fonddan xarici valyuta ilə istənilən qədər SDR almaq mümkündür.

BVF-nin normal kredit mənbəyi kredit hissəsindən olan borclanmalardır. Üzvlər BVF-yə ilk dəfə üzv olarkən vəya kvotalarda bir artım olduqda kvotaların 25%-ə qədəri beynəlxalq rezerv valyutaları ilə 75%-nə görə isə özlərinin milli valyutası ilə fonda üzvlük haqqı verirlər. Kvotanın beynəlxalq rezerv valyuta ilə ödənən 25%-lik kursuna rezerv hissə adı verilir.

BVF-nin üzvlüyünə qəbul edilən hər yeni dövlət üçün kvota müəyyən edilir. Kvota bir çox cəhətdən əhəmiyyətlidir. Belə ki, üzv-

lərin fonda verdikləri üzvlük haqları, fonddakı səsvermə haqlarından çəkisi fonddan alınacaq kreditlər və onların kvotasından asılıdır. Kvotalar üzv ölkələrin milli gəlir və beynəlxalq ticarət həcmi kimi göstəricilərə əsaslanaraq müəyyən edilir.

Beynəlxalq Maliyyə Təşkilatlarının işində BBF-ilə yanaşı Asiya İnkişaf Bankında yaxından iştirak edir.

Asiya İnkişaf Bankı çoxtərəfli inkişaf bankıdır və onun 67 üzvü vardır, o cümlədən onlardan 48-i regionlarda, 19-u isə dünyanın digər hissəsində yerləşir. İnkişaf etməkdə olan üzv ölkələrinə kömək məqsədilə AİB siyasi dialoq, kreditlər, bərabərlik investisiyaları, zəmanətlər, qrantlar və texniki yardımlar kimi əsas vasitələrdən istifadə edir. Baş ofisi Filippində (Manila) yerləşir . 2014-cu ildə borc verilmiş məbləğ 14 milyard ABŞ dolları (93 layihə) olmuş, TY 267,2 milyon (313 layihə) və qrantla maliyyələşdirilən layihələr 1,11 milyard ABŞ dolları (64 layihə) olmuşdur. Bundan əlavə, 3,16 milyard ABŞ dolları məbləğində birbaşa əlavə dəyər kreditləri birgə maliyyələşdirilmişdir. Son 10 il ərzində (2005–2014-cu illər) AİB-in illik borcvermə məbləği orta hesabla 9,18 milyard ABŞ dolları təşkil edir, TY məbləği orta hesabla 245,7 milyon ABŞ dolları və qrantla maliyyələşdirilən layihələrin qiyməti 855,4 milyon ABŞ dollarına bərabərdir. 31 Dekabr 2014-cu il tarixinə artan rəqəmlər kreditlər üzrə 41 ölkədə 2206 layihə üçün 155,94 milyard ABŞ dolları, 315 qrant layihələri üçün 5,19 milyard ABŞ dolları və 6863 TY layihələri üçün 3,81 milyard ABŞ dolları olmuşdur.

Qloballaşma mərhələsində dünyada iqtisadi tənzimləmələr, təcrübə və maliyyə transferi istiqamətində bir neçə regional və qlobal iqtisadi təşkilatlar qurulmuşdur ki, bunlardan da biri Avropa Yenidənqurma və İnkişaf Bankıdır. Bu təşkilat Avropada iqtisadi tənzimləmələr, məlumat və maliyyə mənbələri transferi kimi əhəmiyyətli layihələri həyata keçirir. Avropa Yenidənqurma və İnkişaf Bankını (AYİB, ing. European Bank for Reconstruction and Development, EBRD)

—Beynəlxalq maliyyə təşkilatlarına daxidir. 1991-ci ildə 61 ölkənin və 2 beynəlxalq təşkilatın dəstəyi, Mərkəzi Avropa və Mərkəzi Asiya ölkələrinə kömək məqsədi ilə yaradılmışdır.Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) əsas ofisi Böyük Britaniyada yerləşir .

İslam İnkişaf Bankı üzv ölkələrin İqtisadi və sosial baxımdan inkişafını təmin etmək məqsədi ilə fəaliyyət göstərməktədir. İslam İnkişaf Bankının (İİB) - Beynəlxalq maliyyə institutunun əsası 1973-cü

ilin dekabrında Ciddədə keçirilən müsəlman ölkələri maliyyə nazirlərinin konfransında qəbul olunmuş bəyannaməyə əsasən qoyulmuşdur. Bank islam, şəriət qaydalarına riayət edən ölkələrə maliyyə yardımı göstərir. Bankın 55 üzvü var. Misal üçün, üzv ölkələrin həyata keçirmək istədikləri proqressiv investisiya layihələrinə maliyyə yardımı verir, lizinq yolu ilə iqtisadi və sosial infrastruktur sahələrinə qoyulan investisiyalara köməklik göstərir.

Keçid iqtisadiyyatlı ölkələrin beynəlxalq maliyyə institutları ilə əlaqələrinin formalaşması və inkişaf qanunauyğunluqları.

Beynəlxalq maliyyə institutlarının resursları üzvlərinin sərəncamına bir-birindən tədiyyə balansının kəsirinin maliyyələşdirilməsi probleminə, istiqamətləndikləri qərara, həmçinin sözügedən maliyyə qurumlarının irəli sürdüyü şərtlərin səviyyəsinə görə fərqlənən bir sıra üsul və mexanizmlər çərçivəsində daxil ola bilər. Maliyyə İnstitutlarının ümumi resurslarından istifadə üçün tətbiq olunan qayda-qanunlar bütün üzvlərə eyni cür şamil edilir. Razılaşma maddələrində xüsusi kateqoriyalar üzrə qurumların üzvlərinin heç bir təsnifatı yoxdur. Razılaşma maddələrində sənayecə inkişafına görə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin formal bölgüsü aparılmır. Halbuki bu cür formalı bölgü QATT, Ümumdünya Ticarət Təşkilatı və Dünya Bankı kimi beynəlxalq təşkilatlar üçün də xarakterikdir.

Dünya Bankının kredit siyasətindəki əsas yeri uzunmüddətli kreditlər tutur ki, bu kreditlər 20-25 illik müddətə verilir. Ortamüddətli kreditlər bankın kreditləri arasında çox az paya malikdir. Çünki kreditlərin çoxu investisiya qoyuluşu üçün istifadə edilir. Dünya Bankının tərkibində əlavə olaraq, 3 ixtisaslaşdırılmış təşkilat qurulmuşdur. Bunlardan biri İBRD-dir.

Tədqiqat və araşdırmalar ilk olaraq mərkəzdə aparılır. Ancaq kreditin verilməsində bəzi məsələlər olduğundan Dünya Bankı öz işçilərindən və ya tədqiqatçılardan təşkil edilən bir qrupu krediti tələb edən ölkəyə göndərərək yerində məlumat alır. Şərtlər müsbət olarsa, kredit müqaviləsi hazırlanaraq imzalanır. Dünya Bankı kredit açdıqdan sonra aparılan layihənin həyata keçirilməsinə yaxından nəzarət edir. Layihənin hər mərhələsindən sonra bir hesabat tələb edir. Dünya Bankı layihə kreditərinin xaricində bəzı texniki köməklərdə də iştirak edir. Bundan başqa üzv ölkələrin yüksək vəzifəli məmur və texniki personalına təhsil proqramları ilə də kömək edir.

## 2. Azərbaycanın beynəlxalq maliyyə qurumları ilə qarşılıqlı əlaqələrinin müasir vəziyyəti və onun qiymətləndirilməsi

Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyanın gündən-günə gücləndiyi bir şəraitdə ölkə iqtisadiyyatında baş verən proseslər beynəlxalq maliyyə və valyuta-kredit institutlarının təsirinə sistematik olaraq məruz qalır. Nə qədər yüksək səviyyədə milli iqtisàdiyyàt dünya təsərrüfatına inteqrasiya olursa, bir o qədər daxili mikroiqtisadi proseslər xarici şəraitin dəyişməsi ilə formalaşır.

1994-1995-ci illərin sonunda Azərbaycanda iqtisadi islahatların həyata keçirmək üçün BVF-nin malıyyə və texniki yardımlarından istifadə olunurdu. Bu zaman o respublikada makroiqtisadi siyasətin həyata keçirilməsi və tənzimləmə proqramların hazırlanması üzrə təkliflər mövcud idi. Məlumdur ki, bu təşkilatın əsas məqsədi, nizamnaməyə əsasən, tədiyyə balansgngn xroniki defisitini ilə mğöayiət olunan ölkələrə maliyyə yardımı göstərməkdir. İqtisadi islahatlar dövründə Azərbaycana verilmiş kreditin məbləği 1,5 mlrd. dolları ötüb keçmişdir.

**BVF-nin ayırdığı kreditlər, 1 yanvar 2012-ci il tarixində vəziyyəti**

| Kreditin adı | Kreditin valyutası | Kreditin məbləği | İmzalanma tarixi | İstifadə üçün faiz dərəcəsi |
|---|---|---|---|---|
| STV krediti | SDR | 58.5 | 19.04.95 | 5.0 |
| Stend-bay krediti | SDR | 58.5 | 17.11.95 | 5.0 |
| ESAF krediti | SDR | 93.6 | 20.12.96 | 0.5 |
| EFF krediti | SDR | 58.5 | 20.12.96 | 4.2 |
| SSFF krediti | SDR | 56.3 | 26.01.99 | 4 |

Beynəlxalq Valyuta Fondu öz maliyyə resurslarını üzv dövlətlərin istifadəsinə bir sıra məqsədli maliyyə mexnizmləri üzrə verir. İnkişaf səviyyəsindən asılı olmayaraq bütün üzv dövlətlər Fondun ümumi ehtiyatlarından onların BVF-da olan kvotaları çərçivəsində istifadə edə bilərlər. İqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələr isə bununla yanaşı, Fondun xüsusi mexanizmləri vasitəsilə verdiyi kreditlərdən də istifadə etmək hüququna malikdirlər. BVF-dən kredit ayrılması məsələsində ölkənin iqtisadi siyasəti və bu siyasətin reallaşmasını təmin

edən amillər mühüm rol oynayır. Ölkədə aparılan iqtisadi siyasət fondun ayrı-ayrı ölkələrə ayırdığı kreditlərin əsas istiqaməti ölkənin tədiyyə balansında yaranmış kəsirin azaldılması və kəsir həddinin müəyyən bir səviyyədə saxlanılmasına, maliyyə sabitliyinin, onun iqtisadi inkişafını təmin edən şəraitin yaradılması tam məşğulluğun əldə olunmasına və beynəlxalq ticarətdə və hesablaşmalarda məhdudiyyətlərin aradan qaldırılmasına yönəldili .

Azərbaycan Respublikası BVF-yə üzv qəbul edilən müddətdən respublikada iqtisadi islahatların həyata keçirilməsi istiqamətində fondun yaxından iştirakı ilə 6 proqram hazırlanmış və müvəffəqiyyətlə həyata keçirilmişdir.Azərbaycan Respublikası 18 sentyabr 1992-ci ildən BVF-nin üzvüdür. 1995-ci ildən başlayaraq BVF ölkəmizdə iqtisadi islahatların həyata keçirilməsində yaxından iştirak edir. Fonda üzv qəbul edilərkən respublikamızın ilkin kvotası 117 mln. SDR (168 mln. ABŞ dolları) olsa da, 2000-ci il yanvarın 28-dən etibarən kvotamıza yenidən baxılmış və artırılaraq 160,9 mln. SDR-ə çatdırılmışdır. Fonda üzv qəbul edilən müddətdən ölkəmizdə iqtisadi islahatların həyata keçirilməsi istiqamətində fondun bilavasitə iştirakı ilə müxtəlif proqramlar hazırlanmış və uğurla həyata keçirilmişdir.

BVF STF krediti üzrə Azərbaycana 1995-1996-cı illərdə 58,5 mln. SDR məbləğində vəsait təqdim edilmişdir. Ayrılmış kreditin təyinatı – bazar iqtisadiyyatına keçidlə əlaqədar islahatların maliyyələşdirilməsidir. Kredit orta hesabla 1,9-3,5% olmaqla (güzəşt müddəti 4,5 ildir) 10 il müddətinə verilmişdir. Kreditin 39,0 mln. SDR məbləğində olan hissəsi fonda qaytarılmışdır.

BVF ESAF krediti üzrə Azərbayana 1996-2014-cu illərdə beş yüz mln. SDR məbləğində vəsait ayırmışdır. Adı çəkilən kredit respublikamızın tədiyyə balansını gücləndirmək və bu balansın inkanlarını yaxşılaşdırmaq məqsədilə iqtisadi islahatlar proqramlarını həyata keçirmək üçün ayrılmışdır. Kredit illik 0,5% olmaqla (güzəşt müddəti 5,5 ildir) 12 il müddətinə verilmişdir. Kreditin 13,2 mln. SRD-i fonda qaytarılmışdır.

BVF "Stend-bay" krediti üzrə Azərbaycana 1995-ci ildə 58,5 mln. SDR məbləğində vəsait təqdim etmişdir. Ayrılmış kreditin məqsədi ölkəmizin tədiyyə balansında mövcud olan kəsirin maliyyələşdirilməsidir. Kredit orta illik 3-4,5% olmaqla (güzəşt müddəti 3 ildir) 6 il müddətinə ayrılmışdır. Adı çəkilən kredit növü üzrə alınan vəsait bütövlükdə BVF-yə qaytarılmışdır .

BVF SSFF krediti üzrə Azərbaycana 1999-cu ildə 56,3 mln.SDR məbləğində vəsait ayırmışdır. Kreditin əsas məqsədi həmin dövrdə Rusiya Federasiyasında baş vermiş iqtisadi böhranın və hiperinfilyasiyasının Azərbaycana göstərə biləcəyi ani neqativ təsirlərin qarşısının alınması olmuşdur. Kredit orta hesabla illik 1,9-3,5% olmaqla (güzəşt müddəti 3 ildir) 5 il müddətinə verilmişdir. Ayrılmış kreditdən 49,3 mln. SDR məbləğində olan hissəsi fonda qaytarılmışdır.

Azərbaycan hökumətinin BVF ilə xarici borcun və uzadılmış ödənişlərin limitləşdirilməsi sahəsində əməkdaşlığı tədiyyə balansının tənzimlənməsi baxımından vacib rol oynayır. Xərc borc limitləri Azərbaycan hökuməti tərəfindən təminat verilən və ya həyata keçirilən (bura hökumət adından iştirak edən Milli Bank və digər təşkilatlar da aiddir) qısamüddətli xarici borclar tətbiq edilir. Qısamüddətli borca bütün qısamüddətli öhdəliklər, həmçinin qızıl svopları (digər ölkələrin mərkəzi bankları ilə qızıl girovu əsasında kredit əldə etmək üzrə rəsmi saziş) daxil edilir. Lakin idxalın maliyyələşdirilməsi üçün adi kreditlər bu kateqoriyaya aid edilmir.

Uzadılmış ödənişlərə gəldikdə isə hansı ki, dövlət tərəfindən zəmanət almışdır. BVF-nin illik stabilləşmə proqramının reallaşdırılması müddətində buna bənzər borcların yaranmasına icazə verilmir. BVF nizamnaməsinə əsasən Azərbaycanın, həmçinin cari beynəlxalq əməliyyatlar üzrə ödəniş və köçürmələrin yaranmasına məhdudiyyətlərin qoyulması və gücləndirilməsi, valyuta kursu rejiminin dəyişdirilməsi, BVF-nin nizamnaməsinin XIII maddəsinə zidd olan ikitərəfli ödəniş sazişlərinin imzalanmasına yol verilmir. BVF-nin Azərbaycanda fəaliyyətinin əsas istiqaməti tədiyyə balansının stabilliyini qorumaq üçün kifayət qədər miqdara və keyfiyyətə malik olan valyuta rezervinin yaradılmasıdır. Tənzimləmə proqramının məqsədi neft konsorsiumları ilə əlaqədar olmayan üç aylıq idxalın maliyyələşdirilməsi üçün kifayət ədər həcmə malik rezervin formalaşdırılmasıdır. Bu məqsədlə Milli Bank daimi olaraq rezervlərin idarə olunması siyasətini mükəmməlləşdirməlidir.

Mərkəz Bankı valyuta aktivlərinin effektiv idarəsini həyata keçirmək üçün öz rezervlərini müxtəlif dönərli valyutalara və həmçinin ən güclü xarici bankların qiymətli kağızlarına investisiya etməlidirlər. BVF ilə razılaşmaya əsasən tədiyyə balansının maliyyələşdirilməsi üçün ehtiyatların minimum səviyyəsi hər kvartalda müəyyənləşdirilməlidir.

Xarici ticarət rejiminin liberallaşdırılması BVF-nin tövsiyə etdiyi tənzimləmə proqramının vacib kriteriyasını təşkil edir. Bu kriteriya ilə əlaqədar Azərbaycan hökuməti 1995-ci ildə Milli Bank valyuta gəlirlərinin bir hissəsini ixracatçılar tərəfindən satılması qanununu ləğv etdi. Sonra "stend-bay" (stand-buy) proqramının şərtlərinə əsasən strateji mallar üzrə (xüsusilə, enerji daşıyıcıları və pambıq) kvotalar və lisenziya tələblərini aradan qaldırdılar. Məhdudiyyətlər yalnız silah və dərman üzrə ticarətdə saxlanılır. 1996-cı ildə bütün idxal malları üzrə vahid gömrük rüsumu 15% (maşın və avadanlıq üzrə 5%) təyin olundu. Bununla belə valyuta rejiminin liberallaşması sahəsində də müsbət addımlar atılmışdır. Rezidentlər sərbəst suratdə cari əməliyyatları maliyyələşdirmək üçün xarici valyuta əldə etmək imkanı əldə etdilər.

Gələcəkdə kapitalın beynəlxalq hərəkətinə qoyulmuş bütün limitlər birdəfəlik götürüləcəkdir. Hal-hazırda qanunda nəzərdə tutulmuş bütün vergiləri ödədikdən sonra qeyri-rezidentlər öz mənfəətlərini ölkədən çıxara bilərlər.Makroiqtisadi tənzimləmə proqramının vacib hissəsindən biri fiskal siyasətinin şərtləşdirilməsidir. Bu büdcə defisitinin həm daxili və həm də xarici maliyyə mənbələrinin limitləşdirilməsini nəzərdə tutur. Makroiqtisadi tənzimləmə proqramının vacib hissəsindən biri fiskal siyasətinin şərtləşdirilməsidir. Bu büdcə defisitinin həm daxili və həm də xarici maliyyə mənbələrinin limitləödirilməsini nəzərdə tutur. Aparılan bu siyasət ana siyasətə kömək xarakteri daşıyır. Belə ki, büdcə xərclərinin vacib hissə təşkil etdiyi ümumi iqtisadi xərclərin azaldılması iqtisadi siyasətin vacib aləti hesab edilir. Çünki bu qısa müddətdə cari əməliyyatlar hesabının defisitinin aradan qaldırılmasına səbəb olur. Bu cür strategiyanın geniş diqqəti xarici borcun məhdudlaşdırılmasına yönəlmişdir. Belə ki, BVF-a əsasən tədiyyə balansının stabilliyi ilk növbədə xarici borcların aralığından asılıdır. Yuxarıda göstərdiyimiz kimi, BVF o ölkələrə kömək göstərir ki, həmin ölkələrdə tədiyyə bàlànsının xroniki defisiti mövcuddur. BVF-nin köməyi ilə hazırlanmış iqtisadi siyasətlər tədiyyə balansının möhkəmlənməsinə və ticarət defisitindən müsbət xarici ticarət balansına keçirilməsini təmin etməlidir. Bu cür sektorun mövcudluğu qiymətin formalaşmasından tutmuş istehsal və makroiqtisadi siyasətin strukturuna qədər iqtisadi sistemin bütün vacib xüsusiyyətlərinə təsir göstərir. Resursların belə istiqamətləndirilməsi iqtisadiyyatda struktur dəyişikliklərinin aparılmasını tələb edir. Buna oxşar proqram hal-hazırda Azərbaycanda həyata keçirilməkdədir. Proqramın məqsədi iqtisadiyat-

da resursların yenidən bölgüsünün sürətləndirilməsi və istehsal amillərinin mobilləşməsinin qarşısını alan hədlərin əmtəələr sektoruna istiqamət almasına şərait yaradır və bu prosesin dayandıra biləcək problemlərin fəaliyyətini yüngülləşdirir. Struktur dəyişiklikləri proqramı adətən aşağıdakı makroiqtisadi tədbirləri tələb edir.

1. Dövlət investisiya proqramının effektivliyinin artırılması, dövlət müəssisələrinin yenidən qurulması, bir çox ictimai müəssisələrin özəlləşdirilməsi də daxil olmaqla resursları dövlət sektorunda daha səmərəli istifadə olunmasını təmin etmək üzrə tədbirlər.

2. Xarici ticarətin liberallaşdırılması (ixrac sektorunun inkişafı və ticarətin məhdudlaşdıran tədbirlərin: tarif, kvota və s.-nin mənfi təsirlərini yüngülləşdirməsi), qiymətin əmələ gəlməsi sahəsində islahatların aparılması (xüsusilə, kənd təsərrüfatında və dövlət sektorunda) kimi iqtisadi stimulların gücləndirilməsi üzrə tədbirlər.

3. Gömrük və vergi kimi dövlətin vacib iqtisadi institutlarının möhkəmləndirilməsi.

Bu makroiqtisadi tədbirlərə, hansı ki, iqtisadiyyatda resursların yenidən bölgüsünün stimullaşdırılmasına istiqamətləndirilmişdir, adətən vergi rejiminin maliyyə-kredit siyasətinin gücləndirilməsi və s. də aid edilir.

Hal-hazırda Azərbaycanda Dünya Bankı ilə əlaqələrin düzgün təşkil edilməsinə xüsusi diqqət yetirilir. Belə ki, Dünya Bankının Azərbaycan Respublikasına ayırdığı kreditlərin əsas istiqaməti Azərbaycanda iqtisadi islahatların dəstəklənməsi, struktur dəyişikliklərin həyata keçirilməsi, yoxsulluğun azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramının nəzərdə tutduğu məqsədlərə nail olunmasına yönəldilmişdir. Belə ki, Dünya Bankı Azərbaycanda struktur dəyişikliklərinin həyata keçirilməsi, maliyyə, energetika, kənd təsərrüfatı, təhsil, mədəniyyət ekologiya, səhiyyə, irriqasiya, kommunal xidmət və digər sektorlar üzrə layihələrin maliyyələşdirilməsində iştirak edir.

Bundan əlavə, bu konfransda Dünya Bankı Azərbaycanın ortamüddətli iqtisadi göstəricilərinin ümidverici olduğunu, Azərbaycan hökuməti və Dünya Bankının əməkdaşlığı nəticəsində aqrar, sənaye, turizm və əczaçılık sektorlarında investisya imkanlarının artma meyillərini göstərdiyi bildirilmişdir. Ölkənin zəngin aqrar potensialı, geniş neft mənbələri və potensial olaraq güclü olan özəl sektoru investisiyaçılara əlverişli imkanlar vəd etməkdədir. Lakin Azərbaycanin potensialı daha çox onun təcili qiymət istiqrazı, sürətləndirilmiş struktur is-

lahatları və tədiyyə balansında tarazlıq üçün işlər aparılması istiqamətindəki iqtisadi islahatların planlı bir şəkildə həyata keçirildiyi qeyd edilmişdir. Hökumət BVF-nin yardımı ilə 1995-ci ilin əvvəlindən etibarən tam mənası ilə makroiqtisadi islahatlara başlamışdır.

Hal-hazırda Dünya Bankı Azərbaycan hökumətinin xarici investisiyaçıları təşviqetmə istiqamətindəki fəaliyyətlərini dəstəkləməktədir.

Belə ki, liberallaşma, özəl sektorun inkişafı, monopoliyanın aradan qaldırılması, yeni demonopolizasiya, ölkədə ən qısa zamanda sərbəst bazar iqtisadiyyatı sisteminin bərqərar edilməsi istiqamətindədir. Hökumət son 15 il ərzində siyasi və iqtisadi islahatlar mərhələsini müfəffəqiyyətlə başa çatdırmış və bunun nəticəsi olaraq ölkəyə xarici investisiya gəlməsi prosesi asanlaşmışdır. Bununla bərabər, xarici investisyaçıların haqlarını və öhdəliklərini müəyyən edən yeni qanun qəbul edilmişdir. Azərbaycan potensial xarici investisiyaçılar üçün bir çox imkanlar vəd etməkdədir. Bunlar istiqrazlı siyasi mühit, az maaşlı təcrübəli iş-gücü, əlverişli coğrafiyası olan mövqeyindən dolayı "yaxın" bazarlar imkanları və s. Bundan başqa, azad, sərbəst iqtisadi zonaların qurulması istiqamətində də bəzi addımlar atılmışdır.

Azərbaycanın ortamüddətli hədəfi ölkənin zəngin neft mənbələri və potensialı olaraq güclü olan özəl sektorunu əsas alaraq nəticənin müsbət olacağına əsas verməkdədir. 1994-cü ildə hökumət beynəlxalq neft şirkətləri ilə ölkənin neft yataqlarının işlənməsi və neft ixracının artırılması istiqamətində müqavilə imzalamışdır. Neft yataqlarına əlavə olaraq, Azərbaycan nəğd valyutayla satıla bilən pambıq sərvətinə sahib zəngin aqrar torpaqlara və qiymətli mədənlərə malikdir. Bundan başqa, ölkənin o qədər də yaxşı vəziyyətdə olmayan, böyük həcmli sənaye sektoru, azmaaşlı ixtisaslaşmış iş-gücü, əlverişli və ucuz xam maddə ehtiyatları vardır. Xarici investorlar üçün səhiyyə sektorunda, əczacılıq və turizm sektorlarnda əlverişli imkanlar və şərait yaradılmıştır .

Hökumət geniş özəlləşdirmə proqramını həyata keçirməyə başlamışdır. Özəlləşdirmə mərhələsində xarici investorların da iştirakına şərait yaradan qanunlar qəbul edilmişdir. Xarici investorlar yerli investorlarla eyni şərtlər daxilində özəlləşdirmədə iştirak edə bilərlər. Azərbaycanın MİGA-ya üzv olması xarici investorlar üçün daha geniş imkanlar yaratmışdır. Azərbaycanın İFC-ya üzv olması isə xarici investorların bu təşkilatlardan kredit almaq imkanı verdiyi üçün onların saylarını artırmışdır.

1995-ci ilin ilk aylarında bir çox malların qiymətləri sərbəstləşdirilmiş və maliyyə sektorunda bəzi reformların həyata keçirilməsinə başlanılmışdır. 1995-ci ilin ortalarında hökumət beynəlxalq arenada qəbul edilən stabilllik və struktur islahatları çərçivəsində bir sıra əsas qərarlar almışdır. İnflyasiyanın sürətinin düşməsi, büdcə kəsirinin azalması və ölkə valyuta vahidinin ABŞ dolları qarşısındakı kursunun sabit olması onu göstərir ki, stabillik proqramı bütün gücü ilə tətbiq edilməkdədir və artıq bunun bəzi müsbət nəticələri özünü göstərməkdədir. Özəlləşdirmə proqramının məqsədi isə dövlət müəssəsələrinin özəl sektora verilməsidir. Tenderlər vasitəsi ilə kiçikhəcmli müəssisələrin özəlləşdirilməsi artıq sona çatmışdır. Orta və büyük həcmli müəssisələrin özəlləşdirilməsi mərhələsi isə bütün sürəti ilə davam edir.

Ümumiyyətlə, Azərbaycan Respublikasına Dünya Bankı qrupuna daxil olan əsas iki təşkilat tərəfindən - Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən kreditlər ayrılır. İndiyə qədər həyata keçirilən SAC 1 və hazırda reallaşdırılması nəzərdə tutulan SAC 2 layihələri Beynəlxalq İnkişaf Assosiasiyasının hazırladığı layihələrdir. BİA–nın Azərbaycandakı fəaliyyəti çox genişdir. Belə ki, Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycanda maliyyə sektorunun inkişafı, bank sektorunda daxili və xarici rəqabətin inkişafı, qeyri- bank sektorunda olan boşluqları doldurmaq üçün birgə işin təşkili, yerli xüsusi banklara texniki yardım göstərməklə onların daha səmərəli və etibarlı maliyyə vasitəçisi olmasına kömək etmək, kiçik və orta sahibkarlığın inkişafına xüsusi kreditlər ayırmaq və xüsusi kreditlər vasitəsi ilə kənd təsərrüfatı sektorunun rəqabətqabiliyyətli sahələrinin inkişafına kömək etməkdən ibarətdir.

Bundan başqa, neft, qaz və onlarla bağlı sahələrə, xüsusilə, neft maşınqayırması sənayesinə səmərəli investisiyalar qoymaq və ictimai xidmət sahələrinin, xüsusilə, səhiyyə, təhsil və həmçinin sosial sektorun inkişafına yardım göstərmək məqsədləri də diqqət mərkəzindədir.

Hal-hazırda respublikanın enerji sektorunda Dünya Bankı təbii qaz sektorunun yenidənqurulması layihəsini həyata keçirməkdədır. Həmin layihə çərçivəsində bu sektorun əsas müəssisələrinin məhsuldarlığının artırılması və infrastrukturlarının inkişafı işlərinə köməklik edilməsi nəzərdə tutulur. Enerji sektorunda atılan əsas addımların böyük əhəmiyyəti vardır, çünki təbii qaz ölkədə istifadə edilən əsas yanacaq növüdür, idxal olunan təbii qazın qiyməti isə davamlı olaraq artmaqdadır. Bu sektorun olduqca köhnəlmiş, pis vəziyyətdə olan in-

frastrukturunın yenidən qurulması üçün bank tərəfindən hazırlanmış layihə çərçivəsində təbii qaz anbarlarının, paylama cihazlarının müasirləşdirilməsi, 2 yeni yeraltı qaz anbarının qurulması, istehsal və ticarət müəssisələrində qaz sayğaclarının yerləşdirilməsi və qaz xətlərinin mühafizəsı işinin işlək hala gətirilməsi kimi işlər görüləcəkdir.

Aqrar sektora gəldikdə isə Dünya Bankı sektorun analizinə başlamışdır və kolxoz və sovxozların yenidənqurulması mərhələsində köməklik etməyi planlaşdırır. Bu məqsədlə aqrar müəssisələrin özəlləşdirilməsi layihəsi hazırlanmış və həyata keçirilmişdir.

Dünya Bankı ölkə əhalisinin həyat səviyyəsinin yüksəldilməsi və yoxsulluğun azaldılması istiqamətində təcili işlərin və tədbirlərin görülməsində Azərbaycan hökumətinə lazımi köməkliyi göstərməkdədir. Yoxsulluğun aradan qaldırılması barədə dövlət proqramının hazırlanmasında Dünya Bankının fəaliyyəti inkar edilməzdir. Müharibə nəticəsində öz yaşayış yerlərindən məcburi didərgin düşmüş köçkünlərin yaşayış səviyyələrinin artırılması istiqamətində kompleks tədbirlər planının hazırlanmasında da bank hökumətlə birgə iş aparır və bu məqsədlə yenidənqurma layihəsi çərçivəsində 20 milyon dollarlık kredit ayırmışdır.

Dünya Bankı Beynəlxalq Valyuta Fondu ilə birlikdə Azərbaycanda Yoxsulluğun Azaldılması Strategiyasını da işləyib hazırlayıb.

Yoxsulluğun Azaldılması üzrə Strategiya Sənədi Beynəlxalq Valyuta Fondunun Şurası tərəfindən 2 iyul 2001-ci ildə Yoxsulluğun Azaldılması və İqtisadi Artım Mexanizmi (YAİAM) ilə birlikdə və 5 iyul 2001-ci ildə Dünya Bankının Şurası tərəfindən təsdiq olunmuşdur. Hökumət tamhəcmli YASS-ı 2002-ci ilin ortalarında başa çatdırmağı planlaşdırırdı və YASS-ın hazırlanması üzrə əhalinin bütün seqmentlərinə öz fikirlərini ifadə etməyə və məqsədlərini başa düşməklə onlara bağlanmağa imkan verən güclü iştirak yanaşmasından istifadə edir. Bu proses vaxt tələb edəcək və prosesi daha da gücləndirmək hesabına son məhsulu tələsdirməmək üçün ehtiyatlı olmaq lazımdır.

YASS-da əks olunmuş strategiya yoxsulluğun azaldılması və işsizliyi Azərbaycanın qarşısında duran ən çətin iqtisadi vəzifə kimi qiymətləndirir. Bu problemlərin həlli tarazlı artımı tələb edir ki, bu da öz növbəsində iqtisadi artımın həm gəlirlərin qaldırılması, həm də iş yerləri baxımından geniş bölüşdürülməsinin təmin olunmasını zəruri edir. Hökumətin proqramı enerji sektorundan kənarda resurslar imkan verdikcə biznes və məşğulluq vergi tutmasını tədricən azaltmaq vasitəsi

ilə cəlbedici investisiya mühiti yaratmaq niyyətini daşıyır. İslahatların məşğulluq və real gəlirlərin yüksəldilməsi və maliyə stabilliyi, təkmilləşmiş dövlət idarəetmə sektoru və kommunal xidmətləri və özəl sektorun inkişafı vasitəsi ilə ən yoxsul təbəqəni müdafiə etmək üçün sosial təhlükəsizlik şəbəkəsinin yaradılmasının sağlam əsasını təmin edəcəyi gözlənilir.

Hal-hazırda bu proqram başa çatmışdır və hökumətin elan etdiyi Yoxsulluğun Aradan Qaldırılması ilə bağlı Dövlət Proqramı üzrə işlərin 2005-ci ildə tamamlanmışdır. Bu istiqamətdə qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələr üzrə vergi dərəcələri azaldılmış, Azərbaycan rayonları üçün isə diferensial vergiqoyma tətbiq edilmişdir. 2003-cü il oktyabrın 15-də keçirilən Prezident seçkilərində ölkə başçısı seçilən cənab İlham Əliyev etdiyi çıxışında bundan sonra qeyri-neft sektorunun inkişafına və yoxsulluğun aradan qaldırılmasına xüsusi diqqət veriləcəyini bildirmişdir. Bu prosesdə prezidentin böyük səy və əzmlə həyata keçirilən proqramları öz nəticəsini vermiş və Dünya Bankının 2014, cü il məlumatlarına əsasən Azərbaycanda yoxsulluğun həcminin 40 faizdən 5 faizə qədər azalması bu istiqamətdəki uğurları sübut etmişdir.

Bütün bunlardan başqa, Dünya Bankı Azərbaycanda bir sıra başqa layihələr də həyata keçirir ki; Kənd Təsərrüfatının İnkişafı və Kredit Layihəsi, Təxirəsalınmaz Ekoloji Tədbirlər Layihəsi, Maliyyə Sektoruna Texniki Yardım Layihəsi, İnstitusional Quruculuğa Texniki Yardım Layihəsi, Qaz Sisteminin Bərpası Layihəsi, Təhsil Sektorunun İnkişafı Layihəsi, Yol Layihəsi və s. kimi layihələr aiddir.

Ümumiyyətlə, Dünya Bankının bu illər ərzində Azərbaycandakı fəaliyyətini müsbət qiymətləndirmək olar və bank gələcəkdə də Azərbaycana uzunmüddətli kreditlər ayırmağı nəzərdə tutur. Həmçinin Azərbaycan hökuməti də kreditlərin Dünya Bankı tərəfindən təsdiq edildikdən sonra tezliklə imzalanması və bu kreditlərin qüvvəyə minməsi üçün vacib şərtlərin heç bir ləngimə olmadan yerinə yetirilməsi məqsədi ilə zəruri tədbirlərin görülməsinə çalışır[13].

Dünya Bankının 2002-ci ilin oktyabr, dekabr, 2003-cü ilin yanvar, fevral missiyaları zamanı 10 illik Təhsil İslahatı Proqramının komponentləri müzakirə olunmuş və 2003-2009-ci illəri əhatə edən təhsil layihəsinə dair sənədlər hazırlanmışdır.

Birinci mərhələni əhatə edən Təhsil İslahatı Layihəsinin həyata keçirilməsi üçün Beynəlxalq İnkişaf Assosiasiyası tərəfindən 18 mil-

yon ABŞ dolları məbləğində güzəştli kredit ayrılmışdır. Azərbaycan hökumətinin layihədəki iştirak payı 2,8 milyon ABŞ dolları təşkil etməkdədir. Donor təşkilatı kimi Açıq Cəmiyyət İnstitutu öz maliyyə vəsaitinin qoyuluşu hesabına təxminən 200 min ABŞ dolları məbləğində layihəyə texniki yardım göstərmişdir .

Bakı-Ələt-Kürdəmir-Gəncə-Qazax-Gürcüstan sərhədi istiqamətində keçən Avropa- Qafqaz- Asiya- TRASEKA -"Böyük İpək Yolu" Transqafqaz avtomobil yolu dəhlizinin bərpasını maliyyələşdirmək üçün Azərbaycan hökuməti üzvləri ilə birgə çox faydalı danışıqlar aparmışdır. Belə ki, investorlar Ümumdünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Ərəb İqtisadi İnkişaf Küveyt Fondu, İslam İnkişaf Bankı, Səudiyyə İnkişaf Fondu, Asiya İnkişaf Fondu, Abu-Dabi Fondudur. Danışıqların nəticələrinə görə, 503 km-lik yolun yenidən qurulması, reabilitasiyası və tikintisinə təxminən 250 milyon dollar vəsait xərclənəcək. Bunun 41 milyon dolları (16%) Azərbaycan hökumətinin payına düşür. Azərbaycan hökuməti ilə Dünya Bankı arasında imzalanmış 48 milyon dollarlıq kredit sazişinə müvafiq olaraq 94 km uzunluğunda Gəncə-Qazax yolunun reabilitasiyasına başlanılmışdır. Hazırda 47 km-lik Bakı-Ələt yolunda Dövlət Büdcəsi hesabına əsaslı təmir işləri aparılmışdır. Dövlət Bankının layihəsinə uyğun olaraq Azərbaycanın Naxçıvan MR daxil olmaqla beş regionunda dünya standartlarına cavab verən sağlamlıq mərkəzləri tikiləcək. Layihə çərçivəsində çoxsaylı treyninq kursları da təşkil ediləcək, infeksiyalara qarşı mübarizə davam etdiriləcək. Hazırda bir neçə böyük həcmli layihə Azərbaycan hökuməti tərəfindən hazırlanıb Dövlət Bankı ilə müzakirə olunur. Dövlət Bankı Azərbaycanda islahatların inkişafı çərçivəsində iqtisadiyyatın inkişafı üçün böyük məbləğlərdə kredit verilməsi məsələsinə baxır. O cümlədən infrastrukturun özəlləşdirilməsinə xüsusi əhəmiyyət verilir. Enerji, kommunal xidmətlərin özəlləşdirilməsi sahəsində Dövlət Bankının böyük məbləğdə kredit verməsi üçün danışıqlar aparılır. Xəzər Dənizinin ehtiyatlarının bərpasından qaynaqlanan ehtiyacı qarşılamaq üçün qiymətli balıq nümunələrinin yetişdirilməsi məqsədilə hazırda Dünya Bankı tərəfindən maliyyələşdirilən balıq çoxaldan müəssisələrin yaradılması Proqramı həyata keçirilir. Xəzər Dənizi Hövzəsi ölkələri arasında əlaqələndirmə, biomüxtəliflik və mühafizə cəhdlərini asanlaşdırmaq üçün Xəzərin Ekoloji Proqramı yaradılmışdır. Xəzəryanı ölkələr prioritetləri müəyyənləşdirmək, regional strategiyanı yaratmaq və maliyyələşdirici qrupların diqqətini cəlb etmək üçün birlikdə işləməyə başlamışdır.

Xəzərin Ekoloji Proqramı (XƏP) beynəlxalq səviyyədə dəstəklənən və yardım göstərilən, regional, ümumiləşdirilmiş proqramdır ki, onun əsas məqsədi Xəzər dənizinin çirklənmiş mühitini xilas və bərpa etmək üçün regional əməkdaşlıqdır . Xəzərin Ekoloji Proqramının əsas vəzifələri aşağıdakıları əhatə edir: Regional Ətraf Mühit Roqramının İnkişafı, xüsusilə, onun Rəhbər Komitəsinin (RK), Proqram Əlaqələndirmə Şurasının (PƏŞ), Xəzər Dənizi ətrafında bir sıra Xəzər Regional Tematik Mərkəzləri (XRTM), Xəzər üzrə Maraqlı Qrupların yaradılması və nəticə etibarı ilə Xəzər Dənizi çərçivəsi üzrə Konvensiyanın formalaşması və təsdiqi ;

Transsərhəd problemlərinin həlli, su ilə əlaqədar ətraf mühit məsələləri və onların əsas nəticələri olan TransSərhəd Diaqnostitk Analizlərin (TDA) tamamlanması vasitəsilə, Xəzər Strateji Fəaliyyət Proqramı (XSFP) və Ətraf Mühit üzrə Milli Fəaliyyət Planlarının (ƏMMFP) formalaşması və təsdiqi;

Xəzərin Ətraf Mühit Proqramının (XƏMP) yüksək prioritet tədbirləri meyarlarına uyğun investisiya layihələrinin müyəyyənləşdirilməsi və ilkin hazırlanması vasitəsilə ehtiyatların səfərbərliyi. XƏMP - Xəzəryanı 5 ölkə- Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan arasında və beynəlxalq tərəf müqabillərlə, xüsusi ilə Aropa İttifaqı Tasis, BMTİP, BMTƏP və Dünya Bankı arasında əməkdaşlıqdır. Özəl sektor və digər beynəlxalq təşkilatlar da XƏMP–nın fəaliyyətlərində iştirak edirlər. XƏMP-nın əsas büdcəsi 15 milyon ABŞ dollarına bərabərdir. İlk maliyyə mənbələri Qlobal Ekoloji Fond və Avropa İttifaqı / Tasis tərəfindən müvafiq olaraq 8,4 milyon ABŞ dolları və 5,6 milyon ABŞ dolları təşkil edir. Qlobal Ekoloji Fondun maliyyələşdirilməsi BMTİP, BMTƏP və Dünya Bankı vasitəsi ilə həyata keçirilir. Bu üç təşkilat əlavə olaraq 3,8 milyon ABŞ dolları həcmində vəsait ayırıblar. Özəl sektorun payı 0,3 milyon ABŞ dolları həcmindədir. Xəzəryanı dövlətlər müvafiq kömək göstərməklə proqramın həyata keçirilməsində yaxından iştirak edirlər. XƏMP öz fəaliyyətinə 1998-ci ildə başlayıb və 2002-ci ilin axırına qədər davam etmişdir.

Azərbaycan hökuməti ilə Dünya Bankı arasında bağlanmış sazişə əsasən Xıllı Nərə Balıqartırma Zavodu üçün “Nərə” İctimai Fondu Respublikanın Maliyyə Nazirliyi, keçmiş İqtisadiyyat Nazirliyi, Dövlət Ekologiya Komitəsi və “Azərbalıq” Dövlət Konserni tərəfindən təsis edilmişdir. Bu fondun yaradılmasında əsas məqsəd Xəzər dənizində nərə balığı ehtiyatlarının artırılmasıdır. Layihənin reallaşması Azər-

baycanın Dünya bazarına balıq məhsulları (xüsusilə, qara kürü) çıxarılması kvotasının artmasına real şərait yaradacaqdır.

1 yanvar 2014-ci ilə qədər: Cəmi 60 layihə üçün təxminən 3 milyard 500 milyon Amerika dolları ayrılmışdır. 30 layihə hal-hazırda həyata keçirilmişdir. Ümumiyyətlə, 2014-ci ilin sonuna qədər Dünya Bankının Azərbaycanda "Milli su təchizatı və kanalizasiya xidmətləri" layihəsi, "Milli su təchizatı və kanalizasiya xidmətləri - II" layihəsi, "Magistral avtomobil yolu - II" layihəsi, "Magistral avtomobil yolu - III" layihəsi, "Kənd investisiya" layihəsi, "II Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi" layihəsi; "Elektrik ötürücü sisteminin bərpası" layihəsini maliyyələşdirməlidir. Bundan başqa, "Bərk məişət tullantıların vahid idarəçiliyi" layihəsi, "Təhsil sektorunun inkişafı - II" layihəsi, "Sosial müdafiənin inkişafı" layihəsi, "Səhiyyə sektorunda islahatlar - II" layihəsi, "Məcburi köçkünlərin iqtisadi inkişafına yardım" layihəsi, əhalinin içməli su təchizatı layihəsi və s. həyata keçiriləcək.

Bütövlükdə götürsək, Dünya Bankı tərəfindən 48 layihənin maliyyələşdirilməsi nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, həyata keçirilən layihələr içərisində kəndin inkişafı ilə bağlı olan layihələr müstəsna rol oynayır. Belə ki, Azərbaycanın kənd təsərrüfatı sektorunda aparılan islahatlar və struktur dəyişiklikləri ölkə əhalisinin təqribən 40%-ni təşkil edən ucqar bölgələrin yaşayış səviyyəsinin yüksəlməsində önəmli rol oynayır. Ümumi Daxili Məhsulun 26%-dən 30%-nə qədərini təşkil edən kənd təsərrüfatı sektorunda ölkə əhalisinin 36%-i işləyir. Kənd təsərrüfatı məhsulları toplam ixracatın 30%-ni təşkil edir ki, bu da əsasən pambıq və meyvə istehsalı sənayesidir. Hal-hazırdakı vəziyyətdə və yaxın gələcəkdə ixrac ediləcək neft məhsullarından gözlənilən valyuta gəlirlərinin artımını diqqətə almadan kənd təsərrüfatının məhsuldarlığını artırmaq lazımdır.

Qeyd etmək lazımdır ki, Dünya Bankı Azərbaycana ilk kreditini neft sektoruna 20 aprel 1995-ci ildə texniki yardım layihəsinin maliyyələşdirilməsi üçün açmışdır. 20.8 mln. ABŞ dolları məbləğində olan kredit Dünya Bankının əsas təşkilatlarından biri olan İDA tərəfindən təmin olunmuşdur. Bu kredit neft sektoruna xarici özəl sərmayələrin təşviq edilməsi məqsədi ilə tövsiyə xarakterli xidmətlərin göstərilməsi və Azərbaycanın neft sənayesindəki mövcud problemlərin aradan qaldırılması üçün istifadə olunmuşdur.

Azərbaycan dünyada ən qədim neft istehsal edən ərazilərdən biridir və 1950-ci ilə qədər keçmiş SSRİ-nin ən çox neft istehsal edən ərazisi mövqeyində olmuşdur. Ölkədə hələ də qiymətli neft yataqları vardır. Bu neft yataqlarının çoxu Xəzər dənizində yerləşir.

Dünya Bankı 19 iyul 1996-cı il tarixində qaz sisteminin yenidən qurulması proyektini maliyyələşdirmək üçün 20,2 mln. dollar həcmində kredit açmaq qərarını almışdır. Bu Azərbaycana ayrılan beşinci kreditdir. İDA fondları tərəfindən maliyyələşdirilən proyekt çərçivəsində hökumətə Azərbaycanın qaz verilmə şəbəkəsinin yenidən qurulması, qaz nəqli və istifadə edilməsində təsirin artırılması istiqamətində kömək etmişdir.

Təbii qaz Azərbaycanda istifadə olunan ən başlıca yanacaq vasitəsi olduğundan onun bazarda hazır olması iqtisadi fəaliyyətin bütün sahələri üçün çox önəmlidir. Buna görə də hökumət ölkənin təbii qaz təməlinin yaxşılaşdırılması və qaz istifadəsində səmərəliliyin artırılması məsələlərinə önəm vermişdir. Sovet İttifaqı dövründə bu sektora edilən inevstisiyaların çox olması ilə əlaqədar Azərbaycan dünyada ən yaxşı qazla təmin edilən ölkələrin sırasında idi. Bir vaxtlar özünü qazla tamamilə təmin edə bilən Azərdbaycan son illərdə benzin və qaz istehsalındakı azalışlara görə artan tələbləri qarşılamaq üçün təbii qaz idxal etmək məcburiyyətində qalmışdır. Keçmiş Sovet İttifaqının bir çox ölkəsində olduğu kimi Azərbaycanda da qazın verilməsi və nəqli alt sektorların yenidən qurulması və modernizasiyası üçün önəmli investisiya qoyuluşlarına ehtiyacları doğurmuşdur. Bir çox ticarət və sənaye qaz istehlakçılarının qaz sayğacları yoxdur, evlərdə isə qaz sayğacları tamamilə yoxdur. Bunun nəticəsində isə toplam qaz istehlakının 15%-i istehlakçıların hesabına yazılmadan işlədilir.

Bütün qaz nəqli və paylanmasını təşkil edən milli qaz şirkəti - Azəriqaz ucuz satış qiymətləri və böyük miqdarda ödənilməmiş borclara görə maliyyə sıxıntıları çəkmişdir. Son illərdə ölkə tərəfindən idxal edilən qazın qiymətinin artması da hökuməti qaz sektorunda dəyişikliklər edilməsinin məcburi olduğuna inandırmışdır.

Bank tərəfindən dəstəklənən bu layihə yeni qoruma sisteminin inkişafı yolu ilə boru xətlərinin dəyişdirilməsi xərclərini azaldaraq, Azərbaycana böyük iqtisadi faydalar verəcəkdir. Buna əlavə olaraq, sayğacların yerləşdirilməsi, köhnəlmiş və dağılmış boruların dəyişdirilməsi və qaz sızıntılarının azaldılması yoluyla qaz istehlakının yararlığını artıracaqdır.

Bundan başqa, layihə Azəriqazın ticari əsaslarla işləyən bir quruma çevrilməsini yüngülləşdirəcək və sektor üçün qanuni əsasın qurulmasına yardım edəcəkdir. Bütün bunlar sərbəst bazar iqtisadiyyatı qaydalarına uyğun olan sektoral təşkilatlanmanın ilk önəmli addımlarıdır və gələcəkdə bu sektora özəl sektorun yönəlməsini təmin edəcəkdir.

## 3. Azərbaycanın digər beynəlxalq maliyyə təşkilatlari ilə əlaqələrinin mövcud durumu və onun inkişaf istiqamətləri

Hal-hazırda qloballaşma mərhələsində dünyada iqtisadi tənzimləmələr, təcrübə və maliyyə transferi istiqamətində bir neçə regional və qlobal iqtisadi təşkilatlar qurulmuşdur ki, bunlardan biri də Avropa Yenidənqurma və İnkişaf Bankıdır. Bu təşkilat Avropada iqtisadi tənzimləmələr, məlumat və maliyyə mənbələri transferi kimi əhəmiyyətli layihələri həyata keçirir. Azərbaycan 1992-ci il 25 sentyabrdan üzv olmuşdur.Azərbaycan AYİB-in "İlkin keçid iqtisadiyyatlı ölkələr təşəbbüsü" Proqramına daxildir. Bu təşəbbüsün məqsədi 2004-cü ilin aprel ayından başlayaraq zəif inkişaf etmiş yeddi ölkəyə ayrılan investisiyaların həcmini artırmaqdır. Təşəbbüs MDB ölkələrində yoxsulluğun azaldılması istiqamətində beynəlxalq cəhdlərin əsasında formalaşmışdır. Bu təşəbbüs çərçivəsində AYİB öz cəhdlərini özəl sektorda biznesin inkişaf etdirilməsi, bu sahədə iqtisadi islahatların aparılması, kiçik layihələrin maliyyələşməsi və s. üzrə cəmləşdirəcək.

Ümumilikdə isə AYİB Azərbaycanla əməkdaşlığı dövrü ərzində 110 layihə üzrə 1,6 mlrd. dollar məbləğində vəsait ayırıb ki, bundan 70 layihə maliyyə sektorunda həyata keçirilir.AYİB Azərbaycanda 9 bank, 6 mikromaliyyə institutu və 3 qeyri-bank maliyyə institutu ilə əməkdaşlıq edir. Bu günədək AYİB əməkdaşlıq etdiyi maliyyə institutlarına 69 kredit xətti və kapital qoyuluşu vasitəsilə 223 milyon ABŞ dolları məbləğində vəsait yatırmışdır. Bankın Azərbaycandakı fəaliyyətinin 50%-i enerji sektoruna, 25% maliyyə sektoruna, 6%-i mikromaliyyə , 3%-i qeyri-bank təşkilatlarına və 5%-i koorperasiya sektoru üzrə həyata keçirilir. AYİB bir sıra bankların institusional inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə onlara maliyyə və texniki yardımlar göstərir. Bank daha böyük, daha müxtəlifləşdirilmiş və daha davamlı bankların inkişaf etdirilməsi məqsədilə mövcud və yeni partnyor banklara kredit xəttləri, sindikatlaşdırılmış və subordinasiyalı kreditlər təmin edir. Bununla yanaşı, AYİB qeyri-bank mikro – maliy-

yə qurumlarını, habelə lizinq və sığorta şirkətlərini də dəstəkləməkdədir .

Azərbaycan Respublikası hökumətinin zəmanəti ilə ölkədə yenidən qurma və ölkə iqtisadiyyatının müxtəlif sahələrinin inkişafını maliyyələşdirmək üçün AYİB ilə bir neçə müqavilə imzalanmışdır. Bu müqavilələrdə Yenikənd (53 milyon dollar) və Mingəçəvir (22 milyon dollar ) su elektrik stansiyalarının inşası, Bakının su təçhizatı lahiyəsinin həyata keçirilməsi (23 milyon dollar) və Binə Aeroportunda aeronaviqasiya sisteminin qurulması (13.7 milyon dollar) üçün 111.7 milyon məbləğində vəsait ayrılması planlaşdırılmışdır. AYİB ilə yeni kredit müqavilələrinin bağlanması istiqamətində işlər davam etdirilir. Qeyd etmək lazımdır ki, bu kredit qruplarından alınan kreditlər geri ödənilməsinə 5 il vaxt verilməklə, 15 il müddətinə ödənilməlidir. Onların illik faiz dərəcəsi beynəlxalq kredit bazarlarında qəbul olunmuş şərtlərə uyğundur.

AYİB-nin Azərbaycanda həyata kezirdiyi və həyata keçirmək istədiyi Proqramlardan biri də bankın Azəbaycanda "Sərmayə Bankı" qurmaq Proqramıdır. Belə bir bankın yaradılmasında ən əsas məqsəd kiçik və orta müəssisələrin inkişafına kömək etmək üçün onlara kredit verməkdən ibarətdir. Artıq bu istiqamətdə hökumətlə bir sıra razılıqlar əldə olunmuşdur. Beləliklə, Azərbaycanın bazar iqtisadiyyatına keçid mərhələsində Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığı hər gün daha da inkişaf etməkdədir. Bundan sonrakı illərdə bu əməkdaşların daha da güclənəcəyi şübhəsizdir. Ölkənin iqtisadi siyasəti bu istiqamətdə qurulmaqda və beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlara hər zaman böyük əhəmiyyət verilməkdədir. AYİB Azərbaycanda "İnvestisiya Bankı"-nı formalaşdırmaq fikrindədir. Belə bir bankın qurulmasının məqsədi kiçik və orta sahibkarlığın inkişafına yardım etmək, onların kredit almalarlarına mönbit şərait yaratmaqdır. Artıq bu istiqamətdə hökumətlə razılıq əldə olunmuşdur. AYİB və Beynəlxalq Maliyyə Təşkilatı bir başqa müqavilə ilə ölkədə GSM şəbəkəsinin genişləndirilməsi və inkişafı üçün və Azercell şirkətinin borclarının ödənilməsi üçün 100 milyon dollar məbləğində kredit ayırmışdır. Müqaviləyə görə verilən kredit 2007-ci ilə qədər verilməlidir. AYİB, "Trans-Qafqaz dəmiryolu sisteminin yenidənqurulması" Proqramının həyata keçirilməsi üçün 20.2 milyon dollar kredit ayırmışdır. Qeyd etmək lazımdır ki, son dövrdə Azərbaycan və İslam İnkişaf Banki münasibətləri daha da inkişaf etmişdir.

Belə ki, İslam İnkişaf Bankı üzv ölkələrin İqtisadi və sosial baxımdan inkişafını təmin etmək məqsədi ilə fəaliyyət göstərməkdədir. Misal üçün, üzv ölkələrin həyata keçirmək istədikləri proqressiv investisiya layihələrinə maliyyə yardımı verir, lizinq yolu ilə iqtisadi və sosial infrastruktur sahələrinə qoyulan investisiyalara köməklik göstərir. Azərbaycan İslam İnkişaf Bankına 4 iyul 1992-ci ildə üzv olmuşdur.

İslam İnkişaf Bankı tərəfindən ayrılmış kreditlər hesabına son dövrdə, Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun tikintisi layihəsi, Yevlax-Gəncə avtomobil yolunun yenidənqurulması layihəsi, Mingəçevir SES-in yenidənqurulması layihəsi, Vəlvələçay-Taxtakörpü kanalının tikintisi layihəsi, "Şirvan şəhərində 780 Mvt gücündə Həmdövrəli Buxar-Qaz Elektrik Stansiyasının tikintisi" (Cənub) layihəsi reallaşmışdır.

İslam İnkişaf Bankı islam müasibətləri prinsipi çərçivəsində Azərbaycan kommersiya banklarına öz dəstəyini davam etdirir. Hal-hazırda Azərbaycanın 7 bankı (Turanbank, Azərbaycan Beynəlxalq Bankı, Rabitəbank, Unibank, Bank Standart, Kövsərbank, Əmrahbank) bu siyahıya daxildir. Bu banklardan təkcə 5-i İİB-in 20mln.$ maliyyə xəttindən istifadə edir. Azərbaycan üzrə İİB-in büdcəsi 150 milyon $-a yaxınlaşır. Amma 4 ilə kredit hesabına 200 mln.$ -dək yüksələcəyi gözlənilir.İslam İnkişaf Banlkı ilə aparılan danışıqlara əsasən Azərbaycanda iki layihənin – Ələt-Qazıməmməd avtomobil yolunun və Mil-Muğan kollektorunun tikintisinin həyata keçirilməsini maliyyələşdirmək məqsədi ilə razılıq əldə edilmişdir. Ümumi dəyəri 12.5 milyon dollar olan birinci layihə üçün ayrılan kreditin geri ödənmə müddəti 20 il və məbləği 9.6 milyon dollar olan ikinci layihə üçün ayrılan kreditin geri ödənmə tarixi isə 25.5 ildir. Azərbaycanın müstəqilliyini yeni qazanmış müsəlman bir ölkə olması İİB-nı ölkəyə geniş investisiyalar qoymağa təşviq etmişdir. Bankın ən əsas məqsədi üzv ölkələrin və digər müsəlman əhalisinin sosial, iqtisadi inkişafına yardım etmək məqsədilə bu ölkədə sosial iqtisadi tərəqqiyə çatmaq olmuşdur. İİB Azərbaycanda həyata keçirilən bir çox iqtisadi layihələri maliyyələşdirmək məqsədi ilə ölkəyə 43.000.000 İslam Dinarı ($57.907.000) həcmində müxtəlif kredit, qrant və texniki yardımlar etmişdir. Bunlara misal olaraq “Mil-Muğan kollektor kanalının inşası”,

"Hanarıhlı kanalının inşası", "Ələt-Qazıməmməd yolunun inşası", "Mingeçevir SES" və s. layihələrin həyata keçirilməsində İİB-nın böyük köməkliyi olmuşdur. İslam İnkişaf Bankı yoxsulluğun azaldılması və aradan qaldırılması layihəsi çərçivəsində Azərbaycana 557 min dollar qrant ayırmışdır. Bu proqrama Azərbaycan hökuməti tərəfindən də 115 min dollar ayrılmıştır. İslam İnkişaf Bankı Azərbaycana digər sahələrdə da investisiyaların maliyyələşməsi üçün kreditlər vermiş, müxtəlif layihələrə köməklik etmişdir. Misal üçün, İslam İnkişaf Bankı Azərbaycana təyyarə angarlarının inşası üçün 287 milyon dollar kredit ayırmışdır.

Son dövrdə Azərbaycan və Qara Dəniz Ticarət və İnkişaf Banki ilə münasibətləri xeyli yaxşılaşmışdır. 1993-cü ildə yaranmış Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının Qara Dəniz hövzəsinin 11 ölkəsinin – Albaniya, Ermənistan, Azərbaycan, Bolqarıstan, Gürcüstan, Yunanıstan, Moldova, Rumınya, Rusiya, Türkiyə və Uykraynanın parlamentarilərini birləşdirməkdədir. Misir və İsrail parlamentariləri təşkilatda müşahidəçi statusuna sahibdirlər. Hər 6 aydan bir Assambleyanın başçıları əlifba sırasına görə dövretmə əsasında bir-birlərini əvəz etməkdədirlər.

24 yanvar 1997-ci ildə Bank regional əməkdaşlığın inkişaf prinsiplərini dəstəkləyərək üzv ölkələrdə layihələrin maliyyələşdirilməsində və səhm kapitalında iştirakla bağlı layihələrin reallaşmasını həyata keçirir. Qara Dəniz Ticarət və İnkişaf Bankı 1 milyard SDR (təqribən 1,5 mlrd. ABŞ dollar . Azərbaycanın səhm payı 2% təşkil edir). Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya Federasiyası, Türkiyə, Yunanıstan və Ukraynanın üzv olduğu bank dövlət zəmanəti ilə kreditləri 10 il müddətinə, 3 ili güzəştli müddət və illik faiz dərəcəsi Libor+1% olmaqla təqdim edir. Azərbaycan 11 üzv-ölkə arasında 2-ci ölkədir ki, kredit resursları alır. Buna səbəb bütövlükdə bank sistemin etibarlı olmasıdır. QDTİB vasitəsi ilə Azərbaycan banklarına ipoteka kreditləri üçün 10 mln. dollar (10,3%), ticarətin maliyyələşdirilməsinə 47 mln. dollar (48,5%), kiçik və orta sahibkarlığın maliyyələşdirilməsinə 24 mln. dollar (24,7%) və çoxməqsədli kreditlər üçün 16 mln. dollar (16,5%) vəsait ayrılıb.

Beynəlxalq maliyyə təşkilatları ilə əlaqədə Asiya İnkişaf Bankı ilə əməkdaşlıq məsələsi mühüm rol oynayır. Azərbaycan Respublikası

29 oktyabr 1999-cu ildə Asiya İnkişaf Bankının üzvlüyünə qəbul olunmuşdur. Bankın Azərbaycandakı fəaliyyətinin strateji istiqamətləri yoxsulluğun azaldılması və qeyri-neft sektorunun inkişafının dəstəklənməsidir. AİB-in Azərbaycanda fəaliyyəti yalnız 2000-ci ildə başlamışdır və AİB tərəfindən birbaşa maliyyələşdirilən və idarəedilən layihələrin bir çoxu yoxsulluğun azaldılmasına əhəmiyyətli təsir etmişdir. AİB Mingəçevirdə məcburi köçkünlərin cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə pilot layihə üçün Yoxsulluğun Azaldılması Üzrə Yaponiya Fondundan 2,5 milyon qrant vəsait ayırmışdır. Layihə nəticəsində evlərinin təkmilləşdirilməsi və iş yerlərinin açılması ilə 412-dən çox ailənin yaşayış şəraitində əhəmiyyətli dəyişikliklər yarandı. Bununla 12000 nəfər əhali faydalanmışdır ki, onların 73%-ni yoxsullar təşkil etmişdir. Yoxsulluq səviyyəsi respublikanın orta yoxsulluq səviyyəsindən əhəmiyyətli dərəcədə yüksək olan dörd daşqına meyilli ərazilərdə 12 rayonun mühafizəsi üçün tədbirlərin görülməsi məqsədilə 2003-cü ildə Asiya İnkişaf Fondundan 22 milyon ABŞ dolları məbləğində kredit təsdiq edilmişdir. Layihə çərçivəsində beş şəhər və 43 kənd mühafizə olunacaq və 76790 ha daşqına məruz qalan ərazilərdə yaşayan 200000 nəfərdən çox əhalinin yaşayış səviyyəsi gücləndiriləcəkdir. Bunun nəticəsində daşqın səbəbindən baş verən 4,83 milyon ABŞ dolları məbləğində illik itkilərin qarşısı alınacaqdır. Üç şəhərdə əhalini, sənaye müəssisələrini və kiçik sahibkarları təkmilləşdirilmiş su təchizatı və kanalizasiya sistemi ilə təmin etmək məqsədilə 2004-cü ildə cəmi 30 milyon ABŞ dolları məbləğində iki kredit təsdiq edilmişdir. Layihə nəticəsində 110000 nəfər əhali faydalanacaqdır. 2005-ci ildə AİB Şərq-Qərb Avtomagistral Yolunun təkmilləşdirilməsi üçün cəmi 52 milyon ABŞ dolları məbləğində iki kredit təsdiq etmişdir. Layihə çərçivəsində avtomagistralın 127 kilometr (km) uzunluğunda Yevlax-Gəncə və Qazax-Gürcüstan sərhədi hissəsi və 65 km birləşdirici yerli yollar bərpa ediləcək, eləcə də sektorda institusional imkanları gücləndirmək üçün siyasi islahatların aparılmasına dəstək veriləcəkdir. 2006-cı ildə AİB özəl sektorda fəaliyyətə başladı və seçilmiş xüsusi kommersiya banklarına cəmi 10 milyon ABŞ dollar məbləğində kreditlər və bərabərlik investisiyalarını təsdiq etdi. 2007-ci ildə AİB bəzi aparıcı banklara cəmi 56 milyon ABŞ dolları məbləğində üç kredit təsdiq etmişdir. Bank of Bakuya verilmiş 6 milyon

ABŞ dolları məbləğində kredit SME-lərin maliyyələşdirilməsi üçün imkanları artıracaqdır. Bank Respublikaya verilmiş 10 milyon ABŞ dolları məbləğində subordinativ kredit onun kapital bazasını gücləndirəcək və Azərbaycan Beynəlxalq Bankına verilmiş 40 milyon ABŞ dollar məbləğində subordinativ kredit Azərbaycanda geniş maliyyə vasitəçiliyini təmin etməklə onun borc vermə imkanlarını artıracaqdır. Dövlət sektorunda isə AİB Azərbaycanda Yol Şəbəkəsinin İnkişafı Proqramı üçün 500 milyon ABŞ dolları məbləğində ÇMM-ni təsdiq etmiş və bunun 200 milyon ABŞ dolları məbləğində birinci transı Masallı – Astara Avtomagistralının tikintisini maliyələşdirmək üçün nəzərdə tutulmuşdur. 2008-ci ildə AİB Böyük Bankının elektrik təchizatını təkmilləşdirmək üçün iki əsas elektrik ötürücü xəttinin bərpa edilməsi üçün 160 milyon ABŞ dolları məbləğində və Gəncə dolama yolunun təkmilləşdirilməsi üçün 55,4 milyon ABŞ dollar məbləğində kredit təsdiq etmişdir. 2009-cu ildə AİB Su təchizatı və kanalizasiya investisiya proqramı üçün 600 milyon ABŞ dolları məbləğində ÇMM-ni təsdiq etmiş və Göyçay, Naxçıvan şəhərlərində su təchizatı və kanaliziasiya infrastrukturunun bərpası üçün 75 milyon ABŞ dollar məbləğində birinci krediti ayırmışdır. Uzunmüddətli əməliyyatların səmərəliliyini və maliyyələşmənin etibarlılığını təmin etmək məqsədilə bu kredit çərçivəsində həmçinin institusional islahatlar və bacarıqların gücləndirilməsi tədbirləri də maliyyələşdiriləcəkdir. İnvestisiya proqramında təqribən 500000 nəfər əhali üçün təchiz edilən suyun və kanalizasiya xidmətlərinin keyfiyyəti, əhatə dairəsi və davamlılığı inkişaf etdiriləcəkdir.

Qeyd etmək lazımdır ki, son dövrdə Azərbaycan dövləti dünya dövlətləri ilə əlaqələrin genişləndirilməsinə geniş əhəmiyyət verir. Artıq Azərbaycan xarici ölkə və İqtisadi birliklərlə qarşılıqlı ticarət imkanlarına qovuşmuşdur. Hazırda Azərbaycan Respublikası, başda keçmiş Şərqi Avropa ölkələri Macarıstan, Polşa, Bolqarıstan, Serbiya-Qaradağ olmaq üzrə Türkiyə, BƏƏ, İspaniya, Tailand, Belçika, İsveç, Çin, İngiltərə, ABŞ, Avstraliya, İran, Səudiyyə Ərəbistanı, və bu kimi bir çox ölkələrlə hərtərəfli ticarət münasibətləri qurmuşdur. Azərbaycan Respublikası xarici investisiyanın təşviq olunmasında Müstəqil Dövlətlər Birliyində əsas yerlərdən birini tutmaqdadır. Belə bir üstünlüyə malik olan Azərbaycan Respublikası, digər keçmiş Sovet İttifaqı

ölkələrinə nəzərən xarici sərmayə istiqamətində mənfi təsirə məruz qalmamaqdadır. Bu isə investisyanın bazar altstrukturunun inkişafında böyük rol oynamaqdadır.

Hal-hazırda Azərbaycan 5000-dən çox müəssisə və təşkilatla, 100-ə qədər ölkə ilə ticarət münasibətləri qurmuşdur. Azərbaycandan olan ixracın böyük hissəsi vasitəçi təşkilatlar tərəfindən həyata keçirilməkdədir. İxracın strukturunda enerji daşıyıcılarının və enerji tutumlu xammalların əhəmiyyəti böyükdür (85%). İdxalın isə böyük hissəsini qida məhsulları tutmaqdadır (65%). Hazırkı vəziyyətdə, Azərbaycan Respublikası beynəlxalq maliyyə-kredit təşkilatları ilə 57 layihə üzrə əməkdaşlıq etməkdədir. Həmin təşkilatlar içərisində əməkdaşlığın səviyyəsinə görə ilk yerləri Dünya Bankı və Beynəlxalq Valyuta Fondu tutur. Belə ki, 1 Yanvar 2013-ci il tarixinə qədər BVF-dən yalnız iqtisadi islahatların aparılmasına kömək məqsədi ilə 438.5 milyon dollar həcmində kredit alınmıştır. Dünya Bankının həm iqtisadi islahatların dəstəklənməsi, həm də investisiya layihələrinin maliyyələşdirilməsi məqsədilə ayırdığı kreditin həcmi isə 3 500 milyon dollardan çoxdur. Hər iki təşkilatın ayırdığı kreditlər güzəştli şərtləri ilə digərlərindən fərqlənir.

**1994-2013-cü illərdə Azərbaycan Respublikasının Beynəlxalq maliyyə kredit təşkilatlarından aldığı kreditlər (mln.dollar)**

| | |
|---|---|
| Dünya Bankı | 3 055 |
| Avropa Yenidənqurma və İnkişaf Bankı | 1 230 |
| Asiya İnkişaf Bankı | 1094 |
| Beynəlxalq Valyuta Fondu | 577 |
| Türk Exim Bankı | 150 |
| İslam İnkişaf Bankı | 780 |
| Diğər kommersiya bankları | 750 |
| Cəmi | 7636 |

Qeyd etmək lazımdır ki, Azərbaycan dövləti tərəfindən alınmış kreditlərin əksəriyyəti güzəştli kreditlərdir. (İllik 0,75 % 30-35 illiyinə) və ölkənin ödəmə qabiliyyətinə zərər vurmur. Ümumiyyətlə, Azərbaycan dövləti xarici borclarının vəziyyətinə və ÜDM-ə görə MDB ölkələri arasında qənaətbəxş mövqeyə sahibdir.1995-ci ildən etibarən 5 il müddətində Azərbaycan Dövləti ilə Beynəlxalq Valyuta Fondu arasında müsbət istiqamətdə əməkdaşlığın nəticəsi olaraq, onun maliyyə mənbələrindən 462,5 milyon ABŞ dolları məbləğində 0,5-5 % ilə uzunmüddətli kreditlər ayırmışdır. Azərbaycan Dövləti Beynəlxalq Valyuta Fondu ilə birlikdə son illərdə Dünya Bankı ilə də müqavilələr imzalayaraq, 1996-2000-ci illərdə həmin təşkilatdan 356,6 milyon ABŞ dolları həcmində kredit almış və ondan 220,0 milyon ABŞ dollarını istifadə etmişdir. Ölkə iqtisadiyyatının inkişafı, struktur islahatları, bank sisteminin yenidən qurulması, neft sektorunun və aqrar sektorun inkişafına texniki yardım proqramlarının və digər proqramların həyata keçirilməsi üçün lazım olan kreditlər çox əlverişli şərtlərlə verilmişdir. İllik kredit faizi 0,75 olmaqla geri qaytarılmasına 10 ildən sonra başlayaraq 35 illik bir müddət verilmişdir .

Azərbaycanın 2013-cü ilin dekabrına qədər aldığı kreditlərin 29%-i Dünya Bankının, 12%-i Avropa Yenidənqurma və İnkişaf Bankının, 5%-i Beynəlxalq Valyuta Fondunun, 10 %-i Asya İnkişaf Kredit Bankının, 20 %-i isə digər bankların payına düşür. Alınmış kreditlərin 3.587 milyon ABŞ dolları iqtisadi islahatların dəstəklənməsinə, 2 434,75 milyon ABŞ dolları məbləğində güzəştli və ticarət şərtləri ilə investisiya layihələrinin maliyyələşməsinə ayrılmışdır. Alınmış kreditlərin 67 %-nin geri qaytarılma müddəti 10 ildən 40 ilə qədər olmaqla yanaşı, həm də güzəştli şərtlərlədir. Hökumət zəmanəti ilə cəlb edilmiş kreditlərin orta illık faiz dərəcəsi 3,5 %, əsas borcun orta geri ödənmə müddəti isə 22 ildir ki, bu da kreditlərin daha çox güzəştli şərtlərlə alınmasından irəli gəlməkdədir.

Ölkədə sovetlər birliyinin dağılmasından sonra bazar iqtisadiyyatına keçməyə can atan ölkələrdə iqtisadi çətinliklər yarandı. Bu çətinlikləri aradan qaldırmaq üçün Beynəlxalq Valyuta Təşkilatı ilə sıx əməkdaşlığa ehtiyac duyulurdu. Azərbaycan Respublikası da belə təşkilatlarla sıx əməkdaşlığa başladı. Başda Beynəlxalq Valyuta Fondu olmaqla, Dünya Bankı, İslam İnkişaf Bankı və s. kimi təşki-

latlarla sıx əməkdaşlıq yuxarıda qeyd etdiyimiz dəyişikliklərə səbəb oldu.

Beynəxalq Valyuta Fondu və digər maliyyə təşkilatlarından alınan kreditlər, onların səmərəli istifadəsi nəticəsində respublikamızda çox sürətli inkişaf baş verdi və hal-hazırda da bu davam edir. Yuxarıda göstərdiyimiz rəqəmlər də bir daha təsdiq edir ki, 1995-ci ildən sonra Azərbaycan Respublikasının da çox sürətli inkişaf baş vermişdir və ölkəmiz indi dünyanın ən sürətli inkişaf edən ölkələrindən biridir. Onu da qeyd etmək lazımdır ki, bu inkişaf 2005-ci ildən sonra qat-qat daha çox özünü büruzə verəcək. Azərbaycan hökumətinin yeritdiyi uzaqgörən siyasətin nəticəsində ölkəmiz gündən-günə həm iqtisadi, həm də siyasi cəhətdən güclənir. Avropa və dünyanın bir çox ölkələri ilə sıx əməkdaşlıqş edən ölkəmizdə həyatın bütün sahələrində inkişaf xeyli dərəcədə artmış, insanların həyat səviyyəsi yaxşılaşmağa başlamışdır. Ölkəmizin Avropa ölkələri ilə sıx əməkdaşlığının çox müsbət nəticələr verəcəyinə hamımız əminik, çünki buradakı uğurlu adımlar həm siyasi, həm də iqtisadi inkişafa səbəb olacaq.

Belə bir faktı qeyd etmək lazımdır ki, 1993-cü il ərzində dövlət maliyyəsi və mərkəzi bankların əməliyyatları sayəsində BVF-nin texniki yardımının həyata keçirilməsi davam etdi.1992-ci ilin noyabr-dekabr aylarında BVF Azərbaycana Pul-bank statistikası, Tədiyyə balansı statistikası və dövlət maliyyəsi məsələləri ilə məşğul olan çoxməqsədli statistik missiya (diplomatik heyət) göndərdi. Bu statistik missiyaya missiyanın və təsnifatlandırma metodlarının, məlumatların mənbəyinin müəyyən edilməsi; məlumatların təsnifatına baxmaq və yeni məlumatlar tərtib etmək; məlumatların işlənilməsi və məşğul olan işçilərin əsaslı hazırlığının keçirilməsi daxildir.

Bu missiyanın fəaliyyəti 1993-cü ilin fevralınadək davam etdi, Azərbaycana BVF-nin missiyası Pul-kredit statistikası üzrə əvvəlki missiyaların tövsiyələrinin yerinə yetirilməsi imkanı, əvvəlki missiyalar zamanı işlənilmiş pul-kredit sferası üzrə məlumatların təhlili və islah edilməsi, Pul-kredit sferasının xülasəsini təşkil edən prinsiplərin öyrənilməsini həyata keçirməkdən ibarət idi.

Pul-bank statistikası üzrə BVF-nin daha bir missiyası 1994-cü ilin fevralında Azərbaycana gəldi. Bu missiya iqtisadiyyat sektoru üzrə pul-kredit hesablarının təsnifatını müfəssəl öyrəndi, həmçinin əsas pul

aqreqatlarının müəyyənləşdirilməsini dəqiqləşdirdi. Missiya həmçinin valyuta əməliyyatlarının qeydiyyatını və AMB balansında manatın emissiyasını öyrəndi. Missiya Əmanət bankının və Beynəlxalq bankın hesablarının sektorlara və kateqoriyalara bölünməsinin həyata keçirilməsi üzrə bir sıra tövsiyələr verdi.

1992-ci ildən DB və BVF üzv ölkələrinin bir neçə mərkəzi bankları ilə əməkdaşlıq edərək geniş texniki yardım proqramının realizasiyasına və AMB üçün kadrların hazırlığına başladı. Proqram aşağıdakı vacib sahələri əhatə etdi: Pul-kredit əməliyyatları, bank nəzarəti, tədiyyə sistemi, valyuta əməliyyatları, Pul-kredit sisteminin təhlili və bu sferanın tədqiqi, mühasibat uçotu və audit, milli valyutanın buraxılmasının texniki aspektləri.

1993-cü ilin fevralında BVF-nin missiyası manatın buraxılmasına texniki hazırlıq, Pul-kredit və valyuta əməliyyatları, tədiyyə sistemi, bank nəzarəti və mərkəzi bankın təşkilatlarının prinsipləri sahəsində yardım göstərdi.

1993-cü ilin avqustunda AMB-da hesabların yeni planlarının həyata keçirilməsi üzrə tövsiyələri təmin edən, mühasibat uçotu üzrə mütəxəssislər qrupu Azərbaycanda oldu.

1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması Beynəlxalq Valyuta Fondunu əmin etdi ki, Azərbaycan BVF qarşısında borclarını gələcəkdə ödəməyə imkanı olacaq və Azərbaycana çox vacib olan investisiya resurslarının qoyuluşunun artımını təmin edəcək.

1995-ci ilin əvvəllərindən etibarən DB və BVF-nin tövsiyələri və şərtləri əsasında Azərbaycanın həyata keçirməyə başladığı stabilləşdirmə və islahatların kompleks proqramı makroiqtisadi stabilləşdirmə işində mütəəsiredici nəticələrə nail olunmuşdur. STF xətti ilə verilən kreditlərin I transı ilə möhkəmləndirilmiş proqram inflyasiyanın templərinin 1994-cü ilin sonunda 50%-dən 1995-ci ilin sonuna yaxın 2,5% düşməsinə gətirib çıxardı.

Struktur siyasət sahəsində əsas diqqət maliyyə bölməsinin struktur yenidənqurulmasına, özəlləşdirmə sahəsində tez tərəqqinin əldə olunmasına və müəssisələrdə struktur dəyişikliklərin təcili başlanılmasına verilir.

Özəlləşdirməyə gəlincə isə demək lazımdır ki, 1995-ci ilin sonu üçün ən azı 8000 kiçik müəssisə və 1996-ci ilin martına kimi kütləvi özəlləşdirmə məqsədi ilə paylaşdırılmışdır. Müəssisələrin struktur ye-

nidənqurulması üzrə ölkə rəhbərliyi MDB-nin digər ölkələrindən əldə edilmiş təcrübənin nəzərə alınması ilə struktur dəyişiklikləri proqramını işləyib hazırlamaq fikrindədir. Bu proqramın həyata keçirilməsi nəticəsində hökumət böyük ziyanla işləyən müəssisələri aşkar etmək, işçilərin sayını ixtisar etmək və qeyri-iş qabiliyyətli istehsal xətləri və müəssisələrini bağlamaq fikrindədir. Güzəştlər sisteminin hərtərəfli islahatlarına başlanmışdır. Belə bir islahat saxlanılmaqla, sosial ehtiyac üzrə xərcləri məcmu daxili məhsulunun, 7-8%-i səviyyəsində saxlanılmaqla, sosial müdafiə sisteminin səmərəsinin əhəmiyyətli dərəcədə artması nəzərdə tutulur.

**ARİF ŞƏKƏRƏLİ oğlu ŞƏKƏRƏLİYEV,**
**QOŞQAR ARİF oğlu ŞƏKƏRƏLİYEV**

# AZƏRBAYCAN İQTİSADİYYATI: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

Formatı 70x100 1/16. F.ç.v. 33,5.
Tirajı 500

«Turxan» NPB MMC



**Şəkərəliyev Arif Şəkərəli oğlu** 1949-cu ildə müəllim ailəsində anadan olmuşdur. 1966-cı ildə Bakı Plan-uçot Texnikumunu fərqlənmə diplomu ilə bitirmişdir. 1970-lci ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunun «Sənayenin iqtisadiyyatı» fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

1976-cı ildə namizədlik dissertasiyasını və 1991- ci ildə Leninqrad Maliyyə İqtisad Universitetində doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1992-ci ildən professordur.

2000-ci ildən 2006-cı ilə qədər Az.DIU-nun Elmi işlər üzrə prorektoru vəzifəsini yerinə yetirmişdir.

2002-ci ildə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə «Əməkdar elm xadimi» fəxri adına layiq görülmüşdür.

Dövrü olaraq mətbuatdakı çıxışlarında Azərbaylcan dövlətinin reallıqlarını təbliğ etdiyinə görə 2002-ci ildə «Azərbaylcan Bayrağı» media mükafatına, 2003-cü ildə isə «Qızıl Qələm» mükafatına layiq görülmüşdür.

2001-ci ildən «Gömrük işinin təşkili» kafedrasının müdiri vəzifəsini yerinə yetirmişdir.

2009-cu ildən isə «Beynəlxalq ticarət» və «Gömrük işinin təşkili» kafedralarının bazası əsasında yaradılan «Beynəlxalq tilcarət və gömrük işi» kafedrasına rəhbərlik edir. Universitet Böyük elmi və ixtisaslaşdırılmış müdafiə şurasının müxtəlif vaxtlarda sədri olub və hal-hazırda üzvüdür.

2004-cü ildə Beynəlxalq Menecment Akademiyasına üzv seçilmişdir. 250-dən çox elmi məqalənin, 60-a yaxın dərslik, dərs vəsaitinin, monoqrafiyaların və 600-dən çox kütləvi publisistik məqalələrin müəllifidir. Qırxdan artıq elmlər namizədi və elmlər doktorunun dissertasiya işlərinə rəhbərlik etmiş və onlar müvəffəqiyyətlə müdafiə etmişlər.

Prof.A.Ş.Şəkərəliyev «Ümummilli Lider Heydər Əliyev: amalı yaratmaq, məramı qurmaq, məqsədi xalqına xidmət etmək olan ulu öndər» (2007), «Xidmət sahəsi: sosial-iqtisadi problemlər» (1990), «Bazarın mahiyyəti və quruluşu» (1992), «Bazar iqtisadiyyatı şəraitində xidmət sahələrinin inkişafı» (1993), «Beynəlxalq valyuta sistemi və valyuta məzənnəsi» (1993), «Dünya təsərrüfatının formalaşması və beynəlxalq bazarın təşəkkülü» (1994), «İqtisadi nəzəriyyə» (1995), (2000), «Azərbaycan iqtisadiyyatı» (1996), «Biznesin əsasları» (1996), «Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər»(1999), «İqtisadi təlimlər tarixi» (2001), «Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti» (2001), «Dünya iqtisadiyyatı: müasir dövrün problemləri» (2003), «Gömrük ekspertizası» (2003), «Gömrük işinin təşkili və idarə edilməsi» (2003), «Nobel mükafatı almış iqtisadçılar və onların nəzəriyyələri» (2004), «Daşınmaz əmlakın iqtisadiyyatı» (2004), «Sahibkarlıq fəaliyyətinin təşkili» (2006), «Xarici iqtisadi fəaliyyətin gömrük-tarif tənzimlənməsi» (2006), «Dövlətin iqtisadi siyasəti: reallıqlar və perspektivlər» (2009), «Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi» (2011), “Gömrük işinin təşkili və idarə edilməsi” (2015) kitablarının müəllifidir.



**Şəkərəliyev Qoşqar Arif oğlu** 1980-cı ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin “Maliyyə” ixtisasının bakalavr pilləsini, 2003-cü ildə isə Maliyyə ixtisası üzrə Magistratura pilləsini fərqlənmə diplomları ilə bitirmişdir. 2009-cu ildə “Müasir şəraitdə kommersiya banklarının investisiya fəaliyyəti və onun səmərəliliyinin yüksəldilməsi yolları“ (İxtisas:08.00.10-Maliyyə, pul tədavülü və kredit) mövzusunda namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsi almışdır.

2004-cü ildən Azərbaycan Dövlət İqtisad Universitetində müəllimlik vəzifəsini yerinə yetirir, hal-hazırda “Bank işi “ kafedrasında dosent vəzifəsini tutur. 20-dən zox elmi məqalənin müəllifidir. İngilis, rus və türk dillərini sərbəst bilir.